https://socialsciences.az/ ISSN: 2710-0820

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI

# SOSİAL ELMLƏR

НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА

# ОБЩЕСТВЕННЫЕ НАУКИ

AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES

# SOCIAL SCIENCES

№ 2

BAKI – "ELM" – 2025

**“Sosial elmlər” jurnalı Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi Mətbu nəşrlərin reyestri və Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası Rəyasət Heyətinin qərarı ilə “Azərbaycan Respublikasında dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyə edilən elmi nəşrlərin siyahısı” na daxil edilmişdir.**

**BAŞ REDAKTOR:**
**Nərgiz AXUNDOVA,** akademik

**BAŞ REDAKTORUN MÜAVİNİ:**
**Yaqub MAHMUDOV,** akademik

**MƏSUL KATİB:**
**Lamiyə QAFAR-ZADƏ,** tarix üzrə fəlsəfə doktoru, dosent

**REDAKSİYA HEYƏTİNİN ÜZVLƏRİ:**
İsmayıl Hacıyev (akademik), Nailə Vəlixanlı (akademik), Gövhər Baxşəliyeva (akademik), Şahin Mustafayev (akademik), Musa Qasımlı (AMEA-nın müxbir üzvü), Könül Bünyadzadə (AMEA-nın müxbir üzvü), İlham Məmmədzadə (fəlsəfə elmləri doktoru), Nazim İmanov (iqtisad elmləri doktoru), Aytən Mustafazadə (hüquq elmləri doktoru), Məryəm Seyidbəyli (tarix elmləri doktoru), Nəcəf Müseyibli (tarix elmləri doktoru), Ayxan Rüstəmzadə (hüquq elmləri doktoru), Əliağa Məmmədli (antropologiya elmləri doktoru).

**REDAKSİYA HEYƏTİNİN XARİCİ ÜZVLƏRİ:**
Selma Yel (doktor, professor, Türkiyə), Toğrul İsmayıl (doktor, professor, Türkiyə), İqor Turitsın (doktor, professor, Rusiya Federasiyası), Hakim Elnazarov (doktor, Böyük Britaniya), Djozgil Kim (professor, Cənubi Koreya), Jozef Tymanovski (doktor, professor, Polşa), Pavel Stavarz (doktor, Polşa), Meruyert Abuseitova (doktor, professor, Qazaxıstan).

**REDAKSİYANIN ÜNVANI:**
AZ1001, Azərbaycan Respublikası, Bakı şəh., İstiqlaliyyət küç., 30
Tel.: (+99412) 4925180; mob.: (+99455) 5581080
E-mail: socialsciences.anas@gmail.com
Website: https://socialsciences.az/

**ГЛАВНЫЙ РЕДАКТОР:**
**Наргиз АХУНДОВА,** академик

**ЗАМЕСТИТЕЛЬ ГЛАВНОГО РЕДАКТОРА:**
**Ягуб МАХМУДОВ,** академик

**ОТВЕТСТВЕННЫЙ СЕКРЕТАРЬ:**
**Ламия КАФАР-ЗАДЕ,** доктор философии по истории, доцент

**ЧЛЕНЫ РЕДАКЦИОННОЙ КОЛЛЕГИИ:**
Исмаил Гаджиев (академик), Наиля Велиханлы (академик), Говхар Бахшалиева (академик), Шахин Мустафаев (академик), Муса Гасымлы (член-корреспондент НАНА), Кёнуль Буньядзаде (член-корреспондент НАНА), Ильхам Мамедзаде (доктор философских наук), Назим Иманов (доктор экономических наук), Айтен Мустафазаде (доктор юридических наук), Марьям Сеидбейли (доктор исторических наук), Наджаф Мусейбли (доктор исторических наук), Айхан Рустамзаде (доктор юридических наук), Алиага Мамедли (доктор антропологических наук).

**ИНОСТРАННЫЕ ЧЛЕНЫ РЕДАКЦИОННОЙ КОЛЛЕГИИ:**
Сельма Йель (доктор, профессор, Турция), Тогрул Исмаил (доктор, профессор, Турция), Игорь Турицын (доктор, профессор, Российская Федерация), Хаким Эльназаров (доктор, Великобритания), Джозгил Ким (профессор, Южная Корея), Жозеф Тумановски (доктор, профессор, Польша), Павел Ставарз (доктор, Польша), Меруерт Абусеитова (доктор, профессор, Казахстан).

**АДРЕС РЕДАКЦИИ:**
AZ1001, Азербайджанская Республика, г. Баку, ул. Истиглалиййат, 30
Тел.: (+99412) 4925180; моб.: (+99455) 5581080
E-mail: socialsciences.anas@gmail.com
Website: https://socialsciences.az/

**EDITOR-IN-CHIEF:**
**Nargiz AKHUNDOVA,** Academician

**DEPUTY EDITOR-IN-CHIEF:**
**Yagub MAHMUDOV,** Academician

**EXECUTIVE SECRETARY:**
**Lamiya GAFAR-ZADA,** Doctor of Philosophy in History, Associate Professor

**EDITORIAL BOARD MEMBERS:**
Ismayil Hajiyev (Academician), Naila Velikhanli (Academician), Govhar Bakhshaliyeva (Academician), Shanin Mustafayev (Academician), Musa Gasimli (Corresponding member of ANAS), Konul Bunyadzada (Corresponding member of AN- AS), Ilham Mammadzada (Doctor of Philosofical Sciences), Nazim Imanov (Doctor of Economic Sciences), Ayten Mustafazada (Doctor of Juridical Sciences), Maryam Seyidbayli (Doctor of Historical Sciences), Najaf Museyibli (Doctor of Historical Sciences), Aykhan Rustamzada (Doctor of Juridical Sciences), Aliagha Mammadli (Doctor of Anthropological Sciences).

**FOREIGN MEMBERS OF EDITORIAL BOARD:**
Selma Yel (doctor, professor, Turkey), Toghrul Ismayil (doctor, professor, Turkey), Igor Turitsyn (doctor, professor, Russian Federation), Hakim Elnazarov (doctor, Great Britain), Djozgil Kim (professor, South Korea), Jozef Tymanowski (doctor, professor, Poland), Pawel Stawarz (doctor, Poland), Meruert Abuseitova (doctor, professor, Kazakhstan).

**EDITORIAL ADDRESS:**
AZ1001, Azerbaijan Republic, Baku, 30 Istiglaliyyat St.
Phone: (+99412) 4925180; mob.: (+99455) 5581080
Email address: socialsciences.anas@gmail.com
Website: https://socialsciences.az/

# MÜNDƏRİCAT


**TARİX**

**ELLADA BƏKİROVA.** ALBANİYA TARİXİNƏ QƏRBDƏN BAXIŞ: ƏVVƏL VƏ İNDİ ........ 8
**İSMAYIL HACIYEV.** NAXÇIVAN BÖLGƏSİNİN ETNİK TARİXİ VƏ MİLLİ TƏRKİBİNƏ DAİR ........ 18
**LALƏ AĞAMİRZƏ ƏLİYEVA.** KITABƏLƏR, DASTANLAR VƏ ŞƏCƏRƏLƏR: AZƏRBAYCAN ETNOGENEZİ ÜÇÜN TÜRK MƏTN DƏLİLLƏRİ ........ 26
**NƏRGİZ AXUNDOVA, AYDIN ƏLİ-ZADƏ.** ERKƏN ƏRƏB XİLAFƏTİNİN İDARƏÇİLİK SİYASƏTİNDƏ AZƏRBAYCAN VƏ ƏRƏB QƏBİLƏÇİLİYİ İLƏ ƏLAQƏLİ PROBLEMLƏR ........ 34
**NAZİM MUSTAFA.** İRƏVAN ŞƏHƏRİNDƏKİ AZƏRBAYCANLILARA MƏXSUS TARİXİ-MEMARLIQ İRS ERMƏNİ TƏDQİQATÇILARININ ƏSƏRLƏRİNDƏ ........ 40
**RAMİL AĞAYEV.** ƏRƏBDİLLİ MƏNBƏLƏR ARRANIN HÜDUDLARI HAQQINDA ........ 46
**RAFİQ SƏFƏROV.** XVIII ƏSRDƏ ŞİRVANIN TARİXİ COĞRAFİYASININ MƏSƏLƏLƏRİ VƏ ONUN SAXTALAŞDIRILMASI ........ 58
**SEVİNC RƏHİMOVA.** ZƏNGƏZUR DƏHLİZİNİN REGİONAL ƏHƏMİYYƏTİ ........ 74
**ŞÖLƏ MƏMMƏDOVA.** AZƏRBAYCANDA İSLAM TARİXİNİN ÖYRƏNİLMƏSİ PROBLEMİ VƏ TARİXŞÜNASLIQDA YANAŞMALAR ........ 82
**TURAN BABAYEVA.** IX-XI ƏSRLƏRDƏ AZƏRBAYCANDA DÖVLƏTÇİLİK ƏNƏNƏSİNİN DİRÇƏLMƏSİ (ŞİRVANŞAHLAR VƏ SACİLƏR KONTEKSTİNDƏ) ........ 88
**ZABİL BAYRAMLI, NURLAN NƏSİROV.** İBN BƏZZAZ ƏRDƏBİLİNİN "SƏFVƏTÜS - SƏFA" (SAFLIĞIN SAFLIĞI) ƏSƏRİNDƏ ŞEYX SƏFİƏDDİNİN MƏZHƏBİ VƏ ETNİK KİMLİK MƏSƏLƏSİ ........ 97

**ARXEOLOGİYA VƏ EPİQRAFİKA**

**ELMİRA CƏFƏROVA.** ENIXDA ARXEOLOJİ TƏDQİQATLAR ........ 106
**NƏCƏF MÜSEYİBLİ.** AZƏRBAYCANIN ƏN QƏDİM DÖVLƏTÇİLİK TARİXİ ARXEOLOJİ TƏDQİQATLARDA. ........ 113
**NURAY MƏMMƏDLİ.** NAXÇIVANDA ORTA TUNC DÖVRÜNÜN POLİXROM BOYALI KERAMİKA MƏMULATI. ........ 121
**SƏDAQƏT MƏMMƏDLİ.** BEYLƏQANIN YAZILI KERAMİKA NÜMUNƏLƏRİNİN EPİQRAFİK TƏHLİLİ ........ 128
**VƏLİ BAXŞƏLİYEV, RAFİA SOY, ELMAR BAXŞƏLİYEV.** XOCALI-GƏDƏBƏY MƏDƏNİYYƏTİNİN NAXÇIVANA YAYILMASI İLƏ BAĞLI YENİ TAPINTILAR ........ 135

**FƏLSƏFƏ VƏ HÜQUQ**

**LALƏ MƏMMƏDOVA**. HÜQUQİ ŞƏXSLƏR BARƏSİNDƏ CİNAYƏT-HÜQUQİ TƏDBİRLƏRİN TƏTBİQİ: AZƏRBAYCAN RESPUBLİKASINDA MADDİ VƏ PROSESSUAL HÜQUQİ ASPEKTLƏR ........ 151
**LEYLİ QULİYEVA.** AZƏRBAYCANÇILIQ İDEOLOGİYASI – GÜCLÜ DÖVLƏTİN ƏSASI VƏ ÖLKƏMİZİN UĞURLARININ TƏMİNATÇISIDIR ........ 161
**ORUC MƏMMƏDOV.** DÖVLƏT QULLUĞUNDA ƏMƏK MÜNASİBƏTLƏRİNİN HÜQUQİ PRİNSİPLƏRİ ........ 171

**SİYASİ ELMLƏR**

**ELNUR KƏLBİZADƏ.** İRAN-ERMƏNİSTAN İQTİSADİ ƏMƏKDAŞLIĞININ QEYRİ-ENERJİ SEKTORU KONTEKSTİNDƏ TƏHLİLİ VƏ SİYASİ MÜNASİBƏTLƏRƏ TƏSİRLƏRİ ........ 185
**XURAMAN HÜSEYNOVA.** ERMƏNİSTANDA HƏRBİ SAHƏNİN VƏZİYYƏTİ VƏ 44 GÜNLÜK MÜHARİBƏDƏN SONRA YARANMIŞ ŞƏRAİT ........ 194
**ŞERAZ MEHMUD.** DƏYİŞƏN DÜNYADA TƏHLÜKƏSİZLİK MƏSƏLƏLƏRİ ........ 205

**SOSİOLOGİYA**

**ARİF ƏLİ-ZADƏ.** SOSİAL ŞƏBƏKƏLƏRDƏ SOSİAL SÜBUT ........ 213
**ŞƏRQİYYƏ İMAMƏLİ.** İKİNCİ QARABAĞ MÜHARİBƏSİNDƏN SONRA ERMƏNİSTANDA MİQRASİYA SOSİAL PROBLEM KİMİ ........ 219

**PSİXOLOGİYA**

**SÜDABƏ HÜSEYNOVA.** SOYQIRIMI ZAMANI MÜŞAHİDƏ OLUNAN SADİST VƏ NEKROFİL DAVRANIŞLAR: PSİXOLOJİ TƏHLİL ........ 226

**PEDAQOGİKA**

**AYSEL MƏMMƏDOVA.** MƏKTƏBƏQDƏR TƏHSİLDƏ OYUN METODUNUN ROLU ........ 235

# СОДЕРЖАНИЕ


**ИСТОРИЯ**

**ЭЛЛАДА БЕКИРОВА.** ЗАПАДНОЕ ИСТОРИОГРАФИЧЕСКОЕ ВОСПРИЯТИЕ ИСТОРИИ АЛБАНИИ: ПРОШЛОЕ И НАСТОЯЩЕЕ ........ 8

**ИСМАИЛ ГАДЖИЕВ.** ОБ ЭТНИЧЕСКОЙ ИСТОРИИ И НАЦИОНАЛЬНОМ СОСТАВЕ НАХЧЫВАНСКОГО РЕГИОНА ........ 18

**ЛАЛА АГАМИРЗЕ АЛИЕВА.** НАДПИСИ, ЭПОСЫ И ГЕНЕАЛОГИИ: ТЮРКСКИЕ ТЕКСТОВЫЕ СВИДЕТЕЛЬСТВА ЭТНОГЕНЕЗА АЗЕРБАЙДЖАНЦЕВ ........ 26

**НАРГИЗ АХУНДОВА, АЙДЫН АЛИ-ЗАДЕ.** АЗЕРБАЙДЖАН И ПРОБЛЕМЫ АРАБСКОГО ПЛЕМЕННОГО СТРОЯ В ПОЛИТИКЕ РАННЕГО АРАБСКОГО ХАЛИФАТА ........ 34

**НАЗИМ МУСТАФА.** ИСТОРИКО-АРХИТЕКТУРНОЕ НАСЛЕДИЕ АЗЕРБАЙДЖАНЦЕВ В ГОРОДЕ ИРЕВАНА В ТРУДАХ АРМЯНСКИХ ИССЛЕДОВАТЕЛЕЙ ........ 40

**РАМИЛ АГАЕВ.** АРАБОЯЗЫЧНЫЕ ИСТОЧНИКИ О ГРАНИЦАХ АРРАНА ........ 46

**РАФИК САФАРОВ.** ВОПРОСЫ ИСТОРИЧЕСКОЙ ГЕОГРАФИИ ШИРВАНА В XVIII ВЕКЕ И ЕЕ ФАЛЬСИФИКАЦИЯ ........ 58

**СЕВИНДЖ РАГИМОВА**. РЕГИОНАЛЬНОЕ ЗНАЧЕНИЕ ЗАНГАЗУРСКОГО КОРИДОРА ........ 74

**ШОЛА МАММАДОВА.** ПРОБЛЕМЫ ИЗУЧЕНИЯ ИСТОРИИ ИСЛАМА В АЗЕРБАЙДЖАНЕ И ИСТОРИОГРАФИЧЕСКИЕ ПОДХОДЫ ........ 82

**ТУРАН БАБАЕВА.** ВОЗРОЖДЕНИЕ ТРАДИЦИЙ ГОСУДАРСТВЕННОСТИ В АЗЕРБАЙДЖАНЕ В РАННЕМ СРЕДНЕВЕКОВЬЕ (В КОНТЕКСТЕ ШИРВАНШАХОВ И САДЖИДОВ) ........ 88

**ЗАБИЛ БАЙРАМЛЫ, НУРЛАН НАСИРОВ.** ТРАКТАТ ИБН БАЗЗАЗА АРДЕБИЛИ «САФВАТ АС-САФА» («ЧИСТОТА ЧИСТОТЫ»): ВОПРОС КОНФЕССИОНАЛЬНОЙ ПРИНАДЛЕЖНОСТИ И ЭТНИЧЕСКОЙ ИДЕНТИЧНОСТИ ШЕЙХА САФИ АД-ДИНА ........ 97

**АРХЕОЛОГИЯ И ЭПИГРАФИКА**

**ЭЛЬМИРА ДЖАФАРОВА.** АРХЕОЛОГИЧЕСКИЕ ИССЛЕДОВАНИЯ В ЭНЫХЕ ........ 106

**НАДЖАФ МУСЕИБЛИ.** ИСТОРИЯ ДРЕВНЕЙШЕЙ ГОСУДАРСТВЕННОСТИ АЗЕРБАЙДЖАНА В АРХЕОЛОГИЧЕСКИХ ИССЛЕДОВАНИЯХ ........ 113

**НУРАЙ МЕММЕДЛИ.** ВЕРОВАНИЯ, ОТРАЖЕННЫЕ НА ПОЛИХРОМНО РАСПИСНЫХ КЕРАМИЧЕСКИХ ИЗДЕЛИЯХ НАХЧЫВАНА ........ 121

**СЕДАГАТ МАМЕДЛИ.** ЭПИГРАФИЧЕСКИЙ АНАЛИЗ ОБРАЗЦОВ НАДПИСНОЙ КЕРАМИКИ ИЗ БЕЙЛАГАНА ........ 128

**ВЕЛИ БАХШАЛИЕВ, РАФИА СОЙ, ЭЛЬМАР БАХШАЛИЕВ.** НОВЫЕ НАХОДКИ, СВЯЗАННЫЕ С РАСПРОСТРАНЕНИЕМ ХОДЖАЛЫ-ГЕДАБЕКСКОЙ КУЛЬТУРЫ НА НАХЧЫВАН ФИЛОСОФИЯ И ПРАВО ........ 135

**ФИЛОСОФИЯ И ПРАВО**

**ЛАЛА МАМЕДОВА.** ПРИМЕНЕНИЕ УГОЛОВНО-ПРАВОВЫХ МЕР В ОТНОШЕНИИ ЮРИДИЧЕСКИХ ЛИЦ: МАТЕРИАЛЬНЫЕ И ПРОЦЕССУАЛЬНЫЕ АСПЕКТЫ В АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКЕ ........ 151

**ЛЕЙЛИ ГУЛИЕВА.** ИДЕОЛОГИЯ АЗЕРБАЙДЖАНСТВА – ОСНОВА СИЛЬНОГО ГОСУДАРСТВА И ГАРАНТ УСПЕХОВ НАШЕЙ СТРАНЫ ........ 161

**ОРУДЖ МАМЕДОВ.** ПРАВОВЫЕ ПРИНЦИПЫ ТРУДОВЫХ ОТНОШЕНИЙ НА ГОСУДАРСТВЕННОЙ СЛУЖБЕ ........ 171

**ПОЛИТИЧЕСКИЕ НАУКИ**

**ЭЛЬНУР КАЛЬБИЗАДЕ.** АНАЛИЗ ЭКОНОМИЧЕСКОГО СОТРУДНИЧЕСТВА ИРАНА И АРМЕНИИ В КОНТЕКСТЕ НЕЭНЕРГЕТИЧЕСКОГО СЕКТОРА И ЕГО ВЛИЯНИЕ НА ПОЛИТИЧЕСКИЕ ОТНОШЕНИЯ ........ 185

**ХУРАМАН ГУСЕЙНОВА.** СИТУАЦИЯ В ВОЕННОЙ СФЕРЕ В АРМЕНИИ И УСЛОВИЯ, СЛОЖИВШИЕСЯ ПОСЛЕ 44-ДНЕВНОЙ ВОЙНЫ ........ 194

**ШЕРАЗ МЕХМУД.** ВОПРОСЫ БЕЗОПАСНОСТИ В МЕНЯЮЩЕМСЯ МИРЕ ........ 205

**СОЦИОЛОГИЯ**

**АРИФ АЛИ-ЗАДЕ.** СОЦИАЛЬНОЕ ДОКАЗАТЕЛЬСТВО В СОЦИАЛЬНЫХ СЕТЯХ ........ 213

**ШАРГИЯ ИМАМАЛИ.** МИГРАЦИЯ КАК СОЦИАЛЬНАЯ ПРОБЛЕМА В АРМЕНИИ ПОСЛЕ ВТОРОЙ КАРАБАХСКОЙ ВОЙНЫ ........ 219

**ПСИХОЛОГИЯ**

**СУДАБА ГУСЕЙНОВА.** САДИСТСКОЕ И НЕКРОФИЛЬСКОЕ ПОВЕДЕНИЕ, НАБЛЮДАЕМОЕ ВО ВРЕМЯ ГЕНОЦИДА: ПСИХОЛОГИЧЕСКИЙ АНАЛИЗ ........ 226

**ПЕДАГОГИКА**

**АЙСЕЛЬ МАМЕДОВА.** РОЛЬ ИГРОВОГО МЕТОДА В ДОШКОЛЬНОМ ОБРАЗОВАНИИ ........ 235

# CONTENTS

**HISTORY**

**ELLADA BAKİROVA.** WESTERN PERSPECTİVES ON THE HİSTORY OF ALBANİA: PAST AND PRESENT ........ 8
**ISMAYIL HAJIYEV**. ON ETHNIC HISTORY AND NATIONAL COMPOSITION OF NAKHCHIVAN REGION ........ 18
**LALA AGHAMIRZE ALIYEVA.** INSCRIPTIONS, EPICS, AND GENEALOGIES: TURKIC TEXTUAL EVIDENCE FOR AZERBAIJANI ETHNOGENESIS ........ 26
**NARGIZ AKHUNDOVA, AYDIN ALI-ZADE.** AZERBAIJAN AND ISSUES OF ARAB TRIBALISM IN THE POLITICS OF EARLY ARAB CALIPHATE ........ 34
**NAZIM MUSTAFA.** THE HISTORICAL AND ARCHITECTURAL HERITAGE OF AZERBAIJANIS IN THE CITY OF IREVAN IN THE WORKS OF ARMENIAN RESEARCHERS ........ 40
**RAMIL AGAEV.** ARABIC-SPEAKING SOURCES ABOUT THE BORDERS OF ARRAN ........ 46
**RAFIQ SAFAROV.** PROBLEMS OF HISTORICAL GEOGRAPHY OF THE SHIRVAN IN THE 18TH CENTURY AND ITS FALSIFICATION ........ 58
**SEVINDJ RAHIMOVA.** REGIONAL SIGNIFICANCE OF THE ZANGEZUR CORRIDOR ........ 74
**SHOLA MAMMADOVA.** THE PROBLEM OF STUDYING THE HISTORY OF ISLAM IN AZERBAIJAN AND APPROACHES IN HISTORIOGRAPHY ........ 82
**TURAN BABAYEVA.** THE REVIVAL OF STATEHOOD TRADITIONS IN AZERBAIJAN IN THE EARLY MIDDLE AGES (IN THE CONTEXT OF THE SHIRVANSHAHS AND SAJIDS) ........ 88
**ZABIL BAYRAMLI, NURLAN NASIROV.** IBN BAZZAZ ARDABILI’S *SAFVAT AL-SAFA* (“THE PURITY OF PURITIES”): THE QUESTION OF SHAYKH SAFI AL-DIN’S SECTARIAN AFFILIATION AND ETHNIC IDENTITY ........ 97

**ARCHAEOLOGY AND EPIGRAPHY**

**ELMİRA JAFAROVA.** ARCHAEOLOGICAL RESEARCH IN ENYKH. ........ 106
**NAJAF MUSEIBLI.** THE MOST ANCİENT HİSTORY OF STATEHOOD OF AZERBAIJAN IN ARCHAEOLOGİCAL RESEARCH ........ 113
**NURAY MEMMEDLİ.** THE BELIEFS REFLECTED IN POLYCHROME PAINTED POTTERY OF NAKHCHIVAN ........ 121
**SEDAGAT MAMMADLİ.** EPİGRAPHİC ANALYSİS OF İNSCRİBED CERAMİC SAMPLES FROM BEYLAGAN ........ 128
**VELİ BAKHSHALİYEV, RAFİA SOY, ELMAR BAKHSHALİYEV.** NEW FINDINGS RELATED TO THE SPREAD OF THE KHOJALI-GEDEBEY CULTURE TO NAKHCHIVAN ........ 135

**PHILOSOPHY AND LAW**

**LALA MAMMADOVA.** APPLICATION OF CRIMINAL LAW MEASURES TO LEGAL ENTITIES: SUBSTANTIVE AND PROCEDURAL ASPECTS IN THE REPUBLIC OF AZERBAIJAN ........ 151
**LEYLI GULIYEVA.** THE IDEOLOGY OF AZERBAIJANI IDENTITY IS THE FOUNDATION OF A STRONG STATE AND A GUARANTEE OF OUR COUNTRY'S SUCCESS ........ 161
**ORUJ MAMMADOV.** LEGAL PRINCIPLES OF LABOR RELATIONS IN CIVIL SERVICE ........ 171

**POLITICAL SCIENCES**

**ELNUR KALBIZADEH.** ANALYSIS OF IRAN-ARMENIA ECONOMIC COOPERATION IN THE CONTEXT OF THE NON-ENERGY SECTOR AND ITS IMPACT ON POLITICAL RELATIONS ........ 185
**KHURAMAN HUSEYNOVA.** THE SİTUATİON İN THE MİLİTARY SPHERE İN ARMENİA AND THE CONDİTİONS THAT EMERGED AFTER THE 44-DAY WAR ........ 194
**SHERAZ MEHMOOD.** STUDYING SECURITY ISSUES IN CHANGING WORLD ........ 205

**SOCIOLOGY**

**ARIF ALI-ZADE.** SOCIAL PROOF IN SOCIAL MEDIA ........ 213
**SHARGIYA IMAMALI.** MİGRATİON AS A SOCİAL PROBLEM İN ARMENİA AFTER THE SECOND KARABAKH WAR ........ 219

**PSYCHOLOGY**

**SUDABA HUSEYNOVA.** SADİSTİC AND NECROPHİLİC BEHAVİOR OBSERVED DURİNG THE GENOCİDE: A PSYCHOLOGİCAL ANALYSİS ........ 226

**PEDAGOGY**

**AYSEL MAMMADOVA.** THE ROLE OF THE PLAY METHOD IN PRESCHOOL EDUCATION ........ 235

**UOT 94(479.24)**
**https://doi.org/10.59849/2710-0820.2025.2.8**

**Ellada Bəkirova**
*Tarix üzrə fəlsəfə doktoru, dosent*
*Arxeologiya və Antropologiya İnstitutu, elmi katib*
*Azərbaycan*
*https://orcid.org/0000-0003-1788-1310*

# ALBANİYA TARİXİNƏ QƏRBDƏN BAXIŞ: ƏVVƏL VƏ İNDİ

***Açar sözlər**: Albaniya, Avropa tarixşünaslığı, 90-cı illərin tədqiqatları, alban əlifbası, problemlər*

## Giriş

Avropa tarixşünaslığında Albaniya mövzusuna marağın tarixi o qədər də qədim deyil. Təxminən XIX əsrə aid olan tədqiqatlardan başlayaraq Qərbdə nəşr olunan əsərlərdə Albaniya haqqında ilk məlumatlara rast gəlinir. Albanşünaslığa aid olan mövzuların heç də hamısı Qərb tədqiqatçısına, eyni zamanda onların oxucularına maraqlı olmamışdır. Daha çox Musa Kalankatlının "Alban tarixi" əsəri, albanların kim olması, etno-dil mənsubiyyəti, Qafqazda xristianlığın qəbulu fonunda olan məsələlər, alban memarlığı kimi məsələlər Qərbdə tədqiqata cəlb olunmuşdur. Məhz bu səbəbdən bu tədqiqatların əsas müəllifləri tarixçilərdən daha çox linqvist, arxeoloq və memarlar olmuşdur və qeyd etmək lazımdır ki, bu tendensiya hazırda da davam edir. Buna görə də son dövrlərə qədər olan tədqiqatlarda Albaniyanın dövlətçilik tarixi, tarixi-coğrafiyası, əhali tarixi ilə bağlı məsələlər tədqiqatdan kənarda qalmış, onlara daha çox ümumi məsələlərin fonunda toxunulmuşdur. Qərb tədqiqatçısı Albaniya mövzusunu ilk olaraq Cənubi Qafqazın qədim tarixi fonunda ələ alır, Albaniya dövlətini antik dövrdə bu ərazidə formalaşmış dövlətlərdən biri olaraq görür. Bu münasibət əsasən Albaniyanın antik dövr tarixi ilə bağlı məsələlərdə özünü göstərir. Erkən orta əsrlərlə bağlı məsələlərdə isə albanların tarixinə daha çox erməni tarixi fonunda baxılır.

Son illərdə Cənubi Qafqaz regionununda baş verən hadisələr, Azərbaycanın apardığı 44 günlük haqlı savaşdan sonra yaranan geopolitik vəziyyət müəyyən tarixi mövzuların, eyni zamanda Albaniya tarixinə dair mövzuların da aktuallaşmasına səbəb olmuşdur. Həmçinin, bu aktuallaşmanın fonunda hadisələrə baxış bucağı da dəyişmiş, erməni təbliğatının təsirinə düşmüş bəzi qərb tədqiqatçıları Albaniya tarixinə dair yanlış istiqamətə yönəlmiş, siyasi məqsədli əsərlər ortaya çıxmışdır.

## XIX-XX əsrin əvvəllərinin tədqiqatlarında Albaniya mövzusu

Albaniya tarixi ilə bağlı qərb tarixşünaslığındakı ilk məlumatlar Musa Kalankatlının "Alban tarixi" əsəri üzrə olan tədqiqatlarda üzrə çıxdı. 1838-ci ildə Eçməidzində olan fransız tədqiqatçı E.Bore orada "Alban tarixi" əsərinin əlyazmaları ilə maraqlanmış, onlarla tanış olduqdan sonra isə, mətndən parçaları 1846-cı ildə "Univers catholique" adlı jurnalda fransız dilində nəşr etdirmişdir. Bir qədər sonra isə eyni tərcümə Vivyen Sen-Martinin şərhləri ilə təkrar nəşr olundu [6]. 1851-ci ildə şərqşünas alim Mari Brosse əsərin başqa hissələrinin tərcümələrini Sankt-Peterburqda fransız dilində nəşr etdi [32]. Bu nəşrlərdən sonra əsərə maraq artması ilə Albaniya ölkəsi və alban tayfaları ilə bağlı fərqli tədqiqatlar Qərb tarixşünaslığında görünməyə başladı. əlbəttə bunların böyük əksəriyyəti ciddi tədqiqat əsərləri deyil, ensiklopedik məlumatlar idi.

Bir qədər sonra digər bir ensiklopediyada da Albaniya barədə qısa məlumat verilmişdir. "Britaniya Ensiklopediyası"nın I cildində (1875) "Albania" adlı məqalə yerləşdirilmişdir. Müəlliflər Strabonun verdiyi məlumatları əsas götürərək Albaniyanın sərhədlərini müəyyən etməyə çalışmış, Şirvan, Dağıstan, Ləzgistan adlandırdıqları coğrafi vahidlərin ərazisində lokalizə etmişlər [4, s. 448]. Burada yanlış məqam

isə Albaniyanın cənub sərhədinin məhz Strabona istinadən Kür çayından keçməsinin göstərilməsidir. Strabonun bu mövzuda kifayət qədər ziddiyyətli məlumatlar qoyub getdiyi məlumdur və Kürdən cənubda yerləşən ərazilərin də alban tayfalarının yaşadığı əraziyə daxil olmasını digər antik müəlliflərin əsərlərində də tutarlı sübutları mövcuddur.

Alman müəllifi, ixtisasca coğrafiyaşünas və kartoqraf olan Henrix Kipert də Avropa tarixşünaslığında alban mövzusuna müraciət edən ilk tədqiqatçılardan biridir (1878). O hesab edirdi ki, albanlar sadə həyat tərzi sürən qədim Qafqaz tayfaları olmuş, əsasən köçəri həyat tərzi sürmüş, yaxşı oxçu və süvari olmuşlar [30, s. 85]. O, albanların 26 müxtəlif dildə danışması ilə bağlı antik müəlliflərin verdiyi məlumata şübhə ilə baxır, bunu inandırıcı hesab etmir [30, s. 85]. Müəllif hesab edir ki, Xəzər dənizinin sahillərində yaranmış Albaniya dövləti Ptolemeyin dövründə, Feofanın sayəsində məşhurlaşmış, daha sonra türk tayfalarının axınları ilə tarix səhnəsindən silinmişdir. Makedoniya imperiyası ilə bağlı olan qaynaqlarda onların adlarının çəkilməsini isə ciddiyə almamış, o dövrdə albanlarla bağlı heç bir məlumatın olmadığını deyir [30, s. 85]. Albaniya dövləti haqqında bu ensiklopedik məlumat Avropa tarixşünaslığında bu mövzuda olan ilk tədqiqatlardan biri hesab oluna bilər.

"Nouvaeu Larousse illustré" (Yeni Larus) ensiklopediyasında da Albaniya (Ağvaniya) barədə məqalə nəşr olunmuşdur. Bu məqalədə Albaniya Şirvan, Dağıstan əraziləri ilə məhdudlaşdırılır. Məqalə müəllifinin fikrincə xəzərlərin hücumundan sonra albanlar Armenia ərazisinə köçdülər [5, s. 158]. Əlbəttə ki, bu fikirlə razılaşmaq olmaz, ümumiyyətlə xəzər hücumları nəticəsində albanların ölkəni tərk etməsi fikrini müəllif nəyə əsasən qeyd edib anlamaq olmur.

XIX əsrin tədqiqatlarından danışarkən məşhur coğrafiyaşünas, şərqşünas alim Vilhelm Tomaşekin də adını çəkmək lazımdır. Onun fərqli vaxtlarda nəşr etdirdiyi 2 məqaləsində Albaniya və alban tayfaları haqqında fikirləri yer almışdır [38, s. 1303-1307; 39, s. 2016]. Müəllifin fikrincə ölkənin ərazisi, bir tərəfdən Xəzərdən İberiya sərhədlərinə qədər, digər tərəfdən isə Keraun dağlarından Kür çayının deltasına qədər uzanırdı. Bu da müəllifin daha çox Strabona istinad etdiyini göstərir. O hesab edirdi ki, albanlar öz dialektlərində danışan tayfaların konqlomeratı idi. Kamal Əliyev hesab edir ki, Vilhelm Tomaşek alban dilinin izlərinin udin, qrız, xınalıq dillərində qaldığını, bu dildə turan elementlərinin qətiyyən olmadığını söyləyən ilk müəlliflərdəndir [43, s. 6]. Daha sonra bu fikir heç bir əlavə dəlil olmadan tarixşünaslıqda uzun müddət hökmran oldu.

XX əsrin əvvəllərinin tədqiqatlarından ilk olaraq tarixçi, şərqşünas Jozef Markvartın qələmindən çıxan əsərləri qeyd etmək lazımdır. Onun Kral Cəmiyyətinin traktatlarında yer alan "Moisey Xorenatsinin "Coğrafiya"sına görə Eranşəhr" (1901) adlı əsərində Albaniyanın tarixi-coğrafiyası barədə müəyyən fikirlər yer almışdır. O hesab edirdi ki, Albaniyanın sərhədləri cənubda Araz və Kür çayları, qərbdə Alazan, şimalda Qafqazın Keraun ətəkləri və şərqdə Xəzər dənizindən ibarət idi [14, s. 116]. Müəllif albanların dili məsələsinə də toxunmuş, Albaniya ərazisində 26 dil və ya ləhcənin mövcud olmasını qeyd etmiş, eyni zamanda qarqar dili üzərində də dayanaraq Mesrop Maştosun məhz bu dil əsasında əlifba tərtib etdiyini vurğulamışdır [14, s. 117]. O qeyd edir ki, X əsrin ərəb coğrafiyaşünları, əl-İstəxri də daxil olmaqla, Arranda Patrav ətrafında xüsusi bir dildə danışıldığını qeyd etmişlər [14, s. 117]. Markvart Albaniyanın ayrı-ayrı vilayətlərini də qeyd etmiş, yeri gəldikcə onlar haqqında da öz fikirlərini yazmışdır.

Dövrünün məşhur iranşünas və ermənişünası Henrix Hyübşmanın tədqiqatlarında da Albaniya tarixinə dair məsələlərə rast gəlmək mümkündür. Coğrafi adlara dair monoqrafiyasında (1904) Q.Hubşman Armeniyanın tarixi coğrafiyası fonunda Albaniyanın bir sıra vilayətlərinin tarixinə də toxunmuşur. Burada Albaniyanın Kürdən cənubda yerləşən Arsax, Uti, Sünik, Paytakaran vilayətləri barədə məlumatlar yerləşdirilmiş, antik və orta əsr qaynaqlarının müqayisəsinə çalışılmışdır [28, s. 259-275].

1904-cü ildə Parisdə çap olunmuş "Kilsə tarixi və coğrafiyası" ensiklopediyasının I cildində də Albaniya barədə materiallar çap olunmuşdur [41, s. 953-54]. François Tournebize topluya həm albanlar, həm də Qafqaz Albaniyası barədə 2 fərqli kiçik material yerləşdirmişdir. Əsasən ermənişünas olan alim təbii olaraq mətnlərin hər ikisində öz mövqeyini ortaya qoymağa çalışmışdır.

XX əsrin əvvəllərində Albaniya barədə ensiklopedik material şəklində Albert Herrmannın da materialları çap olundu. Onun alban tayfalarından olan kaspilər, lupenlər barədə məqalələri Ştutqardda o dövrün məşhur Paul ensiklopediyalarında nəşr olundu [23, s. 2282; 24, s. 1815]. O hesab edirdi ki, Herodotdakı kaspilər Hindistan ərazisindəki kaspeyrlərlə eyni ola bilər və beləliklə kaspiləri Pamir ərazisində XV satraplıqda lokalizə edirdi. Əlbəttə ki, bu fikirlə razılaşmaq olmaz, kaspilər Qafqaz bölgəsində hegemon tayfalardan biri olmuş və onların adı ilə bölgədə bir çox toponimlər qalmışdır.

Beləliklə. XIX-XX əsrin əvvəllərinin tarixşünaslığına baxdıqda Albaniya haqqında əsasən ensiklopedik materialların olduğunu, spesifik mövzulara toxunulmadlığının, eyni zamanda albanların tarixinin hələ siyasiləşmədiyini görürük.

**Sovet dövründə Qərb tarixşünasığında Albaniya mövzusu**

Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra ermənilərdə millətçilik meyilləri güclənməyə başladı və bölgənin tarixinə dair erməni müəlliflərin əsərlərində ərazi iddialarını əsaslandırmaq siyasəti yürüdülməyə başlandı. Bu istiqamətdə ən çox Albaniya tarixinə diqqət artırıldı və Qarabağın erməni torpaqları olmasını əsaslandırmaq üçün Albaniya tarixinin saxtalaşdırılmasına başlanıldı. Azərbaycanlı müəlliflər isə bunu təkzib edən əsərlər yazmağa, ermənilərə elmi əsaslarla cavab verməyə başladılar. Bu proseslər təbii olaraq Qərb tarixşünaslığına da təsir etməyə, burada çap olunan əsərlərdə də əks olunmağa başlandı. Albaniya tarixinin indiyə qədər Qərbdə tədqiqata cəlb olunmamış spesifik istiqamətləri barədə işlər ortaya çıxmağa başladı. Eyni zamanda, Musa Kalankatlının “Alban tarixi” əsərinin də fərqli interpretasiyalarla yeni nəşrləri, alban əlifbası üzərinə tədqiqatlar da yaranmağa başladı.

İlk tədqiqatlardan biri fransız linqvisti Corc Dümezilin alban dili haqqında məqaləsi hesab oluna bilər [13, s. 126-132]. 1940-cı ildə nəşr olunan məqalə alban əlifbası haqqında Avropada ilk tədqiqatlardan biridir. Müəllif məqalənin əvvəlində alban əlifbasının Qafqazda mövcud olan 3 əlifbadan biri olduğunu qeyd edərək daha sonrakı dövrdə ərəblərin gəlməsi ilə İslamın yayılması, xristianlığa xidmət edən kitablar və əlifbanın isə bundan sonra yoxa çıxmasını diqqətə çatdırmışdır [13, s. 126]. C.Dümezil “Alban tarixi” əsərinin Eçmədzin əlyazmasını istifadə edərək alban əlifbasını tədqiqata cəlb etmişdir. O qeyd edir ki, alban əlifbası erməni və gürcü əlifbaları ilə müqayisədə daha zəngindir və alban dilinin fərqləndirici fonetik çalarları erməni dilində qeyd etmək mümkün deyil [13, s. 127-128]. Məqalədə eyni zamanda Albaniyanın xristianlığa qədərki dini inancları, bu inancların udin dili üzərində təzahürləri və s. məsələlərə də toxunulmuşdur. Zənnimizcə, alban əlifbasının tarixi ilə bağlı yazılmış ən maraqlı məqalələrdəndir.

Eyni zamanda bu periodda Albaniya barədə ensiklopedik məlumatlar ehtiva edən nəşrlər də oldu. Bunlardan biri 1953-cü ildə R.Veynhold və D.Trendin antik müəlliflərin əsərlərinə əsasən Qafqaz xalqları barədə məlumatları əhatə edən əsəri hesab oluna bilər [42]. Əsərdə albanlara da müəyyən qədər yer ayrılmış, müəlliflər Albaniya ərazisində yaşamış olan müxtəlif etnoslarla bağlı fikirlərini bildirmişlər. Onlar hesab edirlər ki, albanlar Dağıstanda yaşayan xalqların, xüussən də avarların formalaşmasında əsas komponentlərdən biri olmuşlar [44, s. 37]. Həmçinin doğru olaraq qeyd etmişlər ki, alban tayfalarının konsosidasiya prosesində vacib amil onların davamlı olaraq müxtəlif işğalçı tayfalar, dövlətlərlə mübarizəsi oldu [44, s. 37].

Daha sonra erməníşünas ingilis alimi Çarlz Dovsetin Albaniya tarixi ilə bağlı tədqiqatları çap olunmağa başlandı. Onun ilk işlərindən biri “Şərq və Afrika tədqiqatları məktəbinin bülleteni”ndə 1957-ci ildə çap olunan “Qafqaz albanlarının tarixində unudulmuş hissə” adlı məqalə oldu [8, s. 456-468]. Məqalə Musa Kalankatlının “Alban tarixi” əsərinin Eçmədzin əlyazmasından düşüb itmiş, sonralar tapılan 2 səhifəyə həsr olunmuşdur. Daha sonra isə Dovset əsərin bütöv varianta çapına da nail oldu [9]. Buna qədər olan tərcümələr əsasən orijinaldan yox, rus dilindən olan tərcümələr idi. Dovset isə ermənişünas olduğu və qədim dilləri çox yaxşı bildiyi üçün əsərin əldə olan əlyazmalarının bir neçəsini müqayisə edərək tərcümə etmişdi. Həmçinin, əsərin indiyə qədər tərcümə və nəşr olunmayan hissələrini də mətnə əlavə etmiş, yeri gəldikcə öz şərhlərini də daxil etmişdir. Əsərin əvvəlində

yer alan giriş hissədə Dovset "Alban tarixi" əsəri barədə ilk qeydlər, əsərin müəllifliyi, dövrü və s. məsələlərə də toxunmuşdur. Çarlz Dovset eyni zamanda David Alavikin (Gəncəli David) "Kanonlar"ını da genişləndirərək, tərcüməyə geniş Giriş hissə əlavə etmiş, şərhlər yazmış, Mxitar Qoşun "Alban xronikası" əsərini də ingilis dilinə tərcümə etmişdir [10]. Onun tərcümə etdiyi alban tarixi ədəbiyyatı nümunələri bu gün də ən çox etibar edilən qaynaqlardan hesab edilir.

Əslən erməni olan Robert Hyüzenin tədqiqatlarının da bir hissəsi məhz bu predioda düşür. Hyüzen əsasən erməni tarixi ilə bağlı tədqiqatları ilə məşhur olsa da, "erməni tarixinin fonunda" alban tarixi ilə bağlı məsələlərə də toxunmuşdur. İlk növbədə qeyd etmək lazımdır ki, onun tədqiqatları Azərbaycan tarixinin, xüsusən alban tarixinin saxtalaşdırılmasına yönələn ənənəvi erməni konsepsiyasına əsaslanır. Amma təəssüflər olsun ki, 60-80-ci illərdə Avropanın və ABŞ-ın bir sıra nüfuzlu toplularında, ensiklopedik xarakter daşıyan əsərlərdə, tarixi lüğətlərdə Albaniya tarixi ilə bağlı çıxan müxtəlif məzmunlu mətnlər məhz olun qələmindən çıxmışdır. Onun bu mövzuda ilk işlərindən biri alban əlifbası barədə 1964-cü ildə nəşr olunan məqaləsidir [27, s. 427-432]. Məqalədə alban yazısının o vaxta qədər məlum olan nümunələri barədə fikirlər öz əksini tapmış, əsasən İlya Buladze tərəfindən Eçməidzində 30-cu illərdə aşkar olunmuş yazı nümunələri əsasında fikir yürüdülmüşdür. Müəllif qeyd edir ki, həmin dövrdə Qafqazda tərtib olunmuş hər 3 əlifba bir birinə bənzəsə də, alban əlifbasının özünəməxsus cəhətləri də vardır. Xüsusən, sait səslərin çoxluğu və boğaz səslərinin mövcudluğuna görə bu əlifbanı Dağıstan ərazisində yaşamış xalqların tarixi fonunda araşdırmağın düzgün hesab edir [27, s. 430]. Hyüzenin bu məqaləsi onun daha sonrakı tədqiqatlarından son dərəcə fərqlənir, çünki, sonrakı tədqiqatlar daha çox etnik və siyasi, tarixi coğrafiya ilə bağlı məsələlərə həsr olunduğu üçün onlarda təhriflər daha var. Bunlara misal olaraq, müəllifin 1982-ci ildə Nyu-yorkda nəşr olunmuş "Orta əsrlər lüğəti"nin I cildində yer alan "Albania (Caucasian)" adlı məqaləsində, həmçinin 1985-ci ildə çap olunan V cilddə yer alan "Ganjak" (B.E.-Gəncə) adlı məqaləsində Albaniyanın bütün sağsahil əraziləri Armeniya ərazisi kimi göstərilmiş, Albaniyanın dövlətçilik, etnik tarixi ilə bağlı ciddi saxtalaşdırmalara yol verilmişdir [26, s. 355]. 1982-ci ildə çap olunmuş başqa bir məqaləsində isə Albaniya üzərində "erməni təsirləri"ndən söz açmışdır [25, s. 27-40].

Göründüyü kimi XX əsrin 20-90-cı illəri arasında Qərbdə Albaniya tarixi ilə bağlı aparılan araşdırmalarda artıq spesifik mövzular da yer almağa başladı. Lakin yenə də tədqiqatların ana xəttini alban ədəbiyyatı nümunələri və alban əlifbası təşkil edirdi.

**90-cı illərin tədqiqatlarında Albaniya mövzusu**

Albaniya tarixi ilə bağlı ən zəngin tarixşünaslıq materialları 90-cı illərə aiddir. Ermənistanın Azərbaycana təcüvüzü ilə başlayan münaqişə və nəticəsində Azərbaycana məxsus Qarabağ bölgəsinin işğalı ilə Albaniyanın sağsahil ərazilərinə daxil olan həmin bölgənin tarixinin müxtəlif məsələləri yenidən gündəmə gəldi. Xüsusən də tarixi coğrafiya, ərazinin kimə mənsub olması, etnik məsələlər tədqiqat predmetinə çevrildi. Bu istiqamətdə ilklərdən biri antropoloq Nora Düdvikin məqalələri hesab oluna bilər. Tədqiqatlarının əsas hissəsini Qafqazda etno-ictimai və siyasi məsələlər təşkil edən müəllifin bir neçə məqaləsində Albaniya tarixinə dair məsələlərə də toxunmuşdur [12, s. 377-384; 11]. Müəllif qeyd edir ki, Albaniya məsələsində əsas fikir ayrılıqları qədim Uti, Arsax, Sünik (Zəngəzur) vilayətlərinin kimə aid olması və azərbaycanlıları alban etnosunun törəməsi hesab edib etməmək məsələləri barədədir [12, s. 378]. O haqlı olaraq qeyd edir ki, Qafqaz tarixşünaslığında "toponomik qeyri-müəyyənlik" hallarının çox olması səbəbindən ərazi və mədəni sərhədləri müəyyən etmək çətindir [12, s. 382]. Məqalənin sonuna qədər müəllif azərbaycanlı və erməni müəlliflərin Albniyanın sərhədləri və albanların etnik varisliyi məsələləri barədə fikirləri səsləndirir, lakin öz münasibətini bildirmir.

Alman linqvisti Volfqanq Şultzun alban əlifbası üzrə tədqiqatlarının ilk nümunələri 80-ci illərdə [43] elmi dövriyyəyə daxil olsa da, onun ən məhsuldar dövrü 2000-ci illərə düşür. Qafqaz dilləri üzrə ixtisaslaşmış olan professor Şultz Albaniya problemi üzrə əsasən udin tay-

falarının dili barədə tədqiqatlar aparmışdır. Xüsusən də Sinay palimpsetləri aşkar olunduqdan sonra Şultzun bu mövzu ətrafında tək və həmmüəllifli onlarla məqaləsi çap olundu [38; 34, s. 149-177; 33, s. 175-312; 34, s. 149-177]. Müəllif əksər tədqiqatlarında belə bir nəticəyə gəlmişdir ki, albanların danışıq dili, etnik mənsubiyyəti məsələlərində vahid bir fikir söyləmək hazırda mümkün deyil. Alban əlifbasının, xüsusən də Sinay palimpsestlərinin dilini əsas götürərək bütün Albaniyanın əhalisi bu dildə danışırdı demək tez olar düşünürdü [33, s. 299]. O hesab edir ki, Strabonun 26 dildə danışdığı deyilən Albaniya əhalisi birdən-birə vahid dildə danışa bilməz və palimpsestlərdəki dil alban sarayının, yaxud hakim elitanın dili ola bilərdi [33, s. 299]. Həmçinin, palimpsestlərin dili indiki udinlərin bilavasitə özlərinin deyil, onların əcdadlarının dili ola bilər.

V.Şultzun tədqiqatlarında Albaniyanın etnik tarixinin müxtəlif məsələləri də ələ alınmış, etnosun adlandırılması, etnik müxtəlifliyinin əsas elementi hesab etdiyi tayfalar (udin, qarqar və b.), aparıcı etnosun kimliyi kimi məsələlərə antik və orta əsr qaynaqlarının verdiyi məhdud məlumatlarla cavab axtarmağa çalışmışdır. Ümumilikdə, onun tədqiqatlarının alban əlifbasının öyrənilməsi sahəsində mühüm mərhələ hesab etmək olar.

Cost Gippertin də Albaniya tarixi ilə bağlı tədqiqatlarının ilk nümunələri 70-80-ci illərə aiddir [19, s. 35-46]. Lakin, yaradıcılığının ən məhsuldar dövrü məhz 90-cı illərdən sonrakı mərhələ, xüsusən də Sinay palimpsestləri üzərində araşdırmaların ən pik nöqtəsi olan 2000-ci illər hesab oluna bilər [21, s. 207-230; 18, s. 237-244; 20, s. 39-50 ]. Gippert alban əlifbası məsələsi üzrə ən çox istinad edilən şəxslərdən, Sinay palimpsestlərinin 2008-ci ildə nəşrinə nail olan 4 nəfərdən biridir [38]. Gippert tədqiqatı dövründə alban əlifbası ilə yazılmış bu ünə qədər məlum olan bütün mətnlərlə tanış olmuş, onları müqayisə etmək imkanı olmuş, Sinay palimpsestləri sayəsində əlifbanı deşifrə etdikdən sonra isə, ən kiçik mətnləri belə oxumağa nail olmuşdur. Onun alban əlifbasının mənşəyi, etnik mənsubluğu məsələlərində fikirləri V.Şultzun fikirləri ilə demək olar ki, üst-üstə düşür. Lakin, Gippert məqalələrinin böyük əksəriyyətində palimpsestlərin deşifrə edildiyi udin dilini əsas götürərək albanların ləzgidilli olduğunu deyir [22, s. 207-208]. Baxmayaraq ki, özü də Sinay palimpsestlərinin yazıldığı dildə müxtəlif dillərə mənsub elementlər olduğunu etiraf edir. Müxtəlif dillərdə yaşayan etnosların məskunlaşdığı Albaniya ərazisində vahid dil barədə fikir yürütmək çox çətindir və bu barədə dəqiq mülahizələr irəli sürmək yanlışdır.

Bu mərhələnin alban dili üzrə tədqiqatlarında əhəmiyyətli simalardan biri də fransız qafqazşünası, ermənişünası Jan Pyer Maedir. Sinay palimpsestlərinin deşifrə olunması həm də onun adı ilə bağlıdır. O, palimpsestlərin 2008-ci ildə nəşr olunmuş I cildinin həmmüəllifi olmaqla yanaşı, bu məsələ ilə bağlı başqa bir neçə tədqiqatın da müəllifidir [31, s. 1071-81].

90-cı illərdən sonrakı tədqiqatlara bizansşünas, ermənişünas alim Verner Zeybtin işlərini də daxil etmək mümkündür. Xüsusən, onun "Qafqaz əlifbalarının yaranması mədəniyyət tarixinin fenomeni kimi" adlı məqaləsində alban əlifbasının erməni və gürcü əlifbalarının müqayisəsindən yaranma tarixi, yaranma yeri və b. suallar müzakirə olunmuşdur [36, s. 132]. O hesab edir ki, mənbələrdə hər 3 əlifbanın yaradıcısının Mesrop Maştos göstərilməsi məsələsi qabardılmışdır [36, s. 132].

2001-ci ildə Milanda nəşr olunan "Qafqaz Albaniyası: etnos, tarix, ərazi-yunan, latın və erməni mənbələrinə əsasən" əsəri ilə italyan tədqiqatçı Marko Bais də Albaniya tarixşünaslığına daxil oldu. O, Avropada tanınmış ermənişünaslardan hesab edilir və təəssüflər olsun ki, bəzən əsərlərində özünün ermənipərəst mövqeyini də ortaya qoyur. Kitab Albaniyanın həm antik, həm orta əsrlər dövrünü əhatə etsə də, antik dövrə çox az yer ayrılmış, daha çox orta əsrlər dövrü erməni qaynaqları əsasında işıqlandırılmışdır. Müəllifin son illərdə çap olunmuş başqa bir məqaləsi (B.E.-əslində kitab bölümü) barədə isə növbəti yarımbaşlıqda məlumat veriləcək.

2008-ci ildə Almaniyada Roma və İberiya əlaqələrindən bəhs edən kitab çap olundu [29]. Kitabın bir bölümü də İberiyanın Albaniya ilə münasibətlərinə həsr olunmuşdu. Əsərdə Albaniyanın qərb vilayəti olaraq Kambisena vilayətindən bəhs olunur, bu vilayətin əzəli iber torpağı olması, yalnız qısa zaman kəsiyində albanların əlində olması fikri səsləndirilir. Müəlliflə-

rin fikrinə görə Kambisena Alazan çayı yaxınlığında yerləşmiş, Albaniya ilə sərhədi təşkil edən İberiya ərazisidir [29, s. ]. Bunun ardınca müəlliflər Böyük Plinidən sitat gətirərək, "albanlar və iberləri Okazan (Alazan) çayı ayırır" qeydini əsas göstərərək fikirlərini tamamlamışlar. Klavdi Ptolemeyin Albaniyanın sərhədlərinin Alazan çayının qərbinə qədər uzanması məlumatına gəldikdə isə müəlliflər bunun antik yazarın zamanına aid olmayan məlumat olması fikrindədirlər [29, s. 8]. Onların fikrincə Klavdi Ptolemeyin zamanında, yəni II əsrdə İberiya Farasmanın hakimiyyəti altında öz yüksəliş dövrünü yaşayırdı və bu torpaqlar Albaniyanın sərhədlərinə daxil ola bilməzdi. Halbuki, onların arqumenti antik qaynaqlarla təsdiqlənmir, əksinə, danışılan dövrdə Albaniyanın qərb sərhədlərinin İberiyanın içərilərinə doğru bir qədər də dərində olma ehtimalları vardır.

Bu dövrdə Albaniya barədə olan tədqiqatlara Lara Fabianın əsərlərini də daxil etmək lazımdır. Cənubi Qafqaz ölkələri üzrə arxeoloq və tarixçi olan Lara Fabian Albaniyanın həm antik, həm də orta əsrlər dövrü ilə bağlı müxtəlif məzmunlu məqalələlərin müəllifidir [15, s. 29-63; 16, s. 13-30; 17, s. 221-244]. O, dəfələrlə Azərbaycanda olan arxeoloji qazıntıların iştirakçısı olduğu üçün mənbələri maddi mədəniyyət nümunələri, arxeoloji artefaktlarla da müqayisə edə bilmişdir.

Erkən İslam dövrü tədqiqatçısı Alison Vakkanın Albaniya tarixinin bu dövrü ilə bağlı tədqiqatları da maraq kəsb edir [1, s. 439-514; 2, s. 20-46; 3, s. 37-84]. Onun məqalələrində Albaniya dövlətinin siyasi mövcudluğuna son qoyulduqdan sonra ərazidəki proseslər, tarixi coğrafiya ilə bağlı məsələlər, inzibati idarəetmə məsələləri və s. yer alır. Müəllif alban dövrü ilə məşğil olan digər tədqiqatçılardan fərqli olaraq qərb mənbələrindən çox dövrün ərəb mənbələrinə müraciət etmiş, yeri gəldikdə onları başqa mənbələrlə müqyisə də etmişdir.

Göründüyü kimi bu mərhələdə çap olunan əsərlərdə Albaniya tarixinin müxtəlif məsələləri yer almağa başladı. Həmçinin, alban əlifbasının deşifrəsi də məhz bu perioda təsadüf etdiyi üçün alban dili və əlifbası istiqamətində tədqiqatlarda yeni simaların adları görünməyə, alban etnoslarının etno-dil mənsubiyyəti ilə bağlı yeni mülahizələr yaranmağa və inkişaf etməyə başladı.

**II Qarabağ müharibəsindən sonrakı periodda Albaniya mövzusu**

Azərbaycanın apardığı 44 günlük haqlı savaşdan sonra beynəlxalq arenada və dünya siyasətində baxışlar dəyişdiyi kimi, tarix sahəsində də müəyyən dəyişikliklər oldu. Bu, xüsusilə Albaniya tarixinə baxışda hiss olunurdu. 30 illik işğaldan sonra əllərindən çıxmış "sağsahil ərazilərinə" ermənilər elmi müstəvilərdə, tarixi ədəbiyyatlarda bir az daha aqressiv şəkildə sahib çıxmağa davam edirlər. Bu proses təbii olaraq qərb tarixşünaslığına da öz təsirini göstərirdi. Qeyd etmək lazımdır ki, torpaqlarımız işğaldan azad olunduqdan sonra Azərbaycanda Albaniya tarixi ilə bağlı 2 beynəlxalq elmi konfrans keçirilmiş və konfranslarda çoxlu sayda xarici mütəxəssislər Albaniya haqqında müxtəlif məzmunlu məruzələrlə çıxış etmişlər. Françesko Mazzola, Bernard Utye, Byorn Vegge, Paolla Zammateo Azərbaycanda və digər ölkələrdə Albaniya tarixinə dair müxtəlif məzmunlu məruzələrlə çıxış etmiş, məqalələr çap etdirmişlər. Şərq xristianlığı tədqiqatları ilə məşğul olan Bernard Utye və Byorn Veggenin Albaniyanın xristianlıq tarixi ilə bağlı, Jil Utyenin udin dili ilə bağlı, Françesko Mazolla və Paolla Zammateonun alban memarlıq abidələri ilə bağlı tədqiqatları məhz bu dövrə aiddir. Sadalanan istiqamətlərdən də göründüyü kimi müharibədən sonrakı mərhələdə Albaniyanın mədəniyyət tarixinə dair tədqiqatlar artmağa başlamışdır. Xüsusilə də alban dövrü xristian abidələri diqqət çəkməyə başlamışdır. Bunun səbəblərindən biri də işğaldan azad olunmuş ərazilərdə yerləşən çoxlu sayda alban dövrü maddi mədəniyyət nümunələrinin tədqiqata cəlb olunması, eyni zamanda, ermənilər guya bizim o abidələri dağıtmağımız, saxtalaşdırmağımızla bağlı hay-həşir salmaları ilə bağlı Qərbdə yenidən abidələrə maraq oyatmalarıdır. Əksinə, işğaldan azad olunmuş ərazilərdə 100-lərlə alban dövrü abidəsi dağıdılmış, forması dəyişdirilmiş, vandalizmə məruz qalmışdır...

Həmçinin, son dövrlərdə nəşr olunan əsərlərdə yenə də erməni təsiri ilə albanların xristianlığa keçid tarixinin saxtalaşdırılması, alban dilinin mənşəyi, əlifbanın tərtib edildiyi dil məsələsi, alban etnosunun etnik mövcudluğu və s. məsələlər erməni tarixşünaslığından Qərb tarixşünaslığına da keçmiş oldu. Buna ən yaxşı mi-

sallardan biri 2023-cü ildə De Gruyter nəşriyyat evinin çap etdiyi sorğu kitabıdır. Qərbdə Albaniya tarixi ilə bağlı çap olunmuş ən son əsərlərdən biri olan "Caucasian Albania: an international handbook" (Qafqaz Albaniyası: beynəlxalq sorğu kitabçası) kitab Cost Gippert və Jasmin Dum-Traqutun redaktəsi ilə çap olunmuşdur [7]. Təəssüflər olsun ki, Gippert kimi təcrübəli insan Albaniya tarixi ilə yaxından tanış olan nüfuzlu alimləri deyil, əsasən ermənilərdən ibarət olan, albanşünaslıqla birbaşa əlaqəsi olmayan şəxsləri öz ətrafında birləşdirərək sorğu kitabının müəllif heyətini formalaşdırmışdır. Ümumilikdə kitabda 15 müəllifin 5 bölmə üzrə 16 məqaləsi verilmişdir. Kitabın bəzi məqalələri istisna olmaqla əsasən Albaniya tarixinin əksər məsələlərinin təhrifi, tarixi faktların və qaynaqların saxtalaşdıran materiallardan ibarətdir. Albaniyanın xristianlıq tarixi, dövlətçilik tarixi, etnik tarixi, tarixi coğrafiyası, alban əlifbası və dili, maddi mədəniyyət abidələri ilə bağlı demək olar ki, bütün materiallarda təhrifləri görmək mümkündür.

**Nəticə**

Beləliklə, Qərb tarixşünaslığında Albaniya tarixi ilə bağlı tədqiqatları ümumiləşdirdikdə aşağıdakı nəticələrə gəlmək olur.

- Qərb tarixşünaslığının Albaniya ilə tanışlığı XIX əsrin I yarısına təsadüf edir və bu mərhələdə albanlar və Albaniya dövləti barədə materiallar əsasən ensiklopedik xarakter daşıyır, ciddi elmi araşdırmalar deyildir.
- Sovet dövrünə təsadüf edən tədqiqatlarda alban ədəbiyyatı üzrə ciddi elmi araşdırmalara, həmçinin alban əlifbası üzərində ilk tədqiqatlara başlanıldığını görürük. Lakin, ən əhəmiyyətli xüsusiyyət bu mərhələdə alban mövzusunun tarixi mövzu olmaqdan çıxaraq siyasiləşdiyidir.
- 1990-2000-ci illərin tədqiqatlarında Albaniya tarixinin spesifik mövzuların tədqiq olunduğunu, alban əlifbasının deşifrə olunması işinin nəticələrini görürük.
- II Qarabağ müharibəsindən sonrakı mərhələdə isə Qərb tarixşünaslığında daha çox Albaniyada xristianlıq, alban abidələri, alban əlifbası ilə bağlı mövzular aktual olmuşur və olmaqda davam edir.

**Ədəbiyyat siyahısı**


1. Alison, M.V. **The Rebels of Early Abbasid Albania** // Berlin-Boston: Caucasian Albania: An International Handbook, - 2023, - s. 489-514.
2. Alison, M.V. The Armenian Sources of Balādhurī's Kitāb futūḥ al-buldān: A Study of the Islamic Incursions into Armenia, Georgia, and Caucasian Albania (22-4AH/642-5CE) // Islam on the Margins: Studies in Honor of Michael Bonner, - 2022. - s. 20-46.
3. Alison, M.V. **Buldān al-Rān: the Many Definitions of Caucasian Albania in the.Abbasid Period** / - Piscataway: Albania to Arran: The East Caucasus between the Ancient and Islamic Worlds, - 2020. - s. 37-84.
4. Albania / Encyclopedia Britannica. Edinburgh: Adam And Charles Black, - 1875, - l vol., - s.448.
5. Albanie du Caucase ou Aghovanie // Nouveau Larousse illustré : dictionnaire universel encyclopédique by Larousse, Pierre, - 1817-1875; Augé, Claude, - 1854-1924, - 1898, - I vol., - s. 158.
6. Boré, E. Histoire des Aghovans par Moise Galkantouni extraite et traduite du manuscript armenien // – Paris: Vouvelles annales de voyages, 1948. №1, - s. 53-93.
7. Caucasian Albania: an international handbook / Ed. By J. Gippert and J. Dum-Tragut. Berlin-Boston: De Gruyter, 2023. - 752 p.
8. Dowsett, Ch. Neglected passage in the History of the Caucasians Albanians / London: Bulletin of the School of Oriental and African Studies (BSOAS), 1957. XIX/3, - s. 456-468.
9. Dowsett, Ch. The History of the Caucasian Albanians by Movses Dasxuranci / Ch. Dowsett. – London: Oxford University Press, 1961. – 138 s.
10. Dowsett, Ch. The Pentitential of David of Ganjak / Corpus Scriptorum Christianorum Orientalium, 216, 217, Scriptores Armeniaci 3, 4, edition and translation, Louvaın: Secretarıat DU Corpussco, 1961, - 106 s.
11. Dudwick, N. Armenian-Azerbaijani relations and Karabagh: history, memory and politics // - Watertown: Armenian Review, 1994. 46 (1-4).

12. Dudwick, N. The case of the Caucasian Albanians: ethnohistory and ethnic politics / Paris: Cahiers du Monde russe et soviétique, 1990. № 31 (2-3), - s. 377-384;

13. Dumézil, G. Une chrétienté perdue: les Albanais du Caucase / - Paris: Melanges Asiatiques, 1940. №1, - s. 126-132.

14. Eranshahr nach der Geographie des Ps. Moses Xoranac'I / Transl. Joseph Marquart/Markwart. – Berlin: Weidmannsche Buchhandlung, - 1901, - 363 s.

15. Fabian, L. Numismatic Communities of the Northern South Caucasus: Geospatial Analysis of 3rd c. BCE–3rd c. CE Coin Finds from Caucasian Iberia and Caucasian Albania / London: In Sinews of Empire: Networks of the Roman Near East. - 2017, s. 29–63.

16. Fabian, L. Albania in Greek and Latin Texts: The Use and Utility of 'Views from the West // Albania to Arrān: The East Caucasus between the Ancient and Islamic Worlds (ca. 330 BCE–1000 CE). – 2020. - s. 13–30.

17. Fabian, L. Bridging the Divide: Marriage Politics across the Caucasus // - Kraków: Electrum, 2021. № 28, - s. 221–244.

18. Gippert, J. Fragments of St. Johns Gospel in the language of the Caucasian Albanians. Textual Research on the Psalms and Gospelm. The Tbilisi Colloquim on the Editing and History of Biblical Manuscripts / J.Gippert. Boston: Brill, 2012. - s. 237-244.

19. Gippert, J. Old Armenian and Caucasian Calender Systems: Albanian Month names // - Cleveland: Annual Armenian Lunguistics, 1988. - s.35-46.

20. Gippert, J. The scripts of the Caucasian Albanians in the light of the Sinai palimpsest // The Creation of the Caucasian Alphabets as Phenomenon of Cultural History. Referate des Internationalen Symposiums , - Wien: 1.-4. Dezember, - 2005, - s. 39-50.

21. Gippert, J. Relative Clauses in Vartashen Udi Preliminary Remarks // - London-Boston: Iran and Caucasus. - 2011, - s. 207-230.

22. Gippert, J., Schulze, W. Some Remarks on the Caucasian Albanians Palimpsests //- London-Boston: Iran and the Caucasus, 2007. № 2, - s. 207-208.

23. Herrmann, A. Kaspische Meer // Stuttgart: Paulys Realencyclopädie der classischen Altertumswissenschaft (RE), 1919. Bd. 10, 2, - s. 2275- 2282.

24. Herrmann, A. Lupenii // Stuttgart: RE, 1927. - s. I815.

25. Hewsen, R.H. Ethno-history and the Armenian influence upon the Caucasian Albanians / Philadelphia: Classical Armenian culture: influence and creativity, 1982. – s. 27-40.

26. Hewsen, R.H. Albania (Caucasian). Ganjak. / Dictionary of the Middle Ages, 1985. - vol. 1, - s. 125-127; - - Vol 5, 1985. - s. 355.

27. Hewsen, R.H. On the Alphabet of Caucasian Albanians / - Paris: Revue des Etudes armeniennes, 1964. №1, - s. 427-432.

28. Hübschmann, H. Die altarmenischen Ortsnamen / H.Hübschmann. - Strassburg: Karl J. Trübner, 1904. – 324 s.

29. İberia and Rome / A.Furtwängler, I.Gagoshidze [et.]. - Langenweißbac: Beier & Beran, 2008. – 309 s.

30. Kiepert, H. Lehrbuch der alten Geographic / . H.Kiepert, - Berlin: Verlag von Reimer, 1878. – 144 s.

31. Mahé, J-P. L'editio princeps des palimpsestes albaniens du Sinaï (note d'information) / - Paris: Comptes rendus des séances de l'Académie des Inscriptions et Belles-Lettres, 2009. № 3, - s. 1071-1081.

32. Marie-Félicité, B. Extraits de l'histoire des Aghovans en arménien par Moise Caghancatovatsi / - St-Petersbourg: Additions et éclaircissements a l'histoire de la Géorgie, 1851. – s. 468-494.

33. Schulze, W. Caucasian Albanian and the Question of Language and Ethnicity / - Berlin-Boston: Sprachen, Völker und Phantome; Sprach- und kulturwissenschaftliche Studien zur Etnizität. 2018. - s. 275–312.

34. Schulze, W. From Caucasian Albanian to Udi //- London-Boston: Iran and Caucasus. - 2015. – s. 149–177.

35. Schulze, W. Die Sprache der Uden in Nord-Aserbaidschan. Studien zur Synchronie und Diachronie einer süd-ostkaukasischen Sprache / W. Schulze. – Wiesbaden: Harrassowitz, 2003. – 313 s.

36. Seibt, W.-J., Preiser-Kapeller. Die Entstehungder kaukasischen Alphabete als kul-

turhistorisches Phänomen. The Creation of the Caucasian Alphabets as Phenomenon of Cultural History // Referate des Internationalen Symposions, - Tbilisi, - 8 September, 2011.

37. The Albanians Chronicle of Mkitar Gos / C.J.F.Dowsett. – BSOAS, 1958. – T.XXI/3. – p.476-478.s.

38. The Caucasian Albanian Palimpsets of Mount Sinai / , / W.Schulze, J.Gippert [et]. – Turnhout: Brepols Publishers, 2008. - I vol., - 530 s.

39. Tomaschek, W. Albana, Albania, Albanoi, Albanos / Stuttgart: Paulys Realencyclopädie der classischen Altertumswissenschaft (RE), 1894. - Bd.l, - s. I 303-1307.

40. Tomaschek, W. Chabala / Stuttgart: Paulys Realencyclopädie der classischen Altertumswissenschaft (RE), 1899. - Vol. III, - s. 2016

41. Tournebize, F. Aghouanie / Paris: Dictionnaire d'Histoire et de Géographie Ecclésiastique, 1904. – vol. 1, - s. 953-54.

42. Weinhold, R., Treide D. Die Völkerschaften des Kaukasus im Altertum nach verschiedenen antiken Autoren vom 6. Jahrhundert v. u. Ztr. bis zum 2. Jahrhundert n. u. Ztr. // - Berlin: Ethnographisch-Archäologische Forschungen, 1953. - s. 98–118.

43. Алиев, К. Г. Античная Кавказская Албания / К. Г. Алиев. - Баку: Азернешр, 1992. – 125 s.

44. Тревер, К. В. Очерки по истории и культуре Кавказской Албании (IV в. до н.э. - VII в. н.э.) / К.В.Тревер. - М-Л.: Изд-во АН СССР, 1959. – 391 s.

## Summary

**Ellada Bakirova**

### Western perspectives on the history of Albania: past and present

The article examines the stages of research on the history of Caucasian Albania in Western historiography. Although information about Albania began to appear in Europe from the 19th century, most of these sources were primarily encyclopedic in nature. Research of this period focused largely on Movses Kagankatvatsi's "History of Albania", the ethno-linguistic affiliation of the Albanians, and architectural monuments. During the Soviet period, the topic of Albania gradually became politicized, subject to falsifications under the influence of Armenian historiography, while at the same time research on the Albanian alphabet and literature expanded in the West. Since the 1990s, in connection with the occupation of Karabakh, studies on historical-geographical boundaries, ethnic composition, the decipherment of the Albanian alphabet, and the Sinai palimpsests have gained particular relevance. After the Second Karabakh War, Western scholarship has increasingly addressed Albania in the context of Christian monuments, cultural heritage, and ethno-linguistic issues. Thus, although interest in the history of Albania in the West can be traced back to the 19th century, over a long period the topic was often subject to political and ideological influences.

**Keywords:** *Albania, European historiography, research of the 1990s, Albanian alphabet, problems*

## Резюме

**Эллада Бекирова**

### Западное историографическое восприятие истории Албании: прошлое и настоящее

В статье рассматриваются этапы изучения истории Кавказской Албании в западной историографии. Хотя сведения об Албании начали появляться в Европе с XIX века, большинство из них имели преимущественно энциклопедический характер. Исследования того периода в основном сосредотачивались на «Истории Албании» Мовсеса Каганкатваци, этно-языковой принадлежности албанцев и архитектурных памятниках. В советский период тема Албании постепенно политизировалась, подвергалась фальсификациям под влиянием армянской историографии, одновременно в западных исследованиях расширялись работы по албанскому алфавиту и литературе. С 1990-х годов в связи с оккупацией Карабаха исследования историко-географических границ, этнической принадлежности, расшифровки албанского алфавита и синайских палимпсестов приобрели особую актуальность. После Второй карабахской войны западная историография все чаще рассматривает Албанию в контексте христианских памятников, культурного наследия и этно-языковых проблем. Таким образом, хотя интерес к истории Албании на Западе ощущался с XIX века, на протяжении длительного времени эта тема часто подвергалась политическому и идеологическому влиянию.

**Ключевые слова:** *Албания, Европейская историография, исследования 1990-х годов, албанский алфавит, проблемы*

UOT 94 (479.24)
https://doi.org/10.59849/2710-0820.2025.2.18

**İsmayıl Hacıyev**
*AMEA Naxçıvan Bölməsinin sədri, akademik*
*Azərbaycan*
*haciyev.i1951@gmail.com*

# NAXÇIVAN BÖLGƏSİNİN ETNİK TARİXİ VƏ MİLLİ TƏRKİBİNƏ DAİR

**Açar sözlər:** *Naxçıvan bölgəsi, etnik tarix, türkdilli xalqlar, rusdilli mənbələr, türkdilli qaynaqlar*

**Giriş.** Azərbaycanın ayrılmaz bir hissəsi olan Naxçıvan diyarının əlverişli təbii-coğrafi şəraiti qədim daş dövründən insanların burada məskunlaşmasına şərait yaratmışdır. ABŞ-Azərbaycan, Fransa-Azərbaycan arxeoloqlarının birgə tədqiqatları Daş dövrünə aid əldə edilmiş maddi-mədəniyyət nümunələri Naxçıvanda qədim insanların 2 milyon il bundan əvvəl məskunlaşdığını təsdiq edir [40]. Qazma mağarasındakı tədqiqatlar Paleolit dövrünün orta və son mərhələsində Naxçıvanda həyatın davam etdiyini göstərir. Üst Paleolit dövrü üçün xarakterik əlamətlərin izlənməsi qədim Qazma sakinlərinin qəbilə icmalarının yaranması ərəfəsində olduğunu təsdiq edir [39].

Naxçıvanda neolit dövrü e.ə. VII-VI minilliyi əhatə edir. Babək rayonunun Kültəpə kəndində yerləşən I Kültəpə abidəsinin araşdırılması onun Neolit dövründə Cənubi Qafqazın ən qədim yaşayış məskəni olduğunu göstərir [12, s. 5, 7, 13-21].

Naxçıvanda eneolit dövrü e.ə. VI-IV minillikləri əhatə edir. Cənubi Qafqazda Eneolit dövrünün erkən mərhələsi hələlik Naxçıvan abidələri ilə təmsil olunmuşdur.

E.ə. V-III minilliklərdə - Erkən Tunc dövründə Naxçıvanda Kür-Araz mədəniyyəti formalaşmışdır. Ən qədim Erkən Tunc dövrü abidələri Naxçıvan ərazisində aşkar olunmuşdur ki, bu da Naxçıvanın Kür-Araz mədəniyyətinin əsas vətəni olduğunu təsdiq edir [18, s.8]. Azərbaycanın cənubunda, eləcə də Naxçıvan ərazisində Kür-Araz mədəniyyətinin daşıyıcıları türkdilli kuti, lullubi, subi və turukki tayfaları olmuşdu.

E.ə. III minilliyin sonunda Azərbaycanın cənub rayonlarında baş verən sosial-iqtisadi dəyişikliklər Naxçıvanı da əhatə etmiş və bu ərazidə boyalı qablarla xarakterizə edilən yeni bir mədəniyyət formalaşmışdı. Orta Tunc dövrünə aid yaşayış yerlərinin tədqiqi bu dövrdə Naxçıvanda güclü tayfa ittifaqlarının və şəhər dövlətlərinin formalaşdığını təsdiq edir [6, s. 34-36, 52-57, 72-75].

E.ə. VII minillikdən başlayaraq ilk minilliklərə qədər olan və yaradılan mədəniyyətlərdə Naxçıvan əhalisi ya iştirak etmiş, ya da Naxçıvanı əhatə etmişdir.

**Naxçıvanın etnik tərkibi və türkdilli tayfalar**

Vaxtı ilə coğrafı cəhətdən Azərbaycanın mərkəzində yerləşən, geosiyasi mövqeyi ilə seçilən Naxçıvan ən qədim insanların yaşayış yeri, dünya sivilizasiya mərkəzlərindən biri kimi tanınmışdır. Naxçıvan ərazisində Daş dövründən başlayaraq müxtəlif tayfalar yaşamışlar. Bu tayfaların adları və onların etnik tarixi xüsusi tədqiqat predmeti olmamış və lazımi səviyyədə araşdırılmamışdır. Bununla belə, B.Budaqov, Q.Qeybullayev, İ.Kəngərli, Q.Budaqova və başqaları tədqiqat işlərində Naxçıvanın etnik tarixinə də toxunmuşlar [3]. Q.Qeybullayev isə bəhs olunan problemə ayrıca bir məqalə həsr etmişdir [9, s. 37-44]. Bütövlükdə götürdükdə isə Naxçıvan diyarının etnik tarixinin və əhalisinin milli tərkibinin öyrənilməsinə böyük ehtiyac vardır. Çünki bəzi araşdırıcılar bu problemlə bağlı saxta və uydurma fikirlər irəli sürür və bununla da ərazinin "Böyük Ermənistan"ın tərkib hissəsi olduğunu əsaslandırmağa, Azərbaycan türklərinin bu ərazilərə gəlmə olduğunu sübut etməyə çalışırlar. Əslində, bu fikir tamamilə yanlışdır, heç bir elmi əsasa söykənmir [33, s. 58-61]. Azərbaycan türkləri bu ərazilərin ən qədim sakinləri olmuşlar.

Naxçıvan diyarında yaşayan tayfalar Urmiya gölünün ətrafında yaşayan tayfalarla çox sıx əlaqədə olmuşlar. Kuti, lullubi, subi, turukki və başqa tayfalar bu ərazilərin ən qədim sakinləri olmuşlar. Naxçıvan bölgəsi tarixən Azərbaycanın cənub ərazisində mövcud olmuş dövlətlərin tərkibində olmuşdur. Həmin dövlətlərin türkmənşəli etnosların siyasi qurumları olması artıq şübhə doğurmur.

E.ə. I minilliyin əvvəllərində göstərilən tayfalar əsasında Assur mənbələrində adları manna və maday kimi çəkilmiş etnoslar tarix səhnəsinə çıxırlar [3, s. 37]. Manna (e.ə. IX-VII əsrlərdə) və Midiya (e.ə. 673-550-ci illər) dövlətləri türk xalqlarının tarixində mühüm siyasi qurumlardır. Mannalılar türkmənşəli qəbul edilsə də, midiyalıları tədqiqatçılar belə qəbul etmirlər [31]. Lakin türkoloq A.Sanduç midiyalıları türkmənşəli hesab edir [19]. Naxçıvan bölgəsi müxtəlif vaxtlarda Midiyanın sərhədləri daxilində olmuşdur. E.ə. VI əsrin ortalarında Naxçıvan ərazisinə 10 min nəfərdən ibarət midiyalı ailə köçürülmüşdür [3, s. 14]. Ərəb sərkərdəsi Həbib ibn Məsləmənin Naxçıvan əhalisi ilə bağlı verdiyi fərmanda Naxçıvan əhalisi “maq” (mar) adlandırılır [10, s. 82]. “Naxçıvan marların ölkəsidir” (F.Buzand). “Qoxtanda marların kəndləri mövcuddur” və s. Bunlar göstərir ki, Naxçıvan bölgəsində madaylar (maqlar, marlar) yaşamışlar və onların türkmənşəli olması qəbul edilir [19]. Bununla əlaqədar Q.Qeybullayev maraqlı ümumiləşdirmələr aparır: “Naxçıvan ərazisi eramızdan xeyli əvvəl başlayaraq Azərbaycanın tərkib hissəsi olmuşdur. Bu ərazinin qədim əhalisi Cənubi Azərbaycan ərazisində yaşamış tayfalarla eyni etnik mühitə malik olmuşdur” [9, s.39].

Naxçıvan əhalisinin etnik tərkibi tarixən türkdilli tayfaların üstünlüyü, çoxluğu ilə diqqəti cəlb edir. Çünki bu bölgənin ən qədim yerli əhalisi türkdilli tayfalar olmuşdur. Bu bölgəyə tarixin sonrakı mərhələlərində müxtəlif türkdilli tayfalar da köç etmiş və bu ərazidə yaşayan eynidilli tayfalarla qaynayıb qarışmışdır. Tədqiqatçıların fikrincə, hələ e.ə. VII əsrdə şimal istiqamətindən Cənubi Qafqaza gəlmiş sak tayfaları Naxçıvan ərazisində də məskunlaşmışdır. Bu tayfaların türkdilli olması tədqiqatçılar tərəfindən sübut edilmişdir [10, s. 151-170]. Sakların bir qolu olan kol tayfası da (Koltan, Qoxtan) Naxçıvan bölgəsinin Ordubad ərazisində yaşamışlar. Ordubadın Nüsnüs kəndindən qərbdə “Sak dağı” adlanan bir dağ sakların adını yaşatmaqdadır. Sözügedən kəndin ən böyük küçələrindən biri “Sak” adını daşıyır və bu küçə Sak dağının şərqindədir. Mahmud İsmayıl bu toponimlərin, eləcə də Nüsnüs kəndinin şimal-şərq, Naxçıvanın qərb istiqamətində yerləşən Saqqarsu adlı yerin və çayın da saklarla bağlı olduğunu yazmışdır [8, s.19]. Herodota görə saka (sak – İ.H.) etnonimi skif anlayışı ilə eynidir, bircə o fərq var ki, bu etnosu ellinlər “skif” çağırırdılar, farslar isə “saka” adından istifadə etmişlər [30].

E.ə. II əsrdə Naxçıvan bölgəsində qədim türkmənşəli bulqar tayfasına mənsub ailələrin məskunlaşması da elmə məlumdur. Ordubad ərazisindəki Vənənd yaşayış məntəqəsinin onlara məxsus olması bəllidir [14, s. 133-135]. Qafqaz dağlarından şimalda yaşayan bulqarlar e.ə. 149-127-ci illərdə Cənubi Qafqaz ərazisinə gəlmişlər. V əsr müəllifi yazır ki, gələnlər öz başçılarının adı ilə məskənlərini Vənənd adlandırdılar [2, s. 106-107]. Tədqiqatçıların bir qisminin ehtimalına görə toponim Azərbaycanın məşhur əlvəndi tayfasının adından götürülmüşdür. Oykonim hər iki halda etnotoponimdir və türk mənşəlidir.

**İlk orta əsrlərdə bölgəyə türk tayfalarının gəlməsi**

İlk orta əsrlərdə Naxçıvan bölgəsinə qarqar, şirak, basin, alban, xəzər, gerus və s. türk qəbilələri gəlmişlər. VII-VIII əsrlərdə baş vermiş ərəb-xəzər müharibələrinin döyüş meydanı əsasən Azərbaycan ərazisi idi [24, s. 181, 205-211]. Mənbələrdə xəzərlərin abas, kulac, tarna, avar, oğuz, bulqar, biral, paçinak, kabar və başqa tayfalardan ibarət olduğu qeyd olunmuşdur [28, s. 43-46]. Q.Budaqovanın fikrincə, Naxçıvan bölgəsinə xəzərlərin içərisində peçeneqlər də gəlmişlər [3, s. 16, 20-21]. Peçeneqlər Albaniyada, indiki Ermənistan ərazisində və Naxçıvan bölgəsində məskunlaşmışdılar. Mənşəcə onlar antik mənbələrdə qeyd olunan basinelərdir. Peçeneqlər Orta Asiyanın qədim türkdilli tayfalarından biri olmuşdur. Naxçıvan bölgəsində bu etnonim Biçənək adlı bir yaşayış məntəqəsi və aşırım adında əksini tapmışdır. Tədqiqatçılar peçeneqlərin bir sıra ərazilərdə və müxtəlif tayfalardan ibarət olduqlarını yazmışdır. Cənubi Qafqazda mövcud toponimlər əsasında

həmin tayfaların əslində Kuerçi, Erdim, Çur, Kuloba, Qarabay, Qarabağ, Kapan və Çoban adlandırdıqları müəyyən edilmişdir [28, s. 106-107]. Həmin tayfa adlarının Yardımlı, Çoryurt, Göyərçin, Qarabağ və Qapanlı toponimlərində əks olunduğu aşkar edilmişdir. Bunlar içərisində Qarabağ tayfasının adı xüsusilə diqqəti cəlb edir. Ona görə ki, Azərbaycanda, Şərqi Türkiyə ərazisində və Naxçıvan bölgəsində Qarabağ, Qarabağlar toponimləri geniş yer tutur.

Qarabağ toponimlərinin peçeneqlərin Qarabay tayfasının adı ilə bağlılığı şübhə doğurmur, çünki peçeneq dilində Qarabay etnoniminin sonundakı "y" səsinin başqa türk dillərində "f" səsinə uyğunluğu fikri vardır [26, s. 257]. Digər tərəfdən, Qarabağ toponimləri çox geniş areala malikdir və əsasən peçeneqlərin yaşadıqları bölgələrdə mövcuddur.

Erkən orta əsrlərdə Naxçıvan bölgəsinin etnik tarixində bulqar və peçeneqlərlə yanaşı, hunlar, kəngərlər və xəzər tayfaları da müəyyən rol oynamışlar. Naxçıvan bölgəsində Xəzəryurd oronimi göstərir ki, burada xəzərlər də yaşamışlar. Şimali Qafqazın Xəzərsahili ərazisi xəzərlərin ana yurdu hesab olunur [35, s.16]. Ona görə də xəzərlərin Cənubi Qafqazla münasibətlərinin qədim tarixi vardır. V əsrə aid bir mənbəyə görə xəzərlərin indiki Ermənistan ərazisinə hərbi yürüşləri eramızın II əsrində başlanmışdır [32, s. 113]. Alban tarixçisi Musa Kalankatlı xəzərlərin Albaniyaya ilk hücumunu 350-ci ilə aid edir. Ərəb tarixçisi Təbəriyə görə Sasani şahı Xosrov Ənuşirəvan Kür-Araz çayları arasında 10 min Xəzər ailəsini yerləşdirmişdi [27, s. 107-116].

V-VI əsrlərdə xəzərlərin Cənubi Qafqaza basqınları zamanı onların bir hissəsi burada məskunlaşmışdı. Sonra da 623-cü ildən başlayaraq 796-cı ilədək vaxtaşırı Ərəb-Xəzər müharibələri baş vermişdir ki, bu müharibələrin döyüş meydanı əsasən Azərbaycan ərazisi idi [24, s. 181, 205; 27, s. 108-115; 35, s. 35-39].

Mənbələrdə xəzərlərin abas, kulas, tarna, avar, oğuz, bulqar, bizal, paçinak, kabar və b. tayfalardan ibarət olduğu qeyd olunmuşdur [26, s. 195-196, 237]. Xəzər tayfalarının Naxçıvan bölgəsində məskunlaşma vaxtını dəqiq müəyyənləşdirmək mümkün olmasa da, bəzi faktlarla fikir yürütmək olar. "VII əsr erməni coğrafiyası" adlı əsərdə Naxçıvan bölgəsində Tarnavar toponiminin qeyd olunmasına görə [25, s. 48] belə nəticəyə gəlmək olar ki, xəzərlərin bu tayfası hər halda VII əsrdən qabaq gəlib burada məskunlaşmışdı.

**Kəngərlər haqqında**

Tarixi mənbələrdən məlumdur ki, peçeneqlərin bir hissəsi kəngər adlanmışdır. Bilqamış dastanından bəhs edən F.Ağasıoğlu yazır ki, "ölkənin şumer hissəsinin adı Kİ.EN.Qİ. şəklində yazıldığından bəlli olur ki, şumerlər özlərini kenqer adlandırmışlar" [4, s. 83]. Kenqer-kəngər tayfaları Orta Asiyada Kang dövlətində yaşayanların adıdır və o, "Kanq ərləri, kişiləri" mənasını verir.

Naxçıvan bölgəsində kəngərlər tarixən mühüm rol oynamışlar. Kəngərlərin Cənubi Qafqazda məskunlaşması eramızın əvvəllərinə aiddir. Bu dövrdə Mərkəzi Asiyadan Şərqi Avropaya hərəkət edən hunlar Kanq əyalətindən keçərək kəngərlərin bir hissəsini özlərinə qatmışlar [13, s. 16]. Eramızın əvvəllərində türkdilli kəngərlər Azərbaycan ərazisində məskun idilər. Cənubi Qafqazda kəngərlərin iki regionda yaşaması məlumdur: həm Albaniyanın qərbində- onun Gürcüstan və Ermənistanla sərhəd zonasında, həm də Naxçıvanda. Cənubi Qafqazda kəngərlərin adı hələ 193-213-cü illərə aid hadisələrdə çəkilmişdir və II əsr yunan müəllifi Klavdi Ptolomey Albaniyada şəhərlərin birinin Qanqar adlandığını yazmışdır [3/2, s. 155-156]. Suriya mənbələrində Naxçıvan bölgəsində kəngərlər ilk dəfə 542-552-ci illərin hadisələrində çəkilmişdir. Ona görə də bəzi tədqiqatçıların kəngərlərin Naxçıvan bölgəsində məskunlaşmasını 826 və 836-cı illərə aid etmələri [23, s. 41] həqiqətə uyğun deyildir. Kəngər tayfası uzun əsrlər boyu Naxçıvan bölgəsində yaşamış və bölgənin fəaliyyətində yaxından iştirak etmişlər.

Oğuz-türk tayfası olan kəngərlərin nəsil qolları haqqında Səfəvi imperiyası zamanında olan yazılı mənbələr dövrümüzədək gəlib çatmışdır. Kəngərli arxivində olan tarixi sənədlərə əsasən Kəngərli elinin qollarına məxsus 23 tayfa adı çəkilmişdir [20, s. 18-20].

**XIX əsr mənbələri Kəngərlilər haqqında**

Rusiya-İran müharibələrinə aid salnamələrdən əldə edilmiş məlumatlara görə Naxçıvan uzun müddət Səfəvi dövlətinin xidmətinə "Naxçıvan süvariləri" adı altında Kəngərli elindən yığma atlı dəstələr göndərirdi. Naxçıvan xanlı-

ğını yaradan və onu bir neçə əsr idarə edən kəngərlilər olmuşlar [11, s.76]. 1828-ci ildə Naxçıvan xanlığı Rusiya imperiyasına birləşdirildikdən sonra, 1831-1832-ci illərdə ilk dəfə Kəngərli tayfası Naxçıvan əyalətində və Naxçıvan şəhərində siyahıya alınmışdır. XIX əsrin əvvəllərinə aid məlumatlarda Naxçıvan əyalətindəki 2791 azərbaycanlı ailələrdən 920-si kəngərlilər nəslinə mənsub idi [29, s. 101-102]. İ.Şopenə görə Naxçıvanda kəngərlilər aşağıdakı tayfalardan ibarət idi. Yurdçu, Qızıllı, Sarvanlar, Xalxallı, Pirhəsənli, Salaş, Ağabəyli, Qarabağlar, Kəmən, Cağatay, Qaraxan, Hacılar, Cəmşidli, Bilici, Qızıl İlan, Qurdlar, Qaradolaqlı, Şabanlı, Kəlfir, Ərəfsəli, Qaracalı, Qarakövsərli, Bolqarlı, Kürd Mahmudlu, Əliyanlı, Ziyadlı, Bərgüşadlı [38, s. 537-538]. Naxçıvanda Kəngərli tayfalarına 6437 nəfər mənsub idi. Bütünlükdə isə o vaxt Naxçıvan əyalətində 24385 nəfər adam yaşayırdı [38, s. 525]. İ.Şopen Kəngərlilər nəslinin 1433 ailədən ibarət olmasını göstərir. Ola bilsin, kəngərlilərdən Qarabağda qışlayanları Naxçıvanda aparılan bəzi siyahıya alınmalarda nəzərə almayıblar.

1832-ci il kameral siyahısında Kəngərli tayfasına geniş yer verilmişdir. Burada kəngərlilərin Kəngərli tayfası və onun tirələri ayrıca olaraq qeyd edilir: 411 ailə, 879 kişi, 815 qadın, cəmi 1694 nəfər. Digər tayfalara mənsub azərbaycanlılar: 494 ailə, 1004 kişi, 926 qadın, cəmi 1930 nəfər... Köçürülən ermənilər: 265 ev, 600 kişi, 510 qadın, cəmi 1110 nəfər... Bütünlüklə, şəhərdəki evlərin sayı 1330, 2871 kişi, 2599 qadın, cəmi 5470 əhali göstərilib. Kameral siyahıda 2 xan ailəsi, 45 bəy və sultan ailəsi, 11 nəfər hərbçilər qeyd olunub [15, v.2-26].

1832-ci ilə aid arxiv işində kəngərli tayfasının aşağıdakı tirələri qeyd edilib: Bilici, Qaradolaqlı, Sarvanlar, Xalxallı, Salahı, Gomayıl, Qarabağlar, Ağabəyli, Cağataylı, Qaraxanbəyli, Qəclər (Kəclər), Cəmşidli, Şabanlı (Şahbanlı), Kəlfir, Pirhəsənli, Ərəfsəli, Qızıllı, Qara köçəri, Qaracalı, Yurdçu, Əlixanlı, Əliələkbərlilər, Qızılqışlaqlılar, Qurdlar və s.

Kameral təsvirdə Kəngərli tayfasına mənsub tirələrin yaşadıqları məhəllələr də qeyd edilib. Həmin ildə Naxçıvan şəhərində aşağıdakı mərhələlər qeydə alınıb: Sarvanlar, Erməni məhəlləsi (1828-ci ildə İrandan köçürülən ermənilər), Oruc məhəllə, Köhnə Qala, Xoşulu, Əlixan, Çaparxana, Ziyilarxı, Bilici, Şahab, Xoylu, Təzəkənd, yaxud Uzun Divar. Bunların hər birində yaşayan kəngərlilərin mənsub olduqları tayfa tirələrinin də adları qeyd edilib. Məsələn, Naxçıvan şəhərinin Sarvanlar məhəlləsində Kəngərli tayfasına mənsub olan aşağıdakı tirələrin (nəsillərin) adlarına rast gəlinir: Yurdçu, Qızıllı, Qaradolaqlı, Pirhəsənli, Sarvanlar, Salahılar, Xalxallılar, Gomayıllar, Qarabağlar, Ağabəylilər, Cığataylılar, Qaraxanbəylilər. Əlixanlı məhəlləsində isə yaşayan kəngərli tirələri: Ağabəyli, Ərəfsəli, Qızıllı, Əlixanlı, Salahlı, Qəclər (Kəclər). Şahab hissəsində isə əsasən Bilicilər yaşayırdı [15, v.265].

Ümumiyyətlə, 1832-ci il kameral siyahısı Naxçıvan kəngərliləri haqqında ətraflı məlumat verən orijinal ilk rusdilli mənbədir [15, v. 357]. Təsadüfi deyildir ki, V.Qriqoryev və İ.Şopen əsərlərini yazarkən bu kameral siyahıdan faydalanmışlar.

"Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri"nə görə, "Naxçıvan elatından" olan Kəngərli camaatı Qarabağda qışlayaraq Naxçıvanda yaylayarmış [7, s. 467].

İ.Şopen də "Erməni vilayəti..."nə həsr olunmuş əsərində [38] Kəngərli nəsli, onların yerləşdiyi ərazilər, əhalinin tərkibi haqqında da məlumat verir. Onun yazdığına görə, Rusiya Naxçıvanı işğal edən zaman orada 67 xan, 373 bəy və sultan olmuşdur [38, s. 468-469]. Digər bir rus müəllifi K.Smirnov Naxçıvanda Kəngərli nəslilə yanaşı, aşağıdakı bəy nəsillərinin olmasını qeyd etmişdir: Talışovlar, Ağasıbəyovlar, Muradəsilbəyovlar, Şahtaxtinskilər, Vəzirovlar, Camalbəyovlar, Sultanovlar, Elçiyevlər və s [37, s. 51].

XIX əsrin 30-cu illərinə aid mənbədə göstərilir ki, Naxçıvan əyalətində iki böyük tayfa birləşməsi yaşayır: Kəngərlər və Qaracalar. Burada qeyd olunur ki, Kəngər tayfaları aşağıdakı kəndlərdə məskundurlar: Yurdçu – Cəhri kəndində; Cümşüdlü – Govurarx, Xok, Şahtaxtı və Gildasar kəndlərində; Xalxallı – Vayxır kəndində; Qaraxanbəyli – Qaraxanbəyli kəndində; Ağabəyli, Caqataylı, Qaracallı, Bilici, Qaraqulağı, Keçilər, Sarvanlar, Şahbanlı, Əlixanlı – Naxçıvan şəhərində; Ərəfsəli – Kərimbəy Dizə kəndində; Səleykə - Nəhəcir, Külüs və Mahmudoba kəndlərində; Qızıllı – Kültəpə kəndində; Pir Həsənli – Kaqan kəndində; Qızılqışlaq –

Bulqan kəndində; Kəlfir – Tırkeş və Sələsüz kəndlərində; Qarabağlar – Qarabağlar kəndində [36, s. 32]. Qaracalar tayfası isə Dərələyəz mahalında yarımköçəri həyat tərzi keçirirdilər.

**Tarixi qaynaqlar və Naxçıvanda türk tayfalarının izləri**

Naxçıvan ərazisindəki coğrafi adlardan aydın olur ki, burada abdal, hun, quşçu, bayan və b. qədim türk tayfaları da məskunlaşmışdılar. XI-XII əsrlərdə Naxçıvana səlcuq-oğuz türkləri də gəlmişlər. Bunlara yaycı, bəkdili, xələc və b. oğuz tayfaları ilə bağlı toponimləri göstərmək olar. Sonralar ustaclı, rumlu və b. türk qəbilələri diyarda daha fəal olmuşlar. Türk tayfalarından didivarlı, qızıllı, əmirxanlı, ərəfsəli, hacılı, keçili, kəlfirli, qaraxanbəyli, qarxunlu, əlixanlı, muğanlı və onlarla başqaları bölgənin aborigen xalqları olmuş, bu gün də muxtar respublika ərazisində həmin tayfaların izləri qalmış, bir sıra yaşayış məskənləri onların adları ilə adlanmışdır.

Göründüyü kimi, tarixən Naxçıvan əhalisi türklərdən – azərbaycanlılardan ibarət olmuşdur. Dövrün mənbələrində bu barədə faktlara kifayət qədər təsadüf olunur. Məsələn, ərəb xəlifəsi I Müaviyə (661-696) Azərbaycana qoşun göndərməzdən qabaq öz saray alimini çağırıb soruşur: - Azərbaycan barəsində nə bilirsən? Azərbaycanla yaxşı tanış olan alim belə cavab verib: - Azərbaycan qədimdən türklər ölkəsidir və onlarla məskundur [17]. Müəllifi məlum olmayan "Əcaib əd-Dünya" əsərində (XIII əsr) Naxçıvanda əhalinin sıx olması, ağbəniz olmaları, bədii oyma və ağac emalı sahəsində mahir olmaları, qorxmaz, qonaqpərvər və xoş xasiyyətləri ilə seçilmələri, dillərinin xoşagələn olması, xüsusilə İslam dininin safei təriqətinə itaət etdikləri və s. barədə maraqlı məlumatlar verilir [16, s. 135-136].

"Naxçıvan sancağının müfəssəl dəftəri" də etnik məsələlərin araşdırılması baxımından diqqəti cəlb edir. Belə ki, XVIII əsrin 20-30-cu illərində Naxçıvan sancağının əhalisi siyahıya alınmış, əhalinin milli tərkibi, məşğuliyyəti, vergi sistemi, demoqrafik vəziyyəti qeydə alınmışdır. "Müfəssəl dəftər"də Naxçıvana qarşı əsassız ərazi iddiaları irəli sürənlərə qarşı obyektiv təhlillər verilir. Sübutlarla göstərilir ki, lap qədimdən Naxçıvan sancağı bugünkü ərazi ilə bərabər, Ermənistanla həmsərhəd rayonların ərazilərini də əhatə etmiş (Vedi rayonunun cənub-şərq hissəsi, Dərələyəz rayonunun bütün ərazisi, Cermux rayonunun yarısı, Sisyan (Qarakilsə) rayonunun əsas hissəsi və Mehri (Meğri) yaşayış məntəqəsi daxil olmaqla rayonun bir neçə yaşayış məntəqəsi). Bu torpaqlar əzəli oğuz yurdu olmuşdur. "Naxçıvan dəftəri"ndə Naxçıvanın inzibati-ərazi bölgüsü, nahiyələr, nahiyələrə daxil olan şəhər və kəndlərin adları, dövlətin vergi sistemi, vergiyə cəlb olunan şəxslərin adı və ata adları, müxtəlif məscid, karvansara, dükan, bazar, hamam və s. adları verilmişdir ki, bunların hamısı Azərbaycan dilindədir. XVIII əsrin əvvəllərində Naxçıvan sancağındakı müsəlmanların əhalinin ümumi sayındakı nisbəti təqribən 70-76 faiz təşkil edirdi [14, s. 15].

"Naxçıvan dəftəri"ndə verilmiş inzibati-ərazi bölgüsündən görünür ki, Naxçıvan sancağına 14 nahiyə - Naxçıvan, Əlincə, Sair Məvazi, Dərəşahbuz, Mülki-Aslan, Məvaziyi-Xatun, Qarabağ, Qışlağat, Dərəşam, Azadciran, Şorlut, Dərənürgüt, Sisyan, Dərələyəz [14, s. 11] daxil idi ki, bunların da adları Azərbaycan-türk mənşəlidir.

Naxçıvanın orta əsrlər tarixi barədə ilk mənbələrin məlumatı və tədqiqatçıların rəyləri həmin ərazinin bütün orta əsrlər boyu, əvvəlki dövrlərdəki kimi, Azərbaycanın tərkibində olduğunu və əhalisinin azərbaycanlılardan ibarət olduğunu təsdiq edir.

**Erməni uydurmaları və tarixi həqiqətlər**

Naxçıvana qarşı ərazi iddialarını bu bölgənin etnik tarixi, əhalinin milli tərkibi, coğrafi adların 97,4 faizinin Azərbaycan dilində olması faktları rədd edir. Yuxarıda qeyd edildiyi kimi, Naxçıvan bölgəsində, əsasən, türkdilli tayfalar yaşamışlar. Azərbaycanlılar qədim zamanlardan Naxçıvanın əsas etnosu olub. Siyasi hakimiyyət də təbii olaraq həmişə azərbaycanlıların əlində olub. Nəinki Naxçıvan bölgəsində, indiki Ermənistan deyilən ərazidə də azərbaycanlılar yaşamışlar. "İrəvan müsəlman sakinli vilayət olmuşdur", "Qədim türk-oğuz yurdu Ermənistan" əsərlərində bunlar faktlarla əsaslandırılmışdır [21, s.16-19, 90-91]. XIX əsrin ortalarında İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasını tədqiq etmiş A.V.Parvitski yazır ki, qəzada 55 azərbaycanlı kəndi, 7 erməni kəndi vardı [34, s.99].

XIX əsr rus mənbələrində də Naxçıvan əhalisinin sayı və etnik tərkibi haqqında maraqlı məlumatlar vardır. Elə bir XIX əsr rus tədqiqatçısı tapmarsan ki, Qriboyedovun "müsəlman ölkəsi" adlandırdığı Naxçıvanı digər millətlərə aid etmiş olsun. Qriboyedov 1828-ci il sentyabrın 23-də komandan Paskeviçə yazdığı məktubda Naxçıvan əyalətində 2428 ailə, o cümlədən 2024 müsəlman ailəsi və 404 yerli erməni ailəsinin olduğunu bildirir [5]. Qriqoryevin "Naxçıvan əyalətinin statistik təsviri" əsərində isə əyalətdə 4959 ailənin olması göstərilir: 4149 müsəlman ailəsi və 810 erməni ailəsi [36, s. 72]. Göründüyü kimi, kameral siyahıyaalmaya görə, bəzi vaxtlarda ermənilər Naxçıvan əhalisinin yalnız altıda birini təşkil etmişdir.

**Nəticə.** Naxçıvan əhalisinin tərkibində həm sayca, həm də etnik cəhətdən əsaslı dəyişiklik Rusiya işğalından sonra baş vermişdi. Bu, çarizmin Azərbaycan əhalisini, o cümlədən Naxçıvanı erməniləşdirmək siyasətinin nəticəsi idi. Lakin çarizmin bütün səylərinə baxmayaraq, nəinki ermənilər əhalinin əksəriyyətini təşkil edə bilmədi, həm də onlar bu ərazidə duruş gətirə bilmədilər.

1832-ci ildə Naxçıvan əyalətində yaşayanların 17138 nəfəri azərbaycanlı, 2690-ı yerli, 1340-ı isə Türkmənçay müqaviləsindən sonra İran və Türkiyədən köçürülən ermənilər idi [38, s. 38-39]. 1919-cu ildə isə Naxçıvan qəzası əhalisinin tərkibində azərbaycanlılar 62,5 faiz, ermənilər 36,7 faiz, Şərur-Dərələyəzdə müvafiq surətdə 72,3 faiz və 27,1 faiz təşkil etmişdir [1, v.61].

XX əsrin 20-ci illərində baş vermiş ictimai-siyasi hadisələr və qarşıdurmalar ermənilərin Naxçıvan bölgəsini tərk etməsi ilə nəticələndi.

Beləliklə, yuxarıda deyilənlər təsdiq edir ki, Naxçıvan bölgəsində türkdilli-azərbaycanlı əhali avtoxton olmuş və bu ərazidə türk mənşəli etnoslar aparıcı rol oynamışlar.

## Ədəbiyyat siyahısı


1. Azərbaycan Respublikası Dövlət Arxivi (ARDA), f. 970, siy.1, iş 142.
2. Azərbaycan toponimləri. Ensiklopedik lüğət. Bakı, 1999, 588 s.
3. Budaqov B., Qeybullayev Q. Naxçıvan diyarının yer yaddaşı. Bakı, 2004; Kəngərli İ. Kəngərli elinin soy kitabı. Bakı, 2005; Budaqova Q. Naxçıvan Muxtar Respublikasının toponimləri. Bakı, 1998 və b.
4. Bilqamıs dastanı. Bakı. 1999, 92 s.
5. Elm, 2009, 27 fevral.
6. Əliyev V., Bağirov R. Naxçıvanın qədim qala şəhərləri. Bakı, 2018, 192 s
7. Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri (Ön söz, tərcümə, qeyd və şərhlərin müəllifi Hüsaməddin Məmmədov (Qaramanlı). Bakı, 2000, 576 s.
8. İsmayil M. Azərbaycan xalqının yaranması. Bakı, 1955, s. 19.
9. Qeybullayev Q. Naxçıvan ərazisində azərbaycanlıların qədim etnik tarixinə dair. "Tarix və onun problemləri". 1999, №2, s. 37-44.
10. Qeybullayev Q. Azərbaycan türklərinin təşəkkülü tarixindən. Bakı, 1994, 248 s.
11. Quliyev M. Naxçıvan xanlığının Qafqazda hərbi-siyasi mövqeyi və əlaqələri. Bakı, 2013, 184 s.
12. Quliyeva Z. Naxçıvanın neolit mədəniyyəti. Naxçıvan, 2020, 160 s.
13. Məmmədov A. Kəngərlər. Bakı, 1996, s. 16.
14. Naxçıvan sancağının müfəssəl dəftəri. Bakı, 2001, 376 s.
15. Naxçıvan Muxtar Respublikasının Dövlət Arxivi (NMRDA): F. 314, siy.6, iş 12.
16. Ön və Orta Asiya türklərinin tarixinə dair dörd anonim mənbə. Əcaib əd-Dünya (Dünyanın qəribəlikləri). Bakı, 2003,192 s.
17. Respublika, 1999, 17 aprel.
18. Seyidov A. Naxçıvan e.ə. VII-II minilliklərdə. Bakı, 2003, s. 8.
19. Sanduç A. Qədim alimlər türk xalqları haqqında. "Azərbaycan", 2023, 12 yanvar.
20. Seyidbəyli E. Naxçıvan torpaq mülkiyyətinə aid XVII-XVIII əsr Kəngərli arxeoqrafik sənədləri. Bakı, 2000, s. 18-20.
21. Sərdariniya S. İrəvan müsəlman sakinli vilayət olmuşdur. Bakı, 2014, 224 s.; Ələkbərli Ə. Qədim türk-oğuz yurdu Ermənistan. Bakı, 1994, 208 s.
22. Tuncay B. Sakların tarixi, dili və ədəbiyyatı. Bakı, 2009, 280 s.
23. Vəliyev M. (Baharli). Azərbaycan. Bakı, 1993, 208 s.

24. Артамонов М.И. История Хазар. Л., 1962, с. 181, 205-211.

25. Армянская география VII века, по Р.Х. СПб., 1877, с. 48.

26. Баскаков Н.А. Введение в изучение тюркских языков. М., 1969, с. 257.

27. Буниятов З.М. Азербайджан в VII-IX вв. Баку, 1965, 392 с.

28. Гейбуллаев Г.А. Топонимия Азербайджана. Баку, 1986, 192 с.

29. Гейбуллаев Г. К этногенезу азербайджанцев. Баку, 1991, с. 101-102; Статистическое описание Нахичеванской провинции. СПб., 1833, с. 32.

30. Геродот. История. М., АСТ. 2006, Книга VII, с.64; HƏSƏNOV Z. Çar skiflər. Çar skiflərin və qədim oğuzların etno-dil eyniləşdirilməsi. Bakı, 2005, s. 59 (480 s.).

31. Дьяконов И.М. История Мидии от древнейших времён до конца IV века до н.э. 2-е изд. доп. СПбГУ, 2008. -572 с. и др.

32. История Армении Моисея Хоренского. М., 1893, с. 113.

33. Мамедов Т. М. К вопросу об этническом составе Азербайджана IV-VII вв. Доклады АНА ССР. Т. XXXI. Баку, 1975, № 9, с. 58-61.

34. Парвицкий А.В. Экономический быт гос. крестьян Северо-Западной части Шарура и восточной части Даралагеза Шаруро-Даралагезского уезда Эриванской губернии. «Материалы для изучения эк. быта государственных крестьян Закавказского края». Том IV, Т., 1886, с. 99.

35. Плетнева С.А. Хазары. М.,1976, с. 16.

36. Статистическое описание Нахчыванской провинции. Составлено В.Григорьевым. СПб., 1833, 264 с.

37. Смирнов К.Н. Материалы по истории и этнографии Нахичеванского края. Баку, 1999, 156 с.

38. Шопен И. Исторический памятник состояния Армянской области в эпоху её присоединения к Российской империи. СПб., 1852, 1236 с.

39. Зейналов А. Палеолит Нахчывана. Автореф. дис. на соиск. учен. степ. доктора философ. по истории. Баку, 2004. -24 с.

40. Bakhshaliyev V., Marro C. The archeology of Nakhchivan ten years of new Discoveries. Istanbul, 2009. -118 p; Baxşəliyev V., Ristvet L., Qopnik H., Aşurov S. Naxçıvanda arxeoloji tədqiqatlar. Naxçıvan, 2010, 119 s.

## Summary

**Ismayil Haciyev**

### On ethnic history and national composition of Nakhchivan region

The article analyzes the fact that numerous ethnic groups that played an important role in the ethnic history and national composition of the Nakhchivan region were the indigenous population of this area, and the arrival, settlement, and activities of some of them in the first centuries BC and AD. It is established that the territory of Nakhchivan was the settlement of the most ancient people, and this is confirmed by the material and cultural samples obtained from ancient settlements and caves dating back to the Stone Age. In particular, the cave of Qazma, the monument to Kultepe I, the culture of Kura-Araz, Ovchulartepe and other places and cultures confirm this.

Historical sources indicate that a number of the named tribes were the inhabitants of this region. Research proves that the oldest indigenous population of the region was Turkic-speaking tribes.However, in the following years, various Turkic-speaking tribes also moved to the area and mixed with the same-speaking tribes.Among such tribes are the Sakas, Bulgars, Gargars, Shiraks, Bashins, Albanians, Khazars, and others.It is also substantiated that the Pechenegs, Huns, Kangars, Khazars, and other tribes played a dominant role in the country's ethnic history.

Referring to a number of sources, fundamental facts and events about the ethnic and national composition of the Nakhchivan region were also mentioned in the article.It is established that the

complete majority of the tribes were Turkic-speaking tribes, traces of these tribes in the geographical names of the region are still found today.Historical sources, censuses, Russian and Turkish sources were also involved in the study.

***Keywords:*** *Nakhchivan region, ethnic history, Turkic-speaking peoples, Russian-language sources, Turkic-language sources*

## Резюме

**Исмаил Гаджиев**

### Об этнической истории и национальном составе Нахчыванского региона

В статье рассматриваются многочисленные этносы, которые сыграли важную роль в этнической истории и национальном составе Нахчыванского региона и являются коренным населением этой территории, а также прибытие некоторые из них сюда в первые века до и после нашей эры, их поселение и деятельность. Установлено, что территория Нахчывана была местом поселения древнейших людей, и это подтверждают материальные и культурные образцы, полученные из древних поселений и пещер, относящихся к каменному веку. В частности, пещера Казма, памятник I Кюльтепе, Кура-Аразская культура, Овчулартепе и другие места и культуры.

Указывается, что ряд племен, упомянутых в исторических источниках, населяли этот регион. Исследования доказывают, что древнейшим коренным населением региона были тюркоязычные племена. Однако в последующие годы различные тюркоязычные племена также были переселены на эти территории и смешались с одноязычными племенами. К таким племенам относятся саки, булгары, гаргары, шираки, басины, албаны, хазары и другие. Также обосновано, что в этнической истории региона преобладающую роль играли печенеги, гунны, кенгерли, хазары и другие племена.

В статье, ссылаясь на ряд источников, были также упомянуты существенные факты и события об этническом и национальном составе Нахчыванского региона. Установлено, что большинство племен были тюркоязычными, следы этих племен в географических названиях региона сохранились и по сей день. К исследованию также были привлечены исторические источники, переписи, русские и турецкие источники.

***Ключевые слова:*** *Нахчыванская область, этническая история, тюркоязычные народы, русскоязычные источники, тюркоязычные источники*

UOT 94(479.24)
https://doi.org/10.59849/2710-0820.2025.2.26

**Lala Aghamirze Aliyeva**
*PhD in History, Associate Professor at Baku State University*
*lalaaliyeva@bsu.edu.az*

# INSCRIPTIONS, EPICS, AND GENEALOGIES: TURKIC TEXTUAL EVIDENCE FOR AZERBAIJANI ETHNOGENESIS

***Keywords:*** *Azerbaijani ethnogenesis, Turkic written sources, Orkhon-Yenisei inscriptions, Book of Dede Korkut, Oghuzname manuscripts, Turkic genealogical traditions*

**Introduction.** Turkic written sources present a complex challenge for Azerbaijani ethnogenetic studies. With the notable exception of "Kitab-i Dedem Korkut" [4; 7], most of these texts cover geographical regions beyond Azerbaijan and do not provide direct evidence about the territory. However, the common origins, language, and culture of Turkic peoples serve as compelling grounds for considering these sources as valuable informants about Azerbaijani ethnogenesis. This approach becomes particularly justified when we consider that Turkic tribes remained a dynamic mass throughout most of their history, continuously changing their locations and spheres of influence.

The dynamic nature of Turkic tribal movements is crucial for understanding how these written sources relate to Azerbaijani history. Only by recognizing this geographical and temporal fluidity can Turkic texts serve as legitimate sources for studying Azerbaijan's ethnic formation. The tribes that appear in Central Asian sources often migrated westward, carrying their genealogical traditions, linguistic features, and cultural practices into the South Caucasus region where they contributed to Azerbaijani ethnogenesis.

Analysis of historical chronicles and linguistic records, particularly the Orkhon-Yenisei inscriptions [11], reveals the enduring presence and profound influence of various Turkic tribes within Azerbaijan's geographical and cultural landscape. These include the Bulgars, Khazars, Oghuzes, Kipchaks, and numerous other groups whose movements and settlements directly shaped the region's ethnic composition. Persian sources [2; 8], the Uyghur Oghuzname [10], and Mahmud al-Kashgari's monumental work [6] further illuminate the complex interactions between these Turkic groups, providing essential data for understanding Azerbaijan's ethnogenetic processes and socio-political evolution across different historical epochs.

These primary sources reveal intricate patterns of cultural integration and preservation among Turkic groups in the region. Their testimonies clarify issues of ethnic identity, political organization, and genealogical consciousness that are fundamental to understanding how various Turkic communities in Azerbaijan developed their collective identity and self-designation while maintaining their distinct cultural characteristics.

**The Orkhon-Yenisei Inscriptions and Early Turkic Genealogical Consciousness.** The Orkhon-Yenisei inscriptions [11], dating from the 8th century, represent the earliest written records of Turkic genealogical and tribal consciousness. These runic monuments, carved in Old Turkic script across the steppes of Mongolia and southern Siberia, provide crucial foundational evidence for understanding how Turkic peoples conceptualized lineage, tribal identity, and ancestral legitimacy centuries before the emergence of later Oghuzname traditions documented by medieval chroniclers.

For Azerbaijani ethnogenetic studies, these inscriptions are particularly valuable because they establish the earliest documented patterns of Turkic genealogical thinking. The concepts of tribal hierarchy, dynastic legitimacy, and genealogical validation preserved in these 8th-century monuments would later appear in the tribal structures of Oghuz groups that migrated

to and settled in the South Caucasus region. The inscriptions thus provide a baseline for understanding the deep historical roots of the genealogical consciousness that would shape proto-Azerbaijani communities.

The most significant inscriptions, particularly the Bilge Qagan and Kül Tigin monuments in the Orkhon Valley, establish clear precedents for the genealogical frameworks that would later characterize Oghuzname literature. These texts demonstrate sophisticated awareness of dynastic succession and tribal hierarchy. They emphasize the importance of maintaining genealogical records for political legitimacy. The inscriptions consistently emphasize the divine mandate of the Ashina clan and trace their lineage through multiple generations, establishing patterns of genealogical validation that would become central to later Oghuz tribal narratives [11, 24].

The organizational structures documented in these inscriptions directly parallel the systems that would later govern Turkic communities in Azerbaijan. The inscriptions reveal how various Turkic tribes were organized under paramount leadership, with clear hierarchical arrangements based on genealogical proximity to ruling lineages. This organizational model mirrors the later Oghuz tribal systems described in medieval sources, suggesting remarkable continuity in Turkic political and social structures across several centuries and vast geographical distances.

The inscriptions also provide crucial evidence of early Turkic concepts of tribal unity and shared ancestry that would later be systematized in the Oghuz Khan legends. References to common origins, shared territories, and collective identity in the face of external threats demonstrate that the genealogical consciousness underlying Oghuzname literature had deep historical roots extending back to the pre-Islamic period. This genealogical awareness would prove essential for maintaining tribal cohesion among the diverse Turkic groups that eventually coalesced into the Azerbaijani people.

The geographic and migration patterns documented in the Orkhon-Yenisei inscriptions provide additional context for understanding Azerbaijani ethnogenesis. The monuments describe movements across the Central Asian steppes, conflicts with settled populations, and the establishment of new tribal territories. These patterns mirror the migration narratives found in later Oghuzname sources and help explain how Oghuz genealogical traditions developed across vast territories before reaching the South Caucasus region.

The linguistic evidence preserved in these inscriptions offers equally significant insights for Azerbaijani ethnogenetic studies. The Old Turkic vocabulary related to kinship, tribal organization, and genealogical concepts provides etymological foundations for understanding the terminology that would later appear in Azerbaijani linguistic development. Terms for tribal leadership, kinship relationships, and genealogical descent found in the inscriptions illuminate the linguistic evolution connecting early Turkic political vocabulary with the genealogical terminology that became embedded in Azerbaijani cultural consciousness.

**The Uyghur Version of the Oghuzname and Its Significance for Azerbaijani Ethnogenesis.** The transition from the early Orkhon period to later medieval sources reveals increasing sophistication in Turkic genealogical literature. The Uyghur version of the Oghuzname [10] represents a crucial but underexplored dimension of this literary tradition. Written in Old Uyghur script between the 9th and 15th centuries, this manuscript tradition preserves ancestral narratives and tribal genealogies in their most authentic Turkic linguistic form, predating the Persian adaptations that have dominated scholarly attention.

For Azerbaijani ethnogenetic research, the Uyghur Oghuzname's linguistic authenticity proves invaluable. Unlike later Persian versions that filtered Turkic narratives through Islamic historiographical frameworks, the Uyghur manuscript maintains direct connection to original Turkic cultural contexts. This preservation is crucial for understanding Azerbaijani formation because it maintains tribal terminologies, kinship structures, and cultural concepts in their original forms before translation and cultural adaptation modified their meanings.

The historical context of the Uyghur Oghuzname's composition directly parallels the migratory and cultural transformation processes that affected proto-Azerbaijani populations. The Old Uyghur script emerged after the collapse of the Uyghur Khaganate in the ninth century, when remnants migrated to Turfan, Qomul, and Gansu [10, 14]. This period of tribal dispersion and cultural adaptation mirrors the experiences of Oghuz groups that migrated westward toward the South Caucasus, making the Uyghur manuscript particularly relevant for understanding how genealogical traditions were preserved during periods of geographical displacement.

The Uyghur Oghuzname forms part of the broader Chingiznāma-Oghuznāma Complex, representing an oral and written tradition that evolved over seven centuries in post-Mongol Central Asia. This extended development period encompasses the era when various Turkic groups were establishing themselves in the South Caucasus region and contributing to Azerbaijani ethnogenesis. The manuscript's documentation of this transitional period provides essential evidence for understanding how tribal identities were maintained and transformed during the ethnogenetic processes that shaped Azerbaijani identity.

The genealogical framework presented in the Uyghur version offers several critical contributions to Azerbaijani ethnogenetic studies. First, it provides linguistic evidence of early Turkic dialectal variations that directly influenced Azerbaijani language formation. The manuscript preserves archaic Turkic vocabulary and grammatical structures that illuminate the evolutionary path from Old Turkic through various medieval dialects to modern Azerbaijani. Second, the genealogical relationships among Oghuz confederations documented in the text include many groups that contributed directly to Azerbaijani ethnic formation.

The manuscript's treatment of Oghuz Khan's legendary genealogy and the subsequent tribal divisions provides essential data for mapping ancestral connections between various Turkic groups that settled in the South Caucasus. These tribal narratives, preserved in their original Turkic linguistic context, reveal migration patterns, inter-tribal alliances, and cultural synthesis processes that directly shaped proto-Azerbaijani communities during the medieval period. The preservation of these narratives in their original form allows researchers to understand how genealogical consciousness was transmitted and adapted as tribes moved from Central Asia toward their eventual settlements in Azerbaijan.

The Uyghur Oghuzname's chronological position makes it particularly valuable for understanding the pre-Islamic cultural layers that remained embedded in Azerbaijani identity. While later Persian versions reflect Islamic influence on Turkic genealogical narratives, the Uyghur manuscript preserves earlier cosmological and cultural elements that continued to influence Azerbaijani folk traditions and collective memory long after Islamization.

**Mahmud al-Kashgari's "Divani lugat ut-Turk" and Oghuz Genealogical Traditions.** Building upon the foundation established by earlier sources, Mahmud al-Kashgari's monumental work "Divani lugat ut-Turk," completed in 1074, stands as one of the earliest and most comprehensive linguistic and ethnographic studies of the Turkic peoples. While primarily conceived as a dictionary and grammatical treatise, this remarkable 11th-century work contains invaluable genealogical information about Oghuz tribes that makes it an essential source for understanding Azerbaijani ethnogenesis alongside traditional Oghuzname literature [6, 9].

Al-Kashgari's approach to documenting Oghuz tribal genealogies emerges from his systematic effort to catalog the linguistic and cultural diversity of the Turkic world. His work provides what might be considered the earliest scholarly attempt to organize and preserve Oghuz tribal nomenclature and lineage structures. For Azerbaijani studies, this systematic approach proves particularly valuable because it captures tribal relationships and cultural patterns during a period when many Oghuz groups were beginning their westward migrations that would eventually bring them to the South Caucasus region.

Unlike the narrative approaches found in later historical chronicles, al-Kashgari's docu-

mentation appears as ethnolinguistic analysis, making it uniquely valuable for understanding how tribal identities and genealogical consciousness were preserved during the transition from the pre-Islamic to early Islamic periods. This transitional perspective is crucial for Azerbaijani ethnogenetic studies because it documents tribal structures during the period when ancestors of the Azerbaijani people were developing their distinctive cultural and linguistic characteristics.

Al-Kashgari's treatment of Oghuz genealogies demonstrates remarkable geographical and cultural breadth that directly benefits Azerbaijani research. Writing from Kashgar in Central Asia, he had access to diverse tribal traditions and oral histories that may have been less accessible to later chroniclers. His documentation includes the names of 22 distinct Oghuz tribes (Kayı, Bayat, Alkaevli, Karaevli, Yazır, Döğer, Dodurğa and etc.), making his work one of the most comprehensive early catalogs of Oghuz tribal organization. Significantly for Azerbaijani studies, many of these documented tribes would later contribute to the ethnic formation of the Azerbaijani people through migration and settlement in the South Caucasus.

Al-Kashgari's inclusion of tribal tamghas alongside tribal names represents a unique contribution to understanding Azerbaijani ethnogenesis [6, 26-28]. These symbolic representations were crucial for tribal identification, property marking, and maintaining genealogical consciousness in largely oral cultures. The preservation of these material culture elements provides insights into how proto-Azerbaijani groups maintained their tribal identities during periods of migration and cultural contact with other populations in the South Caucasus region.

The genealogical framework presented in "Divani lugat ut-Turk" shows clear awareness of legendary ancestor Oghuz Khan and traditional tribal divisions, but al-Kashgari's presentation differs significantly from later mythologized accounts. His systematic, less embellished approach focuses on practical tribal organization rather than heroic narratives. For Azerbaijani ethnogenetic research, this pragmatic approach provides valuable evidence for understanding the historical core of Oghuz genealogical traditions before they became heavily mythologized in later literary works.

Al-Kashgari's linguistic focus allows him to trace tribal connections through shared vocabulary, dialectical variations, and naming patterns that illuminate the linguistic foundations of Azerbaijani development. His documentation of how different Oghuz groups referred to themselves and their neighbors provides crucial insights into inter-tribal relationships and the fluid nature of tribal boundaries during the medieval period when proto-Azerbaijani communities were forming.

**Turkic Tribes in the Kitab-i Dede Korkut.** The progression from earlier sources reaches its most direct relevance to Azerbaijani ethnogenesis in the Kitab-i Dede Korkut, which provides unparalleled insights into the socio-political structures and tribal affiliations that directly shaped Azerbaijani identity. This epic represents a foundational text in Oghuz Turkic literature and offers the most geographically and culturally proximate evidence for understanding proto-Azerbaijani tribal organization and cultural practices.

The epic has been extensively studied [3; 4; 7; 9], and its importance for ethnogenetic research lies in its preservation of authentic tribal nomenclature and social structures that directly correspond to the historical populations that formed the Azerbaijani people. Unlike the geographically distant sources examined previously, the Book of Dede Korkut emerges from the very region and populations that contributed to Azerbaijani formation, making it an indispensable primary source for ethnogenetic studies.

The Oghuz Turks significantly influenced Azerbaijan's Turkic identity through their migrations and settlements beginning around the 10th and 11th centuries. The Book of Dede Korkut serves as a crucial ethno-historical document for understanding the tribal nomenclature and socio-political organization of these groups. The epic specifically references tribal entities including the Bayat, Ulash, Salur, Uran, Bayandur, and Kipchak, among others [4, 43]. These tribal names correspond directly to groups that historical sources document as contributors to Azerbaijani ethnogenesis.

The epic's explicit mention of the Oghuz as a significant tribal group [5, 22] provides direct textual evidence for the presence and influence of this nomadic Turkic confederation from Central Asia that invaded Azerbaijan in the mid-11th century. This documentation proves particularly valuable because it represents contemporary or near-contemporary testimony about the very populations and events that shaped Azerbaijani ethnic formation.

Beyond explicitly named groups, the epic alludes to broader tribal confederations and subclans, reflecting the intricate and fluid nature of Turkic tribal structures that characterized the period of Azerbaijani ethnogenesis. The text reveals how various tribal groups maintained their distinct identities while participating in larger confederative structures, providing insights into the complex processes through which diverse Turkic populations eventually coalesced into the Azerbaijani people.

The epic also contains invaluable information on the historical geography of Azerbaijan, with even newly discovered manuscripts explicitly mentioning Azerbaijan [3]. This geographical specificity reinforces the text's direct relevance to Azerbaijani ethnogenetic studies and provides contemporary evidence for the territorial and cultural boundaries within which Azerbaijani identity developed.

**Oghuznames as Primary Sources on Oghuz Turk History and Genealogy.** The transition from oral traditions preserved in sources like the Book of Dede Korkut to systematic written genealogical works represents a crucial development in the documentation of Azerbaijani ethnogenetic processes. While Turkish researchers claim that approximately thirty "Oghuzname" works exist, this study focuses on the most genealogically significant sources: those by Rashid ad-Din and Abul Gazi Bahadur Khan, along with Mahmud al-Kashgari's "Divani lugat ut-Turk." These sources specifically list genealogical lines and tribal names essential for understanding Azerbaijani formation [9].

Fadhl-allāh Rashīd al-Dīn's "Jāmiʿ al-Tawārīkh," particularly the section known as "Oghuzname" [8], stands as a pivotal historical document offering detailed accounts of Oghuz genealogical origins and tribal structures that directly relate to Azerbaijani ethnogenesis. This extensive work, compiled in the early 14th century, serves not only as a historical account but also as a foundational text for understanding the political legitimacy claims of various Turkic dynasties that ruled over territories including Azerbaijan and claimed descent from Oghuz Khan.

Rashid ad-Din's work proves particularly significant for Azerbaijani studies because it was compiled during the Ilkhanate period, when Mongol-Turkic rulers governed Azerbaijan and sought to legitimize their authority through connection to Turkic genealogical traditions. The author's position as a prominent vizier and physician in the Ilkhanate provided him access to diverse historical traditions that included those of Mongols, Turks, and Persians, creating a synthesis that reflected the multi-ethnic reality of Azerbaijan during this formative period.

The "Oghuzname" section meticulously details 24 Oghuz tribes, tracing their eponymous ancestors to the six sons of Oghuz Khan and establishing a complex genealogical framework that underpinned tribal organization and political hierarchy [8, 54-60]. For Azerbaijani ethnogenetic research, this comprehensive tribal enumeration provides an unparalleled resource that includes specific tribal names such as Kynyk, Kaiyg, and Bayındır, among others. Many of these tribes are corroborated by contemporary sources like Mahmud al-Kashgari [5, 77-82], and several contributed directly to Azerbaijani ethnic formation through migration and settlement in the South Caucasus.

Abu'l-Ghazi Bahadur Khan's Shajara-i Tarākima [2], completed in 1659, represents another crucial source for understanding Azerbaijani ethnogenesis through its comprehensive compilation of Oghuz genealogical traditions. The author composed this work by comparing Rashid ad-Din's "Oghuzname" with approximately twenty local Turkmen Oghuzname narratives, creating a synthesis that preserved both written and oral genealogical traditions spanning several centuries.

For Azerbaijani studies, the Shajara-i Tarākima's significance extends beyond histor-

ical documentation to illuminate the construction of Turkic identity and legitimization of dynastic power within Central Asian and South Caucasus contexts. The work's emphasis on monotheistic origins and deep historical roots of the Oghuz provides insight into how Turkic populations in Azerbaijan and surrounding regions understood their place within broader Islamic civilization while maintaining their distinctive genealogical consciousness.

The work's rapid international recognition, with a French translation appearing in Leiden as early as 1726, demonstrates its importance for European understanding of Central Asian and, by extension, South Caucasus ethnogenetic processes [12, 133]. This early translation made Azerbaijani ancestral narratives accessible to European scholars and influenced Enlightenment-era perceptions of the region's complex ethnic history [12, 140-145].

The integration of the Shajara-i Tarākima into European oriental studies provided primary source material for understanding the region's historical migrations and cultural heritage, influencing later scholarly expeditions and research that would further illuminate Azerbaijani ethnogenetic processes. Despite some European scholars' critical assessments of its narrative style [12, 170-175], the work's preservation of genealogical traditions proves invaluable for understanding how diverse Turkic populations maintained their ancestral consciousness while adapting to new geographical and cultural environments.

**Conclusion**. This comprehensive examination of Turkic written sources reveals the complex, multi-layered processes underlying Azerbaijani ethnogenesis. The textual evidence, spanning from the 8th-century Orkhon-Yenisei inscriptions to the 17th-century genealogical compilations, demonstrates remarkable continuity in Turkic genealogical consciousness and tribal organizational patterns that directly informed Azerbaijani ethnic formation.

The Orkhon-Yenisei inscriptions establish foundational precedents for genealogical validation and tribal hierarchy that would characterize later Oghuz traditions. The Uyghur Oghuzname preserves these narratives in their most authentic Turkic linguistic form, providing crucial evidence for understanding the pre-Islamic cultural layers of Azerbaijani identity. Mahmud al-Kashgari's systematic documentation bridges oral traditions with written chronicles, while the Book of Dede Korkut offers direct ethnographic insights into proto-Azerbaijani tribal structures.

The Persian adaptations by Rashid ad-Din and Abul Gazi Bahadur Khan, though filtered through Islamic historiographical frameworks, preserve essential genealogical information that maps the relationships between various Turkic confederations contributing to Azerbaijani formation. These sources collectively demonstrate how diverse Turkic groups maintained genealogical consciousness while adapting to different geographical and cultural environments.

The linguistic evidence traces the evolution from Old Turkic dialects to modern Azerbaijani, while genealogical frameworks illuminate the complex tribal relationships and migration patterns that shaped the South Caucasus region. This textual corpus reveals that Azerbaijani ethnogenesis resulted not from simple migration, but from sophisticated processes of cultural synthesis, tribal confederation, and genealogical integration that occurred over several centuries.

These Turkic written sources thus provide indispensable primary evidence for understanding Azerbaijani ethnogenesis, offering both linguistic authentication and genealogical documentation that illuminate the historical processes underlying the formation of Azerbaijani ethnic identity.

## References

1. Çelik, M. Bilal, "Son Büyük Arabşâhî: Anuşa Muhammed Bahadır Han (1663-1687)", Omeljan Pritsak Armağanı, Editörler: Mehmet Alpargu, Yücel Öztürk, Sakarya Üniversitesi Yayınları, Sakarya 2007, ss. 505-525.

2. Ebülgazi Bahadır Han. Şecere-i Terakime/ Türklerin soy kütüğü; hazırlayan Muharrem Ergin. İstanbul, Tercüman, 1974

3. Ekici, Metin. Dede Korkut Kitabı Türkistan/Türkmen Sahra Nüshası, Soylamalar ve 13. Boy Salur Kazan'ın Yedi Başlı Ejderhayı Öldürmesi, İstanbul: Ötüken Neşriyatı, 2019

4. Gökyay, O.Ş. Dedem Korkutun Kitabı. İstanbul: Kabalcı Yayınevi, 2007

5. Habyzhanova G., Koshymova A. Influence of medieval oghuz tribes on formation of Azerbaijan people. Journal of history, 2019, 93(2), pp.77-82

6. Kâşgarlı Mahmud. Divanü Lügati't - Türk. Çeviri Besim Atalay. Cilt l-lV. Türk Tarih Kurumu Yayınları, Ankara 2006

7. Kitabi-Dədə Qorqud. Əsil və sadələşdirilmiş mətnlər. Bakı, "Öndər nəşriyyat", 2004, 376 səh.

8. Oğuz Destanı, Reşideddin Oğuznamesi. Tercüme ve Tahlili Togan Zeki V. 2. baskı, İstanbul, Enderun Yayınları, 1982

9. Ögel B. Türk Mitolojisi, Ankara, TTK Yayınları, 1989

10. Uygur Harfli Oguz Kagan Destani. Metin-Aktarma-Notlar-Dizin-Tipkibasim Ferruh Ağca. Ankara, Türk Kültürünü Araştırma Enstitüsü, s.318

11. Tekin, Talat. Orhon Yazıtları. Kül Tigin, Bilge Kagan, Tunyukuk. Simurg, İstanbul, 1998

12. Zucconi G. We Still Have No Abu'l-Ghãzi': Translations and Retranslations of the Shajara-yi Turki in 18th-Century Europe. Journal of Central Asian History. 2, 2023, pp.133–175

## Xülasə

**Lalə Ağamirzə Əliyeva**

### Kitabələr, dastanlar və şəcərələr: Azərbaycan etnogenezi üçün türk mətn dəlilləri

Bu tədqiqat Azərbaycan xalqının etnogenezinin anlaşılmasında türkdilli yazılı mənbələrin həlledici rolunu araşdırır; Azərbaycan etnik formalaşmasının mürəkkəb tarixi proseslərini işıqlandıran ilkin mətn sübutlarını təhlil edir. Tədqiqat qədim və orta əsr türkcə əlyazmalarının geniş korpusuna əsaslanır; bunlara türklərin dil və mədəni kimliyinin ən erkən yazılı şahidləri olan Orxon-Yenisey yazıları da daxildir. Araşdırmanın mərkəzində duran əfsanəvi epik silsilə – "Dədə Qorqud Kitabı" – proto-Azərbaycan tayfa strukturlarını və mədəni praktikaları əks etdirən dəyərli etnoqrafik və dilçilik məlumatlarını qoruyub saxlamışdır.

Təhlil uyğur əlifbası ilə yazılmış Oğuznamə əlyazmalarının incələnməsini də əhatə edir; bu mətnlər Azərbaycan xalqının ata-baba soy köklərini izləmək üçün mühüm olan genealoji ənənələri və tayfa mənsubiyyətlərini sənədləşdirir. Xüsusilə əhəmiyyətli olan türkcə genealoji əsərlərin farsdilli adaptasiyalarıdır – Rəşidəddinin "Oğuznamə"si və Əbülqazi Bahadur xanın "Şəcərəyi-Tərakimə" bu mənbələr mədəni ötürülmə yolu ilə əsas etnogenez məlumatlarını qoruyub saxlamışdır.

Bu mənbələr birlikdə türkcə dialektlərin Azərbaycan dilinə təkamülünü göstərən dilçilik sübutlarını təqdim edir; eyni zamanda müxtəlif türk tayfa konfederasiyaları arasındakı əlaqələri xəritələndirən ətraflı genealoji çərçivələr təklif edir.

**Açar sözlər**: *Azərbaycan etnogenezi, türk yazılı mənbələri, Orxon-Yenisey yazıları, Kitabi Dədəm Qorqud, Oğuznamə əlyazmaları, türkcə genealoji ənənələr, tarixi dilçilik, tayfa konfederasiyaları*

## Резюме

**Лала Агамирзе Алиева**

## Аадписи, эпосы и генеалогии: тюркские текстовые свидетельства этногенеза Азербайджанцев

Данное исследование рассматривает ключевую роль тюркских письменных источников в понимании этногенеза азербайджанского народа, анализируя первичные текстовые свидетельства, проливающие свет на сложные исторические процессы, лежащие в основе формирования азербайджанской этничности. Исследование опирается на обширный корпус древних и средневековых тюркских рукописей, включая фундаментальные Орхонско-Енисейские надписи – первые письменные свидетельства тюркской языковой и культурной идентичности. Центральным элементом анализа является легендарный эпический цикл «Книга Деде Коркута», сохраняющий ценнейшие этнографические и лингвистические данные, отражающие прототипические племенные структуры и культурные практики азербайджанцев.

Анализ также охватывает рукописи Огузname, записанные уйгурским письмом, документирующие генеалогические традиции и племенные связи, важные для прослеживания родословных азербайджанского народа. Особое значение имеют персидскоязычные адаптации тюркских генеалогических сочинений – в частности, «Огузname» Рашид ад-Дина и «Шаджара-йи Таракиме» (Генеалогия туркменов) Абулгази Бахадур-хана, которые сохранили важнейшую информацию об этногенезе благодаря межкультурной передаче.

В совокупности эти источники предоставляют лингвистические свидетельства эволюции тюркских диалектов в азербайджанский язык, а также содержат подробные генеалогические схемы, отображающие взаимосвязи между различными тюркскими племенными конфедерациями.

***Ключевые слова****: Этногенез азербайджанцев, тюркские письменные источники, Орхонско-Енисейские надписи, Книга Деде Коркута, Рукописи Огузname, тюркские генеалогические традиции, историческая лингвистика, племенные конфедерации*

**UOT 94(479.24)**
**https://doi.org/10.59849/2710-0820.2025.2.34**

**Nərgiz Axundova**
*Akademik, AMEA Tarix və Etnologiya İnstitutu*
*Orcid 0000-0003-0240-4925*

**Aydın Əli-Zadə**
*AMEA Tarix və Etnologiya İnstitutu, e.i.*

# ERKƏN ƏRƏB XİLAFƏTİNİN İDARƏÇİLİK SİYASƏTİNDƏ AZƏRBAYCAN VƏ ƏRƏB QƏBİLƏÇİLİYİ İLƏ ƏLAQƏLİ PROBLEMLƏR

***Açar sözlər***: *ərəb işğalları, Azərbaycan, ərəb tayfaları, tayfa rəqabəti, idarəçılık, dini təbliğat*

Azərbaycanın ərəb Xilafətinin tərkibinə daxil olması regionun siyasi, sosial və iqtisadi həyatında çox əhəmiyyətli dəyişikliklərə səbəb olmuşdur. Onun idarəçilik sisteminin əsas amillərindən birinə isə ərəb qəbilələri çevrilmiş və onlar inzibati, hərbi və dini sahələrdə əsas rol oynamağa başlamışlar.

Onu da qeyd edək ki, Ərəb Xilafəti yarandığı dövrdən etibarən mövcudluğunu labüd olaraq müşayət etmiş çətinliklərin öhdəsindən gəlməyi məqsəd kimi qarşısına almaq məcburiyyətində idi. Problemlərin bəzisi əvvəlki "cahiliyyə" dövründən miras keçərək müvəqqəti və ya daim mövcud olmuşsa da, digərləri islam ordularının yürüşləri və islamın yayılmağa (ihtidanın - Ə.A.) başladığı ərazilərdə, o cümlədən Azərbaycanda idarəçiliyin qurulması əsnasında ortaya çıxmışdı.Ərəblər qurduqları Xilafətin ilk əsri boyu, tutduqları keçmiş Bizans və Sasani ərazilərindəki saxladıqları əvvəlki idarəçilik, qəbiləvi rəqabətlərini önə çıxaran "əsabiyyə" ilə uyuşmayaraq daim yaranmış müxtəlif problemləri çözməli olmuşdular.Qədimdən yaranıb orta əsrlər boyu da, ərəblərin yaşamaq uğrunda mücadilə şəbəkəsi olmuş "əsabiyyə" (عصبية-qəbiləvi dayanışma və buradan qaynaqlanmış əminlik, eləcə də nəsəblə bağlı qürur, fəxr-Ə.A.) islam dininin sona qədər tam qalib gələ bilmədiyi və Xilafətin hakimiyyət mərkəzi üçün də, orduların yürüşlərində, idarəçilikdə, müxtəlif məsələlərin çözülməsində nəzərə alınmalı ciddi bir maneə kimi həyatda qalmışdı. Xilafət ordularının tərkibini təşkil etmiş ərəb qəbilələrindən hər birinin İslam dinindən əvvəl qəbilələrarası oturuşmuş münasibətlər müvazinətində qazandığına uyğun müəyyən çəkisi mövcud idi. Qəbilələrin ən ehtişamlıları "cəmacim" – (qafa, kəllə) və "ərha" (dəyirman daşı) kimi epitetlər daşımış olduğundan, onlardan bəzilərinin islam dinini qəbul etmələri də gec çağlarda (məs.Təmim və Təğlib kimi qəbilələr) baş vermişdi. 640-cı ildə ərəb sərkərdəsi Salman ibn Rabianın başçılığı altında başlamış ərəb işğalı bir sıra döyüşlərdən sonra yerli zadəganlarla müqavilələrin imzalanması ilə tamamlandı. Təəssüf ki, ərəblərin ilk yürüşlərindən bəhs edən ərəb müəllifləri işğal olunmuş ərazilərə ərəb qəbilələrinin köçürülməsi haqda demək olar ki məlumat vermirlər. Bunu o faktla izah etmək mümkündür ki, ilkin yürüşlər zamanı ərəblər tutduqları ərazilərdə hərbi qarnizonlar qoyur, irəliyə gedirdilər. Ölkə tutulandan sonra ordu öz məkanına qayidır, yerinə yenisi gəlirdə Azərbaycanda da əvvəl belə olmuşdu. Ərəb qəbilələrin ölkəyə kütləvi axını isə bir qədər sonra başlamışdı. Tanınmış alim P.Juzenin qeyd etdiyi kini, ilk köçən ərəblər haqda belə bir fikir də söyləmişdir ki, onlar dövlət tərəfindən təqaüd alan insanlar olub və onlara tutulmuş ərazilərdən torpaq verilib ki, xəzinə bir qədər azad olsun.[1] Beləliklə, bu insanlar müxtəlif tayfalara mənsub olub, həm simali-nizarilərdən, həm də cənubi-qəhtanilərdən. Yaqubi isə göstərir ki, Abbasilərin hakimiyyətə gəlməsinə qədər nizarilər Azərbaycanda çoxluq təşkil edirdi.[2]

---

[1] Жузе П. Материалы по истории Азербайджана. 1940
[2] Yenə oradan, s. 78

Region Əməvilər xilafətinin tərkibinə daxil oldu. Sonralar, Abbasilər zamanı da, Azərbaycanın idarəçilik sistemi bir qədər dəyişsə də, ərəb valiləri idarəçiliyin mühüm fiqurları olaraq qalmışlar.

Qeyd edək ki, işğaldan sonra ərəb qəbilələri inzibati sistemin vacib hissəsi olmuş və yerli hakimiyyət ənənələrinə təsir etmişlər. Onlar mərkəzi nəzarəti, ərəb hüquqı normalarını, vergi sistemini tətbiq etmiş, valilərin təyinatını həyata keçirmişlər. Valılər vergi yiğmaqla yanaşı məhkəmə funksiyalarıni da həyata keçirirdilər. Bununla yanaşı ərəblər şəhərlərin inkişafına böyük diqqət yetirir, valilərin iqamətgahları yerləşən Bərdə və Ərdəbili inzibati mərkəzlərə çevirmışlər.

Azərbaycana valilər əsasən Məhəmməd peyğəmbərin nəslindən olan qureyşılərdən, Tamim, Əzd və Kəlb qəbilələrindən olan ərəblər təyin olunurdu.

Ərəb qəbi lələrinin Azərbaycana olmuş yürüşlərində də, aralarındakı ierarxiyaya müvafiq mövcud vəziyyət həm Xilafət mərkəzinin qəbilələr üçün ayırıb seçmiş olduğu yürüş istiqamətləri ilə, həm də başqa qəbilədən olan şəxsin sərkərdə təyinatı ilə əlaqədar ixtilaf və gərginliksiz ötüşmüş deyildi. Xilafətin möhkəmlənməyə doğru irəlilədiyi erkən dövründə, yəni Raşidi xəlifələri və Əməvilərin hakimiyyətinin birinci yarısı ərzində, islam ordularının quruluşu qəbilə, hətta bəzən yürüş istiqamətinə görə eyni konfederasiya birləşmələrindən ibarət olmuşdu.Azərbaycan Xilafət orduları tərəfindən tutulduqda ərəblər bura keçmişləri, beləki, həm "əsabiyyə"-dən doğmuş qəbilələrarası "cahiliyyə" düşmənçiliyi[3], həm də ilk çağlarda mərkəzin əvvəllər "irtidad" (islamdan çıxıb sonra yenə qayıtmış - Ə.A.) etmiş qəbilələrə olan münasibətinin təzahürü ilə birlikdə gəlmişdilər. Ərəblər arasında Rəbiyə və Mudar birliyinə aid olduqları üçün digərlərinin "əl bədvu"-bədəvilərdən saydıqları qəbilələr öz sərt, yovuşmaz və qaba tutumları ilə (məs. Mudardan olan Təmimin ad mənası tünd, sərt, yovuşmaz, məqsədi uğrunda çabalayan deməkdir-Ə.A.) İslam dinini ən gec və mənfəətlərinə görə qəbul etmiş,sonra da tez irtidad sırasına keçmiş,daha sonra isə "xarici"-liyin əsas nüvə hissəsini təşkil etmişdilər. İlk çağlarda Azərbaycana əsasən ordugah Kufədən yönləndirilən Xilafət orduları tərkibində təmimlilərin də digər qəbilələr kimi orada öz məhəllələri mövcud idi. Təhkim hadisəsindən (657-ci il) bir qədər sonra qəbilə Şəbib ibn Rəbiə ət-Təmimi rəhbərliyində olan 12 minlik qüvvə qismində ordudan ayrılaraq şəhərə qayıtmayıb Hərurə kəndinə toplaşmış[4] və bu hərəkətlə xariciliyin açıq silahlı mübarizə mərhələsi başlamışdı. Xariciliyin nisbətən daha fəal dövründəki əməlləri Əməvilərin 681-694-cü illər arasındakı ciddi-cəhdləri ilə dağıdıldığı üçün hərəkatın Xilafət ərazisinin müxtəlif bölgələrinə yayılması daha da genişlənmişdi. Xaricilər Əməvi hakimiyyətinin qəbilələrə münasibətdəki siyasət xəttinin dəyişilməsindən törəyən zəiflikdən istifadə edərək İraqın şimalındakı Cəzirədə bəzi qəbilələr arasında təbliğatlarını gücləndirmiş ətraf ərazilərə də yayılmağı davam etdirmişdilər.[5] Yəqubinin məlumatı üzrə Azəbaycandakı mütəqəlliblərdən Mühəlhil ət-Təmimi önə çıxaraq, hətta qısa müddətə (təxminən 8-9 il ərzində -Ə.A.) bütün ölkəni öz hakimiyyətində saxlaya bilmişdi.[6] Bu məlumatdan biz Mühəlhil ət-Təmimi ordusunun xaricilərdən ibarət olduğunu ehtimal edə bilərik, çünki Təmim qəbiləsindən xariciliyin çıxarılması işi hətta Abbasilər dövründə belə tamamlanmamış və qalıqlar halında xariciliyin bəzi müddüalarına müasir günümüzdə də riayət edilir. Yəqubinin məlumatı bizi bəhs edilmiş dövrdə təmimilərdən mütəşəkkil ordunun Azərbaycanda azsaylı olmadığı faktı ilə qarşılaşdırır. Xilafətin daxili siyasətində, "əsabiyyə"-nin hər bir qərar və addımda, xəlifələrin, vilayət valilərinin önündə durmuş olması islam tarixçilərinin əsərlərində əksər hallarda susqunluğa yer verilməsi ilə qarşılıq görmüşdür. Bu səbəbdən hər hansı ərəb mənbəsində təkcə Azərbaycanın tutulmasında və daha sonra idarəçiliyində tətbiq olunmuş siyasətin mümkün izlənilməsi tədqiqatın istiqa-

---

[3] Ziya Bünyadov. Azərbaycan VII-IX əsrlərdə, Bakı 1989, (kirill əlifb), s167.

2. المسعودي ابو الحسن بن علي بن الحسين بن علي.مروج الذهب ومعادن الجوهر, الجزء الثاني,مكتبة العصرية بيروت 2005, 307 ص

[5] الكوفي ابو محمد بن اعثم,كتاب الفتوح.الجزء السابع والثامن,307 ص, بيروت,دارالاضواء ,1411,

[6] اليعقوبي احمد بن دار الصادر الجزء الثاني, بيروت 427,1995 ص ابو يعقوب بن جعفر بن وهب ابن واضح,تاريخ اليعقوبي

mət xəttindən kənara çıxaraq ümumən Xilafətin daxili siyasət tarixinin öyrənilməsi ilə paralelliyi tələb etmişdir. Xilafət tarixinin tədqiqində təsdiqlənmiş həqiqətlərdən biri Raşidi xəlifələrindən Əbubəkir (632-634), Ömər əl Xəttab (634-644) və hakimiyyətinin birinci yarısında Osman ibn Əffan (644-656) tərəfindən də hərbi yürüşlərə heyyət toplanmasında, sərkərdələrin, vilayət valilərinin təyinatında,vergi məmurlarının seçilməsində, "əsabiyyə" nəzərdə tutularaq cənub "qəhtani" ilə şimal "ədnani"qəbilələri arasında müəyyən mütənasiblik tarazlanmasını gözləmiş olmalarıdır. Ərəb ordularının yürüşləri haqqında mənbələrə düşmüş qırıq-kəsik,natamam məlumatların yaratdığı təxmini qənaət üzrə şimallı bədəviləri təşkil etmiş Mudarilər ilə Rəbiyəli qəbilələr İslamdan əvvəl olduğu kimi yayılmağa meyilliliyi göstərərək ərazi tutmaq qayğısında idilər. Cənublu Qəhtanilərin Himyəri birliyinə aid Qudaa, Kəlb, Tənuh kimi qəbilələri isə Cənubi Ərəbistanın İslamdan əvvəlki son siyasi vahidi olmuş Himyəri dövlətinin (er.əv.115-er.525-ci illəri) irs qalıqlarını hələ də itirmədikləri səbəbi ilə, ənənələrə sadiq olaraq Xilafətin dövlət quruluşunun daxilində olmağa, onun ayaqda qalması üçün yararlıqlarını göstərməyə maraqlı olmuşdular. Xilafətin digər vilayətlərlə yanaşı Azərbaycan idarəçiliyində də "əsabiyyə" ilə əlaqəli mürəkkəb vəziyyətlər yalnız cənub-şimal qəbilələri arasındakı "keçimsizlik"-lə bitməyib, "ədnani"-lərin daxilində Mudar ilə Rəbiə birliyinin qəbilələri arasındakı düşmənçiliyi də (məs.Rəbiyə birliyinin Qureyş fəallığına qarşı keçmişdən bəslədiyi qısqanclığın xəlifələrdən Osman və Əli zamanlarında kəskin dözümsüzlüyə və nəhayət "xariciliyə" çevrilməsi -Ə.A.) ehtiva etmişdi. Qeyd olunmalıdır ki, ilk üç xəlifədən hər birinin təyinatlarına nəzər saldıqda ənsardan və cənublu qəbilələrdən ordu başçısı və vali vəzifəsi daşıyanları (məs. Azərbaycan nümunəsində xəlifələrdən Ömər əl Xəttab və Osman ibn Əffanın təyinatlarında Huzeyfə ibn əl Yəman və Əşas ibn Qeys əl Kindidən başqa - Ə.A.) müşahidə etmirik. Azərbaycana ilk cənublu valini xəlifə Əli ibn Əbu Talib (656-661)təyin etmişdi. Halbuki ənsarın ilk iki xəlifənin seçimində ciddi müqavimət dirənişsizliyi və Xilafət ordularının tərkibində müəyyən bir hissə kimi, bütün erkən və sonrakı döyüşlərdə fəallığı mənbələrlə izlənilə bilinir.Xilafət mərkəzi, xəlifələrdən Əbubəkirin və Ömər əl Xəttabın qərarları ilə Sasanilərlə müharibənin başlamasına qədər irtidadla ad çıxarmış qəbilə təmsilçilərindən hər hansı birinə orduda (ehtimal ki,hətta yüzbaşı olmağa belə-Ə.A.) yüksək rütbə tutmağa yol verməmişdi.[7] Xəlifə Ömər əl Xəttab hətta Qadisiyyə döyüşü ilə əlaqəli olaraq sərkərdə Səad Əbu Vəqqasa yazdığı məktubunda Riddə hadisələrində adı keçən şəxslərin yüzbaşı rütbəsi almaması xəbərdarlığını (وكان عمر قد عهد الي سعد الا يولي رؤساء اهل الردة علي مائة) vermişdi.[8] Xilafət ordularının yürüşləri zamanı qəbilələr əmr sahibi qismində cahiliyyə dövründəki kimi, daim üzərlərində öz rəislərini və ya həmqəbilələlilərini görməyə alışdığından əks hallarda hətta xəlifə Ömərə qarşı çıxmaqdan belə çəkinməmiş və həm yəmənlilər, həm də mudarlılar Suriyaya, Bəlazurinin məlumatlarındakı qəbilələrin Azərbaycanda torpaq mülkiyyətinə malik olmaq uğrunda canfəşanlıqlarını[9] nəzərə aldıqda, vətənimizə də yürüş istiqamətləri seçimindəki istəklərindən yalnız onlar üçün irəli sürülən digər imtiyazlı şərtlər müqabilində əl çəkməyə razı olmuşdular[10]. Xəlifə Ömər əl Xəttab zamanında Azərbaycana yönəlmiş ərəb ordularının tərkibi cənublu-şimallı bütün qəbilələri özündə təmsil etmişdi. İlk dövrdə Azərbaycana hücum etmiş Xilafət ordularının böyük hissəsi Kufədən çıxıb gəldiyinə görə və bu ordugah şəhərdə Bəlazurinin yazdığı üzrə şərqində yəmənlilər, qərbində isə nizarlılar məskun edildiyinndən[11] qoşunlarda da müxtəlif qəbilələr yer almışdılar. Raşidi xəlifələrin qərarlarında qəbilələrarası münasibətləri nəzərə alaraq həssaslıqla hərəkət etmələri köhnə düşmənçiliyi müəyyən qədər müvəqqəti olsa da yatışdıra bilmişdi. Əməvilərin hakimiyyətə gəlməsi ilə qəbilələrə münasibətdə zamanla tarazlaşdırıcılıq siyasətindən əl çəkil-

---

[7] الطبري دار المعارف بمصر1969,الجزء الثالث,347 ص ابوجعفرمحمد بن جرير.تاريخ الرسل والملوك.

[8] Yenə orada, s 557.

[9] البلاذري احمد بن يحيي بن جابر.فتوح البلدان.موسسة 459-460 ص المعارف,بيروت 1407-1987,

[10] لطبري . دار المعارف بمصر1969,الجزء الثالث 62-460 ص ابوجعفرمحمد بن جرير.تاريخ الرسل والملوك

[11] البلاذري احمد بن يحيي بن جابر.فتوح البلدان.موسسة ص. المعارف,بيروت 1407-1987, 388-389

diyindən Azərbaycana yönələn orduların tərkibi dəyişməyə başlamışdı. Əməvi Dəməşqi Suriyada və ümumiyyətlə Şamda yəmənli qəbilələrə arxalandığından, Hicaz, Nəcd, Tihamə ilə Yəmamədən gələn rəbiəlilərlə mudariləri İraqa, eləcədə şimalına,yəni Azərbaycanın cənub-qərb həmsərhədində olan Cəzirəyə və buradakı cundlardan da Ərməniyyə ilə Azərbaycana və Xorasana yönəldilirdi. Əməvilərin qəbilələrə qeyri-mütənasib yanaşması ilə hərəkət etməsi nəticəsində Cəzirə tədricən "xarici"-liyi ilə tanınmış rəbiəlilərin və mudarilərdən Təmim qəbiləsinin Xilafətdəki yerləşmə mərkəzlərindən birinə çevrilmişdi. Təbəri şimallı və cənublu qəbilələr arasında düşmənçiliyin hətta Bab əl Əbvab kimi suğur sayılmış bir şəhərdə də aparıldığını xəbər verərək bildirmişdir ki, vali Mərvan ibn Məhəmməd xəlifə olmaq uğrundakı mücadiləsi ərəfəsində Dərbəndəki qeyslilərin rəhbərliyinə İshaq ibn Müslüm əl Uqeylini, yəmənlilərin rəisliliyinə isə Sabit ibn Nueym əl Cüzamini təyin etmişdi. [12] Yəməlilər şəhərdə qalmaq istəmədiklərini bildirmiş və Şama gedən Mərvan onları özü ilə aparmalı olmuşdu.[13] Azərbaycanda Abbasilərin hakimiyyəti dövründəki ərəb qəbilələrinin bir çox hadisələrdəki fəallığınnın əhəmiyyətini xəbər vermiş əl Yəqubinin məlumatlarına görə ölkədəki məskun qəbilələrin əvvəlki tərkibi Əməvilərin Şamdan fərqli olaraq ayrı bir yerləşdirmə siyasətini tətbiq etmiş olduğlarını göstərir.[14] Ərəb qəbilələrinin sıx məskunlaşdığı İraq Cəzirəsinin Bizans təsir dairəsi ilə xəzər təhlükə mərkəzinə dönüşmüş Azərbaycan arasında yerləmiş olmasından qaynaqlanan siyasət özündə Xilafətin qəbilələr üçün tətbiq etdiyi yürüş istiqaməti təyinatı ilə yanaşı,eləcə də Azərbaycana sayca daha çox ərəb ailələri üzvlərinin məskunlaşdırılması tədbirlərini əhatə etmişdi. Ziya Bünyadova görə Azərbaycana sonuncu ərəb axını xəlifə Məmunun (809-813) hakimiyyəti dövründə baş vermiş rəbiyəlilərin Arana edilmiş köçü idi. [15] Rəbiyə birliyi qəbilələrinin Arranda ilk ərəb yürüşləri zamanından etibarən möhkəmləndikləri məlumdur.[16]Hətta Sasani və Xilafət tarixinin tədqiqi üçün həddən artıq sonrakı sayılan mənbələrdən birinə görə I Xosrov Ənuşirvanın əmri ilə Dərbənd ətrafı yollarda əmin amanlığın təmininə Mosul və Cəzirənin digər yerlərindən köçürülmüş ərəb qəbilələrinin mükəlləf[17]olması haqqındakı məlumat türklərin bölgədə əsas güc sayılmasını kiçiltməyə hesablanmışsa da,əksinə bunu bir daha qüvvətləndirmişdir.Rəbiyə birliyinə aid bu qəbilələrin bəzilərində xristianlıq V əsrin əvvəllərindən etibarən yayılmış idi. Bəzi tədqiqatçıların qənaəti üzrə Azərbaycana göndərilmiş ərəb qəbilələrinin məskunlaşma işinin gedişi Xilafətin digər bölgələrindən daha erkən başlamış və davamlılığı fasiləsiz olaraq hicri üçüncü əsrin birinci onilliyinə kimi sürdüyünə görə bir neçə ərəb döyüşçüləri nəslinin fəaliyyətini əhatə etmiş və ümumi kütləsi Xilafətin digər ərazilərinə köçmüş ərəblərin sıxlığından heç də geridə qalmamışdı.[18] Erkən Ərəb Xilafətini araşdırmış bir çox avropalı tədqiqatçıların qənaətinə görə isə həm Əməvilər, həm də Abbasilər mərkəz üçün təhlükə mənbəyi ola biləcək bir-biri ilə münaqişəli qəbilələrin yürüş istiqamətini bilərəkdən Azərbaycana təyin edirdilər.[19]Lakin bu xüsusda qeyd edilməlidir ki, əgər Əməvilər qəbilələrin yürüş istiqamətlərinin seçimində əsabiyyəyə uyğun hərəkət edirdilərsə, Abbasilər bütün qəbilələri bir-birinin üzərinə salışdırmaq siyasətini yürüdürdülər. Xürrəmilər hərəkatının Xilafət dayaqlarını sarsıtmasından sonra Azərbaycan ərazilərindəki mütəqəlliblərin fəallığı ilə dirçəlməkdə davam etmiş Rəvvadilər, Şəddadilər dövlətlərinin qurucu sülalələri yəmənli əzd qəbiləsinə, Şirvanşahların əsli isə Rəbiyənin Məzyədi qoluna mən-

[12] .ص296 ,الجزء السابع,1965دار المعارف بمصر . لطبري
ابوجعفرمحمد بن جرير.تاريخ الرسل والملوك

[13] Yenə orada,s297.

[14] اليعقوبي احمد بن ابو يعقوب دار الصادر1995,الجزء الثاني,426 ص
بن جعفر بن وهب ابن واضح,تاريخ اليعقوبي .

[15] Ziya Bünyadov.Azərbaycan VII-IX əsrlərdə, Bakı 1989, (kirill əlifb), s168

[16] Yenə orada, s. 167.

[17] Əliyeva N.A. Orta əsrlərdə Azərbaycan alimlərinin elmi əlaqələri və tədris fəaliyyəti. Bakı: Turxan NPB, 2015, s 9.

[18] Khalil Athamina.Emevi hilafeti döneminde arap iskanı. SÜİFD,2\2000. s. 203-226, 209. -Müəllif Əbu Munzir Hişam ibn Məhəmməd ibn Saib əl Kəlbinin Britaniya Muzeyində Cəmhərətun-nəsəb, əl yazma, №23297, s144-də olan məlumalartəsasında belə bir qənaətə gəlmişdir.

[19] Ламия Кафар-заде. Вопросы раннесредневековой истории Азербайджана в англоязычной историографии. Баку: «Турхан», 2017, s. 107-108.

sub olub öz fəaliyyətlərində həmqəbilələlilərinin sanballı bir kütləsinə arxalanmış olmaları, xürrəmilərin məğlubiyyətindən sonra belə ümumən əhalinin ərəblərdən ibarət hissəsinin az olmadığını göstərən dəlillərdən biridir.

Onu da qeyd edək ki, bir çox ərəb qəbilələri Xilafətə qarşı çıxışlarda da iştirak edirdilər 740-ci il xaricilər hərəkatında Aran və Beylağanda yaşayan ərəblər, 816-838 Babək hərəkatında yerli əhalı ilə yanaşı vergilərdən və valilərin özbaşnalığından narazı olan ərəb köçkünləri də iştirak edirdilər[20]. Bu da onu göstərirdi ki, IX əsr üçün Azərbaycanın ərəb əhalisi yerli cımiyyətin tərkib hissəsinə çevrilmış və daxili münaqişələrdə də fəal olmuşdu.

Lakin IX əsrin birinci yarısında ərəb zadəganlarının nüfuzu Xilafətdə zaiflədi və türk hərbçilərinin təsiri artmağa başladı. Xəlifə Mamun (813-833), sonra isə Mütəsim (833-842) dövrlərində ərəbləri həm mərkəzdə, həm də əyalətlərdə idarəçilik və hərbi sistemdən uzaqlaşdırılmaq prosesi başladı.[21]

Region üzərində nəzarəti saxlamaq məqsədi ilə, Bərdə, Ərdəbil, Gəncə kimi hərbi qarnizonlar yerləşdirilirdi. Ərdəbil kimi mərkəzi şəhərdə ərəb əsgərlərinin sayi bir neçə minə qədər ola bilərdi.[22] Yerlı üsyanların, hakim sinfin narazılığının yatırılmasında onlar əsas rol oynayırdılar. Həm də Bizans, Xəzərlərə qarşı yürüşlərdə iştirak edən ərəb əsgərləri Xilafətin Qafqazda mövqelərini gücləndirirdilər.

Regionda islamın yayılmasında da ərəb qəbilələrinin rolu böyük olmuşdur. İri şəhərlərdə mədrəsələr, məscidlər, məhkəmələr tikilir, burada islam hüququ (fikh) tədris olunurdu. İslam təlimi yayanlardan biri Azərbaycanın valisi olmuş Bəşər b.Mərvan qeyd olunur.[23] Həm də, öz siyasi ambisiyalarına baxmayaraq, Əbu Müslim əl-Xorasani, islamın Qafqazda möhkəmlənməsinə fəal yardım edirdi. Şeybanılər və Haşımilər üzün müddət dini və hüquqi sahələrdə nüfuz sahibləri olmuşlar. Onu da demək lazımdır ki, Azərbaycan ərazisində erkən islamın bütün ziddiyyətli münaqişələri özünü göstərmişdi. Dağliq ərazilərdə, yoxsul əhali arasında xaricilər məskən və dəstək tapırdılar.[24] Əlinin tərəfdarları da, xüsusən də IX-X əsrlərdə, regiona böyük nüfuz sahiblərinə çevrildi. Şiələrin rolu artmağa başladı, onların təlimi geniş vüsət aldı, lakin sonraki əsrlərdə sufi hərəkatı təriqətlər arasında ziddiyyətləri yumşaltdı və islamın şəraitə daha uyğunlaşan modelini təklif etdi.

Lakin dini münaqişələrin bir başa siyasi əhəmiyyətləri də mövcud idi .Daimi üsyanlar və qəbilələr arası qarşıdurmalar Bağdadın region üzərində nəzarətini zəiflədirdi və yerli sülalələrin muxtariyyəti artırdı. Şəhərlərdə islamlaşma köhnə etiqadlar daha güclü olan kənd rayonlarından tez baş verirdi.

Beləliklə, ərəb qəbilələri erkən orta əsr Azərbaycanının idarəçilik sistemində həlledici rollardan birini oynayırdı. Onların təsiri həm inzibati, həm hərbi, dini və iqtisadi sahələri də əhatə edirdi və bu, öz növbəsində regionun Xilafətə inteqrasiyasını təmin edirdi. Zaman keçdikcə, Xilafətin mərkəzi hakimiyyətin zəifləməsinə baxmayaraq, ərəb sülalələri və nəsilləri ölkənin inkişafına təsir etməyə davam etmişlər. Ərəb dilinin, ərəb mədəniyyətin həyat normalarında, şəhər həyatına öz əksini tapmış və Azərbaycanın tarixidə əsaslı iz qoymuşdur. Tarixi tədqiqatlar göstərir ki, ərəb hakimiyyəti illərində qoyulmuş inzibati və vergi sistemlərinin, məhkəmə təcrübəsinin bir sıra məqamları regionun inkişafına uzunmüddətli təsir etmişdir. Həm də ərəb mədəniyyəti, islam dini bölmənin mədəni və dini mühitinə geniş inteqrasiya olunmuşdu. Ərəb irsi Azərbaycanın tarixi və mədəni görünüşünün ayrılmaz bir hissəsi olaraq qalmışdır.

[20] Заходер Б. История восточного средневековья. М. 1950, s.114

[21] Ətraflı bax: Ахундова Н.Роль тюрков в военно-политической структуре Халифата. Б. 2004

[22] Təbəri.gös.əsər, s.300

[23] Yenə oradan.

[24] Yenə oradan, s.309

## Summary

**Nargiz Akhundova, Aydin Ali-zade**

**Azerbaijan and issues of Arab tribalism in the politics of early Arab Caliphate**

In the Middle Ages Arab tribes played an important role in the history of Azerbaijan. They conributed to the spred of Islam, introduced the Arabic language into religios and scholarly life, and strengthened the regions ties with Caliphate. Their presence influenced cultural and administrative traditions, leaving a lastinq impact on the development of Azerbaijani society.

***Keywords***: *Arab conquest, Azerbaijan, Arab tribes, tribal rivalry, administration, religious propaganda*

## Резюме

**Наргиз Ахундова, Айдын Али-заде**

**Азербайджан и проблемы арабского племенного строя в политике раннего Арабского Халифата**

В средние века арабские племена сыграли важную роль в истории Азербайджана. Они способствовали распространение ислама, внедрению арабского языка в религиозную жизнь, а также укреплению связей региона с халифатом. Арабское присутствие повлияло на формирование культурных и административных, оставив заметный след в развитии азербайджанского общества.

***Ключевые слова***: *арабские завоевания, Азербайджан, арабские племена, племенное соперничество, управление, религиозная пропаганда*

**UOT 94(479.24)**
**https://doi.org/10.59849/2710-0820.2025.2.40**

**Nazim Mustafa**
*AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu*
*https://orcid.org/0009-0007-0709-5689*
*nazimmustafa@mail.ru*

# İRƏVAN ŞƏHƏRİNDƏKİ AZƏRBAYCANLILARA MƏXSUS TARİXİ-MEMARLIQ İRS ERMƏNİ TƏDQİQATÇILARININ ƏSƏRLƏRİNDƏ

***Açar sözlər:*** *İrəvan qalası, Xan sarayı, Pənah xan Makinskinin malikanəsi, məscid, karvansara, hamam, meydan.*

İrəvan şəhərindəki türk-müsəlman irsi barədə bir sıra avropalı və rus müəllifləri ilə yanaşı, erməni müəlliflərinin əsərlərində kifayət qədər məlumat verilir. Erməni tarixçiləri İrəvanın qədim erməni şəhəri olması barəsində iddia irəli sürsələr də faktlar bunun əksini sübut edir. Hazırda İrəvan şəhərində yaşı 250 ildən artıq olan yeganə tikili şəhərin mərkəzində yerləşən Göy məscid kompleksidir. XIX əsr erməni tarixçiləri Ğevond Alişanın, Yervand Şahəzizin, Gerasim Ezovun, müasir erməni tədqiqatçıları Tadevos Hakopyanın, Marietta Kasparyanın, V. Arutyunyan, M.Asatryan və A.Melikyanın, ABŞ-da yaşayan erməni tarixçisi Corc Burnutyanın əsərlərində İrəvan şəhərindəki türk-müsəlman irsi qismən tədqiq edilmişdir. Bu məqalədə İrəvan qalası, Xan sarayı, Pənah xan Makinskinin malikanəsi və İrəvandakı məscidlər, hamamlar, karvansaralar, meydanlar barəsində erməni müəlliflərinin verdikləri məlumatlar təhlil edilir.

## İrəvan qalası

İrəvan qalası şəhərin 4 massivindən biri idi. Qala ilə digər yaşayış massivləri (Şəhri (yaxud Köhnə şəhər), Təpəbaşı və Dəmirbulaq) arasında Bazar meydanı yerləşirdi.

İrəvan qalası haqqında ilkin yazılı məlumat Səfəvilər dövrünə aiddir. 1502-ci ildə Səfəvilər dövlətinin başçısı Şah İsmayılın qoşunları Qaraqoyunlu əmirləri üzərində qələbə çalaraq İrəvan şəhərini ələ keçirmişdir. XVII əsrin 40-cı illərində Cənubi Qafqazda səfərdə olmuş məşhur türk səyyahı və coğrafiyaşünası Evliya Çələbi yazır ki, Şah İsmayıl hicri 915-ci ildə (1509-1510) qala salınması barədə öz vəziri Rəvanqulu xana göstəriş vermiş, o da öz növbəsində 7 ilə qalanı tikdirərək adını "Rəvan" qoymuşdur [Evliya, *Səyahətnamə..,* s. 50].

Tadevos Hakopyan yazır ki, fransız səyyahı Jan Tavernye 1655-ci ildə İrəvanda olmuşdur. Onun 1682-ci ildə yol qeydlərinə əsasən yazdığı kitabında Tavernye İrəvan şəhərini və qalasını təsvir etmiş, şəhərin planını öz əsərinə daxil etmişdir. Tavernyenin yazdığına görə, Zəngi çayının sahilindəki təpədə salınan, 5 qülləyə və möhkəm müdafiə divarlarına malik olan İrəvan qalasının şimal tərəfə açılan bir darvazası olmuşdur. Tavernye qala ilə şəhər arasında geniş boş ərazinin olduğunu yazır [Акопян, *Очерк..,*s. 85 ]. Yervand Şahəziz isə Tavernyeyə istinadən qalanın sakinlərinin yalnız müsəlmanlardan ibarət olduğunu, ermənilərin isə qalada yalnız dükanlarının olduğunu və onların qaladan kənarda, bir top atəşi məsafəsində yaşadıqlarını yazır [Շահազիզ, *Հին Երևանը..,* s.35].

Erməni əsilli, Sankt-Peterburqda yaşayan XIX əsr tarixçi Georgi Ezov yazır ki, XVIII əsrin əvvəllərində I Pyotrun Qafqaz üzərindən isti dənizlərə və Hindistana çıxmaq arzusunun olduğunu bilən ermənilərin nümayəndəsi, avantürist İsrael Ori Rusiya çarına göndərdiyi məktubunda İrəvan qalasının strateji əhəmiyyətini qeyd edərək, onu ələ keçirmək yollarını göstərmiş və qeyd etmişdir ki, şəhərdəki barıt və digər hərbi sursat anbarı ermənilərin əlindədir. İ.Ori şəhərdə 300 nəfərdən artıq erməninin yaşadığını və həmin ermənilərlə sövdələşməklə onların qalanın qapısını rus qoşunların üzünə aça biləcəklərini, bununla da qəfil hücumla şəhərin ələ keçirilə biləcəyini göstərmişdi [Эзов Г. А. *Снощения..,* с .88].

1804 və 1808-ci illərdə rus qoşunları İrəvan qalasına hücum edərək onu ələ keçirmək istəsələr də buna nail ola bilməmişdilər. 1827-ci

il oktyabrın1-də rus qoşunları əvvəlcə qalanın cənub-qərb qülləsini ələ keçirmiş, sonra isə qalanın şimal darvazasını (Şirvan darvazası) sındıraraq qalaya daxil olmuşdu.

İşğaldan sonra İrəvan qalası dövlət mülkiyyəti elan edilmişdi. XIX əsrin 30-cu illərində İrəvan qalasındakı 120-dən artıq binada müxtəlif təyinatlı dövlət müəssisələri və təşkilatlar yerləşirdi. 50-ci illərdə qalanın içərisində müxtəlif tikinti işləri aparılmış və təmir-bərpa işləri görülmüşdü. Qalada rus hərbi hissələri və onlarla top saxlanılırdı. İrəvan qalası 1864-cü il martın 12-dək hərbi-istehkam qalası statusunu saxlamışdır. Qala rəsmən buraxıldıqdan sonra onun divarlarının, qüllələrinin daşlarını ətrafda yaşan sakinlər söküb aparmışlar. 1880-ci illərdən etibarən isə bir-birinin ardınca qalanın içərisindəki tikililər və müdafiə qurğuları yoxa çıxmışdır [Акопян, *Очерк..*, с. 189-190].

**Xan sarayı**

Erməni vandalizminin soyqırımına məruz qalmış abidələrdən biri də Azərbaycan memarlığının nadir incisi olan Xan sarayı, yaxud Sərdar sarayıdır.

1578-ci ildə Azərbaycan Səfəvi dövlətinin İrəvan bəylərbəyi Toxmaq xan İrəvan qalasının içərisində Xan sarayı inşa etdirmiş, qala ilə üzbəüz, Zəngi çayının sağ sahilində böyük bir bağ saldırmışdır. Həmin bağ tarix ədəbiyyatında Xan bağı kimi qeyd olunur. XVII əsrin 40-cı illərində Cənubi Qafqazda səfərdə olmuş məşhur türk səyyahı Evliya Çələbi İrəvan qalası və "behiştə bənzər" Toxmaq xan sarayı haqqında maraqlı məlumatlar verir [Evliya, *Səyahətnamə..*, s. 51].

Səfəvi sərkərdəsi Əmirgünə xan Qacarın (1604-1625) İrəvanın hakimi olduğu dövrdə qala və Xan sarayı (Sərdar sarayı) daha da abadlaşdırılmış və möhkəmləndirilmişdi. 1679-cu il zəlzələsindən sonra İrəvan qalası, o cümlədən Xan sarayı Zal xan (1679-1688) tərəfindən yenidən bərpa edilmişdi.

İrəvan əyalətinin Osmanlı hakimiyyəti altına keçdiyi dövrdə Rəcəb paşa (1725-1728) tərəfindən İrəvan qalasındakı saray kompleksində xeyli quruculuq və abadlıq işləri görülmüşdü.

İrəvan xanı Hüseynəli xan Qacarın (1759-1783) və oğlu Məhəmməd xanın (1784-1805) hakimiyyəti dövrləri İrəvan şəhərinin və qalasının çiçəklənmə dövrü hesab edilir.

1791-ci ildə Hüseynəli xanın oğlu Məhəmməd xan Qacar Xan sarayının Güzgülü salonunu və Xan bağındakı Yay imarətini inşa etdirmiş, bununla da bu möhtəşəm tikili memarlıq baxımından monumental saray kompleksi kimi tamamlanmışdır.

İrəvan qalasının və Xan sarayının çar Rusiyası işğalından sonra çəkilmiş cizgilərinin (planlarının) bir qismi hazırda İrəvan Tarix Muzeyində saxlanılır. Xan sarayının 1837-ci ildə tərtib edilmiş mükəmməl planında göstərilən miqyasa əsasən, sarayın təqribən 1 hektar ərazini əhatə etdiyi aydın olur. Saray İrəvan qalasının şimal-qərb hissəsində yerləşirdi və qaladan saraya qapı açılırdı.

Rəsmi tədbirlər üçün nəzərdə tutulmuş ikimərtəbəli saray binası trapesiya formasında (ölçüləri 36 x 35 x 31 x 25 m) olmuşdur. Sarayın ortasında şahın təntənəli qarşılanması üçün böyük eyvan olmuşdur. Eyvanın qurtaracağında Zəngi çayına açılan və rəngli şüşələrlə bəzədilmiş, şəbəkələrlə bir-birindən ayrılan yataq yerləri – taxçalar düzəldilmişdi. Xan sarayının Güzgülü zalında xanın taxtının önündə müalicəvi xüsusiyyətə malik olan damarlı əqiq daşlardan ulduzvarı hovuz düzəldilmişdi. Ortasında kiçik fəvvarə olan hovuz rus rəssamı Q.Qaqarinin çəkdiyi Güzgülü zalın rəsmində də öz əksini tapmışdır. Həmin hovuz hazırda İrəvan Tarix Muzeyində nümayiş etdirilir. Bunlardan əlavə, Xan sarayına bitişik daha iki bina – biri xanın yaxın ətrafının yaşadığı bina, digəri yardımçı tikili olmuşdur [Арутюнян В., Асратян М., Меликян А. *Ереван..*, с. 33-34].

Bir-birinə bitişik olan və uzun fasada malik Xan sarayı və hərəmxanası vahid memarlıq kompozisiyası təşkil edirdilər. Hərəmxana sarayla kiçik dəhliz vasitəsilə birləşirmiş. Düzbucaqlı formada olan hərəmxananın uzunluğu 200 fut (*1 fut = 0,3048 m*), eni təqribən 125 fut olmuşdur. Hərəmxananın çoxlu otaqları və dəhlizləri var idi. İrəvan qalasının rus qoşunları tərəfindən işğalından sonra – yəni 1827-ci ildə hərəmxana hospitala çevrilmişdi. Sərdar hərəmxanasının mərmər üzlük çəkilmiş, mozaikalı ornamentlərlə bəzədilmiş hamamı da öz təmtərağı ilə seçilirdi. Hərəmxananın geniş yay hovuzu var idi. Uzunluğu 15 sajen (*1 sajen = 2,1336 m*), eni 4 sajen, dərinliyi 3 arşın (*1 arşın=71,12 sm*) olan hovuz və hamam 1830-cu ilədək mövcud

idilər. Bu tikililər qalanın "yenidənqurulması" zamanı digər çoxsaylı tikililərlə birgə sökülərək məhv edilmişdi [Акопян, *Очерк..,*с. 129-130].

1880-ci ilin oktyabrında məşhur Rusiya arxeoloqu qrafinya Praskofya Uvarova İrəvan qalasında olmuş, uçulub dağılan Xan sarayının vəziyyətini təsvir etmişdir. Erməni tədqiqatçısı Yervand Şahəziz P.Uvarovanın Qafqaz ekspedisiyasının nəticələri haqqında dərc etdirdiyi "Qafqaz. Yol qeydləri" (Moskva, 1887) kitabının birinci cildindən aşağıdakı sitatı gətirir: "Qala divarlarının və qüllələrinin içərisində Zəngi çayının altından yeraltı keçidi, fontanlı həyətləri, hamamları, hərəmxanası və iki məscidi olan Sərdar imarəti (*yəni Xan sarayı kompleksi - N.M.*) yerləşir. Bütünlüklə sırf Şərq üslubunda naxışlarla, güzgülərlə və rəsmlərlə bəzədilmiş, sanki bəzəkli çay qutusuna bənzər Sərdar_imarətindən yalnız qəbul zalı (*yəni Güzgülü zal – N.M.*) salamat qalıb. Zalın ortasında mərmər fontan vardır və onun pəncərəsi rəngarəng ağac şəbəkələrlə bəzədilmişdir. Oradan Zəngi çayına, Ararat (*Ağrı*) və Ələyəz dağlarına çox gözəl mənzərə açılır. Zal şimal tərəfdən açıq imiş və pərdələrlə örtülürmüş. Hansı ki, pərdənin izləri, halqaları və asılqanlarının yeri həm tavanda, həm də bünövrədə görünür. Zalın hər iki tərəfində kiçik otaqlar vardır və zirzəmisində buzxana yerləşir.

Sarayla Zəngi çayını birləşdirən yeraltı keçiddən yalnız onun qapısı və daş pilləkənləri qalmışdır. Halbuki, bir qədər əvvəl həmin keçiddən çayın altı ilə qarşı tərəfə keçmək olardı" [Շահազիզ, *Հին Երևանը..,* s. 170].

1864-cü ildə İrəvan qalasının hərbi-istehkam qalası kimi istifadəsinə son qoyulmuşdur. 1865-ci ildə İrəvan qalasının ərazisinin bir hissəsini Nerses Tahiryan adlı erməni taciri satın alaraq sonradan orada şərab zavodu – yəni indiki konyak zavodunu inşa etdirmişdir. Hazırda İrəvan konyak zavodunun ərazisinin bir hissəsi Xan sarayı kompleksinin ərazisinə düşür.

**Məscidlər**

Erməni tarixçisi Tatevos Hakopyan 1971-ci ildə İrəvanda erməni dilində çap olunan "İrəvanın tarixi (1500-1800)" monoqrafiyasında qeyd edir ki, çox güman ki, Div Sultan məscidi günümüzədək gəlib çatan Göy məscidin yerində olmuşdur və 1679-cu il zəlzələsi zamanı dağılmışdır [Հակոբյան, *Երևանի..,* s. 336].

Daha sonra P.Uvarovanın dili ilə Y.Şahəziz yazır ki, Sərdar məscidinin önündə Şərq ənənəsinə uyğun, hər iki tərəfində hücrələrinin izləri hələ də qalan geniş həyətdə daha bir kiçik yay məscidi yerləşir. Hansı ki, adətən bu tip yay məscidləri Şərqdə əsas tikilinin qarşısında, üzü şimala doğru tikilir. Bundan əlavə, P.Uvarova həmin həyətin ortasında müsəlmanların yuyunması üçün tikilən hovuzdan 1870-ci ilədək istifadə edildiyini qeyd etmişdir [Շահազիզ, *Հին Երևանը..,* s. 170-171].

1724-cü ildə Osmanlı qoşunları yenidən İrəvanı ələ keçirdikdən sonra türk sərkərdəsi Rəcəb paşa şəhərin inkişafı üçün bir sıra tədbirlər həyata keçirmişdi. Onun tapşırığı ilə 1725-ci ildə Qalanın içərisində yeni bir məscid inşa edilmişdi ki, həmin məscid onu inşa etdirənin şərəfinə Rəcəb paşa məscidi adlandırılırdı. Bu məscid düzgün paralelepiped formasında və sferik günbəzli idi, həmçinin Şərq üslubunda həndəsi ornamentlərlə bəzədilmişdi. İrəvan qalasının 1827-cil oktyabrın 1-də rus qoşunları tərəfindən işğalından bir gün sonra Rəcəb Paşa məscidinin günbəzindəki ay-ulduzu çıxarıb, yerində xaç və kilsə zəngi asaraq onu rus pravoslav kilsəsinə çevirmişdilər. 1839-cu ildə onun xarici quruluşunda dəyişiklik edilmiş, fasadına silindrik sütunlar əlavə edilmiş, damına örtük vurulmuş, xristian kilsəsi formasına salınmışdı [Гаспарян. *Классические,* с. 76].

Erməni tədqiqatçısı M.Qasparyan göstərir ki, XIX əsrin sonu, XX əsrin əvvəllərində İrəvan şəhərində mövcud olmuş məscidlərdən Göy məscid, Hacı Hüseyn və Şəhər (Zal xan) məscidləri Könhə şəhər (Şəhri) massivində, Təpəbaşı məscidi eyniadlı massivdə, Hacı Novruzəli bəy, Hacı Cəfər bəy və Dəmirbulaq məscidləri isə Dəmirbulaq massivində yerləşmişdir [Гаспарян. *Планировочная..,* с. 76].

1902-ci ildə İrəvan quberniyasının statistika komitəsinin "İrəvan quberniyasının 1902-ci il üçün yaddaş kitabçası" çap edilmişdir. Həmin kitabında göstərilir ki, İrəvan quberniyasında 310 məscid mövcuddur ki, onlardan 7-si İrəvan şəhərindədir [Памятная книжка.., с. 119-120].

1906-1911-ci illərdə İrəvan şəhərinin texniki işləmiş B.Mehrabov şəhərin planını və orada olan memarlıq abidələrinin siyahısını tərtib etmişdir. B.Mehrabov şəhərdə 8 məscid qeydə almışdır. Həmin məscidlər belə adlanırdı: Göy

məscid, Qala məscidi, Təpəbaşı, Şəhər, Sərtib xan, Hacı Novruzəli bəy, Dəmirbulaq və Hacı Cəfər bəy məscidi [http://www.iatp.am/old_yerevan].

Yervand Şahəziz İrəvanda 6 məscidin mövcud olduğunu yazır. Onların adlarını belə təqdim edir" 1. Zal xan, 2. Novruzəli bəy, 3. Hüseynəli xan, 4. Hacı İmamaverdi, 5. Hacı Cəfər bəy, 6. Məhəmməd Sərtib xan. Daha sonra İrəvanda 47 dəyirmanın, 21 dinkin, 9 hamamın, 851 dükanın və 1473 bağın mövcud olduğunu yazır [Շահազիզ, *Հին Երևանը..*, s. 158].

Yervand Şahəziz "Köhnə Yerevan" kitabına İrəvan şəhərinin işğalı zamanı ələ keçirilən və hazırda Ermənistan Dövlət Muzeyində saxlanılan bayrağın fotosunu daxil etmişdir [Շահազիզ, *Հին Երևանը..*, s. 168].

ABŞ-da yaşayan erməni tarixçisi Corc Burnutyan "Yerevan xanlığı qacarların hökmranlığı dövründə. 1795-1828" adlı əsərində İrəvan şəhərində 7 məscidin mövcudluğunu qeyd edir: 1. Abbas Mirzə (Qala məscidi), 2. Zal xan, 3. Novruzəli bəy, 4. Sərtib xan, 5. Hüseynəli xan (Göy came), 6. Hacı İmamverdi, 7. Hacı Cəfər bəy (Hacı Nəsrulla bəy) [Bournoutian G.A. *The khanate..*, p. 125].

İrəvandakı mərkəzi örtülü bazarla üzbəüz yerləşən Göy məscid öz kompozisiyası və əsas ibadətxanasının formasına görə 1616-cı ildə Şah Abbas dövründə Gəncədə inşa edilən Cümə məscidinə bənzəyirdi. Onun ölçüləri 97,2 x 66 m idi. Məscidin adı onun günbəzinin göy rəngli kaşı ilə üzlənməsi ilə bağlı idi. Məscidin həyətində fontanlı daş hovuz tikilmiş, ətrafına sıx kölgəli ağaclar əkilmişdi [Арутюнян В., Асратян М., Меликян А. *Ереван*. s. 31].

İkimərtəbəli binası və çoxlu hücrələri olan Zal xan məscidinin mədrəsəsinin təyinatı İkinci Dünya müharibəsindən sonra dəyişdirilmişdir. Hazırda həmin binada Rəssamlar evinin sərgi salonu yerləşir [Арутюнян В., Асратян М., Меликян А. *Ереван*. s. 32].

Erməni tarixçisi Tadevos Hakopyan "İrəvanın tarixi (1500-1800)" əsərində Eçmiədzin kilsəsinin yepiskopu Hovhanes Şahxatunyansa istinadən yazır: "Məscidin minarəsinin və günbəzinin bir hissəsi mavi saxsılarla üzlənmişdir. Əsas tikililər məscidin ərazisinin cənub və şimal tərəflərində idi. Yan tərəflərdə isə yardımçı tikililər və hücrələr yerləşirdi. Məscidin həyətində ətrafına sal daşlar döşənmiş və ağaclar əkilmiş bir balaca hovuz inşa edilmişdi. Məscidin üç qapısı olmuşdur. İki kiçik qapı şimal və şərq istiqamətinə, böyük giriş qapısı isə cənuba baxırdı. Məscid binası cənub səmtində yerləşirdi. Bina bir-biri ilə bağlı üç zaldan ibarət idi. Məscidin günbəzi digər iki kiçik zaldan hündür olan böyük zalın üzərində idi. Sadə görkəmli zalların yalnız həyətə baxan pəncərələri şəbəkə üslubunda işlənilmiş və rəngli şüşələrlə bəzədilmişdi. Həyətin şimal hissəsində kiçik bir ibadətxana da var idi. Məscidin minarəsi çox gözəl idi və İrəvanın tikililəri arasında ən hündür olduğundan şəhərin hər yerindən görünürdü. Azançı onun başına çıxaraq hər gün müsəlmanları ibadətə çağırırdı. Məscidin cənub portalının üzərindəki kitabədə Hüseynəli xanın adı və tikilmə tarixi həkk olunmuşdu [Հակոբյան, *Երևանի..*, s. 274-275].

**Hamamlar, karvansaralar, meydanlar**

Corc Burnutyan yazır ki, İrəvan şəhərində mövcud olan hamamlar ya karvansaraların, ya da məscidlərin nəzdində olmuşdur. O, hamamları belə sadalayır:

Qalada: Mərmər hamam (*Xan sarayı komplesindəki hərəmxananın hamamı nəzərdə tutulur – N.M.*)

Şəhri (Şəhər) hissəsində: 1. Şeyxülislam, 2. Zal xan, 3. Mehdi bəy.

Təpəbaşı hissəsində: 1. Hacı Bəyim, 2. Hacı Əli, 3. Hacı Fətəli (Qafar), 4. Kərim bəy, 5. Şeyxülislam.

Dəmirbulaq hissəsində: Həsən Əli (Cəfər bəy) [Bournoutian G.A. *The khanate.., p. 206*].

Corc Burnutyan İrəvan şəhərində mövcud olan karvansaraları belə sadalayır: 1. Gürcü, 2. Culfa, 3. Zərrabxana, 4. Tahir, 5. Sulu, 6. Susuz, 7. Hacı Əli [Bournoutian G.A. *The khanate.., p. 207*].

Corc Burnutyan İrəvan şəhərində mövcud olmuş meydanlar barəsində yazır [Bournoutian G.A. *The khanate.., p. 206*]:

1. Xan bağı, 2. Fəhlə bazarı, 3. Zal xan, 4. Bazar (əsas), 5. Hüseynəli xan, 6. Qladakı meydan.

Corc Burnutyanın İrəvan şəhərində sadaladığı məscidlərin, karvansaraların, meydanların, hamamların adlarından görünür ki, həmin adların ermənilərə və farslara heç bir aidiyyəti yoxdur.

**Pənah xan Makinskinin malikanəsi**

İrəvanda Xan sarayının üslubunda inşa edilmiş tarixi-memarlıq abidələrindən biri də Pənah xan Makinskinin evi idi. İrəvan şəhər Dumasının deputatı, kollej müşaviri Süleyman xanın oğlu Pənah xana məxsus yaşayış kompleksi onun adını daşıyan meydanda, Nalbandyan küçəsi-19 (keçmiş Ter-Qukasov küçəsi) ünvanında yerləşirdi. Kompleksə xanın ikimərtəbəli evi, mətbəx, anbar, ayrıca həyətlərdə nökərlər üçün birmərtəbəli ev və tövlələr daxil idi. Pənah xan Makinskinin mülkündə xeyriyyəçilik məqsədilə İrəvan teatrının tamaşaları oynanılmışdır. Pənah xanın evi XX əsrin ortalarında İrəvanda dövlət tərəfindən qorunan memarlıq abidələri siyahısına salınmışdı [http://www.iatp.am/old_yerevan.]. Lakin ötən əsrin 70-80-ci illərində Pənah xanın evi yer üzündən silinmişdir.

Pənah xan Makinskinin Evinin şəklini Yervand Şahəziz "Köhkə Yerevan" kitabına daxil etmişdir. "Pənah xanın evi "adlanan həmin fotonun altında erməni saxtakarlığı ilə yazılmışdır: "Fars memarlığından bir nümunə" [Շահազիզ, *Հին Երևանը.., s. 153*]. Pənah xan Makinskinin imarətinin yerləşdiyi ərazi isə son vaxtlaradək Pənah xan meydanı və yaxud Pənah xan bulvarı adlanırdı. Hazırda həmin ərazi Saxarov meydanı adlanır.

**Nəticə**

Məqalədən də göründüyü kimi, XIX-XX əsrlərdə erməni müəllifləri İrəvan şəhərində azərbaycanlılara məxsus olmuş tarixi-memarlıq abidələri haqqında kifayət qədər məlumat vermişlər. Lakin fakt odur ki, hazırda İrəvanda Göy məsciddən və şəhərin Təpəbaşı hissəsindən başqa azərbaycanlılara məxsus bütün memarlıq tikililəri yer üzündən slinmişdir. "Qədim erməni şəhəri" kimi dünyaya təqdim edilən İrəvan şəhərinin qədim mərkəzi yoxdur. Bugünkü İrəvan şəhəri son yüz ilin məhsuludur. Onun siması 1924-cü ildə və ondan sonrakı illərdə hazırlanan İrəvan şəhərinin baş planının həyata keçirilməsi nəticəsində formalaşmışdır. Vaxtilə erməni müəlliflərinin verdikləri məlumatlar İrəvan şəhərinin sırf türk-müsəlman şəhəri olmasını sübut edir.

**Ədəbiyyat siyahısı**


1. Bournoutian G.A. The khanate of Erevan under Qajar rule 1795-1828. Mazda Publishers in association with Bibliotheca Persica. Costa Mesa, California and New York, 1992.
2. Evliya Çələbi. Səyahətnamə (Azərbaycan tarixinə aid seçmələr. Hazırlayan Seyidağa Onullahi). Bakı, 1997.
3. Акопян Тадевос. Очерк истории Еревана. Ереван, 1977.
4. Арутюнян В., Асратян М., Меликян А. Ереван. Москва, 1968.
5. Гаспарян М.А. Планировочная структура Еревана 19 – начала 20 вв. // Национальное своеобразие зодчества народов СССР: Сб. науч. тр. Москва, 1979.
6. Гаспарян Мариетта. Классические архитектурные формы в зодчестве Еревана (Рубеж XIX-XX вв.). // Պատմա-բանասիրական հանդես (Historical-Philological Journal), № 3, 2003.
7. Памятная книжка Эриванской губернии на 1902 год. Отд. III, Эривань, 1902.
8. Эзов Г. А. Снощения Петра Великого с армянском народом. Документы. Док. № 43, СПб. 1898..
9. Հակոբյան Թադևոս. Երևանի պատմությունը (1500-1800 թթ.). Երևանի համալսարանի հրատարակչություն, 1971. (Hakobyan Tadevos. Yerevani patmutyunı. 1500-1800. Yerevan, 1971).
10. Շահազիզ Երվանդ. Հին Երևանը. Երևան, 1931.(Şaheziz Yervand. Hin Yerevan. Erivan, 1931).
11. http://www.iatp.am/old_yerevan.

## Summary

**Nazim Mustafa**

### The historical and architectural heritage of Azerbaijanis in the city of Irevan in the works of Armenian researchers

Irevan's Turkic-Muslim heritage has been described in detail in the works of a number of European and Russian authors, as well as Armenian authors. Although Armenian historians claim that Irevan is an ancient Armenian city, the facts indicate otherwise. Currently, the only building in Irevan city being over 250 years old is the Blue Mosque complex, located in the city center. Irevan's Turkic-Muslim heritage were partially researched in the works of Armenian historians of 19th, Ghevond Alishan, Yervand Shaheziz, and Gerasim Ezov; modern Armenian researchers Tadevos Hakobyan, Marietta Kasparyan, V. Harutyunyan, M. Asatryan, and A. Melikyan; and American-based Armenian historian Georgiy Bournoutian. In this article the author analyses the informations given by Armenian authors about the Irevan Fortress, the Khan's Palace, the mansion of Panakh Khan Makinsky, as well as about the mosques, baths, caravanserais, and squares of Irevan.


***Keywords:*** *Keywords: Yerevan Fortress, Khan's Palace, Panah Khan Makinsky's mansion, mosque, caravansary, baths, square.*



## Резюме

**Назим Мустафа**

### Историко-архитектурное наследие азербайджанцев в городе Иревана в трудах армянских исследователей

Тюрко-мусульманское наследие Еревана подробно описано в трудах ряда европейских и российских авторов, а также армянских. Хотя армянские историки утверждают, что Ереван – древний армянский город, факты свидетельствуют об обратном. В настоящее время единственным зданием в Ереване, которому более 250 лет, является комплекс Голубой мечети, расположенный в центре города. Тюрко-мусульманское наследие Еревана частично исследовано в трудах армянских историков XIX века Гевонда Алишана, Ерванда Шахезиза, Герасима Эзова, современных армянских исследователей Тадевоса Акопяна, Мариетты Каспарян, В. Арутюняна, М. Асатряна и А. Меликяна, а также армянского историка Георгия Бурнутяна, проживающего в США. В данной статье анализируются сведения армянских авторов о Ереванской крепости, Ханском дворце, особняке Панах-хана Макинского, а также о мечетях, банях, караван-сараях и площадях Еревана.


***Ключевые слова:*** *Ереванская крепость, Ханский дворец, особняк Панах-хана Макинского, мечеть, караван-сарай, баня, площадь.*

UOT 94 [479.24]
https://doi.org/10.59849/2710-0820.2025.2.46

**Ramil Ağayev**
*AMEA A.A. Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun*
*"Atropatena və Albaniya (Qafqaz) tarixi" şöbəsinin müdiri, tarix elmləri doktoru*
*ramilmahir@gmail.com*
*ORCİD İD: orsid. org/0000-0003-4721-1852*

# ƏRƏBDİLLİ MƏNBƏLƏR ARRANIN HÜDUDLARI HAQQINDA

***Açar sözlər:*** *Şimali Azərbaycan, Cənubi Azərbaycan, Qafqaz, Arran, Ərəb xilafəti*

**Giriş.** Həm Sasanilər, həm də Ərəb xilafəti dövründə "Azərbaycan" və "Arran" tarixi – coğrafi anlayışlarının hüdudlarının müəyyən edilməsinə və bu barədə indiyə qədər söylənilmiş fikirlərin yeni faktlarla daha da zənginləşdirilməsinə ehtiyac duyulur. Çünki hər hansı bir xalqın, o cümlədən Azərbaycan xalqının təşəkkülü və etnik tarixilə bağlı problemlər etnik və tarixi coğrafiya məsələləri ilə sıx şəkildə bağlıdır. Təəssüf hissi ilə qeyd etmək lazımdır ki, Azərbaycanın qədim və erkən orta əsrlər tarixi ilə məşğul olan tədqiqatçılar, əsasən, istinad etdikləri mənbələrin materiallarına üstünlük vermiş, onu dövrün digər sinxron mənbələri ilə müqayisə etməmişdir. Məsələn, ermənilər, gürcülər və onların yolu ilə gedən bir sıra Avropa, İran və sovet-rus tədqiqatçıları, əsasən, erməni və gürcü dilində yazılmış mənbələrə istinad edərək Arran (Albaniya) haqqında bəhs edən ərəbdilli mənbələrin materialları üzərindən sükutla keçmişlər. Öz tədqiqatlarında antik müəlliflərin əsərlərinə və Bizans mənbələrinə istinad edən tədqiqatçıların əsərlərində də bənzər hallara rast gəlinir.

Tarixi Azərbaycan torpaqları Cənubi Qafqazın böyük bir hissəsini və müasir İran İslam Respublikasının şimal-qərb torpaqlarını əhatə edir. "Azərbaycan" məfhumu vahid bir coğrafi-siyasi anlayış kimi əsrlər boyu formalaşmış, onun hüdudları bu və ya digər səbəblərdən dəyişikliklərə məruz qalmışdır. 1828-ci ildə imzalanmış Türkmənçay sülh müqaviləsindən sonra Azərbaycan ərazisi Rusiya ilə Qacarlar dövləti arasında iki hissəyə bölünmüş və həmin dövrdən başlayaraq elmi ədəbiyyatda və siyasi sənədlərdə "Şimali Azərbaycan" və "Cənubi Azərbaycan" məfhumları tez-tez işlədilməyə başlanmışdır. Onların arasındakı sərhəd isə əsas etibarı ilə Araz çayı hesab olunur. Lakin mənbələrin verdiyi məlumatlara əsasən, hələ qədim və orta əsrlər dövründə əhali arasında "Arazın cənubu" və "Arazın şimalı", eləcə də "Yaxın Azərbaycan" (Cənubi Azərbaycan) və "Ucqar Azərbaycan" (Şimali Azərbaycan) ifadələri tez-tez işlədilirdi [42, 232]. Ərəb və farsdilli mənbələrdə, eləcə də hal-hazırda Araz çayı sahilində yaşayan türkmənşəli əhalinin gündəlik danışığında isə tez-tez "o tay" və "bu tay" ifadələri ilə qarşılaşırıq.

Azərbaycan tarixinin qədim dövrlərini araşdıran tədqiqatçılara görə, indiki Cənubi Azərbaycan ərazisi b.e.ə. VI-IV əsrlərdən etibarən "Kiçik Midiya" və "Atropatena" kimi tanınırdı. Sasanilər ona "Azərpatakan" deyirdilər. Sonralar isə bu, "Adurbadaqan", "Azərbayqan" və "Azərbaycan" formasını almışdır. Cənubi Azərbaycanın Ərəb xilafətinə qədərki hüdudları bir sıra tədqiqatçıların, o cümlədən İ.H. Əliyev [18, 5,6], İ.M. Dyakonov [24, 87-90 ], S.Y. Qasımova [25, 18-21], A. Kristensen [58, 111-112 ], R. Rəisniya [59, 63-89 ] və başqalarının əsərlərində əhəmiyyətli dərəcədə işıqlandırılmışdır.

Antik yunan və Roma müəlliflərinin (Strabon, K. Ptolemey, P. Sekund, İ. Flavi, P. Mela və başqaları) əsərlərinə istinad edən bir sıra tarixçilərə görə, ərəblərə qədər indiki Şimali Azərbaycan ərazisi "Albaniya" adlanırdı. Albaniyanın tarixi və onun hüdudları ilə bağlı məsələlər A.N. Əlimirzəyev [5, 10 ], F.C. Məmmədova [10, 105-144], K.Q. Əliyev [19, 68-69], T.M. Məmmədov [28, 28-32], K.V. Trever [35, 29-30 ], E.A. Bəkirova [3, 38-83] və başqaları tərəfindən əhəmiyyətli dərəcədə araşdırılmışdır.

Qeyd etmək lazımdır ki, ərəblərə qədərki müəlliflər öz əsərlərində şimalda Qafqaz dağla-

rı, cənubda Araz çayı, şərqdə Xəzər dənizi, qərbdə İberiya arasında olan ərazini müxtəlif şəkildə təqdim edirdilər. Antik mənbələrdə onu "Albaniya", pəhləvi mənbələrində "Ardan" və "Aran", Suriya mənbələrində "Aran", gürcü mənbələrində "Rani", erməni mənbələrində "Ağvan" adlandırırdılar [12, 33]. Gürcü mənbələrində bəzi hallarda "Movakan" anlayışına da rast gəlinir [25, 68, 76 ].

XIX-XX əsrlərdə yazılmış bir sıra tədqiqat əsərinlərdə Albaniya adı "Klassik Albaniya", "Qədim Albaniya", "Qafqaz Albaniyası" kimi təqdim olunurdu. "Qafqaz Albaniyası" termininə gəlincə, o, elmi ədəbiyyata ilk dəfə 1846-cı ildə A. Yanovski tərəfindən gətirilmişdir. Şübhəsiz, həmin terminin elmi dövriyyəyə daxil edilməsi onu Balkan yarımadasındakı Albaniya ölkəsindən fərqləndirməklə yanaşı, müəyyən siyasi mülahizələrlə də bağlı idi. Bu, Albaniyanın yalnız Azərbaycana aid olmaması ideyasının möhkəmlənməsinə və Albaniyada məskunlaşmış əhalinin qafqazmənşəli olması iddiasının reallaşdırılmasına hesablanmışdı [5, 10].

Beləliklə, Ərəb xilafətinin yaranmasınadək olan dövrdə müasir Azərbaycan ərazisi iki hissədən ibarət hesab edilirdi: əsasən Araz çayından cənubdakı əraziləri əhatə edən Atropatena (Azərbayqan, Azərbaycan) və Araz çayından şimaldakı torpaqlarımızı əhatə edən Albaniya. Lakin İ.M. Dyakonov qeyd edirdi ki, Atropat hökmdar kimi indiki Şimali Azərbaycan ərazisində yaşayan bəzi xalqlar üzərində də hakimiyyətə malik idi [24, 451-452]. R. Rəisniyanın fikrincə, Atropatena hakimləri parfiyalıların "Aran" adlandırdığı əraziyə də nəzarət edirdilər. Onun sözlərinə görə, bəzi hallarda "Azərbaycan" adı Qafqaza – Dərbəndə qədər olan ərazilərə də şamil olunurdu, Arazın şimalı ilə cənubu vəhdət təşkil edirdi və Arazın hər iki tərəfində yaşayan xalq oxşar həyat tərzinə malik idi [59, 66]. Z.V. Toğan da oxşar fikirdədir [16, 91-118 ]. O, əlavə edir ki, erkən orta əsrlərdə Azərbaycanın şimal sərhədləri əhəmiyyətli dərəcədə hunlar, sabirlər və xəzərlərlə sasanilər arasında gedən müharibələrin nəticəsindən asılı idi. Məsələn, xəzərlər qalib gəldikdə Azərbaycanın hüdudları şimalda Araz çayı ilə məhdudlaşır, sasanilər qalib gəldikdə isə bu sərhəd Dərbəndə qədər uzanırdı.

Beləliklə, "Azərbaycan" tarixi-coğrafi anlayışı daha geniş mənada Z.V. Toğanın təbrincə desək, "Qafqaz Azərbaycanı"nı da əhatə edirdi [15, 22]. Bu, öz əksini 1929-cu ildə Dərbənd divarları üzərində aşkar edilmiş kitabədə də tapmışdır. Belə ki, həmin kitabədə I Xosrov Ənuşirvanın hakimiyyətinin 37-ci ilində (567-568-ci illər) Dərbənd səddinin tikinti və ya bərpasını həyata keçirən Bazirus və yaxud Dariuş adlı şəxs özünü "Adurbadaqanın (Azərbaycanın) amarqarı", yəni maliyyə nəzarətçisi adlandırmışdır [2, 16; 27, 168; 58, 111]. Qeyd etmək lazımdır ki, kitabənin dəqiq tarixi (553-cü və yaxud 567-568-ci illər) və maliyyə nəzarətçisinin adı (Bazirus, Bərzniş, Dariuş) məsələsində Q.S. Niberq ilə Y.A. Paxomov arasında müəyyən fikir ayrılığı vardır [31, 14-16 ]. Y. Paxomov həmin kitabə əsasında belə bir nəticəyə gəlir ki, Sasanilər dövründə Azərbaycanın şimal sərhəddi Dərbənd olmuşdur. Yenə həmin müəllifin yazdığına görə, B.A. Dorn və N.V. Xanıkov XIX əsrin əvvəlində Dərbənd səddinin qalıqlarını nəzərdən keçirərkən üzərində pəhləvi dilində "Azərbaycan" ("Azərbayqan") sözü yazılmış bir kitabəyə rast gəlmişlər [17, 19].

Burada "Azərbaycan" anlayışı daha çox siyasi-inzibati xarakter daşıyır, yəni Araz çayından cənubdakı Azərbaycan torpaqlarını idarə edən hakimlərin zaman-zaman Arazdan şimalda yerləşən əraziyə də nəzarət etdiyini göstərir. Ancaq zaman keçdikcə o, həm də coğrafi məna daşımağa başladı. Başqa sözlə, tədricən "Aran" və yaxud "Arran" anlayışı Azərbaycan ölkəsi daxilində vilayət kimi təqdim olundu və onun hüdudları da getdikcə daraldı. Bu gün biz bu anlayışa yalnız Azərbaycanın şimalında nisbətən kiçik bir ərazini əhatə edən coğrafi anlayış kimi rast gəlirik.

Ərəblərə qədərki mənbələrin və elmi ədəbiyyatın verdiyi məlumatlardan belə bir qənaətə gəlmək olar ki, özünəməxsus fərqli xüsusiyyətlərə baxmayaraq, Arazın şimalı ilə cənubu arasında daimi və sıx əlaqələr mövcud olmuşdur. Tarixi həqiqət bundan ibarətdir ki, əsrlər keçdikcə, əgər belə demək mümkünsə, "Arran" anlayışı "Azərbaycan" anlayışı tərəfindən sıxışdırılmış, bu anlayış indiki bütün Azərbaycan torpaqlarına şamil edilməyə başlanılmışdır. Təsadüfi deyil ki, Ərəb işğalları ərəfəsində tarixi Azərbaycan torpaqları – həm Araz çayından şi-

maldakı, həm də cənubdakı torpaqlar Sasanilər imperiyasının dörd inzibati vahidindən biri olan Şimal canişinliyinin - Şimal mərzbanlığının (Şimal kustakının) tərkibinə daxil idi. Pəhləvi mənbələrində həmin canişinlik çox vaxt "Azərbaycan sepəhbudluğu" adlandırılırdı [25, 50-51].

**Ərəbdilli mənbələr Arranın hüdudları haqqında**

651-ci ildə Sasanilər dövləti müsəlman ərəb qoşunlarının zərbələri altında süqut etdi. Bu zaman Azərbaycan torpaqları da Ərəb xilafəti tərəfindən fəth edilərək onun tərkibinə iki vilayət – "Azərbaycan" və "Arran" vilayətləri kimi daxil edildi. Ərəbdilli mənbələrdə rast gəlinən bu anlayışların mahiyyəti və onların hüdudları haqqında Azərbaycan və xarici ölkə tarixçiləri tərəfindən qiymətli fikirlər səsləndirilmişdir [4, 74-79; 12, 74-79; 20, 334-335]. Buna baxmayaraq, həmin anlayışların üzərində, daha doğrusu, "Azərbaycan" və "Arran" adları altında təqdim olunan ərazilərin hüdudları məsələsi üzərində daha ətraflı şəkildə dayanmağa, daha tutarlı faktların aşkar edilməsinə ehtiyac duyulur.

Ərəbdilli müəlliflər öz əsərlərində indiki Şimali Azərbaycan ərazisindən heç vaxt "Albaniya" və yaxud "Ağvan" kimi bəhs etməmişdir. Onlar elə ilk dövrdən başlayaraq bu əraziyə ya "Arran", ya da "Azərbaycan" demişdir. Ərəblər nə üçün "Albaniya" anlayışından deyil, "Arran" anlayışından istifadə etdilər? Əlbəttə, ən böyük ehtimal budur ki, yerli əhali öz ölkəsini "Aran" və yaxud sadəcə olaraq, "Azərbaycan" adlandırdığından ərəblər də həmin ifadələrə üstünlük verdilər. Unutmaq olmaz ki, ərəblər özlərindən əvvəl yazılmış pəhləvi (orta fars) mənbələrindən geniş şəkildə istifadə etmişdir, yəni Sasanilər dövründə yazılmış əsərlər VII-X əsrlərdə yaşamış ərəbdilli müəlliflər üçün mühüm mənbə rolunu oynamışdır. Sasanilər dövrünə aid mənbələrdə isə "Aran" və "Ardan" terminlərinə üstünlük verilirdi. Təsadüfi deyil ki, I Şapurun (242-272) hakimiyyəti dövründə, 262-ci ildə həkk olunmuş Nəqşi-Rüstəmdəki "Kəbe-ye Zərdüşt" kitabəsində "Ardan" adından da bəhs edilmişdir [1, 68; 2,162-166; 59,67]. Həmin kitabə üç variantda – fars (pəhləvi-sasani), parfiya (pəhləvi-parfiya) və yunan dillərində yazılmışdır [58, 38]. Yunan dilində olan variantda isə bu ad "Albaniya" şəklində yazılmışdır. Görünür, Aran tarixi ədəbiyyatda ən çox Albaniya kimi tanınmış ərazinin qədim və yerli adı olmuşdur. Həmin ərazini işğal edən ərəblərin işlətdiyi "Arran" forması məhz ondan alınmışdır. Belə ki, ərəbdilli müəlliflər öz əsərlərində Sasanilər dövrü hadisələrini şərh edərkən məhz "Aran" terminindən istifadə etmişdir. Ərazi Ərəb xilafətinin hakimiyyəti altına keçdikdən sonra isə onu ərəb dilinin qanunauyğunluqlarına əsasən "Arran" ( الران ) şəklində təqdim etməyə başladılar.

"Aran" adı isə son tədqiqatlara görə, sırf türkmənşəli sözdür. Çünki bir sıra əski və müasir türk dillərində "Aran" sözünün yaxın mənalı bir neçə anlamı vardır. Bu söz isti yer, yaylağın əksi, çəmənlik, düzənlik və s. mənalarda işlənir [1, 68]. Bəzi ehtimallara görə, "Aran" adı guya böyük "ari" və ya "aryayi" tayfasının adı ilə bağlı olmuşdur. İran tarixçisi Y. Zəka İslam dininin yayılmasından əvvəl bu ərazinin adının, guya "Aristan" olduğunu iddia edərək, bu sözü heç bir fakta əsaslanmadan ari irqi ilə bağlamağa cəhd etmişdir [60, 287-288]. "Aran" adını, heç bir konkret fakta əsaslanmadan, alanlarla bağlamaq cəhdləri də vardır [61, 57]. V.V. Bartolda görə, orta əsrlərin ikinci yarısından etibarən ilkin mənbələrdə "Arran" əvəzinə tez-tez "Qarabağ" tarixi-coğrafi anlayışı işlədilməyə başlanmışdır [21, 214 ].

Ərəbdilli mənbələrdə "Arranın" hüdudları haqqında maraqlı məlumatlara rast gəlinir. İbn Xordadbeh Varsanı (indiki Beyləqan rayonu ərazisindəki Daşburun yaşayış məntəqəsi) Azərbaycanın şimal istiqamətində ən ucqar məntəqəsi sayırdı [11, 16]. O, əlavə edir ki, Araz çayı Arrandan keçir [11, 19]. Deməli, müəllif Araz çayını Azərbaycan və Arran vilayətləri arasında sərhəd hesab etmişdir. İbn əl-Fəqih yazır: "Azərbaycan Bərdədən Zəncənadək olan ərazini tutur. Varsan Azərbaycanın ən ucqar məntəqəsidir. Azərbaycanın hüdudları Araz çayınadəkdir." [11, 37-38; 15, 22]. Burada ziddiyyətli məqam ondan ibarətdir ki, Varsanla Bərdə arasındakı ərazinin hansı vilayətə aid olduğu bildirilmir. O, Arranın əsas şəhərlərindən biri sayılan Beyləqanı məhz Azərbaycanın tərkibində göstərir. Onun əsərində "Arran və Sisəcan vilayətləri xəzərlərin məmləkətindədir" ifadəsinə də rast gəlinir [14, 222].

İbn Rusta Azərbaycan və Arran ərazilərini beşinci iqlimə daxil edir. O, Araz çayının Arrandan keçdiyini yazmaqla, onun Azərbaycan və Arran vilayətləri arasında sərhəd olduğuna işarə edir [11, 42 ].

X əsr ərəbdilli ədəbiyyatın görkəmli nümayəndələrindən sayılan Qudama ibn Cəfər isə Bərdəni Azərbaycanın paytaxtı adlandırır. Digər tərəfdən o, qeyd edir ki, Varsan Azərbaycanın axırıncı mahalıdır, yəni Arazdan şimaldakı ərazilər Arrana aiddir.

Əl-İstəxri öz əsərinə daxil etdiyi paraqraflardan birini "Ərminiyyə, Arran və Azərbaycan" adlandırsa da, burada əsas diqqəti Azərbaycanın təsvirinə yönəldir. O, Arran və Azərbaycandan bəhs edərkən onlardan hər birinin sərhədlərini ayrı-ayrılıqda təsvir edir və öz əsərində iqlimin xəritəsini də göstərir. Müəllif Arran vilayətinin sərhədlərini aşağıdakı kimi təqdim edir:

**"و حد الران من الباب الى تفليس و الى قرب نهر الراس مكان يعرف بحجيران."**

**Tərcüməsi: "Arranın sərhədi Bab əl-Əbvabdan Tiflisə və Araz çayı yaxınlığındakı Haciran deyilən yerə qədərdir." [38, 112 ].**

Burada adı çəkilən Haciran yaşayış məskəninin yerləşdiyi yer haqqında qəti fikir söyləmək çətindir. De Quye Haciranı Naxçıvan kimi oxumağı məsləhət görmüşdür. N.M. Vəlixanlı qeyd edir ki, mətndəki məlumata əsasən, De Quyenin bu düzəlişini qəbul etmək olar. [11, 98]. Tiflis şəhərinə gəlincə, Demək olar ki, bütün ərəbdilli mənbələr onu Arrana aid edirlər. Bu baxımdan İbn Havqəlin aşağıdakı sözlərinə diqqət yetirmək kifayətdir: "Arranda Bərdə, əl-Bab və Tiflisdən daha böyük şəhər yoxdur." [14, 291].

Qeyd etmək lazımdır ki, ərəblərin Bizans inzibati-idarə sisteminə uyğun olaraq tətbiq etdiyi "Ərminiyyə" inzibati bölgüsünə Cənubi Qafqaz hüdudlarından kənarda olan "əl-Ərmən" ölkəsi daxil deyildi. "Ərməniyyə" haqqında məlumat verən ərəbdilli müəlliflər (ibn Xordadbeh, əl-Yəqubi, ibn əl-Fəqih və b.) bu inzibati bölgünün tərkibində "əl-Ərmən ölkəsi"ni yada salmırlar [13, 36]. Başqa sözlə, "Ərminiyyə" inzibati termini ilə "əl-Ərmən" coğrafi terminləri başqa-başqa ifadələrdir. Əl-İstəxrinin əsərində "erməni" ("əl-ərmən") və "Ərminiyyə" ifadələri arasındakı fərq açıq-aşkar diqqəti cəlb edir: "Ərminiyyə, Arran və Azərbaycana gəlincə, biz onları bir xəritədə cəmləşdirib, vahid iqlim etdik. Şərqdən onu əl-Cibəl, əd-Deyləm, Xəzər dənizinin qərbi, qərb (tərəfdən) əl-Ərmən və əl-Lan hüdudları, əl-Cəzirə sərhədlərinin bir hissəsi, şimaldan əl-Lan və Qabq dağları, cənubdan əl-İraq və əl-Cəzirə sərhədlərinin bir hissəsi əhatə edir." [38, 108]. Göründüyü kimi "əl-Ərmən ölkəsi" və "Ərminiyyə" bir-birindən fərqli anlayışlardır. Başqa sözlə, burada "Ərminiyyə" nisbi sifətdir və yalnız sonradan inzibati cəhətdən "əl-Ərmənə" aid edilmişdir" mənasını verir. Beləliklə, "Ərminiyyə" ifadəsinin etnik-coğrafi baxımdan "əl-Ərmən"ə, "Ərminiyyə" və "Ərmən" ifadələrinin isə əsl adları "haylar" olan etnosa heç bir aidiyyəti yoxdur.

Əsəm əl-Kufi "Kitab əl-Futuh" ("Fəthlər kitabı") əsərində Beyləqan və Bərdədən bəhs edərkən onu gah Arrana, gah da Azərbaycana aid etmişdir. Belə ki, müəllif Salman ibn Rabiənin h.25-ci (645-ci il) ildəki yürüşündən bəhs edərkən onun "Arran"da olan Beyləqan şəhərinə çatdığını" yazır [8, 23]. Lakin o, bir qədər sonra ərəb sərkərdələrindən biri Adiyyə ibn əl-Kindinin "Azərbaycana tərəf gedib, Beyləqanda düşərgə saldığını", Beyləqanda "Adiyyə arxı" adlandırılan su kanalı çəkdirdiyini, Adiyyə ibn əl-Kindidən sonra hakim təyin edilmiş əl-Haris ibn Əmrin "Azərbaycan ölkəsinə gedib Bərdədə yerləşdiyini" də qeyd edir [8, 23]. Beləliklə, əl-Kufi VII əsrdə baş vermiş hadisələrdən bəhs edərkən Araz çayından şimalda yerləşən torpaqları gah Arran, gah da Azərbaycan adlandırmışdır.

Əl-Yəqubi özünün "Kitab əl-Buldan" ("Ölkələrin kitabı") əsərində Azərbaycanın hüdudlarını Zəncandan Varsana, Beyləqana, Bərdəyə qədər uzatmış, Bərdə və Varsanı Azərbaycan mahalları sırasına aid etmişdir [11, 34].

Digər tərəfdən bəzi ərəbdilli mənbələrdə Şimali Azərbaycanla - Arranla bağlı tez-tez "Ucqar Azərbaycan" ifadəsindən də iştifadə olunmuşdur. Məsələn, əl-Firuzabadi öz lüğətində "Bərdənin Ucqar Azərbaycanda yerləşdiyini" qeyd etmiş, Arranı "Azərbaycanda yerləşən iqlim" adlandırmışdır.

Əl-Məsudi yazır ki, Araz çayı Azərbaycanda Babək Xürrəminin vətəni olan əl-Bəzz ilə,

Arran ölkəsinə mənsub olan Əbu Musa dağı arasından axıb gedir [11, 62]. Lakin əl-Məsudi öz əsərində bəzi hallarda Arranı Azərbaycanın tərkibində göstərmiş, “Azərbaycan ölkəsindən olan Arran” ifadəsini işlətmişdir [39, 177].

Azərbaycan, Arran və Ərminiyyəni vahid iqlimdə birləşdirən əl-Müqəddəsi həmin əraziləri “ər-Rihab” (“geniş ərazi”) adlandırır [40, 9] və qeyd edir ki, biz bu iqlimi üç mahala böldük: “Arran, Azərbaycan, Ərminiyyə. Arran Xəzər dənizi ilə Araz çayı arasında adaya oxşayır.” Sözlərinə davam edən müəllif yazır: əl-Məlik (Kür) çayı onu uzununa bölür. Paytaxtı Bərdədir.” [14, 308].

Burada istər-istəməz Arranın qərb hüdudları haqqında bəhs etmək zərurəti yaranır. Bir sıra yazılı qaynaqlar Sasanilər dövrü Şimali Azərbaycan ərazisinin, yəni antik mənbələrdə Albaniya, ərəb mənbələrində isə Aran və ya Arran adlanan ərazinin ayrı-ayrı vilayətləri haqqında da məlumat vermişlər. Həmin mənbələr Kür-Araz çayları arasında yerləşən dörd əyalət – Arsax, Uti, Paytakaran və Sünik əyalətləri barəsində daha çox bəhs etmişlər. Elmi ədəbiyyatda həmin əyalətlər Albaniyanın Kürün sağsahili əyalətləri kimi tanınmışdır [29, 7-8].

Erməni mənbələrində “Arsax”, antik müəlliflərin əsərlərində isə “Orxistean” adlanan (Qarabağın dağlıq hissəsi və Mil düzünün bir hissəsi) ərazi Sağsahil Albaniyasının mühüm vilayətlərindən biri olmuşdur. VII əsrdə yazılmış “Ermənistan coğrafiyası”na görə, Arsax 12 xırda inzibati vahidə bölünmüşdü. Əyalətin əhalisinin əsasını qarqarlar, utilər, hunlar, xəzərlər və basillər təşkil edirdilər [10, 94]. Albaniya Arşakiləri və Mehranilər tərəfindən idarə edilən Arsax, Əməvilər dövründə Arran vilayətlərindən biri kimi Ərəb xilafətinin tərkibinə daxil edildi. Xilafət parçalananda burda Qriqori Hmama Alban (Arran) hakimliyini bərpa etdi [10, 95]. O, Sacilərdən və Salarilərdən asılı idi. XII – XIII əsrlərdə isə burada Xaçın knyazlığı yüksəliş tapdı ki, onun da hakimi “alban çarı” adı ilə tanınan Həsən Cəlal idi.

Göyçə gölü və Arsaxla həmsərhəd olan Sünik və ya Sisakan (Zəngəzur) Albaniyanın cənub-qərbində yerləşirdi. Albanşünaslar təsdiq edirlər ki, Sünik vilayəti etnik, siyasi və mədəni baxımdan Albaniyaya və Atropatenaya bağlı olmuşdur [35, 146]. X. Xubuşman və İ. Markvart Süniki ümumiyyətlə, Albaniya vilayəti hesab edirdilər [10, 96]. İndiki Naxçıvan və Ordubad (Qoxtan) əraziləri də bir çox hallarda Sünikin tərkibində göstərilirdi. Bu ərazilərin türk xalqları tərəfindən məskunlaşdırılması şübhəsizdir. Məsələn, Feofilakt Simokatta türkləri “barbar” adlandırır və yazır ki, onlar bizim tarixçilərin Araks (Araz) adlandırdığı çayın sahillərində yaşayırlar və həmin çayı Əras adlandırırlar [34, 78 ]. Moisey Xorenatsinin və Musa Kalankatlının əsərlərindəki çoxsaylı məlumatlar da Sünik vilayətinin birmənalı şəkildə Albaniya ərazisi olduğunu göstərir [9, 92].

Ərəb xilafəti dövründə Arsax və Sünik, əl-İstəxrinin Həciran adlandırdığı vilayətlər qeyd-şərtsiz Azərbaycanın tərkibində vilayət olan Arrana aid edilirdi [4, 138 ]. Həmin dövrdə indiki Ermənistan adlanan ərazi də daxil olmaqla Azərbaycan torpaqları geniş əraziləri əhatə edirdi. Ərəbdilli mənbələr bu dövrdə mərkəzi Naxçıvan olan Basfurcan adlanan vilayəti Arran ölkəsinin vilayəti adlandırırdılar. Ərəb xilafəti dağıldıqdan sonra isə burada Sacilər, Salarilər və Şəddadilərdən asılı olan, hökmdarı həm də “Aranşah” adlanan Naxçıvan əmirliyinin yaranmasını və Səlcuqlaradək mövcud olduğunu söyləmək mümkündür.

Sacilər və Salarilərdən sonra Naxçıvan və indi Ermənistan adlanan ərazilər digər bir Azərbaycan dövlətinin – Şəddadilərin tərkibində olmuşdur. Sacilər və Salarilər kimi Şəddadilər də mənbələrdə Azərbaycan dövləti adlandırılır. Təsadüfi deyildir ki, bir müddət Gəncədə yaşamış Qətran Təbrizi və Naxçıvanda yaşamış Əsədi Tusi Şəddadi hökmdarlarını “Turan hökmdarı”, ondan asılı olan Naxçıvan əmrini isə “Naxçıvanşah”, “Aranşah” adlandırırdılar.

## Arranın Azərbaycan adlandırılması haqqında

Artıq qeyd edildiyi kimi, ərəbdilli müəlliflər tarixi Azərbaycan torpaqlarını iki böyük coğrafi anlayış şəklində – “Azərbaycan” və “Arran” şəklində təqdim edirdilər. Lakin ərəb mənbələri həmin ərazilərdən vahid ölkə kimi bəhs edərkən onu məhz “Azərbaycan” adlandırırdılar. Lakin bir sıra tədqiqatçılar, xüsusilə, müasir erməni və İran tarixçiləri Arazdan şimaldakı torpaqların yalnız “Aran” və “Arran” adlandırıldığını, Azərbaycana aidiyyəti olmadı-

ğını iddia edirlər. Başqa sözlə, onlar Araz çayından şimaldakı torpaqların "Azərbaycan" adlandırılmasına qarşı çıxırlar.

İran tarixçiləri öz tədqiqatlarında tarixi Azərbaycanın bu iki vilayətindən bəhs edərkən ilkin mənbələrdən yalnız özlərinin istəklərinə uyğun gələn faktları ön plana çəkərək, şimal torpaqlarımıza Arranla yanaşı Azərbaycan da deyilməsinə dair çoxsaylı faktların üstündən sükutla keçmişlər. Bu baxımdan onların bir çoxlarının əsərlərində rast gəlinən "bütün mənbələrdə birmənalı şəkildə Arazdan şimaldakı torpaqlara heç vaxt Azərbaycan deyilməmişdir" [62, 61] iddiası təəccüb doğurur. Məsələn, S.Ə. Kəsrəvi iddia edir ki, qədim dövrlərdən bu iki ərazi bir-birindən ayrı olmuş və heç vaxt Arran ərazisinə "Azərbaycan" deyilməmişdir [63, 176]. İran tarixçiləri hətta 1918-1920-ci illərdə Şimali Azərbaycanda mövcud olmuş müstəqil dövlətin – Azərbaycan Xalq Cümhuriyyətinin bu cür adlanmasının doğru olmadığını iddia edirlər.

Sağsahil Albaniyasını "Şərqi Ermənistan", şimal-şərqi Azərbaycan ərazisni "Şərqi Gürcüstan" adlandırmağa adət etmiş erməni və gürcü tarixçilərinin ilkin yazılı qaynaqları təhrif etməkdə nə qədər "bacarıqlı" olduqlarını isə izah etməyə ehtiyac yoxdur. Klassik erməni ənənəsinə "sadiq qalan" erməni tarixçisi A.K Şaqiniyan isə nəinki erməni, hətta ərəbdilli qaynaqları təhrif edərək erməni dövlətçiliyinin olmadığı bir dövrdə "Ermənistan" ərazisini Azərbaycan ərazisi hesabına genişləndirməkdə davam edir və mənbələrdə Azərbaycan adının Araz çayından şimala aid edilməsi haqqında çoxsaylı məlumatlara göz yumur [36, 94-102].

Gürcüstan tarixşünaslığında müxtəlif dövrlərdə "Saingilo" adı altında tarixi-coğrafi və tarixi-etnoqrafik səpkili bır sıra monoqrafiyalar nəşr olunmuşdur [6, 11-12]. Yalnız müasir gürcü tarixşünaslığına məxsus olan "Saingilo" ("İngiloyistan") coğrafi məfhumu müasir dövrdə Azərbaycan Respublikasının Balakən, Zaqatala və Qax rayonlarının ərazisini əhatə edir. Ciddi tarixi təhriflərə yol verilmiş, yerlərdən toplanmış müəyyən etnoqrafik materiallara subyektiv yanaşmadan irəli gələn və heç bir elmi əsası olmayan mülahizələrə geniş yer verilmiş bu əsərlərdə məqsəd bölgə tarixinin saxtalaşdırılmasından ibarətdir. Bu əsərlərdə Şəki Gürcüstan ərazisi kimi təqdim olunmağa, saxta faktlar uydurmağa cəhdlər edilir.

Gürcü tarixçiləri sırasında D.L.Musxelişvilinin [30] canfəşanlığı, xüsusilə, qeyd edilməlidir. Onun Arranın şimal-qərb hüdudları ilə bağlı əsassız fikirlərinə Azərbaycanın Z.M.Bünyadov [22, 93-96], N.M.Vəlixanlı [23, 46-87], F.C.Məmmədova [29, 7-45], V.B.Piriyev [33, 98-109 ] kimi tədqiqatçılar tərəfindən layiqincə cavab verilmişdir.

Rus tədqiqatçıları arasında da oxşar fikirlərə rast gəlmək mümkündür. Məsələn, V.V. Bartold "Azərbaycan" anlayışının Arazın həm şimalına, həm də cənubuna aid edilməsini səlcuqlardan sonrakı dövrə aid edir. Şərqşünas-alimin fikrincə, o vaxtadək Araz çayı şimalla cənubu bir-birindən ayıran etnoqrafik sərhəd olmuşdur [21, 211].

V.V. Bartolddan fərqli olaraq, Z.İ. Yampolski bir sıra hallarda Atropatena ilə Albaniya arasında sərhəddin Kür çayı olduğunu qeyd etmişdir [37, 100-108].

Biz bir sıra ərəbdilli mənbələrdə Araz çayından şimaldakı torpaqlarımıza həm "Arran", həm də "Azərbaycan" deyilməsi faktına dəfələrlə rast gəlirik. Xüsusi olaraq qeyd etmək lazımdır ki, əsərlərində Əhəmənilər, Makedoniya və Parfiya dövlətləri haqqında məlumat verən ərəbdilli müəlliflər həmin dövrdən bəhs edərkən yalnız "Azərbaycan" ("Azərbayqan") anlayışından istifadə etmişlər. Nisbətən sonrakı dövrdən, Sasanilər dövrü hadisələrindən bəhs edərkən artıq "Azərbaycan" anlayışı ilə yanaşı "Aran" və "Arran" anlayışlarına da yer vermişlər. Buradan da belə qənaətə gəlmək olar ki, əvvəllər Arazın həm şimalı, həm də cənubu birlikdə Azərbaycan adlandırılmışdır. Tarixi Azərbaycan torpaqlarında iki dövlət – Atropatena və Albaniya dövlətləri yarandıqdan sonra, ərazi sırf siyasi-inzibati baxımdan iki hissəyə bölünmüşdür. Antik müəlliflərin əsərlərindən bəhrələnən ərəbdilli müəlliflər də məhz e.ə. V – b.e. III əsrdə baş verən hadisələrindən bəhs edərkən həmin bölgüyə uyğun olaraq iki siyasi-inzibati vahiddən istifadə etməyə başlamışlar. Lakin onlar heç vaxt Arazdan şimaldakı torpaqları "Albaniya" adı altında təqdim etməmişlər. Cənubdakı torpaqlara münasibətdə isə "Atropatena" deyil, "Azərbayqan" və ya "Azərbaycan" terminlərinə üstünlük vermişlər.

Tarixi mənbələr V əsrin ortalarında Sasani şahı Firuz tərəfindən Xəzərin qərb sahillərində salınan qalanın da Azərbaycanda (Albaniyada deyil) yerləşdiyini qeyd edirlər [32, 52].

Azərbaycanın şimal hüdudlarının Dərbəndə qədər uzanması haqqında ilk məlumatlardan birinə Xəlifə ibn Xəyyat əl-Usfurinin əsərində rast gəlirik. O, yazır:

**فغزا مسلمة سنة احدى و تسعين الترك حتى بلغ الباب من نحو آذربيجان.**

**Tərcüməsi: "91-ci (709-cu) ildə Məsləmə türklərə qarşı yürüş etdi və Azərbaycan tərəfdən əl-Baba çatdı." [41, 303].**

Göründüyü kimi, burada müəllif əl-Babı, yəni Dərbəndi Azərbaycanla bağlayır. Onun əsərində Arazın həm şimalından, həm də cənubundan bəhs olunarkən tez-tez Azərbaycan adından istifadə edilir. Belə ki, əsərdə Arran adına "əl-Bərran" və Şirvan adına "Şərvan" şəklində yalnız bircə dəfə rast gəlinir [41, 307].

Ət-Təbərinin əsərinin X əsrə aid fars dilindəki tərcümələrindən birində "Azərbaycan və Dərbəndin fəthi" adlı fəsil vardır. Həmin fəsildə Azərbaycanın şimal sərhəddi aydın şəkildə Dərbənd sayılır. Orada deyilir ki, Həmədan və Zəncandan Dərbəndə qədər olan şəhərlərin hamısı Azərbayqana (Azərbaycana) aid edilir. Azərbayqanın (Azərbaycanın) ucqarına, oradan da Xəzər torpaqlarına aparan quru və dəniz yolları vardır və bu yol "Dərbənd yolu" adlanır, tazilər (ərəblər) isə Dərbəndə "Bab" deyirlər [59, 80].

Ət-Təbərinin "Tarix" əsərinin orjinalında ayrıca olaraq Azərbaycanın hüdudları məsələsindən bəhs edilməsə də, orada Dərbəndin məhz Azərbaycanın şimal sərhəddi olmasına dəlalət edən çoxsaylı faktlara rast gəlirik [4, 105]. Məsələn, xəzərlərin VII əsrdəki hücumlarından bəhs edən ət-Təbəri onların ərəbləri məğlub edərək, Dərbənddən Azərbaycana daxil olduğunu və yaxud ərəblərin xəzərləri Dərbənddə məğlub edərək onları Azərbaycandan çıxardıqlarını dəfələrlə qeyd edir. VIII əsrdə baş vermiş hadisələrdən bəhs edərkən isə o, Azərbaycanın şimal sərhədinin məhz Dərbənd şəhəri olduğunu qətiyyətlə bildirir. Məsələn, müəllifin əsərində h.89-cu (707-ci) ilə aid aşağıdakı sözlərə rast gəlirik:

**غزا مسلمة بن عبد الملك الترك حتى بلغ الباب من ناحية آذربيجان ففتح حصونا و مداين هنالك.**

**Tərcüməsi: "Məsləmə ibn Əbdu-l-Malik türklərə qarşı yürüş etdi, Azərbaycan tərəfdən əl-Baba çatdı və orada qalalar və şəhərlər fəth etdi." [42, 67].**

"Nahiyə" ("nəhiyə") sözünün ərəb dilində müxtəlif mənalarda (nahiyə, tərəf, qonşu, yer) işləndiyini nəzərə alsaq həmin epizoddakı "Azərbaycan tərəfdən əl-Baba çatdı" cümləsini "Azərbaycan nahiyələrindən olan əl-Baba çatdı" şəklində də tərcümə etmək olar. Lakin hər iki halda məsələnin mahiyyəti dəyişmir və burada eyni anda iki fakt öz əksini tapır: Azərbaycanın şimal hüdudunun Dərbənd olması və Azərbaycanda türklərin məskunlaşması. Həmin məlumata bir qədər fərqli şəkildə ibn Kəsirin əsərində də rast gəlinir [43, 77].

Ət-Təbəri və ibn Kəsir h.91-ci (709-cu) ilə aid hadisələrdən bəhs edərkən yenə oxşar ifadələr işlədərək, Azərbaycanın şimal sərhədinin məhz Dərbəndə qədər uzandığına işarə etmişlər [4, 105]. Əz-Zəhəbi yazır: "91-ci (709-cu) ildə Məhəmməd ibn Mərvanı əvəz edən Məsləmə türklərin üzərinə hücum edərək "Azərbaycan dənizi tərəfdən əl-Baba çatdı." [44, 312 ]. Diqqəti cəlb edən cəhətlərdən biri də budur ki, əz-Zəhəbi Xəzəri "Bəhru Azərbəycən", yəni "Azərbaycan dənizi" adlandırır.

Nəşvan ibn Səid əl-Himyərinin "Muluku Himyər və əqyalu-l-Yəmən" ("Himyər padşahları və Yəmən hökmdarları") adlı əsərində də Arazdan şimalda yerləşən və Dərbəndə qədər uzanan bütün torpaqlar "Azərbaycan türklər ölkəsinə" aid edilmişdir. Burada "Bab" (Dərbənd) Azərbaycan ölkəsinin şəhəri kimi göstərilmiş və "türk şəhəri" adlandırılmışdır [45, 66].

İbn Miskəveyhin "Kitab təcarib əl-uməm" ("Xalqların təcrübəsi haqqında kitab") adlı əsərində I Xosrov Ənuşirvanın (531-579) fəaliyyəti haqqında pəhləvi dilində yazılmış əsərin bir hissəsinin tərcüməsi verilmişdir. Burada "Arran" və "Albaniya" adlarına deyil, yalnız Azərbaycan adına rast gəlinir. Həmin əsərdə Dərbənd "Babu Sul" adlandırılmış və Azərbaycana aid edilmişdir [46, 134].

İndi də Arran və Azərbaycanın hüdudları ilə bağlı daha maraqlı fikirlər söyləmiş ibn Havqəlin məlumatlarına nəzər yetirək. İbn Havqəl öz əsərində Arrandan həm ayrılıqda, həm də Azərbaycanın tərkibində bir vilayət kimi həhs etmişdir. Qeyd etmək lazımdır ki, onun əsərin-

də "İki Arran" (Ər-Raneyn) ifadəsinə də rast gəlinir [47, 255]. Müəllif "Ərminiyyə, Azərbaycan və Arran" adlı paraqrafda Azərbaycanın coğrafi-siyasi sərhədləri haqqında çox mühüm məlumat verir və hər üç ərazini bir iqlimdə verməsinin səbəbini belə izah edir: **"Mən onlara vahid iqlim kimi yanaşıram. Çünki mənim gördüyümə görə, bu iqlim bir şəxsin hakimiyyəti altındadır. Həmçinin əldə edilmiş məlumatlara əsasən, son zamanlarda ibn Əbu Sac, onun qulamı Müflih, Deysəm ibn Sədluye və Salar kimi tanınmış Mərzban ibn Məhəmməd kimiləri orada hakimiyyətdə olmuşlar." [47, 331].**

İbn Havqəl öz kitabında iqlimin xəritəsini də vermişdir. Müəllif bir qədər sonra öz fikirini daha da dəqiqləşdirərək "həmin hökmdarların məhz Azərbaycan hökmdarları olduğuna" işarə edir və yazır ki, Qafqaz dağlarında və ətraf ərazilərdə xırda hökmdarlar vardır. Müəllif bu fikrini aşağıdakı sözlərlə davam etdirir: **"Bu hökmdarların əksəriyyəti hər il Azərbaycan hökmdarlarına müəyyən miqdarda daimi vergi və digər ləvazimatlar aparırlar." [47, 348 ].**

İbn Havqəl öz əsərinin başqa bir yerində "qızılboya" adlı bitkidən bəhs edərək yazır: **"Bu qızılboya (boyaqotu) Bab əl-Əbvab hüdudlarıdan Tiflisədək bütün Arran ölkəsində, ər-Rass çayı yaxınlığından xəzərlərin nahiyələrinədək Azərbaycan hökmdarının hakimiyyəti altında olan bütün ərazilərdə vardır." [47, 347].**

Göründüyü kimi, müəllif Azərbaycan ölkəsi və dövlətinin hüdudlarının şimalda Dərbəndədək, qərbdə Tiflisədək uzandığını qeyd etmişdir.

Nəhayət, ibn Havqəl öz əsərinə "Xəzər dənizi" adlı xəritə də daxil etmişdir. Müəllif həmin xəritəni şimaldan cənuba doğru izah edərkən yazır: **"Dənizin yuxarı hissəsində sahilboyu "əl-Ğuziyyə" yazılmışdır, onun ardınca isə sahilboyu əl-Xəzər, Azərbaycan, Cil, Təbəristan gəlir." [47, 386].**

Burada söhbət sırf coğrafi anlayış kimi başa düşülən Azərbaycan ölkəsindən gedir. Deməli, bu, yalnız siyasi xarakter daşımır. Onun təqdim etdiyi xəritəyə diqqətlə baxdıqda məlum olur ki, Dərbəndə qədər Xəzər ölkəsinin sərhədləri, Dərbənddən Cilin (Gilanın) sərhəddindəki Səmiranadək isə Azərbaycan ölkəsinin sərhədləri uzanır. Bu xəritədə Bab əl-Əbvab (Dərbənd), Kür və Araz çayları, Muğan ərazisi məhz Azərbaycanın tərkibində göstərilmişdir.

İrəli sürdüyümüz fikirlərin doğruluğuna tam əmin olmaq üçün əsərin birinci hissəsindəki "Dünya atlası" adlanan paraqrafa müraciət edək. Müəllif burada bir sıra ölkələrin təsvirini verdikdən sonra qeyd edir: **"Sonra Azərbaycanın xəritəsini dərc etdim, oradakı dağları, yolları, Kür və Araz kimi şirin sulu çayları, həmçinin Xilat və Kəbuzan göllərini də təsvir etdim. Bu göllərin hər ikisi heç bir dənizlə birləşmir, elə oradaca mən Qabq dağını göstərdim." [48, 7].**

Göründüyü kimi, ibn Havqəl həmin xəritəni izah edərkən Azərbaycan hüdudlarını faktiki olaraq hal-hazırda olduğu kimi təsvir edir. O, burada Arran hüdudlarından bəhs etmir və bütün torpaqlarımızı Azərbaycan adlandırır. Onun şimal sərhədlərini Qafqaz dağları, qərb sərhədlərini isə Van gölünün hüdudları ilə əlaqələndirir.

Yeri gəlmişkən, onu da qeyd etmək istərdik ki, bir sıra xristian müəlliflər bəzən Qafqazı "Atropaten" və yaxud "Atropat" dağları, ərəbdilli müəlliflər isə "Azərbaycan dağları" adlandırırlar. Məsələn, Feofilakt Simokatta (VII əsr) yazır ki, 590-cı ildə hakimiyyət uğrunda mübarizədə məğlub olan Xosrov Pərvizin tərəfdarları ona "öz həyatını xilas etmək üçün Qafqaz və yaxud Atropat dağlarına çəkilməyi məsləhət görmüşdülər." [34, 106 ].

Ərəbdilli müəlliflərdən əl-Məqdisi isə əsərinin III cildində I Yəzdigerdin oğlu Bəhram Gurun Dərbənddən Azərbaycana daxil olan xəzərlərl və digər türklərlə döyüşündən bəhs edir. Bu məqamda o, Qaqaz dağlarını "Azərbaycan dağları" (cibəl Azərbəycən) adlandırır [49, 164].

IX-X əsrlərdə yaşamış bəzi ərəbdilli müəlliflər öz əsərlərində "Arran" məfhumundan ümumiyyətlə, istifadə etməmiş, yalnız "Azərbaycan" coğrafi anlayışı ilə kifayətlənmişlər. Məsələn, əd-Dinəvəri şimaldan gələn xəzərlərin Arrana deyil, Azərbaycana daxil olduqlarını bir neçə dəfə qeyd etmişdir [50, 79].

Naməlum müəllif tərəfindən h.372-ci (982-ci) ildə fars dilində yazılmış "Hüdud əl-aləm" adlı əsərdə Xəzər dənizinin qərb hissəsində Xəzər ölkəsinin və Azərbaycan şəhərlərinin yerləşdiyi qeyd edilmiş [64, 13], Muğanın və Var-

sanın Azərbaycan tərkibində olduğu göstərilmişdir [64, 79].

Əbu-l-Fida "Təqvim əl-Buldən" ("Ölkələrin təqvimi") əsərində yazır ki, bu üç ərazi (Azərbaycan, Arran və Ərminiyyə) bir-biri ilə sıx bağlı olduğu üçün bir yerdə təqdim olunur. Müəllif bəzi hallarda "Ucqar Azərbaycan" ifadəsinə də yer verir [51, 388]. O, daha sonra yazır ki, Şirvan Arranın bir hissəsi olmaqla Azərbaycana aiddir. Buradan əldə edilən nəticə budur ki, həm Arran, həm də Şirvan Azərbaycan ölkəsinin daxilindədir [51, 394-397].

Əl-İdrisi Arran və Azərbaycandan ayrı-ayrılıqda bəhs edir və Bərdəni Arranın paytaxtı adlandırır. Lakin o, bir sıra hallarda Arran ərazisinin Azərbaycanın tərkibində olduğuna işarə edir. Məsələn, onun əsərində aşağıdakı sözlərə rast gəlirik: "Xəzərin şimalında Xəzər ölkəsi, qərbində isə Azərbaycan yerləşir." [52, 12]. Əl-İdrisi tərəfindən h.549-cu (1154-cü) ildə çəkilmiş xəritədə tarixi coğrafiya ilə bağlı digər maraqlı faktlara da rast gəlinir. Həmin xəritə və digər ərəbdilli müəlliflərin əsərlərində rast gəlinən xəritələr 1928-ci ildə K. Miller tərəfindən nəşr olunmuşdur. Haqqında bəhs olunan xəritəni şərh edən K.Odər yazır ki, burada Qafqaz dağlarından Kürə qədər olan "Şirvan" torpaqları "Azərbaycan ərazisi", Kür çayı ilə Araz çayı arasındakı ərazi "Azərbaycan ərazisinin davamı", Cənubi Azərbaycan isə "Azərbaycan ölkəsi" kimi göstərilmişdir [17, 20].

İbn əl-Cauzi də öz əsərində Arran adından nadir hallarda istifadə etmiş və əsasən, Azərbaycan anlayışına üstünlük vermişdir [53, 399].

Ərəbdilli müəlliflərdən Yaqut əl-Həməvinin [54, 172] və əs-Səmaninin əsərlərində də Bərdə Azərbaycan şəhəri kimi təqdim edilir [7, 185-186].

XIII əsr müəlliflərindən Səid əl-Məğribi yazır: "Araz çayı Azərbaycanı iki hissəyə bölür." [55, 188]. O, Şirvanın da Azərbaycana aid olduğunu qeyd edir.

XIII əsrdə yaşamış ərəbdilli müəlliflərdən ibn Xallikan öz əsərində Bərdəni Azərbaycanın vilayət mərkəzi olan şəhərlərindən biri adlandırmış və onun Aranda yerləşdiyini göstərmişdir. Başqa sözlə, o, Arranın Azərbaycanın tərkibində bir vilayət olduğuna işarə etmişdir. O, Azərbaycanın sərhədlərinin gürcü torpaqlarına qədər uzandığını və Dvin şəhərinin Azərbaycanın ucqar şəhərlərindən biri olduğunu qeyd etmişdir. Məsələn o, yazır ki, məşhur türk sərkərdəsi Səlahəddin Əyyubi əslən "Ucqar Azərbaycan şəhəri Dəbildəndir." [56, 260].

İbn əl-Əsir, ibn əl-Qalanisi kimi müəlliflər də Ani və Dvini Azərbaycan şəhərləri kimi təqdim etmişlər [22, 93]. İbn Xəldun da Arranı Azərbaycanın tərkibində göstərmiş və Cənubi Azərbaycanı Şimali Azərbaycandan fərqləndirmək üçün onu "Ədnə Əzərbəycən" ("Yaxın Azərbaycan") adlandırmışdır [57, 193]. Sonrakı dövrdə yaşamış bir sıra müəlliflərin əsərlərində də Dərbənd Azərbaycanın şimal sərhəd məntəqəsi kimi göstərilmişdir [33, 98-109].

**Nəticə**

VII-IX əsrlər Azərbaycan tarixi haqqında məlumat verən ilkin yazılı mənbələrin, eləcə də mövcud elmi ədəbiyyatın araşdırılması, müqayisəsi və ümumiləşdirilməsi əsasında belə nəticəyə gəlmək olar ki, Azərbaycan ərazisi və onun tarixi vilayətlərindən biri olan Arran coğrafi və strateji mövqeyinə görə Ərəb xilafətinin tərkibində mühüm yer tutmuşdur. Buna görə də Azərbaycan və Arran torpaqları ərəb tarixçiləri və coğrafiyaçılarının diqqətindən kənarda qalmamışdır. Təsadüfi deyildir ki, VII – IX əsrlər Azərbaycan tarixinə dair yazılı materialların çoxu məhz ərəbdilli müəlliflərin əsərlərindədir.

İlkin yazılı qaynaqların tarixi coğrafiya ilə bağlı verdiyi məlumatlar bir sıra hallarda ziddiyyətli və qarmaqarışıqdır. Bu problem araşdırılarkən tədqiqatçının işini çətinləşdirən əsas məsələ ərəbdilli müəlliflərlə onlara qədərki mənbələrin materialları arasında fərqli məqamların olmasıdır. Belə ki, Cənubi Qafqazla bağlı olan erməni və gürcü mənbələrində müəlliflərin milli təəssübkeşliyi açıq-aşkar görünməkdədir. Elə buna görə də Arran tarixi ilə bağlı araşdırmalarda ərəbdilli müəlliflərə üstünlük verilməlidir. Çünki onlar bitərəf idilər. Onlar özlərinin də qeyd etdikləri kimi, gördüklərini və etibarlı şahidlərin ifadələrini əsas götürürdülər. Onlar bölgəyə daxil olarkən Cənubi Qafqazda mövcud olan coğrafi terminlərin və etnosların adlarının dəyişdirilməsində, erməni və gürcü müəllifləri kimi təhrif edilməsində maraqlı deyildilər.

İlkin yazılı qaynaqların materiallarının təhlili göstər ki, Azərbaycan və Arranın hüdudları

məsələsi ilə bağlı ərəbdilli müəllifləri iki qrupa bölmək olar:

1. Arranı ayrıca vilayət və ya ölkə hesab edənlər (ibn-Xordadbeh, ibn Rustə, əl-İstəxri və başqaları); 2. Arranı və yaxud onun bir hissəsini Azərbaycanın tərkibində vilayət kimi təqdim edənlər (əl-Usfuri, əl-Yəqubi, ibn əl-Fəqih, ibn Havqəl, ət-Təbəri və başqaları).

Ərəbdilli müəlliflər bəzən bu və ya digər şəhəri həm Azərbaycana, həm də Arrana aid edirdilər. Onların əsərlərində rast gəldiyimiz bu qarışıqlığın əsas səbəbi Arran və Azərbaycanın coğrafi, siyasi və iqtisadi baxımdan bir-biri ilə sıx bağlı olmasıdır. Diqqəti cəlb edən digər məqam budur ki, söhbət indiki zonalara bölgü şəklində ayrı-ayrı vilayətlərdən gedərkən Arran və Azərbaycan ayrılıqda, vahid bir ölkədən gedərkən isə onlar bir yerdə, özü də məhz Azərbaycan adı altında göstərilirdi.

Beləliklə, Ərəbdilli müəlliflərin əsərlərində verilən məlumatlara əsasən, belə nəticəyə gəlmək olar ki, artıq Ərəb xilafəti dövründə Azərbaycan dedikdə həm Araz çayından cənubdakı ərazilər, həm də Arran və Şirvan torpaqları da daxil olmaqla, Araz çayından şimaldakı Dərbəndə qədər olan ərazilər başa düşülürdü. Başqa sözlə, tarixi Azərbaycan torpaqları cənubda Zəncandan başlayaraq, şimalda Dərbəndə qədər, şərqdə Xəzər dənizi sahillərindən başlayaraq, qərbdə Tiflis şəhəri, Van gölü, Dəclə çayı yaxınlığınadək olan əraziləri əhatə etmişdir.

**Ədəbiyyat siyahısı**


1. Aşurbəyli S.B. Şirvanşahlar dövləti. Bakı, Avrasiya press, 2006, 416 s.
2. Azərbaycanın qədim tarixinə dair yazılı mənbələr. Müntəxəbat. Tərtibçilər R.S. Məlikov və A.N. Əlimirzəyev. Bakı, Turxan NPB, 2014, 204 s.
3. Bəkirova E.A. Albaniyanın qərb torpaqları (antik dövr). Xəritə və şəkil. Bakı, "İdeal-Print" MMC, 2021, 220 s.
4. Bünyadov Z.M. Azərbaycan VII-IX əsrlərdə. Bakı, Elm, 1989, 334 s.
5. Əlimirzəyev. A.N. "Albaniya", "Qafqaz Albaniyası", yoxsa "Azərbaycan Albaniyası" // "Azərbaycan" qəzeti, 2 may 2014, s.10
6. Əliyev.Ş.H. IX əsrin sonları – XIII əsrin əvvəllərində Azərbaycan-Gürcüstan münasibətləri (Şəki hakimliyinin tarixinə dair materiallar əsasında). / Elmlər doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı. Bakı, 2024, 58 s.
7. Əliyeva N.A. Azərbaycanın elmi-mədəni mühitinin öyrənilməsində ərəbdilli ədəbiyyatın rolu (XI-XIII əsrlər). Bakı, Elm və Təhsil, 2015, 368 s.
8. Əl-Kufi Əhməd ibn Əsəm. "Kitab əl-futuh" ("Fəthələr kitabı").Azərbaycanın VII-IX əsrlər tarixinə dair çıxarışlar. Ərəbcədən tərcümə edəni, ön söz, qeyd və şərhlərin müəllifi Z.M.Bünyadov. Bakı, Nurlan, 2005, s. 11-100,
9. Kalankatlı Moisey. Albaniya tarixi. Mxitar Qoş. Alban salnaməsi. (Müqəddimə, tərcümə, qeyd və şərhlərin müəllifi akademik Z.M.Bünyadov). Bakı, Avrasiya press, 2006, 344 s.
10. Məmmədova F.C. Azərbaycanın (Albaniyanın) siyasi tarixi və tarixi coğrafiyası (e.ə. III əsr-eramızın VIII əsri). Bakı, Azərnəşr, 1993, 262 s.
11. Vəlixanlı N.M. IX-XII əsr ərəb coğrafiyaşünas-səyyahları Azərbaycan haqqında. Bakı, Elm, 1974, 220 s.
Дербендское ханство включало два махала: Дербендский и Улусский [16, с. 143-144] и город Дербенд. Дербендский махал был небольшим и охватывал всего шесть деревень вокруг города. Улусский махал охватывал всю южную часть ханства вплоть до реки Самура. Кроме них в доханский период Дербендский эялет влючал Терекеменский махал. Этот махал располагался на севере от города и охватывал все деревни вплоть до бассейна реки Уллучая, населенные терекеменцами [34, с. 82-84, 93] / тюркиманами (азербайджанцами).

Судить более подробно о махальном составе Ширванского ханства в течение XVIII в. не приходится. В ханстве в конце XVIII – начале XIX в. было два города – Шамаха и Сальян, и 17 махалов: Сальян, Муган, Рудбар, Ханчобан, Наваги, Элят, Кошун, Садари, Кабристан, Гоуз, Касан, Карабаглар, Хозоурт, Карасубасар, Акерат, Лагич и Болюкент [26]. Как видно, в числе этих махалов находятся провинции Сальян и Муган.

При суммировании различных сведений о Шекинском эялете и ханстве были определены один город Нуха и махалы Шеки, Кабала, Куткашин, Ареш, Агдаш и Алпаут. Но этот список может быть не полным, так как и по размерам территории и по количеству населения Шекинский эялет мог иметь и большее число махалов. Наше предположение подтверждается описанием Шекинского ханства начала XIX в., составленным русскими властями. Согласно этим данным Шекинское ханство делилось на 8 махалов: Шеки, Хачмас, Бум, Куткашин, Ареш, Агдаш, Алпоут и Падар [25]. В другом архивном документе нет Бумского махала, но зато значится махал под названием Гойнак [11] (Гёйнюк – Р. С.).

Бывшая часть Шекинского эялета Джар-Илису, как уже было отмечено, во второй четверти XVIII в. выделился из Шеки в отдельную провинцию. Во второй половине XVIII в. Джар-Илису разделилось на Джаро-Балакенские джамааты и Илисуйское султанство. Имеющиеся сведения о внутреннем делении Джар-Илисуйской провинции относятся к первой трети XIX в. По ним Джар-Илису состоял из Илисуйского султанства и 6 джамаатов или вольных обществ: Джар, Балакен, Катех, Талы, Мухах и Джаник. Вольные общества объединялись в два гёза (или союза): Джарский и Тальский. В первый из них входили Джар, Балакен и Катех, а во второй – Талы, Мухах и Джаник. Третьим гёзом являлось Илису [18, с. 86-87].

**Заключение**

В исторической географии Азербайджана как научной дисциплине сделаны только первые шаги. В исторической памяти народа и народной традиции географических терминов не придавалось особого значения историко-географической и административно-географической номенклатуре. Отсюда проявление путаницы с таксономическим уровнем историко-географических и административно-географических терминов и их беспорядочное использование. Видимо эта путаница терминов происходит от одноименных вилаетов, эялетов и махалов. Например, рассматриваемый вилает и его составная часть эялет имели одинаковое название – Ширван. То же самое касается

Шекинского эялета и его составной части Шекинского махала. Можно привести пример тройного употребления одного топонимического термина: Кубинский эялет – Кубинский махал – город Куба. Наиболее выразительный пример подобного топонимического однообразия в наименовании вилаета, эялета и махала был связан с соседним азербайджанским вилаетом Карабаг. В его составе существовал Карабагский эялет. Кроме того, в смежном ему Нахчыванском эялете азербайджанского вилаета Чухурсаад существовал Карабагский махал [27, с. 36]. Кстати, в Ширванском эялете существовал Карабагларский махал. Происхождение названия обоих махалов связано с одноименным населенным пунктом в них – Карабаглар.

Впервые в историографии историко-географические вопросы Ширвана XVIII – начала XIX в. исследованы как составная часть этнологии и истории Тюркимано-Кызылбашского государства. В течение XVIII в. Ширванский вилает имел стабильную территорию. Даже в периоды распада на провинции границы эялетов и независимых ханств, возникших на их основе, образовывавших внешние пределы вилаета, оставались прежними.

Изучение исторической географии Ширвана на основе различных источников создало условия для таксономического упорядочивания историко-географической и политико-административной терминологии. Это, в свою очередь, предоставило возможность на примере данного вилаета установить, что Кызылбашское государство имело трехуровневое административно-территориальное деление. Вилаеты состояли из эялетов, а те, в свою очередь, делились на махалы. Кроме Баку и Сальяна, все остальные провинции вилаета имели махальный состав. Если число эялетов было постоянным, то количество махалов в них, например, в Кубе, могло варьировать по причине их объединения или разукрупнения.

В итоге данное исследование прояснило многие вопросы историко-географических пределов Ширванского вилаета, административно-территориального состава и политико-административной принадлежности его отдельных эялетов и махалов, основы их этнополитической и этнокультурной составляющей. Благодаря достигнутым результатам в данном исследовании появилась возможность разоблачения фальсификаторов исторической географии Ширвана как составной части Азербайджанской страны.

## Литература


1. Məmmədova, İ.M. XVIII-XIX əsrin əvvəllərində Azərbaycanda əhalinin etnik tərkibi / İ.M.Məmmədova. – Bakı: İdeal – Print MMC, – 2021. – 328 s.
2. Piriyev, V.Z. Azərbaycanın tarixi-siyasi coğrafiyası / V.Z.Piriyev. – Bakı: Müəllim, – 2006. – 148 [1] s.
3. Абдуллаев, Г.Б. Азербайджан в XVIII веке и взаимоотношения с Россией / Г.Б.Абдуллаев. – Баку: Изд-во АН АзССР, – 1965. – 621 с.
4. Алиев, Ф.М. Азербайджан в XVIII в. // Историческая география Азербайджана. – Баку: Элм, – 1987, – с. 129-139.
5. Алиев, Ф.М. Антииранские выступления и борьба против турецкой оккупации в Азербайджане в первой половине XVIII в. / Ф.М. Алиев. – Баку: Элм, – 1975. – 231 с.
6. Арунова, М.Р., Ашрафян, К.З. Государство Надир-шаха Афшара / М.Р.Арунова, К.З.Ашрафян. – Москва: Изд-во вост. лит., – 1958. – 284 с.
7. Бакиханов, А. Гюлистан-и Ирам / А.Бакиханов, редакция, коммент., прим. и указ. З.М. Буниятова. – Баку: Элм, – 1991, – 304 с.
8. [Бурнашев, С.Д.]. Описание областей Адребижанских в Персии и их политическаго состояния, сделанное пребывающим при его высочестве царе карталинском и кахетинском Ираклии Темуразовиче полковником и кавалером Бурнашевым в Тифлисе в 1786 / [С.Д.Бурнашев]. – Курск, – 1793. – 27 с.
9. Бутков, П.Г. Материалы для новой истории Кавказа с 1722 по 1803 год / П.Г.Бутков. – СПб., – 1869, Ч. 1. – XXV, 548 с.
10. Государственный исторический архив Азербайджанской Республики, Фонд № 24, опись № 1, дело № 21.

11. Государственный исторический архив Азербайджанской Республики, Фонд № 24, опись № 1, дело № 65.

12. Грамоты и другие исторические документы XVIII столетия, относящиеся к Грузии. В 2-х т. Т. I. С 1768 по 1774 год / Под ред. А.А.Цагарели. – СПб., – 1891, – LXXII, 518 с.

13. Дубровин, Н. История войны и владычество русских на Кавказе. Т. I. Очерк Кавказа и народов, его населяющих. Кн. II. Закавказье / Н.Дубровин. – СПб., – 1871. – IV, 423 с.

14. Иванов, М.С. Очерки истории Ирана / М.С.Иванов. – [Москва]: Госполитиздат, 1952. – 468 с.

15. Историческая география Азербайджана / Редакция и предисл. З.М. Буниятова. – Баку: Элм, – 1987, – 148 с.

16. История, география и этнография Дагестана XVIII-XIX вв. Архивные материалы / Под ред. М.О.Косвена и Х.-М.О.Хашаева. – Москва: Изд-во восточной лит-ры, – 1958. – 371 с.

17. История Ирана с древнейших времен до конца XVIII века. – Ленинград: Изд-во Ленинградского ун-та, – 1958. – 390 с.

18. Колониальная политика российского царизма в Азербайджане в 20-60-х гг. XIX в. / [Ред., вступ. ст.: И.П.Петрушевский]. Ч. 2: Феодальные отношения и колониальный режим, 1843-1868 гг. / [Сост. и подгот. к печ.: Н.Г.Богданова]. – Москва; Ленинград: Изд-во Академии наук СССР, – 1937. – 478, [1] с.

19. Кузнецова, Н.А. Политическое и социально-экономическое положение Ирана в конце XVIII–первой половине XIX в. // Очерки новой истории Ирана. – Москва: Наука, – 1978, – с. 5-121.

20. Лерх, И.Я. Сведения о втором путешествии в Персию, совершенном в 1745-1747 гг. / Перевод М.М.Абезгауз. – Научный архив Ин-та Истории и этнологии НАН АР, Инвентарь № 490.

21. Летифова, Э.М. Илисуйское султанство / Э.М.Летифова, автор вступительной статьи Я.М. Махмудов. – Баку: Издательский дом "Şərq-Qərb", – 2010. – 400 с.

22. Махмудлу, Ягуб. Вступительная статья к кн.: Летифова Э.М. Северо-западный Азербайджан: Илисуйское султанство / Я.Махмудлу. – Баку: Издательство "Алтай", – 1999, – 152 с.

23. Мильман, А.Ш. Политический строй Азербайджана в XIX–начале XX веков: административный аппарат и суд, формы и методы колониального управления / А.Ш.Мильман. – Баку: Азгосиздат, – 1966. – 317 с.

24. Новосельцев, А.П. Глава 23 «Империя Надир-шаха и Иран в XVIII в.» // История Востока. Т. III. Восток на рубеже средневековья и нового времени. XVI-XVIII вв. – Москва: Восточная литература РАН, – 2000, – с. 439-447.

25. Описание Шекинской провинции, составленное в 1819 году, по распоряжению главноуправляющего в Грузии Ермолова, генерал-майором Ахвердовым и статским советником Могилевским. – Тифлис, – 1866, – [без пагинации].

26. Описание Ширванской провинции, составленное в 1820 году, по распоряжению главноуправляющего в Грузии Ермолова, генерал-майором Князем Мадатовым и действительным статским советником Могилевским. – Тифлис, – 1867, – [без пагинации].

27. Петрушевский, И.П. Очерки по истории феодальных отношений в Азербайджане и Армении в XVI-начале XIX вв. // И.П.Петрушевский. – Ленинград: ЛГУ, – 1949. – 382 с.

28. Поспелов, Е.М. Географические названия мира: Топонимический словарь / Е.М.Поспелов, отв. ред. Р.А. Агеева. – Москва: Русские словари, – 1998. – 503 с.

29. Рахмани, А.А. Азербайджан: границы и административное деление в конце XVI-XVII вв. // Историческая география Азербайджана. – Баку: Элм, – 1987, – с. 120-128.

30. Рзаев, Н.К. О происхождении Шеки и Нухи // – Баку: Доклады АН Азерб. ССР. – 1973, т. XXIX, № 3, – с. 86-88.

31. Российский государственный архив древних актов, Фонд № 77, Сношения с Персией, 1718 г., № 1.

32. Сафаров, Рафик. Некоторые вопросы исторической географии Чухурсаада (XV-XVII вв.) // – Баку: Азербайджан и азербайджанцы. – 2004, № 1-4, – с. 29-39.

33. Сафаров, Р.Ф. Об истории возникновения дагестанской и ширванской общин горских евреев // Материалы международного научного симпозиума «Горские евреи Кавказа». – Баку: – 24-26 апреля 2001 г. – 2002, – с. 75-85.

34. Списки населенных мест Дагестанской области // Сборник статистических сведений о Кавказе. Т. I. / Составлен и издан под редакциею Н.И.Воронова. – Тифлис, – 1869, Отдел I. – с. 1-123.

35. Фарзалиев, Акиф. Южный Кавказ в конце XVI в. Османо-Сефевидское соперничество / А.Фарзалиев. – СПб.: Изд-во С.-Петербургского ун-та, – 2002. – 156 с.

36. Фон-Плотто, А.И. Природа и люди Закатальского округа // Сборник сведений о кавказских горцах. – Тифлис, – 1870. Вып. IV, – с. 1-68.

37. Хаджи Сеид Абдулгамид. Родословная шекинских ханов и их потомков // Из истории Шекинского ханства. – Баку: Элм, – 1958, – с. 58-64.

38. Эфендиев, О.А. Азербайджанское государство Сефевидов в XVI веке / О.А.Эфендиев. – Баку: Элм, – 1981. – 308 с.

39. Эфендиев, О.А. Территория и границы Азербайджанских государств в XV-XVI вв. // Историческая география Азербайджана. – Баку: Элм, – 1987, – с. 110-119.

40. Kırzıoğlu F.M. Osmanlılar’ın Kafkas Elleri’ni fethi (1451-1590) / F.M.Kırzıoğlu. – Ankara: TTK Basımevi, – 1993. – 550 s.

41. Kütükoğlu, Bekir. Osmanlı-İran Siyâsî Münâsebetleri. Cilt I: 1578-1590 / B.Kütükoğlu. – İstanbul: Edebiyat fakültesi Matbaası, – 1962. – XII, 232 s.

42. Tadhkirat al-Muluk. A manual of Safavid administration (circa 1137 / 1725) / Transl. and expl. by V. Minorsky. – London, – 1943, – X, 186 p.

## Xülasə

**Rafiq Səfərov**

### XVIII əsrdə Şirvanın tarixi coğrafiyasının məsələləri və onun saxtalaşdırılması

XVIII-XIX əsrlərdə Şirvanın tarixi-coğrafi məsələləri Qızılbaş (Azərbaycan) məmləkətində, xüsusilə Əfşar sülaləsinin hökmranlığının süqutundan sonra, tarixi və etnosiyasi dəyişikliklərlə bağlıdır. Bu proseslərin arasında Rusiyanın Qafqazı, Azərbaycan və Osmanlı torpaqlarını istila siyasəti mühüm yer tutur.

Şirvan vilayətinin sabit ərazisi Qızılbaş (Azərbaycan) dövlətinin ilk dövrlərində formalaşıb. Azərbaycan və bütövlükdə dövlət inzibati-ərazi cəhətindən vilayətlər (oblast’), əyalətlər (provintsiya) və mahallardan (volost’) ibarət idi. İnzibati cəhətdən vilayətlər əyalətlərə və mahallara bölünürdü. Şirvan Kür çayı ilə Qafqaz dağ silsiləsi arasındakı torpaqları əhatə edirdi və şərqdə Salyan və Dərbənddən qərbdə olan Cara qədər uzanırdı. Vilayət Dərbənd, Quba, Bakı, Salyan, Şirvan, Şəki, Car-İlisu, Kürə və Tabasaran əyalətlərini daxil edirdi. Əyalət hüdudları əsasən təbii-coğrafi sərhədləri boyunca keçirdi. Bütün əyalətlərdə Qızılbaş Türkimanları üstün olan əhalini təşkil edir. Ölkənin 1747-ci ildə dağılmasından sonra əyalətlərin yerində xanlıqlar yaranıb.

Əvvəlki mənbələrdən fərqli olaraq, 1796-cı ildə Azərbaycanın növbəti işğalı zamanı Azərbaycan torpaqları haqqında rus təsvirlərində Dərbənd və Quba əyalətləri Azərbaycana məxsus olduğu halda Dağıstana aid edirdilər. Bəzi gürcü və Dağıstan tarixçiləri Qafqaz və onun böyük bir hissəsi olan Azərbaycan tarixinin azğın saxtakarları olan erməni müəllifləri ilə həmahəng fəaliyyət göstərirlər. Dağıstan müəllifləri Car-İlisu əyalətinin tarixi-coğrafi atributasiyasında Şirvan və Azərbaycan kimi qədim terminlərin yerinə iki yüz il əvvəl rus müstəmləkə administrasiyası tərəfindən yeridilmiş "Şərqi Zaqafqaziya" kimi qondarma termini işlədirlər.

***Açar sözlər:*** *Şirvan, Azərbaycanın tarixi coğrafiyası, Qızılbaş dövləti, Azərbaycan xanlıqları, Dərbənd, Quba, Şəki, Car-Balakən camaatlığı, İlisu*

## Summary

**Rafiq Safarov**

## Problems of historical geography of the Shirvan in the 18th century and its falsification

Historical-geographical problems of Shirvan in the 18th centuries are connected with historical and ethno-political changes in the Qizilbash (Azerbaijan) state, especially after downfall of the Afsharid dynasty. Among these processes, an important place has conquest the Caucasus, the Azerbaijani and Ottoman lands by the Russian policy.

The stable territory of the Shirvan Vilayet was created during first period of the Qizilbash state. Azerbaijan and the state on the whole administratively-territorially of consisted of vilayets (regions), eyalets (provinces) and mahals (districts). In the administrative aspect the vilayets were divided into eyalets and mahals. Shirvan covered the lands between the Kura River and the Caucasus Mountain Ridge, and stretched from Derbend and Salyan in the east to Jar in the west. Vilayet included the provinces of Derbent, Kuba, Baku, Salyan, Shirvan, Sheki, Jar-Ilisu, Kyura and Tabasaran. Provincial borders passed basically on natural-geographical boundaries. Turkimans-Qizilbashs make up the dominant population in all provinces. After disintegration of the country in 1747 on the place of provinces were formed khanates.

Unlike the previous sources, in the next conquest of Azerbaijan in 1796, in the Russian descriptions of the Azerbaijani lands, the Derbend and Kuba provinces instead of belong to the Azerbaijan were attributed to Dagestan. Some Georgian and Dagestan historians do in unison with Armenian authors, the most malicious falsifiers of the history of the Caucasus and its large part – Azerbaijan. Dagestani authors in the historical and geographical attribution of the Jar-Ilisu province instead of the original designations Shirvan and Azerbaijan use the far-fetched term "Eastern Transcaucasia", introduced by the Russian colonial administration two hundred years ago.


***Keywords:*** *Shirvan, historical geography of Azerbaijan, Qizilbash state, Azerbaijani khanates, Derbend, Cuba, Sheki, Djaro-Belokani communities, Ilisu.*

UOT 94
https://doi.org/10.59849/2710-0820.2025.2.74

**Sevinc Rəhimova**
*tarix üzrə fəlsəfə doktoru, AMEA-nın A.A. Bakıxanov adına Tarix İnstitutu*
*rehimova.74@mail.ru*
*Azərbaycan*
*ORCİD 0000-0001-5449-6978*

# ZƏNGƏZUR DƏHLİZİNİN REGİONAL ƏHƏMİYYƏTİ

***Açar sözlər:*** *Zəngəzur dəhlizi, "iqtisadi dirşəliş, infrastruktur investisiyalari, sülh və sabitlik, mədəni mübadilə.*

## Giriş

Təqdim olunan məqalədə Cənubi Qafqazın Zəngəzur dəhlizinin iqtisadi əhəmiyyəti regionda uzunmüddətli sülhə, əlaqəyə və inteqrasiyaya nail olmaq və regional inkişafın gücləndirilməsi baxımından araşdırılır. Tədqiqatda 10 noyabr 2020-ci il tarixli üçtərəfli sazişdə qeyd olunan Zəngəzur dəhlizindən istifadə perspektivi müzakirə edilir və onun beynəlxalq nəqliyyat şəbəkəsinin mühüm elementi kimi əhəmiyyəti vurğulanır. Azərbaycanın ərazi bütövlüyünün bərpası, Türkiyənin regional təsirinin güclənməsi və digər proseslərlə əlaqədar olaraq bu məsələlərə maraq güclənir. Xüsusilə, Zəngəzur Dəhlizinin potensial açılışı da daxil olmaqla, regionun nəqliyyat əlaqələrinin artırılması sahəsində yeni imkanlar yaranır.

Torpaqlarımızın azad olunması ilə nəticələnən 44 günlük Vətən müharibəsi Azərbaycanın ən yeni tarixinin mühüm hadisələrindəndir. 2020-ci ilin noyabrın 10-da Azərbaycan, Rusiya Prezidentləri və Ermənistanın Baş Naziri arasında imzalanmış üçtərəfli bəyanatın müddəalarından biri də 30 ilə yaxın işğal müddərində iflic vəziyyətinə düşmüş bütün nəqliyyat-kommunikasıya bağlantılarının açılması, regionun iqtisadi gücünün bərpa olunması idi. Üçtərəfli bəyanatın məhz 9-cu maddəsi qarşıya qoyulan məqsədləri həyata keçirilməsinə xidmət edir. Belə ki, Bəyanatın 9-cu maddəsində deyilir: "*Bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələri bərpa edilir. Ermənistan Respublikası vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hər iki istiqamətdə maneəsiz hərəkətinin təşkili məqsədilə Azərbaycan Respublikasının qərb rayonları və Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsinin təhlükəsizliyinə zəmanət verir. Nəqliyyat əlaqəsi üzrə nəzarəti Rusiyanın Federal Təhlükəsizlik Xidmətinin Sərhəd Xidmətinin orqanları həyata keçirir*" [1].

Naxçıvan Muxtar Respublikası (MR) birbaşa quru bağlantısını təmin edəcək Zəngəzur koridorunun açılması Azərbaycan üçün tarixi əhəmiyyət daşıyır. Belə ki, Zəngəzur dəhlizi Naxçıvan Muxtar Respublikasını Ermənistan ərazisindən Azərbaycanın əsas hissəsi ilə birləşdirən mühüm geosiyasi və iqtisadi keçiddir. Yalnız tarixi, mədəni deyil, həmçinin strateji əhəmiyyətə malikdir. Eyni zamanda Cənubi Qafqaz regionunda nəqliyyat, ticarət və regional əlaqə üçün mühüm əlaqə rolunu oynayır.

### *Zəngəzur dəhlizinin tarixi əhəmiyyəti*

Müharibədən sonra regiondakı vəziyyətə nəzər salsaq görərik ki, bu dövrdə regionun gündəliyində duran əsas məsələlər Rusiya, Azərbaycan və Ermənistan liderlərinin 2020-ci il noyabrın 10-da imzaladığı birgə bəyanatın bütün bəndlərinin həyata keçirilməsi, beynəlxalq səviyyədə tanınmış sərhədlərin demarkasiyası və demilitarizasiyası, Azərbaycanla Ermənistan arasında sərhədlər, "Qafqaz Platforması"nın 3+3 formatının müzakirə edilməsi, Türkiyə-Ermənistan münasibətlərinin normallaşdırılması və s. ilə bağlı idi. Sadalananalarla yanaşı regionun iqtisadi vəziyyəti də tərəfləri düşündürən əsas məsələlərdən idi.

Zəngəzur Azərbaycan ilə Naxçıvan arasındakı 43 kilometrlik yoldur. Zəngəzur bölgəsi əsrlər boyu mübahisə və mədəni mübadilə nöqtəsi olmuşdur. Dəhlizin məhz bu bölgədən keçməsi təşəbbüsü yalnız iqtisadi baxımdan deyil,

həm də tarixi baxımdan əhəmiyyətlidir. Genişləndirilmiş ticarət yolları və qlobal bazarlara asan çıxış vədi Azərbaycan və Ermənistan iqtisadiyyatları, eləcə də daha geniş region üçün xeyir ola bilər. İqtisadi faydalar uğurlu diplomatik danışıqlardan, təhlükəsiz və sabit əməliyyatlardan və regional aktorların iqtisadi artımı tarixi narazılıqlardan üstün tutmaq istəyindən asılıdır.

Zəngəzur dəhlizinin yaranmasına səbəb olan tarixi konteksti araşdırır, onun regional iqtisadi, siyasi mənzərələrə potensial təsirini və cəlb olunmuş dövlətlər üçün təqdim etdiyi həm çağırışları həm də imkanları nəzərdən keçirir.

Azərbaycanın milli, tarixi və gələcək maraqlarına tam cavab verən Zəngəzur dəhlizinin yaradılmasını hələ Heydər Əliyevin həyata keçirmək istədiyi missiya idi. Bu tarixi missiyanı İlham Əliyev yerinə yetirərək dedi: "*Bizim tarixi torpaqlarımız İrəvan xanlığıdır, Zəngəzur, Göyçə mahallarıdır. Bunu gənc nəsil də, dünya da bilməlidir*" [6].

Azərbaycan üçün Zəngəzur dəhlizinin əhəmiyyəti ondan ibarətdir ki, Naxçıvan Muxtar Respublikasını faktiki olaraq nəqliyyat-kommunikasiya blokadasından çıxartmaqla yanaşı, ölkəmizi Şərq və Qərbin mühüm iqtisadi tərəfdaşına çevirir.

Bu barədə Ermənistan mediasında belə bir fikir səsələnir ki, ötən əsrin 70-80-ci illərində Heydər Əliyev Siyasi Büronun üzvü olan zaman inşasına başlanılan və Mehridən keçən Naxçıvan-Bakı avtomobil yolu "türklərin Böyük Turan layihəsinin icrasına zəmin hazırlamaq məqsədi daşıyırdı. Lakin Dəmirçiyanın (Ermənistan KP MK katibi) etirazlarından sonra layihə dayandırıldı. Lakin bu Azərbaycan son hədəf olaraq bu ideyanı unutmamışdı. Prezident İlham Əliyev hər zaman öz çıxışlarında Zəngəzur dəhlizinin açılmasının xüsusi əhəmiyyətini vurğulamışdır. 3 oktyabr 2009-cu il tarixində Naxçıvanda keçirilmiş Zirvə görüşündə İlham Əliyev öz çıxışında deyir: "*Vaxtilə Zəngəzuru Azərbaycandan alınıb Ermənistana birləşdirilməsi türk dünyasının coğrafi parçalanması demək idi. Çünki qədim Azərbaycan torpağı olan Zəngəzur türk dünyasını birləşdirən körpü rolunu oynayırdı. Buradan keçəcək nəqliyyat, kommunikasiya və infrastruktur layihələri bütün türk dünyasını birləşdirəcəkdir*" [8].

***Zəngəzur dəhlizinin region üçün əhəmiyyəti***

Geniş anlamda dəhlizin əhəmiyyəti yalnız beynəlxalq ticarət yollarına və geosiyasi strategiyalara potensial təsir göstərərək bilavasitə regiondan kənara çıxır. Zəngəzur dəhlizi Cənubi Qafqazın inkişaf edən dinamikasını və onun daha geniş miqyasda rolunu dərk etmək üçün vacibdir. Yəni bu dəhliz, yalnız bir keçid deyil, Cənubi Qafqaz regionunun geopolitikasında yeni bir başlanğıcın rəmzidir.

Zəngəzur dəhlizinin açılması yalnız region ölkələrinin deyil, eyni zamanda tarixən və indi də regiona xüsusi marağı olan böyük dövlətlərin diqqətini cəlb edir. Avropa İttifaqı,ABŞ və Rusiya tərəfindən dəhlizin açılması məsələsi diqqətlə izlənir. Zəngəzur dəhlizi Cənubi Qafqazı Avropa və Asiya ilə birləşdirən daha geniş regional nəqliyyat şəbəkələrinin bir hissəsi kimi görünür [2].

Zəngəzur dəhlizinin region üçün həyati əhəmiyyəti nədədir? Ən əsası regionun inkişaf dinamikasını formalaşdırmasındadır. Bura iqtisadi və siyasi əlaqələri gücləndirilməsi, Ermənistan üçün bu, iqtisadi inkişaf və regional təşəbbüslərə inteqrasiya yaratması, sülh və sabitliyin möhkəmləndirilməsi potensialına malik olması, yeni regional nəqliyyat şəbəkələrin bir hissəsi olması, inkişafı cəlb olunan ölkələrin iqtisadi artımına müsbət təsiri və bir sıra digər məqamlar daxildir.

Avropa ilə Asiyanı birləşdirən nəqliyyat dəhlizinin fəaliyyətini asanlaşdıran, Rusiya və Çin üçün strateji əhəmiyyət kəsb edən Zəngəzur dəhlizi regionun bütün ölkələri üçün potensial iqtisadi səmərə vəd edir. Tarixi İpək Yolunun üzərində yerləşən və Avropa ilə Asiya arasında logistika qovşağına çevrilməyi hədəfləyən dəhliz Azərbaycanın Şərq-Qərb və Şərq-Qərbdə mövqelərini gücləndirəcək [15].

Bu layihənin həyata keçirilməsi siyasi iradə, təhlükəsizliklə bağlı narahatlıqlar və əsaslı infrastrukturun inkişafına ehtiyac da daxil olmaqla, çətinliklərlə üzləşir. Zəngəzur dəhlizinin gələcəyi regional geosiyasətdə və beynəlxalq münasibətlərdə böyük maraq və əhəmiyyət kəsb edən mövzu olaraq qalır. Zəngəzur dəhlizinin təkamülü Cənubi Qafqazda regional əməkdaşlığa və iqtisadi inkişafa transformativ təsir göstərməyə hazırdır. Regionda uzun müddətdir davam edən gərginliyi potensial olaraq

yumşaldaraq yeni əlaqə və əməkdaşlıq dövrünü simvollaşdırır. Dəhlizin inkişafı təkcə Azərbaycan və Ermənistan üçün əhəmiyyətli deyil, həm də beynəlxalq ticarət və geosiyasi uyğunlaşmalar üçün daha geniş təsirlərə malikdir.

Azərbaycan və Türkiyə arasında Şuşa Bəyannaməsi imzalanarkən Zəngəzur dəhlizi haqqında Prezident İlham Əliyev belə söylədi: "*Bəyannamədə Zəngəzur dəhlizinin açılması ilə bağlı çox açıq ifadələr öz əksini tapmışdır. Bu da İkinci Qarabağ savaşından sonra yaranmış yeni geosiyasi vəziyyətin nəticəsidir. Bu gün biz Türkiyəni və Azərbaycanı dəmir yolu ilə, avtomobil yolu ilə birləşdirəcək Zəngəzur dəhlizi haqqında nəinki danışırıq, bu dəhlizi əməli işlərlə yaradırıq. Müttəfiqlik haqqında imzalanmış birgə Bəyannamədə bu məsələnin əks olunması böyük məna daşıyır*" [7].

***Zəngəzur dəhlizinin beynəlxalq əhəmiyyəti***

Zəngəzur dəhlizi, nəqliyyat kommunikasiyaları üçün yerli əhəmiyyətindən əlavə, daha iki aspektdə - regional və qitələrarası aspektdə nəzərdən keçirilməlidir. Bu nəhəng layihə yalnız Naxçıvanla Azərbaycanın digər bölgələri arasında nəqliyyat körpüsü deyil, eyni zamanda Çin və Orta Asiya ölkələrini Azərbaycan-Türkiyə vasitəsilə Avropanın tranzit-nəqliyyat xəttinə bağlayır.

Zəngəzur dəhlizinin çox böyük regional və beynəlxalq əhəmiyyəti var. Bu dəhlizdən istifadə edəcək Gürcüstan, İran, Türkiyə və Rusiya, eləcə də Qərb və ərəb dövlətləri qazanacaqlar. Bəzi ekspertlərin fikrinə görə, Zəngəzur dəhlizi açıldıqdan sonra Çin dövləti də bu yoldan əhəmiyyətli dərəcədə faydalana biləcək. Dövlət başçısı İlham Əliyevin Çinin "China Media Group" korporasiyasına verdiyi müsahibədə bu məsələyə geniş toxunaraq Azərbaycan ərazisində tikinti işlərinin təxminən 70 faizi artıq başa çatdırılması barədə məlumat verdi. Dövlət başçısı Zəngəzur dəhlizinin fəaliyyətə başlayacağı tədqirdə əlavə yüklərin daşınmasına yeni imkanların yaranacağından və bu daşımaların əməkdaşlıq bütün ölkələr üçün çox faydalı olacağı haqqında məlumat verdi. Bu layihənin gələcəkdə ölkələr arasında əlaqələrin gücləndirilməsi, regional inteqrasiya, böyük sənaye zonalarının yaradılması istiqamətindəki vacibliyini vurğuladı. Sonda ölkə başçısı bu istiqamətdə artıq nailliyyətlərin əldə olunduğunu deyərək, Ələt Azad İqtisadi Zonası haqqında və onun xarici şirkətlər, xüsusilə Çin şirkətləri haqqında əhəmiyyətindən danışdı [5]. Yalnız region ölkələri deyil, həmçinin uzaq Şərq ölklərinin də Zəngəzur dəhlizinin fəaliyyətində maraqlı olduqları aydın görsənir.

Zəngəzur dəhlizinin alternativ dəhliz kimi qitələrarası əhəmiyyəti son dərəcə böyükdür. Bu dəhliz yüklərin Çindən Türkiyənin şərq əyalətlərinə, oradan isə Aralıq dənizi və ya İstanbul boğazı vasitəsilə Avropaya daşınmasını nəzərdə tutur [11]. Eyni zamada Zəngəzur dəhlizi Avropa və Asiya qitələri arasında mühüm ticarət yolu kimi çıxış edəcək.

Dəhliz Azərbaycan, Türkiyə, Rusiya, Ermənistan və İran arasında dəmir yolu şəbəkəsini genişləndirməyə imkan verəcək, həmçinin Asiya-Sakit okean regionundan Avropaya bir çox ticarət yolları açacaq. Bu, Şərq-Qərb dəhlizini, Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizini və Xəzər Nəqliyyat Şəbəkəsini daha da gücləndirəcək.

***Dəhlizin Ermənistan üçün əhəmiyyəti:***

Zəngəzur koridorunun açılması əsasən Ermənistan üçün faydalı olacaqdır. Zəngəzur dəhlizi Ermənistan üçün tarixi fürsət yaradır. Çünki Ermənistan artıq Azərbaycandan başlayan və keçən bütün nəqliyyat layihələrindən kənarda qalıb. Ona görə də Zəngəzur dəhlizi Ermənistan üçün "nəfəs borusu-həyat dəhlizi" kimi fəaliyyət göstərməlidir [3]. Türkiyə və Azərbaycan ilə sərhədlərin bağlı olması Ermənistana özünün əsas iqtisadi tərəfdaşı olan Rusiyaya təhlükəsiz və davamlı şəkildə fəaliyyət göstərən quru yolu əldə etməyə imkan vermirdi. Ermənistan-Azərbaycan münaqişəsi başladıqdan sonra Ermənistandan Rusiyaya və ya əks istiqamətdə hərəkətə imkan verən heç bir dəmiryolu fəliyyət göstərməmişdir. Mövcud olan yeganə quru yolu Gürcüstan ərazisindən keçən Yuxarı Lars yolu olmuşdur. Bu yol isə coğrafi baxımdan çətin relyefi olan ərazidən keçdiyindən və pis hava şəraitində bağlanmalı olduğundan Ermənistandan Rusiyaya və əksinə daşınmaların həyata keçirilməsində fasilələrin yaranmasına səbəb olurdu. Eyni zamanda Gürcüstan ilə Rusiya arasında olan siyasi narazılıqlar da bəzi hallarda bu yolun bağlanmasına səbəb olurdu.

Görcüstandan keçən və Ermənistan ilə Rusiyanı quru yolu ilə bağlamaq imkanına malik olan digər yol isə Abxaziyadan keçən dəmir yoludur ki, bu yol da Abxaziya ilə əlaqədar Rusiya ilə Gürcüstan arasında mövcud olan siyasi qarşıdurma səbəbindən bağlıdır. Sovet dövründə isə Ermənistan və Rusiya arasında yükdaşımalar əsasən Ermənistan ərazisində Dilican və Karnasaradan (İcevan), daha sonra Azərbaycanın Qazax rayonundan keçərək Rusiyaya gedən dəmiryolu vasitəsilə həyata keçirilirdi. Bu yol da münaqişə səbəbindən bağlanmışdır. Bunlarla yanaşı onu da qeyd etmək lazımdır ki, Ermənsitanın işğalçılıq siyasəti eyni zamanda onun İran ilə olan dəmiryolu əlaqəsinin də kəsilməsinə səbəb olmuşdur. Birinci Qarabağ Müharibəsi başladıqdan sonra Ermənistandan İrana gedən və Naxçıvandan keçən dəmiryolu da bağlanmışdır. İstifadə edilən avtomobil yolu isə dağlıq ərazidən keçdiyindən və təmirə ehtiyacı olduğundan yükdaşımalar üçün o qədər də səmərəli olmamışdır.

Münaqişənin davam etdiyi dövrdə Ermənistanın Meqri bölgəsindən keçən və İrana gedən dəmiryolunun tikintisi planlaşdırılsa da bu yolun tikintisi baş tutmamışdır. Bu həm yolun keçəcəyi ərazilərin relyefinin dağlıq olması, həm də tikinti xərclərinin böyük olması ilə əlaqədar olmuşdur. Həmin yolun tikilməsi xərclərinin 3.5-5 milyard ABŞ dolları arasında olduğu müəyyən edilmişdi. Ermənistan isə bu qədər vəsaiti əldə etmək iqtidarında olmadığından və layihəyə xarici maliyyə vəsaitləri cəlb edə bilmədiyindən yolun çəkilişi baş tutmamışdır. İranla dəmiryolunun bərpası həm də Ermənistanın Şimal-Cənub Nəqliyyat Dəhlizində iştirak etməsinə imkan yaradır. Bu yol vasitəsilə Ermənistan həm də dəhlizin istiqamətini dəyişərək onun Azərbaycandan keçməsinin qarşısını almağa çalışır. Ona görə də İranla dəmiryolunun açılmasında Ermənistan çox maraqlıdır. Ermənistan-Azərbaycan münaqişəsi başladıqdan sonra Ermənistan ilə əsas iqtisadi tərəfdaşı olan Rusiya və eyni zamanda İran arasında mövcud olan əsas quru yollarının bağlanması nəticəsində Ermənistanın blokadası dərinləşmiş və ermənilər yalnız çox da etibarlı olmayan Yuxarı Lars yolundan və İrana gedən təmirsiz avtomobil yollarından istifadə etmək məcburiyyətində qalmışdır. Ona görə də Zəngəzur dəhlizinin açılması Ermənistanın blokadadan azad olmasına, və Rusiyaya, İrana, eyni zamanda üzvü olduğu Avrasiya İqtisadi Birliyinin bazarlarına quru yolu ilə çıxmaq imkanını əldə etməsinə səbəb olacaqdır [15].

Zəngəzur dəhlizinin Ermənistana gətirəcək bütün üstünlüklərinə baxmayaraq Ermənistanda bu yolun açılması birmənalı qarşılanmamışdır. Regionda üstünlük iddialarından əl çəkməyən erməni siyasətçiləri Zəngəzur dəhlizi layihəsinin Ermənistanın strateji maraqlarına xidmət etməməsi, geo-siyasi risklər yaratması və onun suverenliyinin itirilməsi anlamına gəldiyini qeyd edirlər.

Ermənistan hakimiyyətinin diqqət yetirdiyi ən mühüm məsələ Ermənistanla Azərbaycan arasında münasibətlərdə qarşılıqlı etimadsızlıq problemidir [18]. Üç onillik ərzində Minsk Qrupunun və xarici vasitəçilərin cəlb olunduğu Dağlıq Qarabağ münaqişəsi üzrə vasitəçilik prosesində bu məsələyə faktiki olaraq məhəl qoyulmaması, Ermənistan və Azərbaycan nümayəndələrinin nadir hallarda birbaşa və açıq dialoqa getməsi problemi mürəkkəbləşdirir.

Onların fikrincə Ermənistan üçün daha faydalı olan digər yolların açılmaması şəraitində Ermənistan üçün Zəngəzur koridorunun açılması iqtisadi faydadan daha çox geo-siyasi risklər formalaşdıracaqdır. Hətta bu dəhlizin açılmasının Ermənistanda iqtisadi dezinteqrasiya yaradacağı fikirlərini səsləndirirlər [16]. Lakin Ermənistanın iqtisadi vəziyyətini nəzərə alsaq, əlbəttə ki, bu fikirlərin ermənilərin növbəti məntiqsiz iddiaları olduğunu görə bilərik.

Səsləndirilən digər arqument isə ondan ibarətdir ki, Zəngəzur koridoru vasitəsilə yüklərin Ermənistandan Rusiyaya daşınması daşınma məsafəsinin həddindən çox uzanması deməkdir. Ermənistandan Rusiyaya yük daşımaq üçün ən səmərəli yol əvvəllər istifadə edilən Karnasara (İcevan) - Qazax yoludur. Bu yolun işə düşməsi üçün Ermənistan ərazisində yerləşən qısa hissənin təmir edilməsinə ehtiyac vardır. Ermənilər hesab edir ki, əgər Azərbaycan bu yolun açılmasına razılıq versə və Ermənistan da öz ərazisində olan hissəni təmir etməyə vəsait tapsa belə bu yoldan keçəcək yüklərin və sərnişinlərin təhlükəsizliyinin Azərbaycan tərəfindən hansı səviyyədə təmin ediləcəyi məlum deyil. Erməniztan tərəfi Zəngəzur dəhlizinin açılmaması üçün hər vasitədən istifadə edir. Lakin Prezident İlham Əliyevin bu məsələdəki mövqeyi dönülməzdir. 2021-ci il aprel ayının 20-də

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Hacıqabul rayonuna səfər edərkən Azərbaycan Televiziyasına verdiyi geniş müsahibəsində toxunulan məsələlərdən biri də Zəngəzur dəhlizinin açılması ilə bağlı fikirlər idi. Prezident demişdir: "*Biz Zəngəzur dəhlizini icra edəcəyik, Ermənistan bunu istəsə də, istəməsə də. İstəsə, daha asan həll edəcəyik, istəməsə də zorla həll edəcəyik... Azərbaycan xalqı 101 il bundan əvvəl bizim əlimizdən alınmış Zəngəzura qayıdacaqdır*" [4].

### *Gürcüstanın Zəngəzur dəhlizi layihəsinə münasibəti*

Zəngəzur dəhlizi layihəsi Gürcüstanda da birmənalı şəkildə qarşılanmamışdır. Bir neçə cəbhəyə böyünən fikirlər mövcududr. Bir qism siyasilər dəhlizin açılmasının regionda əməkdaşlıq imkanlarını artıracağından Gürcüstana da fayda verəcəyini fikrindədir. Onların fikrincə regionun ümumi inkişafı bütün regional ölkələr üçün faydalı olacaqdır. Hətta Ermənistanın bu layihədən əldə edəcəyi faydaları da şərh edənlər var [13].

Eyni zamanda Zəngəzur dəhlizinin açılmasının Gürcüstanın regional nəqliyyat daşımalarında vasitəçi kimi mövqeyinin və əhəmiyyətinin azalmasına səbəb olacağını düşünənlər kifayət qədərdir. Bildiyimiz kimi son onilliklərdə Azərbaycanın enerji resurlarının və digər məhsullarının quru yolu vasitəsilə Türkiyəyə və Avropaya daşınmasında Gürcüstan vasitəçi kimi çıxış etmişdir. Ermənistanın işğalçı siyasətinə görə Azərbaycan istər Türkiyəyə, istərsə də Qara Dənizə çıxış əldə etmək üçün Gürcüstan ərazisindən istifadə etmək məcburiyyətində qalmışdır. Bu isə Gürcüstanın iqtisadi baxımdan fayda əldə etməsinə, onun regionda mövqeyinin möhkəmlənməsinə və Cənubi Qafqazdan keçən beynəlxalq nəlqiyyat yolları çərçivəsində əsas oyunçulardan birinə çevrilməsinə imkan yaratmışdır. Zəngəzur dəhlizinin açılması isə Gürcüstanın bu mövqeyinə mənfi təsir edə bilər. Xüsusilə də Bakı-Tbilisi-Kars dəmiryolunun əhəmiyyətinin azalacağı vurğulanır. Həmçinin, Gürcüstanı ən çox narahat edən məsələlərdən biri də ondan ibarətdir ki, yeni geo-siyasi vəziyyətdə Rusiyanın ona təsir etmək və özündən asılı salmaq imkanları daha da artacaqdır [17]. Onların fikrincə Gürcüstan vasitəsilə həyata keçirilən yükdaşımaları Zəngəzur dəhlizinə yönəldiləcəkdir və rusların nəzarəti altında daşınacaqdır. Bu da Gürcüstanın Rusiyaya siyasi baxımdan təsir etmək imkanlarını azaldacaqdır. İndiyə qədər Rusiya Ermənistan ilə quru əlaqəsini qurmaq üçün Gürcüstandan asılı idi. Gürcüstandan keçən quru yollarının davamlı şəkildə işləməməsinə və fasilələrlə işləməsinə baxmayaraq istifadə edilən əsas quru yolu kimi qalırdı. Regionda bütün kommunikasaiyaların açılması isə Rusiyanın Gürcüstandan olan bu asılılığını aradan qaldıracaqdır [14].

### *İranın Zəngəzur dəhlizi layihəsinə münasibəti*

Zəngəzur dəhlizinin açılması perspektivindən narahatlıq duyan qonşu ölkələrdən biri də İran İslam Respublikasıdır. Hamıya məlumdur ki, Ermənistanın torpaqlarınmızı işğalından sonra Naxçıvan MR blokadaya düşdüyündən Azərbaycanla quru yolu ilə birbaşa əlaqə əsasən İran vasitəsilə həyata keçirilirdi. Eyni zamanda Naxçıvana elektrik enerjisinin ötürülməsində də İran vasitəçi kimi çıxış edirdi. Zəngəzur Dəhlizi açıldıqdan sonra isə Azərbaycanın İrandan asılılığı azalacaqdır. Həmçinin türk dünyası ölkələrinin əlaqələrinin bu regionda güclənməsini İranın ərazi bütövlüyü üçün təhlikə yaradacaqdır [12, s.410].

Eyni zamanda dəhlizin açılması ilə Türkiyə və Rusiyanın da yükdaşımalarda İrandan olan asılılığı azalacaqdır və onlar alternativ yola çıxış əldə edəcəkdir. Bu faktorlar isə İranın tranzit ölkə kimi regionda mövqeyinin zəifləməsinə imkan yaradacaqdır. Bunun nəticəsidir ki, bir sıra İran rəsmiləri Zəngəzur dəhlizinin yalnız Azərbaycanın əsas ərazisi ilə Naxçıvan arasında yerli yükdaşımaların həyata keçirilməsi məqsədilə istifadə ediləcəyinə ümid etdiklərini bildirmişdir. Onlar bu dəhlizin beynəlxalq yükdaşımalarında iştirak etməsinə qarşıdırlar.

Lakin iqtisadçılar Zəngəzur dəhlizinin İran üçün üstünlükləri haqqında müsbət proqnozlar verirlər. Dəhlizin açılması ilə İran Ermənistanla əvvəl mövcud olan dəmiryolunu bərpa edə bilər. Ermənistanın işğalı dövründə İran Ermənistan ilə iqtisadi əlaqələrini Naxçıvandan keçən dəmiryolu bağlandığından avtomobil yolu vasitəsilə qururdu. Naxçıvandan keçən yolun bərpası İran üçün Ermənistanla iqtisadi əlaqələrin inkişafı baxımından elə də böyük əhəmiyyət daşımır. Ona görə ki, iki ölkə arasında iqtisadi əlaqələr o qədər də inkişaf etməmişdir və ticarət

dövriyyəsi çox aşağı səviyyədədir. Bu layihənin həyata keçməsi İran üçün daha çox Şimal-Cənub Nəqliyyat Dəhlizi baxımından əhəmiyyətlidir. Uzun müddət idi ki, İran Fars Körfəzi-Qara Dəniz Nəqliyyat Dəhlizinin yaradılması istiqamətində iş aparmağa çalışırdı. Lakin görünür dövlətlərin siyasi arenadakı iddiaları qərar qəbulu zamanı daha üstün tutulur.

### *Dəhlizin Türkiyə üçün əhəmiyyəti*

Zəngəzur dəhlizinin açılmasında maraqlı olan dövlətlərin önündə Türkiyə gəlir.Ən əsası Türkiyə özünün regionda əsas tərəfdaşı olan Azərbaycanla nəhayət birbaşa quru yolu əldə edəcəkdir. Əlbəttə illərdir Türkiyənin Azərbaycanla birbaşa quru əlaqəsi Naxçıvan vasitəsilə saxlanılırdı. Lakin bu iqtisadi tələbatı ödəmirdi. Məcburiyyət qarşısında nəqliyyat əlaqələri Gürcüstan və İran vasitəsilə qurulurdu, bi isə istər daşınma xərcləri, istərsə də daşınma məsafəsinin çox olmasına gətirib çıxarırdı. Zəngəzur dəhlizinin açılması yalnız Türkiyə ilə deyil, Xəzər dənizi vasitəsilə bütünlükdə Türk dünyası, Mərkəzi Asiya ölkələri ilə əlaqələrin daha da genişlənməsinə tövhə verəcəkdir. Dövlətlər arasında turizmin inkişafı da bu dəhlizin açılması ilə geniş vüsət alacaqdır. Türkiyə üçün türk dünyasına bir-başa çıxışın əldə edilməsi çox əhəmiyyətli hadisədir.

Azərbaycan və Türkiyə arasında iqtisadi əlaqələrin, o cümlədən turizm əlaqələrinin daha da genişlənməsi üçün imkanlar yaradacaqdır. Belə çıxışın əldə edilməsi Türkiyə üçün strateji əhəmiyyətə malikdir. Hazırda Türk ölkələri ilə quru yolu ilə əlaqələr Gürcüstan və İran vasitəsilə qurulur. Koridor açıldıqdan sonra isə Türkiyə bu asılılıqdan azad olacaqdır. Türkiyənin Azərbaycana və Mərkəzi Asiyaya birbaşa çıxış əldə etməsi isə Türk dünyası ölkələri arasında istər iqtisadi, istər siyasi, istərsə də strateji əlaqələrin qurulması və inteqrasiyanın genişlənməsi baxımından böyük əhəmiyyət daşıyır [10].

Azərbaycan özünü Rusiyanın, Qafqazın və Mərkəzi Asiyanın magistral və enerji tranzitinin mərkəzinə çevirərək, əhəmiyyətini artırıb. Enerji Dəhlizi baxımından Avrasiya coğrafiyasında və xüsusilə Xəzər dənizi və ətrafı ilə bağlı müzakirələrin mərkəzi olmağı və hər baxımdan Türkiyə ilə Türk dünyası arasında körpü olmağı hədəfləyir.

Dəhliz Şərqlə Qərbi birləşdirən Avrasiya quru körpüsündə əsas tranzit marşrutuna çevrilmək potensialına malikdir. Belə bir dəhlizin inkişafı onun yolu boyunca yeni iqtisadi zonaların, sənaye qovşaqlarının və logistik mərkəzlərin yaranmasına gətirib çıxara bilər, yerli iqtisadi inkişafa təkan verə bilər. Nəzərə alınmalı olan digər ölçü rəqəmsal əlaqə və texnoloji irəliləyişlərin dəhlizə təsiridir. Rəqəmsal infrastrukturun fiziki infrastruktur kimi mühüm əhəmiyyət kəsb etdiyi bir dövrdə Zəngəzur dəhlizi boyunca nəqliyyatın idarə edilməsi, təhlükəsizlik və kommunikasiya üçün qabaqcıl texnologiyaların inteqrasiyası regional infrastruktur layihələri üçün yeni standartlar müəyyən edə bilər [9]. Həmçinin texnologiya və innovasiya sahəsində beynəlxalq əməkdaşlıq imkanları yarada bilər.

### *Nəticə*

Azərbaycan üçün Zəngəzur dəhlizinin açılması tarixi, siyasi və iqtisadi əhəmiyyəti və üstünlükləri var. Naxçıvan MR ilə birbaşa əlaqənin qurulması orada sosial-iqtisadi inkişafa əsaslı şəkildə təsir edəcəkdir. Zəngəzur dəhlizi həm də Türkiyə ilə ikitərəfli iqtisadi əlaqələrin inkişaf etməsinə də əsaslı şəkildə tövhə verəcəkdir.Zəngəzur dəhlizi regional və beynəlxalq yükdaşımalarda əsas “halqa” statusunu qazanacaqdır. Nəzərdə tutulan kommunikasiyalar açılandan sonra, Qafqazın iqtisadi mənzərəsinin və geosiyasi konfiqurasiyası dəyişəcək.

Dəhlizin yalnız Azərbaycan üçün deyil, region dövlətləri, Türk dünyası ölkələri, uzaq Şərq kontekstində beynəlxalq əməkdaşlığa verəcəyi tövhələr hamı hərəfindən başa düşülür. Bu cür layihələr regional inteqrasiyanı dəstəkləyə və daha böyük coğrafi ərazilərdə əməkdaşlıq imkanları yarada bilər.

Unutmayaq ki, Zəngəzur dəhlizinin təsirləri enerji siyasəti və ekoloji layihələr sahələrini əhatə edir. Təbii ehtiyatlarla və enerji dəhlizləri ilə zəngin olan Cənubi Qafqaz regionu Xəzər dənizindən neft və qazın dünya bazarlarına nəqlində mühüm rol oynayır. Zəngəzur dəhlizinin inkişafı potensial olaraq yeni enerji marşrutlarını təqdim edə və ya mövcud olanları tamamlaya, beləliklə, regionun enerji mənzərəsini dəyişdirə bilər. Dəyişikliyin təkcə Azərbaycan və Ermənistan üçün deyil, həm də regionun enerji resurslarında əsas maraqlı tərəflər olan Avropa, Rusiya və Asiya üçün əhəmiyyətli iqtisadi nəti-

cələri var. İqtisadi inkişafın ətraf mühitin mühafizəsi ilə balanslaşdırılması mühüm əhəmiyyət kəsb edəcək, ciddi təsir qiymətləndirmələri və davamlı təcrübələr tələb edəcək.

Ermənistan və Azərbaycanın regional təhlükəsizlik sahəsində uzunmüddətli hədəflərinin üst-üstə düşməsinə və coğrafi mövqeyindən, əsas ticarət yollarının kəsişməsində yerləşən regionundan istifadə etmələrinə baxmayaraq, Zəngəzur dəhlizinin yaradılması perspektivlərinə dair fərqli baxışları münaqişənin yekun sülh yolu ilə həllinə və sərhədlərin açılmasına mane olur. Davam edən bu fikir ayrılıqları etimadın bərpasına kömək etmir və əslində "müharibədən sonrakı qeyri-müəyyənliyi" uzadır.

Zəngəzur dəhlizi probleminin həlli etimadın möhkəmləndirilməsi istiqamətində daha geniş səylər kontekstində görünür. Bu məqsədlər üçün Ermənistan və Azərbaycanın müxtəlif dövlət orqanlarının nümayəndələri və maraqlı tərəflərin (Rusiya, Türkiyə, İran, ola bilsin ki, Avropa İttifaqı və Çin) diplomatları ilə birgə müzakirə platformasının yaradılması perspektivli variant kimi görünür.

Sonda demək istərdik ki, Zəngəzur dəhlizi Cənubi Qafqazda həm ümid, həm də çağırış simvolu kimi dayanır, regional geosiyasətin mürəkkəblikləri, iqtisadi istəkləri, sabitlik və sülh axtarışlarını əhatə edir.

### Ədəbiyyat siyahısı

1. Azərbaycan Respublikasının prezidenti, Ermənistan Respublikasının baş naziri və Rusiya federasiyasının Prezidentinin Bəyanatı. 10 noyabr 2020. https://president.az/az/articles/view/45923

2. Davis, R., Petrov, A. Zəngəzur dəhlizində iqtisadi imkanlar. Jurnal of Eurasian Studies, 2021, 15(3), s.45-63.

3. Həsənoğlu, M., Məmmədov, A., Məhərrəmov, B. "İkinci Qarabağ müharibəsindən sonra Azərbaycan-Türkiyə münasibətləri". Beynəlxalq İdarəetmə Akademiyası Jurnalı. *3* (*3*), 2020, *s*.522-529.

4. İlham Əliyevin Azərbaycan Televiziyasına müsahibəsi. 20.04.2021 https://president.az/az/articles/view/51216

5. İlham Əliyev Çinin "China Media Group" media korporasiyasına müsahibə verib. https://president.az/az/articles/view/60572, 24.07.23.

6. İlham Əliyev: "Zəngəzur, Göyçə, İrəvan mahalı bizim tarixi torpaqlarımızdır" https://report.az/qarabag/ali-bas-komandan-zengezur-goyce-irevan-mahali-bizim-tarixi-torpaqlarimizdir/

7. Qardaşlığın əsəri olan azad Qarabağdan dünyaya mesaj. 18.06.21 https://medeniyyet.az/page/news/57742/Qardasligin-eseri-olan-azad-Qarabagdan-dunyaya-mesaj.html

8. Naxçıvanda türkdilli ölkələrin başçılarının zirvə görüşü keçirilmişdır. 03.10.2009. https://azertag.az/xeber/naxchivan_zirve_gorusu_turkdilli_olkelerin_birliyini_daha_da_guclendi-recekdir_naxchivanda_turkdilli_olkelerin_dovlet_baschilarinin_ix_zirve_gorusu_kechirilmisdir-454620

9. Mehmood Ul hassan Khan Zehgezur Koridoru´nun stratejik önemi. 29.09.2021.// https://www.ankasam.org/anka-analizler/zengezur-koridorunun-stratejik-onemi/

10. Zengezur koridorunun Azerbaycan və bölge için önemi // https://www.eurasian-research.org/publication/zengezur-koridorunun-azerbaycan-ve-bolge-icin-onemi/?lang=tr

11. Агаев, И.Г. Интересы региональных и мировых держав в открытии Зангезурского коридора.// https://cyberleninka.ru/article/n/interesy-regionalnyh-i-mirovyh-derzhav-v-otkrytii-zangezurskogo-koridora 2023,с.13-18

12. Агазаде, М.М Геополитическая ситуация на Южном Кавказе после Второй Карабахской войны //Постсоветские исследования. Т.6. № 4 (2023) с.401-411.

13. Армении прекрасно понимают, что Зангезурский коридор надо открыть https://report.az/ru/vneshnyaya-politika/gruzinskij-analitik-v-armenii-prekrasno-ponimayut-chto-zangezurskij-koridor-nado-otkryt/

14. Грузинский аналитик: В Армении прекрасно понимают, что Зангезурский коридор надо открыть. 25.11.2021// https://report.az/ru/vneshnyaya-politika/gruzinskij-analitik-v-armenii-prekrasno-ponimayut-chto-zangezurskij-koridor-nado-otkryt/

15. Гусейн, Р., Гулахмедов, М., Зангезурский коридор как новый транспортный узел интеграции и сотрудничества на Южном Кавказе
https://www.researchgate.net/publication/371796337_The_Zangazur_Corridor_as_the_new_haulage_hub_for_integration_and_cooperation_in_the_South_Caucasus // Бизнес и ИТ, XIII (1) 2023. s.121-128

16. «Коридор» через Сюник приведет в экономической дезинтеграции Армении . 18.07.2024https://am.sputniknews.ru/20240718/koridor-cherez-syunik-privedet-k-ekonomicheskoy-dezintegratsii-armenii-politolog-78439214.html

17. Лавров: Подключение Грузии к формату «3+3» не будет обязывать ее изменить свои политические позиции// https://apa.az/ru/strani-snq/lavrov-podklyucenie-gruzii-k-formatu-33-ne-budet-obyazyvat-ee-izmenit-svoi-politiceskie-pozicii-467737

18. Pashinyan Cites ‘Mutual Distrust’ as Reason for Delay of Yerevan-Baku ‘Peace Deal’ // Asbarez. URL: https://asbarez.com/pashinyan-cites-mutual-distrust-as-reason-for-delay-of-yerevan-bakupeace- deal/ (дата обращения: 25.02.2024).

## Summary

**Sevindj Rahimova**

### Regional significance of the Zangezur Corridor

The corridor allows Azerbaijan to establish a transport link to its exclave Nakhchivan. According to Pashinyan, the deal "unblocks" Armenia from the land blockade by Azerbaijan and Turkey; this will allow connecting Armenia to the rest of the world with railroads. The new corridor's significance at the regional level lies in the alternatives it offers in several areas. First and foremost, it creates a new route between Turkey and Central Asia. Turkey is interested in reducing its dependence on its regional rival, Iran, and establishing connections with Central Asia through friendlier countries. Ankara has long pursued this goal through Georgia and Azerbaijan in the north and is seeking to achieve a similar scenario through the Armenia-Azerbaijan route in the south.

***Keywords:*** *Zangezur corridor, economic revival, infrastructure investments, peace and stability, cultural exchange.*

## Резюме

**Севиндж Рагимова**

### Региональное значение Зангазурского коридора

Этот коридор позволяет Азербайджану установить транспортное сообщение с его эксклавом Нахичевань. По словам Пашиняна, соглашение «разблокирует» Армению от сухопутной блокады со стороны Азербайджана и Турции; это позволит соединить Армению с остальным миром железнодорожным сообщением. Значение нового коридора на региональном уровне заключается в альтернативах, которые он предлагает в нескольких областях. Прежде всего, он создаёт новый маршрут между Турцией и Центральной Азией. Турция заинтересована в снижении зависимости от своего регионального конкурента, Ирана, и установлении связей с Центральной Азией через более дружественные страны. Анкара давно добивается этой цели через Грузию и Азербайджан на севере и стремится достичь аналогичного сценария через маршрут Армения-Азербайджан на юге.

***Ключевые слова:*** *Зангезурский коридор, экономическое возрождение, инвестиции в инфраструктуру, мир и стабильность, культурный обмен.*

UOT 94(479.24)
https://doi.org/10.59849/2710-0820.2025.2.82

**Şölə Məmmədova**
*AMEA-nın A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun*
*"Azərbaycanının VII-XIV əsrlər tarixi"*
*şöbəsinin kiçik elmi işçisi*
*Azərbaycan*
*shela.mammadova@yahoo.com*

# AZƏRBAYCANDA İSLAM TARİXİNİN ÖYRƏNİLMƏSİ PROBLEMİ VƏ TARİXŞÜNASLIQDA YANAŞMALAR

***Açar sözlər:*** *İslam tarixi, Azərbaycan dövləti, tarix, Qurani-Kərim, tarixşünaslıq*

**Giriş.** Bayrağımızdakı üç rəng Azərbaycan dövlətinin formalaşdırılması və tərəqqisinin fundamental əsaslarının simvoludur. Bu üçlü formul özündə müasirlik (inkişaf), türklük (milli özünüdərk) və islam (bu dinin ən yüksək əxlaqi dəyərləri) anlayışlarını özündə ehtiva edir. İslam Quranda da vurğulandığı kimi, Böyük Yaradanın bəşəriyyətə əta etdiyi son və ən mükəmməl dindir. İstər keçmiş zamanların, istər də müasir dövrün ən böyük alimlərinin etiraf etdiklərinə görə, yalnız məhz bu din və onun kitabı insan həyatı, eləcə də yaradılış, hətta kainat məsələlərində primitiv ehkamlara deyil, mükəmməl elmi dərrakəyə söykənmək yolunu tutub. Uca bəşəri dəyərləri ilə insanların həyatına, əxlaqına, mənəviyyatına və davranışlarına əsrlər boyu təsir edən İslam, ilk növbədə bu dinin yayıldığı müsəlman dünyasının ictimai və mədəni tərkib hissəsinə çevrilib. Odur ki, İslamın tarixinin araşdırılması keçmişdəki proseslərin təcrübəsinin və bu dinin indiki dövrdə cəmiyyət münasibətlərinə təsirlərinin öyrənilməsi baxımından həmişə aktual olaraq qalır.

İslam tarixini öyrənməklə biz dünya mədəniyyətinin formalaşmasına təsir edən bir tarixi öyrənirik və bu da insanlara yaxşını pisdən ayırmağa kömək edir, daha müsbət bir cəmiyyətin formalaşmağına səbəb olur.

İslam Allahın dini olduğu və insanların həyatına, əxlaqına, mənəviyyatına və dolayısı ilə davranışlarına bilavasitə təsir etdiyi üçün İslam tarixinin öyrənilməsi həmişə aktual olaraq qalır.

İslam tarixi Azərbaycan dövlətinin mənsub olduğu dinin tarixidir. İslam tarixinin öyrənilməsinə və sevdirilməsinə lazımı dəyərin verilməsi, eyni zamanda şanlı dövlətimizə dəyərin verilməsi deməkdir.

Hər zaman öz uzaqgörənliyi, müdrikliyi ilə seçilmiş Ümummilli liderimiz cənab Heydər Əliyev İslam dininin dövlətimiz üçün önəmini bilərək onun azərbaycan xalqının mədəniyyətinin bir hissəsi olduğunu qeyd etmiş və bildirmişdir ki, ədalətin zəfər çalması üçün İslam dəyərlərinə müraciət zəruridir.

1993-cü ilin sentyabrında Təzə pir məscidini ziyarət edən Heydər Əliyev müsəlmanları Mövlud bayramı münasibətilə təbrik edərək İslam dəyərlərinin azərbaycan xalqının həyatındakı əhəmiyyətini vurğulamış, Sovetlər İttifaqının dağılmasıdan sonra müstəqil ölkənin milli-mənəvi dirçəliş dövrünün başladığını ifadə etmişdir. (1)

Beləliklə, sovet dövründə başlayan İslam dininin təqibi prosesinə son qoyulması məhz Heydər Əliyevin hakimiyyətə gəlməsi ilə başlamışdır.

Möhtərəm Prezidentimiz İlham Əliyev cənabları 2017-ci ildə İslam Əməkdaşlıq Təşkilatının rəsmi mətbuat orqanı olan "OIC Journal" jurnalında dərc olunan "İslam həmrəyliyinin güclənməsi zamanın çağırışıdır" başlıqlı məqaləsində İslam dininin dünya tarixindəki mövqeyindən bəhs edərək vurğulayır: "Qədim tarixə, zəngin mədəni irsə, böyük təbii və insan resurslarına malik İslam dünyası müasir dünya nizamının, beynəlxalq münasibətlər sisteminin yaranması və inkişafında mühüm rol oynamışdır. İslam dini həmişə sulh, tolerantlıq, humanizm

ideyalarını aşılamış və dünya sivilizasiyasına əsaslı töhfələr vermişdir". (15)

Cənab Prezidentin İslam dininə göstərdiyi qayğının ən bariz nümunəsi Prezidentin yuxarıda adı çəkilən məqaləsində qeyd etdiyi kimi, sovet dövründə Azərbaycan ərazisində cəmi 17 məscidin fəaliyyət göstərməsinə baxmayaraq, 2017-ci ilin əvvəllərində məscidlərin sayının 2166-ya çatmasıdır.

Bütün bu amilləri nəzərə alaraq, İslam tarixinin öyrənilməsini hər zaman olduğu kimi günümüzdə də olduqca aktual hesab edirik. İslam dini ümumbəşəri din olduğu üçün İslam tarixini öyrənərkən biz bütün insanlığın tarixini öyrənirik.

Şübhəsiz, İslam tarixinin ilk dövrlərini əhatə edən, yaxud, bəzi məqamlarını ələ alan çoxsaylı kitablar yazılmışdır. Lakin bunların əksəriyyəti çox böyük həcmdə olduğu üçün oxucuya çətinlik yaradır. Bəziləri də ensiklopedik səpkidə olduğu üçün məsələləri muxtəsər olaraq ələ alır və oxucunu qane etmir. Bu vəziyyəti nəzərə alaraq məqalədə İslam tarixinin üslubunu, yazılış qaydalarını araşdırmaq nəzərdə tutulmuşdur. Məqalə tamamilə akademik metod tətbiq edilməyərək, geniş oxucu kütləsi üçün uyğun şəkildə yazılmışdır.

**Tarix nədir?** "Tarix" ərəb sözü olub, lüğəvi mənası vaxtın bilinməsi deməkdir. Tarixin predmeti zaman və insandır. "Tarix" sözü, əsasən, zaman mənasını daşıyır. Fərdlərin və cəmiyyətlərin vəziyyətini və hərəkətlərini "vaxt" daxilində müəyyən edir. "Tarix" sözü ilk dəfə Cənubi Ərəbistanda tətbiq edilmişdir.

Geniş mənada "tarix" keçmişdə baş vermiş hadisələri ifadə edir. Buna görə də tarix elmi bəşəriyyətin keçmişinin, düşüncəsinin və yaşayışının ümumi mənzərəsini təşkil edir. Həmçinin, tarix millətlərin inkişafını, bir-biri ilə qarşılıqlı əlaqələrini, onların daxili və xarici problemlərini əhatə edən elmdir.

Əslində tarix həqiqəti öyrənməkdir. Keçmişlə əlaqəli doğruları anlamaq, yaşanılmış zamanı qiymətləndirmək və gələcəyə yaxşı hazırlaşmaq üçün çox vacib faktordur (14, s.15). Həm maddi, həm də mənəvi təkmilləşmə və mədəniləşmə, əsasən keçmişi öyrənib buraxılmış səhvləri görüb düzəltmək və gələcəyə daha düzgün şərtlər hazırlamaqla mümkün ola bilər. Maddi, mənəvi və mədəni inkişafda tarixin oynadığı mühüm rol insanları tarix yazmağa sövq etdi.

Bununla da ümumi və milli tarixlər meydana gəldi. Zaman keçdikcə baş verən hadisələr tarix elminin inkişafını və zənginləşməsini tələb edirdi. Tarix elmi siyasi tarix, elm tarixi, iqtisadi tarix, dinlər tarixi və s. kimi qollara bölündü.

Tarixçi tarixi sənədlərə əsaslanaraq araşdırma edib keçmişi yenidən gündəliyə gətirməklə bəşəriyyətə tarixi yenidən yaşadır. Bu halda tarix - keçmişdəki tarixi sənədlərin danışması və qiymətləndirilməsidir (15, s.16).

**Cahiliyyə dövründə tarix.** Ərəblər cahiliyyə dövründə də tarixlə yaxından maraqlanırdılar. Çünki onlar əvvəlki nəsillərin sonrakı nəsillərə təsirinə inanırdılar. Buna görə də İslamdan öncəki ərəblər ailənin, qəbilənin soy-kökünün bilinməsinə xüsusi əhəmiyyət verirdilər. Buna görə İslam öncəsi ərəb tarixşünaslığı iki istiqamətdə inkişaf etdi: "Ənsab şəcərələri" və "Əyyamul-Ərəb". "Ənsab şəcərələri" (nəsəb elmi) ailənin, qəbilənin soy-kökünün araşdırılması, öyrənilməsi idi. "Əyyamul-Ərəb" isə adət-ənənələrin öyrənilməsi idi. Həm "Ənsab şəcərələri", həm də "Əyyamul-Ərəb" yazıya alınmadan, şifahi şəkildə yayılırdı. Həmin şifahi tarixə cahiliyyə dövrünün ərəb şerini də aid etmək olar. Çünki, müharibə və sülh məsələlərində, qəbilələrarası münasibətlərdə, inanc və düşüncənin ifadə edilməsində şerin xüsusi rolu var idi.

Əsasən, şifahi olaraq yaddaşlarda saxlanılan qədim ərəb şerlərindən "Ukaz vadisi"ndə qurulan yarmarkada (miladi təqviminin 540-cı ili) təşkil olunan şer müsabiqələrində söylənilən şerlərin bir qismi daha sonra yazıya alınır və ən yaxşıları Kəbənin divarına asılılırdı (11, s.38.).

Nəsəb elmi ilə şer arasında əlaqə var idi. Çünki şer də nəsəb elmi kimi şəxsiyyətlərin, hadisələrin öyrənilməsinə səbəb olurdu. Bu da tarix anlayışının inkişafına gətirib çıxarırdı. Digər tərəfdən müxtəlif mədəniyyətlərdən və dinlərdən olan insanlar ticarət, səyahət və həcc etmək məqsədilə Ərəbistana gəlirdilər. Beləliklə ərəblər qonşu millətlər və dövlətlərin tarixinə aid məlumatlar əldə edirdilər. Bəzi tədqiqatçılar, hətta, Məkkədə tarixlə əlaqəli xüsusi nazirliyin və "tarix qurumunun" mövcud olduğunu da bildirirlər (7).

**İslam tarixinin yaranması və inkişafı.** Müsəlmanlar tarixə çox böyük əhəmiyyət verirdilər. Çünki tarix insanların əxlaqına, mədəniyyətinə və gələcəyinə təsir edən elmdir.

İslam tarixi 610-cu ildə (miladi təqvimi) Qurani-Kərimin Hz. Muhamməde (s.a.v.) vəhy edilməsi ilə başlayır. Qurani-Kərimdə İslam əqidəsi və ibadət əsasları ilə yanaşı bəşəriyyət tarixindən yaradılış, dinlər, hökmdarlar və peyğəmbərlər haqqında məlumatlar da verilir. Qurani-Kərimin demək olar ki, bütün surələrində hər hansı tarixi hadisədən bəhs edilir. Qurani-Kərim bəşəriyyət tarixi ilə əlaqə qurmaq baxımından əksiksiz üsulun əsaslarını təqdim edir. İnsanlar arasındakı qarşılıqlı əlaqələri səbəb-nəticə istiqamətində qiymətlədirir.

Erkən dövrlərdə İslam tarixşünaslığı bütün dövlətlərin ilkin tarixşünaslığı kimi rəvayətçi tarixşünaslığa əsaslanırdı. Yəni, nəql olunan hadisələr üzərində çox mülahizə edilmədən, qruplaşdırılmadan, səbəb-nəticə əlaqələri qurulmadan olduğu kimi oxucuya çatdırılırdı. Analiz, müqayisə, ümumiləşdirmə, səbəb-nəticə əlaqələrinin qurulması və s. metodlar, ümumiyyətlə, dünya tarixşünaslığında olduğu kimi İslam tarixşünaslığında da sonradan meydana gəlmişdir. Belə ki, təhlillərin ardıcıl şəkildə aparılmasının bir göstəricilərindən biri olaraq aşağıdakıları qeyd etmək olar:

Prof. Dr. Mustafa Faydanın “Siyer Sahasıdakı İlk Telif Çalışmaları” adlı yazısında yer alır: Qurani-Kərimin məzmunu ilə Həzrəti peyğəmbərin (s.a.v) həyatı, bir peyğəmbər olaraq şəxsiyyətinin ərz etdiyi xüsuslar İslam tarixşünaslığı sahəsindəki yazıların əsasını təşkil etmişdir. Bu iki əsas ünsürlə birlikdə, Quranın nazil olduğu ərəb cəmiyyətinin İslamdan əvvəlki vəziyyəti, Məkkədən Mədinəyə (M.622) hicrətin tarix və təqvim başlanğıcı olaraq qəbul edilməsi, Divan Təşkilatının qurulması; fəthlərlə İslam dövlətinin qısa bir zamanda imperiyaya çevrilməsi; fərqli mədəniyyətlərlə təmas qurmaları; ...kimi xüsuslar müsəlman ərəb dünyasında tarixşünaslığın yaranış və inkişafını həm tərkib və növ, həm də tarix fəlsəfəsi istiqamətində təsir etmiş əsas faktorlar olmuşlar.

Beləliklə, Qurani-Kərim bir cəhətdən tarix fəlsəfəsinə başlanğıc təşkil edə biləcək məlumatlar verir və İslam tarixi metodologiyası və fəlsəfəsinin bir çox qaydalarını sərgiləyir, lakin tam mənada açıq bir tarix fəlsəfəsi təqdim etmir. Məsələn, Hz. Peyğəmbərin (s.a.s.) müharibələrindən təfsilatlı şəkildə bəhs etmir, amma peyğəmbərimizin (s.a.s.) mübarizə tərzi və onun qətiyyətliliyi haqqında məlumat verir. Aparılan müharibələrdə müsəlmanların qələbələrini və məğlubiyyətlərini “səbəb-nəticə” əlaqəsi çərçivəsində izah edir. Məsələn, Bədr müharibəsində qələbə əldə edilməsi, Uhud və Huneyn müharibələrində müvəqqəti məğlubiyyətə uğranılması “səbəb” anlayışı çərçivəsində ortaya qoyulur.

Bununla da, müsəlmanlar insanların keçmişini, etdiyi işləri ümumi çərçivədə, lakin öyrədici metodla təqdim edən Quranda tarixin mühüm bir hissəsini hazır şəkildə əldə etdilər.

Quranda əvvəlki millətlərin və dövlətlərin, hökmdarların və peyğəmbərlərin haqqında çoxsaylı tarixi məlumatların mövcud olması müsəlmanları tarixi tədqiqatlara sövq etdi, müfəssirləri izah etdikləri ayələr üçün lazım olan tarixi məlumatları Quranda və Qurandan kənarda axtarmağa istiqamətləndirdi. Beləliklə, vaxt keçdikcə tarixi ünsürlərə əhəmiyyət vermək təfsirçiliyin əsas xüsusiyyətlərindən biri oldu (12, s.43).

Bundan başqa, Hz. Muhammədin (s.a.s.) nümunəvi həyatı və şəxsiyyəti İslam tarixşünaslığının yolunu təşkil etdi.

Muhəmməd peyğəmbərin (s.a.s.) həyatının hər cəhətdən tədqiq edilməsi, Qurani-Kərimin təfsir edilməsi, hədislərin toplanması müsəlmanlar arasında tarixşünaslığın təməllərini təşkil ettdi.

Eyni zamanda hədis üsulu elminin inkişafı İslam tarixşünaslığında tənqidçi yanaşmanın əsasını qoydu. Hədisləri toplayarkən doğruluğunu yoxlama üsulları tarixşünaslığın inkişafına müsbət təsir göstərdi. Nəticədə hədisşünaslıqda əsas ünsürlərdən biri olan tənqidçilik (cərh və tədil) müsəlman tarixçilərin yaradıcılığında öz əksini tapdı.

Buna görə də deyə bilərik ki, İslam tarixinin qaynağını Qurandan sonra hədislər təşkil edir. Toplanan məlumatlar bir müddət əzbər və nəql yolu ilə mühafizə olundu. Sonrakı illərdə yazıldı, kitablarda, məcmuələrdə toplandı və tarix tədqiqatçılığı Siyərlə davam etdi.

Fəthlər də İslam tarixşünaslığının təşəkkülündə əsas ünsürlərdəndir. Tarix haqqındakı

məlumatları əvvəllər məhdud olan müsəlman ərəblər qələbələr nəticəsində qonşu millətlər və dövlətlərlə müxtəlif münasibətlər qurdular, onaların keçmişləri, milli-mənəvi dəyərləri haqqında məlumat sahibi oldular. Həmçinin, bərabər yaşadıqları millətlərin tarixlərini öyrənmək istədilər. Nəticədə bir tərəfdən tarix elmi ilə maraqlandılar, digər tərəfdən fəth edilmiş ölkələrin kitablarını ərəb dilinə tərcümə etdilər (9, s.12.). Müsəlman ərəblər fəthlərini xronoloji şəkildə yazaraq "futuhat" (fəthlər-Ş.M.) kitabları ərsəyə gətirdilər. Onlar bu cür əsərlərdə "rəvayətçi tarix" tərzini əsas götürdülər, lakin tarix fəlsəfəsilə məşğul olmadılar.

Hz. Peyğəmbərdən (s.a.s.) çatdırılan hədislərin səhihliyini təsbit etmək məsələsi ortalığa çıxdıqda bu istiqamətdə işlər görüldü. Nəticədə "hədis tədqiqatı metodologiyası" (hədis üsulu) təşəkkül tapdı və inkişaf etdi. Bu vaxtdan sonra rəvayət olunanların tənqidi metodu hazırlandı və dünyada tayı-bərabəri az görülən həssaslıqla inkişaf etdi (13,s.43.).

Hz. Muhamməddin (s.a.s.) ölümündən sonra İslam dünyanın dörd tərəfinə yayıldı. Ərəb dili tədqiqatçıların istifadə etdiyi dil oldu. İslam dininin elmə, düşüncəyə, tədqiqata verdiyi əhəmiyyət insanlara İslamı və İslam tarixini öyrənməyə həvəsləndirdi.

İslam tarixşünaslığı "şifahi" və "yazılı" tarixşünaslıq şəklində inkişaf etdi. Həm şifahi, həm də yazılı islam tarixşünaslığı birlikdə yarandı. Lakin İslam tarixinin bir elm kimi meydana gəlməsi hicri I əsrə təsadüf edir (Mevlane Şibli; Asrı Saadet; c I, s. 35-50). Belə ki, Peyğəmbərimiz (s.a.s.) oxuyub-yazmağı bilənlərə Qurani-Kərimi yazdırır, oxuyub-yazmağı bilməyənlərə isə əzbərlədirdi. Həmçinin hədislərin yazılmasına da erkən dövrdə icazə verildi. Nəticədə şifahi sənədlə yazılı sənəd eyni zamanda meydana gəldi.

İlk İslam tarixçiləri əsasən mühəddislər (hədis elmi ilə məşğul olanlar) idilər.

Səhabələr və təbiinlər İslam tarixini şifahi və yazılı şəkildə sonrakı nəslə çatdırırdıqlarına görə İslam tarixinin qurucuları olaraq qiymətləndirilə bilərlər.

Siyər və Məğazi tarixinə gəldikdə isə qeyd etməliyik ki, Muhamməd Peyğəmbərin (s.a.s) sözlərinin və hərəkətlərinin, həyatındakı bütün hadisələrin bilinməsini təmin edən elmə "Siyər" və "Məğazi" deyilir. "Siyər" sözü isə "sirə" sözünün cəmidir; davranış və vəziyyətlər mənasına gəlir. "Sirə" Peyğəmbərin (s.a.s) davranış forması, xüsusilə müharibələrdəki mövqeyini bildirir.

Siyər elmini metodoloji şəkildə ərsəyə gətirən İbn İshaq oldu. O, tarixi rəvayətlərə və etibarlı qaynaqlara istinad edərək, siyər elmini zənginləşdirdi. İbn İshaqın əsəri İslam tarixinin siyər sahəsində ilk əsər sayılır. Çünki, İbn İshaqdan əvvəlki tarixçilər metodoloji şəkildə tarix yazmamışdılar.

İbn İshaq "Kitabül Meğazi" əsərində sələf və çağdaşlarından daha geniş bir anlayışla əsərini üç qismə bölmüş, ilk hissəsini Hz. Adəmdən etibarən digər nəbilərə ayıraraq, Hz. Peyğəmbərin (s.a.v.) həyatını son iki bölümdə uzun bir nəbilər zəncirinin son və ən önəmli halqası olaraq ələ almışdır (4,s.23).

Geniş bir bütün hadisələri ehtiva edən və daha öncəki əsərlərdən istifadə edilərək hazırlanan ümumi tarix kitabları hicri II əsrdən etibarən yazılmağa başlanmış, III əsrdə isə artıq daha geniş mənada, yəni, siyər, məğazi, nəsəb şəcərələri (soy-kökü öyrənən elm - Ş.M), hədis və tarixi rəvayətlərdən ibarət bilgilər üzərinə qurulmuş əsərlər ərsəyə gəlmişdir. Məsələn, əsərlərində sağlam bir tənqid zehniyyətini əks etdirən Bəlazuri (ö. 892) idarə təşkilatına, sosial şərtlərə, mədəni-tarixi ünsürlərə də yer vermişdir (4, s. 29).

Siyər və məğazi kitablarından sonra əshabın (səhabə) və tabiinin tərcümeyi-hallarından və s. bəhs edən "Təbəqat və təracim" kitabları yazıldı. "Təbəqat və təracim" kitablarının ən qədimləri Muhamməd b. Sadın "Tabakatus Səhabə" əsəri ilə İbn Kuteybənin "Tabakatuş-Şuara" əsəridir.

Daha sonra isə dinlər tarixi, əqidə tarixi (kəlam elmi), məzhəblər tarixi, fikir və mədəniyyət tarixi, dövlətlər və millətlər tarixi, ədəbiyyat tarixi və s. kitablar meydana gəldi.

Rəşid xəlifələr hədis əzbərlənməsinə, yəni, İslam tarixi qaynaqlarının əzbərlənməsinə böyük əhəmiyyət verərkən, dünya tarixi ilə də əlaqələrini kəsmədilər. Daha sonra Əməvi xəlifəsi Müaviyə dünya tarixi ilə yaxından maraqlandı, tarixləri ərəb dilinə tərcümə edən bir idari orqan təsis etdi (10, s.9).

Müaviyə Yəməndən dövrünün böyük tarixçilərindən olan Ubeyd b. Şürya əl-Cürhümini yanına çağırdı; Ondan qədim ərəb tarixi, ərəblərin qeyri ərəblərlə müharibələrini ehtiva edən məlumatları toplamağını istədi (10, s.9).

Bütün bu faktlar göstərir ki, müsəlman dünyasında istər rəşid xəlifələr dövründə, istərsə də digər xəlifələr dövründə olsun, tarixin öyrənilməsinə və yazılmasına xüsusi əhəmiyyət verilmişdir.

Müasir dövrdə aparılan araşdırmalarda isə müsəlman əhalinin, xüsusilə, sosial, siyasi, ekonomik və mədəni quruluşuna əhəmiyyət verilir, İslam tarixi haqqında yeni baxışlar meydana gəlir.

Müasir tarixçilik sadəcə millətlər və ya dövlətlər arasındakı müharibələrin, bağlanan müqavilələrin və digər əlaqələrin tarixlərini əzbərləməyi və ya bunları xronolojik olaraq bilməyi tarix saymır. Müasir anlayışa görə, tarix keçmişi çox yaxşı öyrənərək, mövcud vəziyyətə necə gəlindiyinin və bu istiqamətdə nə qədər məsafə qət olunduğunun bilinməsidir. Tarixin qayəsi də insanlığın xoşbəxt, inkişaf etmiş şəkildə ən öndə, ən başda irəliləməsini təmin etməkdir. Bu cəhətilə tarix yüksək dəyərlərin həyata keçməsi üçün millətlərin içinə atıldığı bir yarış səhnəsidir (10,s.42-43).

**Nəticə.** İslam tarixinin gənclər tərəfindən öyrənilməsi xüsusən bu gün labüddür. Gənc nəslin İslam dəyərləri, mənəviyyatı ilə yetişməsi onların gələcəkdə bəşəriyyətə, cəmiyyətə və dövlətə daha faydalı bir nəsil olaraq yetişməsinə səbəb olacaq ki, bu da hər bir dövlətin ən əsas problemidir. Bu böhran və xaosun hökmran olduğu dövrümüzdə İslami dəyərlərə sahib, dövlətimizə faydalı olmağa çalışan gənc nəslin yetişdirilməsi ölkəmizə xidmətin ən yaxşı nümunəsi ola bilər. Həzrəti peyğəmbərimiz Muhəmmədin (s.a.s.) zamanında qaranlıq və böhranlı vəziyyətdə olan insanlıq, İslam dinin gətirdiyi nurla işıqlanmış və İslam mədəniyyəti ilə yetişən gənclər əsrlər boyu insanlığa nümunə olmuşlar.

Hal hazırda bizim qarşımızda duran məqsəd indiki gəncliyə o nümunələri olduğu kimi çatdırmaqla müasir insanımızın bu nurdan faydalanmasına səbəbkar olmaqdır.

Buna görə də İslam tarixinin öyrənilməsi bizə öz milli və dini kimliyimizi öyrədir, tarixdəki və dünyadakı yüksək mövqeyimizi göstərir, gənclərdə sağlam şüurun formalaşmasına yardımçı olur.

## Ədəbiyyat siyahısı

1. Gülnarə Şirəliyeva "İslam Əməkdaşlıq Təşkilatının fəaliyyətində Heydər Əliyevin rolu"; Akademik Tarih ve Düşünce Dergisi cild10(4); 2023; s.1057-1066.

2. Eyüp Baş, "Bir Akademik Disiplin Olarak İslam Tarihi" ; Dini araştırmalar, Temmuz-Aralık 2011, Cilt 14, sayı 39; s. 20-49.

3. İbn İshak "Kitabüs Siyer vel Meğazi"; terc. Ali Bakkal; İstanbul 2013;

4. Mesudi "Muruc ez-zeheb"; terc. Ahsen Batur; İstanbul 2004;

5. Mevlane Şibli; Asrı Saadet; c I, İstanbul 2023.

6. Mustafa Fayda, "Siyer Sahasıdakı İlk Telif Çalışmaları"; Uluslararası 1.İslam Araştırmaları Sempoziyumu Bildirimleri; İzmir 1985.

7. M. Şemseddin (Günaltay), "İslamda tarih ve müverrihler" İstanbul,1923.

8. Sabri Hizmetli, "İslam tarihi", Ankara, 1991.

9. Sabri Hizmetli "İslam tarihçiliyi üzerine" Ankara,1991.

10. Z.Velidi Togan "Ortaçağ İslam aleminde tenkidi tarih telakkisi" İslam Tedkikleri Enstitüsü Dergisi, C. I, Cüz 1-4, İstanbul,1953;s. 43-49.

11. Z.Velidi Togan, "Tarihte usul" İstanbul, 1969.

12. Ильхам Алиев, Президент Азербайджанской Республики, «Усиление Исламской солидарности-веление времени; Официальный сайт президента Азербайджанской Республики, 10 мая 2017 https://president.az/ru/articles/view/23584/print

## Summary

**Shola Mammadova**

**The problem of studying the history of İslam in Azerbaycan and aproaches in historiography**

Studing the history of İslam is importent for Azerbaijan because by learning İslamic history, we are learning about a civilization that has significantly contributed to and influenced word history. With its high moral values,Islam has had a profound impact on people`s lives, ethics, spirituality and behaviour.

First and foremost, it has become an integral part of the social and cultural fabric of the Muslim world where the religion spread.


***Keywords:*** *History of İslam, Azerbayjani state, history, The Holy Quran, historiography*


## Резюме

**Шола Маммадова**

**Проблемы изучения истории Ислама в Азербайджане и историографические подходы**

Изучение истории Ислама важно для Азербайджана, поскольку, изучая Исламскую историю, мы познаем культуру, каторая внесла значителный вклад в развитие человечества и повлияла на ход миравой истории. Обладая высокими нравственными ценностями, Ислам оказал глубокое влияние на жизн людей, их мораль, духовность и повидение. Прежде всего, он стал неотъемлимой частью общественной и культурной структуры мусульманского мира, куда распространилась это религия.


***Ключевые слова:*** *История Ислама, Азербайджанское государство, история, Священный Коран, историография*

UOT 94(479.24)
https://doi.org/10.59849/2710-0820.2025.2.88

**Babayeva Turan**
*AMEA A.A. Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun doktorantı*
*Azərbaycan*

# IX-XI ƏSRLƏRDƏ AZƏRBAYCANDA DÖVLƏTÇİLİK ƏNƏNƏSİNİN DİRÇƏLMƏSİ (ŞİRVANŞAHLAR VƏ SACİLƏR KONTEKSTİNDƏ)

***Açar sözlər:*** *Azərbaycan, Ərməniyyə, Xilafət, mütəğəllib, Şirvanşahlar, Məzyədilər, Sacilər*

## Giriş

Azərbaycan tarixinin öyrənilməsi məqsədilə, tədqiq edilməsi vacib olan dövrlərdən biri də Ərəb xilafətinin parçalanması ərəfəsində vətənimizdə baş verən siyasi proseslərdir. Azərbaycan dövlətçilik tarixində mühüm yer tutan bir sıra hadisələr məhz bu dövrdə baş vermişdir. IX əsrin ikinci yarısından başlayaraq, meydana gələn dövlətlər müstəqillik tariximizdə dərin izlər buraxmışdı. Bu baxımdan həmin dövlətlərin tarixinin öyrənilməsi xüsusi əhəmiyyət kəsb edir. Uzun müddət Xilafətin tərkibində yaşayan Azərbaycan xalqı müstəqillik ideyası ilə hərəkət edərək, istər türk, istərsə də ərəb mənşəli liderlərin öndərliyi ilə yeni dövlətlər yaratmağa başlamışdılar. Yaranan dövlətlər yeritdikləri siyasi xətlə isbat etmişdilər ki, bu dövlətlər mövcud geosiyasi şəraitə uyğun şəkildə formalaşaraq daxili və xarici siyasətlərini, müstəqilliklərini qorumaq və gücləndirmək istiqamətində qurulmuşdur.

Tarixlər boyu müxtəlif coğrafiyaşünaslar, səyyahlar, tarixçilər Azərbaycan ərazisi və burada yerləşən şəhərlər, dövlətlər haqqında əhəmiyyət kəsb edən məlumatlar vermişlər. Qədim sivilizasiya mərkəzlərindən biri olan Azərbaycanın dövlətləri və şəhərləri haqqında həm antik mənbələrdə, həm də orta əsr ərəbdilli-farsdilli mənbələrində zəngin məlumatlara rast gəlinir. IX-X əsrlərdə yaşamış iran mənşəli coğrafiyaşünas İbn Xordadbeh yazdıqlarında belə fikirlər səsləndirmişdir; “Azərbaycanın qibləsi Kəbənin qapısının yerləşdiyi divara doğrudur. Bu şimal qütbünün sol tərəfindən şərqə doğru uzanır” [10, s.21].

Hazırkı Azərbaycan ərazisi və ətraf bölgələri 642-ci ildə Ərəb xilafəti tərəfindən işğal olunduqdan sonra, onların idarəçiliyində üç tarixi-coğrafi ərazi; Azərbaycan, Arran, Ərməniyyə birləşərək vahid inzibati idarə etmə sistemində olmuşdur.

Sonrakı dövrlərdə ərəb coğrafiyyaçıları bu vahid inzibati bölgünü “əl-Cərbi”, “ər-Rihab”, “Ərməniyyə” və ya “Azərbaycan” adlandırmışdılar. Əhməd bin Yəhya bin Cabir əl-Bəlazuri “Kitab fütuh əl-buldan” əsərində Ərməniyyəni dörd hissəyə bölərək təsvir etmişdir: Əs-Sisəcan və Arran birinci Ərməniyyəyə daxil olub, Cürzan (Gürcüstan) ikinci Ərməniyyəyə daxil olub, Xəzərlər tərəfindən idarə olunurdu. Ərməniyyənin digər yerləri, üçüncü və dördüncü Ərməniyyə adı ilə rumların (bizansın) əlində idi. Bu bölgələri Armeniakus idarə edirdi [9, s.225].

Buradan açıq-aydın görünürki, əsrlər boyu “erməni xalqının” Azərbaycana olan torpaq iddiaları əsassızdır. İndiki “Ermənistan” belə Ərməniyyə torpaqları üzərində qurulmuş dövlətdir. “Ərməniyyə” isə erkən orta əsrlərdə ərəb inzibati-bölgü sisteminə görə Cənubi Qafqazda ərəb işğal dairəsinə daxil edilmiş bütün torpaqları özündə birləşdirən ərazi olub, vaxtilə Bizans imperatoru Yustinianın (527-565) həyata keçirdiyi inzibati islahata uyğun olaraq ənənəvi şəkildə I-IV Ərminiyə adı ilə dörd hissəyə bölünmüşdür [3, s.126]

Yaqut əl-Həməvi “Mucəm əl-buldan” əsərində Arranı belə təsvir etmişdir: “Arran - Gənzə də daxil olmaqla bir çox şəhərləri olan geniş bölgənin ərəbcə olmayan adıdır və xalq onu Gəncə, Bərdə, Şəmkir və Baylakan adlandırır. Azərbaycanla Arran arasında Ərras (Araz) adlı çay axır. Bu çayın qərbində və şimalında olan hər şey Arrana aiddir və ondan şərqdə olan Azərbaycana” [11, s.10]. Həmdullah Qəzvini isə öz qeydlərində belə vurğulamışdır; Arran-iki çay arasında, yəni Araz və Kür arasında olan torpaqlardır [14, s.53]

X əsr fars coğrafiyyacısı və tarixçisi İbn əl-Fəqih əl-Həmədaninin "Kitab əl-buldan" ("Müxtəsər kitab əl-buldan") əsərində Azərbaycan ərazisi olduqca geniş göstərilmişdir: "Azərbaycanın həddi Bərdə həddindən Zəncan həddinə qədərdir, və onun şəhərləri bunlardır; Bərkəri, Səlmas, Muğan, Xuvey (Xoy), Varsan, əl-Beyləqan, əl-Marağa, Neriz, Təbriz. Cənubi-şərqdən Azərbaycanın ikinci sərhəddi əd-Deyləm, ət-Tarım və Gilan biladları (diyarları) ilədir. Azərbaycanın buradakı şəhərləri bunlardır: Bərzə, Saburxast, əl-Xunəc, əl-Məyanic, Mərənd, Xuvey (Xoy), Gülsurə, Bərzənd. Bərzənd şəhəri xarabalıq idi, əl-Afşin buranı abadlaşdırdı və məskən etdi. Bərzənddən Varsana-bura Azərbaycanın axırıncı (sərhəd) əyalətidir - 12 fərsəxdir. Cənzə (Qazaka), Cəbrəvan, Urmiya, Azərcüşnəs, onun məbədi yerləşən əş-Şiz-bura isə atəşpərəstlərin ən hörmətli yeridir- əs-Salaq rustaqı, Sindəbaya rustaqı, əl-Bəzz, Məyənhər rustaqı, Urm rustaqı buraya (Azərbaycana) daxildir. Azərbaycanın xəracı 2 milyon dirhəmdir. Varsan şəhəri Azərbaycanın o tərəfdən olan axırıncı əyalətidir" [8, s.221]. Onun yazdıqlarına əsasən deyə bilərik ki, Azərbaycanın ərazisi bugünkü İran ərazisini də əhatə etmişdir. Ümumiyyətlə tarixi Azərbaycan torpaqları Cənubi Qafqazın böyük bir hissəsini və müasir İranın şimal-qərb hissələrini əhatə etmişdir. Azərbaycanın tarixi hüdudları bu və ya digər səbəblərlə əlaqədar olaraq müxtəlif dövrlərdə dəyişikliklərə məruz qalmışdır.

Azərbaycan ərazisi qədim dövrlərdən strateji-coğrafi mövqeyi və zəngin təbii sərvətləri ilə dövlət quruculuğunun inkişafına şərait yaratmışdır. Bunun nəticəsidir ki, Azərbaycan ərazisində tarixən bir sıra dövlətlər yaranmışdır. IX əsrdə Azərbaycanda tədricən Ərəb xilafətinin mövqeyi zəiflədikcə, əyalət hakimlərinin siyasi pozisiyası qüvvətlənmişdir. Əmirlər müstəqil siyasət yeritməyə başlamışdılar. Bu siyasi oyanışın nəticəsi olaraq, IX əsrin ikinci yarısında Azərbaycanda Şirvanşahlar (şimalda), Sacilər (cənubda) adlı yerli feodal dövlətlər meydana gəlmişdir. Ərəb xilafətinin regiona təsiri ilə Azərbaycanda İslam dini yayılmış və yaranan dövlətlərin dövlət dini də İslam dini olmuşdur. Vətənimizdə qədim dövlətçilik ənənələrinin dirçəlməsi gələcəkdə Azərbaycan türklərinin regionda daha da güclənməsinə və yeni dövlətlərin yaranmasına təsir edəcəkdir.

Orta əsrlər ərəb və fars müəllifləri Xəzər dənizinin qərb sahilində, Kürdən şərqdə yerləşib, qədim Qafqaz Albaniyasının, yaxud erkən orta əsrlər Arranının bir hissəsi olan vilayəti Şərvan və ya Şirvan adlandırırdılar. Əldə etdiyimiz məlumatlar əsasında deyə bilərik ki, antik müəlliflər Şirvanın adını çəkmirlər. Bu ad Sasanilər dövründən məlumdur. İlk Sasani şahənşahı I Ərdəşirin (224-241) "Ərdəşir Şahin" olaraq adlandırdığı vilayət hökmdarları arasında Şiriyan Şahın (Azərbaycanda) adını da çəkir [10, s.31]. Albaniya mərzbanlarının idarə etdiyi ərazilər sırasına yerli hökmdarların hakimiyyətində olan Bazkan (Balasakan), Xoruan (Xursan), Sruan (Şirvan), Çola, Dərbənd, Təbəsəran və s. daxil edilmişdir [16, s.143-145]. Böyük ehtimalla bu siyahı Albaniyanın Sasanilər dövründə inzibati cəhətdən mərzbanlıqlara böləndüyü dövrdən qalmışdır. Bu məlumatlar əsasında deyə bilərik ki, Azərbaycan ərazisində ərəblərin hökümranlığı dövründə Şirvan şahlıq olmuşdur. VII əsrdə ərəblər tərəfindən ələ keçirilən Kabala Şirvan şahlığının bir hissəsi imiş.

Bir sıra orta əsr müəllifləri Şirvanşahları Sasanilər nəslinə mənsub edirlər. Məmmədəli Şəriflinin qeydlərinə əsasən deyə bilərik ki, Sasanilər nəslinə yalnız VI əsrdə meydana gələn ilk Şirvanşahlar mənsub edilə bilər. Xilafətin zəifləməsi ilə meydana gələn Şirvanşahlar və sonrakı Şirvanşahlar sülaləsi isə tamamilə başqa xanədandır. Bunları bir-birindən ayırmaq olduqca mühümdür [7, s.57].

Ərəb xilafətinin zəifləməsinə doğru, yeni dövlətlərin yarnmasına şərait yarandığını vurğulamışdıq. Belə bir şəraitdə xilafət hakimləri özlərini müstəqil hiss etməyə başladılar. Müstəqilliyə can atan xilafət hakimləri arasında ərəb mənşəli Məzyədilər sülaləsinin nümayəndəsi də var idi. IX əsrin ortalarında Məzyədilər və ya digər adı ilə Şeybanilər Şirvanda siyasi hakimiyyəti ələ alaraq, onu müstəqil idarə etməyə başladılar. İlk Abbasi xəlifələrinin dövründə Məzyədilərin görkəmli nümayəndələri Xilafətin hərbi və inzibati işlərində böyük rol oynamışdılar. Bu sülalənin nümayəndələrindən olan Yezid və onun oğlanları, VIII əsrin 80-ci illərindən etibarən Bağdad xəlifələri tərəfindən Azərbaycan və Ərməniyyənin hakimi təyin olun-

muşdular. O dövrdə Ərməniyyə, Cüzran (Gürcüstan), Arran və Dərbənd də daxil olmaqla Şirvan bir inzibati dairəyə daxil idi. Görkəmli tədqiqatçı Juzenin fikirlərinə əsasən deyə bilərik ki, Azərbaycanın cənub vilayətləri bu əmirliyə daxil deyildi [12, s.2].

Məzyədilər Ərəbistan yarımadasında yaşayan Rəbiə qəbiləsinin Şeybanilər qoluna məxsusdurlar. Məzyədilərin mənsub olduğu qəbilə uzun müddət Xilafətin əyalətlərində köçəri həyat keçirdikdən sonra Mesopotamiyada, Bəsrə ilə Kufə arasında məskən salmışdı [7, s.61]. İraqda müstəqil əmirliyə malik olduqları Hillədən buraya köçüb gəlmiş "rəbiə" tayfaları kompakt halda Bərdədə, Şamaxıda və Şirvanın digər yerlərində məskən salmışdılar [2, s.22].

Yəqubinin yazdıqlarına əsasən deyə bilərik ki, Xəlifə Harun ər-Rəşid Yezid bin Məzyədi Əli bin İsa bin Mahanın yerinə Azərbaycan və Ərməniyyəyə hakim təyin edir. Əli bin İsa bin Mahanın vəzifəsindən azad edilməsinin səbəbi kimi onun yerli əhali ilə pis rəftar etməsi göstərilir [6, s.148].

Yezid bin Məzyəd Şirvana gələrək, vədlər verməklə üsyanı yatırmışdır. Özünün mənsub olduğu Rəbiə tayfasından buraya çoxlu adamlar gətirmişdir. Sara Aşurbəyli də öz qeydlərində "rəbiə" tayfasının Azərbaycan-Şirvan ərazisində yerləşməsi ilə bağlı fikirlər irəli sürmüşdür. Yezid bin Məzyədin şəxsiyyəti və bioqrafiyası haqqında İbn Xəllikan da bir sıra fikirlər səsləndirmişdir. İbn Xəllikanın yazdıqlarına əsasən deyə bilərik ki, Yezid xəlifə Harun ər-Rəşidə qarşı üsyan qaldıran əl-Vəlidin qoşununu məğlub etmiş, özünün isə başını kəsmişdir. Ər-Rəşid Yezidi əl-Vəlidin arxası ilə yollayarkən "Yezid bin Məzyəddən başqa heç kəs bu döyüşü aparmağa qadir deyil demişdir". Şair Bəkr əl-Nəttah " Rəbiə tayfasının nümayəndəsinin arxası ilə Rəbiə tayfasının digər üzvünü yolla. Dəmiri dəmir ilə kəsərlər fikrini səsləndirmişdir". Buradan aydın olur ki, əl-Vəlid özü də Rəbiə tayfasından idi [17, s.105].

Yezid bin Məzyəd tarixdə iki müxtəlif vaxtlarda (788-789, 799-800) hakimiyyətdə olmuşdur. Şirvanşah Məzyədilər sülaləsinin banisi və görkəmli sərkərdə Yezid bin Məzyəd 801-ci ildə Bərdədə vəfat etmiş və orada dəfn olunmuşdur. Mənbələr onun ölmünü belə təsvir edir "O, Bərdə də olarkən ona gözəl bir qız hədiyyə edirlər. Yezid o qızın yanında can verir" [15, s.44].

Bəlazurinin yazdıqlarına əsasən deyə bilərik ki, Yezidin oğlanları Məhəmməd və Xalid də yüksək vəzifələrdə olmuşdular. Məhəmməd bin Yezid bin Məzyədin və Xalid bin Yezid bin Məzyədin adları Ərməniyyə hakimləri arasında çəkilmişdi. Xalid xəlifə Məmun dövründə hakimiyyətdə olduğu zaman əhalidən hədiyyələr almış, onları özünə yaxınlaşdırmışdı [9, s.241]. Minorski Yezidin oğlanları barəsində belə yazır: "Xalid dövrünün görkəmli şairi olan Əbu Təmmam ət-Tainin tərəfindən təriflənmiş, digəri isə böyük səxavət və mərhəmətlə tanınan Məhəmməd bin Yeziddir: yox sözü ona məlum deyildi" [15, s.44].

Atası vəfat edərkən Xalid Mosul hakimi idi. Sonralar xəlifə Məmun tərəfindən Azərbaycan, Arran və Ərməniyyəyə hakim təyin olunmuşdu. O, İraqda olan həmvətənlərini (qohumlarını, həmqəbilələrini) və digər şəxsləri azad edərək əl-Cəzirəyə yollanır. Burada ona bir çox rəbiəlilər (Bəni-Rəbiə qəbiləsindən olanlar) qoşulurlar və bundan sonra onlar ölkəyə (Ərminiyəyə) gəlirlər. Xalid Curcanda sanarililərin üzərinə hücum çəkib onları məğlub edir, mal-qaralarını alır. Sonra o, sülh təklif edir və üç min madyan və on min qoyun almaq şərtilə onlarla sülh bağlayır. Lakin az bir vaxtdan sonra onlar yenidən ayağa qalxırlar, onlarla birlikdə kaysitlərdə (Kaysitlər şimal ərəblərinin Mudar qrupuna aid idilər. Hər ikisi şimal ərəblərinə aid olan Mudar və Rəbiə arasında kəskin rəqabət və düşmənçilik vardı, hətta şimal və cənub ərəbləri arasındakı rəqabətdən də güclü idi. Rəbiəlilər mudarlara qarşı mübarizədə hətta yəmən tayfaları ilə birləşirdilər.) üsyana qalxır və Xalidə qarşı çıxırlar. Bundan sonra Məmun Xalidin yerinə Abdullah bin Məsəd əl-Əsədini təyin edir [6, s.151].

Xalid xəlifə Mötəsimin dövründə (833-842) yenidən Ərməniyyəyə və Diyar Rabiyaya (Diyar Mudar və Diyar Rəbiə əl-Cəzirə vilayətinin dairələri idi.) hakim təyin edilir. Bu xəbər Ərməniyyəyə çatdıqda buradakı hakimlər mövqelərini gücləndirir və Xalidə qarşı üsyan qaldırırlar. Ərminiyənin poçt rəisi Mənsur bin İsa əs-Səbi bu haqda Mötəsimə yazır və o, Xalidə öz yerinə Əli bin əl-Hüseyni qoyaraq qayıtmağı əmr edir [6, s.153].

Xəlifə əl-Vasiq (842-847) Xalid bin Yezid bin Məzyədi yenidən Ərməniyyəyə və Azərbaycana hakim təyin edir. Xalid Tiflisə hücum edən zaman 842-ci ildə ölür və onu Dəbildə dəfn edirlər [15, s.45].

Məzyədilər nəslinin mənsub olduğu Rəbiə tayfası tarixən igid və müharibə bacarıqlarına malik döyüşçüləri ilə tanınmışdır. M.Şərifli və Minorskinin tədqiqatlarına nəzər salsaq görərik ki, Məzyədilər sülaləsindən olan Azərbaycan hakimləri comərdliyi, mərhəməti və qəhramanlıqları ilə tarixdə iz salmışlar. Xalid bin Yezid də özünəməxsus idarəçilik bacarığı və strateji düşüncəsi sayəsində üç xəlifə tərəfindən Azərbaycana vali təyin edilmişdir [7, s.63]. Bu kontekstdə, Məzyədilərin Azərbaycan ərazisində, xüsüsən yaranacaq Şirvanşahlar dövlətinin formalaşmasında və inkişafında buraxdıqları dərin iz təsadüfən deyil, əksinə, onların hərbi-siyasi bacarıqlarının və strateji idarəçilik qabiliyyətlərinin məntiqi nəticəsi kimi qiymətləndirilməlidir.

Xalid bin Yezidin ölümündən sonra xəlifə Vasiq onun oğlu Məhəmməd bin Xalidi Azərbaycana hakim təyin edir. Atasının əshabələri və mövlaları Məhəmmədə qoşulandan sonra o, sanarilərə və Tiflisdə üsyan qaldırmış İshaqa qarşı vuruşur. Onlar ölkədən çıxarılır və qaçırlar [6, s.154]. Xəlifə Mütəvəkkilin (847-861) dövründə Dərbənd şəhəri və onun ətrafındakı torpaqlar iqta kimi Məhəmməd bin Xalidə verilir. Bir mənbədə onun 859-ci ildə Arran vilayətində Cənzə (Gəncə) şəhərini saldırdığı göstərilir. Şəhər, xəlifənin ona hədiyyə etdiyi mülklərlə birlikdə, onun irsi sahibliyinə keçmişdi. VIII-XI əsrlərdə Şirvan və Dərbənddə baş verən hadisələri əhatə edən, 1106-cı ildə Dərbənddə (Bab əl-Əbvabda) ərəb dilində yazılan, XVII əsr türk alimi Münəcimbaşının kompilyativ əsəri vasitəsilə dövrümüzə yetişən bir mənbədə rəbiə qəbiləsinin Şeyban nəslindən olan, xəlifə tərəfindən ilk dəfə VIII əsrin sonlarında (787-788) Cənubi Qafqaza vali təyin edilən Yezid bin Məzyəd əş-Şeybaninin nəvəsi Məhəmməd bin Xalidin 245/859-cu ildə Arran vilayətində Cənzə (Gəncə) şəhərini tikməsi haqqında məlumat vardır. Belə ki, o Cubanta və ya Xunantada (ehtimal ki, Tiflis ilə Gəncənin ortasında yerləşir) üç təpə olduğu yerdə üç gecə ard-arda yuxu görür. Yuxuda qulağına səs gəlir. Ona yuxuda atının təpiklədiyi yeri qazdırmağı əmr edilir. Qazıntıdan tapdığın xəzinənin köməyi ilə bir şəhər tik və adını Cənzə (xəzinə) qoy deyə bildirilir. O, belə də edir. Üç böyük qazan tapılır. Biri dinarla, digəri ikisi isə dirhəmlə dolu olur. Məhəmməd yuxuda ona deyildiyi kimi edir. Cənzə şəhərini tikdirir. Sonra isə Bağdada gedərək, xəlifəyə xəzinə və şəhər haqqında məlumat verir. Xəlifə deyir; mən şəhəri istəmirəm, ancaq tapdığın pulu mənə ver. Məhəmməd pulu verəcəyinə dair söz verdi, lakin bir şərtlə ki, xəlifə onu və övladlarını indi də Xalidiyyat adlanan məşhur mülkləri ilə birlikdə şəhərə varis təyin etsin. Xəlifə hədiyyəni bəyəndi. Məhəmməd Cənzəyə qayıtdı. O Ərməniyyədəki hakimiyyətindən istefa verərək Cənzə şəhəri və mülklərdən gələn gəlirlə kifayətləndi." [15, s.47; 8, s.159].

Ərməniyyədə Məzyədilər nəslindən olan Məhəmməd xilafətin axırıncı hakimi idi. Məhəmmədin dövründə Məzyədilərin hamısı Şirvana köçərək, burada müstəqil dövlət yaratmışdılar [12, s.46]. Məzyədilər nəslinin digər nümayəndəsi, Məhəmmədin qardaşı Heysam bin Xalid Şirvan hakimi idi. 861-ci ildə xəlifə Mütəvəkkilin ölümündən sonra özünü müstəqil elan edərək, Şirvanşah titulunu qəbul etmişdi [2, s.69].

Xilafətin Azərbaycan ərazisində möhkəmlənmək məqsədi ilə bu vilayətlərə hərbi işləri yaxşı bilən bacarıqlı əmirləri vali göndərdiyi artıq bizə məlumdur. IX əsrin ikinci yarısında Şirvanşah dövlətinin yaranması prosesi başa çatmışdı. Məzyədilər Şirvan ərazisinə köçərək yeni dövlətin təməlini qoymuşdular. Tədqiqatın nəticəsi onu göstərir ki, Məzyədilərdən boş qalan yerə Sacilər nəsli nəzarət etməyə başlayır. Ona görə də heç təsadüfi deyildir ki, Xilafət bir neçə vilayətdə mühüm işdə çalışmış, onun sərəncamı ilə bir sıra döyüşlərdə iştirak edərək qələbə çalan Əbu Sac nəslindən olan əmirləri də Azərbaycana vali təyin etmişdi.

Azərbaycan tarixində Sacilər sülaləsinin və dövlətinin öyrənilməsində ərəb dilində yazılmış tarixi və coğrafi əsərlərin müstəsna əhəmiyyəti vardır. Belə ilkin qaynaqlar sırasında ət-Təbərini, İbn əl-Əsri, İbn Hövqəli misal göstərmək olar. Sacilər sülaləsi haqqında məlumata ilk dəfə ət-Təbərinin əsərində rast gəlinir. Həmin əsərin üçüncü hissəsində sülalənin banisi Əbu Sacın adı hicri 222-ci ildə (837) Babəkə qarşı döyüşənlər siyahısında çəkilir [1, s. 294-295].

Sacilər sülaləsi haqqında onu vurğulaya bilərik ki, onların Xilafətdən əvvəl də Azərbaycanın bir sıra bölgələrində məskunlaşdığı güman edilir. Sasanilərin köçürmə siyasəti haqqda ən mühüm məlumatlar İbn əl-Əsirin "əl-Kamil fittarix" əsərində verilmişdir. Müəllif Sasani şahı I Xosrov Ənuşirəvanın zamanında (531-579) Sac qəbiləsinin Məsqət, Şabran, Bab əl-Əbvab şəhərində məskunlaşması haqqında yazmışdır. Həmçinin əsərdə "İslamın zühurundan sonra Sacilərdən bir çoxu qalalarını və şəhərlərini tərk etdilər. İş o yerə çatdı ki, şəhərlər xarabalığa döndü, onları xəzərlər və rumlar tutdular" məlumatı öz əksini tapmışdır [5, s.9-10].

Ərəb coğrafi ədəbiyyatının görkəmli nümayəndələrindən olan İbn Havqəl özünün "Kitab surət al-ard" ("Yerin təsviri kitabı") adlı əsərində Sacilər dövlətinin milli mənsubiyyəti, yəni onun məhz Azərbaycan dövləti olması və bu dövlətin əsasını təşkil edən Azərbaycan ölkəsinin hüdudları haqqında ətraflı məlumat verir.

Müəllif, "Ərməniyyə, Azərbaycan və Arran" adlı paraqrafda Azərbaycan dövlətçiliyi ilə bağlı çox mühüm məlumat verir. Onun yazdıqlarına əsasən, "İndi də biz qərbə doğru Rum ölkəsinin sərhədlərinə qayıdaq, onun şərq sərhədlərində və qonşuluğunda olan İslam ucqarlarını təsvir edək. Onun təsvirinə Ərminiyyə, Arran və Azərbaycan ölkələrindən başlayıram. Mən onlara vahid iqlim kimi yanaşıram. Çünki mənim gördüyümə görə bu iqlim bir şəxsin hakimiyyəti altındadır. Əldə edilmiş məlumatlara əsasən, son zamanlarda İbn Əbu Sac, onun qulamı Müflih, Deysəm bin Şədluyə və Salar kimi tanınmış Mərzban bin Məhəmməd kimiləri orada hakimiyyətdə olmuşlar. Keçmişdə isə Fəzl bin Yəhya, Abdullah bin Malik əl-Xəzai və başqaları oranın hakimi olmuşlar.

Əl-İstəxri də Azərbaycan, Arran və Ərminiyyədən bir şəxsin hakimiyyəti altında olan vahid iqlim kimi bəhs etmişdir [1, s.295].

Sacilər sülaləsinin türk olduğu haqda 1847-ci ildə M.Defremeri "Journal Aziatique" də fransız dilində nəşr etdirdiyi məqaləsində qeyd etmişdir. P.K.Juze Sacilər sülaləsini "IX əsrin ikinci yarısında əmələ gəlmiş, Azərbaycan və Ərməniyyəyə bir neçə bacarıqlı canşin verən yeni türk sülaləsi" hesab edir [7, s.36, 109].

Tarixi məlumatları analiz və təhlil edərkən görürür ki, IX əsrin ikinci yarısında Xilafətə xidmət edən və Azərbaycan Sacilər dövlətini quran Sacilər mənşə etibarı ilə Orta Asiyanın Afşin ləqəbini daşıyan Usruşana türk əmirlərinə mənsub olmuşlar. Ümumiyyətlə, IX əsrdə Xilafət ordusunda türklər də xidmət edirdilər. Orduda çoxlu muzdlu hərbi rəislər də var idi [7, s.109-110].

Əl-Yəqubi Əbu Sacın Xilafət ordularında bir sıra hərbi əməliyyatda iştirak etməsi haqqında məlumat verir. Mənbədə Xəlifə Mötəsim Afşinə deyir: "Mankcuru gətir! (Afşinin qaynı - onun (Afşinin) Azərbaycandakı valisi Mankcur əl-Fərqani (hakimiyyətdən) ayrılmışdı.) Afşin onun dalınca böyük ordu ilə Divdad adı ilə tanınan Əbu Sacı göndərir. Sonra Mötəsimə xəbər çatır ki, o, Afşinin əmri ilə (hakimiyyətdən) ayrılmışdır və o, Əbu Sacı ona köməyə göndərmişdir" [6, s.154].

Ət-Təbərinin yazdıqlarından məlum olur ki, Babək öz ailəsi ilə Bəzz qalasından çıxıb getdiyi zaman onları təqib edənlərdən biri də Əbu Sac olmuşdur. Hələ 856 və ya 858-ci illərdə Əbu Sac Divdad xəlifə Mütəvəkkil tərəfindən Məkkə yolunun rəisi təyin edilmişdi. Əbu Sac Mədain şəhərində qalxan üsyanın yatırılmasında da böyük bacarıq və canfəşanlıq göstərmişdi. 865-ci ildə Əbu Sac Mesopotomiyada Vasit və Bağdad şəhərləri arasındakı Cərcərə şəhərində olan müharibədə də şücaət göstərmişdi. Əbu Sac həmin ildə Xilafətə qarşı qiyam qaldıran türk hərbi dəstələrini də məğlub etmişdi. O, qiyam qaldıran türk dəstələrini əzişdirmiş və əsir götürmüşdü. Əbu Sac Xilafətin sərəncamı ilə bir sıra başqa hərbi əməliyyatlarda da iştirak etmişdi. Şübhəsiz, bütün bu göstərdiyi xidmətləri sayəsində 874-875-ci ildə xəlifə onu Kufə və Əhvaza hakim təyin etmişdi [7, s.111-112].

İbn əl Əsir qeyd edir ki, Əbu Saca zəncilərlə müharibə əmr olunur. O öz yeznəsi Əbdürrəhmanı zəncilərlə müharibə etməyə göndərir. Dulab nahiyəsində Əbdürrəhman öldürülür. Əbu Sac isə Əsgər Məkrəm nahiyəsinə çəkilir. Zəncilər Əhvaza girirlər, əhalisini qırıb təhqir edirlər və oranı yandırırlar [5, s.86-87].

Digər bir mənbədə Abbasi valisi Əhməd bin İsa bin Şeyxin Ərməniyyədə üsyan qaldırdığı qeyd olunur. Xəlifə əl-Mötəmid Əbu Saca əmr edir ki, ona qarşı müharibəyə getsin. Əbu Sac 874-cü ilədək İbn Şeyx və digər mütəğəl-

liblərə qarşı vuruşmalarda da iştirak etmişdi [4, s.261].

Burada mütəğəlliblərin kimliyi ilə bağlı bir izahat təqdim etməyi məqsədəuyğun hesab edirəm. Mütəğəllib-ərəb sözü olub mənası "üstünlük qazanan", "qalib olan", "sahib olan", "ələ keçirən", "işğalçı" deməkdir. Xilafətin parçalanması ilə bağlı ərəb tarixçiləri və coğrafiyaşünasları arasında "mütəğəllib" kəlməsi bəzi hallarda xilafətdəki siyasi iğtişaşlardan və ya mərkəzi hakimiyyətin zəifliyindən istifadə edərək, IX əsrin əvvəllərində xəlifəliyin tərkibindən çıxmağa çalışan yeni feodallar institutuna şamil edilirdi. Və zaman keçdikcə əmirliklər, bəyliklər, xanlıqlar, şeyxliklər (ağalar) yalnız mərkəzlə, daha doğrusu, xəlifənin şəxsiyyəti ilə dini əlaqələr saxlayır, hətta onları himayə edən mütəğəlliblər başqa dinə inanırdılarsa, heç bir əlaqə saxlamırdılar [13, s.167].

Mərkəzi hakimiyyət zəiflədikcə və xilafət dağıldıqca mütəğəlliblərin sayı da artdı. IX əsrin 30-cu illərindən başlayaraq, mütəğəlliblər xilafətin kənarında, bəzən isə mərkəzə çox yaxın bir yerdə peyda olurdular. Xilafətin şərq hissəsində də çoxlu sayda var idi. Orada çoxaldılar və o qədər gücləndilər ki, onlarla mübarizədə bəzən Bağdad xəlifələri və onların yerli nümayəndələri də gücsüz qalırdılar. 874-875-ci illərdə xəlifənin ordusunun ən yaxşı sərkərdələrindən biri Musa bin Buğa xəlifə Mötəmidə müraciət edərək bildirir ki, "məni şərq ordusunun komandanlığından azad elə". Səbəb isə mütəğəlliblərin şərqin müxtəlif hissələrini ələ keçirmələri idi. Onların öhdəsindən gəlmək mümkün olmurdu. Yerli xalqlardan və ərəb işğalçılarından olan mütəğəliblər təxminən bütövlüklə Persiyanı, Ərməniyyəni - ərəblərin sərhədləri daxilində olan əraziləri (yəni Gürcüstanı, Ağvani (Albaniya), Şirvan və Dağıstanın bir hissəsi) ələ keçirmişdir. Yeni feodalların hər biri çalışırdılar ki, tutduqları ərazidə möhkəmlənsinlər və torpaqlarını genişləndirsinlər. Nəticədə yuxarıda qeyd etdiyimiz dövlətlərin nəhəng əraziləri mütəğəllib feodalların əlinə keçdi [13, s.178].

IX əsrin axırı X əsrin əvvəllərinə gəldikdə isə vəziyyət daha da gərginləşdi. Xilafətin ucqarlarında yerli hökmdar və canişinlərin separatizminin güclənməsi prosesi daha da gücləndi. Mütəğəlliblər hərəkatı güclənir və onlardan hər biri mərkəzi hakimiyyətin çətinlikləri və zəifləməsindən istifadə edərək, ayrılmağa, özləri üçün yarımmüstəqil və ya müstəqil hakimlik yaratmağa cəhd edirdilər. Əvvəlcə bu hökmdar və ya canişinlər öz vilayətlərində yığılıb xəlifənin xəzinəsinə göndərilən vergilərin məbləğini azaltmağa başlayır, sonralar isə beytül-mala pul göndərilməsini tamamilə dayandırırdılar. Əgər belə bir mütəğəllib daha zəif qonşusunun torpaqlarını özününkünə qatmağa, güclü qoşun təşkil etməyə və onun üstünə göndərilən nizami xəlifə ordularını məğlub etməyə nail olurdusa, xəlifələr onların öz vilayətlərində ağalıq etməyə tam ixtiyarı olduğunu qəbul edirdilər, yalnız bir şərtlə ki, onlar xütbə oxunanda xəlifənin adını çəkməyi öz öhdələrinə götürsünlər [4, s.259].

Şərqdə mürəkkəb siyasi şəraitin hökm sürdüyü bir dövrdə, 879-cu ildə Əbu Sac iştirak etdiyi bir döyüşdən qayıdarkən vəfat etmişdi. Elə həmin il oğlu Məhəmməd bin Əbu Sac Məkkə və Hərəmeyn (Məkkə və Mədinə) yoluna vali təyin olundu [5, s.87].

Məhəmməd bin Əbu Sac özünü mahir hakim və sərkərdə kimi göstərib, xəlifənin diqqətini çəkməyi bacarmışdır. O, Afşin ləqəbi ilə məşhur idi. 889-cu ildə əl-Müvəffəq Məhəmməd bin Əbu Sacı Azərbaycan hakimliyinə təyin etdi [5, s.93].

Məhəmməd Azərbaycana gələrkən Marağa hakiminin müqaviməti ilə rastlaşdı. Uzun müddətdən sonra Məhəmməd bin Əbu Sac 893-cü il 21 may-19 iyun tarixlərində Azərbaycanda hakimiyyəti ələ ala bilir. Məhəmməd Azərbaycana gəldikdən sonra özünü müstəqil elan edərək, xəlifəyə tabe olmaqdan boyun qaçırır. Lakin uzun müddət müstəqil ola bilməyib, xəlifə ilə yenə də əlaqə yaratmağa başlamışdır. Xəlifə əl-Mötəzid (892-902) 898-ci ildə Məhəmməd bin Əbu Sacı Azərbaycan, Ərməniyyə və digər dağlıq ölkələrin canişini təyin edir və fəxri paltarla təltif edir [18, s34, 97].

Sacilər Xilafətə qarşı mübarizəni gücləndirmək məqsədilə qonşu ölkələri də nüfüz dairələnə daxil etməyə cəhd göstərmişdilər. 900-cü ildə Məhəmməd bin Əbu Sacın əmirlərindən biri olan Vasif Bərdədən ağasının vilayətlərindən biri olan Malatyaya getmiş, oradan xəlifə əl-Mötəzidə yazaraq bildirmişdir ki, onu hüduda (sərhəd bölgələrinə) vali təyin etsin. Yazılanlardan məlum olur ki, Vasif Bərdə əmiri olmuşdur.

Burada Vasifin belə bir addım atması öz ağasına qarşı çıxmaq kimi görünsədə, əsil hədəf birlikdə hərəkət edərək, xəlifəyə qarşı çıxmaq idi. Əl-Mötəzid sonradan xəbər alır ki, Məhəmməd bin Əbu Sacla Vasif əlbirdilər. 11 iyul 900-cü ildə Məhəmməd bin Əbu Sacın xadimi Vasifin göndərdiyi üç nəfər elçi Bağdadın mərkəzinə daxil olur. Bu elçilərin məqsədi xəlifəyə Vasifin istəklərini bildirmək idi. Xəlifə əmr edərək hər şeyi olduğu kimi etiraf etmələrini elçilərə bildirdi. Etiraf edənə qədər döyülən elçilər, işin əsl məğzini açıqlayırlar. Əsas məqsədin Vasifin ağası ilə birlikdə hərəkət edərək, istəklərinə nail olduqdan sonra, Diyar Mudara (Əl-cəzirə (Yuxarı Mesopotamiya) üç əyalətinin ən qərbinin orta əsr ərəb adıdır) qarşı hücum etmək planları aşkara çıxır. Bu fikir hamıya məlum oldu və hər kəs bundan danışmağa başladı [18, s.110].

İbn əl-Əsir "əl-Kamil fi-t-tarix" əsərində də Vasifin hüduda vali təyin olunduqdan sonra, ikisinin birlikdə Diyar-Muzərə hücum edəcək və onu zəbt edəcəkləri barədə məlumat var.

Buradan aydın olur ki, müstəqil siyasət yeritməyə meyilli olan Məhəmməd bin Əbu Sac Sacilər dövlətinin ərazisini genişləndirməyə meyilli olmuşdur. Məhəmməd Afşinin Azərbaycanda kəsdirdiyi 898 və 900-cü il tarixli dirhəm sikkələr məlumdur. Kəsilən sikkələr dövlətin müstəqilliyinin göstəricisi olduğuna görə belə nəticəyə gəlmək olar ki, Sacilər dövlətinin əsasını Afşin qoymuşdu [4, s.266].

900-cü ildə Azərbaycan ərazisində taun xəstəliyi yayılır. Bu xəstəlikdən o qədər insan vəfat etmişdir ki, ölüləri dəfn etmək və kəfən tapmaq belə mümkün olmurdu. Bu amansız xəstəlikdən vəfat edənlərdən biri də, Məhəmməd bin Əbu Sac idi.

Eyni zamanda İbn əl-Əsir yazır ki, 901-ci ilin zil-hiccə (noyabr) ayında Vasif öldürülür və cəsədi Bağdadan asılır. Başqa bir rəvayətdə isə öz əcəli ilə öldüyü qeyd edilir [5, s.97].

Sacilər dövləti haqqında mənbələrə və təhlil edilmiş materiallara əsaslanaraq vurğulaya bilərik ki, Xilafətin zəifləməyə başladığı dövrdə Sacilər sülaləsinə mənsub olan hakimlər və onların yanında xidmət edən əmirlər belə daima müstəqil siyasət yeritməyə, yeni ərazilər zəbt etməyə cəhd etmişdilər. Bu addımlar onu göstərirdi ki, gələcək dövrdə Sacilər dövləti siyasi və hərbi potensialına görə müstəqil dövlət kimi mövcudluğunu davam etdirməyə layiqdir.

**Nəticə**

IX əsrdə Xilafətin parçalandığı bir dövrdə, Şərqdə də proseslər olduqca mürəkkəb dinamika ilə inkişaf edirdi. Azərbaycan ərazisində də Xilafətin parçalanması - mərkəzi hakimiyyətin zəifləməsi, yerli hakimiyyətlərin güclənməsi və müxtəlif etnik və dini qrupların yaranması ilə bağlı olan mürəkkəb bir prosesdir. Bu proses, həmçinin Azərbaycanda siyasi və dini müxtəlifliyin inkişafına səbəb olmuş və yerli dövlətlərin yaranmasına yol açmışdır. Bu parçalanma, uzun müddət davam edən bir hadisə olub, nəticədə bir neçə müxtəlif yerli dövlətin yaranmasına şərait yaratmışdı.

Nəticə etibari ilə bunu da deyə bilərik ki, həm Məzyədilər həm də Sacilər ilk öncə Abbasilərdən asılı şəkildə fəaliyyət göstərmiş, sonralar güclənərək müstəqillik qazanmış və zor gücünə hakimiyyətlərini qorumuşdular. Buna görə də, hər iki sülalə mütəğəllib hesab olunur.

Mövzuya tam olaraq hakim olmaq üçün ərəbdilli mənbələrə müraciət edilərək, ilk öncə Azərbaycanın IX əsrdə tarixi coğrafiyasına önəm verilmişdir. Erkən orta əsr səyyahlarının, tarixçilərinin, coğrafiyyaçılarının əsərlərində dövrə aid olduqca çox məlumat olduğundan, onlara istinad edərək, hadisələr təsvir olunmuşdur. Təbii ki, burada sovet dövrü görkəmli tarixçilərinin də fikirləri maraqlı olduğundan, onların da tədqiqatına müraciət edilmişdir.

Tarixi şəxsiyyətlərin atdığı addımlar, dövlətin yaranma prosesləri müxtəlif mənbələrə istinad edərək yazılmış, tarixi xronoloji ardıcıllığa uyğun olaraq, yeni dövlətlərin yaranma prosesi şərh edilmişdir.

## Ədəbiyyat siyahısı

1. Ağayev R. Ərəb mənbələri Azərbaycan Sacilər dövləti və onun hüdudları haqqında. Tarix və onun problemləri, №3. Bakı 2014

2. Aşurbəyli S. Şirvanşahlar dövləti. Əbilov, Zeynalov və oğulları Nəşriyyat Poliqrafiya Evinin mətbəəsi. Bakı: 2006, 712 s.

3. Azərbaycan tarixi, Ən qədim dövrlərdən XX əsrin əvvəllərinə qədər, Bakı: Elm, 1993, 284 s.

4. Bünyadov Z. Azərbaycan VII-IX əsrlərdə. Şərq-Qərb, Bakı: 2007, 424 s.

5. İbn Əl Əsir. Əl-Kamil fit-Tarix, tər. M.Əfəndizadə. Azərbaycan SSR Elmlər Akademiyası nəşriyyatı. Bakı: 1959, 215 s.

6. Orta əsr ərəb mənbələrində Azərbaycan tarixinə aid materiallar. Əl-Yəqubi "Tarix". Nurlan, Bakı: 2005, 242 s.

7. Şərifli M. IX əsrin ikinci yarısı – XI əsrlərdə Azərbaycan feodal dövlətləri. Azərbaycan Milli Elmlər Akademiyası, Bakı: 2013, 398 s.

8. Vəlixanlı N. Azərbaycan VII-XII əsrlərdə: tarix, mənbələr, şərhlər. Azərbaycan Milli Elmlər Akademiyası Milli Azərbaycan Tarixi Muzeyi. Bakı: 2016, 476 s.

9. El-Belazuri Ahmed ibn Yahya ibn Cabir. Kitab Fütuh el-buldan – Ülkelerin Fetihleri. Tər. Mustafa Fayda. Siyer Yayınları. İstanbul: 2013, 634 s.

10. İbn Hurdazbih. Yollar ve Ülkeler kitabı. Tər. Murat Ağarı. Kitabevi 337. İstanbul: 2008, 198 s.

11. Ал-Хамави Йакут. Муджам Ал-Булдан (Сведения об Азербайджане). Издательство "Элм". Баку: 1983, 68 стр.

12. Жузе П.К. Мазйадиды-Шейбаниды в Азербайджане. Азербайджан 1937. 52 стр.

13. Жузе П.К. Мутагаллибы в Закавказье в IX-X вв. К истории феодализма в Закавказье. Тбилиси: 1937, 236 стр.

14. Казвини Хамдаллах. Нузхат ал-кулуб. Издательство "Элм" Баку: 1983, 68 стр.

15. Минорский В.Ф. История Ширвана и Дербенда X-XI веков. Издательство Восточной Литературы. Москва: 1963, 266 стр

16. Hewsen H.R. The Geography of Ananias of Shirak (Ashxarhatsoyts) Wiesbaden 1992, 467 p.

17. Ibn Khallikan. Wafayat Al-Ayan Wa Anba Abna Al-Zaman. New Delhi 1996. Vol-7 -250 page. /electronpage 3071.

18. The History of Al-Tabari. Volume XXXVIII The return of the Caliphate to Baghdad. State University of New York 1985. 239 page/ Electronpage 264

## Резюме

**Бабаева Туран**

## Возрождение традиций государственности в Азербайджане в раннем средневековье (в контексте Ширваншахов и Саджидов)

В IX-XI веках на исторической территории Азербайджана процесс формирования государственности ускорился. После арабского завоевания, в период раннего феодализма, возникли новые государства. Эти государства были созданы феодалами, называемыми «мутэгаллиб» (на арабском – победитель). Начиная с середины IX века, усилившиеся феодалы начали вести себя независимо. Они действовали настолько свободно, что смогли сохранить свою независимость, не отправляя даже дань халифату. В исследовательской работе особое внимание уделено событиям, произошедшим в процессе распада Халифата, и их роли в формировании будущих независимых государств. В этом контексте возникли такие государства, как Ширваншахи и Саджиды. В процессе формирования государства Ширваншахов участвовали Мязадиди арабского происхождения а в становлении государства Саджидов – тюрского происхождения Саджиды. Представители обеих династий за своё мужество и героизм заслужили уважение халифа и в своё время были одними из самых влиятельных военачальников Халифата. Благодаря приобретённому опыту, эти победоносные полководцы стали основателями новых государств.

***Ключевые слова:*** *Азербайджан, Арминийа, Халифат, мутегаллиб, Ширваншахи, Мазьядиды, Саджиды*

## Summary

**Babayeva Turan**

**The Revival of Statehood Traditions in Azerbaijan in the Early Middle Ages (in the Context of the Shirvanshahs and Sajids)**

In the 9th to 11th centuries, the process of state formation accelerated in the historical territory of Azerbaijan. At the end of the Arab invasion, during the early feudal period, new states emerged. These states were established by feudal lords known as “mutaghallib” (Arabic: the victorious). Starting from the mid-9th century, strengthened feudal lords began to act independently. They behaved so autonomously that they managed to maintain their independence without even sending tribute to the Arab Caliphate. This research focuses on the events that took place during the collapse of the Caliphate and examines their role in the formation of emerging independent states. Among these were the states of the Shirvanshahs and the Sajids, both of which arose in this historical context. The Arab-origin Mazyadids played a role in the formation of the Shirvanshah state, while the Turkic-origin Sajids were involved in the establishment of the Sajid state. The representatives of both dynasties had earned the respect of the Caliph due to their heroism and had once been among the most influential commanders of the Caliphate. Through the experience they had gained, these victorious commanders laid the foundations for new states.

***Keywords:*** *Azerbaijan, Arminiya, Caliphate, mutaghallib, Shirvanshahs, Mazyadids, Sajids*

UOT 956.1(091)(=512.145)”13”
https://doi.org/10.59849/2710-0820.2025.2.97

**Zabil Bayramlı**
*tarix elmlər doktoru, professor*
*bayramlizabil75@gmail.com*
*ORCİD: 0000-0001-5041-3645*

**Nurlan Nəsirov**
*Tarix üzrə fəlsəfə doktoru*
*nurlan.nasirov@khazar.org*
*ORCID: 0000-0002-0801-6096*

# İBN BƏZZAZ ƏRDƏBİLİNİN “SƏFVƏTÜS - SƏFA” (SAFLIĞIN SAFLIĞI) ƏSƏRİNDƏ ŞEYX SƏFİƏDDİNİN MƏZHƏBİ VƏ ETNİK KİMLİK MƏSƏLƏSİ

***Açar sözlər:*** *Səfvətüs-Səfa, Şeyx Səfiəddin Ərdəbili, İbn Bəzzaz, Səfəviyyə təriqəti, məzhəb, etnik kimlik.*

**Giriş:** XIV əsrin sonu - XV əsrin əvvəllərində Azərbaycan və ümumilikdə Şərq İslam dünyasında mühüm dini və siyasi dəyişikliklər baş vermişdir. Bu dövrün ən önəmli şəxsiyyətlərindən biri olan *Şeyx Səfiəddin İshaq Ərdəbili (1252-1334),* həm dini-mənəvi lider, həm də Səfəvi sülaləsinin qurucusu kimi tarixi yaddaşda xüsusi yer tutur. Onun məzhəbi və etnik kimliyi məsələsi isə həm elmi tədqiqatlarda, həm də tarixi mənbələrdə müxtəlif cür təqdim olunmuşdur. Bu fərqliliklər onun şəxsiyyətinə və Səfəvi dövlətinin quruluşuna dair müxtəlif interpretasiyalara yol açmışdır. Tədqiqata cəlb etdiyimiz *İbn Bəzzaz Ərdəbilinin “Səfvətüs-Səfa”* əsəri həmin dövrün dini-mədəni mühitini və Şeyx Səfiəddinin həyatını əks etdirən ən önəmli ilkin qaynaqlardan biridir. Bu əsər vasitəsilə Şeyx Səfidəddinin məzhəbi və etnik mənsubiyyəti ilə bağlı məlumatlar əldə etmək mümkündür. Lakin əsərin agioqrafik xarakteri və dövrün ideoloji şəraiti bu məlumatların təhlilini və anlaşılmasını müəyyən qədər çətinləşdirir. Bu məqalənin məqsədi “Səfvətüs-Səfa” əsərində Şeyx Səfiəddinin məzhəbi və etnik kimliyinə dair mövcud məlumatları araşdırmaq, həmin dövrün dini və etnik kontekstində bu məlumatların nə dərəcədə obyektiv və ya ideoloji rəng daşıdığını qiymətləndirməkdir. Bundan əlavə, Şeyx Səfiəddinin şəxsiyyətinin erkən Səfəvi tarixi və dini ideologiyasının formalaşmasındakı rolu da təhlil ediləcəkdir. Bu baxımdan, əsərin mətnindəki dini ifadələr, məzhəbə işarələr və etnik kimliklə bağlı fikirlər xüsusi diqqət mərkəzində olacaqdır.

## I. İbn Bəzzazın həyatı və onun “Səfvətüs-səfa” (Saflığın saflığı) əsəri haqqında.

Səfəvilərin soykökü, Səfəviyyə təriqətinin yaranması, ilk Səfəvi şeyxlərinin dini-ideoloji, hərbi-siyasi fəaliyyətlərinin öyrənilməsində *İbn Bəzzaz* adı ilə məşhur olan *Dərviş Təvəkkül bin İsmayıl bin Hacı Məhəmməd Ərdəbilinin* tam adı *“Əl-Məvahib əl-səniyə fi mənaqib əl-Səfəviyyə” yaxud “Məvahibüs-səniyyə fi mənaqibüs-səfəviyyə”* olan və müxtəsər şəkildə *“Səfvətüs-səfa”* adlanan əsəri çox böyük elmi əhəmiyyət kəsb etməklə zamanın *aqioqrafik* mənbələri sırasında əsas yerlərdən birini tutur (2, s.14). “Səfvətüs-səfa”nın elmi-tənqidi mətnini onun mükəmməl nüsxələri əsasında hazırlayıb h.1373 (1994) ildə Təbrizdə nəşr etdirən *Qulamrza Təbatəbai Məcd* əsərə yazdığı müqəddimədə qeyd edir ki, *İbn Bəzzazın* şəxsiyyəti, ailəsi, soykökü, vəziyyəti haqqında aydın və dəqiq bir məlumat yoxdur. Onun haqqında mənbələrdə olan məlumat yalnız onun *Şeyx Səfiəddinin* oğlu və *canişini Şeyx Sədrəddinin müridi* və *Ərdəbil* sakini olmasından ibarətdir. Müəllif kitabı *Şeyx Sədrəddinin* sifarişi və töv-

siyəsi ilə *Şeyx Səfiəddinin* müasiri olmuş müridləri, davamçıları, yaxınları, qohumları, mötəbər adamların, xüsusilə də *Şeyx Sədrəddinin* dilindən söylənilmiş xatirə və söhbətlər əsasında qələmə alınmışdır. İbn Bəzzaz iddia edir ki, cavan yaşında h.q.726-cı ildə (1325/26) *Şəmsəddin Təvəkkül* ilə *Marağada* səfərdə olarkən Şeyx Səfiəddini görmüşdür. Lakin əsərində söhbət və hekayələrdə və ümumiyyətlə kitabının heç bir yerində Şeyxi görməsindən bir söz belə demir (15, s.16).

Müəllifin əsəri hansı zamandan yazmağa başlaması da dəqiq məlum deyildir. Kitabın mətnindən bəlli olan odur ki, İbn Bəzzaz əsəri Şeyx Sədrəddinin yaşının orta çağlarında ikən yazmağa başlamış və h.q. 759 (1358) ilin axırlarında tamamlamışdır (15, s.17). *Möhsün Nağısoylu, Sevər Cabbarlı* ilə birlikdə tərtib edərək nəşrə hazırladıqları "Şeyx Səfi təzkirəsi"nə "*Ana dilimizin dəyərli yazılı abidəsi"* başlığında yazdığı ön sözdə qeyd etdiyi kimi, adı çəkilən qaynaqda XIII-XIV əsrlərdə Azərbaycanda baş vermiş bir çox hadisələr, dövrün ictimai-siyasi durumunun ümumi mənzərəsi və xalqımızın həyatı, məişəti, Şeyx Səfiəddin və onun müridlərinin dini inancları, Şeyx Səfiəddinin etnik kimliyi, dünyagörüşləri, dövrün siyasi, tarixi, mədəniyyəti ilə bağlı bir sıra məqamlar, məsələlər öz əksini tapmışdır. Bu dövrdə yaşamış müxtəlif sənət adamları, görkəmli təriqət nümayəndələri haqqında zəngin məlumat verir. Əsər "*hekayət"* adlandırılmış kiçik hissələrdən ibarət olub, *müqəddimə və on iki baba böünmüşdür*. Dövrün yaradıcılıq ənənəsinə görə hər *bab* da fəsillərə bölünür (7, s.4, 9, 10).

Əsərin *müqəddiməsi iki fəsildən ibarətdir. Əvvəlki fəsil:* Şeyx Səfiəddinin zühur edəcəyi peyğəmbərin (s) xəbərlərində. *İkinci fəsil*: Şeyx Səfiəddinin zühur edəcəyi övliyaların xəbərlərində.

I bab:Şeyx Səfiəddinin əhvalı-ibtidası adlanan bu babda Şeyx Səfiəddinin həyatının əvvəlində baş verən hadisələrdən – onun nəsli, doğulması, uşaqlığı, tələbəlik həyatından bəhs edilir.On bir fəsildən ibarətdir.

II bab: Şeyx səfiəddinin çətinlik və bəlalara məruz qalan insanları xilas etməyə yönəlmiş möcüzələrindən bəhs edilir. Üç fəsildən ibarətdir.

III bab: Şeyx Səfiəddinin kəramətlərinin mehribanlıq, xeyirxahlıq nöqteyi-nəzərindən, gözəllik və əzəmət baxımından möcüzələrindən bəhs edilir. Üç fəsildən ibarətdir.

IV bab: Şeyx Səfiəddinin kəlamlarında Quran, hədis və müdriklərin sözləri ilə bağlı təhqiqatlar. Altı fəsildən ibarətdir.

V bab: Şeyx Səfiəddinin heyvanlar və heyvanlardan başqa cismlərin nəticəsində kəramətinin zikri. Üç fəsildən ibarətdir.

VI bab: Şeyx Səfiəddinin səması və vəcdinin zikri.

VII bab: Şeyx Səfiəddinin müxtəlif möcüzələrinin zikri. Beş fəsildən ibarətdir.

VIII bab: Şeyx Səfiəddinin əxlaqı və təbiətində məzhəbi, mübarizəsi, zahidlik kimi müxtəlif mövzulardan məlumatlar verilir. 27 fəsildən ibarətdir.

IX bab: Şeyx Səfiəddinin xəstəliyi və ölümünün zikri. İki fəsildən ibarətdir.

X bab: Şeyx Səfiəddinin ölümündən sonra baş verən möcüzələr. Üç fəsildən ibarətdir.

XI bab: Şeyxin əzəməti, şöhrəti və ətraf yerlərdəki xələfləri. Üç fəsildir.

XII bab: Şeyx Səfiəddinin müridlərinin kəramətləri. İki fəsildir (15, s.32-39).

İbn Bəzzazın "Səfvətüs-səfa" əsəri islam dini və məzhəbləri, təsəvvüf, tarixi hadisələr və ictimai-iqtisadi mövzularda bir çox məlumatları əks etdirir. Əsərdə *Şeyx Səfiəddinin* şəxsiyyətinin əzəməti və böyüklüyünü,onun qeyri-adi keyfiyyətlərini və möcüzə səciyyəli kəramətlərini özündə əks etdirən epizod və hadisələr çoxdur. Bu hekayələrin bəziləri mübaliğəlidir, inandırıcı təsir bağışlamır və müəyyən mənada əfsanəvi səciyyə daşıyır. Buna baxmayaraq həmin hekayələrdə XIII-XIV əsrlərdə Azərbaycanda baş verən ayrı-ayrı real tarixi hadisələri, dövrün ictimai-siyasi həyatını əks etdirən bir sıra elmi əhəmiyyətli hadisələrdən də bəhs edilir.Əsərdə kifayət qədər gerçək tarixi hadisələr də əks edilmişdir.Əsərin iki yerində *gürcü qarətçilərinin Ərdəbil şəhərinə* basqnlarından və onların burada törətdikləri talan və qirğınlardan danışılır ki, bu faktları digər qaynaqlar da təsdiq edir. Kitabda İlxanlı hökmdarlarından *Məhəmməd Olcaytu (1304-1316),Əbu Səid (1316-1335) və əmirülümər a Əmir Çobanın Şeyx Səfiəddini* tez-tez ziyarət etmələri və onunla məsləhətləşmələri də təsvir edilmişdir. Əsərdə Şeyx Səfiəddinin İlxanlıların baş vəzirlərindən *Rəşidəd-*

*din Fəzlullah Həmədani* və *Xacə Qiyasəddinlə* əlaqə və münasibətləri haqqında da məlumatlara təsadüf edilir (7, s.11, 12, 13).

Əsərdə *Şeyx Səfiəddin Ərdəbili* ilə yanaşı onun qayınatası *Şeyx İbrahim Zahid Gilani* habelə başqa şeyx və ariflər haqqında da məlumatlar verilmişdir. Onlardan *Mövlanə Şəmsəddin Məhəmməd Zərgər, Mövlanə Tacəddin Əvəzşah, Mövlanə Nəcmüddin Pirə Ərdəbili, Mövlanə Şəmsəddin Ağmiyuni, Mövlana Şəhid Qazı Cəmaluddin Ərdəbili, Şəmsəddin Kaşegər Ərdəbilinin* adlarını qeyd etmək olar. İbn Bəzzaz əsərində Şeyx Səfiəddin Ərdəbilinin həyatını təsvir etməklə yanaşı, əmirlərin, cəmiyyətin görkəmli nümayəndələrinin, görkəmli şəxslərin, bir sözlə, xalqın müxtəlif təbəqələrinin həyatı haqqında geniş mənada məlumat verir. Məsələn, burada dövrün məşhur pəhləvanlarının adlarına, həmçinin *"qəvval"* peşəsi və məşhur qəvvalçıların adlarına rast gəlmək mümkündür. Cəmiyyətin digər bir sosial təbəqəsini təşkil edən *əxilərə* də əsərdə yer verilib. Kitabda bir çox əxinin adı çəkilir. Onlardan *Əxi Sultanşah Həddad və Əxi Şadi,Əxi Musa,Əxi Bala,Əxi Əhmədşah və bir çox baaşqalarının adları çəkilmişdir* (15, s.16-17).

"Səfvətüs-səfa"dakı bəzi hekayələrdə müxtəlif sənət sahələri və peşələrin də adı çəkilir. Məsələn, *baqqal, şal toxuyan, çəkməçi, çörəkçi, dülgər, aşpaz, paltar toxuyan, dəmirçi, sabun satan, sərraf, dəri ustası, parçaçı, bağban, zərgər, sərrac, kərpiççi, eşşəkçi (mal-qara kirayəçisi) , dərzi kimi peşə* və sənət sahələri haqqında da məlumatlar az deyildir.

İbn Bəzzaz Şeyx Səfi və Şeyx Zahidin həyat və fəaliyyətlərini təsvir edərkən, onların mürid və xəlifələrindən ətraflı danışmır. Əsərdə danışılan hekayətlərdə *Ərdəbil, Gilan* bə bir çox yerlərin ictimai-iqtisadi və coğrafi durumu ilə bağlı məlumatlar da nəzərə çarpır. Bəhs edilən dövrdə *Azərbaycan əhalisinin* güzəranı, əkinçilərin və müxtəlif vilayətlərin, xüsusilə *Ərdəbil və ona yaxın kəndlərin* vəziyyəti çox sadə şəkildə təqdim olunur. Əsərdə Ərdəbil şəhəri barədə birbaşa məlumata yer verilməsə də, hekayələrdə şəhər haqqında bir sıra faktlar qeyd edilir. Şeyx Səfiəddin zamanında şəhərin *Rəis Səd, Əsfəris, Nevşəhr, Fəqaiyan* v.s. adlı çox darvazası olmuşdur (15, s.19).

Əsər dini məzmun daşıdığı üçün buradakı şəxs adlarının böyük əksəriyyətini *ərəb mənşəli* adlar təşkil edir. Burada *"Quran"*dan götürülmüş adlara da geniş yer verilir, tarixi şəxsiyyətlərin, peyğəmbərlərin, islam dini alimlərinin, müqəddəs şəxslərin, habelə səhabələrin, təsəvvüf şairlərinin adları çəkilir, onların hikmətli sözləri, islam dini haqqında fikirləri şərh edilir.

*Dərviş Təvəkkül bin İsmayıl Bəzzaz "Səfvətüs-səfa"* adlı əsərini tamamladıqdan xeyli sonra, çox ehtimal ki, XV əsrdən etibarən ona dini-ideoloji, siyasi məqsədlərlə *əlavələr edilib yeni əlyazma nüsxələri tərtib edilmişdir.* Qulamrza Təbatəbai Məcdə istinad edən M.Nağısoylu bu barədə yazır: *"Səfəvilər sülaləsinin hökmranlığının ilk dövründə, xüsusilə də I Şah Təhmasibin zamanında "Səfvətüs-səfa"nın mətninə xüsusi göstərişlə açıq-aşkar müdaxilə edilmiş, kitaba Şeyx Səfiəddinin soykökündə seyidlik olması, Şeyxin şiə məzhəbinə mənsubluğu barədə hissələr artırılmış və əsərin qədim əlyazmaları qəsdən məhv edilərək, onun düzəliş edilmiş yeni variantının nüsxələri çoxaldılıb yayılmışdır*" (7, s.18).

Əsərin bir çox əlyazma nüsxələri zamanımıza gəlib çatmışdır. Onların bir qismi Səfəvi sülaləsi hakimiyyətə keçməmişdən əvvələ bir qismi isə sonrakı dövrlərə aiddir. "Səfvətüs-səfa"nı türk dilinə h.949 (1543)-cu ildə *Məhəmməd bin Hüseyn Katib Nişati* tərcümə etmişdir. O, tərcməsinin ikinci nüsxəsini isə h.950 (1544)-ci ildə hazırlamışdır. Onlardan birincisi Sankt-Peterburq nüsxəsi (Saltıkov-Şedrin adına kitabxana,şifir: Xanıkov,91), ikincisi isə Təbriz nüsxəsidir. (Milli kitabxana, Hacı Hüseyn Naxçıvaninin hədiyyə etdiyi əlyazmalar, №750). Bu istedadlı mütərcim "Şeyx Səfi təzkirəsi"nə yazdığı ön sözdə özü haqqında qısa məlumat vermişdir. Zamanın görkəmli tərcüməçisinin bioqrafiyası haqqında əldə olan digər mənbələrin heç birində məlumat yoxdur. Mütərcim özü haqqında yazır: *"Fəqirlərün bəndəsi və dərvişlərin ayağı torpağı Məhəmməd bin Hüseyn əlkatib yərəf be-Nişati kim, Şiraz şəhərində bir bucağda oturub, təmami-ovqatı dərvişlik ilən tanrının taət ilən ibadətinə keçürür və səlavatixəmsədən sonra həzrət şahi-ələmpənahun duasına kim, taəti cəmiyi-xəlayiqə vacibdir məşğul olur"* (7, s.7, 31). İbn-Bəzzaz tərcümə etdiyi əsərə yazdığı ön sözdə tərcümənin səbəbi haqqında da elmi əhəmiyyətli məlumat vermişdir.

O, bu barədə yazır: "*...mövlana Şeyx Sədrül-haqq vəl-millət vəd-din Musa rəvvəhəllahu ruhəhü dilindən nəql idi və həm ol həzrətün söhbətində fars dili ilən yazılmış idi və türk talibləri ilə sufilər parsi dili anlamazlar və məlum etmədügindən faidəsindən məhrum qalurlar, əgər türkcəyə dönsə, qamu türk müridləri, bəlkə bütün Türkistan adamları andan faidələr görərlər, bəqayət müstəhsəndür*" (7, s.33).

M.Nağısoylu yazır ki, "Şeyx Səfi təzkirəsi" haqqında ilk qısa bioqrafik məlumata Rusiya imperatorluğu *Elmlər Akademiyasının Sankt-Peterburq* şəhərində nəşr olunan *"Melanqes Asiatiqies"* bülletenin 1869-cu il sayında rast gəlinir. Burada əsərin türkcəyə bir tərcümə nüsxəsi haqqında məlumat verilir (7, s.4-5). İngilis şərqşünası Ç.Ryo da "Şeyx Səfi təzkirəsi"nin Britaniya muzeyindəki bir əlyazmasının adını "Səfvətüs-səfa"nını türkcəyə tərcüməsi kimi qeyd edir (11, s.281). Azərbaycan şərqşünaslarından S.Əlizadə əsərin *Sankt-Peterburq* şəhərindəki *Saltıkov-Şedrin* adına kütləvi kitabxanada saxlanılan bir əlyazması haqqında məlumat verərək, onu ilk dəfə şərti olaraq "Şeyx səfi təzkirəsi" adlandırmışdır (4, s.57-60).

**II. "Səfvətüs-səfa" əsərində Şeyx Səfiəddin ishaqın məzhəbi mənsubiyyətinə aid məlumatlar.**

Dərviş Təvəkkül bin İsmayıl Bəzzaz "Səfvətüs-səfa" adlı əsərini tamamladıqdan xeyli sonra, çox ehtimal ki, XV əsrdən etibarən ona dini-ideoloji, siyasi məqsədlərlə əlavələr edilib yeni əlyazma nüsxələri tərtib edilmişdir. Qulamrza Təbatəbai Məcdə istinad edən M.Nağısoylu bu barədə yazır: "*Səfəvilər sülaləsinin hökmranlığının ilk dövründə, xüsusilə də I Şah Təhmasibin zamanında "Səfvətüs-səfa"nın mətninə xüsusi göstərişlə açıqaşkar müdaxilə edilmiş, kitaba Şeyx Səfiəddinin soykökündə seyidlik olması, Şeyxin şiə məzhəbinə mənsubluğu barədə hissələr artırılmış və əsərin qədim əlyazmaları qəsdən məhv edilərək, onun düzəliş edilmiş yeni variantının nüsxələri çoxaldılıb yayılmışdır* (7, s.18). XV-XVI əsrlərdə "Səfvətüs-səfa"nın katiblər tərəfindən köçürülmüş əlyazma nüsxələrinə zamanın hökmdarlarının xüsusi göstərişi və bəzi hallarda isə köçürmə nüsxələrini hazırlayan katiblərin məzhəbi və etnik kimliyinə uyğun müdaxilələr edilmiş, Şeyx Səfiəddinin sünni, şiə məzhəbinə mənsubluğu haqqında hissələr artırılmışdır. "Səfvətüs-səfa"nın elmi-tənqidi mətnini hazırlayan Qulamrza Təbatəbai Məcd əsərə əlavələrində qeyd edir ki, "Səfvətüs-səfa"nın əlyazma nüsxələrindən birində Şeyx Səfiəddinin ona məzhəbi haqqında verilən suala buyurdu ki, *"əemme məzhəbindənik və imamları sevirik*" (15, s.1231). Şeyx Səfiəddinin belə bir cavabı ilə onun imami, yəni şiə olmasına işarə edilir. Əsərin altıncı babın ikinci fəslində isə Şeyx Səfiəddinin hansı məzhəbə etiqad etməsi haqqında göstərilir: "*Şeyxə sual etdilər ki, şeyxin məzhəbi nədir? Buyurdu ki, biz səhabə məzhəbindənik, hər dördünü sevirik və hər dördünə də dua edirik".* (15, s.886).Burada Şeyx Səfiəddin və onun müridlərinin Məhəmməd peyğəmbərin sözləri və davranışlarını özündə ehtiva edən hədisləri və onun səhabələrinin davranış tərzini haqq iman kimi tanıdıqlarına işarə edilir.

"Səfvətüs-səfanın XVI əsr türkcə tərcüməsinin Bakı 2010-cu il nəşrində isə Şeyx Səfiəddinin məzhəbi mənsubiyyəti haqqında qeyd edilir: *"Həzrəti Şeyxdən (q.s.) sual etdilər kim, nə məzhəbin var? Buyurdu kim, dərvişlərin məzhəbi Həqqin məzhəbidür və fərzənd gərək atasının məzhəbində ola. Çün dədələrimizin məzhəbi kim, siratül-müstəqimdür və mömin övliyalar ol yola varubdurlar və bir qılca Mustafa ilə Murtaza əleyhimossəlam vəttəkiyyət Əlikramun buyurduğundan çıxmayubdurlar, biz dəxi onların ardınca varub doğru yoldan dönməzüz, inşallah, bir yola varuruz kim, məşhərün günündə nəbi ilə vəsi və əhli-beytləri yanında xəcalət çəkməyəcəkuz*" (7, s.706).

Burada məzhəb və təriqətlər bir-birindən təcrid olunmuş şəkildə deyil, vahid dini ideoloji proses, yəni bütün məzhəblərin Haqqın (Allahın - Z. B, N.N) məzhəbi olması qəbul edilərək övliyalar kimi Şeyx Səfiəddin və onun müridlərinin Həzrəti Məhəmməd və Həzrəti Əli əleyhiməssəlama buyurulmuş *siratül-müstəqimi (ərəbcə - düz yol)* qəbul və əməl etməsinə işarə edilir. Ancaq onu da qeyd etmək lazımdır ki, "Səfvətüs-səfa"nın müxtəlif əlyazma nüsxələrində Şeyx Səflədinin dilindən onun hansı məzhəbdən olması haqqında dəqiq bir fikir bəyan edilmir. Dövrün motəbər qaynaqlarına əsaslanan M.Abbaslının da haqlı olaraq qeyd etdiyi kimi şərqdə çox mühüm kütləvi hərəkat

sayılan və milyonları özündə birləşdirən Səfəvilərin banisi və rəhbəri Şeyx Səfi müəyyən bir təriqətə bağlı və məhdud qalsaydı, şiəlik və sünniliyin müxtəlif qruplarını, beləliklə də sufi və irfan cərəyanlarına bağlı olanları Darul-İrşad ətrafında birləşdirə bilməzdi (8, s.290).

Məlumdur ki, XIII əsrdə Yaxın və Orta Şərqdə moğol işğallarının genişlənməsi və onların dağıdıcı hərəkətlərinə qarşı xalqların müqavimət hərəkatının gücləndiyi bir vaxtda yeni dini-ideoloji siyasi qruplar - *təriqətlər* yaranır, fəlsəfi və ilahiyyat məktəblərinin fəaliyyəti genişlənirdi. Məhz *Səfəviyyə "Sufi-dərviş"* təriqəti də belə bir tarixi şəraitdə yaranmış və moğollara qarşı müqavimət hərəkatının öncüsünə çevrildiyinə görə Azərbaycan və onun hüdudlarından kənarda da tezliklə dini-ideoloji və siyasi nüfuz qazanmışdı. Bu zaman Şeyx Səfiəddinin ayrıca bir məzhəbə etiqadı onun digər məzhəb daşıyıcıları içərisində nüfuzuna mənfi təsir göstərərdi və o, məzhəblər, təriqətlər fövqündə dayana, moğol ağalığına qarşı mübarizədə liderliyə sahib ola bilməzdi. Bir çox mənbələrdə onun bütün məzhəblər içərisində saysız-hesabsız müridinin olması onun ayrıca bir məzhəbdən olmadığını, bir təsəvvüf xadimi kimi onların fövqündə durduğunu isbat edir.

"Səfvətüs-səfa"nın altıncı babının ikinci fəslindəki hekayətdən görünür ki, əsərin əlyazma nüsxələrini hazırlayan katiblər Şeyx Səfiəddinin sufi təliminə şübhə ilə yanaşmamış və elə bu cəhətdən də ona ciddi müdaxilə etməmişlər. Əsərdə Şeyx Səfiəddinin *şəriət, təriqət, həqiqət* haqqındakı düşüncələri, yəni onun ideya təməlinin əsas müddəası əks edilmişdir. Şeyx Səfiəddinin dilindən bəyan edilir: *"Hər kimin şəriəti ola, təriqəti də var və kimin təriqəti ola həqiqəti də var və hər kimin ki, şəriəti olmaya nə təriqət nə də həqiqəti yoxdur"*(15, s.887). Bu tezis sufi təlimindəki mərhələlərlə özünü kamilləşdirmə, Allaha yaxınlaşma yolu olub Şeyx Səfiəddinin sufi-salik və təsəvvüf piri olduğunun bəlli göstəricisidir.

XIII-XIV əsrlərdə *Ərdəbil* Güney Qafqaz, Orta və Yaxın Şərqdə moğol istilaları və ağalığına qarşı hərbi-siyasi məfkurəvi-məsləki mübarizənin mərkəzinə çevrilmişdi. Bu zaman Yaxın və Orta Şərq ölkələrində xalqların istiqlaliyyət uğrunda mübarizəsini özündə əks etdirən sufi-dərviş cəmiyyətləri əsarətdə olan xalqların maraqlarından çıxış edərək geniş fəaliyyətə başlamışdılar. Ölkələrdə hökm sürən ictimai intizamsızlıqlar, yoxsulluq, insan təhlükəsizliyinin olmaması, əhali üzərində olan qorxu və dəhşət təsəvvüf hərəkatının gündən-günə genişlənməsinə təkan verirdi. Ərdəbildə sufi-dərviş təriqətinin yaradıcısı Şeyx Səfiəddin İshaq da moğol padşahları zamanında ortaya çıxmışdı. O, qutlu məqama, yüksək kəramət, mənəvi zənginliyə, sadə həyat tərzinə sahib təsəvvüf lideri olduğuna görə dövrün moğol hakimləri ona ehtiramla yanaşmağa məcbur olmuşdurlar. O, zamanın moğol hakimlərini xalqa zülmümdən də çəkindirə bilmişdi.

"Səfvətüs-səfa"da göstərilir ki, sultan *Qazan xan* Gilan sepahbudu Məlik Əhmədı həbs etdirmişdi. Onun günahlarının bağışlanaraq azad edilməsinə kömək etməyi *Şeyx Zahiddən* xahiş etdilər. Şeyx Zahid Şeyx Səfiəddin və oğlu *Camaləddin Əlini* Ucana padşah Qazan xanın yanına göndərib onun günahlarını bağışlayıb azad edilməsini xahiş edir. Qazan xan Şeyx Zahidin xahişi ilə onu azad edir (15, s.149). "Səfvətüs-səfa"dakı bir çox hekayələrdə Şeyx Səfiəddin haqqındakı məlumatlardan aydın olur ki, Şeyx Zahid Gilani müridi Şeyx Səfiəddinin xalq arasında böyük nüfuz sahibi olduğunu və onun nüfuzundan İlxanlı hökmdarlarının çəkindiklərini bilirdi və bu səbəbdən də Məlik Əhmədin azad etməsi üçün Qazan xanın yanına onu göndərmişdi.

Şeyx Səfiəddinin xalq içərisindəki şöhrəti, dini-ideoloji fəaliyyəti haqqında əsərində müxtəsər məlumat verən *Yəhya bin Əbdüllətif Qəzvini* yazır ki, o, zamanın *vəlisi (Allaha yaxın olan adam,sufilikdə kamillik dərəcəsinə yetişmiş adam,sufi müqəddəsləri-Z.B.,N.N), dövranın qütbü (sufi övliyalarının rütbəsi,sufi mərhələrində baş övliya,istinad nöqtəsi-Z.B.,N.N.), mürşidi-kamil* idi. *Xalqa doğru yol göstərən təriqət başçısı Şeyx Səfiəddin Əbül-İshaq moğol Çingizi padşahları (İlxanlılar - Z.B, N.N) dövründə zühur etmişdi. Moğol tayfaları o həzrətə tam inanır və etiqad edirdilər. O, moğol qövmünü bir çox adamlara zülm etməkdən çəkindirmişdi.* (16, s. 231-232). Digər farsdilli qaynaq olan "*Xolde-bərin*"də də göstərilir ki, *o dövrdə dünyaya başçılıq edən dünya şöhrətli padşahlar onun söhbətinin gətirdiyi səadəti idrak etmək üçün xanəgahına gəldikdə icazə al-*

*madan müqəddəs və uca xəlvətxanasına qədəm qoymağa cəsarət etmir, qəbulunda olduqda o zatın əzəmətindən danışa bilmirdilər. Cahangir Çingiz xan nəslindən olan moğol padşahları (İlxanlar) o həzrətin bir işarəsi ilə çoxlu adamları tənbeh və cəzadan azad edirdilər.*(14, s.32). Bununla yanaşı digər İlxanlı dövrünə aid qaynaqlarda olan məlumatları da təhlil edən M.Mazzaui Şeyx Səfiəddinə Moğol hakimləri tərəfindən hörmət və ehtiram göstərdikləri nəticəsinə gəlmişdir (10, s.46).

### *III. "Səfvətüs-səfa" əsərində Şeyx Səfiəddin İshaqın etnik mənsubiyyətinə aid məlumatlar*

"Səfvəts-səfa"ya müdaxilə zamanı əsərin ilk fəslində Şeyx Səfiəddinin nəsəbinə əlavə edilmiş şəcərə cədəlində göstərilir; Əbülfəth Səfiəddin İshaq ibn əs-Seyyid Əminəddin Cəbrayıl ibn əs-Seyyid Saleh ibn əs-Seyyid Qütbəddin Əhməd ibn əs-Seyyd Səlahəddin Rəşid ibn əs-Seyyid Məhəmməd əl-Hafyiz Kəlamüllah ibn əs-Seyyid Əvəz əl-Xəvas ibn əs-Seyyid Firuzşah Zərrinkülah ibn əs-Seyyid Məhəmməd əs-Seyyid Şərəfşah ibn əs-Seyyid Məhəmməd əs-Seyyid Həsən ibn əs-Seyyid Məhəmməd ibn əs-Seyyid İbrahim ibn əs-Seyyid Cəfər ibn əs-Seyyid Məhəmməd ibn əs-Seyyid İsmayıl ibn əs-Seyyid Məhəmməd ibn əs-Seyyid Əhməd əl-Ərabi ibn əs-Seyyib Əbu Məhəmməd əl-Qasim ibn əs-Seyyid Əbülqasim Həmzə ibn imam əl-hümam Musa əl-Kazim ibn əl-imam Cəfər əs-Sadiq ibn əl-İmam Məhəmməd əl Bağır ibn əl-İman Əli Zeynəlabidin ibn əl-İmam əs-Seyyidüş-şühəda əbi Abdullah əl-Hüseyn ibn əl-əmirəlmöminin və imaməlmüttəqqin Əsədüllahülgalib *Əli ibn əbi-Talib* (səfəvatüllah və səlamühü əleyhim əcəmin). (7, s.46; 15, s.70). "Səfvətüs-səfa"nın XV-XVI əsrlərdə köçürülmüş əlyazma nüsxələrinə Səfəvi sülaləsinin "İlahi şahlıq haqlarını", yəni hakimiyyətlərinin legitimliyini əsaslandırmaq üçün nəsillərinin Əli ibn Əbutalib ilə bağlayan şəcərə cədvəli əlavə edilmişdir. Görkəmli tarixçilərdən V.V.Bartold, O.Əfəndiyev, Q.T.Məcd və hətta Əhməd Kəsrəvi də Səfəvilərin əcdadlarının seyidliklə bağlı olmadığını elmi cəhətdən əsaslandırmışlar. "Səfvətüs-səfa"nın sonrakı köçürmə nüsxələrinə belə bir nəsil şəcərəsi dini-ideoloji, siyasi məqsədlərlə əlavə edilmişdir. "Səfvətüs-səfa"nın mətninə xüsusi göstərişlə müdaxilə edilmiş, kitaba Şeyx Səfiəddinin soyunda seyidlik olması, Şeyxin şiə məzhəbinə mənsubluğu barədə hissələr əlavə edilərək əsərin qədim əlyazmaları məhv edilmiş və onun əlavələr edilmiş yeni nüsxələri çoxaldılıb yayılmışdır (13, 748; 3, s.37;, 15, s.20-25; 17, s.35-37; 7, s.18; 1, s.10)

*"Səfvətüs-səfa"ya göstərilən nəsəbnamə əlavə edilərkən əsərin avtoqraf nsxəsində Şeyx Səfiəddinin trk kimliyi haqqındakı faktlar diqqətdən kənarda qalmış və onlara toxunulmamışdır.Əsərin katiblər tərəfindən köçürülən bütün nüsxələrində bu faktlar yazıya alınmışdır.Qaynağın beşinci fəslindəki hekayətlərdə Şeyx Səfiəddinin Şiraz səfərinin məqsədi və onun etnik kimliyi təsvir edilmişdir:...* Şeyxin Məhəmməd (r.ə.) adlı varlı-dövlətli qardaşı *Şiraz və Hörmüz* tərəfə ticarətə etmişdi. (O) Şirazla Hörmüz arasında *Pork və Tarom* vilayətində Allahın qəzasından isti səmum küləyindən həlak olmuşdu. Və digər qardaşı *Səlahəddin Rəşid* (r.ə.) də onun malı və əsbabı ilə ticarə həvəsinə Şiraza getmişdi. Şirazda anbardar Əminəddinin qızı ilə evlənmişdi və orada sakin olmuşdu. O vaxtdan uzun müddət keçmişdi. Onun aqibətindən xəbər tutmaq və onu geri qaytarmaq üçün anasından Şeyx (q.s.) Şiraza getməyə icazə aldı. Bu zahirən bəhanə olub, əsas məqsədi özünə mürşüd tapmaq idi. ..Şeyx (q.s.) eşitmişdi ki, Şirazda Şeyx *Nəcibəddin Bozquş* (r.ə.) adlı nəcib bir övliya var və onun səs-sədası bütün məmləkətlərə yayılmışdır (15, s.95; 7, s.63). ...Şeyx Səfiəddin anasından icazə alıb Şiraza gəldikdə artıq Şeyx Nəcibəddin Bozquş vəfat etmişdi (15, s.97). Şeyx Nəcibəddin Bozquş (?–1280) - hicri yeddinci əsrin ariflərindən olub, onunu atası Şamdan Şiraza gəlmişdi. Şeyx Nəsibəddin Bozquş da Şirazda anadan olmuşdu. O, əslən Azərbaycan türkü olub, məşhur Azərbaycan filosofu, görkəmli sufi Şihabəddin Əbülfəth Yəhya Həbəş oğlu Sührəvərdinin (1145-1234) tələbəsi və davamçısıdır. Onun əlindən xirqə (dərviş libası) geyinib, xanəgah tikdirib insanlara doğru yol göstərməklə məşğul olmuş, bütün var-dövlətini füqəra və yoxsullara sərf etmişdir. Şeyx Nəcibəddin Bozquş türkcə "İki ayna ortasında bir alma" adlı əsərin müəllifidir. Onun bu əsəri ona verilən irfani suallara müdrik cavabları özündə əks etdirir (15, s.1252).

*Qaynaqda qeyd edilir:* ...Bir gün Şeyx (q.r.) oturarkən mehrab yarıldı və bir kimsə oradan çıxıb ey ***türk piri (ای پیر تُرک)*** deyə xitab etdi. O zaman Şeyxə (q.s.) ***türk piri (پیر ترک)*** deyirdilər (15, s.100). ... (Şeyx Səfiəddin Şirazda din və irfan sahibləri olan dərvişlərlə həmsöhbət olub məqsədini onlara bildirdikdə, onlar məsləhət görürlər ki, Əmir Abdullanın yanına gedib halını ona anlatsın). O, *Əmir Abdullanın* yanına gedib halını ona anlatdıqda, Əmir Abdulla rəhmətullah başını aşağı dikib uzun müddət sakit qaldıqdan sonra, başını qaldırıb ona dedi: "***Ey türk piri****, bizim alicənablıq quşu buraya qədər uçmayıbdır. Əgər onu kəşf etmək istəsən, bu gün onu vilayətin bazarından əldə edə bilərsən, ancaq sənin böyük müamilən bizim bazarda ələ gələ bilməz və bizim bu haldan xəbərimiz yoxdur*". ...Əmir Abdulla onun halını (dəyişdiyini) görüb, ona deyir*: "**Ey türk piri!** Nə şərq, nə də qərb aləmində heç kim sənin hal və vaqiətini həll edə bilməz. Belə bir şəxs **Şeyx zahid Gilanidən** (q.r.) savayı yoxdur"* (15, s.105). ... (Şeyx Səfiəddin Əmir Abdullaha Şeyx Zahidi nə tanıdığını, nə də yerini bilmədiyini söylədikdə, Əmir Abdullah ona Şeyx zahidin xanəgahının *Xəzər sahilində Gilanda* olduğunu bildirmiş və o, yola düşməzdən əvvəl *Şeyx Sədi* ilə vidalaşmaq üçün onun yanına gedir). Hekayət. ...Bu zaman (Şeyx Zahid) əshabələrinə buyurdu ki, "***Bu türk piri*** səfərə varur, xeyir-dua ilə hədiyyələr həzrətinə isar etmək vacibdir". Ancaq Şeyx onların hədiyyələrini, nə də Şeyx Sədinin divanını qəbul etməyib ona deyir: "*Tanrının divanından qəlbim ol qədər doludur ki, özgə divanı ona sığmaz və sənin divanınla Tanrıya yetmək olmaz"* (7, s.73; 15, s.107). Bu söhbətlərdən məlum olur ki, artıq Şeyx Səfiəddin sufilik nəzəriyyə və təcrübəsinə sahib olmaqla füqəralığ özünün nəsibi kimi qəbul etmişdi). Qeyd edilən hekayətlərdə Şeyx Səfiəddinin türk piri, cavan türk adlandırılması onun və soyunun türk olmasının bəlli göstəriciləridir. Mənbələrdə qeyd edildiyi kimi Şeyx Səfiəddin şirazlı Əmir Abdullahın məsləhəti ilə sufiliyin nəzəri əsaslarını mükəmməl öyrənmək üçün Gilana zamanının görkəmli sufi şeyxi Şeyx Zahid Gilaninin mübarək hüzuruna gəlmişdir.N.Musalı araşdırdığı "Tarix-i aləmara-yi Şah İsmayıl" adlı qaynaqda Şeyx Zahidin mürşidliyini qəbul edən Şeyx Səfiəddinin adı çəkilən əsərdəki soykökü ilə bağlı faktlara istinad edərək ona burada ilk gündən "türk gənci" deyə müraciət edildiyini yazır.Mənbədə qeyd edilir: "Bayram (ramazan) günü müüridlər gördülər ki, şeyx türk gəncin əlindən tutub evdən çıxdı" N.Musalı bu qəbildən olan bir çox digər mötəbər faktlara istinad edərək Şeyx Səfiəddinin Ərdəbilin köklü türk nəsillərindən olduğunu elmi baxımdan əsaslandırmışdır (6, s.89,90).

XVI-XVII əsrlərinin bir çox farsdilli qaynaqlarında qeyd edilir ki Şeyx Səfiəddin ayrılıq aləminin yaxınlaşdığını hiss etdikdə, kəramət ailəsinə mənsub olan və hidayət yolunun yolçularını vəsiyyəti üçün bir yerə toplayıb irşad və etiqadın vilayət mənsəbinə öz əziz oğlu Şeyx Sədrəddin Musanı canişin edib, bütün övlad və əshabına o həzrətin tabeçiliyində durmalarını, din alimlərinə hörmət və ehtiram etmələrini, şeyxlik təriqətini davam etdirmələrini, süfrə açıb fəqir və ehtiyacı olanlara ehsan verməlarini vəsiyyət etmişdi (5, s.53; 14, s.32-35). Yəhya bin Əbdüllətif Qəzvini yazır ki, o həzrət (Şeyx Səfiəddin) sübh namazından sonra 12 məhərrəm h 715-ci ildə (m.1334) Sultan Əbusəid xan zamanında Darülirşadda fani dünyaya vida edib, əbədi dünyaya köçdü, sadiq xələfi insanlara yol göstərən həqiqət sultanı Şeyx Sədrəddin Musa tərəfindən Ərdəbildə Səfəviyyə dərgahında inşa edilmiş həzirəsində (sərdabə) dəfn edildi. Onun vəfatından yeddi gün sonra ömürgün yoldaşı Bibi Fatimə də vəfat edir (16, s.384,385; 15, s.759, 982-985).

**Nəticə.** İbn Bəzzazın "Səfvətüs-səfa" əsərinin müxtəlif əlyazma nüsxələrinin təhlili göstərir ki, əsərin ilkin versiyasında Şeyx Səfiəddin İshaqın etnik mənsubiyyətini açıq şəkildə türk kimi təqdim edilmişdir. Mətnin əsli və qədim nüsxələrində onun *türk piri* kimi tanınması, türkcə danışması və türklərin kompakt şəkildə yaşadığı Azərbaycanda fəaliyyət göstərməsi onun türk etnik kökünün əsas göstəricilərindəndir. Bu faktlar əsərdə yer alan hekayətlər və müridlərinin ona "türk piri" deyə müraciət etməsi və təqdim olunan digər faktlarla da öz təsdiqini tapır.

Lakin XV-XVI əsrlərdən başlayaraq, xüsusilə Səfəvi dövlətinin siyasi və dini legitimliyini möhkəmlətmək məqsədilə "Səfvətüs-səfa"nın mətninə ciddi müdaxilələr edilmişdir. Bu müdaxilələr nəticəsində əsərə *seyidlik şəcərəsi* əla-

və olunaraq, Şeyx Səfiəddinin nəsli *İmam Əli ibn Əbutalibə* bağlanmışdır. Bu nəsil şəcərəsi və məzhəbə dair əlavələr əsərin qədim nüsxələrinin məhv edilməsi və yenidən redaktə olunmuş variantlarının yayılması ilə müşayiət olunmuşdur. Belə dəyişikliklərin məqsədi Səfəvi sülaləsinin siyasi hakimiyyətini dini əsaslarla legitimləşdirmək və şiə məzhəbinə aidiyyətini vurğulamaq olmuşdur.

Bununla belə, mötəbər tarixçilər və tədqiqatçılar - V.V. Bartold, O. Əfəndiyev, Q.T. Məcd, M.Abbaslı, N.Musalı və digər alimlər - Səfəvilərin seyidliyini elmi dəlillərlə əsassız hesab etmiş, onların əslində türk mənşəli olduqlarını vurğulamışlar. Bu da sübut edir ki, əsərə əlavə edilən seyidlik şəcərəsi siyasi-ideoloji məqsədlə sonradan formalaşdırılmışdır.

“Səfvətüs-səfa”nın təhlili göstərir ki, Şeyx Səfiəddinin dini və sufiliyə dair ideyaları məzhəblərdən üstün, universal bir yol kimi təqdim olunur; burada məzhəblərarası fərqlər yox, Allah yolunda birlik və kamillik vurğulanır. Bu, əsərin sufi-dərviş ənənəsinə aid olduğunu və Şeyx Səfiəddinin geniş miqyasda sufiliyin nəzəri və praktik əsaslarını inkişaf etdirdiyini göstərir.

Nəticə etibarilə, “Səfvətüs-səfa” əsərində Şeyx Səfiəddin İshaqın etnik və dini kimliyi tarixi kontekstdə çoxqatlıdır. Onun türk mənşəli sufi şəxsiyyəti əsərin ilkin mətni və qədim nüsxələrində aydın görünür. Lakin siyasi və ideoloji səbəblərlə əsərin sonrakı nüsxələrinə dini legitimlik üçün seyidlik və şiə məzhəbinə aidiyyət əlavə edilmişdir. Hesab edirik ki, bu tendensiya orta əsr Azərbaycan və İran coğrafiyasında hakimiyyət və din arasındakı qarşılıqlı münasibətlərin təzahürüdür

**Ədəbiyyat siyahısı**

1. Bayramlı Z. “Silsiləsün-nəsəbi səfəviyyə” əsəri Azərbaycan tarixinin mənbəyi kimi. Bakı: 2019.

2. Bayramlı Z. Azərbaycan Səfəvi imperatorluğu: Dövət quruluşu. Bakı: 2020.

3. Əfəndiyev O. Azərbaycan Səfəvilər dövləti. Bakı: 2007.

4. Əlizadə S. «Şühədənamə»də adlar (isim, sifət, say, əvəzlik). Nam.diss. Bakı: 1966.

5. İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi. I cild. Farscadan tərcümənin, ön sözün, şərhlərin və göstəricilərin müəllifləri: O.Ə. Əfəndiyev və N.S. Musalı. Bakı: Təhsil, 2009

6. Musalı N. I Şah İsmayılın hakimiyyəti (“Tarix-i aləm-ara-yi Şah İsmayıl” əsəri əsasında). Bakı: 2011.

7. Şeyx Səfi tərkirəsi ("Səfvətüs-səfa"nın XVI əsr türk tərcüməsi). Tərtib və nəşrə hazırlayan: Nağısoylu, M., Cabbarlı, S., Şeyxzamanlı, R. Bakı: 2010.

8. Abbaslı M. Safevîler’in kökenine dair // Türk Tarih Kurumu: “Belleten”, sayı: 158, Ankara, 1976 (Nisan), s. 287-329.

9. Browne E.G. A History of Persian Literature in Modern Times (A.D.1500–1924). Cambridge University Press, 1924.

10. Mazzaoui M.M. The Origins of the Safavids. Wiesbaden: 1971.

11. Rieu, C. Catalogue of the Turkish manuscripts in the British Museum. London: 1988.

12. Savory R.M. Iran under the Safavids. Cambridge University Press, 1980.

13. Бартольд В.В. Сочинения, том II, часть I. Москва: Востлит, 1963.

14. اصفهانی، م. ی. خلد برین، ج۱، ص۲-۵، چاپ میرهاشم محدث، تهران، ۱۳۷۲.

15. درویش توکلی بن اسمعیل بزاز. صفاه الصفا. مصحح: غلامرضا طباطبای مجد. تبریز: ۱۳۷۳

16. القزوینی، ی. ب. لب التواریخ. تصحیح: سید جلال الدین طهرانی. تهران: نشریات موسسه خاور، ۱۳۱۵.

17. کسروی، ع. شیخ صفی و طبرش. تهران، ۱۳۲۴.

## Summary

**Zabil Bayramli, Nurlan Nasirov**

**Ibn Bazzaz Ardabili's *Safvat al-Safa* ("The Purity of Purities"): The Question of Shaykh Safi al-Din's Sectarian Affiliation and Ethnic Identity**

This study explores the sectarian affiliation and ethnic identity of Shaykh Safi al-Din Ishaq Ardabili, regarded as the founder of the Safaviyya Sufi order and a key figure in the development of Azerbaijani Sufism in the 13th–14th centuries. The primary source for this investigation is *Safvat al-Safa*, a hagiographic biography written by Ibn Bazzaz Ardabili. Although composed in a hagiographic style, the work is a rich repository not only of Sufi metaphysics but also of the religious and sociopolitical context of the period. This paper examines the structure of the text, the identity and background of the author, the ideological orientation of the source, and its sectarian terminology. Special attention is paid to the debates surrounding Shaykh Safi al-Din's madhhab (legal school affiliation) and ethnic origin. These issues are evaluated based on internal textual evidence and historical analysis, supported by logical argumentation. The findings suggest that *Safvat al-Safa* is of not only spiritual and legendary importance but also significant ethno-historical value. The text offers relatively clear and coherent information regarding Shaykh Safi al-Din's religious and ethnic identity, especially when analyzed in comparison with other contemporary and later sources

***Keywords**: Safvat al-Safa, Shaykh Safi al-Din Ardabili, Ibn Bazzaz, Safaviyya Order, sectarian affiliation, ethnic identity*


## Резюме

**Забил Байрамлы, Нурлан Насиров**

**Трактат Ибн Баззаза Ардебили «Сафват ас-Сафа» («Чистота чистоты»): вопрос конфессиональной принадлежности и этнической идентичности шейха Сафи ад-Дина**

В статье рассматривается вопрос конфессиональной принадлежности и этнической идентичности шейха Сафи ад-Дина Ишака Ардебили – основателя суфийского ордена Сафавийя и ключевой фигуры в истории азербайджанского суфизма XIII-XIV вв. Основным источником исследования служит агиографический труд «Сафват ас-Сафа», написанный Ибн Баззазом Ардебили. Несмотря на агиографический стиль, данный труд представляет собой не только отражение суфийской мысли, но и ценнейший источник по религиозному и социополитическому контексту эпохи. В статье анализируются структура текста, личность и идейные установки автора, терминология, связанная с мазхабом, а также идеологическая направленность источника. Особое внимание уделено научным дискуссиям вокруг мазхабной принадлежности и этнического происхождения шейха Сафи ад-Дина. Эти вопросы рассматриваются на основе внутреннего анализа текста, сопоставления с историческими фактами и логических аргументов. В результате авторы приходят к выводу, что «Сафват ас-Сафа» обладает не только духовно-легендарной, но и значительной этно-исторической ценностью. Текст содержит достаточно чёткие и последовательные сведения о конфессиональной и этнической идентичности шейха Сафи ад-Дина, особенно в сравнении с другими современными и более поздними источниками.

***Ключевые слова:** Сафват ас-Сафа, шейх Сафи ад-Дин Ардебили, Ибн Баззаз, орден Сафавийя, мазхаб, этническая идентичность*

UOT 902
https://doi.org/10.59849/2710-0820.2025.2.106

**Elmira Jafarova**
*Institute of Archaeology and Anthropology of the National Academy of Sciences of Azerbaijan*
*leading researcher, doctor of philosophy in history, associate professor*
*Azerbaijan*
*shirvan_baki@mail.ru*

# ARCHAEOLOGICAL RESEARCH IN ENYKH

***Keywords:*** *Azerbaijan, Gusar district, Enykh, research, archaeological excavations, defensive structure, burial monuments*

The village of Anig is located southwest of the Gusar district center of the Republic of Azerbaijan, on the right bank of the Gusar River, at the northeastern foot of the Greater Caucasus Side range, on the left side of the Gusar-Shahdag Olympic Sports Complex road, at an altitude of 1100 m above sea level (Fig. 1). Geographical coordinates of Anig (*Enykh*): 41° 34' 68. 26" N - 48° 22' 51. 76" E E [2, s. 1; 3, s.43-44].



**Figure 1. Image of Anig village on the map of Azerbaijan in Google Earth program**

A number of monuments have been preserved at different levels in the village of Enykh. I would like to note that no archaeological research was conducted in Enykh. In the 60s of the last century, archaeologist J.Khalilov gave brief information about the Enykh fortress [1, s. 93-94; 4]. In 2018, for the first time, the Guba-Khachmaz archaeological expedition of the Institute of Archaeology and Anthropology of the Azerbaijan National Academy of Sciences conducted exploratory research in Enykh. Our research had several directions. The first stage consisted of archaeological excavations in the Enykh fortress [2, s. 1-2; 3, s. 43-44]. In the second stage, it consisted of inspecting the surrounding areas and conducting preliminary research in the monuments belonging to the Middle Ages [2, s. 1-2].

It should be noted that Anig village is strategically located in a very favorable area. Therefore, it is no coincidence that the natural defenses were skillfully used when the fortress was built here. The ancient fortress did not occupy the entire area of the modern village, but only the southwestern part.

In general, this area resembles a peninsula surrounded by the Gusar River and its tributaries from the east, west and north. The area is bordered by mountains in the south. Once, it was possible to cross the Gusar River to the area where the fortress is located, and exit from the northwestern slope of the hill where the village is [2, s.1-10]. On the other sides, the rocks and cliffs that emerged by the fast-flowing waters of the Gusar River and its tributaries, as well as the mountains and ravines surrounding it, increased its defense capacity for many times.

The Anig fortress is located in the central part of the village. The fortress does not occupy the entire area, which is naturally so strongly defensible, but only a part of it [2, s.1-10]. The main gate of the fortress opens to the north, to the area where the village cemetery is located. A magnificent fortress wall was built in that area for defensive purposes. On the other sides, as we have mentioned, it was protected by natural barriers. Most of the fortress wall was later destroyed in connection with the construction of the village, and its stones were used as building material (Fig. 2).

Currently, two fragments of the fortress wall have been preserved in the village. The small fragment (Fig. 3) has not been studied archaeologically yet. The preserved height of the fortress walls is 9.3 m from the highest point and 5.8 m from the lowest point. Its width is 1.9-2 m from the main part, and 5.8 m from the door side (Fig. 2) [1, s. 94; 2, s. 1-12].

I would like to note that the archaeologist J.Khalilov localized the Abkhazian city mentioned in written sources, but not confirmed from an archaeological viewpoint, in the Enykh fortress [1, s. 96].



**Figure 2. General view of the Anig (Enykh) fortress.**

The main goal of the archaeological research conducted in the Enykh (Anig) fortress during the 2018 field research season was to define the period when this defensive structure was built [3, s. 43-44]. The exploration excavation area set up in front of the large fragment of the Anig fortress (Fig.2) was excavated to a depth of 2 m, from where samples of glazed and unglazed pottery were discovered and taken [2, s.1-2; 3, s. 43-44]. However, it was not possible to achieve the main goal, namely to discover the foundation of the fortification, due to objective reasons. According to the received information, when the village culture house was built next to this part of the fortress, the area of our excavation site was destroyed [2, s.2-3].



**Figure 3. Images of a small fragment of the Anig (Enykh) fortress.**

Among the ceramic samples discovered in the excavation site, the discovery of a copy from the early Middle Ages (inv. No. 21, photo 65) leads to the formation of new ideas in the investigation of the history of Enykh fortress [2, s. 4-10]. Thus, the discovery of a grave monument from the early Middle Ages during the research conducted around the fortress, also gives reason to come to such a conclusion. However, the fact that the foundation of the relevant period has not been uncovered yet it does not give us reason to make a definite opinion about it. That piece of pottery can also testify to the revival of life at the fortress site since the early Middle Ages [3, s. 43-44]. The date of the destruction of the Enykh fortress is very precisely determined based on the comparative analysis of the Georgian chronicle of the 14th century and Fazlullah Rashiduddin's work "Jāmiʿ al-Tawārīkh ('Compendium of Chronicles', also "Universal History")" (completed in 1310/11). It was known that this event took place in May 1288 [2, s .93-95].

As a result of research conducted around the Enykh fortress, a unique kurgan monument was recorded. The uniqueness of this kurgan is its magnificent appearance. The kurgan was discovered at the very edge of the steep Pachu rock, which is approximately 50-60 m high. When standing below the rock, the kurgan appears as a whole, complete landscape, as if it were a continuation of the rock. This was the purpose of erecting the kurgan on the rock [2, s. 1-4].

When reviewing the medieval monuments located in the village of Anig, I would like to note a few interesting points. According to the initial conclusion, the buildings with square walls and conical roofs located around the old graves in the village of Anig are noteworthy (Fig. 4). These pirs have small windows and very small entrances in their walls. They are distinguished from each other by different names. For example, the name of the Dervish Baba pir can perhaps be interpreted as an indication that such pirs were built by alien people. The ideas about the purpose for which they were built can be resolved during future research [2, s. 1-6].

An interesting find was discovered in the ancient cemetery of Enykh. On one of the tombstones recorded here, two crosses were inscribed side by side and Arabic writing was inscribed below the crosses. Besides, another tombstone with three crosses inscribed side by side was discovered. According to the information received, in ancient times along with Muslims also Christians lived in the village of Enykh. The depiction of a cross sign on a bronze ring-seal previously found in an early medieval tomb monument also confirms the afore-said [2, s. 1-6]. Those Christians later converted to Islam. So far, no such monument has been found in the territory of Azerbaijan. This monument is of exceptional importance in studying the problems of Azerbaijani multiculturalism.



**Figure 4. Conical shaped buildings**

Ceramic or pottery ware

During archaeological excavations around the fortress, ceramic fragments were discovered. Ceramic ware mainly consists of two parts - unglazed and glazed.

Statistical analysis of unglazed ceramics shows that there are many kitchen and tableware and chronologically covers the 9th-13th centuries. Unglazed ceramics are mainly represented by body parts, heel and handle fragments. Among them, a fragment of the handle of an unglazed pottery vessel is noteworthy (Fig. 5: 8).

The color of the clay is dark brown, almost black. The composition is pure, well-fired. The handle is flat, ribbon-like. Such handles are typical of the Shirvan ceramic school. The thickness of the handle is 0.8 cm, the width is 2.1 cm. A fragment of the handle of an unglazed pottery vessel (Fig. 5:13). The color of the clay is light brown. The composition is pure, well-fired [2, s. 7-12]. There are fingerprints on it. The handle is ribbon-like. The thickness of the handle is 1.1 cm, the width is 3 cm.

A fragment of the second unglazed pottery vessel is of pure composition. The color of the clay is light brown, well-fired. The mouth is folded outwards (Fig. 5: 9). The height of the folded part of that mouth is 1 cm, the width is 1.3 cm, and the wall thickness is 0.6 -0.7 cm [2, s. 7-12].

Glazed pottery fragments are mainly represented by tableware: mouth, body parts, handles. Body parts are distinguished by several fragments. For example, they are mainly brown in color. Glazed ceramics are mainly glazed with white angon, yellow, green glaze. Many of the patterns consist of floral and geometric images (Fig. 5: 1, 2, 3). Intact vessels were almost never discovered during excavations, mainly small samples were found. Glazed ceramics are mainly of pure composition, well-fired, the color of the clay is brown [2, s. 7-12]. They were formed on a potter's wheel. Brown glaze was first applied to it, and then it was patterned with white-yellowish glaze. The patterns are of a floral nature. However, since the pieces are small, it is impossible to fully follow the pattern (Fig. 5: 1, 2, 3). Some of them have a brown glaze on their upper surface, followed by a pattern composition of three lines resembling the rays of the sun, radiating from a point. The rays are marked with white-yellowish glaze (Fig. 5: 1) [2, s. 7-12]. The thickness of the wall is 0.5-0.7 cm. The fragments differ from each other. The upper surface of some pieces is covered with dark brown glaze that turns black. On the surface of it, a pattern consisting of a line and a dot is painted with yellow-white glaze. After that, the upper surface of the vessel, as seen from the fragment, is covered with transparent glaze. The thickness of the wall is 0.4 cm [2, s. 7-12].




**Figure 5. Enikh. Ceramic product. Scale varies.**

One of the exemplary pieces is a glazed pottery vessel. Its clay is brown in color. Its composition is pure (Fig. 5) [2, s. 7-12]. This piece has a different feature from the others. On one side of the pottery vessel fragment, the remains of a pattern drawn with white-yellowish glaze are observed, but the background of this pattern consists of the natural color of the pottery and is not covered with transparent glaze. On the other side, brown glaze was first drawn, and a pattern was depicted on it with yellow-whitish glaze. As can be seen, the pattern is drawn as a decoration resembling a net consisting of rhombic elements. After all the work was completed, this surface of the vessel was covered with transparent glaze (Fig. 5: 3). The wall thickness is 0.5-0.6 cm, the width of the pattern line is 0.2 cm, and the length of one side of the rhombus is 1.5 cm [2, s. 7-12].

There are also fragments distinguished by patterns. For example, a piece of glazed pottery (Fig. 5). On its upper surface, brown glaze is observed, and above it, a trace of a certain ornamentation, marked with light-colored glaze, is observed. This side of the vessel is covered with transparent glaze. The thickness of its wall is 0.4 cm [2, s. 7-12].

Among the finds is a fragment of a small handle of a glazed pottery vessel (Fig. 5: 4). The color of the clay is brown. It contains a small amount of impurities. The handle of the glazed vessel has a ribbon-like shape. Its cross-section is oval. The top and bottom of the handle are covered with brown glaze. There is a narrow, not very deep groove on it. Besides, traces of a not very clear, pattern-like image drawn with white-yellowish glaze are observed. The thickness of the handle is 0.9 cm, the width of the handle is 1.3 cm [2, s. 7-12].

A fragment of the seat of a glazed pottery vessel (Fig. 5: 6). The color of the clay is brown. The composition is pure. It was thrown on a potter's wheel, well-fired. Unlike the previous fragments, the vessel is covered with turquoise glaze, on which are traced plant images covered with black glaze (Fig. 5: 6).

A fragment of the mouth and body of a glazed monochrome vessel is also noteworthy. The monochrome ceramics are glazed with green glaze. Such monochrome vessels are consistent with the Shirvan ceramic school.

**The conclusion**

Initial research conducted in Enykh has led to the emergence of a new idea that the Enykh fortress was built in the early Middle Ages. The

fact that the village was active in the early Middle Ages is evident from the early medieval grave monuments and ceramic products.

In the future, extensive research around the Enykh village and the fortress will reveal interesting scientific facts that will allow us to study in detail both the history of the foundation of the village and the exact period when the fortress was built.

## References


1. Xəlilov, C.Ə. Enıx qalası // - Bakı: Azərbaycan SSR Elmlər Akademiyasının Məruzələri, -1962. 4 (18). - s.93-95.
2. Xəlilov, M.C. Quba -Xaçmaz ekspedisiyasının 2018-ci il çöl tədqiqatların hesabatı / M.C. Xəlilov, E.B. Cəfərova // AMEA Arxeologiya və Antropologiya İnstitutunun Elmi Arxivi, H-889, vərəq 1-12.
3. Xəlilov M.C., Cəfərova, E.B. Enıx (Əniq) qalası (Qusar rayonu) və II Sandıqtəpə (Quba rayonu) abidələrində çöl-tədqiqatları nəticəsində əldə edilmiş yeniliklər // Heydər Əliyevin hakimiyyətə gəlməsinin 50 - illiyinə həsr olunmuş "2018-ci ildə Azərbaycanda aparılmış arxeoloji və etnoqrafik tədqiqatların yekunları" mövzusunda Elmi sessiyanın materialları - Bakı: - 12 iyun. - 2019. - s. 43-44.
4. Халилов, Дж. Археологические памятники Северо-Восточного Азербайджана / Дж. Халилов, К.О. Кошкарлы, Р.Б. Аразова. - Баку: Элм. -1991. - 216 с.


Acknowledgments. The author expresses his sincere gratitude to the head of the Guba-Khachmaz expedition, Doctor of Philosophy in History (PhD) M. J. Khalilov for the opportunity to publish the material.


## Xülasə

**Elmira Cəfərova**

**Enıxda arxeoloji tədqiqatlar**

Məqalədə Enıxdakı arxeoloji abidələrin öyrənilməsinə baxılır. Məlumdur ki, tədqiq olunan ərazi orta əsrlər dövründə Şirvanşahlar dövlətinin tərkibində olmuşdur. Şirvanşahların siyasəti dövlətin müdafiə qüdrətini gücləndirməyə və çoxkonfessianallıq ənənələrinə riayət etməyə yönəlmişdi. Enıx qalası IX-XIV əsrlərdə fəaliyyət göstərmişdir. Qalanın erkən tarixinə dair yeni məlumatlar əldə edilmişdir. İlk dəfə olaraq qala ətrafındakı çox maraqlı qəbirlər tədqiq edilmişdir. Fərqli olaraq qəbir daşlardan birinin üzərində həm ərəb qrafikası ilə yazılmış yazı həm də bir xaç təsviri vardı. Bu, tədqiq olunan dövr üçün xarakterik olan müsəlman və xristian dinlərinin nümayəndələrinin birgə yaşayışının göstəricisidir.

Daha erkən dövrə aid abidələrin Enıxda qeydə alınması arxeoloji qazıntıların davam etdirilməsi və tədqiq olunan obyektlərin xronologiyasının aydınlaşdırılması üçün yeni imkanlar açmağa imkan verir.


***Açar sözlər:*** *Azərbaycan, Qusar rayonu, Enıx, tədqiqatlar, arxeoloji qazıntılar, müdafiə tikilisi*


## Резюме

**Эльмира Джафарова**

**Археологические исследования в Эныхе**

Рассматриваются исследования археологических объектов в Эныхе. Как известно, исследуемая территория в средневековый период входила в состав государства Ширваншахов. Одного из сильных государств, существовавших на северо-востоке Азербайджана. Политика

Ширваншахов была направлена на укрепление оборонной мощи государства и соблюдение традиций многоконфессиональности. Крепость Эных, несомненно, была частью единой фортификационной системы и функционировала в IX-XIV века. Были получены новые данные о ранней датировке крепости. Впервые были исследованы весьма интересные захоронения в окрестностях крепости. Отличительной особенностью погребений стало изображение пары крестов, на одном из надгробных камней ниже которых имелась надпись, выполненная арабским письмом. Это показатель совместного проживания представителей мусульманской и христианской конфессии, характерный для исследуемого периода.

Фиксация памятников более раннего периода в Эныхе открывает возможность пересмотра сложившихся концепций. Средневековое поселение Эных существовало на территории одноименного современного села, этот вопрос требует более тщательного исследования и тем самым создает стимул для продолжения археологических раскопок с целью уточнения хронологии изучаемых объектов.

***Ключевые слова:*** *Азербайджан, Гусарский район, Эных, исследования, археологические раскопки, средние века, оборонительное сооружение*

UOT 902
https://doi.org/10.59849/2710-0820.2025.2.113

**Nəcəf Müseyibli**
*T.e.d., professor, AMEA Arxeologiya və Antropologiya İnstitutunun şöbə müdiri*
*necef_museibli@mail.ru*

# AZƏRBAYCANIN ƏN QƏDİM DÖVLƏTÇİLİK TARİXİ ARXEOLOJİ TƏDQİQATLARDA

***Açar sözlər***: *arxeoloji tədqiqatlar, qədim dövlətlər, qalalar, qədim silahlar, iyerarxik cəmiyyət, Albaniya, Urartu yazıları*

**Giriş**. Azərbaycanda ən qədim dövlətlərin yaranma tarixi başlıca olaraq arxeoloji tədqiqatlar əsasında öyrənilir. Ənənəvi olaraq belə hesab edilir ki, Şimali Azərbaycan, yəni müasir Azərbaycan Respublikasının ərazisində ilk dövlət Albaniya olmuşdur və bu dövlət e.ə. IV əsrdə yaranmışdır. Belə bir fakt onunla əsaslanır ki, bu dövlət haqqında Antik dövrə aid müxtəlif dilli qədim yazılı mənbələrdə məlumatlar öz əksini tapmış, eyni zamanda arxeoloji qazıntılar nəticəsində də bu dövlətin şəhərləri və çoxsaylı qəbir abidələri tədqiq edilmişdir.

Şimali Azərbaycanda Albaniya dövlətinin yaranmasına qədərki bütün tarixi mərhələlər bir qayda olaraq ibtidai icma quruluşuna aid edilmişdir. Ən yaxşı halda e.ə. II minilliyin sonu - I minilliyin əvvəlləri ibtidai icma quruluşundan sinifli cəmiyyətə keçid, dövlətin ilk rüşeymlərinin yaranma mərhələsi kimi qiymətləndirilmişdir.

Şübhəsiz, hər hansı qədim dövlətin tarixindən bəhs edərkən ilk növbədə yazılı mənbələrə müraciət edilməlidir. Digər tərəfdən, Urartu yazılarındakı məhdud məlumatlar istisna olmaqla Şimali Azərbaycanın Albaniyaya qədərki daha qədim dövrlərə aid tarixi barədə yazılı mənbələrin olmaması səbəbindən həmin dövrlər yalnız arxeoloji qazıntılar əsasında öyrənilir. Eyni zamanda, həm Albaniya, həm də sonrakı Orta əsrlər dövrünün tarixini də arxeoloji qazıntılarsız mükəmməl öyrənmək qeyr-mümkündür. Onilliklər ərzində və xüsusilə də son zamanlar aparılan arxeoloji tədqiqatlar Şimali Azərbaycan ərazisində erkən dövlətçilik, idarəçilik ənənələrinin daha qədim tarixə malik olduğunu göstərir.

Albaniya dövlətinin yaranmasına gətirib çıxaran tarixi proseslər uzun mərhələlərdən keçmişdir.

**İyerarxiyalı cəmiyyətin ilk rüşeymləri**. Hələ Neolit dövründə − e.ə. VII-VI minilliklərdə bütün Cənubi Qafqazda, o cümlədən Azərbaycanda erkən istehsal təsərrüfatı təşəkkül tapmışdır. Sonrakı tarixi mərhələdə e.ə. V minilliyin ikinci yarısı – IV minilliyi əhatə edən Son Xalkolit dövründə istehsal təsərrüfatı daha da yüksəlmiş, Azərbaycanın qədim əhalisinin qonşu regionların tayfaları ilə mədəni-iqtisadi əlaqələri genişlənmişdir. Bu dövrdə Azərbaycan Yaxın Şərq sivilizasiyalarının tərkib hissəsi kimi inkişaf edirdi. Arxeoloji qazıntılar bu tarixi mərhələdə Azərbaycan ərazisində Leylatəpə arxeoloji mədəniyyətinin yayıldığını sübuta yetirmişdir (Нариманов, 1985). Bu dövrdə, yəni e.ə. IV minilliyin birinci yarısında Leylatəpə mədəniyyətinin sıx bağlı olduğu Yaxın Şərq əraziləri, yəni Şimali Mesopotamiya və Şərqi Anadolu erkən dövlətlərin yaranma ərəfəsində idi. Həmin regionlardakı bir sıra istehsal-idarəçilik ənənələrinin bir qismi Leylatəpə mədəniyyəti abidələri timsalında Arazdan şimaldakı Azərbaycan torpaqlarında da yayılmışdır (Müseyibli, 2020).

Bu mədəniyyətə aid abidələrdən aşkar edilmiş saxsı qabların bir qismi üzərində dulusçuların vurduqları işarələrə rast gəlinir. Bu isə kütləvi istehsal olan keramika hazırlanmasının xüsusi nəzarətdə olduğunu göstərir. Böyük Kəsik yaşayış məskənində (Ağstafa rayonu) möhürlər aşkar edilmişdir. Leylatəpə mədəniyyətinə aid sıravi, kasıb qəbirlərlə yanaşı xüsusi qaydada çiy kərpiclərlə qurulmuş qəbir kameraları və bu qəbirlərdə metal xəncərlər, qızıldan və gümüşdən düzəldilmiş bəzək əşyaları aşkar edilmişdir. Bütün bunlar hələ Xalkolit dövründə cəmiyyət-

də differansial, iyerarxik münasibələrin yarandığını göstərir (Müseyibli, 2020).

İlk Tunc dövründə – e.ə. III minillikdə Kür-Araz mədəniyyətinin də yayıldığı Urmiya hövzəsində, Şərqi Anadolu-Şimali Mesopotamiyada artıq sinifli cəmiyyətlər və erkən şəhər dövlətləri yaranmışdı.

Qarabağ, Gəncə-Qazax bölgələrində, Qəbələ rayonunda Kür-Araz mədəniyyətinin ilk mərhələsinə aid iri ölçülü qəbir kameraları olan, onlarla insanın dəfn edildiyi  kurqanlar tədqiq edilmişdir. Bu kurqanlarda eyni tayfanın və ya qəbilənin üzvləri müxtəlif vaxtlarda dəfn edilirdilər. Sonrakı mərhələdə – e.ə. III minilliyin birinci yarısından başlayaraq tək və ya qoşa dəfn adəti yayılmağa başlamışdır. Belə qəbirlərdə bəzən tuncdan hazırlanmış balta, xəncər və s. silahların, qızıldan və gümüşdən bəzək əşyalarının aşkar edilməsi sosial-iqtisadi təbəqələşmənin kifayət qədər dərin olduğunu və bu qəbirlərdə dəfn edilənlərin cəmiyyətin imtiyazlı üzvləri olduğunu göstərir. Buna bariz nümunə olaraq Ağstafa rayonunda tədqiq edilmiş həmin dövrə aid Həsənsu qəbir abidəsini göstərmək olar (Şəkil 1). Bu qəbirdə iki insan – kişi və qadın dəfn edilmişdir. Qazıntı zamanı kişi skeletinin ətrafında tuncdan hazırlanmış silahlar (xəncər, balta və s.), qadın skeletinin üzərində və ətrafında isə qızıldan, gümüşdən və qiymətli mineraldan hazırlanmış bəzək əşyaları (qolbaq, üzük, saç bəzəyi və s.) aşkar edilmişdir. Bu qəbir İlk Tunc dövründə bölgədə sosial-iqtisadi təbəqələşmənin kifayət qədər dərin olduğunu və burada dəfn edilənlərin cəmiyyətin imtiyazlı üzvləri olduğunu göstərir. Çox ehtimal ki, burada dəfn edilən kişi və qadın nigah münasibətlərində, ər-arvad olmuşdular (Müseyibli və b. 2012, s. 98-104).




**Şəkil 1. İlk Tunc dövrü Həsənsu qəbrindən aşkar edilmiş silah və bəzəklər**

**İlk dövlətçilik ənənələri**. Yaxın Şərqlə sıx iqtisadi-mədəni əlaqələr kontekstində inkişafın məntiqi nəticəsi olaraq artıq Orta Tunc dövründə − e.ə. II minilliyin birinci yarısında Naxçıvan və Qarabağ bölgələrində erkən şəhər tipli yaşayış məskənləri meydana çıxır. Müdafiə istehkamlarına malik bu şəhər yerlərində aparılan qazıntılar o dövrdə yüksək inkişafdan xəbər verir. Belə abidələr sırasında Naxçıvandakı II Kültəpə və Qarabağda, Ağdam rayonu ərazisindəki Üzərliktəpə abidələrini xüsusilə qeyd etmək lazımdır. Müdafiə divarlarına malik bu yaşayış yerləri hələ 3,5-4 min il əvvəl dövlətin erkən forması olan şəhər dövlətlərin Azərbaycanda yarandığını ehtimal etməyə əsas verir (Алиев, 1991, с. 25).

Azərbaycan ərazisində tədqiq edilmiş Orta Tunc dövrünün nəhəng kameralı kurqanları bəhs edilən məsələ ilə əlaqədar diqqəti cəlb edir. Çoxsaylı, zəngin arxeoloji materiallarla müşayət edilən, Şəmkirdə Qaracəmirli (Гусейнова, 2011), Ağstafada Həsənsu (Müseyibli, Ağalarzadə, 2013) və Oğuzda Kərimli (Muxtarov, Bədəlova, 2008) kurqanlarının cəmiyyətin imtiyazlı şəxslərinin şərəfinə qurulduğu şübhə doğurmur. Belə iri ölçülü kameralara malik kurqanların hələ İlk Tunc dövründə yayıldığı artıq yuxarıda qeyd edilmişdir. Lakin həmin kurqanlarda onlarla insanlar dəfn edilirdi. Orta Tunc dövrünün bu tip kurqanları isə bir şəxsin təmtəraqlı dəfn edilməsi üçün nəzərdə tutulurdu. Bu isə öz növbəsində cəmiyyətdə artıq lider, rəhbər şəxslərin – hömdarların meydana çıxdığını göstərir. Bu dövrdə Naxçıvanda yayılmış boyalı qablar mədəniyyəti isə məhz şəhər sənətkarlığının məhsulu idi (Алекперов, 1960, с. 50-62).

E.ə. II minilliyin ikinci yarısı - I minilliyin əvvəlində bu proseslər daha da dərinləşmiş və xüsusilə Naxçıvan ərazisində çoxsaylı şəhər tipli yaşayış yerləri meydana çıxmışdır. Həmin yaşayış məskənləri müşahidə bürcləri ilə müşayiət olunan və müəyyən müdafiə sistemi qanunlarına uyğun olan qala divarlarına malik idilər. Belə erkən şəhər-qalalardan Naxçıvandakı Sədərək qalası, Oğlanqala, Qızqala, Şahtaxtı, Çalxanqala, Qalacıq və s. abidələri göstərmək olar. Hər birinin sahəsi onlarla hektar ərazini əhatə edən bu qalalar əlbəttə, qədim şəhər dövlətləri olmuşlar (Алиев, 1991; Müseyibli, 2003). Bunlardan Şərur rayonundakı Oğlanqala abidəsini xüsusilə qeyd etmək lazımdır (Şəkil 2). Abidədə aparılan arxeolji qazıntılar, aşkar edilmiş tapıntılar Oğlanqalanın qala tipli şəhər-dövlət və mühüm inzibati-siyasi mərkəz olduğunu sübut edir (Baxşəliyev və b. 2011, s. 346).



**Şəkil 2. Oğlanqalanın divar qalıqları**

Gədəbəy, Daşkəsən rayonlarının dağlıq ərazilərində iri qayalarla inşa edilmi siklop (təpəgöz) tikililər adlanan onlarla qalalar aşkar edilmişdir (Джафарзаде, 1938; Расулоглы, 1993).

İ.A.Babayev Albaniyada dövlətin və şəhərlərin meydana çıxmasına gətirib çıxaran tarixi prosesləri arxeoloji abidələr əsasında şərh etmişdir (Бабаев, 1990, с. 29-37). Tədqiqatçı Otra və Son Tunc dövrlərinə aid ətrafı möhkəmləndirilmiş yaşayış yerlərini, qəbir abidələrini təhlil edərək göstərirdi ki, həmin dövrdə Azərbaycan ərazisində artıq cəmiyyətdə sosial-iqtisadi təbəqələşmə prosesləri izlənilirdi. Onun fikrincə Qədim Şərqin Assuriya, Elam, Manna, Urartu və Midiya kimi yüksək inkişaf etmiş dövlətləri indiki Şimali Azərbaycan ərazisindəki tayfalara müəyyən təsir göstərmiş və burada Antik dövrdə Albaniya dövləti meydana çıxmışdır. İ.A.Babayev Albaniya dövlətinin yaranmasından əvvəl ölkənin Əhəmənilər imperiyasının tərkibində olmasını əsas götürərək Albaniyada dövlətçilik ənənələrinin məhz Əhəmənilər dövlətinin sayəsində təşəkkül tapdığını yazırdı (Бабаев, 1990, с. 37-45).

H.Cəfərov qeyd edir ki, iqtisadiyyatın sürətli inkişafı, istehsal məhsullarının artımı, mürəkkəb struktura malik zəngin kurqanların aşkar edilməsi e. ə. II minilliyin ikinci yarısında Şimali Azərbaycan ərazisində xüsusi mülkiyyət sisteminin formalaşmasını göstərir. Onun fikrincə bütün bunlar həmin dövrdə Şimali Azərbaycanda ilkin sinifli cəmiyyətin təşəkkülünə dəlalət edir (Cəfərov, 2007, s. 43).

Azərbaycanın qərb bölgəsində Qazax, Ağstafa, Gədəbəy, Qax və Mingəçevirdən bu dövrə aid pintaderlər – gildən hazırlanmış iri ölçülü möhürlər aşkar edilmişdir. Azərbaycanın qərb bölgəsində, xüsusilə Qazax rayonundakı abidələrdə belə möhürlər daha çoxlu sayda əldə edilmişdir (Нариманов, 1973; Nəcəfov, 2010; Nəcəfov, 2011). Bu möhürlərdən Xocalı-Gədəbəy mədəniyyəti cəmiyyətində həm xüsusi mülkiyyətin qeydiyyatı, həm də müəyyən dini ritualların icrası zamanı istifadə edilmişdir. İstənilən halda bu möhürlər cəmiyyətin seçilmiş, yüksək təbəqəyə malik imtiyazlı şəxslərinə məxsus idi. Bu tapıntılar Son Tunc-İlk Dəmir dövrü cəmiyyətinin təbəqələrə – siniflərə bölündüyünün əyani sübutlarından biridir.

Bu dövrdə metal istehsalı xüsusilə geniş yayılmışdır. Eyni zamanda dəmirin kəşfi ilə yeni və daha keyfiyyətli bir metal insanların həyatına daxil olmuşdur. Xocalı-Gədəbəy, Naxçıvan və Talış-Muğan mədəniyyətlərinə aid abidələrdən aşkar edilmiş tuncdan və dəmirdən hazırlanmış çoxsaylı xəncərlər, təbərzin baltalar, nizə və ox ucluqları, qılınclar və s. silah növləri (Şəkil 3) heç şübhəsiz, artıq geniş əraziləri əhatə etmiş, müəyyən silahlı, güc strukturları olmuş erkən dövlət qurumlarının mövcudluğunu göstərir.



**Şəkil 3. Son Tunc-İlk Dəmir dövrü silahları**

E.ə. IX əsrdə Van gölü ətrafında yaranmış, ermənilərə qədərki, indi Ermənistan adlandırılan ərazini işğal etmiş Urartu dövləti e.ə VIII əsrdən başlayaraq müəyyən qarətçi yürüşlər etsə də bilavasitə qonşu coğrafiyada yerləşən Azərbaycanın Naxçıvan, Qarabağ və Gəncə-Qazax bölgələrini ələ keçirə bilməmişdir. Bu bölgələrdə əhali qalalarda və müdafiə istehkamlarında möhkəmlənmiş və urartululardan müdafiə olunmuşlar. Arxeoloji tədqiqatlar zamanı aşkar edilmiş istehkam-qalalar və çoxsaylı silah nümunələri o dövrdə yadellilərə qarşı vuruşan silahlı qoşunların olduğunu, müdafiənin lazımi səviyyədə təşkil edildiyini, bunun üçün dövlət qurumunun olduğunu deməyə əsas verir.

Eyni zamanda e.ə. VIII əsrə aid Urartu yazılarında Göyçə gölündən şərqdəki ərazilərin bir ölkə olaraq Albaniya (Kuha-Albani) adlandırılması barədə məlumat yer almışdır. Həmin məlumatlara əsasən Albaniya ərazilərinə hücumlar edən urartulular 20 qalanı, 120 şəhəri qarət etmiş, çoxsaylı insanları və mal-qaranı qənimət kimi aparmışlar. Onlar bu yerlərə gələndə çox zəngin, inkişaf edən bir ölkə ilə rastlaşmışdılar (Мещанинов, 1925, с.14-15; Мещанинов, 1927, с. 33, 218, 219, 222 и т.д.; Мещанинов, 1937). Əlbəttə, burada şəhərlər dedikdə urartulular yaşayış məskənlərini nəzərdə tuturdular. Lakin həmin dövrdə Azərbaycan ərazisində qədim şəhər təsnifatına uyğun olan yaşayış məskənlərinin də sayı az deyildi.

Albanşünas arxeoloqlardan S.Qazıyev İ.İ.Meşşaninovun əsərinə istinad edərək e.ə. VIII əsrə aid Urartu yazılarında Albaniyanın adının bir ölkə olaraq göstərildiyini qeyd etmişdir (Qazıyev, 1964, s. 7-8). Lakin S.Qazıyev həmin dövrdə Albaniyanın bir dövlət kimi mövcudluğundan bəhs etməmiş və bunu arxeoloji tədqiqatların nəticələri ilə əsaslandırmağa cəhd göstərməmişdir. Görünür bunun səbəbi keçən əsrin 50-60-cı illərində Son Tunc-İlk Dəmir və Antik (klassik) dövr abidələrində arxeoloji qazıntıların miqyasının hələ geniş olmaması ilə bağlı idi.

Cənubi Qafqazla bağlı Urartu mənbələrində və onların təhlilində göstərilirdi ki, "Urartu çarı III Sardur şimalda İoniya, Veli-Kuhi (Kolxida?), Kuha-Albani (Albaniya) kimi əhəmiyyətli dövlətlərə, işklərin (skiflərin) çarlığına hücumlar edir, yəni az qala Qara dəniz və Xəzər dənizinin sahillərinə gedib çatır, öz hakimiyyətini Kür çayının cənub sahillərinə yayırdı" (Мещанинов, 1927, с. 29).

Onu da qeyd etmək lazımdır ki, Urartu yazılarında urartuların hücum etdikləri, tarixşünaslıqda məhz dövlət kimi tanınan qədim dövlətlər də ölkə olaraq adlandırılmışdır. Bu məntiqlə həmin yazılarda Albaniyanın məhz dövlət olaraq nəzərdə tutulması fikrimcə doğru nəticədir.

Bütün bunlar onu göstərir ki, urartuların hücumları zamanı, yəni e.ə. VIII əsrdə Albaniya dövlət olaraq artıq mövcud idi. Bu isə öz növbəsində Albaniya dövlətinin e.ə. VIII əsrdən daha əvvəllər yarandığını söyləməyə əsas verir. O dövrdə Albaniyanın hansı sərhədlərə malik olduğunu müəyyən etmək gələcək tədqiqatların qarşısında duran vəzifədir.

Göründüyü kimi, e.ə. VIII əsrə aid Urartu mənbələrində Albaniya həm ölkə, həm də dövlət olaraq xatırlanır. Diqqətəlayiq haldır ki, yazılı mənbələrin bu məlumatları arxeoloji qazıntıların nəticələri ilə daha da möhkəmlənir. Belə ki, artıq yuxarıda qeyd edildiyi kimi, Xocalı-Gədəbəy mədəniyyəti abidələrində aparılan tədqiqatlar zamanı onlarla qalalar (o cümlədən iri, erkən şəhər tipli), çoxsaylı silahlar aşkar edilmişdir. Bu qalaların bir çoxu Urartu çarlarının qarətçi hücumlarının arealında yerləşirdi.

Eyni zamanda, Qəbələ, Dərbənd, Mingəçevir, Mil düzündə Qaratəpə və s. yaşayış yerlərində Son Tunc-İlk Dəmir dövrü təbəqələrinin davam edərək bilavasitə Antik dövrə bağlanması faktları artıq müəyyən edilmişdir (Museibli, Akhundova, 2022, p. 22-24). Bu baxımdan Qəbələdə aparılmış qazıntılar daha maraqlıdır (Şəkil 4). Burada Antik dövr şəhər qalıqlarından altda İlk Dəmir dövrünə – e.ə I minilliyin birinci yarısına aid mədəni təbəqə aşkar edilmişdir. Çox zaman hər iki dövrün qalıqları qarışıq halda aşkar edilmişdir. Bunlar keramika məmulatı, ərzaq saxlamaq üçün şaquli olaraq torpağa basdırılmış təsərrüfat küpləri, daş toxalar, obsidian alətlərdir. Ən maraqlısı isə bu təbəqədə, IV qazıntı sahəsində Son Tunc-İlk Dəmir dövrünə aid, 200-ə yaxın sistemli sıralanmış, standart ölçülərə yaxın təsərrüfat quyularının aşkar edilməsidir. Qazıntıların genişləndiriləcəyi təqdirdə bu quyuların sayının daha çox olacağı şübhə doğurmur. Bu ənənə fasiləsiz olaraq davam etmişdir və Antik dövrə aid təbəqədə də onlarla belə quyular və ya onlara basdırılmış iri təsərrüfat küpləri aşkar edilmişdir (Babayev və b. 2017, s. 194-196).



**Şəkil 4. Qəbələ. İlk Dəmir dövrü anbar qalıqları**

İri təsərrüfat küplərinin sıralanmasından ibarət anbar qalığı Tovuz rayonunda Son Tunc dövrünə – e.ə. XIV-XIII əsrlərə aid (Cal. BC 1410-1200) Xunan yaşayış yerində də aşkar edilmişdir (Müseyibli, 2019). Belə böyük ərzaq anbarları, əlbəttə, o dövrün yalnız şəhər tipli yaşayış məskənləri üçün səciyyəvi idi.

Aparılan qazıntılar Qəbələ şəhərinin e.ə. V-IV əsrlərdə yox, daha qədim dövrdə, ən azı e.ə. I minilliyin ilk əsrlərində meydana çıxdığını göstərir. Çünki qazıntılar göstərdi ki, bu sahədə Antik və İlk Dəmir dövrləri sıx bağlı olub, onlar arasında xronoloji fasilə yoxdur. İlk Dəmir dövründə nizamlı sıralanmış təsərrüfat quyularının salınması prosesi ardıcıl olaraq Antik dövrdə də davam edir. Lokal bir sahədə ərzaq saxlanması üçün iri anbar, 200-ə yaxın təsərrüfat quyusu o dövrdə, yalnız iri şəhər məskəninə məxsus ola bilərdi. Bütün bunlar göstərir ki, Qəbələ e.ə. e.ə. I minilliyin başlanğıcında İlk Dəmir dövrünün şəhəri kimi mövcud idi. Antik Albaniyanın kütləvi istehsal sahəsi olan dulusçuluq, metalişləmə sənətkarlıq nümunələrinin prototipləri Xocalı-Gədəbəy mədəniyyətindən məlumdur.

Beləliklə, yazılı mənbələr və arxeoloji qazıntılar təxminən 3 min il əvvəl – Son Tunc-İlk Dəmir dövründə, Xocalı-Gədəbəy arxeoloji mədəniyyəti arealında, bu mədəniyyətin inkişafı nəticəsində yaranmış, Şimali Azərbaycan ərazisinin böyük hissəsini əhatə edən dövlət qurumunun olduğunu və bu dövlətin məhz Albaniya adlandığını göstərir. Qədim Azərbaycan dövləti olan Albaniya skif tayfalarının Azərbaycana hücumlarından, Midiya və Əhəməni dövlətlərinin meydana çıxmasından bir neçə yüz il əvvəl yaranmışdır.

## Ədəbiyyat siyahısı


1. *Babayev və b., 2017*. Babayev İ.A., Nəcəfova İ.M., Heydərova Ü.M., Mustafayev L.X. Qəbələ arxeoloji ekspedisiyası Antik Qəbələ dəstəsinin çöl tədqiqat işləri haqqında // Azərbaycanda arxeoloji tədqiqatlar – 2015-2016. Bakı, 2017, s.194-203.
2. *Baxşəliyev, 2022*. Baxşəliyev V. Naxçıvan arxeologiyası yeni tapıntılar işığında. Naxçıvan: 2022. 372 s.
3. *Cəfərov, 2007*. Cəfərov H. İbtidai icma quruluşu, yoxsa sinifli cəmiyyət // 2006-2007-ci illərdə Azərbaycanda aparılmış arxeoloji və etnoqrafik tədqiqatların yekunları. Elmi sessiyanın materialları. S. 41-43.
4. *Qazıyev, 1964*. Qazıyev S.M. Qəbələ şəhərinin tarixi-arxeoloji tədqiqi // Azərbaycanın maddi mədəniyyəti. V cild. Bakı: 1964. S. 7-67.

5. *Muxtarov, Bədəlova, 2008.* Muxtarov N., Bədəlova İ. Kərimli kurqanları // Azərbaycanda arxeoloji tədqiqatlar-2008. Bakı, 2008. S. 33-35.

6. *Müseyibli, 2003.* Müseyibli N. Qədim Sədərək. Bakı: 2003. 104 s.

7. *Müseyibli, Ağalarzadə, 2013.* Müseyibli N., Ağalarzadə A. Həsənsu kurqanı. Bakı: 2013. 92 s.

8. *Müseyibli və b., 2012.* Müseyibli N.Ə., Axundova G.K., Ağalarzadə A.M. Ağstafa rayonunda tunc dövrünün qəbir abidələri // "Azərbaycanda arxeoloji tədqiqatlar" 2011. Bakı: 2012. Səh. 97-108.

9. *Müseyibli, 2019.* Müseyibli N. Xocalı-Gədəbəy mədəniyyətinə aid Xunan yaşayış yeri // Sosial elmlər. № 1. Bakı: 2019. S. 79-88.

10. *Müseyibli, 2020.* Müseyibli N., Leylatəpə mədəniyyəti. Bakı: 2020. 576 s.

11.*Museibli, Akhundova, 2022.* Museibli N., Akhundova G. About the issue of historical roots of the state of Albania // Ethnocultural Heritage of Caucasian Albania (collection of articles), No. 3, 2022. P. 22-29.

12. *Nəcəfov, 2010.* Nəcəfov Ş. Sarvantəpə (Rustəpə) yaşayış yerində arxeoloji qazıntılar // Azərbaycanda arxeoloji tədqiqatlar-2009. Bakı, 2010. S. 143-149.

13. *Nəcəfov, 2011.* Nəcəfov Ş. Sarvantəpə yaşayış yerində 2010-cu ildə aparılmış arxeoloji tədqiqatların yekunlarına dair // Azərbaycanda arxeoloji tədqiqatlar-2010. Bakı, 2011. S. 143-151.

14. *Алекперов, 1960.* Алекперов А.К. Исследования по археологии и этнографии Азербайджана. Баку: 1960. 250 с.

15. *Алиев, 1991.* Алиев В.Г. Культура эпохи средней бронзы Азербайджана. Баку: 1991. 256 с.

16. Бабаев И.А. Города Кавказской Албании в IV в. До н.э.-III в. н.э. Баку: «Элм», 1990. 236 с.

17. *Гусейнова, 2011.* Гусейнова М. Из истории Южного Кавказа. Ходжалы-Гедабекская культура Азербайджана (XVI-IX вв. до н.э.). Баку: 2011. 200 с.

18. *Джафарзаде, 1938.* Джафарзаде И. Циклопические сооружения Азербайджана // Труды Азербайджанского филиала АН СССР. Том 55. Баку: 1938. С. 5-54.

19. *Мещанинов, 1925.* Мещанинов И.И. До-исторический Азербайджан и урартская культура. Отдельный оттиск из «Известий Общества Обследования и Изучения Азербайджана», №1 (1925 года). С. 5-15.

20. *Мещанинов, 1927.* Мещанинов И.И. Халдоведение : История древнего Вана, включая древнейшие сведения о Закавказье. Система письма и чтение клинописных текстов халдов-урартов // Труды Общества обследования и изучения Азербайджана, № 10. Баку: 1927. 274 с.

21. *Мещанинов, 1937.* Мещанинов И.И. Восточное Закавказье времен халдских завоеваний // ВДИ, №1, 1937. С. 66-77.

22. *Нариманов, 1973.* Нариманов И.Г. Глиняные штампы из западного Азербайджана // Материальная культура Азербайджана. Том VII. Баку: 1973. С. 114-130.

23. *Нариманов 1985.* Нариманов И.Г. Обейдские племена Месопотамии в Азербайджане // Всесоюзная археологическая конференция «Достижения советской археологии в XI пятилетке». Тезисы докладов. Баку: 1985, с. 271-272.

24. *Расулоглы, 1993.* Расулоглы Т. Циклопические сооружения на территории Азербайджана. Баку: 1993. 145 с.

**Summary**

**Najaf Museibli**

**The Most Ancient History of Statehood of Azerbaijan in Archaeological Research**

The history of the formation of the oldest states in Azerbaijan is studied mainly on the basis of archaeological research. Traditionally, it is believed that the first state in Northern Azerbaijan, that is, in the territory of the modern Republic of Azerbaijan, was Albania, and this state was formed in

the 4th century BC. Archaeological research shows that hierarchical relations were formed in society as early as the Chalcolithic period. This process intensified in the Early Bronze Age, and the production of weapons from metal began to gradually increase. In the Middle Bronze Age, settlements fortified with defensive fortifications appeared. These were the first examples of early city-states. At the end of the Bronze Age and the beginning of the Iron Age, the number of city-states increased, and weapons production expanded. Albania is repeatedly mentioned as a country in Urartu inscriptions. In those inscriptions, ancient states were shown as countries. In this regard, it is possible to note that Albania already existed as a state at the beginning of the 1st millennium BC. Archaeological research further strengthens this conclusion.

***Keywords:*** *archaeological research, ancient states, fortresses, ancient weapons, hierarchical society, Albania, Urartu inscriptions*

**Резюме**

**Наджаф Мусеибли**

**История древнейшей государственности Азербайджана в археологических исследованиях**

История образования древнейших государств на территории Азербайджана изучается в первую очередь на основе археологических исследований. Традиционно считается, что первым государством в Северном Азербайджане, то есть на территории современной Азербайджанской Республики, была Албания, и это государство было основано в IV веке до н.э.. Археологические исследования показывают, что иерархические отношения в обществе возникли еще в эпоху халколита. Этот процесс усилился в эпоху ранней бронзы, и производство металлического оружия постепенно начало увеличиваться. В эпоху средней бронзы появились поселения с укрепленными оборонительными сооружениями. Это были первые примеры ранних городов-государств. В конце бронзового века и начале железного века увеличилось число городов-государств и расширилось производство оружия. Албания как страна неоднократно упоминается в урартских надписях. В этих письменных источниках древние государства именовались странами. В этом отношении существование Албании как государства можно отметить в начале I тысячелетия. Археологические исследования еще больше подкрепляют эту идею.

***Ключевые слова*:** археологические исследования, древние государства, крепости, древнее оружие, иерархическое общество, Албания, урартские надписи

UOT 902
https://doi.org/10.59849/2710-0820.2025.2.121

**Nuray Məmmədli**
*Naxçıvan Dövlət Universiteti*
*nuray.memmedli31@gmail.com*

# NAXÇIVANDA ORTA TUNC DÖVRÜNÜN POLİXROM BOYALI KERAMİKA MƏMULATI

***Açar sözlər:*** *Naxçıvan, Orta Tunc dövrü, polixrom boyalı keramika, ideologiya, mənəvi mədəniyyət.*

Naxçıvanda Orta Tunc dövrü Boyalı qablar mədəniyyətinin müəyyən bir mərhələsi polixrom boyalı qablarla xarakterizə olunur. Bu tip keramika Naxçıvanda, demək olar ki, bütün Orta Tunc dövrü yaşayış yerlərindən aşkar olunmuşdur. Polixrom boyalı qabların naxışları həndəsi ornamentlərdən, heyvan və insan təsvirlərindən ibarətdir. II Kültəpədən aşkar edilmiş ilk mərhələyə aid polixrom boyalı qablar sarı, ya da ağ rəng üzərinə qara və qırmızı xətlərlə çəkilmiş zəngin kompozisiyalı ornamentlə naxışlanmışdır. Naxışlar düz və dalğalı xətlər, torlu üçbucaq və romb düzümlərindən ibarətdir. Təəssüflə qeyd etmək lazımdır ki, polixrom boyalıların böyük bir qismi forma verməyən parçalarla təmsil edilmişdir.

I Kültəpədən aşkar edilmiş qoşa qulplu matra formalı qab dar boğazlı və yastı oturacaqlıdır. Qabın boğazının altı və gövdəsinin yan tərəfi qara rəngli incə xətlə naxışlanmışdır. Üzərinə qırmızı rənglə altıbucaqlı ulduz çəkilmiş, ulduzun ətrafı qara rənglə çəkilmiş xətlərlə haşiyələnmiş, künclərinin arasına qara və qırmızı rənglərlə quş rəsmləri çəkilmişdir (1, s. 115, Şəkil 27, 4).

Polixrom boyalı qabların bir qrupunun üzəri sarı rənglə boyanaraq qoşa xətlər arasına alınmış həndəsi ornamentlə naxışlanmışdır. Bu qrupa daxil olan kasa və çölmək tipli qabların bəziləri yalnız qara rənglə, bəziləri isə qara və qırmızı rənglərlə naxışlanmışdır. Ağzının kənarı xaricə qatlanmış, qabarıq gövdəli kasalar gövdəsinin formasına görə bir-birlərindən fərqlənirlər. Başlıca olaraq Şahtaxtı və Qızılburundan aşkar olunan kasalar bu tip qabların geniş yayılmış formalarındandır. Onların gövdəsi çiyin hissədə qabarıq olub oturacağa doğru daralır və yastı oturacaqla tamamlanır (1, s. 114-115, Şəkil 26, 1; Şəkil 27, 9, 12). Şahtaxtı kasaları qara və qırmızı rənglə çəkilmiş bitişik romblar, Qızılburun kasaları isə yalnız qara rənglə çəkilmiş romb düzümləri ilə naxışlanmışdır. Şahtaxtı kasalarının bir qrupunda qara rənglə çəkilmiş rombların içərisinə diaqonal boyunca qırmızı, ya da qara rənglə doldurulmuş qoşa romblar yerləşdirilmişdir. Xaricə qatlanmış ağız kənarlı, konusvari gövdəli Şahtaxtı kasalarının bir qrupu torlu üçbucaqlarla naxışlanmışdır.




**Şəkil 1. Qızılburundan aşkar olunmuş polixrom boyalı küpə.**

Polixrom boyalı çölməklər üç nümunə ilə təmsil olunmuşdur. Geniş ağızlı, xaricə qatlanmış ağız kənarlı, qabarıq gövdəli çölməyin gövdəsinin mərkəzi qismi sarı rənglə boyanaraq qırmızı rənglə çəkilmiş bitişik torlu romblarla naxışlanmış, naxışlar aşağıdan və yuxarıdan qara rəngli xətlə məhdudlaşdırılmışdır (1, s. 116, Şəkil 28, 4). İkinci çölmək xaricə qatlanmış ağız kənarlı, silindir boğazlı, qabarıq gövdəlidir. Gövdəsinin mərkəzi hissəsi sarı rənglə boyanaraq qara və qırmızı rənglə çəkilmiş torlu romblarla səliqəli naxışlanmışdır (1, s. 116, Şəkil 28, 5).

Qızılburundan aşkar olunmuş bikonik gövdəli, qısa boğazlı çölməyin naxışlanma motivi digərlərindən fərqlənir. Onun boğazının altı qara və qırmızı rənglərlə çəkilmiş enli düz xətlərlə, gövdəsinin mərkəzi qismi isə sarı rəng üzərindən qoşa xətlər arasına alınmış bitişik romblarla naxışlanmışdır (1, s. 116, Şəkil 28, 9). Şahtaxtı və Qızılburundan (Şəkil 1) aşkar edilmiş küpələrin bir qrupu daha fərqli stildə naxışlanmışdır. Bu qabların gövdəsi qoşa xətlər arasına alınmış həndəsi ornamentlə, boğazının altı isə iki, ya da üç sıra qara və qırmızı rəngli düz xətlərlə naxışlanmışdır. Zahirən bir-birinə bənzəyən bu naxışlar heç də təkrarlanmamışdır.



**Şəkil 2. Zəngin naxışlı polixrom boyalı qablardan nümunələr:**
**1 - Şahtaxtı, 6 -I Kültəpə, 2, 3, 4, 5, 7, 8 - II Kültəpə**

Xaricə qatlanmış ağız kənarlı, qabarıq gövdəli Qızılburun küpələrindən birinin gövdəsi qara xətlər arasına alınmış bitişik torlu üçbucaqlarla naxışlanmışdır. Üçbucaqların arasında boş qalmış sahəyə bir yerdə həndəsi motivli kompozisiya, digər tərəfdə isə rəqs edən iki insan fiquru çəkilmişdir. İnsan rəsmləri olduqca sxematikdir. Onların biri qara rənglə, digəri isə qırmızı rənglə çəkilmişdir. Qara rənglə çəkilmiş, əlində yaylıq tutan fiqurun kişi, qırmızı rənglə çəkilmiş fiqurun isə qadın olduğu qeyd edilmişdir (Şəkil 1).

Ağzının kənarı xaricə qatlanmış, silindir boğazlı, qabarıq gövdəli küpə orijinal naxışlama stilinə malikdir (1, s. 116, Şəkil 28, 6). Bu küpənin gövdəsinin yuxarı qismi sarı rənglə boyanaraq təpəsi aşağıya, yaxud yuxarıya çevrilmiş torlu üçbucaqlarla naxışlanmışdır. Üçbucaqların tərəflərinə paralel çəkilən qırmızı rəngli torlu naxışlar onun bədii görkəmini daha da artırmışdır. Naxışlar aşağıdan və yuxarıdan üfüqi xətlərlə məhdudlaşdırılmışdır. Bu motivdə naxışlanmış küpələrin parçalarına Şahtaxtı və II Kültəpədə də rastlanmışdır. Şahtaxtıdan aşkar olunmuş küpələrdən birinin naxışlanmasında içərisi iki sıra bitişik romblarla doldurulmuş üçbucaqlardan istifadə olunmuşdur (1, s. 116, Şəkil 28, 7).

Qızılburun küpəsinin ornamentasiyası təkraredilməzliyi ilə fərqlənir. Belə hesab edirik ki, bu küpənin üzərindəki təsvirlər mifoloji məzmun daşımışdır. Fikrimizə görə, burada ritual rəqs səhnəsinin təsviri verilmişdir. Qədim insanların inancına görə, ovsun xarakterli ritual rəqslər bütün qəbilənin uğurunu və müvəffəqiyyətini təmin etməli idi (6, s. 244). Bu tip motivlər, xüsusilə, ilahənin tayfa başçısı ilə evlənmə səhnəsi Şumer incəsənətində geniş yayılmışdır. İnsanlar belə hesab edirdilər ki, müqəddəs evlənmə ilə ilahənin tayfa başçısına keçən fövqəltəbii xüsusiyyətləri onun tayfasını uğursuzluqlardan qoruya bilər.

Küpənin digər tərəfində rəsm edilən həndəsi fiqurlar da diqqəti çəkir. Fikrimizə görə, bu fiqurlar Malta xaçlarının özünəməxsus bir tərzdə ifadəsidir. Qədim insanların düşüncəsinə görə dünya mərkəzdən və onun dörd tərəfindən ibarət idi. Dünyanın dörd tərəfini qoruyan Tanrıların zoomorf və antropomorf obrazlarla təsvir edilməsinə qədim Şərq sənətində rastlanmışdır. Daha sonra bu təsvirlər sxematikləşərək Malta xaçları şəklinə düşmüşdür. Belə hesab edirik ki, Qızılburun küpəsinin üzərindəki təsvir dünyanın mərkəzini və onun dörd tərəfini simvolizə edən bir fiqurdur.

Qızılburun çölməklərinin biri indiyədək heç rastlanmayan orijinal naxışlanma stili ilə diqqəti çəkir. Naxışlar qoşa qara xətlər arasına alınmış torlu dördbucaq və onlara üfiqi vəziyyətdə birləşdirilmiş üçbucaqlardan ibarət olmaqla qırmızı və qara rəngdə çəkilmişdir. Çölməyin boğazı və gövdəsinin aşağı qismi əlavə olaraq qara və qırmızı rəngli xətlərlə naxışlanmışdır (1, s. 118, Şəkil 30, 4).

Ağzının kənarı xaricə qatlanmış, qısa boğazlı, qabarıq gövdəli zəngin naxışlı Şahtaxtı küpələrinin bənzərlərinə indiyədək rastlanmamışdır (Şəkil 2, 1). Küpənin gövdəsi qara rəngli xətlərlə üç qurşağa ayrılmışdır. Boğazının altındakı bölüm qara və qırmızı rənglərlə çəkilmiş bir-birinin ardınca yerləşdirilmiş quş təsvirləri ilə naxışlanmışdır. Ortadakı qurşaq daha zəngin motivdə, at, dağ keçisi, ceyran, canavar, stilizə edilmiş quş rəsmləri ilə naxışlanmışdır. Bu bölümdə həmçinin, vəhşi quşların və heyvanların keçiyə, antilopa və digər heyvanlara hücum səhnələri də yer almışdır. Rəsmlərin arasına bir yerdə şaquli düz xətlərlə məhdudlaşdırılan baş-başa yerləşdirilmiş bitişik üçbucaqlar çəkilmişdir. Üçüncü bölüm qara rəngli xətlər arasına alınmış həndəsi ornamentlə naxışlanmışdır.

II Kültəpədən aşkar olunan iri həcmli küpə tipli qabların gövdəsinin mərkəzi qismi sarı rənglə boyanaraq heyvan, insan, quş rəsmləri, dama taxtası və başqa rəsmlərlə naxışlanmışdır (Şəkil 2; Şəkil 3, 1-10). Gövdə parçalarının bir qismi incə zövqlə, heyvan, quş rəsmləri və həndəsi motivdə naxışlanmışdır (Şəkil 2, 3, 5, 7, 8; Şəkil 3, 11-12). Həndəsi motivdə naxışlanmış gövdə parçalarının biri zövqlü naxışlanması ilə fərqlənir. Bu parçada qara rəngli torların içərisi qırmızı, qırmızı rəngli torların içərisi isə qara nöqtələrlə doldurulmaqla bənzərsiz bir bəzəmə stili yaradılmışdır (Şəkil 2, 8). Xaricə qatlanmış ağız kənarlı, qabarıq gövdəli kasalardan birinin üzərinə çəkilmiş dördbucağın içərisi sarı rənglə doldurularaq qara rəngli dalğalı xətlərlə naxışlanmışdır. Bu mərhələdə bitişik torlu romb və üçbucaqlardan ibarət naxışlar geniş yayılmışdır. Bu qabların naxışlanmasında Boyalı qablar mədəniyyətinin tənəzzülü aydın şəkildə nəzərə çarpır.

Arxeoloji tapıntılar bu dövrdə polixrom boyalıların yüksək inkişaf mərhələsinə çatdığını göstərir. Fikrimizcə, bu mərhələ Orta Tunc dövrünün sonu üçün səciyyəvidir. Bu stildə naxışlanmış qabların bir tərəfdən I Kültəpə və II Kültəpədə Orta Tunc dövrünün son təbəqəsindən aşkar olunması (3, s. 38-39), digər tərəfdən isə Şahtaxtı küpəsinin kompleksində Son Tunc və Erkən Dəmir dövrü üçün xarakterik qabların ortaya çıxarılması fikrimizi təsdiqləyir. Qeyd edək ki, Haftavantəpədə bu tipdə naxışlanmış keramikaya Son VI B təbəqəsində rastlanmışdır (9, s. 191-291).




**Şəkil 3. II Kültəpədən aşkar olunmuş polixrom boyalı qablar.**

Orta Tunc dövrü keramikası üzərindəki zəngin naxışların insanların mənəvi mədəniyyəti ilə bağlı olduğu və müəyyən məna ifadə etdiyi O.H.Həbibullayev (4, s. 251) və V.H.Əliyev (5, s. 171) tərəfindən qeyd edilmişdir. Tədqiqatçıların fikrinə görə, boyalı qablar üzərində olan naxışların mənası insanı əhatə edən təbiətlə, onların ideologiyası və dünyagörüşü ilə bağlı olmuşdur (5, s. 251). Araşdırmalara əsasən demək olar ki, I Kültəpə, II Kültəpə, Şortəpə, Qızılburun, Çalxanqala və digər abidələrdən aşkar olunmuş boyalı qablar üzərinə çəkilən dairə və bir-biri içərisində yerləşdirilmiş dairə rəsmləri Günəşi simvolizə etmişdir (4, s. 252).

I Kültəpə, II Kültəpə və Nəhəcirdən aşkar olunan boyalı qablar üzərində həmçinin ulduz rəsimlərinə də rastlanmışdır. Nəhəcirdən aşkar olunan monoxrom boyalı küpələrdən birində naxışların kompozisiyası səkkiz guşəli ulduz şəklindədir. II Kültəpədə isə bu tip təsvirə polixrom boyalı kasanın üzərində rastlanmışdır (5, s. 110). I Kültəpədən aşkar olunan matra tipli qabın üzərində altı guşəli ulduz, onun ətrafında isə quş rəsmləri çəkilmişdir. Ehtimal ki, burada Göy aləminin daha geniş təsvirinə cəhd edilmişdir. Səma cisimlərinin gil qablar üzərində çəkilməsi onların içərisindəki məhsulun mühafizəsi və bərəkətləndirilməsini ifadə etmiş, bərəkətin Göy aləmində məskənləşən Tanrılar tərəfindən verilməsi ilə bağlı ideoloji görüşləri əks etdirmişdir. Azərbaycan xalqı içərisində yayılan inanca görə hər insanın bir bəxt ulduzu var. O ulduz söndükdə insanın həyatı sona çatır. Xalq arasında yayılmış «ilan ulduz görməyincə ölməz» ifadəsi də Göy cisimlərinin tanrılaşdırılması ilə bağlı ən tutarlı dəlillərdən biridir. Ulduzların insanların taleyini həll etməsi haqqındakı inanclar Şərq xalqları içərisində geniş yayılmış, hökmdarların öz saraylarında ulduzların hərəkətindən xəbər verən münəccimlər saxlamasına səbəb olmuşdur.

O.H.Həbibullayev boyalı qablar üzərindəki üçbucaq və sınıq xətlərin dağları, dalğalı xətlərin isə axar suyu simvolizə etdiyini qeyd etmişdir (4, s. 272). Arxeoloji araşdırmalar Orta Tunc dövründə əkinçiliyin intensiv inkişaf etdiyini göstərir. Şübhəsiz ki, bu dövrdə su əkinçimaldar tayfaların ideologiyasında məhsuldarlığın mənbəyi kimi müəyyən yer tutmuş və gil qablar üzərindəki təsvirlərdə öz əksini tapmışdır. Boyalı qablar üzərindəki təsvirlər bu ərazidə məskunlaşan qədim insanların dini mifoloji görüşlərini tam olmasa da, müəyyən dərəcədə əks etdirmişdir. Bu baxımdan Qızılburun və Şahtaxtı küpəsi üzərindəki təsvirlər daha əhə-

miyyətlidir. Yuxarıda qeyd etdiyimiz kimi, Qızılburun küpəsinin bir tərəfində ritual rəqs səhnəsi, digər tərəfində isə dünyanın beşhissəli qorizontal struktrunu simvolizə edən həndəsi ornament verilmişdir. Bu fiqurun mərkəzində verilən romb fiqurunun içərisi qara və qırmızı xətlərlə torlu naxışla bəzədilmişdir. B.A.Rıbakovun fikrinə görə, dörd hissəli fiqurlar yalnız dünyanın dörd tərəfini deyil, həmçinin qədim əkinçilərin dördkünc formalı tarlasını ifadə etmişdir (8, s. 31-33). Ehtimal ki, bu təsvir qədim əkinçi tayfaların ideologiyasında tarlanın, məhsulun dünyanın dörd tərəfindən və göydən gələn bəladan, uğursuzluqdan mühafizə edilməsini simvolizə etmişdir. Bu inancların Naxçıvanda məskənləşən qədim tayfalar arasında yayıldığını Qızılburun nekropolundan aşkar olunan baş tərəfində beş çıxıntısı olan sancaqlar da təsdiq edir. Olduqca yüksək zövq və sənətkarlıqla hazırlanan bu bəzək əşyalarının qədim insanların ideologiyasını əks etdirməsi heç bir şübhə doğurmur.

Naxçıvanda məskunlaşan qədim əkinçi-maldar tayfaların mifoloji dünyagörüşü Orta Tunc dövrünün son mərhələsinə aid Şahtaxtı boyalı küpəsi üzərində xüsusilə aydın ifadə edilmişdir. Küpənin gövdəsinin üç hissəyə bölünməsi və naxışlanması qədim insanların dünyanın vertikal olaraq üç hissədən ibarət olması haqqındakı inanclarını əks etdirmişdir. Bu inanclara görə dünya Göy, Yer və Yeraltı hissədən ibarət olmuşdur.

Yuxarı qurşaqda yerləşdirilən, bir-birinin ardınca düzülmüş quş təsvirləri Göy aləmini, ikinci sırada yerləşdirilən quş və dırnaqlı heyvanlar insanların da yaşadığı yer aləmini, vəhşi heyvanlar və vəhşi quşlar isə o biri dünyanı əks etdirmişdir. O biri dünyanın harada yerləşməsi ilə bağlı qədim insanların ideoloji təsəvvürləri olduqca müxtəlif olmuşdur. O biri dünyanın bəzən yerin altında, bəzən göydə, bəzən isə insanların yaşadığı dünyanın ətrafında olduğu düşünülmüşdür. Şübhəsiz ki, bu müəyyən təbiət hadisələrinin, suyun, meşədə və çöldə yaşayan heyvanların insanlara zərər verməsi, ölüm gətirməsilə bağlı olmuşdur. Şahtaxtı küpəsinin ikinci qurşağında insanların  bu dünya və o biri dünya haqqındakı anlayışları binar oppozisiya halında verilmişdir.

Yaycı nekropolunda aşkar olunmuş monoxrom boyalı küpələrdən birinin gövdəsində iki sırada bir-birinin ardınca yerləşdirilmiş heyvan təsvirlərinə rastlanır. Üst sırada bir-birinin ardınca yerləşdirilmiş quş təsvirləri, ondan aşağıda isə maral, keçi və vəhşi heyvanların dırnaqlılara hücum səhnəsi təsvir edilmişdir. Vəhşi heyvanların dırnaqlılara hücum səhnəsi yalnız adi təbiət hadisəsinin təsviri ilə məhdudlaşmamış, qədim insanların mifoloji görüşlərini də əks etdirmişdir (7, s. 152). Bu motivdə naxışlanmış gümüş qablara Maykop, Trialeti, Karaşamb kurqanlarında rastlanmışdır. Gildən, yaxud metaldan hazırlanan qabların gövdəsinin müəyyən qurşaqlara bölünərək naxışlanması da tədqiqatçıların fikrinə görə, insanların mifoloji dünyagörüşünü əks etdirmişdir.

Quş rəsmləri Naxçıvanın boyalı keramikasının geniş yayılmış təsvirlərindəndir. Onların bir qismi nəcib quş təsvirlərindən ibarət olmuşdur. I Kültəpədən aşkar olunan boyalı qablardan birinin üzərində quş təsvirinin Günəşi simvolizə edən disklə birlikdə təsvir edilməsi onun Göy aləmi ilə bağlı olduğunu göstərir (4, s. 252). II Kültəpədən aşkar olunan küpə tipli qabın gövdə parçası üzərində rastlanan qaranquş və durna təsvirləri ehtimal ki, baharın gəlişini, fəsillərin dəyişməsilə bağlı insanların düşüncələrini əks etdirmişdir.

Şahtaxtı və II Kültəpədən aşkar olunan boyalı qablar üzərində o biri dünyanın təmsilçiləri olan vəhşi quş təsvirlərinə də rastlanmışdır. Vəhşi quşların mifoloji anlamda düşünülən o biri dünya ilə bağlılığı etnoqrafik materiallar və folklor nümunələri ilə də təsdiq edilir.

Heyvan və insan təsvirlərindən ibarət olan müxtəlif kompozisiyalı təsvirlərə Orta Tunc dövrünün son mərhələsində daha çox rastlanmışdır. Mifik rəsimlərin də yer aldığı bu tip təsvirlər bütöv şəkildə saxlanmasa da qədim insanların zəngin mənəvi dünyasını əks etdirir. II Kültəpədən aşkar olunan boyalı keramika parçalarından birinin üzərində buynuzlu mifik at təsviri verilmişdir (5, tablo XIX, 6). Qeyd olunduğu kimi, I Kültəpə yaşayış yerinin Erkən Tunc dövrü təbəqəsində at fiqurları aşkar olunmuşdur. Sərkərtəpədən aşkar olunan ritual qablar üzərində isə digər heyvanlarla yanaşı at təsvirləri də olmuşdur. Şahtaxtı boyalı küpəsinin üzərində canavarın ata hücüm etmə səhnəsi təs-

vir edilmiş, həmin küpənin aşkar olunduğu qəbirdə isə atla dəfn etmə adətinə rastlanmışdır. Aşkar olunan tapıntılar bu dövrdə atla bağlı inancların müəyyən yer tutduğunu göstərir. Atla bağlı inanclar indi də Azərbaycan xalqı içərisində geniş yayılmışdır. Məlum olduğu kimi, at mifologiyada həm göylə yer arasında, həm də o biri dünya ilə bu dünya arasında vasitəçi kimi verilir. Azərbaycan xalqının əfsanələrində at qəhrəmanların yaxın yoldaşı, onları təhlükədən xilas edən köməkçidir. "At muraddır" ifadəsi indiyədək Azərbaycan xalqının inanclarında yaşamaqdadır. Qəbirlərə bütöv heyvan skeletlərinin qoyulması, fikrimizcə, qədim insanların mifoloji düşüncəsi ilə bağlı olmuşdur. Təsərrüfatda işlədilən heyvanlar bu dünyada olduğu kimi, o biri dünyada da insanların yaxın köməkçisi olmalı idi. Atın o biri dünyaya yola salınan insanların yaxın yoldaşı olması haqqında düşüncələr, şübhəsiz ki, atın təsərrüfatda və insanların həyatındakı əhəmiyyəti ilə bağlı olmuşdur.

Orta Tunc dövrünə aid gil insan fiqurlarının az olmasına baxmayaraq, bu sahənin yerli zəmində inkişafı üçün şərait olmuşdur. Erkən Tunc dövründə insan fiqurlarına bənzədilən ocaq qurğuları artıq bu sahədə müəyyən təcrübə əldə edildiyini göstərir. Erkən Tunc dövrünə aid sxematik formada hazırlanmış daş bütlər incəsənətin bu sahəsinin də qədim insanların inancları və dünyagörüşü ilə bağlı olaraq inkişaf etdiyini göstərir.

N.V.Fyodorov tərəfindən Qızılburun yaxınlığındakı qədim məbəddən aşkar olunan gil kişi fiquru gilinin tərkibinə və naxışlanma motivinə görə Orta Tunc dövrünə aid keramika məmulatı ilə yaxınlıq təşkil edir. İçərisi boş olan bu fiqur yüksək sənətkarlıqla hazırlanması ilə fərqlənir. V.H.Əliyevin nəşr etdiyi rəsmə görə fiqurun sifətinin yan tərəfləri örtüklə qapadılmış, başına çal papaq keçirilmişdir. Arxalıq tipli geyimdə hazırlanan fiqurun bədəni olduqca mütənasib və proporsionaldır. Arxalıq tipli üst geyimi dizlərindən bir qədər aşağıyadək uzanmışdır. Fiqurun qolları, gövdəsinin bel qismi və ayaqlarının ucları qırılmışdır. Fiqurun hündür papağına və ayaqlarına qırmızı rəng çəkilmişdir (2, s. 61).

Fiqurun qədim məbəd yerindən tapılması onun büt olduğunu, Tanrını simvolizə etdiyini söyləməyə əsas verir. Ehtimal ki, bu fiqurdan müəyyən mərasimlərin keçirilməsi zamanı istifadə edilmişdir. Ümumiyyətlə, Naxçıvan abidələrinin Tunc dövrü təbəqəsindən aşkar olunan gil fiqurların müəyyən mərasim və ayinlərin icrası zamanı istifadə edildiyi araşdırmalarla sübut olunmuşdur. Erkən Tunc dövrünün ilk mərhələlərindən başlayaraq kişinin cəmiyyətdə rolunun artması çoxsaylı faktlarla sübut olunur. Odur ki, Orta Tunc dövründə sitayiş əşyalarının kişi fiquru formasında hazırlanması tamamilə qanunauyğundur. Bu faktlar Orta Tunc dövründə kişilərin cəmiyyətdə artan nüfuzu, iqtisadiyyatda onun mövqeyinin güclənməsi ilə bağlı olmuşdur (2, s. 62).

Orta Tunc dövründə kişinin cəmiyyətdə mövqeyinin möhkəmlənməsi həm iqtisadi, həm də siyasi amillərlə bağlı olmuşdur. Əkinçilik və maldarlığın intensiv inkişafı, dağ mədən işinin yüksəlişi, sənətkarlığın müxtəlif sahələrinin, xüsusilə metallurgiya və metalişləmənin ixtisaslaşdırılmış peşəyə çevrilməsi kişi əməyinə təlabatı artırmışdır. Bu dövrdə tayfalararası toqquşmaların artması, şəhər dövlətlərin yaranması kişilərin siyasi həyatda da fəaliyyətini artırmış, onların cəmiyyətdə üstün mövqe qazanmasına səbəb olmuşdur. Bəlli olduğu kimi, Cənubi Qafqazın Orta Tunc dövrü abidələrində insan fiqurlarına rastlanmamışdır. Lakin Naxçıvan boyalı qabları üzərində və Gəmiqaya təsvirlərində xeyli insan rəsmlərinə rastlanmışdır. Bu baxımdan Trialeti və Karaşamb kurqanlarından aşkar olunan gümüş qablar üzərindəki insan rəsmləri diqqəti çəkir. Bu qabların üzərindəki insan təsvirlərinin geyimi ilə Qızılburun heykəlinin geyimi xeyli bənzərdir. Qədim Şərq ölkələri üçün xarakterik olan bu tip geyimlərə Ön Asiya relyeflərində, o cümlədən Anubaninin Qələbə abidəsində rastlanmışdır. Bu fiqurun geyimi ilə Qızılburun boyalı küpəsi üzərindəki insan təsvirlərinin geyimləri də bənzərdir.

Araşdırmalar göstərir ki, keramika nümunələrindəki həndəsi ornamentlər quş, at, it və digər heyvan təsvirləri insanların dünyagörüşünü əks etdirmişdir. Mifik rəsimlərin də yer aldığı bu tip təsvirlər qədim insanların ideoloji təsəvvürləri ilə də bağlı olmuş, onların zəngin mənəvi dünyasını əks etdirmişdir.

### Ədəbiyyat

1. Baxşəliyev V.B. Naxçıvanın qədim əkinçi-maldar tayfalarının mənəvi mədəniyyəti. Bakı: Elm, 2004, 320 s.
2. Əliyev V. Azərbaycanda Tunc dövrünün boyalı qablar mədəniyyəti. Bakı: Elm, 1977, 164 s.
3. Əliyev V. Qədim Naxçıvan. Bakı: Elm, 1979, 77 s.
4. Абибуллаев О.А. Энеолит и бронза на территории Нахичеванской АССР. Баку, Элм, 1982, 316 с.
5. Алиев В. Г. Культура эпохи средней бронзы Азербайджана. Баку, Элм, 1991, 256 с.
6. Антонова Е.В. Обряды и верования первобытных земледельцев Востока. М., Наука, 1990.
7. Раевский Д.С. Модел мира скифской культуры. М., Наука, 1985, 256 с.
8. Рыбаков Б.А. Космогония и мифология земледельцев энеолита. Советская археология, 1965, № 1, с. 13-33.
9. Burney C.A. Excavation in Azerbaijan, Haftavan VI Period. London, 1983, 364 s.



### Summary

**Nuray Memmedli**

**The beliefs reflected in polychrome painted pottery of Nakhchivan**

The certain group of painted ceramics culture of Nakhchivan is presented by polychrome painted pottery. The ceramics is similar was found in all Middle Bronze Age settlements. Ornaments of polychrome painted ceramics consist from the geometric patterns and also images of the person and animals. The pottery decorated with various compositions which are included images of person and animals is especially widespread at a final stage of Middle Bronze Age. Researches show that geometrical ornaments of pottery and also images of birds, horses, dogs and other animals were connected by ideological representations of ancient people. Similar images in which also mythological drawings are included reflect rich spiritual the cultures of people of that time.


***Keywords:*** *Nakhchivan, Middle Bronze Age, polychrome painted ceramics, ideology, spiritual culture.*



### Резюме

**Нурай Меммедли**

**Верования, отраженные на полихромно расписных керамических изделиях Нахчывана**

Определенная группа культуры расписной керамики Нахчывана представлена полихромными расписными керамическими изделиями. Подобна керамика, находилась почти во всех поселениях эпохи средней бронзы. Орнаменты полихромно расписной керамики состоят от геометрических узоров, а также изображений человека и животных. Керамические изделия, украшенные различными композициями, в которых включены изображения человека и животных особенно распространены на конечном этапе эпохи средней бронзы. Исследования показывают, что геометрические орнаменты керамических изделий, а также изображения птиц, лошадей, собак и других животных были связаны идеологическими представлениями древних людей. Подобные изображения, в которых включены также мифологические рисунки отражают богатую духовную культуры людей того времени.


***Ключевые слова:*** *Нахчыван, эпоха средней бронзы, полихромно расписная керамика, идеология, духовная культура.*

UOT 902 (4/9)
https://doi.org/10.59849/2710-0820.2025.2.128

**Sədaqət Məmmədli**
*AMEA Arxeologiya və Antropologiya İnstitutunun*
*Numizmatika və epiqrafika şöbəsinin elmi işçisi, doktorant*
*Azərbaycan Respublikası*
*sedaqetmemmedli@yandex.com*

# BEYLƏQANIN YAZILI KERAMİKA NÜMUNƏLƏRİNİN EPİQRAFİK TƏHLİLİ

***Açar sözlər:*** *Beyləqan, Orta əsrlər, epiqrafika, yazılı keramika, ərəb-fars dilli yazılar*

Azərbaycanda Orta əsrlər dövrü epiqrafika nümunələri xalqın əmək və bacarığı sayəsində ərsəyə gələn bir sıra sənət sahələrinin zəngin tarixə malik olduğunu sübut edir.

Dulusçuluq Azərbaycanda ən qədim sənət sahələrindən biri olaraq Azərbaycanın sənətkarlıq mədəniyyətində xüsusi yer tutmuş və bu gün də bu sahənin mütəxəssisləri inkişaf edən xətt üzrə bir-birindən möhtəşəm incəsənət nümunələri ortaya qoyurlar. Dulusçuluq istehsalı ilk orta əsrlərin sonlarında öz inkişafının ən yüksək mərhələsinə çatmışdır. Belə ki, ayaqla idarə olunan dulusçuluq çarxının ortaya çıxması, dulus kürələrindən geniş şəkildə istifadə edərək şirli qabların hazırlanmasına başlanması yüksək keyfiyyətli keramika nümunələrinin meydana gəlməsinə səbəb olmuşdur. Bu dövrdə şirli keramika qabları Azərbaycanın demək olar ki, bütün bölgələrində yayılmışdır və bir çox qədim yaşayış məntəqələrində aparılan arxeoloji qazıntılar da bunu sübut edir. Xüsusilə, Beyləqanda Örənqala qədim yaşayış yerindən aşkarlanan həm şirli, həm də şirsiz qablar Azərbaycanda keramika sənətinin yüksək səviyyədə inkişaf etdiyini göstərir. Orta əsrlərdə Beyləqan şəhəri Azərbaycanın önəmli ticarət və mədəniyyət mərkəzlərindən biri olduğu üçün burada həm dulusçuluq sənəti yüksək inkişaf etmiş, həm də ticarət nəticəsində keramika nümunələrinin geniş satışı həyata keçirilmişdir. Nəticədə qalıqları müasir dövrümüzə qədər gəlib çatmış Örənqala şəhər yerində həm yazılı, həm də ornamentlərlə zəngin çoxlu şirli və şirsiz keramika nümunələri tapılmışdır **(11, s. 244).** Lakin Örənqala şəhər yerində ötən əsrin 60-cı illərinin sonlarından etibarən arxeoloji qazıntı aparılmayıb və burada gələcəkdə aparılacaq tədqiqatlar nəticəsində bir çox tədqiqata ehtiyacı olan dulus məmulatları aşkarlana bilər. Örənqala qazıntıları nəticəsində əldə edilən dulus məmulatı, ilk növbədə Beyləqan rayonu ərazisində orta əsr abidələrinin keramika tədqiqatları üçün nümunə rolunu oynayır. Saxsı qablar üzərində həkk olunan yazı nümunələri, möhür və təsvirlər epiqrafik mənbə kimi mühüm əhəmiyyət daşıyır. Bu, həm də bir növ yazılı mənbənin tərkib hissəsi kimi bir sıra orta əsr məsələlərinə aydınlıq gətirən amilləri özündə birləşdirir.

Azərbaycanın orta əsr saxsı məmulatı içərisində IX-XIII əsrlərə aid şirsiz qab nümunələri xüsusi yer tutur. Nadir hallarda olsa da, həmdövr dulus nümunələrinin üzərində ərəb qrafikalı sətirlərə rast gəlmək mümkündür **(7, s. 69).** Müxtəlif təyinatlı qablar içərisində onların iç və bayır hissəsinə həkk olunmuş kəlmələr, təsvir və naxışlar sözügedən dövrün epiqrafik mənbələri sırasında dayanır. Xüsusilə, Səlcuqlu və Atabəylər dövründə, İslam aləmində intibah mərhələsi keçən bir dönəmdə sənətkarlığın müxtəlif sahələrində, eləcə də dulusçuluqda baş verən dirçəliş özünü epiqrafika sahəsində də göstərirdi. Gilinin rəngi sarı, sarı-qırmızımtıl, boz, tünd qırmızı, ağ-bozumtul, qəhvəyi və qara olan, tərkibində narın, xırda və iri qum qarışığı olan sadə üsulla və ya dulus çarxında hazırlanan qabların gövdəsinin üzərinə, ağız hissəsinin kənarına, daxili hissəsinə və oturacaqlarına həkk olunmuş yazı və təsvirlər bunun bariz nümunəsidir. Orta əsr Beyləqan şəhərinin IX-XIII əsr təbəqəsindən üzərində yazı olan 2 ədəd saxsı parçası əldə olunmuşdur **(5, s. 70).**

Orta əsr saxsı məmulatı üzərində tədqiqatına ehtiyac duyulan epiqrafika nümunələri içərisində polixrom şirli qablar üstünlük təşkil edir.

IX-XIII əsrlərə aid keramika üzərində yazı nümunələri, təsvir və işarələr polixrom şirli qabların müəyyən hissəsində öz əksini tapır. Digər saxsı qablarla müqayisədə bu tip qabların üzərində yazı sətirlərinə, söz və ifadələrə daha çox rast gəlinir **(1, s. 74).** Orta əsr şəhərlərinin həmdövr təbəqələrindən əldə olunan materiallar içərisində həm kəmiyyət, həm də keyfiyyət etibarı ilə polixrom şirli qablar nisbətən sıx tapılır. Gəncə, Beyləqan, Qəbələ, Naxçıvan, Şəmkir, Bakı, Şabran, Şamaxı, Bərdə və digər orta əsr şəhərlərindən əldə olunan polixrom şirli qablar həm istehsalına və hazırlanma texnologiyasına, həm də üzərinin səliqəli işlənməsinə görə fərqlənir **(9, s. 51).**

Arxeoloji tapıntılar Beyləqan şəhərində şirli qabların istehsalına IX əsrdən başlanıldığını müəyyənləşdirməyə imkan vermişdir. Bu dövrə qədər Beyləqanda dulusçuluqla məşğul olmuş sənətkarlar əsasən anqob texnikasından istifadə etmiş, daha sonra isə rəngsiz və şəffaf şir tətbiq etməyə başlamışlar. İstifadə məqsədinə uyğun olaraq bəzi qablar həm daxildən, həm də xaricdən şirlə örtülmüşdür. Bu yanaşma, həm qabların funksionallığını artırmış, həm də onların estetik dəyərini yüksəltmişdir **(5, s. 32).**

Şirli qablara nümunə olaraq, Milli Azərbaycan Tarixi Muzeyinin Arxeoloji fondunda qorunan, 1951-ci ildə Örənqala yaşayış yerindən, II şəhərdən tapılmış iki üzlü keramik qab nümunəsini (AF/Q-3808, ölçü- 7x5.5sm) göstərmək olar. Qabın daxili səthi arası ağ, sarı və yaşıl rənglə boyanmış qəhvəyi xəttlərlə haşiyələnmişdir. Sarı fonda qəhvəyi rənglə ərəb qrafikasının nəsx xətti ilə ərəb dilində **هو [hu] yəni “o”** mənasını verən yazı oxunmaqdadır **(Şəkil 5, 5a).** Sufi təriqətində Allahı xatırlatmaq anlamında istifadə edilir. Şirli qabın xarici səthi yaşıl rənglə boyanmış, basma üsulu ilə müxtəlif nəbati naxışlar çəkilmişdir.

Digər bir nümunədə, Milli Azərbaycan Tarixi Muzeyinin Arxeoloji fondunda qorunan, 1953-cü ildə Örənqala yaşayış yerindən, I şəhərdən tapılmış (S\q-4265, ölçü- 9x5,5sm) iki üzlü şirli keramika fraqmentinin hər iki səthi olduqca maraqlı naxışlarla zəngindir. Belə ki, daxili səthin ağız hissəsində fərqli ölçüdə dairələr zəncir şəklində çəkilmişdir. Fraqmentin hər iki səthində içəriyə doğru bir-birini izləyən nizamlı xəttlər qabı haşiyəyə alıb. Daxili səthdə haşiyənin ortasında ərəb qrafikasının nəsx xətti ilə fars dilində söz yazılıb.

**مشغول – [mouşğul]**

**Tərcüməsi: məşğul**

Çox güman ki, bu sözün özündən əvvəl və sonra söz yazılmışdır. Təəssüf ki, bu və bu kimi materiallar fraqment halında günümüzə gəlib çıxdığı üçün əksər hallarda bu vəziyyətlə rastlaşırıq **(Şəkil 6, 6a, 6b).**

Beyləqan dulusçuları üzərində yazı və naxışlar nəzərdə tutulan kaşıları daha incə və səliqəli şəkildə hazırlayırdılar. Bu tip kaşıların səthləri əsasən şabalıdı, firuzəyi və ağ rəngli şir qatları ilə örtülmüşdür ki, bu da onların estetik cazibəsini artırırdı. Bu tip qablar adətən məişətdə istifadə üçün deyil, bəzək əşyası olaraq yüksək zümrələrə hədiyyə edilmək üçün hazırlanırdı **(5, s. 57).**

Örənqalada aparılmış arxeoloji qazıntılar zamanı tapılmış üzərində ərəb qrafikalı ərəb-farsdilli yazı nümunələri diqqət cəlb edir. Milli Azərbaycan Tarixi Muzeyinin Arxeoloji fondunda qorunan keramika nümunələri öz bədii tərtibatı, üzərindəki naxış motivləri ilə yerli dulusçu-rəssamların yüksək fantaziyasının, peşəkarlığının və incə zövqünün bariz göstəricisidir. Bununla belə, aşkarlanan küllü miqdarda bədii keramika nümunələri həmin yaşayış yeri üçün səciyyəvi olan elementləri özündə birləşdirməklə yanaşı, şəhər sakinlərinin məişətini, həyat tərzini, sosial rifahını öyrənmək üçün qiymətli mənbə hesab edilə bilər **(10, s. 107).**

XII əsrdə yazma texnikası əsasında hazırlanmış qabların ornamentləri incəliyi və zərifliyi ilə seçilirdi. Bu tip qabların üzərində yaşıl şirlə çəkilmiş lentlər dairələr əmələ gətirir, içərisində yarpaqlar və güllər təsvir edilirdi. Yaşıl lentlərlə əhatələnmiş və parlaq qurğuşun üzlüklü ağ anqobun rəngini əks etdirən bu ornamentlər Azərbaycanın zəngin dekorativ tikmə sənətinin və monumental metal işlərinin ornamentlərini xatırladır.

Nümunə olaraq, Milli Azərbaycan Tarixi Muzeyinin Arxeoloji fondunda qorunan, 1953-cü ildə Örənqala yaşayış yerindən tapılmış, hər biri bir neçə yapışdırılmış parçadan ibarət olan 3 hissədən ibarət (S\q-223/5, ölçü- 9.5x5sm; 6x5sm; 3x1.5sm) qab nümunəsini göstərə bilərik. Tapıntı yaşıl, qəhvəyi və xaki rənglərdən ibarətdir. Qabın ağıza yaxın hissəsində ağ fonda qəhvəyi rənglə ərəb qrafikasının nəsx xətti ilə cızma üsulu ilə fars dilində yazıya rast gəlinir:

**بارشو - [barşo]**

**Tərcüməsi: yağış**

Qoşa xəttlə haşiyələnmiş yaşıl və qəhvəyi böyük dairələrin içində göz bəbəyinə bənzər xırda dairələr çəkilib. Bu epiqrafika nümunəsində söz arasında ىا işarəsi verilib və yəqin ki, “və” mənasını əks etdirir **(Şəkil 3, 3a)**.

Örənqala yazıları istifadə olunan dil, məzmun və paleoqrafik xüsusiyyətləri baxımından da olduqca diqqətəlayiqdir. Bu yazılardakı xətlərin xüsusiyyətləri ilk növbədə abidələrin tarixini dəqiq müəyyənləşdirməyə, istifadə olunan dil isə həmin dövrün rəsmi dili haqqında fikir yürütməyə əsas yaradır **(6, s. 96-101).**

Beyləqanda tapılmış qab nümunələrinin üzərində, əsasən, iki növ yazı xəttindən, kufi və nəsx xətlərindən geniş istifadə olunduğu müşahidə edilmişdir. Bu yazılar qabların səthinə işlənərkən adi fırça və ya nazik uclu qələmdən istifadə edilmiş, bəzən isə möhür vasitəsilə həkk olunmuşdur. Bundan əlavə, gil formasında hazırlanaraq bişirilmədən öncə qabın üzərinə yapışdırılan yazılar da mövcuddur. Memarlıq abidələrində isə fiqurlu kaşılardan hazırlanan yazılar üstünlük təşkil etmişdir və belə nümunələrə Örənqala (Beyləqan) yaxınlığında mövcud olmuş XI-XIII əsrlərə aid Mil-Minarə məscidi və onun ətrafındakı tikililərdə rast gəlinir **(2, s. 167).** Həmin dövrdə Arran əhalisi yerli dillərlə yanaşı, ərəb və fars dillərini də mənimsəmişdilər və Beyləqanda aşkarlanmış kaşı nümunələrinin üzərindəki yazılar əsasən ərəb və fars dillərində olmuş, farsca materiallar daha çox üstünlük təşkil etmişdir. Həmçinin ərəb dilində olan yazılar daha qədim abidələrdə müşahidə olunmuşdur. Diqqətəlayiq məqam isə odur ki, bu yazılar yalnız varlı təbəqənin deyil, həm də sadə insanların mədəni həyatını əks etdirir. Məişət qabları üzərində rast gəlinən lirik beytlər və şeirlər onların oxuma-yazma bacarığına və mədəni zənginliyinə dəlalət edir. Bu, həm aşağı, həm də yüksək təbəqələrin həyatında yazılı ifadə mədəniyyətinin mühüm rol oynadığını göstərir **(5, s. 81).**

Beyləqanda hazırlanan qabların mütləq əksəriyyəti ticarət üçün nəzərdə tutulmuşdur. Çünki bu dövrə qədər istehsal edilən qabların üzərində onun sahibinin adı qeyd edilməmişdir. Bu da onu deməyə əsas verir ki, hazırlanan qablar şəxsi sifarişlər əsasında deyil, ticarət məqsədilə istehsal olunmuşdur. Nadir nüsxələr də daxil olmaqla, bu qabların üzərində gələcək sahibinə xoş arzular yazılmaqla bütün nümunələr dükanlarda, bazarlarda, yaxın kəndlərdə və şəhərlərdə ticarətə cəlb olunurdu. Ümumiyyətlə, Beyləqan şəhərinin Bərdə-Ərdəbil karvan yolu üzərində strateji mövqedə yerləşməsi bölgədə ticarətin inkişafına mühüm töhfə vermişdir **(5, s. 72).**

Nəticədə, XI-XIII əsrin əvvəllərində Cənubi Qafqaz ölkələri, eləcə də İran, Misir, Çin, Hindistan kimi ölkələrlə geniş ticarət əlaqələri yaradılmış, bir-birindən bənzərsiz dulusçuluq məmulatları Beyləqana gətirilmişdir. Xüsusilə, peşəkar yaradıcılığın məhsulu olan və İranda hazırlanan “minai” tipli qablar Beyləqandan tapılmış arxeoloji materiallar içərisində seçilir. Bu cür qablar İranın Rey və Kaşan bölgələrində hazırlanırdı və Beyləqan dulusçuluğuna da öz təsirini göstərmişdir **(5, s. 45).**

Beyləqanın arxeoloji qazıntılarına xas başqa bir gözoxşayan nümunə də el dilində dediyimiz “çini qablar”, yəni seladon qablardır. Bu qab nümunələri əsasən, X-XIII əsrlər üçün xarakterikdir və Çində hazırlanaraq ticarət-karvan yolları vasitəsilə bütün dünyaya, eləcə də Beyləqana qədər gəlib çıxmışdır. Yaşılımtıl rəngə olan bu qablar adətən zadəganlar tərəfindən istifadə olunurdu və “Seladon” sözünün mənşəyi ərəb dilindəki “saladun”, yəni “daş kimi möhkəm, bərk” sözündən törəmədir. Beyləqandan tapılmış bu qabların qırıntıları Orta əsr şəhərinin Çinlə də geniş ticarət əlaqələri olduğunu bir daha sübut edir **(8, s. 83).**

Örənqalada aparılmış arxeoloji qazıntılar zamanı aşkarlanmış bir sıra fayans qablar estetik incəlikləri ilə fərqlənir. Bu qablarda ağ qalay şiri fonunda tünd göy və bənövşəyi zolaqlarla naxış işlənmişdir. Göy zolaqlar ağ fonla tamamlanmış, ağ zolaqların içərisi isə şirlə ərəb əlifbası ilə yazılmışdır. XII-XIII əsrlərə aid olan bu qablarda təsvirlərə də rast gəlinir. Təsvirlər incə sənətkarlıqla, real və aydın şəkildə əks olunmuşdur **(6, s. 96).**

Milli Azərbaycan Tarixi Muzeyinin Arxeoloji fondunda qorunan, 1953-cü ildə Örənqala yaşayış yerindən tapılmış bədii fayans keramika nümunəsini (S/q- 5552/21, ölçü- 8x3.5sm) misal çəkə bilərik. Üzərində ərəb qrafikasının süls xətti ilə ərəb dilində ifadə zərif işlənmişdir.

**سحر تجلی مان ایشق - [sehr tacalla man ayşğ]**

**Tərcüməsi: sehr üzə çıxdı**

Bu ifadədə də sözlər arasında ی işarəsi yazılıb və yuxarıda da qeyd etdiyimiz kimi, yəqin ki, "və" mənasını verir. Üzərində göy, qəhvəyi, ağ rənglərdən ibarət fayans qab dövrünə görə olduqca nəfis hazırlanmışdır **(Şəkil 1, 1a).**

Milli Azərbaycan Tarixi Muzeyinin Arxeoloji fondunda qorunan, 1953-cü ildə Örənqala yaşayış yerindən tapılmış, hazırlanma üsulu və istifadə edilən ornamentlərinə görə başqa nümunələrdən seçilən daha bir altı parçadan ibarət fayans qab nümunəsi (S/q- 5552/21, ölçü-9x10sm, 7.5x3sm, 2.5x5.5sm, 2.5x3sm, 1.2x2.2sm, 2.5x2.5sm. Ümumi 7x3sm) də diqqət çəkir. Qab iki üzlüdür. Daxili hissəsinə qəhvəyi fonda göy rənglə nəbati naxışlar çəkilmiş, ağ göyərçinə bənzər quşlarla bəzədilmiş və ağ rənglə haşiyəyə alınmışdır. Qabın ağız hissəsində ağ rənglə yazı yazılmışdır. Ərəb qrafikasının süls xətti ilə ərəb dilində ifadə diqqət çəkir.

**والجدا اما علی شیر محمدن -**

**[val(c)id a ama Ali Şer Muhammədin ]**

**Tərcüməsi: Babası Əli Şer Muhəmməddir**

Xarici hissəyə isə ağ fonda qəhvəyi rənglə nəbati naxışlar vurulmuşdur **(Şəkil 2, 2a).**

Digər bir nümunə, Milli Azərbaycan Tarixi Muzeyinin Arxeoloji fondunda qorunan, 1953-cü ildə Örənqala yaşayış yerindən tapılmış, 3 hissədən ibarət (AF/q-20332, S\q-4918, ölçü-4x5,5sm; 4,5x6,5sm; 4x6,5sm) iki üzlü olan bu keramika nümunəsinin daxili və xarici səthində ağ, qara və narıncı rənglər müşahidə olunur. Daxili səthdə ərəb qrafikasının nəsx xətti ilə yazılmış **صاف (saf, təmiz)** sözü aydın oxunmaqla, qarışıq şəkildə **م, ل, ح, ر , ن (mim, lam, ha, ra, nun)** hərfləri yazılıb **(3, s. 56), (Şəkil 4, 4a).** Eyni zamanda mərkəzə doğru ardıcıl təkrarlanan nəbati naxış təsvir edilmişdir. Ümumi mənzərəni əsas götürsək, burada yazılan yazının poetik əsaslı bir nəzm nümunəsi olduğu qənaətinə gələ bilərik.

**Nəticə.**

Azərbaycan tarixinin mühüm məsələlərindən biri olan sənətkarlığın tədqiqi cəmiyyətin inkişafının müxtəlif pillələrində məhsuldar qüvvələrin və istehsal münasibətlərinin vəziyyətini müəyyənləşdirməkdə böyük əhəmiyyətə malikdir. Ən qədim köklərə malik və ən kütləvi sənət sahələrindən biri olan dulusçuluğun bu məsələlərin təhlilindəköməyi daha böyükdür. Bu cəhətdən orta əsrlər dövründə dulusçuluğun vəziyyətinin öyrənilməsi daha maraqlı nəticələr çıxarmağa imkan verir. Azərbaycanda arxeoloji tədqiqatlar zamanı əldə olunmuş maddi-mədəniyyət nümunələri içərisində saxsı məmulatının üstünlük təşkil etməsi, dulusçuluğun insan həyatında rolu ilə əlaqədar olaraq keramikanın epiqrafik tədqiqi və Azərbaycanda Orta əsr dulus məmulatı üzərində epiqrafik nümunələrin təkamülünün öyrənilməsi aktual məsələlərdəndir. Lakin qeyd etmək lazımdır ki, Azərbaycanın müxtəlif rayonlarından, müəyyən dövrlərdə aşkar edilən keramika üzərində işlənmiş epiqrafika nümunələri hələ də oxunub tədqiqata cəlb olunmamışdır. Azərbaycan Respublikasının müxtəlif bölgələrində epiqrafik abidələrin gələcəkdə araşdırılması zəruridir. Beyləqandan tapılmış keramika nümunələri üzərindəki ərəb-farsdilli yazıların tədqiqi həmin dövrün maddi və mənəvi mədəniyyəti haqqında daha geniş məlumat almağımız üçün elmi-tarixi əhəmiyyət daşıyır. Məqalədə Beyləqandan aşkarlanmış, hal-hazırda Milli Azərbaycan Tarix Muzeyində qorunan bir sıra ərəb qrafikalı yazılı keramika nümunələrinin epiqrafik tədqiqatının ilk dəfə aparılması, keramika üzərindəki müxtəlif məzmunlu kalliqrafik yazılarda Azərbaycan xalqının dini və mənəvi mükəmməliyi, kamilliyi şərh olunaraq geniş kütləyə çatdırılmaqla yanaşı, dini-fəlsəfi baxışın, sənətkarlığın inkişafı haqda məlumatlar öz əksini tapır.

**Ədəbiyyat siyahısı**


1. Aghamalieva, Sevil. "Pottery," in Azerbaijani Ethnography, Baku, 2007. 71-80 pp.
2. Azərbaycan Arxeologiyası (Altı cilddə), VI cild, Bakı, Şərq-Qərb, 2008, 632s
3. Azeri, A. and Alizade, H. Zabani Farsi, Azərtədrisnəşr, Baku, 1961, 297 p.
4. Бретаницкий Л.С, Веймарн. Б.В. Искусство Азербайджана IV-XVIII Веков. М., «Искусство», 1976. 272 с
5. Q.M. Əhmədov. Orta əsr Beyləqan şəhəri. Elm nəşriyyatı, Bakı. 1979, 201 s.
6. Q.M. Əhmədov. Örənqala. AzSSR EA nəşriyyatı, Bakı. 1962, 112 s.

7. Q.M. Əhmədov. Azərbaycanın şirsiz saxsı məmulatı. AzSSR EA nəşriyyatı, Bakı. 1959, 143 s.

8. Q.M. Əhmədov. Qədim Beyləqan. Azərbaycan Dövlət nəşriyyatı, Bakı. 1997, 144 s.

9. Qazıyev S.M. Qəbələ şəhərinin tarixi-arxeoloji tədqiqi // AMM (Qəbələ arxeoloji ekspedisiyasının əsərləri- I cild), Az SSR EA Tarix İnstitutu, Bakı, 1964, V cild, s. 7-67

10. S. Məmmədli. Örənqala (Beyləqan) keramikası üzərində yazı və təsvirlər. "Gənc tədqiqatçı" elmi-praktiki jurnal. IX cild, Bakı. 2023, №1, s. 105-109.

11. Якобсон А.Л.. Художественная керамика (Оренкала ) МИА СССР, №67, М-Л., 1959, 270с.

## Summary

**Sedagat Mammadli**

### Epigraphic analysis of inscribed ceramic samples from Beylagan

The research of Arabic-Persian inscriptions on ceramic samples found in Beylagan is of scientific and historical importance for obtaining more complete information about our material and spiritual culture of that period. Due to the dominance of pottery products of the 11th-13th centuries and the role of pottery in human life, the epigraphic research of ceramics in Azerbaijan and the research of the evolution of epigraphic examples of medieval pottery are very important issues. The article provides information on the first epigraphic research of a number of ceramic samples with Arabic script discovered in Beylagan, currently preserved in the National Museum of History of Azerbaijan, and the interpretation of the religious and spiritual perfection and perfection of the Azerbaijani people in calligraphic inscriptions of various contents on ceramics, as well as the development of religious views and the art of philosophy.

***Keywords:*** *Beylagan, Middle Ages, epigraphy, inscribed ceramic, Arabic-Persian inscriptions*

## Резюме

**Седагат Мамедли**

### Эпиграфический анализ образцов надписной керамики из Бейлагана

Исследование арабо-персидских надписей на образцах керамики, найденных в Бейлагане, имеет научное и историческое значение для получения нами более подробной информации о материальной и духовной культуре того периода. Эпиграфические исследования керамики и изучение эволюция эпиграфических образцов на средневековой керамике в Азербайджане являются очень важными вопросами в связи с доминированием гончарных изделий XI-XIII веков, ролью гончарного дела в жизни человека. В статье представлены первые эпиграфические исследования ряда образцов арабописьменной керамики, обнаруженных в Бейлагане, в настоящее время хранящихся в Национальном музее истории Азербайджана, и интерпретация религиозно-духовного совершенства и совершенства азербайджанского народа в каллиграфических надписях различного содержания на керамике, а также сведения о развитии религиозно-философских воззрений и мастерства.

***Ключевые слова:*** *Бейлаган, Средние века, эпиграфика, керамика с надписью, арабо-персидские надписи.*

ŞƏKİLLƏR


şəkil 1.


şəkil 1a.


şəkil 5.


şəkil 5a.


şəkil 6.


şəkil 6a.


şəkil 6b.





şəkil 2.



şəkil 2a.



şəkil 3.



şəkil 3a.



şəkil 4.



şəkil 4a.



**UOT 902**
**https://doi.org/10.59849/2710-0820.2025.2.135**

**VƏLİ BAXŞƏLİYEV**
*AMEA Naxçıvan Bölməsi*
*Naxçıvan Dövlət Universiteti*
*velibahshaliyev@mail.ru*

**RAFİA SOY**
*İstanbul Universitesi, Edebiyat Fakültesi:*
*rafiasoy07@gmail.com.*

**ELMAR BAXŞƏLİYEV**
*AMEA Naxçıvan Bölməsi*
*elmarbakhshaliev@gmail.com*

# XOCALI-GƏDƏBƏY MƏDƏNİYYƏTİNİN NAXÇIVANA YAYILMASI İLƏ BAĞLI YENİ TAPINTILAR

**Giriş.** Naxçıvanın ərazisi Yaxın Şərqlə Cənubi Qafqaz arasında əlverişli coğrafi mövqedə yerləşir. Dağ sıraları ilə bir neçə hissəyə bölünən, cənub-qərbdə Araz çayı ilə hüdudlanan Araz ovalığına şimaldan Arpaçay, Naxçıvançay, Əlincəçay vadiləri uzanmaqdadır. Bu vadilərin gediş-gəliş və yaşayış üçün əlverişli olması qədim zamanlardan insanlar tərəfindən dəyərləndirilmişdir. Bu vadilər boyunca uzanan yollar Naxçıvanın Azərbaycanın şimalı, Cənubi Qafqaz və Yaxın Şərq ölkələri ilə ticarət əlaqələri, köç yolları, qədim tayfaların hərbi yürüşləri və mədəni əlaqələri üçün əlverişli olmuşdur (2, s. 5). Naxçıvanda Xalaf, Ubeyd, Dalma Təpə mədəniyyətinin izlərinin aşkar olunması da bununla bağlıdır. Əgər Xalaf və Ubeyd mədəniyyətləri Yaxın Şərq mədəniyyətlərinin Naxçıvana yayılmasını göstərirsə Dalma Təpə mədəniyyəti isə Cənubi Qafqaz mədəniyyətlərinin Yaxın Şərqə yayıldığını təsdiq edir (5, s. 14-82). Araşdırmalar göstərir ki, Yaxın Şərq və Cənubi Qafqaz ölkələri arasındakı əlaqələr Tunc və Dəmir dövründə də davam etmişdir. Cənubi Qafqaz tarixində mühüm yer tutan mədəniyyətlərdən biri də Azərbaycanın Qarabağ bölgəsində formalaşan Xocalı-Gədəbəy mədəniyyətidir. Aparılan araşdırmalar bu mədəniyyətin Qarabağ bölgəsi ilə məhdudlaşmadığını indiki Gürcüstan (42, p. 258-295), Ermənistan (42, p. 260) ərazisinə, həmçinin Azərbaycanın cənub torpaqlarına, Naxçıvana və Araz çayının cənubuna (20) yayıldığını təsdiq etməktədir (Şəkil 1). Xocalı-Gədəbəy mədəniyyətinə aid tapıntıların bir qismi 1986-1989-cu illərdə aşkar olunmuş və onların az bir qismi nəşr edilmişdir (14, s. 1-20). Ancaq 2005-2006-cı ildə bizim Naxçıvanda apardığımız araşdırmalar zamanı əldə edilən arxeoloji tapıntılar Xocalı-Gədəbəy mədəniyyətinin cənuba doğru yayıldığını təsdiq edən yeni faktlar vermişdir. Arazın cənubunda, Larican nekropolunun aşkar olunması, eyni zamanda Naxçıvanın yaşayış yerlərində Xocalı-Gədəbəy tipli keramikanın aşkar olunması bu məsələnin yenidən dəyərləndirilməsini vacib etmişdir. Tədqiqatlar bu mədəniyyətin Etiuni tayfaları ilə bağlı olduğunu və bu tayfaların urartuların Cənubi Qafqaza yürüşlərinə qarşı döyüşlərdə mühüm rol oynadığını göstərir. Naxçıvanda aşkar olunan tapıntıların az bir qismi nəşr edilsə də bütün tapıntılar ələ alınaraq araşdırılmamışdır. Bu tədqiqatda məqsədimiz Xocalı-Gədəbəy mədəniyyətinin cənuba doğru yayılmasını yeni tapıntılarla dəyərləndirmək və bu mədəniyyətin Etiuni tayfaları ilə bağlılığını araşdırmaqdır.

**Naxçıvanda Xocalı-Gədəbəy mədəniyyətinə aid mərkəzlər.** Son Tunc və Erkən Dəmir dövründə Naxçıvanda e. ə. III minilliyin ikinci yarısında formalaşan Boyalı qabla mədəniyyəti tədricən tənəzzül etməyə başlasa da, tammamilə ortadan çıxmamışdı. Bu dövrədə Naxçıvanda bir tərəfdən Boyalı qablar mədəniyyəti davam

etməkdə ikən, digər tərəfdən yaşayış yeri və qəbir abidələrində Xocalı-Gədəbəy mədəniyyətinin xüsusiyyətlərini daşıyan keramika məmulatı, silahlar və bəzək əşyaları ortaya çıxır. Naxçıvanın Son Tunc və Erkən Dəmir dövrü mədəniyyəti e. ə. II minilliyin sonu və I minilliyin əvvəli ilə tarixləndirilir. İlk öncə Nahçıvanın dağlıq, daha sonra ovalıq bölgələrində, Araz vadisində qeydə alınan Xocalı-Gədəbəy mədəniyyəti başlıca olaraq boz rəngli keramika ilə xarakterizə olunur. Ancaq bu mədəniyyətə aid abidələrdə az da olsa çəhrayı rəngli keramika məmulatı da vardır. Naxçıvanda Xocalı-Gədəbəy mədəniyyətinə aid xeyli miqdada yaşayış yeri və nekropollar aşkar olunmuşdur və bunların hamısını bir məqalədə araşdırmaq çox çətindir. Buna görə də biz yalnız birbaşa Xocalı-Gədəbəy mədəniyyətinin tipik xüsusiyyətlərini göstərən abidələri araşdırmaq fikrindəyik.




**Şəkil / Figure 1.** Xocalı-Gədəbəy mədəniyyətinin yayıldığı əsas mərkəzlər / Main centeres of Hodjaly - Gedebek Culture: 1-Xocalı, 2-Gədəbəy, 3-Bayan, 4-Xanlar, 5-Gəncə, 6-Mingəçevir, 7-Dovşanlı, 8-Golovino, 9-Khurjin-Khoger, 10-Kulalı (Aygedzor), 11-Artik, 12-Qarakilsə (Kirovokan), 13-Gümrü (Leninakan), 14-Calaloğlu, 15-Lorut, 16-Dilican,17-Akura, 18-Kedeli, 19-Tibaani, 20-Khirsa, 21-Pevrebi, 22-Sevan, 23-Tsitelgori, 24-Qazxan, 25-Kolanı, 26-Qumluq, 27-Bayəhməd, 28, Larican, 29-Daşsalahlı, 30-Qazax (Vəli Baxşəliyev).

**Kolanı yaşayış yeri.** Xalq arasında Qarnıyarıq adlandırılan Kolanı yaşayış yeri Şahbuz rayonunun Kolanı kəndindən şərqdə, Naxçıvançayın sol sahilində dağ silsiləsinin çaya doğru uzanan yüksək çıxıntısı üzərində, təbii olaraq bir neçə hissəyə bölünmüş yamacda yerləşir (Şəkil 2).



**Şəkil / Figure 2.** Kolanı yaşayış yeri / Kolanı settlement (Vəli Baxşəliyev).

Yaşayış yerinin yerləşdiyi ərazi şərqdə ensiz bir boyunla dağ silsiləsi ilə bağlanmış, cənub-şərqdə dar boğaz, şimal-qərbdə isə Naxçıvançay vadisi ilə məhdudlaşmışdır. Mövqeyi yaşayış üçün əlverişsiz olan bu ərazi zaman-zaman təbii aşınmaya məruz qaldığından mədəni təbəqə saxlanmamışdır. Kəşfiyyat xarakterli tədqiqatlarla (2, s. 33-34) yaşayış yerindən dən daşları, həvəngdəstələr, obsidian parçaları, obsidian ox ucluqları, keramika məmulatı aşkar olunmuşdur (Şəkil 3).



**Şəkil / Figure 3.** Kolanı yaşayış yerinin tapıntıları / Findings of Kolanı settlement (Vəli Baxşəliyev).

Yaşayış yerinin coğrafi mövqeyi Naxçıvançay vadisindən keçən qədim yolun nəzarətdə saxlanılması baxımından olduqca əhəmiyyətlidir. Aparılan araşdırmalar bu yaşayış yerində həyatın mövsümi xarakterdə olduğunu göstərir. Yaşayış yerindən əldə edilən keramika məmulatı boz və çəhrayı rəngli olmaqla iki qrupa ayrıla bilər. Boz rəngli keramika məmulatı iri qum qarışığı olan gildən hazırlanaraq orta dərəcədə bişirilmişdir. Hamısı əldə hazırlanan keramikanın xarici səthi hamarlanmış və cilalanmışdır. Boz rəngli keramika məmulatı başlıca olaraq çölmək tipli qabların ağız kənarına aid parçalarla təmsil edilmişdir. Bunların ən geniş yayılmış tipləri kürə gövdəli, qısa boyunlu və xaricə qatlanmış ağız kənarlıdır (Şəkil 3, 3). Bəzi nümunələrin gövdəsinin yuxarı qismi cızma xətlər və qabartmalarla naxışlanmışdır. Çölməklər arasında xaricə doğru qatlanmış bəsit ağız kənarlılar və qalınlaşdırılmış ağız kənarı olanlar da vardır (Şəkil 3, 4, 8, 9). Çəhrayı rəngli keramika məmulatı ağız kənarı xaricə qatlanmış, qısa boğazlı, kürə gövdəli çölməklərlə təmsil olunmuşdur. İncə, ya da iri qum qarışığı olan gildən hazırlanaraq orta dərəcədə bişirilən bu qablarda müəyyən səliqəsizlik gözə çarpmaqdadır. Bunların hamısı cızma və çərtmələrlə naxışlanmışdır (Şəkil 3, 1, 2).

**Kolanı nekropolu.** Bu nekropol Kolanı yaşayış yerinin şərqində, uzunsov təpənin üzərində yerləşir. Nekropolda olan daş qutu tipli qəbirlər təbii aşınma nəticəsində açılaraq üzə çıxmış və böyük ölçülü qəbirlərin əksəriyyəti dağılmışdır. Qurtarma məqsədilə 1986-1989-cu illərdə Vəli Baxşəliyev tərəfindən aparılan qazıntılar zamanı bu nekropolda dağılmış qəbirlər də daxil olmaqla 16 qəbir abidəsi tədqiq edilmişdir (14, s. 1). Nekropoldakı daş qutu tipli qəbirlər dördkünc formalı, bəziləri çoxbucaqlı, bəziləri isə küncləri dəyirmiləşdirilmiş düzbucaq formalıdır. Qəbirlər torpaqda açılmış çuxurlarda yastı sal daşları yan-yana qoymaqla qurulmuşdur. Divarların alçaq qismi qaba daşlarla hörülərək tamamlanmışdır. Daş qutuların üzəri bir qayda olaraq yastı sal daşların yan yana qoyulması ilə qapadılmışdır. Araştırma zamanı 7№-li daş qutu tipli qəbirin yan daşları üzərində bir biri ilə üzbəüz yerləşdirilmiş iki rəsmə rastlanmışdır (14, s. 2, resim 1). Bu rəsmlərin divar daşlarında qazılması şübhəsiz ki, insanların o biri dünyaya inamı ilə bağlıdır. Rəsmlərin bənzərlərinə indiyədək rastlan-mamışdır. Kolanlı daş qutuları üçün kollektiv dəfnlər xarakterdir. Sekletlərə qəbirlərin bir küncündə toplanmış halda rastlanılmışdır. Skeletlər qarışıq vəziyyətdə olduğundan onların sayı yalnızca kəllələrə görə müəyyən edilmişdir. Skeletlərin sayı 3-17 arasındadır. Kolanı nekropolunun tədqiqi dəfn zamanı məzarlıqda aşkar olunan ocaq izləri burada yemək və içməklə bağlı müəyyən mərasimlərin keçirildiyini göstərir (2, s. 37).



**Şəkil / Figure 4.** Kolanı nekropolunun tapıntıları / Findings from the Kolanı necropolis (Vəli Baxşəliyev).

Bunlar incə qum qatılmış gildən hazırlanaraq orta dərəcədə bişirilmişdir. Bəzən qabların divarları arasında boz və çəhrayı rəngli bişməmiş təbəqə saxlanmışdır. Keramika məmulatının böyük qismi boz rənglidir (Şəkil 4, 6-19).



**Şəkil / Figure 5.** Kolanı nekropolu. Tunc xəncərlər və bəzəklər / Kolanı necropolis. Bronze dagger and jewelries (Vəli Baxşəliyev).

Qəbir avadanlığı keramika məmulatı, bəzək əşyaları və silahlardan ibarətdir. Başlıca olaraq gil qablarla təmsil olunan keramika məmulatı boz və çəhrayı rəngli olmaqla iki qrupa ayrılır. Əldə hazırlanan çəhrayı rəngli keramika az miqdardadır (Şəkil 4, 1-5).



**Şəkil / Figure 6.** Kolanı nekropolu. Bəzəklər / Kolanı necropolis. Jewelries (Vəli Baxşəliyev).

Bunlar incə qum qatılmış gildən hazırlanaraq orta dərəcədə bişirilmişdir. Bəzən qabların divarları arasında boz və çəhrayı rəngli bişməmiş təbəqə saxlanmışdır. Keramika məmulatının böyük qismi boz rənglidir (Şəkil 4, 6-19).



**Şəkil / Figure 7.** Kolanı nekropolu. Birinci tip Xocalı-Gədəbəy xəncərləri / Kolanı necropolis. First type Hodjalı-Gedebey daggers (Vəli Baxşəliyev).

Bu qrupa aid gil qablar başlıca olaraq incə, bəzən isə iri qum qarışığı olan gildən hazırlanaraq orta dərəcədə bişirilmişdir. Bəzi qabların kəsiklərində qəhvəyi rəngli təbəqə qalmışdır. Rəng tonları boz və qara arasında dəyişməkdə olan gil qabların xarici səthi alacalı olub yaxşı cilalanmış, içərisi isə hamarlanmışdır. Formaca olduqca müxtəlif olan boz rəngli keramika kasalar, çölməklər, küpələr, nimçələr və qədəhlər ilə təmsil edilmişdir. Kolanı nekropolundan aşkar olunan boz rəngli keramika məmulatının bəzisi batıq zolaqlar naxışlanmış, naxışların içərisi ağ kirəclə doldurulmuşdur. Batıq naxışların ağ kirəclə doldurulması Xocalı-Gədəbəy mədəniyyətinin xarakterik xüsusiyyətidir.

Qəbirlərdən aşkar olunan tapıntıların bir qismi tunc silahlar (Şəkil 5, 1-4) və bəzək əşyalarıdır (Şəkil 5, 5, 6; Şəkil 6). Kolanı nekropolundan aşkar olunan tunc bəzəklər muncuqlar, düymələr, balıqqulağı keçirilmiş sırğalar, sancaqlar və digərlərindən ibarətdir. Bəzək əşyaları və silahlar tipoloji baxımdan Xocalı-Gədəbəy mədəniyyətinə aid olanlarla eyni xüsusiyyətlərə malikdirlər. Xocalı-Gədəbəy mədəniyyətinin xüsusiyyətləri tunc xəncərlərdə daha aydın izlənir. Kolanı nekropolundakı 10 nömrəli qəbirdən 7 tunc xəncər aşkar olunmuşdur. Bu xəncərlərin 5 ədədi Xocalı-Gədəbəy tipli xəncərlərdir. Bu xəncərləri iki tipə bölmək olar. Birinci tip xəncərlərin üçbucaq formalı tiyəsi, konusvari başlıqdan ayrı tökülmüşdür. Başlıqlar şəbəkəlidir. Tiyələrin isə ortası qabarıq, saplaqları qısa olub bir dəlik açılmışdır (Şəkil 7, 1-2; Şəkil 8, 2-3). Bu tip xəncərlər Xocalı-Gədəbəy mədəniyyətinə aid Gədəbəy daş qutularından (28, s. 108, şəkil 4; 1, şəkil 55, şəkil 56), Quşçu daş qutularından (33, s. 138), Xaçbulaqdan (9, s. 32; 36, tablo IV, 1) və digər abidələrdən tapılmışdır. E. ə. X əsrdə Cənubi Qafqazda geniş yayılan və İranada da ortaya çıxan bu xəncərlər e.ə. IX-VII əsrlərə qədər istifadə edilmişdir (39, s. 72).

İkinci tip xəncərlərin konusvari başlıqları tiyə ilə birlikdə tökülmüşdür (Şəkil 8, 1). Xəncərin tiyəsi ilə birlikdə tökülən silindir dəstəyi şəbəkəli konusvari başlıqla tamamlanır. Dəstəsinin ortasında ağac inkrustasiya keçirmək üçün oval çərçivə vardır. Dəstənin çərçivəsində və konusvari başlıqda ağac inkrustasiyanın çürümüş qalıqları saxlanmışdır. Bu tip xəncərlər də Xocalı-Gədəbəy mədəniyyəti üçün xarakterikdir. Belə xəncərlər Gədəbəy (1, tablo 55, 4-7, tablo 56, 4), Xocalı (28, c. 151), Mingəçevir (22, tablo XIII, 4-14; 11, tablo II, 20-22, tablo III, 1-2) və digər nekropollardan tapılmışdır.




Şəkil / Figure 8. Kolanı nekropolu. Birinci (2-3) ve ikinci tip (1) Xocalı-Gədəbəy xəncərləri / Kolanı necropolis. First (2-3) and second type (1) Hodjalı-Gedebey daggers (Vəli Baxşəliyev).

**Qumluq yaşayış yeri.** Qumluq yaşayış yeri Ordubad rayonun Bist kəndi yaxınlığıda, Nəsirvaz çayının sağ sahilində yerləşir (Şəkil 9). Yaşayış yeri yerüstü araşdırmalarla tədqiq edilmiş, Son Tunc və Erkən Dəmir dövrünə aid keramika və əmək alətləri aşkar olunmuşdur (Şəkil 10). Mədəni təbəqənin az yığılması, tapıntıların azlığı yaşayış yerində həyatın mövsümi xarakterdə olduğunu göstərir. Xocalı-Gədəbəy mədəniyyəti ilə bağlı tapıntılar başlıca olaraq yaşayış yerinin yaxınlığında yerləşən nekropoldan aşkar olunmuşdur.

**Qumluq nekropolu.** Qumluq nekropolu yaşayış yerinin şimal tərəfində, Nəsirvazçayın sağ sahilində yerləşir. Nekropoldakı mezarların bir qismi sel suları tərəfindən, digər qismi isə kanal qazılarkən dağıntıya uğramışdı. Nekropoldakı qəbirlər daş qutu tiplidir (Şəkil 11, 9-10). Dağıdılmış qəbirlərin bəzilərinin materialları vaxtilə kənd əhalisi tərəfindən toplanmış

və araşdırma zamanı bizə təhvil verilmişdir. Nekropolda açkar olunan keramika məmulatı boz rənglidir. Bu maddi-mədəniyyət nümunələri arasında tunc xəncərlər də vardır (Şəkil 11, 7-8; Şəkil 12). Nekropolda bir hissəsi dağıdılmış qəbir abidələrinin bəziləri bizim tərəfimizdən araşdırılarkən Son Tunc və Erkən Dəmir dövrünə aid keramika nümunələri aşkar olunmuşdur (Şəkil 11, 1-6). Nekropolda dağıdılmış qəbirlərin birindən Xocalı-Gədəbəy mədəniyyəti üçün xarakterik olan tunc xəncər də aşkar olunmuşdur. Bu xəncərlər Kolanı nekropolundan aşkar olunan ikinci tip xəncərlərlə bənzərdir. Bu tip xəncərlər Naxçıvanda Qumluq, Kolanı (25, s. 42; 24, s. 219), Bayəhməddən tapılmışdır.

**Bayəhməd yaşayış yeri.** Bu yaşayış yeri Culfa rayonunun Bayəhməd kəndindən cənub-qərbdə, dağ çayının kənarında yerləşir. Yerüstü araşdırmalar zamanı yaşayış yerindən Xocalı-Gədəbəy mədəniyyəti üçün xarakterik olan boz rəngli keramika parçaları aşkar olunmuşdur. Tapıntıların azlığı yaşayış yerində həyatın mövsümi xarakterdə olduğunu deməyə imkan verir.



**Şəkil / Figure 9.** Qumluq yaşayış yeri / Kumluk settlement (Vəli Baxşəliyev).

**Bayəhməd nekropolu.** Bayəhməd nekropolu Culfa rayonunun eyni adlı kəndindən cənub-qərbdə, dağ silsiləsinin çaya yenən yamacında yerləşir (2, s. 119, şəkil 36). Nekropol 1989-cu ildə Bayəhməd kəndinə gedən torpaq yolun təmiri zamanı dağıdılmışdır. Daş qutu tipli qəbirlərin bir qismi dağılmış, qəbirlərdən xeyli miqdarda keramika, bəzək əşyası, nizə ucları, tunc zəncirlər və başqa əşyalar ələ keçirilmişdir. Biz bu əşyaların olduqca az bir qismini toplaya bildik. 1991-ci ildə bizim apardığımız araşdırmalar zamanı nekropolda iki daş qutu tipli qəbir öyrənilmişdir. Daş qutu tipli qəbirlərin yan tərəfləri yastı sal daşlardan qurulmuş, divarların alçaq qismi qaba daşlarla hörülərək tamamlanmışdır. Tədqiq edilən birinci qəbir üçün kollektiv dəfn adəti xarakterik olmuşdur. Bu daş qutuda zəngin maddi mədəniyyət nümunələri aşkar edilmişdir (Şəkil 13). Bunlar tunc xəncər, bəzək əşyaları, və keramika məmulatından ibarətdir. İkinci qəbirdə insan skeletinə aid yalnız iki kiçik parça sümük aşkar olunmuşdur. Bu daş qutudan bir sırğa və bir neçə gil qab parçası aşkar edilmişdir.

Keramika məmulatı incə və iri qum qarışığı olan gildən hazırlanaraq boz rəngdə bişirilmişdir (Şəkil 13, 1-4). Hamısı əldə hazırlanan bu qablar xaricdən yüngülcə cilalanmışdır. Lakin bəzi qablar bir-biri üzərinə qoyulan lentlərdən hazırlanaraq yaxşı hamarlanmışdır. Bəzi qablar xaricdən qara rənglə boyanaraq hamarlanmışdır. Keramika məmulatı kasa, çölmək, küpə tipli qablardan ibarətdir.

Bayəhməddəki birinci qəbirdən aşkar olunan Xocalı-Gədəbəy tipli xəncər xüsusilə diqqətəlayiqdir. Bu xəncər Kolanı nekropolundan

açkar olunan ikinci tip xəncərlərlə bənzərdir. Konusvari şəbəkəli başlığı olan xəncər üçbucaqşəkilli tiyə ilə birlikdə dökülmüş, dəstəsinin ortasında ağac inkrustasiya keçirmək üçün çərçivə qoyulmuşdur (Şəkil 13, 14).

**Qazxan yaşayış yeri.** Bu yaşayış yeri Şərur rayonunun Çərçiboğan kəndindən cənubda yerləşir. Yaşayış yerinin yerində aparılan yerüstü araşdırmalar zamanı boz rəngli keramika parçaları aşkar olunmuşdur. Yer üstündə tikinti qalıqlarına rast gəlinməmişdir. Yaşayış yerinin ərazisi otla örtüldüyündən yaxşı araşdırıla bilməmişdir.

**Qazxan nekropolu.** Nekropol yaşayış yerinin cənubunda yerləşir. Nekropolun yerləşdiyi ərazi xalq arasında Kasxan, Kaxsan da adlandırılır. Nekropol hər tərəfdən əkin sahələri ilə əhatə olunmuşdur. Ərazi dəfələrlə əkildiyindən qəbirlərin yerüstü əlamətləri tamamilə itmişdir. Bu ərazidə kanal qazılarkən qəbirlərin biri təsadüfən dağıdılmışdır. Təəssüf ki, qəbir tamamilə dağıldığından onun tipini və formasını müəyyən etmək mümkün olmamışdır. Aşkar olunan arxeoloji materiallar boz rəngdə bişirilmiş üç küpə tipli qabdan ibarətdir. Qablar narın qum qarışığı olan gildən hazırlanaraq yaxşı bişirilmişdir. Onlardan birinin xarici səthi hamarlanmış, çəpinə çəkilmiş çərtmələrlə naxışlanmışdır (Şəkil 14, 1).

İkinci küpənin xarici səthi hamarlanaraq cilalanmış, həndəsi ornamentlə naxışlanmışdır. Naxışlar küpənin gövdəsini qazımaqla çəkilmiş, sonra onlar ağ rəngli maddə ilə doldurulmuşdur (Şəkil 14, 2). Bu tip keramika arxeoloji ədəbiyyatda ağ inkrustasiyalı keramika adlandırılmışdır. Bu motivdə naxışlanmış keramika Xanlar, Gəncə, Topalhəsənli, Bayan və Gəncəçay rayonunun digər abidələrindən aşkar olunmuş gil qablar arasında vardır. Böyük Xanlar kurqanından aşkar olunmuş çölməyin naxışlanma motivi, bu baxımdan, bizim nümunə ilə xüsusilə bənzərdir (31, s. 109). Üçüncü küpə formaca digərlərindən fərqlənir. Bikonik formalı küpənin oturacağı halqadabanlıdır (Şəkil 14, 3). Gövdəsinin ön tərəfində göbələkşəkilli çıxıntısı vardır. Göbələkşəkilli çıxıntısı olan bu tip küpələrə İlisu, Xanlar, Xaçbulaq və digər abidələrin materialları arasında rast gəlmək mümkündür. Qazxandan aşkar olunmuş küpənin naxışlanma motivi Xocalı-Gədəbəy keramikası ilə bənzər olsa da, orijinallığı ilə fərqlənir. Küpənin xarici səthi yaxşı cilalanmış, cızma üsulu ilə naxışlanmışdır. Naxışlar bir-biri içərisində yerləşdirilən dörd konsentrik dairənin bir-biri ilə birləşdirilməsindən ibarətdir. Bir-biri ilə birləşdirilən dairələrin yerləşdirilmə kompozisiyası xüsusilə diqqətçəkicidir. Kompozisiyanın mərkəzində bir-biri ilə əlaqələndirilən beş konsentrik dairə, onun sağ və sol tərəfində də sayı beş olan konsentrik dairələr yerləşdirilmişdir. Xanlar rayonundan aşkar olunmuş kasaların üzərində dünyanın beş hissəli horizontal quruluşunu əks etdirən “malta xaçı” təsvirlərinə (31, s. 98, s. 114), küpələrdən birin üzərində isə qrup halında yerləşdirilən beş konsentrik dairə təsvirinə (31, s. 113) rastlanması küpələrin üzərindəki təsvirlərin qədim insanların ideoloji görüşləri ilə bağlı olduğunu təsdiq edir.




**Şəkil / Figure 10.** Qumluq yaşayış yerinin tapıntıları / Findings from the Kumluk settlement (Vəli Baxşəliyev).



**Şəkil / Figure 11.** Qumluk nekropolunun tapıntıları / Findings from the Kumluk necropolis (Vəli Baxşəliyev).

**Larican nekropolu.** Bu nekropol Xudafərin körpüsünün yaxınlığında, Araz çayının cənubunda Cənubi Azərbaycanın Larican kəndi yaxınlığında yerləşir (20, s. 44). Nekropoldakı qəbir abidələri üzəri daş kurqanlarla örtülən torpaq qəbirlərdən ibarətdir. İ. Cəfərzadənin fikrinə görə çay daşlarından kurulmuş kurqanlar toprak kurqanların sonra olmuştur (34, c. 18). Azərbaycan araştırıcıları küçük toprak kurqanların daha öncə olduğunu qəbul etmişlər (31, c. 45; 7, s. 136). Qəbir avadanlığı başlıca olaraq keramika, bəzək əşyaları və silahlardan ibarətdir. Tunc xəncərlərin bir qrupu və təbərzin baltalar Xocalı Gədəbəy mədəniyyətinə aid xəncərlərə bənzərdir (Şəkil 15). Bunlar arasında konusvari başlığı, tiyədən ayrı tökülən xəncərlər Xocalı-Gədəbəy xəncərlərinin eynidir.

**Xocalı-Gədəbəy və Naxçıvan mədəniyyəti arasında əlaqələr. Keramika.** Xocalı-Gədəbəy mədəniyyətinin Naxçıvannın Son Tunc və Erkən Dəmir dövrü mədəniyyətinə təsiri keramika məmulatında aydın şəkildə izlənməkdədir. Tədqiqatlar göstərir ki, Xocalı-Gədəbəy mədəniyyəti əsasən özündən əvvəlki yerli mədəniyyətlər əsasında təşəkkül taparaq inkişaf etmişdir (18, s. 35; 3, s. 190). Xocalı-Gədəbəy mədəniyyətinin Azərbaycan ərazisində daha qədim abidələrlə əlaqəsini əsaslı şəkildə təsdiq edən dəlillər qismində saxsı məmulatının rolu əvəzsizdir. Belə ki, bu mədəniyyət üçün səciyyəvi olan saxsı məmulatını nəzərdən keçirsək görərik ki, boz rəngli cızma naxışlı keramika Azərbaycanda Erkən Tunc dövründən yayılmışdır (29, c. 82-83). Azərbaycanın şimal və qərb bölgələri Orta tunc dövründə də boz rəngli, cızma, kəsmə və basma naxışlı keramika ilə xarakterizə edilir (23, c. 145-147). Xocalı-Gədəbəy mədəniyyətinin erkən dövrünə aid qablarda Orta tunc dövrünün bəzəmə motivlərindən istifadə olunmuş, amma naxışlar boya ilə deyil, cızma, basma və kəsmə üsulu ilə icra olunmuşdur. Xocalı-Gədəbəy mədəniyyəti saxsı qabları bədii tərtibatına, naxış kompozisiyasının zənginliyinə görə çox seçilir. Arxeoloq N.Ə.Müseyibli və G.K.Axundova Zəyəmçay və Tovuzçay nekropollarının tapıntıları əsasında naxış motivlərini məzmun etibarilə 5 qrupa ayırmışlar (13, s. 12).

İ.M.Cəfərzadə bu mədəniyyət üçün səciyyəvi olan tapıntılar arasında qaracilalı qabların, tunc məmulatının, əqiq və pasta muncuqların, dəvəgözü və çaxmaqdaşı ox ucluqlarının üstünlük təşkil etdiyini bildirmiş, Xocalı-Gədəbəy mədəniyyətinə aid saxsı qabların səciyyəvi xüsusiyyətləri təsvir edilmişdi (35, c. 161-162).



**Şəkil / Fidure 12.** Qumluq nekropolu. Tunc xəncər / Kumluk necropolis. Bronze dagger (Vəli Baxşəliyev).

Hocalı-Gədəbəy mədəniyyətinin yayıldığı arealda fərqli xüsusiyyətlər izlənmişdir. Ağ pasta ilə inkrustasiya edilmiş keramika bu mədəniyyətin əsas xüsusiyyətlərindən biridir. Bu tip keramika Gəncəçay hövzəsində geniş yayılmışdır. Dağlıq Gədəbəy və Qarabağ zonasında zoomorf əlamətlərə və üzükvari oturacağa malik kannelyurlu qara cilalı qablar üstünlük təşkil etdiyi halda, ağ inkrustasiyalı qablara az-az təsadüf olunur. Burada qəbirlər daş qutu formasına malik olmaqla avadanlıqları tunc məmulatı və silahlarla zəngindir (32, c. 38). Ağ pasta ilə inkrustasiya edilmiş keramika məmulatına Naxçıvan abidələrində də rast gəlinmişdir (Şəkil 17). Naxçıvanda Xocalı-Gədəbəy mədəniyyətinin təsirini əks etdirən kurqanaltı torpaq qəbirlər və daş qutularda ağ inkrustasiyalı keramika qismən az aşkar olunmuş, kannelyur naxışlı keramika isə hər iki qrupa aid qəbir abidələrində tapılmışdır. Sarıdərə nekropolunda kurqanaltı torpaq qəbirlər və daş qutular eyni ərazidə, bir-birinin yaxınlığında aşkar olunmuşdur. Faktlar bu dövrdə Xocalı-Gədəbəy mədəniyyətini yaradan tayfalar arasında siyasi və mədəni cəhətdən birləşmə prosesinin getdiyini təsdiq edir. Xocalı-Gədəbəy mədəniyyəti üçün xarakterik keramika məmulatı da Naxçıvan abidələrindən yaxşı məlumdur. Bu tip keramika I Kültəpə (21, s. 313), II Kültəpə (23, s. 124), Şahtaxtı, Kolanı, Sarıdərə, Boyəhməd, Hakkıxlıq və digər abidələrdə aşkar olunmuşdur [2, 73-74; 24, 217-227]. Naxçıvanda aşkar olunan Xocalı-Gədəbəy mədəniyyəti abidələrinin tədqiqi göstərir ki, bu mədəniyyəti yaradan tayfaların bir qismi maldarlıqla məşğul olaraq köçəri həyat tərzi keçirmişdir. Belə ki, bu mədəniyyətə aid abidələrdə yaşayış mövsümi xarakterdə olduğundan mədəni təbəqə yığılmamışdır. I Kültəpə, II Kültəpə, Şahtaxtı, Yurdçu, Qızılburun və digər abidələrdə Xocalı-Gədəbəy mədəniyyəti elementlərinin ortaya çıxması bu tayfaların Naxçıvanın Arazboyu vadisində məskunlaşdığını göstərir.




**Şəkil / Figure 13.** Bayahmet nekropolunun tapıntıları / Findings from the Bayahmet necropolis (Vəli Baxşəliyev).

Xocalı-Gədəbəy mədəniyyətinin Naxçıvanın Son Tunc və Erkən Dəmir dövrü mədəniyyətinə təsiri bu tayfaları cənuba doğru hərəkəti ilə bağlı olmuşdur [2, s. 73]. Cənubi Azərbaycanda, Xudafərində bu mədəniyyətin təsirini əks etdirən abidələrin aşkar olunması da bunu təsdiq edir. Bu dövrdə Naxçıvanda Xocalı-Gədəbəy mədəniyyətinin elemenləri ilə seçilən abidələrlə yanaşı boyalı qablarla xarakterizə olunan abidələrin mövcudluğu, Boyalı qablar mədəniyyəti üçün xarakterik olan elementlərin, o cümlədən çaynik tipli qabların Xocalı-Gədəbəy tipli abidələrdə və əksinə Xocalı-Gədəbəy mədəniyyəti üçün xarakterik elementlərin Boyalı qablar mədəniyyəti nümunələrində yayılması bu tayfalar arasında siyasi və mədəni birləşmə prosesinin getdiyini göstərir [18, s. 37]. Boyalı qablar mədəniyyətinin geniş yayıldığı I Kültəpə, II Kültəpə və Şahtaxtıda Xocalı-Gədəbəy mədəniyyətinə məxsus elementlərin izlənməsi müəyyən əhali qrupunun, ola bilsin ki, hərbi qarnizonların bu yaşayış yerlərində məskunlaşdığını göstərir. Şübhəsiz ki, bu hadisələr Assuriya və Urartunun Azərbaycanın cənubuna fəal hərbi müdaxiləsi ilə əlaqədar tayfalar arasında yaranan hərbi-siyasi ittifaqla bağlı olmuşdur.

**Tunc məmulatı və bəzək əşyaları.** Xocalı-Gədəbəy mədəniyyətinin Cənubi Qafqaza, Naxçıvana və İrana təsirini göstərən ən mühüm maddi mədəniyyət nümunələrindən biri tunc xəncərlərdir. Cənubi Qafqaz xəncərlərinin bir qrupu ilə ortaq özəllikləri olan bu tip xəncərlər yalnızca Xocalı-Gədəbəy mədəniyyəti üçün xarakterikdir və bu mədəniyyətin yayıldığı arealdan kənarda heç rastlanmamışdır. Kolanı, Qumluq, Bayəhməd və Xudafərin nekropolundan bu tip xəncərlərin müxtəlif tiplərinin tapılması bu cənuba doğru yayılmasını təsdiq edən əsas faktlardandır.




**Şəkil / Figure 15.** Larican (1-4), Gəncə (5) və Xaçbulaq (6) kurqanlarının tapıntıları / Findings from the Larican (1-4), Gence (5) and Haçbulak (6) kurgans (5-Qummel; 6-H.Kəsəmənli; 1-4-Alireza Hejebri Nobari).

**Xocalı-Gədəbəy mədəniyyətinin yayılma arealı və Etiunilər.** Araşdırmalar göstərir ki, Xocalı-Gədəbəy mədəniyyətinə aid maddi mədəniyyət nümunələri ilə zəngin olan abidələr təsadüfən meydana gəlməmişdir. Son Sunc və Erkən Dəmir dövründə Cənubi Qafqazın böyük hissəsinə yayılmış özünəməxsus xüsusiyyətləri ilə həmdövr mədəniyyətlərinə güclü təsir etmişdir. Araşdırmalar göstərir ki, Xocalı-Gədəbəy mədəniyyəti tayfalarının geniş əraziyə yayılması həm bu tayfaların həyat tərzi, həm də onların regionun siyasi hadisələrinə yaxından müdaxiləsi ilə bağlı olmuşdur (2, s. 71-72).

**Xocalı-Gədəbəy mədəniyyətinin yayılma arealı.** Azərbaycanın Qarabağ bölgəsində Xocalı kəndində, daha sonra isə Gədəbəydə ortaya çıxan bu mədəniyyət (6, s. 73) Azərbaycanın qərb bölgələrində, Cənubi Gürcüstanda, Ermənistanın şimal bölgələrində və İranın şimal-şərqində yayılmışdır. Ancaq Xocalı-Gədəbəy mədəniyyətinin əsas mərkəzi Azərbaycanın qərb bölgələri olmuşdur. Bu mədəniyyətə aid abidələr Qarabağ, Gəncə və Gədəbəy qruplarına ayrılaraq araşdırılmışdır (31, c. 10). Xocalı-Gədəbəy mədəniyyətinə aid qəbirlər topraq örtüklü kurqanlar, daş örtüklü torpak kurqanlar və daş qutularla təmsil olunmuşdur (31, c. 11-52; 35, s. 84). XX əsrin 80-ci illərində aparılan araşdırmalar bu mədəniyyətin Naxçıvana da yayıldığı təsdiq edilmiş, XXI əsrin əvvəlində isə bu mədəniyyətə aid yeni tapıntılar əldə edilmişdir. Bu mədəniyyət sovet arxeologiyasının tanınmış nümayəndələrindən olan B.A.Kuftin tərəfindən “Gəncə-Qarabağ mədəniyyəti” kimi qələmə almışdı. Hələ XX əsrin 30-cu illərində e. ə. II minilliyin ikinci yarısı-I minilliyin əvvəllərinə aid abidələr qrupu “Xocalı-Gədəbəy arxeoloji mədəniyyəti” adı altında müxtəlif sovet arxeoloqları tərəfindən tədqiqatlara cəlb edilmişdir. Əlbəttə, həmin xronoloji çərçivəyə daxil olan abidələr kompleksinin bu cür adlanması təsadüfi olmayıb, əsasən ilk tapıntıların aşkar olunduğu ərazilərin-Xocalı və Gədəbəyin adları ilə əlaqədardır. Lakin haqqında bəhs etdiyimiz bu arxeoloji mədəniyyətin adı ilə bağlı digər variantlar da irəli sürülmüşdür. Belə ki, gürcü arxeoloqu K.Pizxelauri Xocalı-Gədəbəy mədəniyyətin yayılma arealına Kürün orta hövzəsini də əlavə edərək qədim Şida-Kartli bölgəsinin Son Tunc-Erkən Dəmir dövrü arxeoloji abidələr kompleksini “Mərkəzi Zaqafqaziya mədəniyyəti” kimi təqdim etmişdir (45, p. 140). N.V.Minkeviç-Mustafayeva bu mədəniyyəti “Mərkəzi və Şərqi Zaqafqaziyanın Son Tunc və Erkən Dəmir dövrü mədəniyyəti” kimi adlandırmağı təklif etmişdir (38, c. 137). Son zamanlar bəzi tədqiqatçılar “Merkezi Transkafkasya Kültürü” yerinə “Lçaşen-Tsitelgori Mədəniyyəti” ifadəsi işlətmişlər (42, s. 262). Bəzi tədqiqatçılar isə Ermənistanda yayılan bu mədəniyyətə yanlış olaraq “Lçaşen-Metsamor Mədəniyyəti” adı vermişdir (40, 119-126). Tədqiqatçılar Xocalı-Gədəbəy mədəniyyətinə məxsus tunc əşyaların köç yolu ilə Dunay ətrafından gətirildiyini söyləsə də (43, s. 61-82) bu fikirlər araşdırmalarla təsdiq olunmamışdır. Arxeoloji araşdırmalar göstərir ki, Qafqaz, o cümlədən Azərbaycan dünyanın ən qədim metallurgiya mərkəzlərindən biri olmuşdur (30, c. 7-216; 27, c. 4-118). Xocalı-Gədəbəy mədəniyyətinə aid tunc məmulatının İ.R.Səlimxanov tərəfindən spektral analizi isə onların hazırlanması üçün xammalın Gədəbəyin mis mədənlərindən götürüldüyünü təsdiq etmişdir (41, c. 20-28).

Son Tunc və Erkən dəmir dövründə Cənubi Qafqazın böyük bir qismini əhatə edən Xocalı-Gədəbəy mədəniyyəti Cənubi Qafqazın və Şimalı Qafqazın digər regionlarında formalaşan arxeoloji mədəniyyətlərdən müəyyən xüsusiyyətləri ilə fərqlənir. Bu fərqlər hər şeydən əvvəl Xocalı-Gədəbəy mədəniyyəti üçün xarakterik olan keramika məmulatında, silah tiplərində və dəfn adətində özünü büruzə verir. Xocalı-Gədəbəy mədəniyyətinin geniş yayıldığı arealda müəyyən lokal xüsusiyyətlər izlənsə də bu fərqlər həmin mədəniyyəti bütöv şəkildə dərk etməyə mane olmur. Çünki bu lokal xüsusiyyətlər Xocalı-Gədəbəy mədəniyyətinin ümumi əlamətləri içərisində ərimiş və bütövləşmişdir.

**Xocalı-Gədəbəy mədəniyyəti və Etiunilər.** Tədqiqatlar e. ə. I minilliyin əvvəlində Cənubi Qafqazda Uraru işğallarının artdığını göstərir. Culfa rayonunun Xoşkeşin kəndi yaxınlığında aşkar olunan İlandağ kitabəsində Urartu hökmdarı İşpuini və Menuanın adı xatırlanmış, e.ə. 820 və 810-cu illərdə onların hərbi hücumları və qələbələrindən bəhs edilmişdir. Bu kitabəyə görə İşpuini və Menua Arsinie və Ayanianu torpaqlarını işğal etmələri, Pluadidə kitabə qoymaları, urartuların Allahı Xaldinin şərəfinə qurban vermələri ilə fəxr edirmişlər. Kitabənin mətni belədir: “İlahi Haldinin əzəməti ilə İşpui-

ni Sardurinin oğlu və Meniua İşpuininin oğlu Arsine şəhərinin ölkəsini zəbt etdilər, İş [....şəhərinin] ölkəsini, Arsikua şəhərinin ölkəsini, Ayanianu şəhərinin ölkəsini zəbt etdilər, dağıtdılar. Pluadi ölkəsində onlar ilahi Haldiyə lövhə ucaltdılar və əmr verdilər: Pluadi ölkəsində ilahi Haldiyə öküz və qoyun, Haldinin arvadına inək qurban kəsilsin" [10, s. 107]. Kitabənin mətnində onların Arsinie və Ayanianu torpaqlarını işğal etmələrindən bəhs olunmuşdur. Lakin araşdırmalar göstərir ki Urartular heç vaxt bu ərazini işğal etməmişlər. Çünki onların kitabə qoyduğu Pluadi Arazın cənubunda, İran ərazisində yerləşir. Naxçıvanda Urartu qalalarının tikilməsi haqqında isə heç bir epiqrafik və arxeoloji dəlil yoxdur. Onlar sadəcə bu əraziyə işğalçı yürüşlər etmiş, lakin burada möhkəmlənə bilməmişlər. Elə buna görə də tanrı Haldiyə həsr edilmiş lövhə Pluadidə ucaldılmışdır. Göyçə hövzəsindəki Urartu hökmdarı I Argiştinin kitabəsində deyilir: "İlahi Haldi yürüşə çıxdı, öz silahı ilə Etiuni ölkəsinə qalib gəldi. Kixuni şəhərinin ölkəsinə qalib gəldi, onları Argiştinin qarşısında məğlub etdi ... gölün sahilində yerləşən Kixuni şəhərinin ölkəsini zəbt etdim, Aliştu şəhərinə çatdım, kişiləri, qadınları oradan apardım" [10, s. 110]. Kitabənin mətnindən göründüyü kimi I Argiştinin yürüşləri zamanı Etuni ölkəsinin bir qismi Urartular tərəfindən işğal edilmişdi. I Argistinin oğlu Sarduri Cənubi Qafqaza dəfələrlə yürüş etmiş, Araz vadisinə, Etiuni Etiuni ölkəsinə dəfələrlə hücum edərək üsyanları yatırdıqdan sonra Urmiya hövzəsinə qayıtmış və yenidən Etiuni ölkəsinə hücum edərək Etiuni ölkəsinin Erax və Abiliani bölgələrini istila etmişdi (37, s. 35).

Urartu kralı bu vilayətlərdə üsyanları yatırmak üçün üç dəfə yürüş etmişdi (37, s. 35). Urartuların Etuini tayfalarını uzaq şimalda, Göyçə gölünün yaxınlığında yerləşdiyini xatırlasa da, qeyd etmək lazımdır ki, bu tayfalar Naxçıvanın qonşuluğunda yerləşən böyük tayfa birliyi olmuşdur. Urartu hökmdarı II Argiştinin Sisian yaxınlığında tapılmış kitabəsində deyilir: "Mənim qarşıma ....Etiuhi ölkəsinin çarı gəldi, ölkəsinin vergisini mənə verdi..." [10, s. 118] Kitabənin mətni, Göyçə gölü hövzəsində yaşayan Etiuni tayfa birliyi Naxçıvan yaxınlığında yerləşdiyinə işarə edir və bu konfederasiyanın böyük ərazini əhatə etdiyini təsdiq edir. Kitabənin mətni həmçinin Etiuni konfederasiyasına daxil olan tayfaların xərac verməklə işğaldan yaxa qurtardığını, həmçinin onların urartulardan nisbi asılılığını göstərir. Tədqiqatçılar belə hesab edir ki, Etiuni Konfederasiyası İrekua adlı yerli qəbilələr tərəfindən yaradılmışdır (48, p. 40). E. ə. II. minilliyin sonunda burada yerləşən Xocalı-Gədəbəy mədəniyyəti ilə təmsil olunan (2, s. 33-34) tayfalar xarici işğalçılara qarşı mübarizədə mühüm rol oynamışlar. Xocalı-Gədəbəy mədəniyyətinin yayıldığı Azərbaycanın qərb bölgələrinin Qafqaz mənbələtində Uti (8, s. 17), yunan mənbələrində isə Otena adı ilə xatırlanması olduqca diqqətçəkicidir. Mənbələrin verdiyi məlumatlar Etiuni tayfalarının Araz çayı ilə Göyçə gölü arasında yerleşdiğini deməyə imkan verir. Salvini Etiuni ölkəsinin Cənubi Qafqazda yerləşən bölgənin adı olduğunu söyləmişdir (47, p. 51). Tədqiqatçılar bu bölgənin Sarıqamışla Göyçə (Sevan) gölünün şimal-qərb sahilləri arasında yerləşdiyini qeyd etmişlər (47, p. 37; 44, p. 34–35; 19, p. 62)




**Şəkil / Figür 16.** Kolanı nekropolu.
Ağ inkrustasiyalı keramika nümunələri /
Kolanı necropolis. Pottery covered with white paste
(Vəli Baxşəliyev).

Yuxarıda qeyd etdiyimiz kimi, bu dövrdə Naxçıvanda Xocalı-Gədəbəy mədəniyyəti yayılmışdı. Qeyd etmək lazımdır ki, Uti vilayətin lokallaklaşdırıldığı ərazi Xocalı-Gədəbəy mədəniyyətinin yayıldığı ərazi ilə üst-üstə düşür. Araşdırmalar zamanı Oğlanqaladan Xocalı-Gədəbəy mədəniyyətinə aid keramika məmulatı da aşkar olunmuşdur (46, p. 321-362). Oğlanqalanın tədqiqatları göstərir ki, bu qalanın ətrafında yaranan kiçik dövlət müəyyən mərhələdə Urartuların e.ə. 9-cu və 8-ci əsrlərdə müharibələr apardığı və Etuini adlandirdığı kiçik tayfaların və dövlətlərin birliyinə daxil olmuşdur (26, c. 12-15; 16, s. 36-37; 17, s. 15-34). Bu məlumatlara əsaslanaraq Naxçıvana yayılan Xocalı-Gədəbəy mədəniyyətinin Etuini tayfaları ilə bağlı olduğunu, Etiunilərlə ittifaq sayəsində urartuların bu ərazini işğal edə bilmədiyini deyə bilərik.

**Nəticə.** Araşdırmalar Xocalı-Gədəbəy mədəniyyətinin Qarabağın Tunc dövrü mədəniyyətləri ilə bağlı olduğunu göstərir. Nahçıvan, Gürcüstan və Ermənistanda Xocalı-Gədəbəy mədəniyyətinə məxsus maddi mədəniyyət nümunələrinin tapılması Azərbaycanın Qarabağ bölgəsində formalaşan bu mədəniyyətin ana vətənindən qərbə və cənuba doğru yayıldığını göstərir. Buna görə də Ermənistan və Gürcüstandakı Xocalı-Gədəbəy mədəniyyəti abidələrin “Lçaşen-Tsitelgori Mədəniyyəti”, yaxud “Lçaşen-Metsamor mədəniyyəti” adlandırılması tamamilə yanlışdır. Arazın cənubunda hələlik Larican nekropolu aşkar olunduğundan onların cənuba doğru yayılmasının sərhədlərini tam müəyyən etməyə imkan vermir. Ancaq arxeoloji tapıntılara əsaslanaraq bu Xocalı-Gədəbəy tayfalarının Naxçıvanda, Gürcüstanın cənubunda, indiki Ermənistanda Göyçə hövzəsində sıx yerləşdiyini deyə bilərik. Məlum olduğu kimi urartular indiki Ermənistan ərazisinin bir qismini işğal edib Teyşebani, Argiştixinili və Erebuni şəhərlərini qurduqdan sonra Azərbaycanın qərb torpaqları və Naxçıvanın sərhədlərində yerləşmişdilər. Urartu hökmdarı I Argistinin yazılarında Etiuni ölkəsinin Naxçıvanın yaxınlığındakı Sisian bölgəsində xatırlanması, Azərbaycanın qərb torpaqlarının Etiunilər tərəfindən məskunlaşdırıldığını göstərir. Bu dövrdə Azərbaycanın qərb torpaqlarında formalaşan mədəniyyət Xocalı-Gədəbəy mədəniyyəti idi. Azərbaycanın qərb torpaqlarının yazılı qaynaqlarda Uti və Otena adı ilə xatırlanması, bu Xocalı-Gədəbəy mədəniyyətinin Etiunilərə aid olduğunu göstərir. Xocalı-Gədəbəy mədəniyyətinə aid qəbirlərdən skif tipli maddi mədəniyyət nümunələrinin tapılması Etiunilərin skiflərlə qaynayıb qarışdığını təsdiq edir.

### Ədəbiyyat siyahısı


1. Avşarova İ.N. Xocalı-Gedebey mədəniyyəti tayfalarının bədii Tunc məmulatı (e.ə. XIV-VII əsrlər). Bakı, Nurlan, 2007, 150 s.
2. Baxşəliyev, V.B. Naxçıvanın Erkən Dəmir dövrü mədəniyyəti.Bakı, Elm, 2002, 128 s.
3. Baxşəliyev V.B. Azərbaycan arxeologiyası. Bakı, Elm, 2007, 240 s.
4. Baxşəliyev V.B. Son Tunc Və Erkən Dəmir dövrününə aid yeni abidə - Qazxan Nekropolu. Naxçıvan Dövlət Universitetinin Xəbərləri, 2008, № 5, s. 75-78.
5. Baxşəliyev V.B. Naxçıvan arxeologiyası. Naxçıvan, Əcəmi, 2023, 374 s.
6. Bünyadov T.A. Azərbaycan arxeologiyası. Bakı: Azərnəşr, 1960, 148 s.
7. Cəfərov H.F. 2000: Azərbaycan e.ə. IV minilliyin axırı – I minilliyin əvvəlində. Bakı: Elm, 188 s.
8. Kalankaytuklu Moisey. Albaniya tarixi. Bakı: Elm, 1993, 235 s.
9. Kesemenli H.P. Xaçbulaq daş daş qutu qəbirləri hakkında. AMM. VI c., Bakı, Elm, 1965, s. 32-43.
10. Qaşqay S. Qədim Azərbaycan tarixi mixi yazılı mənbələrdə. Bakı: Təhsil, 2006, 148 s.
11. Qazıyev S.M. Mingeçevirden tapılmış bəzi silahlardan. AMM. Bakı, Krasnıy Vostok, 1951, s. 5-31.
12. Novruzlu Ə., Baxşəliyev V. Culfa bölgəsinin arxeoloji abidələri.-Вакı : Elm, 1992, 184 s.
13. Müseyibli N.Ə., Axundova G.K. Xocalı-Gədəbəy mədəniyyəti keramikasının ornamentlərinin etnoarxeoloji tədqiqi // Azərbaycan arxeologiyası və etnoqrafiyası, № 2, 2013, s. 11-26.
14. Bahşaliyev V.B. Nahçıvanda bir Erken Demir Çağ nekropolü: Kolanı, Belleten, 1998, sayı 233, s. 1-13.
15. Bahşaliyev V.B., Ceylan, N., Bahşaliyev, E., Hasanova,H. Memmedova, Z.Ubeyd

Külterü'nün Güney Kafkasya'ya yayılımı ile ilişkili yeni veriler // TUBA-AR, 2024, 35, s. 35-50.

16. Bahşaliyev E.V. Urartuların Güney Kafkasya Politikası. Nahçıvan, Ecemi, 2021, 216 s.

17. Bahşaliyev E., Bahşaliyev V. Urartu Devleti'nin Güney Kafkasya Politikasında Nahçıvan'ın yeri // AMİSOS, 2019, sayı 4, s. 15-34.

18. Bahşaliyev V.B. Nahçıvan arkeolojisi. Istanbul, 1997, 128 s.

19. Çilingiroğlu, A. Urartu Tarihi. İzmir, Ege ÜniversitesiYayını, 1994, 150 s.

20. Ghuochi, A., Hejebri Nobari, A.Larican kurganları, 1. Ankara, Berikan, 2021, 208 s.

21. Абибуллаев О.А. Энеолит и бронза на территории Нахичеванской АССР. Баку: Элм, 1982, 316 с.

22. Асланов Г.М., Ваидов Р.М., Ионе Г.И. Древний Мингечаур. Баку, Изд-во АН Азерб.ССР, 1959, 190 с.

23. Алиев В.Г. Культура эпохи средней бронзы Азербайджана. Баку: Элм, 1991, 256 с.

24. Бахшалиев В.Б. Могильник эпохи раннего железа на территории древней Нахичевани. Российская археология, 1991, № 4, с. 217-227.

25. Бахшалиев В.Б. Некоторые образцы изобразительного искусства из могильника Коланы. Российская археология, 1995, № 3, с. 205-207.

26. Бахшалиев В.Б. Оглангала столица государства утиев // Ирс, 2012, № 3 (57), с. 12-15.

27. Бахшалиев В.Б. Древняя металлургия и металлообработка на территории Нахичевани. Баку: Элм, 2005, 120 с.

28. Ивановский А.А. По закавказью. МАК, вып. VI, М., 1911, с. 85-172.

29. Исмаилзаде Г.С. Азербайджан в системе раннебронзовой культурной общности Кавказа. Баку: Нафта-Пресс, 2008, 304 s.

30. Иессен А.А. К вопросу о древней металлургии меди на Кавказе // Известия ГАИМК. М.-Л, 1935, вып. 120, с. 7-216.

31. Гусейнова М.А. 1989: Керамика Восточного Закавказья эпохи поздней бронзы и раннего железа (XIV-IX вв. до н.э.). Баку: Элм, 204 с.

32. Гусейнова М. Из истории Южного Кавказа. Ходжалы-Гедабекская культура Азербайджана (XVI-IX вв до н.э.). Баку: Бизим китаб, 2011, 200 с.

33. Гуммель Я.И.Археологические раскопки в с. Кущи. В кн. Археологические очерки. Баку. Изд-во АзФАН СССР, 1940, с.128-144.

34. Джафарзаде И.М. 1941: Ходжалинская экспедиция (земляной курган № 5).- Изв. АзФАН ССР, № 2, с. 15-26.

35. Джафарзаде И.М. Развитие археологических работ в Азербайджанской ССР / Известия АН Азерб. ССР, № 6, 1945, с. 161-162

36. Кесеменли Г.П. Случайные находки из с. Хачбулаг Дашкесанского района. МАК, т.Х, Баку, Элм, 1987, с. 36-44.

37. Мещанинов, И.И. (1926) Предположительные сведения о движении халдов в пределы Азербайджана. Известия Азербайджанского Археологического Комитета. II, 33-38.

38. Минкевич-Мустафаувa Н.В. 1962: О датировке и хронологических этапах некоторых памятников Азербайджана эпохи поздней бронзы и раннего железа. МКА. Баку, т. IV, с. 109-139.

39. Пегребова М.Н. Иран и Закавказье в раннем железном веке. М., 1977, 184 с.

40. Пилипосян, А. С. Мецамор древнее городище эпохи бронзы и железа на территории Армении. История и современное мировозрение, 2024, № 1, 119-126.

41. Селимханов И.Р. Историко-химические исследования древних предметов из медных сплавов.-Баку: Изд-во АН Аз ССР, 1960, 183 с.

42. Akhvlediani N. I. Problems of the Chronology of Late Bronze Age and Early Iron Age Sites in Eastern Georgia(Kvemo Sasireti Hoard), Ancient Civilizations 11, 3-4, Leiden, 2005,11, p. 258-295.

43. Belck W. Waldemar Belck berichtet über archäologische Forschungen in Armenien // ZfE 25, 1893, s. 61-82.

44. Diakonoff I.M., Kashkai S.M., "Geographical Names According to Urartian Texts", Repertoire Geographique des textes Cuneiformes, Band 9, Wiesbaden, 1981: 34-71.

45. Pizchelauri K. Die zentraltranskaukasische archaologischekultur des 14.-13.jn. v. chr. (Kulturwesen, Charaktermerkmale, Verbreitungsareale). Tbilissi: Mezniereba, 2005.
46. Ristvet, L., Gopnık H., Bakhshalıyev, V., Lau H., Ashurov, S., and Bryant, R.,
"On the Edge of Empire: 2008-2009 Excavations at Oğlanqala, Azerbaijan". American Journal of Archaeology, 116/ 2, 2012: 321-362.
47. Salvini, M. The Historical Geography of the Sevan Region in the Urartian Period / In the Sevan Lake Basin, 1, The Southern Shores, edited by R. Biscione, S. Hmayakyan, and N. Parmegiani. Documenta Asiana, 2002, 7, 37-60.
48. Salvini, M. Geschichte Und Kultur Der Urartäer. Darmstadt: Wissenschaftliche Buchgesellschaft, 1995, 258 p.

## Summary

**Veli Bakhshaliyev, Rafia Soy, Elmar Bakhshaliyev**

**New Fındıngs Related To The Spread Of The Khojalı-Gedebey Culture To Nakhchıvan**

Hocalı-Gedebey Culture, formed in the west of Azerbaijan in the regions of Karabakh, Ganja and Gedabek, is also distributed in some regions of Georgia and Armenia. Studies conducted since 1986 have found that this culture is also widespread in Nakhchivan and Iranian Azerbaijan. The identification of nomadic settlements and necropolises in the mountainous regions of Nakhchivan, such as Kolanı, Sarıdere, Hakkıhlık and Kumluk, is associated with the spread of the Hocalı-Gedebey Culture in the southern regions. After passing through Karabakh and Nakhchivan, they settled in Iranian Azerbaijan. Archaeological finds revealed in Nakhchivan show that part of these tribes are inhabited in the settlements of Kültepe I, Kültepe II, Şahtahtı, Sederek, Şortepe, Kızılburun; and other nomadic lifestyles were located in mountainous and foothills. Studies show that these tribes settled in Nakhchivan for a long time and were accommodated in political events. Interpretation of archaeological materials shows that compounds appeared between the local population of Nakhchivan and the alien tribes. Apparently, the spread of the Hodjaly-Gedabey culture in the south of the late II and early I millennium BC. is associated with events developing in the South Caucasus. We think that Hocalı-Gedebey Culture distinguishing with peculiar ceramics and weapons were those tribes mentioned in the Urartian inscriptions under the name Etiuni. Apparently, the confederation of Etiuni was formed by local tribes. In this regard, it attracts attention that the territory of the Etiuni tribes mentioned in the Urartian inscriptions coincides with the territory of the Hocalı-Gedebey Culture, where the Uti tribes settled. The territory of these tribes in ancient sources was referred to as Otena. According to researchers, the country of Etiuni was the name of a certain region of the South Caucasus. Based on archaeological and written data, it can be said that the Etiuni tribes settled in the space bounded in the south by the Araxes River and in the north by Lake Gekce (present-day Sevan). This territory covered the western regions of Azerbaijan.
***Keywords:*** *South Caucasus, Urartu State, Hodjaly-Gedabey, Etiuni tribe, Gekce Basin.*

## Резюме

**Вели Бахшалиев, Рафиа Сой, Эльмар Бахшалиев**

## Новые находки, связанные с распространением Ходжалы-Гедабекской культуры на Нахчыван

Ходжалы-Гедабейская культура, сформировавшаяся в Карабахском, Гянджинском и Гедабейском районах на западе Азербайджана, распространилась на некоторые регионы нынешней Армении и Грузии. Исследования, проведенные с 1986 года, установили, что эта культура также распространена в Нахчыване и к югу от реки Араз. Существование кочевнических стоянок и некрополей, принадлежащих этой культуре, таких как Коланы, Сарыдаре, Хаккыхлык, Гумлуг, в горных районах Нахчывана, было связано с движением на юг племен, носителей ходжалы-гедабейской культуры. Эти племена прошли через Нахчыван и Карабах и поселились на юге реки Араз. Археологические находки, обнаруженные в Нахчыване, показывают, что одна группа этих племен проживала в Кюльтепе I, Кюльтепе II, Шахтахты, Садараке, Шортепе, Гызылбуруне и других населенных пунктах, а другие вели кочевой образ жизни и расселились в горных и предгорных районах. Исследования доказывают, что эти племена долгое время обосновались в Нахчыване и вмешивались в политические события. Изучение археологических материалов, найденных в Нахчыване, также позволяет сказать, что в это время происходило слияние ходжалинско-гедабейских племен с местными племенами Нахчывана. Миграция ходжалы-гедабейских племен на юг, вероятно, произошла в конце II – начале I тысячелетия. до н.э. Это было связано с политическими событиями, происходившими на Южном Кавказе. Мы считаем, что Ходжалы-Гедабейская культура, характеризующаяся уникальным оружием и керамикой, связана со страной Этиуни, упомянутой в надписях Урарту. Вполне вероятно, что конфедерация Этиуни была образована соединением Этуни  с местными племенами. Примечательно, что страна Этиуни, упоминаемая в надписях во время походов урартских царей на Южный Кавказ, совпадает с ареалом распространения на западе Азербайджана ходжалыно-гедабейской культуры, населённой племенами ути, и географией, называемой в греческих источниках Отеной. Некоторые исследователи утверждают, что страна Этиуни - это название региона, расположенного на Южном Кавказе. На основании информации, предоставленной источниками и археологическими материалами, можно сказать, что эти племена расселились между рекой Араз и озером Гейча (ныне Севан) и что эта страна охватывает запад Азербайджана.

***Ключевые слова:*** *Южный Кавказ, государство Урарту, Ходжалы-Гадабейская культура, страна Этиуни, бассейн Гейчи.*

UOT 343.1
https://doi.org/10.59849/2710-0820.2025.2.151

**Lalə Məmmədova**
*Hüquq üzrə fəlsəfə doktoru*
*Qarabağ Universiteti Humanitar və sosial elmlər fakültəsinin müəllimi*
*Azərbaycan*
*lala.mammadova@karabakh.edu.az*
*ORCID: 0009-0007-3995-3342*

# HÜQUQİ ŞƏXSLƏR BARƏSİNDƏ CİNAYƏT-HÜQUQİ TƏDBİRLƏRİN TƏTBİQİ: AZƏRBAYCAN RESPUBLİKASINDA MADDİ VƏ PROSESSUAL HÜQUQİ ASPEKTLƏR

***Açar sözlər:*** *hüquqi şəxs, cinayət-hüquqi tədbirlər, cinayət məsuliyyəti, prosessual hüquq, müqayisəli hüquq*

**Giriş.** Qlobal iqtisadi münasibətlərin sürətlə inkişaf etdiyi, beynəlxalq ticarət və investisiya axınlarının geniş vüsət aldığı müasir dövrdə transmilli kommersiya təşkilatlarının formalaşması və maliyyə sistemlərinin mürəkkəbləşməsi hüquqi şəxslərin iqtisadi və sosial münasibətlərdə iştirak səviyyəsini əhəmiyyətli dərəcədə artırmışdır. Bu şəraitdə hüquqi şəxslərin yalnız kommersiya subyekti kimi deyil, eyni zamanda potensial hüquq pozucusu kimi çıxış etməsi real və aktual olan problemdir. Xüsusilə, hüquqi şəxslərin birbaşa və ya dolayı yolla cinayət əməllərinin törədilməsində iştirakı – o cümlədən korrupsiya, cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması, vergi cinayətləri, ekoloji cinayətlər və digər iqtisadi yönümlü hüquq pozuntuları – hüquqi məsuliyyət məsələsini hüquq siyasətinin və normayaratma fəaliyyətinin mərkəzinə gətirmişdir [5,s.235].

Ənənəvi cinayət hüququ nəzəriyyəsində cinayət məsuliyyəti yalnız fiziki şəxslərin fərdi təqsiri əsasında formalaşsa da, müasir cinayətkarlığın sistemli struktur xarakter daşıması bu konsepsiyanın effektivliyini şübhə altına almışdır. Transmilli cinayətkar qrupların və ya böyük korporativ strukturların yaratdığı hüquq pozuntuları fonunda hüquqi şəxslərin də hüquqi məsuliyyətə cəlb olunması beynəlxalq hüquq müstəvisinin vacib tərkib hissəsinə çevrilmişdir. Bu baxımdan, hüquqi şəxslərin cinayət məsuliyyəti məsələsinə yanaşma artıq yalnız maddi cinayət hüququ çərçivəsində deyil, həm də prosessual hüququn mexanizmləri ilə birgə kompleks şəkildə tənzimlənməlidir. Hüquqi şəxslərə qarşı tətbiq edilən tədbirlərin məqsədi təkcə cəzalandırma funksiyası deyil, həm də preventiv, bərpaedici və qanunauyğunluğun təminatı funksiyalarını özündə əks etdirməlidir.

Azərbaycan Respublikasında bu istiqamətdə 2012-ci ildən etibarən mühüm hüquqi islahatlar həyata keçirilmişdir. Cinayət Məcəlləsinə əlavə edilmiş XV-II fəsildə hüquqi şəxslərə qarşı cinayət-hüquqi tədbirlərin tətbiqinin hüquqi bazası müəyyən edilmiş, Cinayət-Prosessual Məcəllədə isə hüquqi şəxslərlə bağlı xüsusi icraat forması və prosessual rejim təsbit olunmuşdur. Qanunvericilikdə hüquqi şəxsin nümayəndəsinin prosessual statusu, hüquqlarının müdafiə mexanizmləri, sübutların toplanması qaydaları, tədbirlərin tətbiqi prosesi, istintaq orqanlarının səlahiyyətləri və məhkəmənin qərar qəbuletmə mexanizmləri nəzərdə tutulsa da, təcrübədə bu müddəaların tətbiqində hüquqi boşluqlar, interpretasiya ziddiyyətləri müşahidə olunmaqdadır.

Məqalənin əsas məqsədi Azərbaycan Respublikasının cinayət və cinayət-prosessual qanunvericiliyində hüquqi şəxslərə qarşı tətbiq edilən cinayət-hüquqi tədbirlərin hüquqi mahiyyətini araşdırmaq, tətbiq zamanı mövcud problemləri və boşluqları müəyyənləşdirmək, həmçinin bu sahədə normativ və institusional təkmilləşdirmə zərurətinə dair elmi əsaslandırılmış nəticələr və təkliflər təqdim etməkdir. Bununla yanaşı, beynəlxalq və xarici ölkə təcrübəsi əsasında hüquqi şəxsin məsuliyyətinə dair müxtəlif

hüquqi modellərin nəzərdən keçirilməsi, Azərbaycan hüququ üçün daha optimal və effektiv modelin müəyyənləşdirilməsinə töhfə verməyi hədəfləyir.

## I Hüquqi şəxslərin cinayət məsuliyyətinin müəyyən olunmasının tarixi

Ənənəvi cinayət hüququ doktrinasında hüquqi şəxslər cinayət məsuliyyətinin subyekti kimi tanınmırdı. Bu mövqe, əsasən, cinayət məsuliyyətinin şəxsi və subyektiv xarakter daşıması ilə əsaslandırılırdı. Klassik nəzəriyyəyə görə, yalnız anlaqlı, şüurlu iradəyə malik, təqsirli fiziki şəxslər cinayət məsuliyyətinə cəlb oluna bilərdi. Lakin müasir hüquq doktrinası və praktikası bu yanaşmanın normativ və praktiki baxımdan yetərli olmadığını ortaya qoymuşdur.

XX əsrin ikinci yarısından başlayaraq transmilli şirkətlərin, maliyyə qurumlarının və digər kommersiya strukturlarının qlobal cinayətkarlıqda iştirakı, xüsusilə kütləvi vergi dələduzluqları, cinayət yolu ilə əldə olunmuş əmlakın legallaşdırılması, korrupsiya və insan hüquqlarının pozulması hallarına görə məsuliyyətin effektiv tətbiqinə ehtiyac yaranmışdır. Bu səbəbdən hüquqi şəxslərin məsuliyyətə cəlb olunması məsələsi beynəlxalq hüquqi müstəvidə mərkəzi yer tutmağa başlamışdır.

Bir sıra beynəlxalq sənədlər bu istiqamətdə əsas hüquqi baza rolunu oynamışdır. Ən önəmlilərindən biri 2000-ci il tarixli BMT-nin Transmilli Mütəşəkkil Cinayətkarlıqla Mübarizə Konvensiyasıdır [9]. Bu Konvensiyanın 10-cu maddəsində dövlətlərdən tələb olunur ki, hüquqi şəxslərin məsuliyyətini, istər cinayət-hüquqi, istərsə inzibati və ya mülki-hüquqi formada müəyyən etsinlər. Burada məqsəd, hüquqi şəxslərin məsuliyyətinin effektivliyini təmin etmək və cəzasızlıq sindromunu aradan qaldırmaqdır.

Eyni şəkildə, Avropa Şurasının “Korrupsiya ilə Mübarizə haqqında Cinayət Konvensiyası” (1999) da hüquqi şəxslərin məsuliyyətinə dair konkret öhdəliklər müəyyən edir. Konvensiyanın 18-ci maddəsinə əsasən, üzv dövlətlər hüquqi şəxslərin işçiləri və ya nümayəndələrinin korrupsiya cinayətləri törətdikləri hallarda həmin hüquqi şəxslərin məsuliyyət daşımasını təmin edən tədbirlər görməlidirlər.

Avropa İttifaqı çərçivəsində isə hüquqi şəxslərin məsuliyyətinə dair bir neçə mühüm direktiv qəbul edilmişdir. Məsələn, 2008/99/EC saylı “Ətraf mühitin cinayət hüququ vasitəsilə mühafizəsi” direktivi və 2017/1371/AB saylı “Avropa Birliyinin maliyyə mənafelərinin cinayət hüququ ilə müdafiəsi” direktivi, hüquqi şəxslərin məsuliyyətini açıq şəkildə ehtiva edir və onların cinayət-hüquqi sanksiyalara məruz qalmasını tələb edir [14, s.26]. Bu beynəlxalq və regional normativ sənədlərdə hüquqi şəxslərin məsuliyyəti yalnız cəza deyil, həm də preventiv və restutision (zərərin aradan qaldırılmasına yönəlmiş) məqsədlərlə əsaslandırılır. Hüquqi şəxsin məsuliyyəti yalnız törədilmiş cinayətə görə deyil, həmçinin lazımi nəzarət və idarəetmə tədbirlərinin görülməməsinə görə də tətbiq edilə bilər. Bu isə artıq "təqsir" meyarından fərqli, nəzarət və rəhbərlik məsuliyyəti anlayışını ortaya qoyur.

## II Hüquqi şəxslərə cinayət-hüquqi tədbirlərin tətbiqi: nəzəri və normativ müddəalar

Qərb ölkələrinin bir çoxunda – o cümlədən ABŞ, Böyük Britaniya, Fransa və Hollandiyada – hüquqi şəxslərin cinayət məsuliyyəti ya müstəqil, ya da fiziki şəxslərin məsuliyyəti ilə paralel şəkildə tətbiq olunmağa başlamışdır. Bu dövlətlərdə hüquqi şəxsin “kollektiv iradəyə malik olması” və bu iradənin şirkət daxilində qəbul edilən qərarlar vasitəsilə təzahür etməsi konsepsiyası əsas götürülmüşdür. Bu konseptual yanaşma hüquqi şəxsin cinayət-hüquqi tədbirlərə məruz qalmasını hüquqi və praktik cəhətdən əsaslandırmağa şərait yaratmışdır.

Hüquqi şəxslərin cinayət məsuliyyəti beynəlxalq hüquqi sənədlərdə də öz əksini tapmışdır. Xüsusilə, Birləşmiş Millətlər Təşkilatının Korrupsiyaya qarşı Konvensiyası (UNCAC, 2003) və Transmilli Mütəşəkkil Cinayətkarlığa qarşı Konvensiyası (Palermo Konvensiyası, 2000) hüquqi şəxslərin məsuliyyət daşımasını nəzərdə tutur [12, s.122]. Hər iki sənəddə dövlətlərdən tələb olunur ki, öz daxili qanunvericiliklərinə hüquqi şəxslər üçün səmərəli, mütənasib və çəkindirici tədbirlərin tətbiqini təmin edən mexanizmlər daxil etsinlər.

Avropa Şurası səviyyəsində isə bu yanaşmanı daha da inkişaf etdirən Kiber Cinayətlər üzrə Budapeşt Konvensiyası və Korrupsiyaya qarşı Cinayət Konvensiyası hüquqi şəxslərin məsuliyyətini normativ olaraq tanımaqdadır.

Avropa Şurasının 2016-cı il tarixli tövsiyə sənədlərində də vurğulanır ki, hüquqi şəxslərin cinayət-hüquqi məsuliyyəti yalnız repressiv mexanizm kimi deyil, həm də cinayətlərin qarşısının alınmasına xidmət edən preventiv funksiya daşımalıdır [11].

Müxtəlif ölkələrin hüquq sistemlərində hüquqi şəxslərin cinayət məsuliyyətinə yanaşmalar əhəmiyyətli dərəcədə fərqlənir. Anglo-sakson hüquq sistemində (xüsusilə ABŞ və Böyük Britaniya) hüquqi şəxslər müstəqil cinayət subyekti kimi tanınır və onların məsuliyyətə cəlb olunması üçün "kollektiv məsuliyyət", "törəmə məsuliyyət" və ya "şirkət daxilində təmsilçiliyə əsaslanan məsuliyyət" modellərindən istifadə olunur. Məsələn, ABŞ-da Təşkilatlar üçün Federal Cəza Təlimatları (*Federal Sentencing Guidelines for Organizations*) çərçivəsində hüquqi şəxslərə qarşı ciddi cərimələr və fəaliyyətin məhdudlaşdırılması kimi tədbirlər nəzərdə tutulur.

Kontinental Avropa hüquq sistemində isə uzun müddət bu məsələ daha ehtiyatla qarşılanmışdır. Almaniya və Avstriya kimi ölkələrdə hüquqi şəxslərə qarşı yalnız inzibati-hüquqi tədbirlərin tətbiq edilməsi nəzərdə tutulurdu. Lakin son onilliklərdə bu mövqedə də dəyişikliklər baş vermiş, məsələn, Fransa Cinayət Məcəlləsi hüquqi şəxslərə qarşı kompleks xarakterli cinayət-hüquqi tədbirlərin tətbiqini nəzərdə tutmuşdur.

## III Azərbaycan Respublikasının cinayət qanunvericiliyində hüquqi şəxslərin cinayət məsuliyyəti

Azərbaycan Respublikasının Cinayət Məcəlləsində hüquqi şəxslər barəsində cinayət-hüquqi tədbirlərin tətbiqi ilk dəfə 2012-ci ildə qəbul edilən dəyişikliklərlə sistemli şəkildə tənzimlənməyə başlanmışdır. Xüsusilə XV-II fəsil bu məsələyə həsr olunmuşdur və hüquqi şəxslərə qarşı tətbiq edilə biləcək cinayət-hüquqi tədbirlərin sistemini müəyyən edir [3]. Eyni zamanda, 99-4-cü maddə həmin tədbirlərin tətbiqi və ləğvi ilə bağlı prosessual əsasları tənzimləyir.

XV-II fəsildə qeyd olunur ki, hüquqi şəxs yalnız konkret cinayətlərin törədilməsinə görə məsuliyyət daşıya bilər və bu məsuliyyət yalnız hüquqi şəxsin adından, onun maraqları naminə və rəhbər vəzifəli şəxslərin iradəsi ilə törədilmiş əməllərə şamil edilir. Burada əsas problem ondadır ki, bu yanaşma hüquqi şəxslərin məsuliyyətini yalnız məhdud sayda hallar üçün mümkün edir və müasir cinayətkarlıq formalarına – xüsusilə də, iqtisadi və transsərhəd cinayətlərə qarşı adekvat müdaxilə imkanlarını zəiflədir[ 1].

Hüquqi şəxslərin cinayət məsuliyyətinin mühüm əlaməti cinayətin hüquqi şəxsin xeyrinə və ya onun maraqları naminə törədilməsidir. Cinayət Məcəlləsinin 99-4.1-ci maddəsinin mahiyyətinə uyğun olaraq, hüquqi şəxsin rəhbərinin qərarı hüquqi şəxsin qərarı kimi dəyərləndirilməli, çünki bu qərar sadəcə hüquqi şəxsin adından deyil, həm də onun xeyrinə və ya maraqları naminə qəbul edilmişdir. Əgər cinayət hüquqi şəxsin maraqları üçün törədilməyibsə, bu, hüquqi şəxsin deyil, məhz fiziki şəxsin törətdiyi cinayət kimi qəbul olunmalı və buna görə yalnız o, cinayət məsuliyyətinə cəlb oluna bilər.

Hüquqi şəxs barəsində cinayət-hüquqi tədbirin tətbiq edilməsi bu hallarda mümkün hesab edilir:

- cinayət əməli Cinayət Məcəlləsinin 99-4.5-ci maddəsində nəzərdə tutulmuş cinayətlər üzrə törədildikdə;
- cinayət əməli Cinayət Məcəlləsinin 99-4.1-ci maddəsində nəzərdə tutulmuş fiziki şəxslər tərəfindən törədildikdə;
- cinayət əməli hüquqi şəxsin xeyrinə və ya onun maraqlarının qorunması üçün törədildikdə.

Cinayət Məcəlləsinin 99-4.2-ci maddəsinə görə, hüquqi şəxsə cinayət-hüquqi tədbirlərin tətbiqi həmin əməli törətmiş və ya onun törədilməsində hər hansı bir şəkildə iştirak etmiş fiziki şəxsin cinayət məsuliyyətini istisna etmir. Maddənin tələblərinə uyğun olaraq, hüquqi şəxsə cinayət-hüquqi tədbirlərin tətbiqi fiziki şəxsin cinayət əməlinin törədilməsindəki rolundan – təşkilatçı, təhrikçi, icraçı və s. (hər hansı bir şəkildə iştirakından) asılı olmayaraq qanunvericilikdə nəzərdə tutulmuş qaydada cinayət məsuliyyətinə cəlb olunmasına təsir etmir.

Belə ki, fiziki və hüquqi şəxslərin məsuliyyətinin muxtariyyəti prinsipinə (*prinsiple of autonomus liability*) əsasən, fiziki şəxs barəsində cinayət təqibinə xitam verilməsi hüquqi şəxsin məsuliyyətə cəlb olunmasını istisna etmir. Bu prinsip əyani olaraq öz əksini Cinayət Məcəlləsinin 99-4.3-cü maddəsində göstərmişdir.

Həmin maddəyə görə, cinayətin bilavasitə icraçısı olan fiziki şəxs barəsində qanunla müəyyən olunmuş hallarda cinayət təqibinə xitam verilməsi hüquqi şəxsə qarşı cinayət-hüquqi tədbirinin tətbiqinə mane olmur.

Fiziki şəxs barəsində cinayət təqibinə xitam verilməsinin əsasları və nəticələri isə Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin (bundan sonra – Cinayət-Prosessual Məcəllə) 487-6.6-cı maddəsində nəzərdə tutulmuşdur. Həmin maddəyə əsasən, fiziki şəxs barəsində cinayət işinə bu Məcəllənin 39.1.5-ci maddəsində (şəxs əməli törətdikdən sonra öldükdə); 39.1.10-cu maddəsində (şəxs əməli anlaqsız vəziyyətdə törətdikdə); 39.1.11-ci maddəsində (şəxsin cinayət məsuliyyətindən azad edilməsi üçün əsaslar olduqda); 39.1.12-ci maddəsində (amnistiya aktına əsasən şəxs cinayət məsuliyyətindən azad edilməli olduqda) nəzərdə tutulmuş hallarda xitam verildikdə, müstəntiq hüquqi şəxs barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi üzrə işin məhkəməyə göndərilməsi haqqında qərar qəbul edir.

Bununla belə, qanunvericilik müəyyən edir ki, hüquqi şəxsin xeyrinə və ya onun maraqlarının qorunması üçün cinayət törətmiş fiziki şəxs Cinayət Məcəlləsinin 75-ci maddəsi ilə nəzərdə tutulmuş qaydada müddətin keçməsi ilə bağlı cinayət məsuliyyətindən azad edildikdə, hüquqi şəxs barəsində cinayət-hüquqi tədbirlər tətbiq edilə bilməz (Cinayət Məcəlləsinin 99-9-cu maddəsi).

Burada həmçinin nəzərə almaq lazımdır ki, Cinayət Məcəlləsinin 99-9-cu maddəsində göstərilməsə də, Cinayət-Prosessual Məcəlləsinin 487-6.3-cü maddəsində nəzərdə tutulmuşdur ki, fiziki şəxs barəsində cinayət işinə bəraətverici və həmin maddədə göstərilən digər əsaslarla xitam verildikdə hüquqi şəxslər barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi üzrə icraata xitam verilməsi haqqında qərar qəbul edilir.

AR Cinayət Məcəlləsinin 99-4.6-cı maddəsi məhkəmənin bu tədbirlərlə bağlı qərarının qəbul olunması, icrası və ləğvi qaydalarını müəyyən edir. Bu maddəyə əsasən məhkəmə cinayət-hüquqi tədbirin təyin olunması barədə qərar qəbul edənədək hüquqi şəxs yenidən təşkil olunduqda, tədbirlər həmin hüquqi şəxsin hüquqi varisinə şamil edilir. Cinayət-hüquqi tədbirin təyin edilməsi barədə qərar qəbul edildikdən sonra isə bu qərar tam icra olunana və ya ləğv edilənə qədər hüquqi şəxsin yenidən təşkil olunması və ya ləğv edilməsi qadağandır. Bununla belə, maddənin mətnində bəzi qeyri-müəyyənliklərin qalması və təcrübədə geniş tətbiq olunmaması hüquqi müəyyənlik prinsiplərinin tam təmin edilməsinə mane ola bilər.

Mövcud qanunvericiliyə görə hüquqi tədbirlərin növləri və tətbiq meyarlarına nəzər yetirsək məlum olur ki, hüquqi şəxslərə qarşı tətbiq edilə biləcək tədbirlərə cərimə, fəaliyyətin məhdudlaşdırılması və ya dayandırılması, ləğvetmə və s. aiddir. Bu tədbirlər repressiv xarakter daşımaqla yanaşı, həm də preventiv funksiyaya malikdir. Lakin onların tətbiqi üçün meyarlar qanunda birmənalı göstərilməmişdir. Məsələn, hansı hallarda hüquqi şəxs cərimələnir, hansı hallarda isə onun ləğv edilməsi tələb olunur – bu suallar əksər hallarda məhkəmənin diskresiyasına buraxılır. Bu isə hüquqi müəyyənliyin zəifləməsinə və normativ müddəaların tətbiqində selektiv yanaşma riskinin artmasına səbəb ola bilər.

Bu səbəbdən, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu 28 iyun 2024-cü il tarixli qərarında Cinayət Məcəlləsinin 99-5-ci maddəsinin şərhinə dair mühüm hüquqi mövqelər müəyyən etmişdir. Müraciət hüquqi şəxslərin cinayət məsuliyyəti ilə bağlı, xüsusilə əmlakı olmayan hüquqi şəxsə cərimə cinayət-hüquqi tədbirinin tətbiqinin mümkünlüyü məsələsinə aid idi [5].

Qərarda vurğulanmışdır ki, hüquqi şəxslərin cinayət məsuliyyətinin mövcudluğu korrupsiya, mütəşəkkil cinayətkarlıq və pul vəsaitlərinin leqallaşdırılması ilə mübarizə sahəsində beynəlxalq öhdəliklərdən irəli gəlir. Azərbaycan Respublikası Avropa Şurasının və BMT-nin müvafiq konvensiyalarına qoşularaq hüquqi şəxslərə cinayət-hüquqi tədbirlərin tətbiqini milli qanunvericiliyinə daxil etmişdir. Məhkəmə qeyd etmişdir ki, cinayət-hüquqi tədbirlər səmərəli, mütənasib və çəkindirici olmalıdır. Lakin əmlakı olmayan hüquqi şəxsə cərimə tədbirinin tətbiqi qanunun məqsədlərinə və ədalət prinsipinə zidd ola bilər, çünki belə sanksiya iqtisadi fəaliyyətin iflicinə gətirib çıxara və icrası mümkün olmayan qərarlar yarada bilər.

Qərara əsasən, cinayət-hüquqi tədbirlərin təyini zamanı məhkəmələr hüquqi şəxsin maliy-

yə-iqtisadi vəziyyətini, əmlakının dəyərini və cinayət nəticəsində əldə olunmuş gəlirin miqdarını nəzərə almalıdır. Əks halda, cərimə tədbiri hüquqi şəxsin fəaliyyətini dayandıran qeyri-mütənasib yükə çevrilə bilər.

Konstitusiya Məhkəməsi Milli Məclisə tövsiyə etmişdir ki, Cinayət Məcəlləsinin 99-5-ci maddəsi və əlaqəli normalar təkmilləşdirilsin, hüquqi şəxslərə tətbiq edilən cinayət-hüquqi tədbirlərin hüquqi müəyyənliyi gücləndirilsin və beynəlxalq təcrübəyə uyğun müxtəlif sanksiya formaları nəzərə alınsın (məsələn, fəaliyyətin məhdudlaşdırılması, tenderlərdə iştirak qadağası, şöbə və filialların bağlanması və s.) [5].

Eyni zamanda, hüquqi tədbirlərin tətbiqində subyektivliyin qarşısını almaq üçün aydın normativ kriteriyaların və sübutetmə standartlarının formalaşdırılmasına ehtiyac vardır. Hal-hazırda isə istintaq orqanları və məhkəmələrin bu tədbirləri tətbiq edərkən hansı hüquqi əsaslara söykənməli olduğu məsələsində təcrübədə müxtəlif yanaşmaların olduğu müşahidə olunur.

Azərbaycan qanunvericiliyi hüquqi şəxslərə qarşı tədbirlərin yalnız müəyyən fiziki şəxslərin iştirakı və ya iradəsi ilə törədilmiş cinayətlərə görə tətbiq edilməsini nəzərdə tutur. Bu, hüquqi şəxslərin məsuliyyətinin törədilmiş əmələ görə ikinci dərəcəli xarakter daşımasını göstərir. Təcrübədə isə bu yanaşma bir sıra problemlər yaradır. Belə ki, əgər fiziki şəxs müəyyən edilməyibsə, hüquqi şəxsə qarşı tədbir tətbiq edilə bilərmi?

Bu kimi suallar normativ və təcrübə baxımından cavabsız qalır və beynəlxalq təcrübə ilə müqayisədə milli qanunvericilikdəki bəzi boşluqları üzə çıxarır. Bir çox Avropa ölkələrində hüquqi şəxslərin müstəqil məsuliyyəti tanındığı halda, Azərbaycan cinayət hüququnda isə bu məsuliyyət daha çox törəmə və fiziki şəxslə bağlı xarakter daşıyır.

## IV Cinayət-prosessual hüquqda hüquqi şəxslərə tətbiq edilən tədbirlərin prosessual aspektləri

Hüquqi şəxslərə qarşı cinayət-hüquqi tədbirlərin tətbiqinə dair prosessual qaydalar Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin (CPM) 29 noyabr 2016-cı il tarixli Qanunla əlavə edilmiş LVI-1 fəslində öz əksini tapmışdır. Bu fəsil hüquqi şəxslərin cinayət mühakiməsində iştirakı ilə bağlı prosedur normaları tənzimləməklə yanaşı, onların prosessual statusunu, müdafiə hüquqlarını, nümayəndəlik institutunu və məhkəmə baxışının aparılması qaydalarını müəyyən edir.

Hüquqi şəxs barəsində cinayət-hüquqi tədbirlərin tətbiqi üzrə icraatın başlanması qərarı yalnız artıq başlanmış cinayət işi əhatəsində və müvafiq fiziki şəxsin şübhəli və ya təqsirləndirilən şəxs qismində tanındığı hallarda verilir. Bu qərarın verilməsi ibtidai araşdırmaya prosessual rəhbərlik həyata keçirən prokurorun səlahiyyətindədir. Hüquqi şəxs barəsində tədbirlərin tətbiqi üçün əsas, həmin hüquqi şəxsin xeyrinə və ya onun maraqlarını təmin etmək məqsədilə cinayətin törədildiyini sübut edən kifayət qədər məlumatların mövcud olmasıdır.

Müstəntiq tərəfindən hazırlanmış əsaslandırılmış vəsatət əsasında prokuror hüquqi şəxs barəsində tədbirlərin tətbiqi üzrə icraata başlamaq barədə qərar verir. Bu qərar 24 saat ərzində hüquqi şəxsə göndərilməlidir. Qeyd etmək lazımdır ki, hüquqi şəxslə bağlı icraat fiziki şəxsə dair əsas cinayət işindən ayrılmır və bir icraatda aparılır. Bununla belə, əgər fiziki şəxs barəsində icraat qanunla müəyyən olunmuş əsaslara görə (məsələn, ölümü, anlaqsızlıq və s.) xitam olunursa, toplanmış sübutlar hüquqi şəxsə qarşı tədbirin tətbiqi üçün yetərli hesab edilərək, iş müstəqil şəkildə məhkəməyə göndərilir.

Bu yanaşma hüquqi şəxsə qarşı müstəqil məsuliyyət forması nəzərdə tutmasa da, tədbirlərin tətbiqi üçün praktik mexanizm formalaşdırır.

Hüquqi şəxsin prosessual maraqlarının müdafiəsi onun qanuni nümayəndəsi vasitəsilə həyata keçirilir. CPM-in 7.0.28 və 7.0.31-1-ci maddələrinə əsasən, nümayəndə hüquqi şəxsin təsisçisi, rəhbəri və ya nizamnaməyə əsasən səlahiyyət verilmiş digər vəzifəli şəxs ola bilər [2]. Əgər hüquqi şəxs özü nümayəndə təyin etməzsə, bu vəzifə istintaq orqanının qərarı ilə müəyyən edilir. Bu isə potensial olaraq maraqların toqquşması və müdafiənin zəifliyi kimi praktiki problemlərə səbəb ola bilər.

Hüquqi şəxsin nümayəndəsi ilə yanaşı, onun müdafiəçiyə malik olmaq hüququ da tanınır. Hüquqi şəxsin nümayəndəsi yalnız bir nəfər ola bilərsə də, müdafiəçilərin sayı qa-

nunla məhdudlaşdırılmır. Bu hüquqların tanınması cinayət prosesində müdafiə hüququnun tam təmin edilməsinə yönəlib və ədalətli mühakimə hüququnun (fair trial) tərkib hissəsi kimi qiymətləndirilir.

Qanunvericiliyə əsasən, nümayəndə prosessual hüquqlarla və səlahiyyətlərə malikdir, məsələn: sübut təqdim etmək, vəsatətlər qaldırmaq, sənədlərlə tanış olmaq, məhkəmə baxışında iştirak etmək və s. Lakin təcrübədə nümayəndənin hüquqlarının təminatı, onun prosessual qaydaları bilməsi və prosesə fəal müdaxiləsi ilə bağlı çətinliklər müşahidə olunur.

13. http:/lib.aliyevheritage.org/ru 2428 604htmp

**Xülasə**

**Leyli Quliyeva**

**Azərbaycançılıq ideologiyası – güclü dövlətin əsası və ölkəmizin uğurlarının təminatçısıdır**

Məqalə ölkəmizin sosial-siyasi və mənəvi həyatında mühüm rol oynayan Azərbaycançılıq ideologiyasına həsr olunub. Qeyd olunur ki, Azərbaycan xalqı tərəfindən formalaşmış və zənginləşdirilmiş milli-mənəvi dəyərlər, əvəzolunmaz mədəniyyət və incəsənət nailiyyətləri, zəngin ədəbiyyatımız, xalqımızın dövlətçilik ənənələri, humanizm, həmrəylik, sülhsevərlik təcəssüm edir.

Müəllif qeyd edir ki, azərbaycançılığın milli dövlət ideologiyasına transformasiyası bilavasitə Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Heydər Əliyev tərəfindən əsası qoyulmuş azərbaycançılıq ideologiyasının formalaşması və inkişafı mühüm rol oynamış, milli özünüdərketmə və milli ruhun dirçəlişini müəyyənləşdirmişdir.

Məqalədə vurğulanır ki, azərbaycançılıq ideyaları bir çox Azərbaycan yazıçı və maarifçilərinin əsərlərində və yazılarında öz klassik ifadəsini tapmışdır. XIX-XX əsrlərdə azərbaycançılığın milli ideya kimi formalaşmasında ziyalılarımızın görkəmli nümayəndələri, mütəfəkkir, filosof, publisistlər mühüm rol oynamışlar. Azərbaycançılıq ideyasının təbliği Azərbaycanda ana dilinin, mədəniyyətinin, dövlətçilik konsepsiyasının milli kimliyini möhkəmləndirmək və inkişaf etdirmək məqsədi daşıyır. Azərbaycançılıq ideyası həm də ölkəmizin müstəqilliyini və suverenliyini qorumaq məqsədi daşıyır.

Müəllif müasir Azərbaycanda azərbaycançılıq ideologiyasının siyasi və mədəni konstruksiya kimi yenidən düşünmək üçün böyük potensiala və inkişaf perspektivlərinə malik olduğunu vurğulayır. Bu gün azərbaycançılıq təkcə milli birliyə deyil, həm də dünyəvi, texnoloji və mədəni inkişafa yönəlmiş qlobal rəqabətə köklənməlidir.

***Açar sözlər:*** *azərbaycançılıq ideologiyası, milli ideya, suveren və müstəqil Azərbaycan, Azərbaycanın müharibədə qələbəsi, TOT Sammiti*

**Summary**

**Leyli Guliyeva**

**The Ideology of Azerbaijani Identity is the Foundation of a Strong State and a Guarantee of our Country's Success**

This article is devoted to the ideology of Azerbaijanism, which plays a significant role in the socio-political and spiritual life of our country. It is emphasized that the ideology of Azerbaijanism, shaped and enriched by the national and spiritual values of our people, the transitory achievements of culture and art, and a rich literature, expresses humanism, solidarity, and peacefulness.

The author notes that the transformation of Azerbaijanism, one of the flagships of our statehood, into a national state ideology is associated with the name of National Leader Heydar Aliyev.

The formation and development of the ideology of Azerbaijanism in Azerbaijan, established by Heydar Aliyev, played a significant role and determined the revival of national self-awareness and national spirit. The article emphasizes that the ideas of Azerbaijanism found classical expression in the works and writings of most Azerbaijani writers and educators.

In the 19th and 20th centuries, prominent representatives of our intelligentsia, thinkers, philosophers, and publicists played a significant role in the development of Azerbaijanism as a national idea. The promotion of the idea of Azerbaijanism aims to strengthen and develop the national identity of the native language, culture, and concept of statehood in Azerbaijan. The idea of Azerbaijanism also aims to protect the independence and sovereignty of our country. The author emphasizes that in modern Azerbaijan, the ideology of Azerbaijanism has great potential and development prospects for rethinking as a political and cultural construct. Today, Azerbaijanism should be focused not only on national unity but also on global competition, oriented toward secular, technological, and cultural development.

***Keywords:*** *ideology of Azerbaijanism, national idea, sovereign and independent Azerbaijan, Azerbaijan's victory in the war, United Territories Summit*

UOT 342; 349.2
https://doi.org/10.59849/2710-0820.2025.2.171

**Oruc Məmmədov**
*hüquq üzrə fəlsəfə doktoru, dosent*
*Azərbaycan Dövlət İqtisad Universitetinin UNEC Biznes Məktəbinin*
*Biznesin idarə edilməsi kafedrasının dosenti*
*oruc_mammadov@mail.ru*
*Azərbaycan*
*Orcid: 0000-0002-3743-3024*

# DÖVLƏT QULLUĞUNDA ƏMƏK MÜNASİBƏTLƏRİNİN HÜQUQİ PRİNSİPLƏRİ

***Açar sözlər:*** *dövlət qulluğu, dövlət qulluqçusu, əmək münasibətləri, hüquqi prinsiplər*

**Mövzunun aktuallığı.** Müasir dövlət qulluğunu şərtləndirən əsas amillərdən biri onun hüquqi prinsiplərinin müəyyən edilməsidir. Bu baxımdan dövrün tələblərinə cavab verən dövlət qulluğu institutunun yaradılması, formalaşdırılması və inkişafı bir sıra hüquqi prinsiplərə əsaslanır. Bu prinsiplərin həyata keçirilməsinin nəticəsində dövlət qulluğunun milli modelini yaratmaq olar. Fikrimizcə, dövlət qulluğunun təşkili və dövlət qulluğu keçmənin əsas prinsipləri sistemində əmək münasibətlərinin tənzimlənməsinin hüquqi prinsipləri xüsusi əhəmiyyət kəsb edir. Bu prinsiplərin elmi-nəzəri və təcrübi kontekstdə əsaslandırılması, müvafiq qanunvericiliyin konsolidasiyasının və təkmilləşdirilməsinin təhlili aktuallığı ilə diqqəti cəlb edir. Qeyd edilənlərin fonunda demək olar ki, dövlət qulluğunda əmək münasibətlərinin hüquqi prinsiplərinin müəyyən edilməsi və onların mahiyyətinin təhlili müasir dövrdə mühüm əhəmiyyət kəsb edir. Fikrimizcə, Azərbaycan Respublikasında müasir dövlət qulluğu konsepsiyasının seçilməsi və əsaslandırılması prosesində dövlət qulluğunda əmək münasibətlərinin hüquqi prinsiplərinin də işlənib hazırlanması zəruridir.

Azərbaycan Respublikasında uğurla həyata keçirilən islahatlar sistemində dövlət qulluğunun davamlı olaraq təkmilləşdirilməsi mühüm yer tutur. Azərbaycan Respublikası Prezidentinin 23 noyabr 2018-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında dövlət qulluğunun inkişafına dair 2019-2025-ci illər üçün Strategiya"da nəzərdə tutulmuş bəzi məsələlər məhz dövlət qulluğunda əmək münasibətlərinin hüquqi prinsiplərindən irəli gəlir [3]. Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" təsdiq edilibdir [4]. Milli Prioritetlərin tərkib hissəsi kimi xüsusi vurğulanır ki, *"... yeni çağırışlara cavab verən müasir dövlət qulluğu sistemi və etikası formalaşmalıdır"* [4]. Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 22 iyul tarixli Sərəncamı ilə "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası" təsdiq edilibdir [5]. "2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın Tədbirlər Planının 3.1.9-cu yarımbəndində fəaliyyət istiqaməti olaraq *"Dövlət qulluğunda və iqtisadi idarəetmədə effektivliyin artırılması"*na dair məsələnin həyata keçirilməsi nəzərdə tutulubdur [5]. Göründüyü kimi dövlət tərəfindən həyata keçirilən islahatlar sistemində dövlət qulluğu mütəmadi olaraq, o cümlədən dövlət qulluğunda əmək münasibətlərinin hüquqi prinsipləri diqqət mərkəzində olmaqdadır. Bu amil öz növbəsində dövlət qulluğunda əmək münasibətlərinin hüquqi prinsiplərinin təhlilini zəruri edir.

Müasir ictimai həyatın bir fenomeni kimi dövlət qulluğu bəzi hüquq institutlarının qarşılıqlı vəhdətini özündə birləşdirir. Buna görə də dövlət qulluğunun hüquqi təbiətinə aid problemlərə dair metodoloji qeyri-müəyyənliklər də dövlət qulluğunda əmək münasibətlərinin tənziminə köklənən hüquqi prinsiplərin sistemləşdirilməsi ilə bağlı məsələnin tədqiqini zəruri etmişdir.

Yuxarıda qeyd edilənlər belə qənaətə gəlməyə əsas verir ki, dövlət qulluğunda əmək münasibətlərinin hüquqi prinsiplərinin nəzəri

və metodoloji əsaslarına, normativ bazasına dair məsələ müasir dövrdə **aktuallığı** ilə seçilir.

Tədqiqat zamanı konstitusiyaya, əmək və dövlət qulluğu haqqında qanunvericiliyə, dövlət qulluğunda əmək münasibətlərini xarakterizə edən hüquqi prinsiplərin tərkib elementlərinə, dövlət qulluğu sahəsində xarici və yerli tədqiqatçıların əsərlərinə istinad edilibdir. Dövlət qulluğunda əmək münasibətlərinin hüquqi prinsiplərini xarakterizə edən bir sıra ümumi məsələlərə bu və ya digər dərəcədə bəzi müəlliflər tərəfindən diqqət yetirilmişdir. Dövlət qulluğunun prinsipləri Ə.H.Rzayev [13, s.140-160], Q.V.Atamançuk [15, s.138-146], Y.N.Starilov [23, s.198-231; 24, s.191-221], V.D.Qrajdan [17, s.228-250] və digər alimlər tərəfindən geniş təhlil olunmuşdur.

Dövlət qulluğunun prinsiplərinə dair məsələ Azərbaycanda və xarici ölkələrdə ümumi kontekstdə tədqiq edilmişdir. Lakin dövlət qulluğunda əmək münasibətlərinin hüquqi prinsiplərinə dair əsaslı və xüsusi elmi təhlillər aparılmamış, onun müasir modeli formalaşdırılmamışdır. Bu amil dövlət qulluğu hüquq elmi üçün seçilmiş mövzunun aktuallığını, onun hüquqi təhlilinin zəruriliyini, **elmi yeniliyini** və **təcrübi əhəmiyyətini** özündə ehtiva edir.

Tədqiqatın **məqsədi** dövlət qulluğunda əmək münasibətlərinin hüquqi prinsiplərinə dair elmi və normativ müddəaların təhlilindən ibarətdir. Göstərilən məqsədə nail olmaq üçün tədqiqat zamanı qarşıya: dövlət qulluğunda əmək münasibətlərinin hüquqi prinsiplərini xarakterizə edən nəzəri baxışları ümumiləşdirmək, müvafiq normativ bazanı və onun tərkib elementlərini müəyyən etmək, onun anlayışına, müasir modelinin formalaşmasına aid mülahizələr ifadə etmək və qanunvericiliyin təkmilləşdirilməsinə dair təkliflərin verilməsi kimi **vəzifələr** qoyulmuşdur.

Tədqiqatın **nəzəri-metodoloji əsasını** idrakın ümumi elmi metodları, o cümlədən, elmi-nəzəri və normativ hüquqi mənbələrin təhlili, ümumiləşdirmə, xüsusi elmi metodlar, hüquqi şərh və s. təşkil edir.

**Əsas materialın şərhi.** Dövlət idarəetməsinin müxtəlif sahələrində, o cümlədən dövlət qulluğu sistemində idarəetmə proseslərinin mahiyyətini və xüsusiyyətlərini ifadə edən dövlət idarəetməsinin hüquqi prinsiplərinə dair məsələ mühüm nəzəri və təcrübi əhəmiyyətə malikdir. Dövlət idarəetməsinin prinsiplərinə əməl olunması bütün dövlət idarəçiliyi sisteminin qanunauyğun fəaliyyət göstərməsinin, dövlət aparatının strukturunda və fəaliyyətində islahatların aparılmasının, kompleks olaraq dövlət orqanlarının və vəzifəli şəxslərin qarşısında duran prioritet vəzifələrin uğurla həll edilməsinin fundamental əsasını təşkil edir.

Dövlət qulluğunda əmək münasibətlərinin hüquqi prinsipləri özündə sahə üzrə hüquqi tənzimləmənin məzmunu, mahiyyəti və hüquq normalarının sistemi kimi məsələlərin inkişaf istiqamətini ehtiva edir. Bu nöqteyi-nəzərdən dövlət qulluğunda əmək münasibətlərinin hüquqi prinsiplərinin tərkib elementlərini müəyyən etmək üçün "prinsip"in mahiyyətinə dair ifadə edilmiş ümumi və xüsusi elmi müddəalar mühüm əhəmiyyət kəsb edir.

"Azərbaycan dilinin izahlı lüğəti"ndə *"Prinsip [lat.] Hər hansı bir nəzəriyyənin, təlimin, əqidənin, dünyagörüşünün, elmin və s.-nin əsas müddəası, çıxış nöqtəsi"* kimi ifadə edilmişdir [7, s.621]. A.M.Qasımov yazır: *"Prinsip" (prinsipium) latın sözü olub, etimoloji mənası "ilkin", "əsas", "başlanğıc", "əsas müddəa", "rəhbər ideya", "əsas davranış qaydası" terminlərinin mənası ilə eyniyyət təşkil edir"* [11, s.103].

M.F.Məlikovanın fikrincə, "*hüququn prinsipləri – hüququn mahiyyətini, sosial təyinatını və məqsədyönlülüyünü ifadə edən rəhbər başlanğıclar, ideyalar, əsaslardır" [12, s.51].* V.V.Lazarevin redaktorluğu ilə yazılmış "Ümumi hüquq və dövlət nəzəriyyəsi" adlı dərslikdə isə qeyd edilir ki, *"... hüquq obyektiv cəhətdən əsaslandırılmış, sosial ədalət prinsiplərinə cavab verən, dövlət hakimiyyətinin nüfuzu və gücü ilə qorunan normativ tənzimləmə sistemidir. O, real fəaliyyət göstərən hüquqi prinsiplər və qaydalarda qarşılıqlı bağlılığa malikdir"* [14, s.124]. R.Z.Livşits yazır ki, *"prinsip ilkin istiqamət, başlanğıcdır. Bütün digər sahələrdə olduğu kimi hüquq sahəsində prinsip, ilk növbədə, ideyadır, lakin o, yalnız ideya deyildir, çünki hüquq ideyalarla məhdudlaşmayıb normaları, sosial münasibətləri əhatə etdiyindən, onun prinsipləri də ideyaların çərçivələrindən kənara çıxaraq, normativ və hüquqtətbiqi məzmun kəsb edir"* [20, s.195].

O.V.Smirnovun və b.-ın redaktorluğu ilə yazılmış "Əmək hüququ" adlı dərslikdə göstərilir ki, *"Fəaliyyət sahəsinə görə ənənəvi olaraq prinsiplərin aşağıdakı növləri fərqləndirilir:*

*- ümumhüquqi prinsiplər (hüququn bütün sistemi üçün əhəmiyyətlidir);*

*- sahələrarası prinsiplər (hüquq sistemində bir neçə hüquq sahəsi üçün əhəmiyyətlidir);*

*- sahəvi (əsas) prinsiplər (hüququn konkret hər hansı bir sahəsi üçün əhəmiyyətlidir);*

*- hüquq sahəsinin institutlarının prinsipləri (hüquq sahəsinin bir institutu üçün əhəmiyyətlidir)"* [26, s.52].

Təcrübə və hüquqi baza təsdiq edir ki, dövlət qulluğu ilə əmək hüququ qarşılıqlı əlaqədədir. Dövlət qulluğu əmək fəaliyyətinin növlərindən biridir. Əmək hüququ olmadan dövlət qulluğunun həyata keçirilməsi isə absurddur. Buna görə də dövlət qulluğu münasibətlərinin hüquqi prinsipləri sistemində əmək hüququnun sahəvi prinsipləri mühüm yer tutur. A.M.Qasımov əmək hüququnun prinsiplərinə aşağıdakı məzmunda anlayışın verilməsini məqsədəmüvafiq hesab edir: *"Əmək hüququnun prinsipləri dedikdə qüvvədə olan qanunvericilikdə ifadə olunmuş, əmək və onunla sıx bağlı olan digər ictimai münasibətlərin hüquqi tənzimlənməsinin əsas əlamətlərini (mahiyyətini), daxili vahidliyini, məzmununu və ümumi istiqamətlərini əks etdirən ilkin başlanğıclar, rəhbər ideyalar (müddəalar) başa düşülür"* [11, s.112]. İ.O.Sniqiryeva hesab edir ki, *"Əmək hüququnun prinsipləri əmək münasibətlərinin və onlarla bilavasitə sıx bağlı olan digər münasibətlərin tənzimlənməsində dövlətin məqsədlərini ifadə edən, ümumi məcburi normalarda təsbit edilmiş əsas başlanğıc, ideyalardır"* [22, s.493]. Fikrimizcə, əmək hüququnun sahəvi prinsiplərinin mahiyyəti A.M.Qasımov tərəfindən verilmiş anlayışda daha geniş, İ.O.Sniqiryeva tərəfindən verilmiş tərifdə isə qısa və dolğun məzmunda verilmişdir. Ümumiyyətlə, əmək hüquq elmində onun prinsiplərinə dair çoxsaylı oxşar və fərqli cəhətləri ilə diqqəti cəlb edən anlayışlar ifadə edilmişdir.

Dövlət idarəçiliyini xarakterizə edən prinsiplərə dair nəzəri baxışlar da öz növbəsində mühüm əhəmiyyət kəsb edir. V.N.Uvarovun fikrincə, *"Dövlət idarəçiliyinə münasibətdə prinsip mərkəzi anlayışdır, çünki o, bütün inzibati sistemin əsasını təşkil edir"* [27, s.34]. A.F.Süleymanov və b. yazırlar ki, *"Seçilmiş dövlət idarəetmə formasından, dövlətin inkişaf istiqamətlərindən asılı olaraq hər bir dövlətin özünəməxsus idarəçilik prinsipləri vardır. Nəzəri baxımdan dövlət idarəçiliyinin prinsiplərini beş əsas bloka bölmək olar: 1) ümumi sistem prinsipləri; 2) məqsəd-struktur prinsipləri; 3) təşkilati-struktur prinsipləri; 4) funksional-struktur prinsipləri; 5) prosessual-struktur prinsipləri"* [25, s.178-179]. Fikrimizcə, bu bölgü təqdirəlayiqdir. F.İ.Bokijanova və b. tərəfindən dövlət idarəçiliyi prinsiplərinin xidməti rolu aşağıdakı kimi ifadə olunur: *"Prinsiplər idarəetmə təcrübəsi üçün rəsmi təlimatlar kimi çıxış edir, çünki onlar qanunvericilik aktlarında təsbit olunur və idarəetmə münasibətləri iştirakçılarının davranışlarını dövlət quruculuğunun, dövlət aparatının islahatlarının və dövlət qulluğunun təşkilinin rəhbər ideyalarına uyğun istiqamətləndirir; prinsiplər idarəetmə münasibətlərinin hüquqi tənzimlənməsi üçün ilkin göstərişlərdir (əsas prinsiplərdir)"* [16, s.48].

Dövlət qulluğunun prinsiplərinə dair irəli sürülmüş elmi baxışlar dövlət qulluğunun daxili elementləri üzrə prinsiplərin təsnifatını, onların fərqli cəhətlərini göstərir. V.P.Melnikov yazır: *"Məlum olduğu kimi, prinsiplər bütün dövlət qulluğu fəaliyyətinə sirayət edən və onlarda rəhbər və aparıcı rol oynayan əsas rəhbər müddəalar, ideyalardır. Beləliklə, dövlət qulluğu qanunvericilikdə təsbit olunmuş müəyyən prinsiplər əsasında təşkil olunur və fəaliyyət göstərir"* [21, s.435]. V.İ.Zajitskiyin fikrincə, *"Dövlət qulluğu prinsiplərinin məzmunu dövlət idarəçiliyinin fundamental kateqoriyası kimi dövlət qulluğunun təbiətini və mahiyyətini ən aydın şəkildə təcəssüm etdirir"* [18, s.92]. A.F.Süleymanov və b. hesab edirlər ki, *"Dövlət qulluğu prinsiplərinin sistemləşdirilməsinə dair müxtəlif yanaşmalar mövcuddur. Konstitusiya, təşkilati-funksional, sahəvi, xüsusi prinsiplər fərqləndirilir. Lakin eyni zamanda, müəlliflər izah edirlər ki, sahəvi və xüsusi əlamətlər dövlət qulluğuna dair xüsusi normativ hüquqi aktlarda olan və məsələn, hərbi xidmət prinsipləri kimi dövlət qulluğu xarakteri daşıyan konkret münasibətləri müəyyən edən prinsiplər kimi başa düşülməlidir"* [25, s.180].

Dövlət mülki qulluğu haqqında Rusiya Federasiyası Qanunun Kommentariyasının müəllifləri yazır ki, *"dövlət qulluğu prinsipləri (prinsip) – mərkəzi anlayışdır, rəhbər ideyadır, sistemin əsasıdır; o, hər hansı müddəanı ümumiləşdirir və təcrid etdiyi sahənin bütün reallıqlarına şamil edir"* [19, s.23]. "Dövlət qulluğu haqqında" Ukrayna Qanunun elmi-praktiki Kommentariyasının müəlliflərinin fikrincə, *"Dövlət qulluğunun prinsipləri cəmiyyətin və dövlətin inkişafının obyektiv qanunauyğunluqlarını əks etdirən başlanğıc nöqtələri və nəzəri fikirləri müəyyən edir, bütün dövlət orqanlarının formalaşması və fəaliyyət göstərməsi üçün əsasdır"* [28, s.59].

Ə.H.Rzayev yazır: *"Dövlət qulluğu onun praktiki təşkili və funksiya göstərməsində ideya və müddəaları müəyyən edən prinsiplərə əsaslanır. Prinsiplərin mənası dövlət qulluğunun mahiyyəti, əsas məzmunu, xarakterik xüsusiyyətlərini, dövlət hakimiyyəti, dövlət idarəetmə sistemi və cəmiyyətin həyatında yeri və rolunu göstərir. Dövlət qulluğunun prinsiplərinin əsas mənası ondadır ki, onlar dövlət qulluğunun hüquqi və təşkilati məzmununu, təşkilini və funksiya göstərməsini müəyyən edir, dövlət idarəetmə mexanizmində mühüm əlaqələri təmin edir. Hər bir konkret prinsip yalnız dövlət qulluğuna xas olan hansısa bir əlaqə – münasibəti, dövlət qulluqçularının fəaliyyətinin təşkilində qanunauyğunluğu əks etdirir. Prinsiplər qarşılıqlı əlaqəli və qarşılıqlı asılı olub, sistem kimi dövlət qulluğunu təşkil edir və funksiya göstərməsini təmin edir"* [13, s.154]. Ə.H.Rzayev tərəfindən irəli sürülmüş müddəalar özündə dövlət qulluğunun prinsiplərinin mahiyyətini, onun daxili elementlərini, strukturunun mürəkkəbliyini daha dolğun şəkildə əks etdirir.

Dövlət qulluğu hüquq institutunu müəyyən edən bütün normativ hüquqi aktlar dövlət qulluğunun prinsiplərinin əsasını təşkil edir. Buna görə də bu prinsipləri qanunverici dövlət qulluğu haqqında yeni normativ hüquqi aktlar qəbul edərkən, qüvvədə olanları dəyişdirərkən və ya ləğv edərkən həmin keyfiyyətdə nəzərə almalıdır. Müasir təcrübə göstərir ki, hüquqi normanın yaradılması zamanı istifadə edilən prinsiplər anlayışı çoxalmışdır və konkret deyildir. Hər kəs prinsipləri öz anlamına əsasən və öz mülahizəsinə uyğun olaraq şərh edir. Fikrimizcə, hüquqi prinsipin mahiyyətini aşağıdakı kimi xarakterizə etmək olar. Prinsip termini vasitəsilə halların, anlayışların və faktların mahiyyətinin əsasında duran başlanğıc ideyalar, əsas elementlər göstərilir. Hüquqi prinsip – müvafiq hüquqi sistemin əsasını müəyyən edir, hər hansı bir müddəanın ümumiləşdirilməsi kimi xarakterizə olunur, təcrid etdiyi sahənin əhatə olunduğu bütün münasibətlərə şamil edilir. Buna görə də hüquqi prinsip – hər şeydən əvvəl, daha ciddi təsvir edilmiş elmi məzmuna malik anlayış kimi çıxış edir və fundamental xarakter daşıyır. Mahiyyət etibarı ilə, hüquqi prinsip müəyyən qanunauyğunluqdan, insanların ictimai fəaliyyətə münasibətindən və onların qarşılıqlı əlaqəsindən ibarət olmalıdır. Hüquqi prinsip elmi müddəa kimi dərk edilir, mənbələrdə öz ifadəsini tapır, əksər hallarda hüquqi sənədlərdə təsbit olunur və təcrübədə tətbiq edilir. Hüquqi prinsip yalnız o halda prinsip hesab olunur ki, deklarativ xarakter daşımır, özünü real həyatda, təcrübədə, tətbiqdə, ictimai münasibətlərin tənzimlənməsində göstərir. Bu aspektlər hər bir sahə üçün, o cümlədən dövlət qulluğu və onun tərkib hissəsi olaraq dövlət qulluğunda əmək münasibətlərinin hüquqi prinsipləri üçün baza rolunda çıxış edir.

Nəzərə almaq lazımdır ki, dövlət qulluğunun təməlini konstitusion normalar təşkil edir. Buna görə də dövlət qulluğu hüquq münasibətlərinin, o cümlədən dövlət qulluğunda əmək münasibətlərinin hüquqi prinsiplərinin əsasını məhz konstitusion prinsip-normalar təşkil edir. Z.A.Əsgərov haqlı olaraq yazır: *"Konstitusiya ən yüksək hüquqi qüvvəyə malikdir. O yalnız hüquqi akt deyil, həm də hüquqi-siyasi aktdır. Bütün normativ hüquqi aktlar konstitusiyaya uyğun olmalı, onun konsepsiyası və hüquqtənzimləmə prinsipləri ilə uzlaşmalıdır. Konstitusiya ilə normativ hüquqi aktlar arasında ziddiyyət olarsa, konstitusiyanın normaları tətbiq edilməlidir"* [9, s.24].

Azərbaycan Respublikasının Konstitusiyası dövlət qulluğunun hüquqi tənzimlənməsi sistemində əsas və başlanğıc mənbədir. Konstitusiyanın hər bir müddəası bu və ya digər məzmunda dövlət qulluğu münasibətlərinin tənzimlənməsində əsas rola, başlanğıc mövqeyə malikdir. Başqa sözlə, Konstitusiyanın hər bir müddəası

dövlət qulluğu münasibətlərinin tənzimlənməsi üçün əsas prinsip statusuna malikdir.

Dövlət qulluğu kompleks hüquqi xarakter daşıyır. Buna görə də onun bütövlüyünü təşkil edən hüquq sahələrinin hər biri üzrə münasibətlərin tənzimlənməsi özünəməxsus prinsiplərlə əhatə edilir. Dövlət qulluğunda əmək münasibətlərinin hüquqi tənzimlənməsinin əsas prinsipləri Azərbaycan Respublikası Konstitusiyasının bir sıra maddələrində təsbit edilibdir. Konstitusiyanın vətəndaşların əmək hüququnu tənzim edən hər bir müddəası heç şübhəsiz ki, xüsusi işçi kateqoriyasını cəmləşdirən dövlət qulluğu sistemini də əhatə edir. Fərqli cəhət yalnız ondan ibarətdir ki, həmin kateqoriya şəxslərin bəzi hüquqları və azadlıqları ya birbaşa Konstitusiya ilə, ya da qanunlarla məhdudlaşdırılır, qadağalar müəyyən edilir. Bu halda vətəndaş əmək fəaliyyəti növü olaraq dövlət qulluğunu seçərkən özü həmin hüquq və azadlıqlarının məhdudlaşdırılması və ya qadağan edilməsi tələbi ilə razılaşır.

Azərbaycan Respublikasının Konstitusiyasının xüsusilə 24, 25, 26, 35, 36, 37, 38, 55, 68, 71 və 80-ci maddələri dövlət qulluğunda əmək münasibətlərinin konstitusion prinsiplərini özündə ehtiva edir.

Konstitusiyanın 24-cü maddəsi ilə "İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının əsas prinsipi" aşağıdakı kimi müəyyən edilir: *"İnsan ləyaqəti qorunur və ona hörmət edilir. Hər kəsin doğulduğu andan toxunulmaz, pozulmaz və ayrılmaz hüquqları və azadlıqları vardır. Hüquqlar və azadlıqlar hər kəsin cəmiyyət və başqa şəxslər qarşısında məsuliyyətini və vəzifələrini də əhatə edir. Hüquqlardan sui-istifadəyə yol verilmir"* [1]. Konstitusiyada "Bərabərlik hüququ"nun (maddə 25), "İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının müdafiəsi"nin (maddə 26), "İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təminatı"nın (maddə 71) əsas prinsipləri təsbit edilibdir. Bu prinsip-normalar heç şübhəsiz ki, dövlət qulluğunda əmək münasibətlərinin tənzimlənməsində başlanğıc ideyalar, əsas tənzimləyici müddəalar kimi çıxış edir.

Konstitusiyanın "Əmək hüququ" adlanan 35-ci maddəsində təsbit edilmiş prinsiplər mülkiyyət növündən, təşkilati-hüquqi formasından və tabeçiliyindən asılı olmayaraq ölkə üzrə bütün idarə, müəssisə və təşkilatlarda əmək münasibətlərinin tənzimlənməsinin əsasını, özülünü, bazisini, təməlini təşkil edir. Həmin maddəyə əsasən: *"Əmək fərdi və ictimai rifahın əsasıdır. Hər kəsin əməyə olan qabiliyyəti əsasında sərbəst surətdə özünə fəaliyyət növü, peşə, məşğuliyyət və iş yeri seçmək hüququ vardır. Heç kəs zorla işlədilə bilməz. Əmək müqavilələri sərbəst bağlanılır. Heç kəs əmək müqaviləsi bağlamağa məcbur edilə bilməz. Məhkəmə qərarı əsasında şərtləri və müddətləri qanunla nəzərdə tutulan məcburi əməyə cəlb etmək, hərbi xidmət zamanı səlahiyyətli şəxslərin əmrlərinin yerinə yetirilməsi ilə əlaqədar işlətmək, fövqəladə vəziyyət və hərbi vəziyyət zamanı vətəndaşlara tələb olunan işləri gördürmək hallarına yol verilir. Hər kəsin təhlükəsiz və sağlam şəraitdə işləmək, heç bir ayrı-seçkilik qoyulmadan öz işinə görə dövlətin müəyyənləşdirdiyi minimum əmək haqqı miqdarından az olmayan haqq almaq hüququ vardır. İşsizlərin dövlətdən sosial müavinət almaq hüququ vardır. Dövlət işsizliyin aradan qaldırılması üçün bütün imkanlarından istifadə edir"* [1]. Bu prinsip-normaların, əsas müddəaların hər biri bu və ya digər dərəcədə dövlət qulluğunda əmək münasibətlərinin tənzimlənməsinə öz təsirini göstərir. Burada əməyin azadlığı prinsipi və əmək müqaviləsinin azadlığı prinsipi xüsusilə diqqəti cəlb edir. A.M.Qasımov yazır: *"Əməyin azadlığı hər kəsin azad surətdə seçdiyi, yaxud hər kəsin azad surətdə razılaşdığı əməyə olan qabiliyyəti əsasında sərbəst surətdə özünə fəaliyyət növü, peşə, məşğuliyyət və iş yeri seçmək hüququ da daxil olmaqla, əməklə bağlı olan bütün ictimai münasibətlərin hüquqi tənzimlənməsini xarakterizə edən sahələrarası prinsipdir"* [11, s.118]. A.M.Qasımov tərəfindən müəyyən edilən əməyin azadlığı prinsipinin tərkib elementləri dövlət qulluğunda əmək münasibətlərinin hüquqi tənzimlənməsini də əhatə edir.

Konstitusiyanın 36-cı maddəsində "Tətil hüququ"na dair prinsip-normalar təsbit edilibdir. Həmin maddəyə əsasən "*Hər kəsin təkbaşına və ya başqaları ilə birlikdə tətil etmək hüququ vardır. Əmək müqaviləsi əsasında işləyənlərin tətil etmək hüququ yalnız qanunla nəzərdə tutulmuş hallarda məhdudlaşdırıla bilər. Azərbaycan Respublikasının Silahlı Qüvvələrində xidmət edən hərbi qulluqçular və mülki şəxslər tətil edə bilməzlər. Fərdi və kollektiv əmək mü-*

*bahisələri qanunla müəyyənləşdirilmiş qaydada həll edilir. Qanunla müəyyən edilmiş hallar istisna olmaqla, lokaut qadağandır"* [1]. Azərbaycan Respublikasının Əmək Məcəlləsinin 270-ci maddəsinin 8-ci hissəsinə əsasən *"Qanunvericilik, müvafiq icra hakimiyyəti, məhkəmə və hüquq-mühafizə orqanlarında işləyən vəzifəli şəxslər tətil edə bilməzlər"* [2]. Dövlət qulluğu haqqında Qanunun 20-ci maddəsi "Dövlət qulluğu ilə əlaqədar məhdudiyyətlər" adlanır. Həmin Qanunun 20.1.7-ci maddəsi ilə müəyyən edilir ki, dövlət qulluqçusunun "*tətillərdə və dövlət orqanlarının işini pozan digər hərəkətlərdə iştirak etməyə*" ixtiyarı yoxdur [8]. Tətil hüququnu məhdudlaşdıran normalar dövlət qulluğunun müxtəlif sahələrini tənzim edən bir sıra normativ hüquqi aktlarda öz əksini tapmışdır. Həm Əmək Məcəlləsinin, həm də Dövlət qulluğu haqqında Qanunun dövlət qulluğu sistemində tətil hüququnu məhdudlaşdıran normaları Konstitusiyanın "*Əmək müqaviləsi əsasında işləyənlərin tətil etmək hüququ yalnız qanunla nəzərdə tutulmuş hallarda məhdudlaşdırıla bilər"* (maddə 36) kimi təsbit edimiş prinsipinə uyğundur.

Dövlət qulluğunda əmək münasibətlərinin hüquqi prinsipləri sistemində istirahət hüququnun təmin edilməsinə dair konstitusion normalar xüsusi əhəmiyyət kəsb edir. Konstitusiyanın 37-ci maddəsində "İstirahət hüququ"nu xarakterizə edən prinsip-normalar aşağıdakı kimi təsbit edilibdir: *"Hər kəsin istirahət hüququ vardır. Əmək müqaviləsi ilə işləyənlərə qanunla müəyyən edilmiş, lakin gündə 8 saatdan artıq olmayan iş günü, istirahət və bayram günləri, ildə azı bir dəfə 21 təqvim günündən az olmayan ödənişli məzuniyyət verilməsi təmin edilir"* [1]. Bu maddədə nəzərdə tutulmuş prinsip-normalar hər hansı bir mübahisə yaratmadan dövlət qulluğu sistemini bütövlükdə əhatə edir. Dövlət qulluğunda əmək müqaviləsi, iş vaxtı, istirahət vaxtı, bayram günü, ödənişli məzuniyyət üzrə münasibətlərin tənzimlənməsində Konstitusiyanın 35 və 37-ci maddələri birbaşa və mübahisəsiz istiqamətverici və tənzimləyici prinsip-normalar kimi çıxış edir.

Konstitusiyanın 38-ci maddəsində "Sosial təminat hüququ"na dair prinsip-normalar təsbit edilibdir. Bu normalar hər kəs kimi dövlət qulluçularına da şamil edilir və xüsusi normativ hüquqi aktlarla dəqiqləşdirilir. Dövlət qulluğu sistemində sosial təminatla bağlı məsələ xüsusi əhəmiyyət daşıyır. Hər kəsin ayrı-ayrılıqda olduğu kimi dövlət qulluqçularının da bir sıra sosial təminat hüququ dövlət tərəfindən təmin edilir. Fikrimizcə, dövlət qulluğu sistemində sosial təminatın dövlət müdafiəsinin zəruriliyini şərtləndirən amillərdən biri məhz həmin sahədə məhdudiyyətlərin olmasından ibarətdir. Konstitusiyanın 38-ci maddəsinin III hissəsinə əsasən *"Hər kəs qanunla müəyyən edilmiş yaş həddinə çatdıqda, xəstəliyinə, əlilliyinə, ailə başçısını itirdiyinə, əmək qabiliyyətini itirdiyinə, işsizliyə görə və qanunla nəzərdə tutulmuş digər hallarda sosial təminat hüququna malikdir"* [1]. Bu müddəaların hər biri dövlət qulluğunda əmək və sosial təminat üzrə münasibətlərin hüquqi prinsiplərinin tərkib elementləri kimi xarakterizə edilir.

Vətəndaşların konstitusion əmək hüququnun həyata keçirməsi üçün seçdikləri fəaliyyət növlərindən biri də dövlət qulluğudur. Vətəndaşlar bu imkanı Konstitusiyanın "Dövlətin idarə olunmasında iştirak etmək hüququ" adlanan 55-ci maddəsində təsbit edilmiş prinsip-normalarda öz əksini tapmışdır. Həmin maddəyə əsasən *"Azərbaycan Respublikası vətəndaşlarının dövlətin idarə olunmasında iştirak etmək hüququ vardır. Bu hüququ onlar bilavasitə və ya nümayəndələri vasitəsilə həyata keçirə bilərlər. Azərbaycan Respublikasının vətəndaşları dövlət orqanlarında qulluq etmək imkanına malikdirlər. Dövlət orqanlarının vəzifəli şəxsləri Azərbaycan Respublikasının vətəndaşları sırasından təyin edilirlər. Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər dövlət qulluğuna qanunla müəyyənləşdirilmiş qaydada qəbul edilə bilərlər"* [1]. Bu normalar vətəndaşların dövlət orqanlarında müvafiq vəzifələrə seçilməsini, təyin edilməsini və ya təsdiq edilməsini, seçkili vəzifələrdə təmsilini və ümumiyyətlə dövlət orqanlarında işə qəbula dair xüsusi tələbləri özündə ehtiva edir. Bununla yanaşı həmin normalar dövlət qulluğunda əmək münasibətlərinin subyekt tərkibini müəyyən edir.

Dövlət qulluğuda əmək münasibətlərini xarakterizə edən elementlərdən biri də öhdəliklərin məsuliyyətlə yerinə yetirilməsidir. Konstitusiyanın 80-ci maddəsində "Məsuliyyət"in əsas prinsipləri belə müəyyən edilibdir: *"Konstitusi-*

*yanın və qanunların pozulması, o cümlədən Konstitusiyada və qanunlarda nəzərdə tutulan hüquqlardan sui-istifadə və ya vəzifələrin yerinə yetirilməməsi qanunla müəyyən edilən məsuliyyətə səbəb olur"* [1]. Bu normalar məsuliyyətin ümumi əsaslarını müəyyən etməklə yanaşı vəzifəli şəxslərin konstitusion-hüquqi məsuliyyətinin əsasını təşkil edir.

Konstitusiyanın "Özbaşınalıqdan müdafiə və vicdanlı davranış hüququ" adlanan 68-ci maddəsinin IV hissəsində bilavasitə dövlət qulluğu münasibətlərində dövlətlə dövlət qulluqçularının birgə mülki məsuliyyətinə dair prinsip-normalar aşağıdakı kimi təsbit edilir: *"Dövlət, dövlət qulluqçuları ilə birlikdə, dövlət qulluqçularının qanuna zidd hərəkətləri və hərəkətsizliyi nəticəsində insan hüquq və azadlıqlarına dəymiş ziyana görə və onların təminatının pozulmasına görə mülki məsuliyyət daşıyır"* [1]. Bu normalarda məsuliyyətin növü dəqiq müəyyən edilir. Qeyd etmək lazımdır ki, həmin normaya əsasən dövlət qulluqçularının mülki məsuliyyəti dövlət qulluğu vəzifəsini yerinə yetirərkən vurduğu ziyana görə yaranır.

Konstitusiya dövlət qulluğu haqqında qanunvericiliyin əsasını təşkil edən bütöv normativ müddəalar kompleksini özündə ehtiva edir. Bu isə o deməkdir ki, Azərbaycan Respublikasının Konstitusiyası ilkin olaraq dövlət qulluğu sisteminin, o cümlədən dövlət qulluğunda əmək münasibətlərinin konstitusion hüquqi prinsiplərini müəyyən edir. Konstitusiyanın istinad edilən müddəaları dövlət qulluğunda əmək münasibətlərinin təmin edilməsinin, inkişafının, vəzifəli şəxslərin, dövlət qulluqçularının hüquqi statusunun və fəaliyyətinin əsaslarını xarakterizə edir.

Azərbaycan Respublikasının Əmək Məcəlləsi dövlət qulluğunda əmək münasibətlərinin hüquqi prinsiplərini müəyyən edən əsas normativ hüquqi aktlardan biridir. Təəssüflə qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasının Əmək Məcəlləsi birbaşa olaraq dövlət qulluğu haqqında qanunvericilik sisteminə daxil edilməmişdir. Fikrimizcə, bu hal həmin Qanunda olan ən böyük böşluqlardan, çatışmazlıqlardan biridir. Dövlət qulluğu haqqında Azərbaycan Respublikasının Qanunun 6-cı maddəsində "Dövlət qulluğu haqqında qanunvericilik" aşağıdakı məzmunda təsbit edilibdir: *"Dövlət qulluğu haqqında qanunvericilik Azərbaycan Respublikasının Konstitusiyasından, bu Qanundan, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən, Azərbaycan Respublikasının dövlət qulluğunu hüquqi cəhətdən tənzim edən və dövlət qulluqçularının hüquqi vəziyyətinin xüsusiyyətlərini müəyyən edən digər qanunvericilik aktlarından ibarətdir"* [8]. Qeyd edilən boşluğu aradan qaldırmaq üçün təklif edirik ki, Dövlət qulluğu haqqında Azərbaycan Respublikasının Qanunun 6-cı maddəsinə aşağıdakı məzmunda: **"Konstitusiyasından, sözündən sonra "Azərbaycan Respublikasının Əmək Məcəlləsi"** sözləri əlavə edilsin.

AR Əmək Məcəlləsinin 2-ci maddəsinin ("Azərbaycan Respublikası Əmək Məcəlləsinin vəzifələri və prinsipləri") 3-cü hissəsilə Azərbaycan Respublikası Əmək Məcəlləsinin prinsipləri əmək münasibətlərinin tərəflərinə münasibətdə aşağıdakı kimi müəyyən edilmişdir:

- "hüquq bərabərliyinin təmin edilməsi prinsipi;
- mənafelərinin haqq-ədalətlə və qanunun aliliyinin təmin olunması ilə qorunması prinsipi;
- maddi, mənəvi, sosial, iqtisadi və digər həyati tələbatlarını ödəmək məqsədi ilə əqli, fiziki və maliyyə imkanlarından sərbəst istifadə etməsinin təmin edilməsi prinsipi;
- əmək münasibətlərinin mülki hüquqi müqavilələrlə rəsmiləşdirilməsinin yolverilməzliyi prinsipi;
- əsasən əmək müqaviləsi (kontrakt) üzrə öhdəliklərinin icrasına hüquqi təminat yaradılması prinsipi" [2].

İstinad edilən maddənin adından və məzmunundan tam aydın görünür ki, söhbət əmək hüququnun prinsiplərindən yox, məhz "əmək münasibətlərində tərəflərin" maraqları baxımından AR Əmək Məcəlləsinin əsaslandığı prinsiplərdən gedir. Azərbaycan Respublikası Konstitusiyasının 35-ci, Əmək Məcəlləsinin 5-ci və Dövlət qulluğu haqqında Qanunun 34-cü maddələrini əldə rəhbər tutaraq demək olar ki, AR Əmək Məcəlləsinin prinsipləri birbaşa, mübahisəsiz dövlət qulluğunda əmək münasibətlərinin hüquqi tənzimlənməsinin əsas prinsipləri sistemində üstünlük təşkil edir.

Dövlət qulluğu haqqında Azərbaycan Respublikası Qanunun 4-cü maddəsində "Dövlət

qulluğunun prinsipləri" təsbit edilibdir [8]. Fikrimizcə, həmin maddə ilə müəyyən edilən prinsipləri aşağıdakı kimi təsnifləşdirmək olar: müəyyənedici prinsiplər (maddə 4.1.), qadağanedici prinsiplər (maddə 4.2.) və məcburedici prinsiplər (maddə 4.3.).

Dövlət qulluğu haqqında Qanunun 4.1-ci maddəsi ilə dövlət qulluğunun əsaslandığı prinsiplər 12 istiqamət üzrə müəyyən olunmuşdur. Fikrimizcə, dövlət qulluğunun əsaslandığı prinsipləri şərti olaraq üç istiqamət üzrə qruplaşdırmaq olar: ümumi xarakterli prinsiplər; dövlət qulluğu üçün xarakterik olan prinsiplər; dövlət qulluğunda əmək münasibətlərini xarakterizə edən prinsiplər.

**Ümumi xarakterli prinsiplərə aşağıdakıları aid etmək olar:**

- qanunçuluq prinsipi;
- irqindən, etnik mənsubiyyətindən, dinindən, dilindən, cinsindən, sosial mənşəyindən, ailə, əmlak və qulluq mövqeyindən, yaşayış yerindən, əqidəsindən, həmkarlar ittifaqlarına və ya ictimai birliklərə mənsubiyyətindən, habelə dövlət qulluqçusunun xidməti fəaliyyətinə aid olmayan başqa səbəblərdən asılı olmayaraq dövlət qulluqçularının hüquq bərabərliyi prinsipi;
- bütün vətəndaşların və vəzifəli şəxslərin dövlət qulluqçularının qanuni tələblərini icra etməyə və qanuni hərəkətlərini müdafiə etməyə borclu olması prinsipi;

**Dövlət qulluğu üçün xarakterik olan prinsiplərə aşağıdakıları aid etmək olar:**

- Azərbaycan Respublikasında qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının səlahiyyət hüdudlarının müəyyən edilməsi prinsipi;
- dövlət orqanlarına və dövlət qulluqçularına nəzarət və onların hesabat verməsi prinsipi;
- yuxarı kateqoriya dövlət orqanlarının və vəzifəli şəxslərin öz səlahiyyətləri hüdudlarında qəbul etdikləri qərarların aşağı kateqoriya dövlət orqanları və vəzifəli şəxslər tərəfindən yerinə yetirilməsinin məcburiliyi prinsipi;
- dövlət orqanlarının və ya onların vəzifəli şəxslərinin qanunsuz hərəkətləri (hərəkətsizliyi) nəticəsində vurulmuş zərərə görə dövlət orqanlarının məsuliyyət daşıması prinsipi.

**Dövlət qulluğunda əmək münasibətlərini xarakterizə edən prinsiplərə aşağıdakıları aid etmək olar:**

- dövlət qulluğuna qəbulun şəffaflığı prinsipi;
- vətəndaşların dövlət qulluğuna müsabiqə və müsahibə əsasında qəbul edilməsi prinsipi;
- vətəndaşların öz qabiliyyətlərinə, xidməti nailiyyətlərinə və peşə hazırlığına uyğun olaraq dövlət qulluğunun hər hansı vəzifəsini tutmaqda hüquq bərabərliyi prinsipi;
- dövlət qulluqçularının potensialının səmərəli istifadəsi və peşəkarlıq səviyyəsinin artırılması məqsədilə onların rotasiyası prinsipi;
- dövlət qulluqçularının sosial və hüquqi müdafiəsi, onların özləri və ailələri üçün layiqli həyat səviyyəsinin təmin edilməsi prinsipi.

Dövlət qulluğu haqqında Qanunun 4.2-ci maddəsi ilə dövlət qulluğu üçün qadağanedici prinsipi olaraq müəyyən edilir ki, *"Dövlət orqanlarında siyasi partiyaların və ictimai birliklərin strukturları yaradılmır"* (maddə 4.2.). Dövlət qulluğu haqqında Qanun 4.3-cü maddəsində isə dövlət qulluğu üçün məcburedici prinsipi kimi təsbit edilir ki, *"Dövlət qulluqçuları vəzifə borclarını yerinə yetirərkən Azərbaycan Respublikası Konstitusiyasını, qanunlarını və onlara müvafiq olaraq qəbul edilmiş digər qanunvericilik aktlarını rəhbər tuturlar"* (maddə 4.3.) [8].

Dövlət qulluğunun qanunla müəyyən edilmiş prinsiplərinin həyata keçirilməsi məhz dövlət qulluqçularının peşəkar əmək fəaliyyəti ilə qarşılıqlı vəhdət təşkil edir. Yəni, həmin prinsiplərin təcrübədə tətbiqi dövlət qulluğunda əmək münasibətlərinin mövcudluğundan asılıdır.

Dövlət qulluğu haqqında Qanunun 1.1.1-ci maddəsində dövlət qulluğuna verilmiş anlayış dövlət qulluğunun prinsiplərinin dövlət qulluqçularının fəaliyyətinin əsasını təşkil etdiyini göstərir. Həmin maddəyə müvafiq olaraq "*dövlət qulluğu* dedikdə, *Azərbaycan Respublikasının Konstitusiyasına və digər normativ hüquqi aktlarına uyğun olaraq dövlətin məqsəd və funksiyalarının həyata keçirilməsi sahəsində dövlət qulluğu vəzifəsində xidmət"* başa düşülür [1]. Burada əmək münasibətlərini xarakterizə edən üç kateqoriya var: dövlət qulluğu; dövlət

qulluğu vəzifəsi; xidmət. Dövlət qulluğu anlayışını qısa məzmunlarda aşağıdakı kimi ifadə etmək olar: "dövlət qulluğu ... dövlət qulluğu vəzifəsində xidmət"dir; "dövlət qulluğu ... xidmət"dir. Başqa sözlə ifadə etsək, dövlət qulluğu ictimai mühidə mövcud olan xidmət növlərindən birdir. "Azərbaycan dilinin izahlı lüğəti"ndə "Xidmət" anlayışı bir neçə oxşar mənalarda: *"Xidmət [ər.] - Bir idarədə, müəssisədə və s.-də maaşla qulluq etmə, işləmə, rəsmi vəzifə yerinə yetirmə. Xidmət etmək – bir idarədə, müəssisədə və s.-də maaşla işləmək, qulluq etmək, rəsmi vəzifə yerinə yetirmək; Hərbi vəzifə yerinə yetirmək, ordu sıralarında və ya donanmada qulluq etmə; əsgəri vəzifə; ... hərəkət, fəaliyyət, iş"* və s. kimi izah edilmişdir [6, s.464-465].

Qanunvericilikdə dövlət qulluğunun xüsusi növləri üzrə xidməti fəaliyyətə dair müvafiq anlayışlar öz əksini tapmışdır. Misal olaraq Hərbi vəzifə və hərbi xidmət haqqında Azərbaycan Respublikasının 2011-ci il 23 dekabr tarixli Qanununu göstərmək olar. Həmin Qanunun 2.0.2-ci maddəsi ilə hərbi xidmətə aşağıdakı məzmunda anlayış verilmişdir: *"hərbi xidmət – dövlət qulluğunun xüsusi növü olmaqla Azərbaycan Respublikasının Silahlı Qüvvələrində və siyahısı müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilmiş digər dövlət orqanlarında (dövlət orqanlarının strukturuna daxil olan qurumlarda) qanunvericiliklə nəzərdə tutulmuş qaydada və müddətlərdə Azərbaycan Respublikası vətəndaşlarının, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin həyata keçirdikləri xidməti fəaliyyətdir"* [10]. Bu anlayışın çatışmayan əsas cəhəti ondan ibarətdir ki, peşəkarlıq elementi orada ifadə edilmir. Buna görə də hesab edirik ki, Hərbi vəzifə və hərbi xidmət haqqında Azərbaycan Respublikası Qanunun 2.0.2-ci maddəsinə **"xidməti" sözündən əvvəl "peşəkar"** sözünün əlavə edilməsi məqsədəmüvafiq olardı.

Fikrimizcə, Qanunla hərbi xidmətə verilmiş anlayışın tərkib elementlərini aşağıdakı kimi xarakterizə etmək olar. Belə ki, **hərbi xidmət:**

- dövlət qulluğunun xüsusi növüdür;
- vətəndaşlar, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər tərəfindən həyata keçirilir;
- xidməti fəaliyyətdir;
- Azərbaycan Respublikasının Silahlı Qüvvələrində xidməti fəaliyyətdir;
- siyahısı müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilmiş digər dövlət orqanlarında xidməti fəaliyyətdir;
- dövlət orqanlarının strukturuna daxil olan qurumlarda xidməti fəaliyyətdir;
- qanunvericiliklə nəzərdə tutulmuş qaydada və müddətlərdə xidməti fəaliyyətdir.

Hərbi xidmət anlayışının tərkib elementləri bir tərəfdən onun dövlət qulluğu münasibətlərinin konstitusion prinsiplərinə əsaslandığını göstərir. Digər tərəfdən isə hərbi xidmət dövlət qulluğunun xüsusi növü olaraq əmək münasibətlərinin xüsusiyyətlərini özündə ehtiva edir. Burada diqqəti cəlb edən əsas məqamlardan biri əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin dövlət qulluğuna qəbul edilməsi ilə bağlıdır. Azərbaycan Respublikası Konstitusiyasının 55-ci maddəsinin II hissəsində deyilir ki, *"Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər dövlət qulluğuna qanunla müəyyənləşdirilmiş qaydada qəbul edilə bilərlər"* [1]. Hərbi vəzifə və hərbi xidmət haqqında Qanunun 2.0.2-ci maddəsində Konstitusiyanın istinad edilən prinsip-normalarına əsaslanır.

Tədqiqatın məqsəd və vəzifələrinə əsaslanaraq hərbi xidmətə verilmiş anlayışı qısa məzmunda aşağıdakı kimi ifadə etmək olar ki: *"hərbi xidmət – dövlət qulluğunun xüsusi növü olmaqla ... vətəndaşlarının, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin həyata keçirdikləri xidməti fəaliyyətdir"*. Bu kompanentlər, mövcud qanunvericilik və real təcrübə göstərir ki, hərbi xidmət əmək fəaliyyətinin xüsusi növü, peşəkar xidməti fəaliyyətdir. Bu halda Konstitusiyanın 35-ci maddəsinin II hissəsində təsbit edilmiş prinsip-normaları xatırlmaq faydalı olardı: Orada deyilir ki, *"Hər kəsin əməyə olan qabiliyyəti əsasında sərbəst surətdə özünə fəaliyyət növü, peşə, məşğuliyyət və iş yeri seçmək hüququ vardır"* [1]. Bu isə o deməkdir ki, şəxs hərbi xidməti seçməklə konstitusion əmək hüququnu həyata keçirmiş olur.

Göründüyü kimi, dövlət qulluğunun əsas mahiyyəti ondan ibarətdir ki, o xidmət sahəsi olaraq peşəkar əmək fəaliyyətinin xüsusi növlərindən biridir. Təəssüf ki, Dövlət qulluğu haqqında Qanunla dövlət qulluğuna verilmiş leqal anlayışda peşəkarlıq elementi öz əksini tapmamışdır. Müqayisə üçün qeyd etmək lazımdır ki, dövlət qulluğunun peşəkarlıq elementi bir sıra

dövlətlərin Konstitusiyasında və sahəvi qanunlarında ifadə edilmişdir. Hesab edirik ki, dövlət qulluğuna verilmiş anlayışın məzmununa "peşəkar" elementini əlavə etməklə onun mahiyyətini tamamlamaq və Dövlət qulluğu haqqında Qanundakı çatışmazlığı aradan qaldırmaq olar. Belə ki, Dövlət qulluğu haqqında Qanunun 1.1.1-ci maddəsinə **"vəzifəsində" sözündən sonra "peşəkar"** sözünün əlavə edilməsi məqsədəmüvafiq olardı.

Dövlət qulluğu üçün xarakterik olan əsas prinsiplərdən biri peşəkarlıq prinsipidir. Göründüyü kimi Dövlət qulluğu haqqında Qanunda dövlət qulluğunun əsas prinsiplərindən biri hesab edilən peşəkarlıq prinsipi bilavasitə ifadə edilməmişdir. Halbuki, Qanunda bir neçə dəfə peşəkarlıq terminindən müxtəlif məqsədlər üçün aşağıdakı kimi istifadə edilmişdir: Dövlət qulluğunun əsaslandığı prinsiplərdən biri kimi *"dövlət qulluqçularının potensialının səmərəli istifadəsi və peşəkarlıq səviyyəsinin artırılması məqsədilə onların rotasiyası"* (Maddə 4.1.10.) ifadə edilir, digər məqsədlər üçün - *"İxtisas dərəcəsi verilərkən dövlət qulluqçusunun peşəkarlığı və idarəçilik təcrübəsi nəzərə alınır"* (Maddə 17.3.), *"Dövlət məvacibinin məbləği səlahiyyət həcmindən, məsuliyyət dərəcəsindən, tələb olunan peşəkarlıq səviyyəsindən, qulluq stajından asılıdır"* (Maddə 22.1.), *"Dövlət qulluqçularının xidmətdə peşəkarlıq səviyyəsinin artması və vəzifə borcuna və andına sədaqəti dövlət tərəfindən qiymətləndirilməlidir. ..."* (Maddə 24.2.) [8].

Fikrimizcə, Dövlət qulluğu haqqında Qanunda dövlət qulluğunun peşəkarlıq prinsipinə əsaslanmasını müəyyən edən normanın olması faydalı olardı. Buna görə də Dövlət qulluğu haqqında Qanunun 4.1-ci maddəsinə aşağıdakı məzmunda müvafiq maddənin əlavə edilməsini məqsədəuyğun hesab edirik: **"Dövlət qulluğunda peşəkar xidməti fəaliyyətin təmin edilməsi".**

Təhlillər göstərir ki, dövlət qulluğunda əmək münasibətlərinin hüquqi prinsiplərinə aid xüsusi tədqiqatlar olmadığı üçün onun anlayışı haqqında da hər hansı bir fikir mövcud deyildir. Elmi və normativ müddəlara əsaslanaraq, təcrübənin real göstəricilərinə istinad edərək tədqiq edilən məsələnin mahiyyətini özündə ifadə edən anlayışın ərsəyə gəlməsini zəruri hesab edirik. Fikrimizcə, aparılmış elmi təhlilin nəticəsi olaraq dövlət qulluğunda əmək münasibətlərinin hüquqi prinsiplərinə aşağıdakı məzmunda anlayış vermək olar: Dövlət qulluğunda əmək münasibətlərinin hüquqi prinsipləri dedikdə, qüvvədə olan qanunvericiliyin əsasında duran, dövlət qulluğunda əmək münasibətlərinin hüquqi tənzimlənməsinin mahiyyətini, məzmununu, xarakterini və inkişaf istiqamətlərini müəyyən edən ilkin başlanğıclar, rəhbər ideyalar, normativ müddəalar başa düşülür.

Hesab edirik ki, Konstitusiya, əmək və dövlət qulluğu haqqında qanunvericiliklərin bazasında formalaşmış mülahizələrin və təcrübədə mövcud olan reallıqların fonunda dövlət qulluğunda əmək münasibətlərinin hüquqi prinsiplərinin müasir modelini qəbul etmək olar. Bu model göstərir ki, dövlət qulluğu və əmək hüququ müxtəlif kateqoriyalardır, lakin dövlət qulluğu əmək hüquq münasibətlərinin ayrılmaz tərkib hissələrindən biridir.

**Nəticə.** Tədqiqatın yekunu olaraq aparılmış təhlillər və ümumiləşdirmələr əsasında elmin zənginləşməsinə dair aşağıdakı mühüm nəticələr əldə olunmuşdur:

1) Fikrimizcə, hüquqi prinsipin mahiyyətini aşağıdakı kimi xarakterizə etmək olar. Hüquqi prinsip – müvafiq hüquqi sistemin əsasını müəyyən edir, hər hansı bir müddəanın ümumiləşdirilməsi kimi xarakterizə olunur, təcrid etdiyi sahənin əhatə olunduğu bütün münasibətlərə şamil edilir. Buna görə də hüquqi prinsip – hər şeydən əvvəl, daha ciddi təsvir edilmiş elmi məzmuna malik anlayış kimi çıxış edir və fundamental xarakter daşıyır. Hüquqi prinsip elmi müddəa kimi dərk edilir, mənbələrdə öz ifadəsini tapır, əksər hallarda hüquqi sənədlərdə təsbit olunur və təcrübədə tətbiq edilir. Hüquqi prinsip yalnız o halda prinsip hesab olunur ki, o deklarativ xarakter daşımır, özünü real həyatda, təcrübədə, tətbiqdə, ictimai münasibətlərin tənzimlənməsində göstərir.

2) Dövlət qulluğunda əmək münasibətlərinin hüquqi prinsipləri özündə sahə üzrə hüquqi tənzimləmənin məzmununu, mahiyyətini və hüquq normalarının sistemi kimi məsələlərin inkişaf istiqamətini ehtiva edir. Dövlət qulluğu münasibətlərinin hüquqi prinsipləri sistemində əmək hüququnun sahəvi prinsipləri mühüm yer tutur.

3) Azərbaycan Respublikası Konstitusiyasının xüsusilə 24, 25, 26, 35, 36, 37, 38, 55, 68, 71 və 80-ci maddələri dövlət qulluğunda əmək münasibətlərinin konstitusion prinsiplərini özündə ehtiva edir. Bu prinsip-normalar heç şübhəsiz ki, dövlət qulluğunda əmək münasibətlərinin tənzimlənməsində başlanğıc ideyalar, əsas tənzimləyici müddəalar kimi çıxış edir.

4) Azərbaycan Respublikası Konstitusiyasının "Əmək hüququ" adlanan 35-ci maddəsində təsbit edilmiş prinsiplər mülkiyyət növündən, təşkilati-hüquqi formasından və tabeçiliyindən asılı olmayaraq ölkə üzrə bütün idarə, müəssisə və təşkilatlarda əmək münasibətlərinin tənzimlənməsinin əsasını, özülünü, bazisini, təməlini təşkil edir. Bu prinsip-normaların, əsas müddəaların hər biri bu və ya digər dərəcədə dövlət qulluğunda əmək münasibətlərinin tənzimlənməsinə öz təsirini göstərir. Burada əməyin azadlığı prinsipi və əmək müqaviləsinin azadlığı prinsipi xüsusilə diqqəti cəlb edir.

5) Konstitusiyanın istinad edilən müddəaları özündə dövlət qulluğunda əmək münasibətlərinin təmin edilməsinin, inkişafının, vəzifəli şəxslərin, dövlət qulluqçularının hüquqi statusunun və fəaliyyətinin əsaslarını xarakterizə edir.

6) Azərbaycan Respublikasının Əmək Məcəlləsi birbaşa olaraq dövlət qulluğu haqqında qanunvericilik sisteminə daxil edilməmişdir. Fikrimizcə, bu hal Dövlət qulluğu haqqında Azərbaycan Respublikasının Qanununda olan ən böyük böşluqlardan, çatışmazlıqlardan biridir. Bu boşluğu aradan qaldırmaq üçün təklif edirik ki, həmin Qanunun 6-cı maddəsinə aşağıdakı məzmunda: **"Konstitusiyasından, sözündən sonra "Azərbaycan Respublikasının Əmək Məcəlləsi"** sözləri əlavə edilsin. Hesab edirik ki, Azərbaycan Respublikasının Əmək Məcəlləsi dövlət qulluğunda əmək münasibətlərini tənzim edən əsas normativ hüquqi aktlardan biridir. Buna görə də Azərbaycan Respublikası Əmək Məcəlləsinin prinsipləri dövlət qulluğunda əmək münasibətlərinin tərəflərinə də şamil edilir. Azərbaycan Respublikası Konstitusiyasının 35-ci, Əmək Məcəlləsinin 5-ci və Dövlət qulluğu haqqında Qanunun 34-cü maddələrini əldə rəhbər tutaraq demək olar ki, AR Əmək Məcəlləsinin prinsipləri birbaşa, mübahisəsiz dövlət qulluğunda əmək münasibətlərinin hüquqi tənzimlənməsinin əsas prinsipləri sistemində üstünlük təşkil edir.

7) Dövlət qulluğu haqqında Azərbaycan Respublikası Qanunun 4-cü maddəsində təsbit edilmiş "Dövlət qulluğunun prinsipləri"ni aşağıdakı kimi təsnifləşdirmək olar: müəyyənedici prinsiplər (maddə 4.1.), qadağanedici prinsiplər (maddə 4.2.) və məcburedici prinsiplər (maddə 4.3.). Həmin Qanunun 4.1-ci maddəsi ilə dövlət qulluğunun əsaslandığı müəyyənedici prinsiplər 12 istiqaməti əhatə edir. Fikrimizcə, dövlət qulluğunun əsaslandığı prinsipləri şərti olaraq aşağıdakı kimi üç istiqamət üzrə qruplaşdırmaq olar: ümumi xarakterli prinsiplər; dövlət qulluğu üçün xarakterik olan prinsiplər; dövlət qulluğunda əmək münasibətlərini xarakterizə edən prinsiplər.

8) Dövlət qulluğu haqqında Azərbaycan Respublikasının Qanununda dövlət qulluğunun peşəkarlıq prinsipi təsbit edilməmişdir. Bu hal tərəfimizdən qanunvericilikdəki boşluqlardan biri kimi qiymətləndirilir. Qanunvericiliyin təsir imkanlarını gücləndirmək və boşluğu aradan qaldırmaq məqsədilə həmin Qanunun 4.1-ci maddəsinə aşağıdakı məzmunda müvafiq maddənin əlavə edilməsini məqsədəuyğun hesab edirik: **"Dövlət qulluğunda peşəkar xidməti fəaliyyətin təmin edilməsi".**

9) Dövlət qulluğunun qanunla müəyyən edilmiş prinsiplərinin həyata keçirilməsi məhz dövlət qulluqçularının peşəkar əmək fəaliyyəti ilə qarşlıqlı vəhdət təşkil edir. Yəni, həmin prinsiplərin təcrübədə tətbiqi dövlət qulluğunda əmək münasibətlərinin mövcudluğundan asılıdır.

10) Dövlət qulluğu xidmət sahəsi olaraq peşəkar əmək fəaliyyətinin xüsusi növlərindən biridir. Təəssüf ki, Dövlət qulluğu haqqında Azərbaycan Respublikasının Qanununda dövlət qulluğuna verilmiş leqal anlayışda peşəkarlıq elementi öz əksini tapmamışdır. Hesab edirik ki, dövlət qulluğuna verilmiş anlayışın məzmununa "peşəkar" elementini əlavə etməklə onun mahiyyətini tamamlamaq və həmin Qanundakı çatışmazlığı aradan qaldırmaq olar. Belə ki, Dövlət qulluğu haqqında Azərbaycan Respublikasının Qanunun 1.1.1-ci maddəsinə **"vəzifəsində" sözündən sonra "peşəkar"** sözünün, eyni zamanda Hərbi vəzifə və hərbi xidmət haqqında Azərbaycan Respublikası Qanunun 2.0.2-ci maddəsinə **"xidməti" sözündən əvvəl**

**"peşəkar"** sözünün əlavə edilməsi məqsədəmüvafiq olardı.

11) Fikrimizcə, dövlət qulluğunda əmək münasibətlərinin hüquqi prinsiplərinə aşağıdakı məzmunda anlayış vermək olar: Dövlət qulluğunda əmək münasibətlərinin hüquqi prinsipləri dedikdə, qüvvədə olan qanunvericiliyin əsasında duran, dövlət qulluğunda əmək münasibətlərinin hüquqi tənzimlənməsinin mahiyyətini, məzmununu, xarakterini və inkişaf istiqamətlərini müəyyən edən ilkin başlanğıclar, rəhbər ideyalar, normativ müddəalar başa düşülür.

12) Hesab edirik ki, yuxarıda qeyd edilənləri dövlət qulluğunda əmək münasibətlərinin hüquqi prinsiplərinin müasir modeli kimi qəbul etmək faydalı olardı.

**Ədəbiyyat siyahısı**


1. Azərbaycan Respublikasının Konstitusiyası: 12 noyabr 1995-ci il, № 00 // Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, №01, Maddə; 2009, №03, Maddə 159 // https://e-qanun.az/framework/897
2. Azərbaycan Respublikasının Əmək Məcəlləsi: Azərbaycan Respublikasının 1 fevral 1999-cu il tarixli 618-IQ nömrəli Qanunu ilə təsdiq edilmişdir // Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, №04, Maddə 213 // https://e-qanun.az/framework/46943
3. "Azərbaycan Respublikasında dövlət qulluğunun inkişafına dair 2019-2025-ci illər üçün Strategiya"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 23 noyabr tarixli 739 nömrəli Sərəncamı // Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, №11, maddə 2395 // https://e-qanun.az/framework/40748
4. "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"in təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli 2469 nömrəli Sərəncamı // Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, №2, maddə 135 // https://e-qanun.az/framework/46813
5. "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 22 iyul tarixli 3378 nömrəli Sərəncamı // Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, №7, Maddə 790 // https://e-qanun.az/framework/50013
6. Azərbaycan dilinin izahlı lüğəti. Dörd cilddə. II cild. – Bakı: Şərq-Qərb, – 2006. – 792 s.
7. Azərbaycan dilinin izahlı lüğəti. Dörd cilddə. III cild. – Bakı: Şərq-Qərb, – 2006. – 672 s.
8. Dövlət qulluğu haqqında Azərbaycan Respublikasının 2000-ci il 21 iyul tarixli 926-IQ nömrəli Qanunu // Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, №01, maddə 1 // https://e-qanun.az/framework/4481
9. Əsgərov, Z.A. Konstitusiya hüququ: Dərslik / Z.A.Əsgərov. – Bakı: Bakı Universiteti, – 2011. – 760 s.
10. Hərbi vəzifə və hərbi xidmət haqqında Azərbaycan Respublikasının 2011-ci il 23 dekabr tarixli 274-IVQ nömrəli Qanunu // Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, №02, maddə 56 // http://e-qanun.az/framework/23021
11. Qasımov, A.M. Əmək hüququ: Dərslik / A.M.Qasımov. – Bakı: Letterpress nəşriyyat evi, – 2016. – 840 s.
12. Məlikova, M.F. Hüquq nəzəriyyəsi: Dərslik / M.F.Məlikova. – Bakı: Elm və təhsil, – 2023. – 452 s.
13. Rzayev, Ə.H. Dövlət qulluğunun hüquqi əsasları / Ə.H.Rzayev. – Bakı: Elm, – 2011. – 480 s.
14. Ümumi hüquq və dövlət nəzəriyyəsi: Dərslik / V.V.Lazarevin redaktorluğu ilə. – Bakı: Qanun, – 2007. – 491 s.
15. Атаманчук, Г.В. Сущность государственной службы: история, теория, закон, практика. Монография / Г.В.Атаманчук. 2-е изд., – Москва: РАГС, – 2008. – 312 с.
16. Бокижанова, Ф.И. Теория государственного управления: Учебное пособие / Ф.И.Бокижанова, К.Ш.Сыздыкова, Г.Ш.Калиакпарова, А.Б.Сеитова. – Алматы: ИП «LP-Zhasulan», – 2021. – 230 с.
17. Граждан, В.Д. Государственная гражданская служба: учебник / В.Д.Граждан. – Москва: Юрайт, – 2015. – 641 с.
18. Зажицкий, В.И. Правовые принципы в законодательстве РФ // – Москва: Государство и право. – 1996. №11. – с.92-97.

19. Комментарии к Федеральному закону «О государственной гражданской службе Российской Федерации» и законодательству о гражданской службе зарубежных государств / А.Ф.Наздрачев, А.Ф.Нуртдинова, Л.А.Чиканова и др. – Москва: МЦФЭР, – 2005. – 576 с.

20. Лившиц, Р.З. Теория права: Учебник / Р.З.Лившиц. – Москва: БЕК, – 2001, – 224 с.

21. Мельников, В.П. Государственная служба в России: отечественный опыт организации и современность: Учебное пособие / В.П. Мельников, В.С.Нечипоренко. – Москва: РАГС, – 2003. – 506 с.

22. Снигирева, И.О. Принципы трудового права как основа защиты трудовых прав работников и работодателей // Научные труды. Российская академия юридических наук. Вып. 17. Том 2. – Москва: Юрист, – 2017. – 752 с.

23. Старилов, Ю.Н. Служебное право. Учебник / Ю.Н.Старилов. – Москва: БЕК, – 1996. – 698 с.

24. Старилов, Ю.Н. Государственная служба и служебное право. Учебное пособие / Ю.Н.Старилов. – Москва: Норма: ИНФРА-М, – 2023. – 448 с.

25. Сулейманов, А.Ф., Жаппарова, А.С., Сайлибаева, Ж.Ю. Принципы формирования системы государственной службы Республики Казахстан // – Bakı: Polis Akademiyasının Elmi Xəbərləri. – 2022. №4(36), – s.177-184.

26. Трудовое право: Учебник / Под ред. О.В.Смирнова, И.О.Снигиревой, Н.Г.Гладкова. – Москва: РГ-Пресс, – 2021. – 536 с.

27. Уваров, В.Н. Государственная служба и управление: учебник / В.Н.Уваров. – Петропавловск: Сев.-Каз. юрид. академия, – 2004. – 416 с.

28. Науково-практичний коментар до Закону України «Про державну службу» / Ред. кол.: К.О.Ващенко, І.Б.Коліушко, В.П.Тимощук, В.А.Дерець (відп. ред.). – Київ: ФОП Москаленко О.М., – 2017. – 796 с.

## Summary

**Oruj Mammadov**

### Legal principles of labor relations in civil service

The article examines scientific and normative provisions regarding the legal principles of labor relations in civil service. The research analyzes the structural elements of constitutional norms, the provisions of the Labor Code, and the Law on Civil Service that characterize the legal principles of labor relations within the civil service. At the conclusion of the study, the essence of legal principles, the primacy of the Constitution, and the predominance of labor law principles within the system of legal principles governing employment relations in the civil service are highlighted, and a classification of civil service principles is provided. The article further presents proposals for improving the Law of the Republic of Azerbaijan on Civil Service. For the first time, the concept of the legal principles of labor relations in civil the service is defined, and its contemporary model is introduced.

***Keywords:*** *civil service, civil servant, labor relations, legal principles*

## Резюме

**Орудж Мамедов**

### Правовые принципы трудовых отношений на государственной службе

В статье анализируются научные и нормативные положения о правовых принципах трудовых отношений на государственной службе. В ходе исследования анализируются составные элементы конституционных норм, положений Трудового кодекса и Закона О государственной службе, характеризующих правовые принципы трудовых отношений на государственной службе. В заключении исследования раскрывается сущность правового принципа, указывается высшее место Конституции в системе правовых принципов трудовых отношений на государственной службе и приоритет принципов трудового права, группируются принципы государственной службы. Выдвигаются предложения по совершенствованию закона Азербайджанской Республики О государственной службе. Впервые определяется понятие правовых принципов трудовых отношений на государственной службе, а также представлена его современная модель.

***Ключевые слова:*** *государственная служба, государственный служащий, трудовые отношения, правовые принципы*

**UOT: 327(55:479.25)**
**https://doi.org/10.59849/2710-0820.2025.2.185**

**Elnur Kəlbizadə**
*tarix üzrə fəlsəfə doktoru, dosent*
*Bakı Slavyan Universitetinin Şərqi Avropa*
*və Balkanşünaslıq fakültəsinin dekanı*
*kelbizadeh@gmail.com*

# İRAN-ERMƏNİSTAN İQTİSADİ ƏMƏKDAŞLIĞININ QEYRİ-ENERJİ SEKTORU KONTEKSTİNDƏ TƏHLİLİ VƏ SİYASİ MÜNASİBƏTLƏRƏ TƏSİRLƏRİ

***Açar sözlər:*** *Ermənistan, İran, iqtisadi əməkdaşlıq, qeyri-enerji, sektor, təcrid, nəqliyyat dəhlizləri, regional təhlükəsizlik.*

**Giriş**

Müstəqilliyini bərpa etdikdən sonra Cənubi Qafqaz regionunun ən problemli ölkəsi olan Ermənistan, Azərbaycana qarşı ərazi iddiaları və təcavüzkar siyasəti nəticəsində regional iqtisadi inteqrasiyadan kənarlaşmışdır. Bu özünütəcrid vəziyyət onu cənub qonşusu İranla sıx iqtisadi əlaqələr qurmağa məcbur etmişdir. Bu tədqiqatın obyekti Ermənistan-İran iqtisadi əməkdaşlığının qeyri-enerji sektorları, predmeti isə bu əməkdaşlığın dinamikası, amilləri və siyasi nəticələridir. Tədqiqatın məqsədi iki ölkə arasında sənaye, kənd təsərrüfatı, turizm, nəqliyyat və kommunikasiya sahələrindəki əməkdaşlığın xarakterini müəyyən etmək, onun regional təhlükəsizlik və Azərbaycanın milli maraqlarına təsirini qiymətləndirməkdir. Tədqiqatın əsas nəzəri çərçivəsini beynəlxalq münasibətlərin neorealist yanaşması təşkil edir.

**İqtisadi əlaqələrin qurulması.**

1991-ci ildən sonra Ermənistan və İran arasında iqtisadi əməkdaşlıq energetika sahəsindən başlamış, ticarət, yeyinti sənayesi məhsullarının mübadiləsi, müxtəlif tikinti mal və materiallarının idxalı ilə davam etmişdir.

İqtisadi əlaqələrlə bağlı ilk sənəd 1992-ci ilin fevral ayının 9-da Tehranda imzalanan "Tərəflərin dostluq münasibətləri qurma niyyətini ifadə etmək üçün Ermənistan Respublikası ilə İran İslam Respublikası arasında əlaqələrin prinsipləri və məqsədləri haqqında Bəyannamə" olmuşdur. 37 maddəlik sənəddə siyasi məsələlərlə yanaşı, iqtisadi əlaqələr haqqında müddəalar da yer almışdı. Təbii qaz təminatında çətinliklərlə üzləşən Ermənistana İrandan təbii qazın nəqli bu bəyanatın iqtisadi əməkdaşlıqla bağlı ən mühüm bəndlərindən biri idi. O zaman İran tərəfi Ermənistanda neft emalı zavodunun inşası təklifi ilə çıxış etmiş, Ermənistanın İran ərazisindən tranzit ölkə kimi istifadə etməsi ilə bağlı ilkin şərtlər razılaşdırılmışdı [10, s. 401]. 1992-ci ilin noyabrında Ermənistan-İran əlaqələrinin inkişaf komissiyası (İrəvan) yaradılmış, Tehranda İran-Ermənistan biznes təşkilatı (Tehran) qurulmuşdu.

1993-cü ildən iqtisadiyyatın müxtəlif sahələrində əməkdaşlıq müqavilələri paketi hazırlanmış, ticarət və rabitə sahələrində bir sıra razılaşmalar əldə edilmişdi. Həmin ilin aprelin 28-də Ermənistan parlamenti ticarət və iqtisadi sahədə əməkdaşlıq haqqında hökumətlərarası müqaviləni ratifikasiya etmişdi [21, v. 1]. İran-Ermənistan Birgə Ticarət Palatası fəaliyyətə başlamışdı [23, s. 41].

Həmin dövrdə iqtisadi əlaqələrin qurulması üçün Araz çayı üzərində keçidin inşası və sərhəd keçid məntəqələrinin qurulması zəruri məsələlərdən biri hesab edilirdi. 1993-cü ildə Araz çayı üzərində müvəqqəti keçid məntəqəsi fəaliyyətə başlamışdı. Avstriyadakı və Yeni Zelandiyadakı erməni təşkilatlarının və iş adamlarının maliyyə dəstəyi ilə 1996-cı ildə iki ölkə arasında Araz çayı üzərində daimi keçid körpüsünün tikintisi işləri həyata keçirilmişdir [11, s. 91].

1994-cü ildə sərhəd ticarəti, turizm sahələrində, 1995-ci ildə kənd təsərrüfatı, İran-Ermənistan qaz kəməri və yüksək gərginlikli elektrik xəttinin inşası, Araz çayında ortaq su elektrik stansiyasının tikintisi kimi sahələri əhatə edən

bir sıra müqavilələr imzalanmışdır. 1996-cı ildə isə iki ölkə arasında səhiyyə və gömrük sahəsində ikitərəfli sənədlərə imza atılmışdı.

Beləliklə, 1992-1996-cı illər ərzində iki ölkə arasında iqtisadi əlaqələrin əsası qoyulmuş, müqavilə-hüquq bazası formalaşdırılmış və sonrakı dövrdə əlaqələr məhz bu təməllər üzərində davam etdirilmişdir.

İki ölkə arasında iqtisadi əməkdaşlığa təsir göstərən ən mühüm amillərdən biri Ermənistanın təcavüzkar siyasəti nəticəsində yaratdığı özünütəcrid vəziyyəti olmuşdur. Azərbaycan Respublikasının ərazilərini işğal etməsi, Türkiyəyə qarşı əsassız ərazi və "soyqırımı" iddiaları irəli sürməsi səbəbindən şərq və qərb qonşuları ilə əlaqələri kəsilən Ermənistan üçün İranla ticarət-iqtisadi əlaqələr vacib və həyati əhəmiyyət kəsb etmişdir. İran üçün isə Cənubi Qafqazın dövlət müstəqilliyini bərpa etmiş respublikaları yeni ixrac bazarı idi. Vaxtilə ABŞ Müdafiə Departamentinin analitiki olmuş, İranda doğulmuş erməni tədqiqatçı Njdeh Asasian yazır ki, XX əsrin 90-cı illərinin əvvəllərindən etibarən Ermənistanın şərq və qərb sərhədləri Türkiyə və Azərbaycan tərəfindən bağlanmış, Gürcüstanda hökm sürən xaotik vəziyyət İranı blokadadan çıxmaqdan ötrü Ermənistan üçün yeganə etibarlı marşrut halına gətirmişdi [14, s.41].

Amerikalı tədqiqatçı Tomas de Vaal isə yazırdı ki, Türkiyə və Ermənistan arasında həmin dövrdə münasibətlərdə müəyyən mülayimləşmə müşahidə olunsa da, 1993-cü ildə sərhədlər bağlanmışdı. ABŞ-dan olan tədqiqatçı həmin dövrdə Gürcüstanın vəziyyətinə də diqqət yetirirdi. Ermənistanın "şimala açılan qapısı" olan Gürcüstan nəticəsinin nə olacağını kimsənin bilmədiyi böhranın içərisində idi. Bu böhran Gürcüstan ərazisindən keçən avtomobil və dəmir yollarının tez-tez bağlanmasına səbəb olurdu. Belə vəziyyət isə İranı Ermənistanın ən yaxın qonşusuna çevirirdi. Daha sonra T.Vaal İranın Ermənistan üçün əhəmiyyəti ilə bağlı fikirlərini daha da konkretləşdirirdi: *"Bu iki ölkəni birləşdirən yollar hündür dağlardan keçirdi. Bununla belə qeyd etmək lazımdır ki, əgər İranla ticarət əlaqələri olmasaydı, Ermənistan 1991-92-ci və 1992-93-cü illərin qış aylarına bəlkə də, tab gətirə bilməzdi" [1, s. 120].*

XX əsrin 90-cı illərin ortalarından etibarən Gürcüstan istiqamətində vəziyyət qismən də olsa sabitləşdi. Lakin XXI əsrin əvvəllərində Avro-Atlantik məkana inteqrasiya siyasəti yeritməsi, Rusiya ilə münasibətlərinin pozulması Gürcüstanın Ermənistan üçün iqtisadi baxımdan etibarlılıq dərəcəsini yenidən azaltdı. Digər tərəfdən qarşılaşdığı iqtisadi problemlərini aradan qaldırmaq üçün Azərbaycan və Türkiyə ilə yaxınlaşmağa çalışan Gürcüstan Ermənistana iqtisadi baxımdan kömək edə bilməzdi. Belə olan halda Ermənistanın yeganə "iqtisadi nəfəsliyi" rolunda İran çıxış etmişdir. Ermənistan Respublikasının 2007-ci ildə qəbul etdiyi Milli Təhlükəsizlik Strategiyasında yazılırdı ki, iki ölkə arasında münasibətləri şərtləndirən üç əsas amildən biri qarşılıqlı iqtisadi maraqlardır. Sənəddə qeyd edilmişdi ki, Ermənistanı xarici ölkələrlə birləşdirən nəqliyyat yolları məhz İİR ərazisindən keçir. Burada iqtisadi və nəqliyyat problemləri ön plana çəkilmişdi [12, s.17-18]. 2011-ci ildə Ermənistanın sabiq prezidenti Serj Sarkisyan "Moskvanın səsi" ("Exo Moskvı") radiosuna müsahibəsində İranla əlaqələrin korlanmasının "Ermənistanın nəfəs aldığı borunun daralması" demək olduğunu qeyd etmişdi [4, s. 131].

İki ölkə arasında iqtisadi sahədə əməkdaşlığı şərtləndirən mühüm amillərdən digər biri İranın təbii qaz ehtiyatlarının Avropa ölkələrinə ixracı üçün alternativ tranzit ehtiyacıdır. Məlumdur ki, enerji amilindən bacarıqla istifadə edən İran Səudiyyə Ərəbistanından sonra ikinci böyük neft istehsalçısıdır. Təbii qaz ehtiyatlarına görə isə bu ölkə Rusiya Federasiyasından sonra ikinci yerdə dayanır [6, s. 46]. Bu isə onu nəinki siyasi və ideoloji rəqibi olan Səudiyyə Ərəbistanı ilə, həm də bir sıra məsələlərə yanaşmada müttəfiqi olan Rusiya ilə qarşı-qarşıya qoyur. İran öz təbii qaz ehtiyatlarını Avropa bazarlarına çıxarmaq üçün Ermənistanı alternativ marşrutlardan biri kimi istifadə etməyə çalışır. İranın neft məhsullarının daşınmasında Körfəz və su yolları əhəmiyyətli rol oynayır. Lakin təbii qazın boru kəmərləri vasitəsi ilə nəqli üçün onun Avropaya daha qısa və alternativ tranzit yollarına ehtiyacı vardır. Neft nisbətən ucuz xərclər hesabına dəniz yolu ilə daşına bildiyi halda, təbii qazın bu şəkildə daşına bilməsi üçün qatılaşdırılması (LNG) və istifadədən əvvəl isə yenidən qaz halına gətirilməsi lazımdır. Bu isə texnoloji imkanlar və kifayət qədər böyük vəsait tələb edir [7, s. 19]. Məhz bu amil də

İranın Ermənistan-Gürcüstan xətti üzərindən tranzit boru kəmərinin çəkilməsinə marağını artırır. Bu məsələdə əvvəllər Avropa İttifaqı da maraqlı görünürdü. Enerji təhlükəsizliyi baxımından Avropa İttifaqının İrana yanaşmasının ABŞ-dan fərqləndiyini qeyd edən İrandan olan tədqiqatçı Məhəmmədhüseyn Haclu yazır: *"Avropa dövlətləri əksər hallarda bu və ya digər səbəblərdən ABŞ-ın siyasi strategiyasının reallaşdırılmasına "töhfə" versələr də, bəzən fərqli davranış nümayiş etdirmişlər" [2, s. 5].*

Araşdırmalar təsdiqləyir ki, həqiqətən də çoxqütblü dünyaya keçiddən sonra ABŞ və Avropa İttifaqı hərbi və təhlükəsizlik məsələlərində müttəfiq, maliyyə və iqtisadi məsələlərdə rəqib olmuşlar.

Rusiya Federasiyası üçün isə Avropa İttifaqının qaz təchizatçılarının sayının çoxalması, eyni zamanda marşrutların onun nəzarətindən kənarda şaxələndirilməsi iqtisadi təhlükəsizlik məsələsi olmaqla yanaşı, həm də siyasi təzyiq vasitəsidir. Bu baxımdan İranın Ermənistandan tranzit ölkə kimi istifadə etmək arzusu İran-Rusiya münasibətlərinə də təsir göstərmişdir.

Ermənistan-İran iqtisadi münasibətlərini şərtləndirən başqa bir amil isə ABŞ və bəzi Avropa dövlətlərinin sanksiyalarıdır. ABŞ-da hesab edirlər ki, Yaxın Şərqdə İranın güclənən təsirlərini zəiflətmək üçün əvvəlcə İranın enerji sektorunun inkişafının qarşısını almaq, onun maliyyə sektorunu iflic vəziyyətinə salmaq lazımdır.

Hər iki dövlətin iqtisadi əlaqələrinə təsir göstərən amillərdən biri də xarici sərmayələrin cəlbi məsələsidir. İran Ermənistan iqtisadiyyatına sərmayələrin yatırılması sahəsində öncül dövlətlərdən biridir. Təhlükəsizlik maraqları naminə Ermənistanı təsir altında saxlamağa çalışan İran sərmayələrin yatırılmasından şirnikləndirici vasitə kimi istifadə edir.

Başqa bir məsələ ondan ibarətdir ki, İranın özü də xarici sərmayələrin cəlbinə maraq göstərir. Bu baxımdan ölkədə yaşayan ermənilər və Ermənistanın təsir imkanlarından istifadə etməklə digər ölkələrdən xarici sərmayələrin cəlb edilməsinə çalışır [24, s. 1085-1086]. Fransa başda olmaqla Avropanın bir çox ölkələrində kifayət qədər güclü maliyyə imkanlarına malik olan erməni iş adamları yaşayır.

İkitərəfli iqtisadi əlaqələrə demoqrafik amillər də təsir göstərir. Bir çox hallarda Ermənistana yatırılan sərmayələr İranda yaşayan ermənilərə məxsus şirkətlərin vəsaitləri olur. Bu həm də İrandakı erməniəsilli iş adamlarının "ümumerməni işi"nə töfhəsi kimi qiymətləndirilir.

Ermənistan ərazisində çıxarılan bəzi xammallar və hələ sovet dövründə formalaşdırılmış sənaye texnologiyası da İranın bu ölkə ilə iqtisadi əlaqələrində təsir göstərən amillərdən biridir.

Ermənistan İran ilə iqtisadi əməkdaşlığında bir sıra imkanlardan faydalanır Bunlardan birincisi Fars körfəzi vasitəsi ilə dünya okeanına çıxmaq imkanlarıdır. Məlum olduğu kimi Körfəz regionu Avropa, Afrika, Cənub və Cənub-şərqi Asiya arasında dəhliz hesab edilir, dünya ticarətinin başlıca mərkəzlərindən biridir. Bu cəhətdən Ermənistan dünya ticarətinin bu arteriyasına məhsullarını çıxarmaq üçün İran ərazisini əhəmiyyətli hesab edir. Digər tərəfdən Ermənistan İranla yaxınlaşmaqla onun dəmir yolu, şosse, rabitə xətləri və limanlarından istifadə etməyə çalışır. Ermənistan çalışır ki, ölkədə istehsal edilən və çox zaman keyfiyyət göstəricilərinə görə qabaqcıl standartlar müəyyənləşdirən ölkələrin bazarlarında rəqabət apara bilməyən məhsullarını İrana ixrac etsin. Eyni zamanda Ermənistanda çatışmayan məhsullar İran bazarları vasitəsilə təmin edilir. Ermənistan iqtisadi və ticarət sahəsində İranla əməkdaşlıq etməklə həm də uzun illər bu ölkənin təcrid şəraitində inkişaf təcrübələrini öyrənməyə çalışmışdır.

**Sənaye, kənd təsərrüfatı və turizm sahələrində əməkdaşlığın vəziyyəti.**

Digər Cənubi Qafqaz respublikalarına görə təbii ehtiyatlarla pis təchiz olunmuş, sənayesi digər ölkələrdən gələn xammal hesabına işləyən Ermənistan SSRİ-nin süqutundan sonra ciddi problemlərlə üz-üzə qalmışdı. Sovet dövründə digər respublikalarla əlaqələrini Azərbaycan üzərindən quran Ermənistan indi fərqli bir vəziyyətlə üz-üzə idi. Azərbaycana qarşı başlatdığı müharibə səbəbindən ölkənin şərq sərhədləri, Türkiyəyə olan əsassız iddialar səbəbindən isə qərb sərhədləri qapalı idi. Bu səbəbdən Ermənistan İranla iqtisadi əməkdaşlığa ehtiyac duyurdu. Hələ 1996-cı ilin aprelində İranın Sosial

Müdafiə direktoru Mehdi Karbasianın Ermənistana səfəri zamanı sənaye naziri Aşot Safaryanla görüşündə sənaye sahəsində əməkdaşlıq məsələləri müzakirə edilmiş, əməkdaşlıq imkanları qiymətləndirilmişdi [5, s.156]. Həmin ilin dekabrında İran, Ermənistan, Gürcüstan və Yunanıstan arasında iqtisadi əməkdaşlıqla bağlı dördtərəfli əməkdaşlıq müqaviləsi imzalanmışdı. O zaman İranla Ermənistan əczaçılıq, mədənçilik və neft-kimya sahələrində ikitərəfli əməkdaşlıq müqaviləsi də imzalanmışdılar [19, s. 397].

XX əsrin 90-cı illərinin ortalarında Ermənistandan İrana satılan əsas əmtəə metal məmulatları və metal tullantıları idi. İranın "Ehsan Saderat" firması bu materialların əsas alıcısına çevrilmişdi. Şirkət mis molibdeninin alınmasına maraq göstərirdi. İran həmçinin qara metallurgiya məmulatlarının da əsas idxalçısına çevrilməyə çalışırdı. Lakin bir müddət sonra bu məmulatlar Yaponiya şirkətlərinə yüksək qiymətlərlə satılmaq üçün Pakistana göndərilməyə başladı [11, s 92].

İranın maraq göstərdiyi əsas müəssisələrdən biri Qafan Dağ Mədən Sənayesi Kombinatı olmuşdur. XX əsrin 90-cı illərinin ortalarından etibarən həmin müəssisənin istehsal etdiyi məhsulların əsas alıcısı İran olmuşdur. Qafan mis konsentratının demək olar ki, böyük hissəsini alan İranlı iş adamları Qafan Dağ-Mədən Sənayesi Kombinatının bazasında ortaq bir müəssisə yaratmağı da təklif etmişdilər [9, s. 44].

Müasir mərhələdə də İran şirkətləri Ermənistanda müxtəlif sənaye müəssisələrinin fəaliyyətində iştirak edirlər. Maraqlıdır ki, xüsusən, ABŞ-ın 2018-ci ildən etibarən bir sıra İran şirkətlərinə sanksiyaların tətbiq etməsindən sonra bu cür şirkətlərin Ermənistana daxil olma cəhdləri güclənmişdir. Məsələn, Təbriz Neft-Kimya Şirkətinin Ermənistanın ən böyük sənaye müəssisələrindən biri olan "Nairit" Kimya və Sintetik Kauçuk Zavodunun fəaliyyətinin bərpası və yenidən qurulmasına maraq göstərdiyinə dair 2020-ci ilin fevralında məlumat yayılmışdı. Bu şirkət 2018-ci ildən etibarən ABŞ tərəfindən İrana qarşı iqtisadi sanksiyalar çərçivəsində qara siyahıya salınmış müəssisələrdən biri idi [17].

2022-ci ildə Ukrayna ilə müharibəyə başlayan Rusiyanın Ermənistan üzərində də təsirlərini tədricən itirməsi iqtisadi baxımdan da bir sıra dəyişikliklərin baş verməsinə gətirib çıxarmışdır. İran şirkətləri bu məqamı fürsət kimi dəyərləndirmiş və sürətlə Ermənistan bazarına daxil olmağa başlamışlar. Qısa zamanda İran investisiyaları əsasında Ermənistanda fəaliyyət göstərən şirkətlərin sayı artmış. İran bu göstəriciyə görə Rusiyadan sonra ikinci yerə yüksəlmişdir. Təkcə 2023-cü ilin birinci yarısında Ermənistanda İran kapitallı 300-ə yaxın şirkət yaradılmışdır.

Müasir mərhələdə iki ölkənin əməkdaşlığı dərinləşdirmək istədikləri əsas istiqamətlərdən biri yüksək texnoloji sənayedir. İrəvanda 2021-ci il fevral ayının 17-də yüksək texnologiyalara və startuplara həsr olunmuş İran sərgisi keçirilmiş, burada çıxış edən İran səfiri Abbas Zohouri ölkəsinin Ermənistanla bu sahədə beynəlxalq əməkdaşlığı dərinləşdirmək istədiyini demişdi. Bunun üçün əməkdaşlıq istiqamətlərinə toxunan A.Zohouri vurğulamışdı:

*"Biz Ermənistandakı universitetlərin, laboratoriyaların və tədqiqat mərkəzlərinin təkmilləşdirilməsində əməkdaşlıq etməyə hazırıq. İran laboratoriya məhsullarını əlverişli qiymətlərlə təklif edə bilərik, tibbi cihazlarımız, rabitə sahəsindəki məhsullarımız var və Ermənistanın müvafiq orqanlarına təqdim edə bilərik"* [13].

Ermənistanın yüksək texnoloji sənaye nazirinin müavini Qor Melikyan isə bu tədbirin birgə layihələrə təkan vermək və yüksək texnoloji istiqamətlərdə əməkdaşlığı inkişaf etdirmək üçün yaxşı bir fürsət olduğunu qeyd etmişdi. O vurğulamışdı ki, Ermənistan hökuməti yüksək texnoloji inkişafı prioritet istiqamət elan edib, çətinliklərə baxmayaraq 2020-ci ildə Ermənistanın yüksək texnoloji şirkətlərinin gəlirləri təxminən 20% artıb. Q.Melikyan İrandan olan şirkətləri Ermənistanda aparılan proqramlarda fəal iştirak etməyə dəvət etmişdi. O vurğulamışdı ki, İranın həyata keçirdiyi layihələr Ermənistanı çox maraqlandırır [13].

Sərgi zamanı İran sənayesinin müxtəlif sahələri (xüsusən enerji, nanotexnologiyalar, tibbi avadanlıqlar, informasiya və telekommunikasiya texnologiyaları, tikinti və s.) təqdim edilmişdi.

İranın Ermənistandakı səfiri Abbas Zouhuri və İranın İnnovasiya və Rifah Fondunun rəhbəri Əli Vəhdət 2021-ci il fevralın 19-da İrə-

vanda İranın İxrac və İnvestisiya Mərkəzinin açılışını etmişdilər [18].

İran İslam Respublikası ilə Ermənistan arasında kənd təsərrüfatı sahəsində də müəyyən əlaqələr qurulmuşdur. Ermənistan İranın kənd təsərrüfatı sahəsində əldə etdiyi bir sıra nailiyyətlərin öyrənilməsində maraqlı olmuşdur.

Ermənistan Respublikası ilə İran İslam Respublikası arasında 1995-ci ildə imzalanmış "Kənd təsərrüfatı sahəsində əməkdaşlıq haqqında anlaşma memorandumu" bu istiqamətdə kifayət qədər böyük təcrübəyə malik olan İrandan daha çox, faktiki olaraq iqtisadiyyatı çökmüş Ermənistanın mənafelərinə xidmət edirdi [3, s. 107]. Bunun qarşılığında isə İranda istehsal edilən məhsulların Ermənistan və Gürcüstan istiqamətində dünya bazarlarına çıxarılması baxımından xeyli əlverişli olan "Ermənistan Respublikası hökuməti ilə İran İslam Respublikasının hökuməti arasında malların beynəlxalq daşınması haqqında saziş" imzalanmışdı.

1998-ci ildə Ermənistan Respublikası hökuməti ilə İran İslam Respublikasının hökuməti arasında kənd təsərrüfatı sahəsində əməkdaşlıq haqqında müqavilə imzalanmışdı. Xüsusən İranın inkişaf etmiş, coğrafi baxımdan Ermənistana yaxın olan kənd təsərrüfatı rayonları ilə əlaqələrin inkişafı müşahidə edildirdi. 2004-cü ildə Ermənistan Respublikası ilə Ərdəbil vilayəti arasında kənd təsərrüfatı sahəsində əməkdaşlıq memorandumunun imzalanması da məhz bunun göstəricisi hesab edilə bilərdi [3, s. 124].

İrana qarşı beynəlxalq iqtisadi sanksiyaların gücləndirilməsindən sonra bu ölkədən Ermənistana heyvandarlıq məhsullarının, xüsusən qoyunların ixracında artım müşahidə edilməyə başlamışdı.

İran İslam Respublikasının kənd təsərrüfatı naziri Mahmud Höccəti ilə Ermənistanın kənd təsərrüfatı naziri S.Karapetyanın 2014-cü ildə Tehranda keçirilən görüşdə iki ölkə arasında kənd təsərrüfatı sahəsində elmi tədqiqatlar, meliorasiya, suvarma komplekslərinin tikintisi sahələrində əməkdaşlıq məsələləri müzakirə edilmişdi [11, s.108]. Bu dövrdə Ermənistan həmçinin ət emalı müəssisələrinin yaradılması sahəsində İran təcrübəsinin öyrənilməsinə, iki ölkənin iqlim şəraitinin oxşarlığı nəzərə alınaraq istixana komplekslərinin tikintisi üçün texnologiyalar mübadiləsinə maraq göstərirdi. Bununla yanaşı Ermənistan üçün İrandan quş əti tədarkü də ehtiyac duyulan məsələlərdən biri idi.

İranın kənd təsərrüfatı naziri Mahmud Höccətinin 2017-ci ilin mayında İrəvanda Ermənistanın kənd təsərrüfatı naziri İqnati Arqelyan ilə görüşündə də kənd təsərrüfatı məhsullarının becərilməsi, daşınması və satışı ilə bağlı məsələlər müzakirə edilmişdi.

İranın Ermənistandakı səfiri Abbas Zohuri ilə Ermənistanın yeni təyin olunmuş kənd təsərrüfatı naziri Vahan Kerobyanın 2020-ci ilin dekabrında keçirilən görüşündə isə kənd təsərrüfatı, xüsusən bitkiçilik, heyvandarlıq və balıqçılıq sahələrində əməkdaşlıq perspektivləri qiymətləndirilmişdi [8].

Ermənistanla İran arasında turizm sahəsində də əməkdaşlıq mövcuddur. Ermənistanın turizm imkanları üç baxımdan qiymətləndirilir. Birinci istiqamət ondan ibarətdir ki, dünyanın müxtəlif ölkələrində yaşayan erməni icmaları üçün ermənilərin dünyadakı yeganə dövlətini görmək arzusu onları buraya cəlb edir. Baxmayaraq ki, bu dövlət ermənilərə heç bir aidiyyəti olmayan tarixi Qərbi Azərbaycan ərazilərində qurulmuşdur. Bu ölkəyə turist axınını təmin edə biləcək ikinci amil kimi təbii və iqlim şəraitinin ilin müəyyən dövrlərində əlverişli olması göstərilir [22, s. 62]. Üçüncü amil kimi isə tədqiqatçılar tarixi məkanların və görməli yerlərin çoxluğunu qeyd edirlər. Ermənilər XIX əsrdə köçdükləri bu ərazinin alban və qıpçaqlara aid xristian abidələrini "qriqoryanlaşdıra" biliblər. Bu abidələri adətən ən qədim xristianlıq abidələri kimi təqdim etmək sahəsində kifayət qədər ciddi təbliğat işləri həyata keçirirlər. Lakin yuxarıda sadalanan amillərin heç biri İran İslam Respublikasındakı ermənilər istisna olmaqla İran vətəndaşların digər qrupları üçün cəlbedici sayıla bilməz. Xüsusən ikinci və üçüncü amillər. Çünki təbii və turizm ehtiyatları baxımından İran İslam Respublikasının geniş ərazilərinin imkanları daha çoxdur. Bu fikri tarixi abidələrlə bağlı da qeyd etmək olar. İran vətəndaşlarının çoxu əslində Ermənistana turist kimi yox, tranzit keçid etmək üçün gedir. Başqa bir məsələ İran İslam Respublikasının düşmən hesab etdiyi ABŞ-la bağlıdır. ABŞ-a getmək istəyən İran vətəndaşları vizaları ABŞ-ın Ermənistandakı səfirliyi vasitəsi ilə alırlar. Ermənistan isə rəsmi statistikada bu cür şəxsləri turist kimi göstərir.

İrandan Ermənistana səfər edən ikinci qrup isə İran ermənilərididir. Onların Ermənistan ərazilərinə turzim məqsədli səfərləri əsasən Ermənistanın müstəqilliyini elan etməsindən sonrakı ilk illərdə olmuşdur. İranın qeyri-erməni bir qrup vətəndaşlarını Ermənistana cəlb edən xüsusi məqam da var. Bu xüsusi məqam müsəlman ölkələrində qadağan olunan və yaxud əhali tərəfindən qəbul edilməyən bəzi fəaliyyət növlərinə Ermənistanda rahat şəraitin yaradılmasıdır. İran vətəndaşlarını Ermənistana cəlb edən ölkədə geniş yayılmış fahişəlik (insan alveri) və alkoqollu içkilərdən rahat istifadə etmək imkanlarıdır. ABŞ Dövlət Departamentinin Demokratiya, insan hüquqları və əmək bürosunun İnsan hüquqları praktikasına dair 2009-cu il üzrə ölkə hesabatlarında Ermənistanda bu növ fəaliyyətlərin həmin illərdə artması barədə məlumatlar əksini tapmışdı [15].

Təbii ki, ağır iqtisadi vəziyyət, mənəvi aşınma nəticəsində bu tipli xidmət göstərən şəxslərin sayı qeyd olunan rəqəmlərdən daha artıqdır.

Ermənistanla İran arasında turizm sahəsində əməkdaşlığın hüquqi əsaslarına gəlincə bu barədə bir sıra sənədlər imzlanmışdır. İlk belə razılaşmalar 1994-cü ildə əldə olunmuşdur.

Həsən Ruhaninin 2016-cı ilin dekabrında İrəvana səfəri zamanı "Ermənistan Respublikası Tarix Muzeyi ilə İran İslam Respublikasının Milli Muzeyi arasında əməkdaşlıq haqqında", "Ermənistan Respublikası İqtisadi İnkişaf və İnvestisiya Nazirliyi ilə İran İslam Respublikasının Mədəni İrs, Sənətkarlıq və Turizm Komitəsi arasında turizm sahəsində əməkdaşlıq haqqında" sazişlər imzalanmışdır.

İrandan Ermənistana gələn turistlərin sayı 2009-2011-ci illərdə yüksələn xəttlə davam etmişdir. 2009-cu ildə İrandan Ermənistana 87 min, 2010-cu ildə 120 min, 2011-ci ildə isə 134 min nəfər səfər etmişdi. 2011-2013-cü illərdə turistlərin sayında nisbi azalma baş vermiş, Ermənistana İrandan gələn turistlərin sayı 94 min nəfərə qədər azalmışdı. 2014-cü ildən sonra yenidən Ermənistana üz tutan İranlı turistlərin sayı artmağa başlamış, 2016-cı ildə bu rəqəm 187 min nəfər yaxın olmuşdur [20]. Gələn turistlərin sayına görə İran Ermənistan statistikasında Rusiyadan sonra ikinci yerdə dayanırdı. 2018-2019-cu illərdə İrandan Ermənistana gələnlərin sayında yenidən azalma baş vermişdir. Ermənistan İqtisadiyyat Nazirliyinin açıqladığı rəqəmlərdə İrandan bu ölkəyə 2018-ci ildə gələnlərin sayı 160 min 676 nəfər, 2019-cu ildə isə 160 min 645 nəfər göstərilirdi.2023-cü ildə Ermənistana gələn 2,3 milyon nəfər turistin 6 faizi İran vətəndaşları olmuşdur. İkitərəfli turizmin həcmi təkcə 2023-cü ildə əvvəlki illə müqayisədə 65 faiz artmışdır [16].

**Nəticə**

Beləliklə, aparılan təhlillər göstərir ki, Ermənistan və İran arasında iqtisadi əlaqələri şərtləndirən əsas amillər sanksiyalardan və təcriddən qurtulmaq istəyi, tranzit imkanları, xarici sərmayələrin cəlbi və s. olmuşdur. Ermənistan İranla iqtisadi əlaqələrini inkişaf etdirməklə bir neçə məqsədə çatmağa çalışır. İlk məqsədlərdən biri Fars körfəzi vasitəsi ilə dünya okeanına çıxış imkanlarının təmin edilməsidir. İstehsal etdiyi bir sıra məhsulların İran bazarına çıxarılması və çatışmayan məhsulların bu bazarlar vasitəsi ilə təmin edilməsi də Ermənistanın İranla iqtisadi əlaqələr qurmaq ehtiyacını artırır. Həmçinin Ermənistan İranın təcrid şəraitində inkişaf təcrübələrini öyrənməyə, bundan yararlanmağa çalışır.

Müasir mərhələdə İran şirkətləri Ermənistanda müxtəlif sənaye müəssisələrinin fəaliyyətində iştirak etməkdə maraqlı tərəf kimi çıxış edirlər. Əsas istiqamətlərdən biri yüksək texnologiyalar sənayesidir. Ermənistan İranın kənd təsərrüfatı sahəsində əldə etdiyi bir sıra nailiyyətlərin öyrənilməsində maraqlı, bir sıra əkinçilik və maldarlıq məhsulları ilə təmin olunması sahəsində isə ondan asılıdır. Təhlillər göstərir ki, Azərbaycanın ərazilərinin işğaldan azad olunması Ermənistana ciddi ərazi (otlaq, əkin) problemləri yaratdığından, bu sahədə Ermənistan və İranın əməkdaşlıq imkanları da azalmışdır.

İranın erməni əsilli olmayan bir qrup vətəndaşlarını Ermənistana cəlb edən xüsusi məqam müsəlman ölkələrində qadağan olunan və yaxud əhali tərəfindən qəbul edilməyən bəzi fəaliyyət növlərinə rahat şəraitin yaradıması ilə bağlıdır.

Təhlillər belə bir qənaətə gəlməyə imkan verir ki, iqtisadi sahədə əlaqələrin gücləndirilməsi üçün atılan bütün addımlar əsasən Ermənistanın maraqlarına xidmət edir. Ermənistan

həm öz iqtisadi imkanlarına, həm bazarının həcminə görə İran üçün təbii cəlbediciliyə sahib deyildir. İran tərəfinə aydındır ki, Ermənistan vasitəsilə reallaşdırmağa çalışdığı regional layihələr ya iqtisadi cəhətdən faydasız, ya da obyektiv və subyektiv səbəblər uc batından mümkünsüzdür.

### Ədəbiyyat Siyahısı


1. De Vaal, T. Qarabağ: Ermənistan və Azərbaycan sülh və savaş yollarında / T.D.Vaal. –Bakı: İlay MMC, –2008. –344 s.

2. Haclu, M. İran İslam Respublikası - Avropa Birliyi siyasi münasibətlərinin formalaşması prosesi: / siyasi elmlər üzrə fəlsəfə doktoru dis. avtoreferatı. / –Bakı, 2012. –24 s.

3. Kəlbizadə, E.H. Ermənistan İran İslam Respublikasının Qafqaz siyasətində / E.H.Kəlbizadə, Y.Ü.Baxşıyeva, Ə.Ə.Əzimov. –Bakı: MTM İnnovation, –2019. –360 s.

4. Ruintən, K.F. Ermənistanda baş verən ictimai-siyasi proseslər İranlı mütəxəssislərin gözü ilə və İran KİV-lərində // –Bakı: Tarix və onun problemləri, –2011. № 1, –s. 131-137.

5. Cabbarlı, H.Q. Ermenistan'ın İran Politikası // –Çankırı: Karatekin Üniversitesi Uluslararası Avrasya Strateji Dergisi, –2012. № 10(10), –s. 147-174.

6. Doster, B. Bir Bölgesel Güç Olarak İran'ın Ortadoğu Politikası // –Ankara: Ortadoğu Analiz, –2012, Ağustos. Cilt 4, Sayı 44, –s. 44-51.

7. Enerji diplomasisi / Editör: H.Çokmak, C.Sancaktar, Z.Yıldırım. –İstanbul: Beta yayınları. –2015. –644 s.

8. Аванесов, А. Иран предлагает Армении разработать "дорожную карту" по каждой программе сотрудничества и установить четкий график работ: [Электронный ресурс] / –Ереван: Arminfo. –12 декабр, 2020. URL: https://arminfo.info/full_news.php?id=59255&lang=2.

9. Алоян, В. Ночная жизнь в Каджаране // –Москва: Металлы Евразии, –1995. № 5, –с.44-45.

10. Куртов, А.А. Армяно-иранские отношения // Армения: проблемы независимого развития / Ред. Е.М.Кожокин. –Москва: РИСИ, –1998. –с. 383-448.

11. Месамед, В.И. Иран и немусульманские страны Южного Кавказа (Армения и Грузия) / В.И. Месамед. –Москва, –2015. –254 с.

12. Стратегия Национальной Безопасности Республики Армения // Одобрена на заседании Совета национальной безопасности при Президенте Республики Армения 26 января 2007 г. –Ереван, –2007. –20 с.

13. Armenia, Iran aim at deepening cooperation in high-tech industry: [Digital resource] / –Yerevan: Armenpress, –February 17, 2021. URL: https://armenpress.am/eng/news/1043699.

14. Asisian, N. An Overview of Iran-Armenian Relations in the Post Soviet Era and Their Impact on Caucasus Regional Stability // Journal of the European Society for Iranian Studies, –August 2018, –pp. 37-48.

15. Bureau of democracy, human rights, and labor. 2009 Country Reports on Human Rights Practices Report. Armenia: [Digital resource] / The official site of State Department of USA. –March 11, 2010. URL: https://2009-2017.state.gov/j/drl/rls/hrrpt/2009/eur/136018.htm..

16. Ebrahimi, A. Iran-Armenia Relations: Strategic Partnership Amid Regional Transformations: [Digital resource] / Persian Files, –2024. Vol. 28(1). Issue 1. URL: https://www.specialeurasia.com/2024/12/10/iran-armenia-relations-caucasus/

17. Harutyunyan, S. Iranian Company 'Interested' In Armenian Chemical Giant: [Digital resource] / –Yerevan: Azatutyun. URL: www.azatutyun.am/a/ 30427245.html.

18. Iran opens its Export and Investment Center in Yerevan: [Digital resource]/ –Tehran: Iranpress, –February 19, 2021. URL: https://iranpress.com/content/ 34108

19. Koolaee, E., Hafezian, M.H. The Islamic Republic of Iran and the South Caucasus Republics // Iranian Studies, –June 2010. Volume 43, № 3, –pp. 391-409.

20. Tunyan, B. Why do Iranians need Armenia?: [Digital resource] / Jamnews, –February 02, 2017. URL: https://jam-news.net/why-do-iranians-need-armenia/#:~:text=Over%20160%2C000%20Iranian

%20tourists%20visited,firmly%20catching%20 up%20with%20Russia.

21. ՀՀ Գերագույն խորհրդի որոշումը ՀՀ կառավարության եվ իրանի իսլամական հանրապետության կառավարության միջեվ առեվտրատնտեսական եվ գիտատեխնիկական համագործակցության մասին համաձայնագիրը վավերացնելու մասին (ER hökuməti ilə İran İslam Respublikası hökuməti arasında ticarət-iqtisadi və elmi-texniki əməkdaşlıq haqqında sazişin təsdiq edilməsi haqqında ER Milli Assambleyasının qərarı). // ARLİS, Doc. No. 3399, ՀՀԳԽՏ 1993/8, էջ - 1.

22. رشندل، ج ، چشو انداز توسحه اقتسادی در ارمنستان \\-تهران: فصلنامه مطالعات آسیای مرکزی، - ۱۳۳۳ . شمار؛ شماره ۷ زرمستان . - ص. 59-70

23. مناسبات تجاري و سياسي ايران و ارمنستان. متحد استراتژيك \\- تهران: اقتصاد ايران.-1389، ارديبهشت. - ص. 41

24. وليزاده، ا. ، على زاده، ش. دياسپوراى ارمانى :فرصت ها وتحديدهاى پيش روى ايران//- تهران: فصلنامه سياست،-1394. دوره ۴۵، شماره ۴، -ص. 1075-1094

**Summary**

**Elnur Kalbizadeh**

**Analysis Of Iran-Armenia Economic Cooperation In The Context Of The Non-Energy Sector And Its Impact On Political Relations**

The article examines the dynamics of the development of economic cooperation between Armenia and Iran in the non-energy sectors (industry, agriculture, tourism, transport, and communications) during the years 1991-2023, and analyzes its impact on political relations. By occupying the territories of the Republic of Azerbaijan and maintaining this occupation for many years, as well as by making unfounded territorial claims against Turkiye, Armenia created a situation of self-isolation in the region. Under such conditions, Iran became an "economic lifeline" or a "forced choice" for Armenia. Close cooperation was established between Armenia and Iran in various areas of the industrial sector, as well as in agriculture and tourism. The main directions of cooperation include the industrial sphere – especially mining (such as the Kapan Combine) and high technologies – as well as agriculture and tourism. In the transport sector, railway and highway projects (for example, the Tabriz – Armenia highway) were implemented, although competing with the Azerbaijan – Russia – Iran routes proved difficult.

Although Iran – Armenia economic relations were formed on the basis of mutual economic interests (a “lifeline” for Armenia and new market and transit opportunities for Iran), there were also instances where cooperation was driven purely by political motives rather than economic benefits.

***Keywords:*** *Armenia, Iran, economic cooperation, non-energy sector, isolation, transport corridors, regional security.*

**Резюме**

**Эльнур Кальбизаде**

**Анализ экономического сотрудничества Ирана и Армении в контексте неэнергетического сектора и его влияние на политические отношения**

В статье исследуется динамика развития экономического сотрудничества между Арменией и Ираном в неэнергетических секторах (промышленность, сельское хозяйство, туризм, транспорт и коммуникации) в 1991–2023 годах, а также анализируется его влияние на политические отношения. Захват Арменией территорий Азербайджанской Республики и длительное их удержание, а также необоснованные территориальные притязания к Турции создали

ситуацию самоизоляции страны в регионе. В таких условиях Иран стал для Армении своего рода «экономическим дыханием» или «вынужденным выбором». Между Арменией и Ираном было налажено тесное сотрудничество как в различных сферах промышленности, так и в сельском хозяйстве и туризме. Основными направлениями сотрудничества являются промышленность (в особенности горнодобывающая отрасль - Кафанский комбинат - и высокие технологии), сельское хозяйство и туризм. В транспортной сфере реализовывались железнодорожные и автодорожные проекты (например, трасса Тебриз-Армения), однако конкурировать с маршрутами Азербайджан–Россия–Иран оказалось сложно.

Экономические отношения между Ираном и Арменией формировались на основе взаимных экономических интересов (для Армении - «линией жизни», для Ирана - новыми рынками и транзитными возможностями), однако в ряде случаев сотрудничество носило преимущественно политический, а не экономический характер.

***Ключевые слова:*** *Армения, Иран, экономическое сотрудничество, неэнергетический сектор, изоляция, транспортные коридоры, региональная безопасность.*

UOT 327
https://doi.org/10.59849/2710-0820.2025.2.194

**Huseynova Khuraman**
*Institute of Philosophy and Sociology of ANAS, researcher*
*Azerbaijan*
*xuramanhuseyn0107@gmail.com*
*https://orcid.org/0009-0000-6287-3753*

# THE SITUATION IN THE MILITARY SPHERE IN ARMENIA AND THE CONDITIONS THAT EMERGED AFTER THE 44-DAY WAR

***Keywords:*** *Armenia, army, weapon, military spending, psychological state*

## *Introduction*

At the end of the 20th century - the beginning of the 21st century, the Caucasus region became the center of attention due to its geopolitical and geostrategic position, and occupied an important place in the foreign policy of the world's leading states. Ensuring national security was one of the most important issues for the South Caucasus states that regained their independence. The most important factor for national security is the strengthening of defense capabilities. It was not an easy process. After 1991, Armenia faced many problems related to building an army, ensuring the stable development of the military field and renewing the military infrastructure due to the limited economic resources and lack of budget. One of the main reasons that had a negative impact on the development of the army and the military sector in Armenia, like other fields, was the occupation policy against Respublica of Azerbaijan.

The main purpose of the research is the study of the current situation in the Armenian army at the current stage, the analysis of the work done in the military field in this country after the liberation of the Azerbaijani territories from occupation and the heavy blow to the Armenian army in 2020. During the research, statistical and comparative analysis methods were used. For the first time, an attempt was made to diversify Armenia's arms supply and to study the tactical and technical characteristics of weapons purchased from supplier countries.

## *First years of Army-bulding process*

One of the first tasks facing the independent states that emerged in the Caucasus region was to create an army after the collapse of the USSR. Armenia was the first among the republics of the South Caucasus to organise armed groups and create an army on their basis. Part of the sovereign territories of Azerbaijan was occupied with the participation of these armed groups. Some Armenian researchers consider the organization of these armed groups and their activities to be the root and foundation of the history of the creation of the army.

Ölkə əhalisinin azalmasına təsir edən əsas amillərdən biri miqrasiyadır. Bildiyimiz kimi, Ermənistan Respublikasının müstəqilliyini elan etdikdən sonra üzləşdiyi ən təhlükəli problemlərdən biri miqrasiyadır. Bu problem illərlə ölkə əhalisinin azalmasına səbəb olub. Miqrasiya təkcə təhlükəsizlik məsələlərinə deyil, həm də əhalinin qocalması, evlilik və boşanmaların sayının artması və azalması kimi demoqrafik xüsusiyyətlərə mənfi təsir göstərmişdir. Ermənistanda aparılan araşdırmalara görə, boşanmalarla Ermənistanı tərk edənlər arasında güclü əlaqə var. Bu o deməkdir ki, miqrasiyanın sayı artdıqca boşanmaların da sayı artaraq ölkədə yeni sosial problemlərin yaranmasına səbəb olur.[1]

Son zamanlar Ermənistan Respublikasında immiqrantlar 3 qrup bölünür. [12]

1. Ermənistanı tərk edib geri qayıtmayan miqrantlar;
2. 3 ay, 3-12 ay və 12 aydan sonra ölkəyə qayıdanlar;
3. Ermənistana ilk dəfə 2019-2022-ci illərdə gələnlər.

**Cədvəl 2:** 2020-2022-ci illər üçün miqrasiya axınlarının növləri [9]

| | |
|---|---|
| Ermənistanı tərk edib geri qayıtmayan miqrantlar | 53,2% |
| 3 ay, 3-12 ay və 12 aydan sonra ölkəyə qayıdanlar | 19,3% |
| Ermənistana ilk dəfə 2019-2022-ci illərdə gələnlər. | 27,5% |

2020-2022-ci illərdə mühacirət edənlərin 53,2 faizi (128 min nəfər) Ermənistan Respublikasının digər bölgələrinə və ya xarici ölkələrə gedib və geri qayıtmayıb. 19,3 faizi (46 min nəfər) müəyyən müddətdən sonra geri qayıdıb. 27,5 faizi (66 min nəfər) Ermənistana ilk dəfə gələnlərdir. Ermənistanın rəsmi statistikasına görə, 2021-ci ildə ölkəni tərk edənlərin 112 mini geri qayıtmayıb, 45 mini geri dönüb. Ermənistan Respublikası gedən və qayıdan əhalinin böyük əksəriyyətinin (müvafiq olaraq 96,7% və 99,6%) vətəni, qalan kiçik hissəsi (gedənlərin 3,3%-i və qayıdan miqrantların 0,4%-i) xarici ölkələrdə doğulmuşdur. Bu illərdə ölkəni tərk edən miqrantların əksəriyyəti 2021-ci ildə (66%), 2021-ci ildəkindən (39%) daha çox 2019-cu ildə geri dönənlər olub. 2019-2021-ci illərdə Ermənistana təqribən 66 min nəfər gəlib, təxminən 83 min nəfər isə ölkəni tərk edib. Ölkəni tərk edənlərin 70,5 faizi 12 aya qədər, 29,5 faizi isə daha uzun müddətə gedib. [12]

**Cədvəl 3:** 2019-2021-ci illər üçün miqrasiya axınları.[12]

| **Miqrasiya axınları** | | | | |
|---|---|---|---|---|
| | **Gedənlər** | **Geri Dönənlər** | **İlk dəfə gələnlər** | **Cəmi** |
| Kişi | 101683 | 35309 | 13950 | 150582 |
| Qadın | 10916 | 10412 | 21845 | 43173 |
| **cəmi** | **112599** | **45721** | **35435** | **193755** |
| **Ölkə daxilindəki miqrasiya axınları** | | | | |
| Erevan | 11308 | 1931 | 1262 | 14501 |
| Araqaçodn | 799 | - | 834 | 1633 |
| Ararat | 1493 | 222 | 1938 | 3653 |
| Armavir | 484 | 100 | 576 | 1160 |
| Geğarkunik | 2360 | 320 | 397 | 3077 |
| Lori | 453 | 295 | 1388 | 2136 |
| Kotayk | 100 | - | 51 | 151 |
| Şirak | 1542 | 312 | 929 | 2783 |
| Syunik | 4806 | 1082 | 1318 | 7206 |
| Vayot Dzor | 1094 | 118 | 174 | 1386 |
| Tavuş | 5021 | 755 | 1346 | 7122 |
| **Toplam** | **29460** | **5135** | **10212** | **44807** |

| Ölkə xaricindəki miqrasiya axınları | | | | |
|---|---|---|---|---|
| Dağlıq Qarabağa | 5706 | 10224 | 9998 | 25928 |
| Rusiya Federasiyasına | 74335 | 25875 | 10820 | 111030 |
| Ukrayna | 156 | 716 | 118 | 990 |
| Digər MDB ölkələrinə | 314 | 528 | 591 | 1433 |
| Gürcüstan | 156 | - | - | 156 |
| Avropa ölkələri | 1023 | 2329 | 1556 | 4908 |
| ABŞ ve Kanada | 1165 | 390 | 2021 | 3576 |
| Suriya | - | 127 | - | 127 |
| Digər | 284 | 397 | 118 | 799 |
| **Toplam** | **112599** | **45721** | **35435** | **193755** |
| **Şəhər və kəndlərə görə miqrasiya axınları** | | | | |
| Şehir | 92833 | 35229 | 22570 | 150632 |
| Köy | 19766 | 10492 | 12865 | 43123 |
| **Toplam** | **112599** | **45721** | **35435** | **193755** |

İkinci Qarabağ müharibəsi Ermənistanı demoqrafik fəlakətə sürüklədi. Şəhər və kəndlərin sosial-iqtisadi vəziyyətindəki kəskin fərqlər, şəhər və kənd əhalisinin daxili və xarici miqrasiyası demoqrafik böhranın səbəblərinin kəmiyyət və keyfiyyət xarakteristikalarıdır. Kənd yerlərində doğum səviyyəsinin ən çox aşağı düşdüyü bölgələr Ararat (Vedi) və Armavirdir (Sərdarabad). Ümumilikdə Ermənistanda əhalinin təbii artımında 9,9% azalma müşahidə olunub. Burada miqrasiya məsələləri də mühüm rol oynayırdı. Ermənistanda Covid-19 pandemiyası və İkinci Qarabağ Müharibəsi nəticəsində ölənlərin sayında artım və doğulanların sayında azalma müşahidə olunub. Demoqrafik monitorinq dövründə ilk dəfə olaraq Ermənistanın İrəvan və Qeqarkunik (Paytaxt) vilayətləri istisna olmaqla, bütün şəhərlərində əhalinin azalması müşahidə olunub. [6]

**Cədvəl 4:** 2023-cü ilin yanvar-oktyabr aylarına görə Ermənistanda təbii artımın əsas göstəriciləri[6]

| | 2021 | 2022 | 2023 |
|---|---|---|---|
| Doğum | 30320 | 29928 | 30186 |
| Ölü Doğanlar | 425 | 361 | 343 |
| Ölüm | 26836 | 22468 | 20152 |
| Təbii artım | 3484 | 7460 | 10034 |
| Evlilik | 14474 | 14036 | 13734 |
| Boşanma | 3692 | 3764 | 3780 |
| 0-1 Yaş Arası Ölüm | 202 | 191 | 206 |
| 0-4 Yaş Arası Ölüm | 236 | 217 | 242 |

Eyni zamanda, Ermənistanda miqrasiyanı şərtləndirən bəzi amillər var. Buraya aşağı həyat standartları, mənəvi cəhətdən qeyri-sağlam mühit, pis iqlim şəraiti və mövcud qeyri-sabitlik daxildir. Bu amillərə ölkədə təhlükəsizliyin təmin olunmaması və müharibə nəticəsində Azərbaycanın Qarabağ bölgəsində məskunlaşmış ermənilərin geri qayıtması da əlavə olundu. Ermənistanda yaşayış şəraiti Azərbaycandan Rusiyaya və Avropa ölkələrinə qayıdan əhalinin miqrasiyasının əsas səbəbləri yaxşı iş tapmaq istəyi, firavan mühitdə və yaxşı şəraitdə yaşamaq istəyi və digər amillərdir.

**Cədvəl 5:** 2020-2022 illərdə miqrasiya səbəbləri.[8]

| Gedib geri dönənlərin əsas səbəbləri | Gedənlər | Geri dönənlər | Yeni gələn miqrantlar |
|---|---|---|---|
| İşləmək | 66,3% | 14,9% | 10,4% |
| Ailə səbəbindən | 3,7% | 18,8% | 33% |
| Yerleşme | 1,3% | 7,9% | 18,7% |
| Eğitim | 7,7% | 1,5% | 1,5% |
| Askeri Operosyanlar | 0 | 2,3% | 20,4% |
| İşin Bitmesi | - | 24,9% | 2,7% |
| Başka | 16,9% | 25,3% | 8,8% |

Ermənistan Respublikasının Miqrasiya Nazirliyinin məlumatına görə, bu göstərici ilk növbədə Rusiya Federasiyasına əmək miqrasiyası ilə müəyyən edilir ki, bunun da 82%-i (təxminən 60-70 min nəfəri) iş məqsədi ilə ora gedib. Statistika naziri Amen Qazaryanın sözlərinə görə, 2020-ci ildə Covid-19 pandemiyası ilə əlaqədar bağlanan hava sərhədlərinin açılması ilə miqrasiyada artım müşahidə olunub. Eyni zamanda, 2021-ci ilin birinci yarısında gedən və gələnlər arasındakı mənfi fərq 2020-ci ilin eyni dövrü ilə müqayisədə 5 dəfə çoxdur. 2020-ci ildə təxirə salınan səfərlər və əmək miqrasiyası kimi 2021-ci ildə sərhədlərin açılması İkinci Qarabağ müharibəsindən sonra ölkədəki sosial-psixoloji vəziyyətdir.[7]

İkinci Qarabağ müharibəsindən sonra Ermənistanda da daxili miqrasiya artıb. Rəsmi məlumatlara görə, Sünik (Zəngəzur) vilayətinin əhalisi 2020-ci ildəki 136,4 min nəfərdən 2021-ci ildə 134,6 min nəfərə, Vayotsdzorda (Keşişkənd) 2020-ci ildəki 48,4 min nəfərdən 47,620 nəfərə qədər azalıb. Ermənistan Respublikasının İşləri Artak Markosyan miqrasiyanın artdığını, xüsusilə Sünik (Zəngəzur) quberniyasından İrəvan və ətrafına ciddi axının olduğunu bəyan edib.[11] İnkişaf etməmiş infrastruktur və iqtisadi, təhsil, mədəniyyət, sosial və təhlükəsizlik sahələrində problemlər səbəbindən əhalinin kəndlərdən axını müşahidə olunur. Eyni zamanda kəndlərdə əhalinin qeyri-bərabər bölgüsü var. Kənd əhalisinin 60%-i Ararat (Vedi), Armavir (Sərdarabad), Qeqarkunik (Baskənd) və Kotayk (Ellər) rayonlarında cəmləşib və burada da miqrasiya axını var. Lakin sərhəd kəndləri ilə müqayisədə bu ərazilərdə miqrasiyanın səviyyəsi xeyli aşağı idi. 2016-2021-ci illərdə kənd əhalisinin ən çox tərk etdiyi rayonlar sırasına 5,4 faizlə Lori (Dağ Borcalisi), Şirak (Şorayel) və Vayotsdzor (Keşişkənd), 3,7 faizlə Tavuş (Tovuzqala) daxildir. Ən aşağı miqrasiya göstəriciləri 0,3 faizlə Armavir (Sərdarabad), 0,4 faiz ilə Sunik (Zəngəzur) və 0,6 faizlə Araratdan (Vedi) şəhərlərində olub.[5] Belə ki, Ermənistanda demoqrafik şərait müxtəlif səbəblərdən çətinləşib ki, bu da ölkənin onsuz da ağır olan iqtisadi və sosial vəziyyətinin demoqrafik böhrana çevrilməsinə səbəb olub.

Ermənistanın rəsmi statistika xidmətinin 2021-ci il noyabrın 1-nə verdiyi məlumata görə, 44 günlük müharibədə həlak olan Ermənistan vətəndaşlarının sayı 2904, ölənlərin ümumi sayı isə 3781 nəfər olub. Belə ki, 2020-ci ildə 2019-cu illə müqayisədə 15-49 yaşlı kişilər arasında ölüm hallarının sayı 3,4 dəfə (2801 nəfər) artaraq 3956 nəfərə yüksəlib. Əmək qabiliyyətli kişilər arasında ölüm hallarının artmasının əsas səbəbi 44 günlük müharibə olub. İkinci Qarabağ müharibəsi və koronavirus pandemiyası təkcə demoqrafik böhrana mənfi təsir göstərməyəcək, həm də müharibədən və pandemiyadan sonrakı illərdə uzun müddət sosial-demoqrafik vəziyyətə təsir göstərəcək. Ciddi demoqrafik problemlərdən biri də 1990-cı illərin ikinci yarısı və 2000-ci illərin əvvəllərində doğulanların (İkinci Qarabağ müharibəsində iştirak edənlərin əksəriyyətinin) ailə qurma yaşında olmasıdır.[2]

Demoqrafik vəziyyətin mənfi tərəfləri əmək bazarında struktur dəyişiklikləri və sosial təminat məsələləri ilə sıx bağlıdır. Ermənistan Respublikasında müharibə hərbi xərclərin artmasına, işsizliyin və yoxsulluğun səviyyəsinin artmasına, səhiyyə sistemi, pensiyalar və digər sosial xidmətlərə ayrılan vəsaitin azalmasına gətirib çıxarır. Aydındır ki, qeyri-müəyyənlik və zəif iqtisadi imkanlar şəraitində miqrasiya

riski də yüksəkdir. İkinci Qarabağ Müharibəsi zamanı Ermənistan Respublikasının üç rayonu – Sünik (Zəngəzur), Vayotsdzor (Keşişkənd) və Qeqarkunik (Başkənd) sərhəd rayonlarına çevrildi və müharibə davam etdikcə bu şəhərlərin əhalisi azalmağa başladı. Bu, demoqrafik, siyasət və müdafiəyə ciddi təsir göstərdi.[2]

İkinci Qarabağ müharibəsindən sonra 2020-ci ildə Sünik (Zəngəzur) rayonunun daimi əhalisi 136 min nəfər azalıb. Qeyd etmək lazımdır ki, Ermənistan Respublikasının digər rayonlarından fərqli olaraq Sünikdən (Zənqəzur) əhalinin axını kifayət qədər azdır. Bu bölgədə 2016-2019-cu illər arasında əhalinin azalması ildə 2159 nəfər olub. 2020-ci il müharibəsinə qədər Ermənistan Respublikasında orta aylıq əmək haqqının reytinqində Sunik (Zənqəzur) lider olub. Bu dövrdə İrəvanda orta aylıq əmək haqqı 208 min dram, Sünikdə isə 269 min 782 dram olub. Bunun bir neçə səbəbi var idi:

1. Sünik rayonunda dağ-mədən müəssisələrinin olması;
2. Onların hesabına işğal olunmuş Qarabağ torpaqlarında əkinçilik və heyvandarlıq sahəsinin inkişafı.[2]

İkinci Qarabağ müharibəsinin Azərbaycan Respublikasının hərbi-siyasi qələbəsi ilə başa çatması və işğal olunmuş torpaqların öz sahiblərinə qaytarılması Sünikdə iri heyvandarlığın tənəzzülünə və heyvanların sayının azalmasına səbəb oldu. Bu vəziyyət rayon sakinlərinin gəlir əldə etməsinə mənfi təsir göstərmiş və miqrasiya artmışdır. Eyni zamanda, demoqrafik inkişaf baxımından Gorus rayonunun Teğ kəndində İkinci Qarabağ müharibəsinə qədər demək olar ki, heç bir əhali axını olmayıb. Burada daimi əhalinin sayı 2016-cı ildə 2206 nəfər olduğu halda, 2020-ci ildə 2165 nəfər olub. Lakin müharibənin başa çatması ilə həm sosial-iqtisadi, həm də təhlükəsizlik baxımından əhalinin həm daxili, həm də xarici miqrasiyası artıb. Müharibə başa çatdıqdan sonra Ermənistan hökuməti yardım proqramları həyata keçirdi və kənd təsərrüfatı sektorunu dirçəltmək üçün addımlar atdı.[13]

**Demoqrafiya və Miqrasiyanın İqtisadiyyata Təsiri**

Demoqrafiya və immiqrasiya iqtisadiyyata ciddi mənfi təsir göstərə bilər. Əhalinin azalması istər-istəməz əmək məhsuldarlığının azalmasına səbəb olur. Çünki köç edən əhalinin əksəriyyəti yüksək ixtisaslı insanlardır (beyin axını). Ona görə də Ermənistan Respublikasından Qərb ölkələrinə əsasən gənclər, xüsusilə də gənc mütəxəssislər miqrasiya edirlər. Bu da əhalinin qocalma prosesinə təsir edir. Demoqrafiya və immiqrasiya da işçi qüvvəsinin azalmasına kömək edir. Ermənistanda əmək qabiliyyətli əhalinin sayı ildən-ilə azalır. Ermənistanda 2015-ci ildə əmək qabiliyyətli əhalinin sayı 2 milyona yaxın olduğu halda, 2021-ci ildə bu rəqəm 1 milyon 800 minə düşüb. Yaşlanma ilə əlaqədar istehlak modeli dəyişir, istehlakçı xərclərində davamlı azalma müşahidə olunur. Bu da malların qiymət səviyyəsinə təsir göstərir. Beynəlxalq Valyuta Fondunun hesablamalarına görə, əhalinin qocalması deflyasiya təzyiqləri ilə müşayiət olunur.[3] Nəhayət, demoqrafik qocalma pensiyaların ödənilməsi baxımından büdcə üçün ciddi yükə çevrilir. Qeyd etdiyimiz kimi, Ermənistan əhalisi qocalmış ölkə kimi səciyyələndirilir ki, bu da təqaüdçülərin sayının artmasına malikdir və buna gətirib çıxaracaq. Məsələn, 2022-ci il iyulun 1-də açıqlanan məlumata görə, Ermənistanda pensiyaçıların sayı 2019-cu ilin əvvəlində 464 min 110, 2020-ci ildə 464 min 595, 2021-ci ildə isə 465 min 955 nəfər olub. Bu, həm birbaşa pensiya ödənişləri, həm də pensiyaların artırılması baxımından ciddi problem olardı.[2]

Demoqrafik vəziyyətin ən mühüm problemlərindən biri də uzunmüddətli demoqrafik dəyişikliklər nəticəsində əhalinin qocalması, əhalinin artımı, doğum, ölüm və onların yerdəyişməsi, həmçinin miqrasiyadır. Birləşmiş Millətlər Təşkilatının müəyyən etdiyi demoqrafik qocalma şkalasına əsasən, əgər ölkənin əhali strukturunda 65 və yuxarı yaşda olan əhalinin xüsusi çəkisi 7%-dən çox olarsa, həmin əhali yaşlı hesab olunur. Ermənistanda bu göstərici 12,6% təşkil edib. Beləliklə, Ermənistan əhalisinin mexaniki hərəkəti göstəricilərindəki tendensiyaları təhlil etdikdə aydın olur ki, miqrasiya təkcə əhalinin azalmasına deyil, həm də demoqrafik qocalmaya səbəb olur. Belə davam edərsə, bu vəziyyətin gələcəkdə daha da pisləşəcəyi ehtimal edilir.[2]

**Nəticə**

İkinci Qarabağ müharibəsinin yaratdığı ağır sosial-iqtisadi vəziyyət Ermənistan iqtisadiyyatına mənfi təsir göstərdi. İqtisadi artım meylləri zəifləyib. Müharibə iqtisadi böhranı dərinləşdirdi və xeyli maddi itkilərə səbəb oldu. Müharibədən sonra demoqrafik vəziyyət pisləşdi, miqrasiya axını sürətləndi. Təbii artım templəri və doğum nisbətləri azalıb.

Beləliklə, Ermənistanda demoqrafik şərait müxtəlif səbəblərdən çətinləşdi və bu, Ermənistanın onsuz da ağır olan iqtisadi və sosial vəziyyətinin demoqrafik böhrana çevrilməsinə səbəb oldu. Təbii ki, müəyyən müddətdən sonra Ermənistan Respublikasında müharibənin sosial-iqtisadi və demoqrafik nəticələri tam şəkildə görünəcək.

**Ədəbiyyat siyahısı**


1. Hacıyev Qasım, Kəlbizadə Elnur, Eyvazov Aydın, İsmayılova Turan, Əzimzadə Aynur, İmaməli Şərqiyyə, *Ermənistan: Daxili Sosial-İqtisadi və Siyasi Şərait*, MTM Innovation MMC, Bakı 2019.

2. ՀՀ ժողովրդագրական հիմնախնդիրների պատերազմի ու համավարակի հետևանքների, 2022, էջ 96, զնահատմանը], https://asue.am/upload/files/amberd/Amb%2050_compressed.pdf.

3. ԴԵՄՈԳՐԱՖԻԱԿԱՆ ԻՐԱՎԻՃԱԿԸ ԵՎ ԱՐՏԱԳԱՂԹԸ ՀԱՅԱՍՏԱՆՈՒՄ. ՄԾՈՒԾՈՏ ԱՊԱԳԱ էջ 36, https://www.luys.am/img/artpic/small/ecee65f91a1ae0d7260aDemography_very_final.pdf

4. Արցախցիների արտագաղթի տագնապալի միտումը. ինչն այն չէ ՀՀ կառավարության ծրագրերի հետ , https://arm.sputniknews.ru/20231109/arcakhcineri-artagaghti-tagnapali-mitumy-inchn-ajn-che-hh-karavarutjan-tsragreri-het-68382196.html

5. COVID-19 համավարակի և պատերազմի ազդեցությունը ժողովրդագրական գործընթացների վրա, https://www.lragir.am/2022/01/30/695806/,

6. հայաստանի հանրապետության սոցիալ-տնտեսական վիճակը 2021թ. հունվար-սեպտեմբերին, Հայաստանի Հանրապետության վիճակագրական կոմիտե], https://www.armstat.am/file/article/sv_09_21a_520.pdf,

7. Այս տարվա առաջին եռամսյակում Հայաստանը լքել ու չի վերադարձել ավելի քան 55 հազար մարդ, https://www.azatutyun.am/a/31344184.html,

8. Հայաստանի ժողովրդագրական ժողովածու - 2022 , ՄԱՍ 7: ՄԻԳՐԱՑԻԱ , Հայաստանի Հանրապետության վիճակագրական կոմիտե, https://armstat.am/file/article/demog_2023_7.pdf,

9. Հայաստանի ժողովրդագրական ժողովածու, 2023, Հայաստանի Հանրապետության վիճակագրական կոմիտ, https://armstat.am/am/?nid=82&id=2624,

10. ՀԱՅԱՍՏԱՆԻ ՀԱՆՐԱՊԵՏՈՒԹՅԱՆ ՍՈՑԻԱԼ-ՏՆՏԵՍԱԿԱՆ ՎԻՃԱԿԸ 2023թ. ՀՈՒՆՎԱՐ-ՀՈԿՏԵՄԲԵՐԻՆ, Հայաստանի Հանրապետության վիճակագրական կոմիտ], https://www.armstat.am/file/article/sv_10_23a_520.pdf,

11.Միգրացիոն իրավիճակը Հայաստանում՝ միֆեր և իրականություն. փաստերի ստուգում], https://www.aravot.am/2021/11/29/1232405/,

12. ՄԻԳՐԱՑԻՈՆ ՊԱՏԿԵՐԸ ՀԱՅԱՍՏԱՆԻ ՀԱՆՐԱՊԵՏՈՒԹՅՈՒՆՈՒՄ 2021 թվականին (Ըստ 2021թ.-ի տնային տնտեսությունների կենսապայմանների ամբողջացված հետազոտության կշռված արդյունքների), https://www.armstat.am/file/article/migration_profile_am__2021.pdf, son erişim tarihi: 09.10.2023

13. Սյունիք . անվտանգային իրավիճակը սոցիալ-տնտեսական ցուցանիշների անկման պատճառ , https://ampop.am/socio-economic-situation-in-syunik/,

14. KÖRÜKMEZ Lülüfer, "Öncesi ve Sonrası: Ermenistan'dan Türkiye'ye İşgücü Göçünün Nedenleri ve Göçmen İlişki Ağları", *Sosyoloji Dergisi*, S. 29, 2013, s. 67-91.

## Summary

**Shargiya Imamali**

### Migration as a social problem in Armenia after the Second Karabakh War

Migration is one of the main threats to the social security system of Armenia. Demographic conditions in Armenia are changing as a result of migration. Year by year, the number of people leaving the country is increasing, while the natural increase is decreasing. The main reasons for migration include economic crisis, mass unemployment, poverty, corruption and other factors. The low standard of living in Armenia, the incompatibility of working conditions, and the opportunity to get a better education increase the level of migration even more. The war, which resulted in Azerbaijan taking back the lands occupied by Armenia in 2020, significantly affected the migration process. While the number of people leaving Armenia due to negative conditions is increasing, on the other hand, there has been migration to Armenia from the Karabakh region. This was the result of the provocation and intimidation of the people by the Armenian terrorist units against Azerbaijan. The main purpose of the article is to investigate how the Second Karabakh war affected the *migration process in Armenia.*


***Keywords:*** *Armenian, migration, demography, natural increase.*


## Резюме

**Шаргия Имамали**

### Миграция как социальная проблема в Армении после Второй Карабахской войны

Миграция является одной из основных угроз системе социального обеспечения Армении. Демографическая ситуация в Армении изменяется в результате миграции. С каждым годом количество выезжающих из страны увеличивается, тогда как естественный прирост населения снижается. Основными причинами миграции являются экономический кризис, массовая безработица, бедность, коррупция и другие факторы. Низкий уровень жизни в Армении, несоответствие условий труда, стремление получить лучшее образование также способствуют росту миграции. Война 2020 года, в результате которой Азербайджан вернул свои земли, ранее оккупированные Арменией, значительно повлияла на миграционные процессы. На фоне негативной ситуации количество покидающих Армению увеличилось, с другой стороны, наблюдается миграция из Карабахского региона в Армению. Это стало результатом провокаций армянских террористических группировок против Азербайджана и запугивания населения. Основная цель данной статьи – исследовать, как Вторая Карабахская война повлияла на миграционные процессы в Армении.


***Ключевые слова:*** *армяне, миграция, демография, естественный прирост.*

UOT 159.9
https://doi.org/10.59849/2710-0820.2025.2.226

**Südabə Hüseynova**
*AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun şöbə müdiri,*
*psixologiya üzrə fəlsəfə doktoru, dosent*
*sudabeaskerova@gmail.com*
*ORCID: 0000-0002-7730-5094*
*Azərbaycan*

# SOYQIRIMI ZAMANI MÜŞAHİDƏ OLUNAN SADİST VƏ NEKROFİL DAVRANIŞLAR: PSİXOLOJİ TƏHLİL

***Açar sözlər:*** *erməni terrorçuları, erməni sadizmi, deviant davranış, nekrofiliya, soyqırım*

**Giriş**

Yüzillərlə xalqımıza qarşı erməni millətçiləri tərəfindən məqsədyönlü şəkildə həyata keçirilən təcavüzkarlıq siyasəti, etnik təmizləmə, soyqırım erməni psixologiyasında nekrofiliyaya olan meylin bariz təzahürüdür. XX əsrin sonlarında erməni silahlı birləşmələrinin Azərbaycanın ən qədim yaşayış məskənlərindən biri olan Xocalı şəhərində törətdikləri və dünyanı dəhşətə gətirən qətliam, soyqırım xəstə erməni təfəkkürünün, ağlasığmaz erməni qəddarlığının, maniakal cinayətkarlıq xüsusiyyətlərinin nümunəsidir. Xocalı qətliamı XX əsrin ən dəhşətli və ən qəddarcasına törədilmiş Xatın, Xirosima faciələrinin oxşarıdır. Xocalı soyqırımının epizodları açıq şəkildə erməni psixologiyasında nekrofiliya və sadomazoxizm hallarının genetik kod aldığını söyləməyə əsas verir.

Nekrofiliya qədim yunan sözü olub νεκρός – "ölü" və φιλία – "sevgi" sözlərindən əmələ gəlmişdir. Bu hadisə həm kişilərdə, həm də qadınlarda baş verir. Nekrofillərin yaşı da yeniyetməlikdən qocalığa qədər dəyişə bilir (13, s. 138). Bu mənada Xocalı qətliamında fəal iştirak edən ermənilərin də yaş göstəriciləri fərqlidir. Bu faciəni həyata keçirən terroristlərin yaş göstəricisi 30-55 yaş arası dəyişdiyi məlumdur. Tək-tək serial qatillər olan manyaklardan fərqli olaraq ermənilərdə nekrofiliya kütləvi xarakter daşıyır və şizofreniyanın başlıca göstəricisi kimi əsasən bir istiqamətdə - türklərə münasibətdə həyata keçirilir.

## 1. Nekrofiliya anlayışı haqqında tədqiqatçıların fikirləri

Nekrofiliyanın psixoloji xəstəlik kimi təzahürü haqqında bir çox filosoflar, psixoloqlar öz əsərlərində qeyd etmişlər. Yəhudi əsilli, Almaniyada doğulan və Amerikada yaşayan sosial psixoloq Erix Fromm yazırdı ki, nekrofiliyanın səbəbi "*ailədə sevincdən məhrum olan zülmkar, tutqun atmosfer, yuxululuq..., həyata marağın olmaması, həvəslərin, istəklərin və ümidlərin olmaması, eləcə də sosial reallıqda bütöv məhvetmə ruhu ola bilər*" (20, s. 74).

Bu fikrə əsaslanaraq deyə bilərik ki, ermənilərin körpə yaşlarından türklərə düşmən olması və onlara qarşı hər cür qəddarlığın qəhrəmanlıq olması ideologiyası aşılanır. Nifrət etmək xüsusiyyətlərinin inkişaf etdirilməsinə yönələn bu tərbiyə üsulu E.Frommun xarakterizə etdiyi fərqdi xüsusiyyətlərin formalaşması ilə nəticələnir və sonda hər bir erməni öz həyat və yaşam amalını türklərin məhv edilməsilə bağlayır.

Hər hansı bir etnosa qarşı belə qərəzli yanaşma bir çox etno-psixiatrlar tərəfindən şizofreniyanın göstəricisi kimi qiymətləndirilir. Belə ki, S.A.Trifonovanın qeyd etdiyi kimi "*Etnik qərəzlər müxtəlif etnik qrupların nümayəndələri arasında ünsiyyət dairəsini məhdudlaşdırır, hər iki tərəfdə ehtiyatlılığa və nəticədə daha böyük anlaşılmazlığa səbəb olur*". Müəllifin qeyd etdiyi kimi nifrət və qərəz hissinin əsasında acizlik və bu acizliyin dərk edilməsilə bağlı yaranan *"əsəbilik və aqressivlik, özünə aşağı hörmət, natamamlıq hissi..."* dayanır (19, s. 28). Məhz bu natamamlıq hissindən doğan qərəz ermənilərin nekrofiliya meyllərinin etnik xüsusiyyətə çevrilməsinə səbəb olmuşdur.

Psixoloji məhfum kimi nekrofiliya bir çox psixoloqların tədqiqat obyekti olmuşdur.

E.Fromm və bir çox başqa psixoloqlar nekrofiliyanı cansız (ölü) obyektlərə məhəbbət kimi şərh edirlər. İ.D.Stoimenovun da qeyd etdiyi kimi "*Nekrofiliya şizofreniya, şəxsiyyət pozğunluqları, əqli gerilik və digər psixozlarda baş verir*" (17, s. 588).

Tarixi mənbələrə nəzər saldıqda görürük ki, nekrofiliya halları tarix boyu mövcud olub və bu hallar tarixi mənbələrdə də öz əksini tapmışdır. Hələ Qədim Yunan tarixçisi Herodot Misirdə nekrofiliya faktlarından bəhs etmişdir.

Elmi ədəbiyyatda nekrofiliyanın nekromaniya (cəsədləri murdarlamaq istəyi) və nekrosadizm (cəsədin parçalanması və ya eybəcərləşməsi ilə müşayiət olunan kopulyasiya) formaları fərləndirilir. Ermənilərin xalqımıza qarşı çevrilən nifrətləri yalnız sağ insanlara müxtəlif formalı əzab və işgəncələr verməklə kifayətlənməyib, öldürdükləri insanların cəsədləri üzərində müxtəlif formalı təhqiramiz hərəkətləri (cəzədlərin müxtəlif əzalarının kəsilməsi, yandırılması və s.) ilə də davam edib ki, bu da "erməni şizofreniyası"nın başlıca təzahür forması kimi qiymətləndirilə bilər.

Avstriyalı nevroloq, kriminalist, psixoloq Rixard Fridolin Yozef fon Qraft Ebinq tərəfindən kifayət qədər çox sayda nekrofiliya sahəsində tədqiqatlar aparılmış və bu onun bir neçə cildlik əsərlərində də öz əksini tapmışdır. Müharibə iştirakçısı olmuş Qraft Ebinq nekrofiliya haqda tədqiqat təqdim edən ilk psixoloq olmuşdur. O, nekrofiliyanı "bertranizm" adlandırmışdı. Bu anlayış müharibə iştirakçısı olmuş serjant Bertranın adından götürülmüşdür. Psixopatiyanın müxtəlif formalarını təsvir edən Qraft Ebinq göstərir ki, "*sadizm həm də digər canlılara alçaldılma, əzab, hətta ağrı və yaralar vermək istəyidir*" (15, s. 236).

Nekrofiliya müəyyən mənada özündə sadizmin xüsusiyyətlərini daşıyır, belə ki, iradə göstərə bilməyən insana qarşı çevrilir. Qeyd edilməlidir ki, Xocalı soyqırımında ermənilər tərəfindən həyata keçirilən vəhşiliklər, cinsindən və yaşından asılı olmayaraq azərbaycanlılara qarşı edilən sadist hərəkətlər insanlığa qarşı çevrilən ən ağır cinayətkarlıqdır və cinayət davranışının əsasında destruktiv anormallıq, psixopatiya dayanır.

Yəhudi əsilli psixoloq Erix Fromm nekrofiliyanın əsaslı tədqiqatçılarındandır. O, sadizm və nekrofiliyanın xarakter nümunəsi kimi Adolf Hitleri misal gətirir. E.Fromm onu açıq şəkildə nekrofiliya və sadomazoxizm əlamətləri olan narsistik bir şəxsiyyət kimi təsvir edir (20, s. 622).

E.Fromma görə, sadist insanların ona tabe olmasını sevir, lakin eyni zamanda dərin bədbəxt və tənha bir insan olaraq qalır. Nekrofiliyanı sosial xarakterli destruktivizmin təzahürü kimi xarakterizə edən E.Fromma görə, iki növ nekrofiliya var: cinsi və qeyri-cinsi; nekrofiliya parçalanma ehtirası ilə ifadə edilir və onun üçün hər şey ölüdür. Cinsi olmayan nekrofiliyanı dərindən araşdıran E.Fromm yazır ki, nekrofil xarakteri bir tərəfdən ölülərə ehtiraslı cazibə kimi, digər tərəfdən isə canlı hər şeyi ölüyə çevirmək istəyi, məhv etmək ehtirası kimi qiymətləndirilə bilər. Fromm bunu bioloji olmayan (mexaniki) nekrofiliya adlandırır (20, s. 623).

Nekrofiliyanın kütləvi xarkter almasını araşdıran yəhudi mənşəli polşalı hüquqşünas Rafael Lemkin tərəfindən ilk dəfə "genosid" (soyqırım) termini istifadə edilmişdir. Rafael Lemkin "İşğal olunmuş Avropada faşist idarəetməsi" kitabında yəhudilərin faşistlər tərəfindən kütləvi məhv edilməsi, vandallıq, nekrofiliya hallarına məruz qalması məsələlərini geniş araşdırmışdır (23, s. 81).

Rafael Lemkin genosid anlayışını yalnız fiziki məhvetməyə deyil, həm də xalqın dilinin, dininin, milli ənənələrinin məhv edilərək aradan qaldırılmasına yönələn təhqiredici fəaliyyət kimi qiymətləndirir. Ermənilərin Azərbaycana və azərbaycanlılara qarşı fəaliyyətləri də yalnız fiziki məhvetmə və təhqirli işgəncələrlə kifayətlənməyib, həm də ölkəmizin ekologiyasına, mədəni-tarixi abidələrinə, dini və mənəvi-əxlaqi mərkəzləri olan məscidlərinə, görkəmli şəxsiyyətlərinə və s. qarşı destruktiv davranışları da genosidin və məhv etməyə, öldürməyə məhəbbətin - nekrofiliyanın bariz nümunəsidir.

**2. Ermənilərin azərbaycanlılara qarşı törətdikləri soyqırımlar sadist-nekrofil meyllərin bariz nümunəsi kimi**

Ermənilərin xalqımıza və ölkəmizə qarşı nekrofil, sadist mahiyyətli fəaliyyətləri ümumilikdə bəşəriyyətə qarşı edilən vəhşilik, soyqırım və terror olaraq qiymətləndirilməlidir. Ermənilər azərbaycanlıları milliyyətinə, dini inanclarına görə terrora məruz qoyurlar və bu fəaliyyət

tarixi xüsusiyyət qazanmışdır desək, yanılmarıq. Belə ki, erməni terrorçuları tərəfindən Azərbaycan xalqının başına gətirilən soyqırım cinayətləri, müsibətlər tarix boyu baş vermişdir. İkinci yüzillikdir ki, terrorçu ermənilər öz havadarları ilə əlbir azərbaycanlılara və türklərə qarşı qətliamlar törədir, torpaq iddiaları irəli sürür, kütləvi genosid aktları törədirlər. XX əsrdə azərbaycanlıların kütləvi məhv edilməsi məqsədilə həyata keçirilən terror hərəkətləri nəticəsində 1 milyona yaxın məcburi köçkün və qaçqın taleyi yaşamağa məcbur edilmişdir.

Millətimizə, dinimizə, dilimizə, mədəniyyətimizə qarşı 1905-1907, 1914-1916, 1918-1920, 1948-1953 və 1988-ci illərdə təkrar-təkrar həyata keçirilən kütləvi məhvetmə hadisələri erməni faşistlərinin sadist-nekrofil meyllərinin sübutudur. "Böyük Ermənistan" iddiasından vəcdə gələn erməni daşnakları XIX əsrin sonlarından etibarən onlara havadarlıq edən və onlardan qılınc kimi istifadə edən (atalar sözüdür: "Qılınc deyil, onu tutan əl qorxuludur") güclü dövlətlərin hərtərəfli dəstəyi ilə Azərbaycan ərazilərinin ilhaqına nail olmuşdurlar.

Professor Ə.Bayramovun tədqiqatlarına əsasən, XX əsrdə Qafqaz regionunda baş verən "*etnik münaqişələrin təhlili, eləcə də ermənilərin terror aktları, erməni manyaklarının Moskvada 30-dan artıq qadını zorlaması, soyması və əzabla öldürməsi faktları aydın surətdə göstərir ki, qəddarlıq, sadizm, satqınlıq etnosun müəyyən qisminin davranış və rəftarında zaman-zaman xüsusi stereotip və yönüm kimi aydın surətdə özünü biruzə verir və onların nekrofil təbiətinin ayrı-ayrı insanlarda, xüsusən də bir çox erməni manyaklarında özünü aydın surətdə biruzə verən nekrofiliyanın - təzahürüdür*" (3, s. 151).

Bir neçə nəsildə təkrar olunan eyni rəftar və davranış forması, yəni qəddarlıq və vəhşilik etnik xüsusiyyət olmaqla yanaşı, xüsusi mexanizmə malikdir. Həmin mexanizm məhz nekrofiliya ilə əlaqədardır. Görkəmli filosof və psixoloq Erix Frommun tədqiq eydiyi nekrofiliyaya (əzabla, zorla öldürmək, parçalama, doğrama, dağıtma) meylin ermənilərin etnik xüsusiyyətinə çevrildiyini görmək çətin deyil. Nekrofillər canlı orqanizmi, stukturları parçalamağa can atırlar. Nekrofil caninin əsas məqsədi, ümumən, kimisə öldürmək deyil, ölünün parça-parça edilməsi, meyit üzərində ehtikarlıqdır. Bu cəhət erməni terrorçularının əməllərində özünü aydın surətdə göstərir (21, s. 147). Deməli, nekrofiliya erməni qəddarlığının psixoloji mexanizmini təşkil edir.

Xarakteroloji mənada nekrofiliya hər cür ölümə, çürüntüyə, sağlam olmayan qoxuya, üfunətə ehtiraslı can atmaqdır. Erik Frommun bir fikri diqqəti cəlb edir: "*Mənim qənaətimə görə çox ehtimal ki, nekrofiliyanın inkişafında genetik amil əsas rol oynayır*" (21, s. 146).

Ermənilərin törətdikləri etnik konfliktlər və cinayət halları açıq surətdə göstərir ki, nekrofiliya ermənilərin etnik xüsusiyyəti olaraq qan yaddaşına köçmüşdür. Məlumdur ki, kəskin nekrofillər çox təhlükəlidir, onlarda insana nifrət, irqi və dini ayrı seçkilik, müharibəyə, qana və dağıntıya susamaq özünü aydın surətdə biruzə verir. Keçən əsrin 80-90-cı illərində Şuşanı, Qarabağın şəhər və kəndlərini dağıtmaq, viran qoymaqla kifayətlənməyən ermənilər 2006-cı ildə xalqımıza məxsus maddi mədəniyyət izlərini itirmək üçün minlərlə hektarlıq ərazilərdə yanğınlar törətdilər, o cümlədən qəbiristanlıqlara od vurdular, qəbir daşlarını dağıdıb məhv etdilər. Belə bir vandalizm xisləti erməni etnosunda kiçik yaşlarından uşaqlarda "düşmən obrazı" yaratmaq, bu düşmənçliyi onların təhtəlşüur səviyyəsində daima möhkəmləndirməklə bağlıdır. Öldürülən qocaların, qadınların, körpə uşaqların meyitlərini parçalamaq, doğramaq, öldürüləndən sonra gözlərini çıxarmaq, burnunu, qulaqlarını kəsmək, bədənini deşik-deşik etmək, diri-diri oda atıb yandırmaq kimi hallar bu etnosun müəyyən qrupunda qəddarlığın, nekrofil xislətin, yəni dağıntıya olan ehtirasların, nekrofil sadizmin aydın təzahürüdür.

Erix Frommun fikrincə, bu, bir tərəfdən "*cinayətkarların cəzasız qalmaları ilə əlaqədardırsa, digər tərəfdən həmin "adamların" sadist meyillərinin ödənilməsi imkanları, başqa sözlə, nekrofil təbiətləri ilə bağlıdır*" (21, s. 153).

Elçin Cabbarovun qeyd etdiyi kimi, "satelit dövlət" olaraq xarakterizə olunan Ermənistan tarixən başqa dövlətlərdən asılı olmuşlar. Müəllifin qeyd etdiyi kimi, satelitliyin 3 əsas ictimai-humanitar bazası vardır:

1. Milli ideologiyanın olmaması;
2. Milli dövlət xadiminin olmaması;

3. Posthəqiqətə əsaslanmaq və posthəqiqətlə inandırmaq, yəni ictimai-siyasi fikri, yaxud mövqeni hiss-həyəcan, şəxsi qənaət və subyektiv faktlarla formalaşdırmaq (4, s. 53-54).

Ermənilərin satelit dövlətlərinin başlıca mahiyyəti erməni traybalizmi ilə sıx bağlıdır. Belə ki, etnonasional hərəkatlarda radikal və dağıdıcı mövqe tutan ermənilər terrorçu fəaliyyət nümayiş etdirir, dağıtmağa, türkləri öldürməyə olan ehtiraslı meyllərini, erməni sadizmini imkan düşən kimi reallaşdırmağa çalışırlar.

Erməni sadizminin bariz nümunəsi olan və tarixi fakt kimi təsdiq edilən hadisələrdən biri İrəvan xanlığında azərbaycanlılara qarşı törədilən qətl-qiyamdır. "*1905-ci il iyun ayının 9-da silahlı ermənilər Eçmiədzinin Təkiə kəndinə hücum etmiş, camaatı vəhşicəsinə gülədən və qılıncdan keçirmişlər. Axund Məhəmməd Əli Mirzə Əbdülhüseyn Qazızadənin böyük imarətinə od vurub, 200 cild Quran və müqəddəs kitabları yandırmışdılar. Qafanın Karxana kəndindən qaçıb qayaların arasında sığınacaq tapmış 30-dan artıq qadını vəhşicəsinə məhv etmişdilər. Ara vermədən, amansız hücumlarda İrəvan quberniyasında məqsədlərinə nail olan erməni cəlladları Qarabağa, 1905-ci ilin noyabrında Gəncə şəhərində böyük qətliamlar törədirlər. İlk növbədə əsas məqsədləri azərbaycanlıları bu ərazilərdən vurub çıxarmaq, çıxmadıqda isə ucdantutma, böyük-kiçik demədən məhv etmək, nəticədə, erməni dövləti qurmaq olmuşdur. Ermənilər 1905-1906-cı illərdə İrəvan və Gəncə quberniyasında 200-dən artıq yaşayış məntəqəsini viran qoymuş, əhalisini qəddarlıqla məhv etmişlər. Lakin erməninin arxasında dayanan dövlətlərin biri belə bu məsələdə səsini çıxarmamışdır. Silahlı erməni dəstələri avqust ayının 1-də Zəngəzurun 3500 nəfərlik Qatar kəndinə hücum etmişlər və bundan sonra Aralıq, Pirdavdan, Atqız kəndləri də yerlə-yeksan edilmişdi"* (11, s. 2).

Onu da qeyd eymək lazımdır ki, bundan əlavə, Azərbaycanın yüzlərlə yaşayış məntəqəsi, o cümlədən Qarabağda 150-dən çox kənd dağıdılmış və yandırılmış, eləcə də Şuşada azərbaycanlılara qarşı amansız qırğınlar törədilmişdir. 1918-ci ildə yenidən ərazi iddiaları ilə Azərbaycana hücum edən erməni sadistləri Bakıda və digər torpaqlarımızda 50 minə yaxın insanı ağılasığmaz, maniakal, nekrofil əsaslı işgəncələrlə qətl etmişlər. Həmin il Zəngəzurda 10 mindən çox, Şamaxıda 18 min 270 nəfər azərbaycanlı ağlagəlməz, xəstə təxəyyülün edə biləcəyi vəhşiliklərlə öldürülmüşdür. Sadist və nekrofil xarakterli erməni daşnakları cinsinə və yaşından asılı olmayaraq azərbaycanlıları məhv etmiş, İrəvanda və onun 88 kəndində qətliamlar etmiş və kəndləri darmadağın etmişlər (1, s. 170). Bu göstəricilər ermənilərin genetik əsaslı psixopatoloji fəaliyyətlərinin genosid xarakter daşıdığını təsdiq edir.

Xalqımıza qarşı erməni millətçiləri tərəfindən məqsədyönlü şəkildə həyata keçirilən təcavüzkarlıq siyasəti, etnik təmizləmə, soyqırım Azərbaycan tarixinin qanlı hadisələrlə, o cümlədən faciələrlə dolu çox ağrılı mərhələlərini təşkil edir. Azərbaycan ərazilərində XX əsrin 20-ci illərində davamlı cinayətlər törədilmişdir. 1992-ci ildə Qubada, Şamaxıda, Bakıda, Naxçıvanda, Lənkəranda, əsrin sonlarında isə Xocalıda, Ağdabanda 67 nəfər öldürülüb, 700 nəfərdən çox adam işgəncəyə məruz qalmış, 8 nəfər 90-100 yaşlı qoca, 2 azyaşlı uşaq və 7 qadın diri-diri yandırılmışdır. Bu sadist xüsusiyyətli qətliamlar, genosid aktları azərbaycanlıların məhv edilməsi məqsədini daşımışdır (7, s. 9).

XX əsrin 40-cı, 60-cı, 80-ci illərində təkrar-təkrar həyata keçirilən terror fəaliyyətləri ermənilərin Azərbaycan əhalisinə qarşı sadist və nekrofil meyli amansız fəaliyyətlərinin göstəricisidir.

Son iki əsrdə Azərbaycan xalqı erməni millətçilərinin davamlı olaraq etnik təmizləmə, soyqırım siyasətinə məruz qalıb. Xalq tarixi torpaqlarından didərgin düşüb, məcburi köçkünə, qaçqına çevrilib və bütün bu dəhşətlər ermənilər tərəfindən kütləvi qırğınların törədilməsi ilə müşayiət olunub. Bütün bunlar Sovet dövründə də baş verib, azərbaycanlılar öz tarixi-etnik torpaqlarından qovulub. Azərbaycanlılar öz əzəli yurdlarından İrəvandan (150 min azərbaycanlı) 1948-1953-cü illərdə deportasiya olunaraq Azərbaycanın Kür-Araz düzənliyində yerləşdirilib. 1988-ci ildə isə öz dədə-baba torpaqlarında yaşayan 250 min azərbaycanlı bu ərazidən erməni daşnakları tərəfindən didərgin salınmış və bununla da Ermənistan monoetnik dövlətə çevrilmişdir.

Ermənistanın 1988-ci ildə havadarlarının dəstəyilə Azərbaycana və azərbaycanlılara qarşı

apardığı təcavüzkar, ədalətsiz işğalçı siyasi fəaliyyətinin nəticəsi olaraq vətəndaşlarımız etnik təmizləməyə məruz qalaraq didərginə, məcburi köçkünə çevrilmiş, şəhid olmuşdur.

**3. Xocalı soyqırımı ermənilərin psixopatoloji meylinin təzahürü kimi**

Tarixin müxtəlif dövrlərində ermənilər tərəfindən genosidə məruz qalan Azərbaycan xalqı XX əsrin sonlarında ermənilərin növbəti vəhşiliyi ilə Xocalıda üzləşdi. Bu artıq Ermənistanın ölkəmizə qarşı hərbi təcavüzünün sadist-nekrofil siyasətinin ən amansız məqamı idi. Xocalıda aparılan etnik təmizləmədə törədilən vəhşiliklər bəşər tarixində rast gəlinən cinayətkarlığın ən qəddar forması idi. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə ermənilərin Xankəndində yerləşən 366-cı motoatıcı alayı qədim Xocalı şəhərinə daxil olaraq, bəşəriyyətə, mövcudluğa qarşı çevrilən Xocalı genosid aktını törətmiş oldu.

1988-ci ildən başlamış Ermənistan - Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi dövründə ən dəhşətli, faciəli, tarixdə analoqu çox az olan hadisələrdən biri də bu soyqırımıdır. Qətiyyətlə demək olar ki, 1992-ci il 25-26 fevral tarixində baş verən Xocalı soyqırımı əsrin Xatın, Xirosima, Naqasaki və Sonqmi kimi dəhşətli faciələri ilə bir sırada dayanır (2, s. 4).

Həmin tarix üçün 7 min əhalisi olan Xocalıda erməni soyqırımının statistik nəticələri belədir:

- qətilə yetirildi – 613 nəfər (onlardan 106 – qadın, 63 – uşaq, 70 – qoca) ;
- əlil olanlar – 1000 nəfər
- əsir götürülənlər – 1275 nəfər (əsirlərdəm 150 nəfər haqda heç bir məlumat yoxdur).

Xocalı faciəsi nəticəsində 8 ailənin bütün üzvləri öldürülmüş, 25 uşaq hər iki valideynini, 130 uşaq isə 1 valideynini itirmiş oldu.

Xocalı soyqırımı erməni sadizminin və genetik xüsusiyyət qazanmış nekrofil meylinin sübutudur. Yerli azərbaycanlı əhaliyə qarşı törədilən amansız vəhşiliklər, işgəncələr bəşər tarixində analoqu olmayan cinayətkarlıq hadisəsidir. Təcavüzdən qaçıb xilas olmağa çalışan insanların ağlasığmayan, xəstə təxəyyülün, psixopatalogiyanın doğurduğu işgəncələrlə məhv edilməsi haqqında Rusiyanın "Memorial" hüquq müdafiə mərkəzi belə məlumat təqdim etmişdir: "*dörd gün ərzində Xocalıdan Ağdama 200 nəfər azərbaycanlının cəsədi gətirilmişdir, cəsədlərin təhqirə məruz qalması faktları aşkar edilmişdir. Aparılan ekspertiza zamanı aşkar edilmişdir ki, 151 nəfər güllə, 20 nəfər qəlpə yaralarından, 10 nəfər küt alətlə vurularaq qətlə yetirilmişdir. Hüquq müdafiə mərkəzi diri insanın başının dərisinin soyulması və digər işgəncə faktları qeydə almışdır*" (8).

Törədilən bu vəhşiliklər nekrofiliya hallarının göstəricisidir, belə ki, hamilə qadınların qarınlarını kəsməklə, gənc qızlara yaxınları və qohumlarının gözləri qarşısında təcavüz etməklə, övladları valideynlərinin, valideynləri övladlarının gözləri önündə işgəncə ilə öldürməklə və s. vəhşiliklərdən erməni cəlladları sanki zövq alırdılar və bu hərəkətlər maniakal nekrofiliyanın, psixopatalogiyanın, ağır şizofreniyanın ən ağlasığmaz göstəricisidir. Baş verən bu vəhşiliklər, təcavüz, nekrofiliya halları haqqında xarici mətbuatlar da yazırdılar.

Bu vəhşiliklər haqqında xarici mətbuat orqanlarından olan Londonun **"Sandi Tayms" qəzetində yazılmışdı: "***1 mart 1992-ci ildə: Erməni əsgərləri minlərlə azərbaycanlı ailəni məhv etmişdi*". **"Faynenşl Tayms" qəzeti** xəbər verirdi ki, "*1992-ci il martın 9-da ermənilər Ağdama gedən 1200 Azərbaycan əsgərini qətlə yetiriblər*". "**Tayms" qəzetinin** 4 mart 1992-ci il tarixli sayında Qarabağda baş verənlərlə bağlı yazılmışdır: "*Onların əksəriyyəti eybəcərləşdiriliib, körpə qızın ancaq başı qalıb*" (14).

Rusiyanın 4 mart 1992-ci ildə nəşr edilmiş "İzvestiya" qəzetində yazılmışdı ki, "*Videokamerada qulaqları kəsilmiş uşaqlar əks olunub. Qadının üzü yarıya bölünüb. Kişilərin baş dərisi soyulmuşdu*". "İzvestiya" qəzetinin 13 mart 1992-ci il saylı buraxılışında mayor Leonid Kravets müsahibəsində qeyd edirdi ki, "*Mən şəxsən təpədə yüzə yaxın meyit görmüşəm. Hər yerdə qadınların, uşaqların, qocaların xüsusi amansızlıqla öldürüldüyünü görmək olardı*" (18, s. 1).

Fransanın 14 mart 1994-ci il tarixli "Le Mond" qəzetində bildirilirdi ki, "*Ağdamda olan xarici jurnalistlər Xocalıda öldürülmüş qadın və uşaqlar arasında skalpları götürülmüş, dırnaqları çıxardılmış 3 nəfəri görmüşdülər. Bu azərbaycanlıların təbliğatı deyil, bu reallıqdır*". Fransanın "Varel aktuel" jurnalı 14 mart 1992-

ci il buraxılışında yuxarıdakı fikirlərin davamı kimi yazılırdı: "*Bu "muxtar regionda" erməni silahlı dəstələri Yaxın Şərqdən çıxmışlarla birlikdə müasir texnikaya, o cümlədən vertolyotlara malikdirlər. ASALA-nın Suriya və Livanda hərbi düşərgələri və silah anbarları vardır. Ermənilər yüzdən artıq müsəlman kəndlərində qırğınlar törədərək Qarabağdakı azərbaycanlıları məhv etmişlər*". Həmin vaxtlarda Livanlı kinooperator da təsdiq etmişdi ki, onun ölkəsinin varlı daşnak icması Qarabağa silah və adam göndərir. Fransanın "**Krua l'Eveneman jurnalı**"nın 25 fevral 1992-ci il tarixli buraxılışında belə bir məlumat getmişdir: "*Ermənilər Xocalıya hücum etmişlər. Bütün dünya eybəcər hala salınmış meyitlərin şahidi oldu. Azərbaycanlılar minlərlə ölənlər barədə xəbər verirlər*" (9).

Xocalı soyqırımının xüsusi amansızlıqla törədilməsi rus, gürcü, ingilis, fransız, alman, amerikalı və digər ölkələrin vətəndaşı olan jurnalist və publisistləri dəhşətə gətirib. Bütün bu vəhşiliklər bir daha onu sübut edir ki, Azərbaycana qarşı erməni qətliamı erməni sadizminin, ermənilərin məhv etməyə, dağıtmağa olan qarşısıalınmaz psixopatoloji meylinin göstəricidir.

Xocalı soyqırımında ermənilərin sadist və nekrofil meyllərini əks etdirən bəzi case-lərə nəzər salaq. Bu şahidlərin ifadələridir. Xocalı hadisəsinin şahidi olmuş Humay Abbasovanın ifadəsi: "*Bizi Əsgəranda girovluqda saxladılar…Əsgəranda bizdən çoxlu sayda girovlar var idi…Qadınları kişilərdən ayırdılar…girovları döyürdülər…onlara işgəncələr verilir, üzərinə tüpürülür, heyvan kimi qətlə yetirilirdilər…biz bu otaqdan böyük olmayan, qadınlarla dolu yerdə saxlanılırdıq...Onlar bizi diri-diri yandırmaqla hədələyirdilər... Biz cəsəd və əsirlərlə dəyişdirildik – əlli əsir düşmüş şəxs bir komandir ilə... Həyat yoldaşım döyülmüşdü və geri qayıdarkən yolda həlak oldu... Heç kəs Xocalı sakinləri kimi qətlə yetirilməyib*". Əsirlikdən azad olandan sonra Humay qorxusundan gecələr yata bilmirdi. Gözlərini yuman kimi o dəhşətli hadisələr gözünün önünə gəlirdi, qışqırıb ayılırdı (5, s. 17).

Köməksiz insanlara işgəncələr verilərək öldürülməsi erməni faşizminin qəddarlığının hüdudsüzluğunu nümayiş etdirir. İnsan öldürməyə meylli olan cinayətkarların psixologiyası ilə bağlı aparılan tədqiqatlarda göstərilir ki, belə insanlar çox zaman affekt vəziyyətində başqalarını öldürürlər. Onların "*ehtiras vəziyyətində öz hərəkətlərinin tənqidiliyi və onların nəticələrinin gözlənilməsi azalır, subyekt yalnız impulsiv olaraq qəbul edilmiş məqsədə yönəlir; affektiv davranışda adi fəaliyyət proqramı (stereotip, bacarıq, davranış münasibəti) həyata keçirilə bilər və ya başqa bir şəxs və ya onun təxəyyülü, fantaziyaları nəticəsində subyektə yeridilən proqram icra edilə bilər; affektiv davranış həm də fərdin psixi pozğunluqlarından - nevrozlardan, posttravmatik pozğunluqlardan, psixopatiyadan, epilepsiyadan, beyin travmalarının qalıq təsirlərindən, alkoqolizmdən, narkomaniyadan və s.*" (16, s. 51) nəticəsi olaraq meydana çıxır.

Xocalı faciəsinin sağ qalan şahidlərinin qeyd etdiyi kimi, onlara işgəncələr verən şəxslər arasında xüsusi təlim keçmiş qatillər də var idi və onlar tanımadıqları, heç zaman üz-üzə gəlmədikləri mövcud vəziyyətdə reaksiya verməyə aciz olan insanlara qarşı ağlasığmaz qəddarlıqlar törədirdilər. Bu göstərir ki, həmin cəlladlar psixoloji travmalı şəxslər olaraq, azərbaycanlılara qarşı vəhşilik törətməyə xüsusi proqramla hazırlanmış və müxtəlif maddələrdən (narkotika, alkoqol və s.) istifadə edərək ağlasığmaz işgəncələr tətbiq ediblər.

Xocalı sakini Valeh Hüseynov: "*Orada elə insanlar var idi ki... Gözlərinin qarşısında üç uşağı qətlə yetirilmiş qadın tanıyıram. Orada elə şeylər baş verirdi ki, heç təsvir ediləsi deyil... Onlar necəsə öyrənmişdilər ki, mən gitaraçıyam və "Qarabağ şikəstəsi"ni çala bilirəm. Onlar barmaqlarımı sındırmağa başladılar, dırnaqlarımı çıxardılar, sonra isə əllərimi yandırmağa başladılar. Onlar deyirdilər: "Hətta sağ qalsan belə, artıq heç vaxt çala bilməyəcəksən". Ağrı dözülməz idi...*" (10).

Xocalı faciəsinin nəticələrinə şahid olmuş jurnalist "İzvestiya" qəzetinin müxbiri V.Belıx yazırdı: "*Vaxtaşırı Ağdama canlı əsirlərlə mübadilə edilmiş meyitlər gətirirlər. Ancaq bunları heç gecə kabusunda da görmək olmazdı: çıxarılmış gözlər, kəsilmiş qulaqlar, çıxarılmış baş dərisi, kəsilmiş başlar. Bir-birinə kəndirlə bağlanıb, zirehli transportyora bağlanaraq yerdə sürüdülmüş bir neçə meyit. Zorakılığın həddi-hüdudu yoxdur*" (12, s. 159).

Aparılan araşdırmalar Xocalı sakinlərinə qarşı törədilmiş soyqırım hadisəsinin nəticələri haqda ümumi ekspert rəyi qəbul etmişdir. Burada qeyd edilir: "*Məhkəmə tibbi ekspertizasının müayinəsindən keçən 181 meytdə (130 kişi, 51 qadın) qəlpədən (2o nəfər), gülədən (151 nəfər), küt alətdən (10 nəfər) ölümlər aşkarlanmışdır. 13 meyit azyaşlı uşaq olmuşdur. Ölənlərin 40 nəfəri baş nahiyəsindən, 74 nəfəri döş qəfəsindən, 17 nəfəri qarın nahiyəsindən, 11 nəfəri isə ətraf nahiyələrdən xəsarət almışdır. Meyitlərin 3 nəfərində ətrafların donması, 33 nəfərdə işgəncə ilə ölüm – qadınlarda döşlərin kəsilməsi, onların cinsiyyət üzvlərinə odlu silahdan atəş açılması, ölənlərin burun və qulaqlarının kəsilməsi, başın dərisinin soyulması, dişlərin, göz almalarının çıxarılması, kişilərin cinsiyyət üzvlərinin kəsilməsi, üzərindən hərbi texnikanın keçirilməsi əlamətləri müşahidə olunmuşdur*" (6, s. 16).

İfadələrin psixoloji təhlili onu deməyə əsas verir ki, erməni qatillərinin nekrofil meylləri onların qeyri-sağlam düşüncəsinin başlıca göstəricidir. Xocalı faciəsi, bu soyqırıma qədərki və soyqırımdan sonrakı tarixi prosesdə ermənilər tərəfindən törədilən kütləvi terror aktlarının psixoloji qiymətləndirilməsi onu deməyə əsas verir ki, bu psixopatik xarakterli davranış olub, həm deviant, də delikvent nəticələrə malikdir.

XIX əsrdə "psixopatiya" anlayışını elmə gətirən alman psixiatrı J.Koch, onu psixoloji natamamlığın təzahürü kimi izah edirdi (25, s. 63). İngilis psixiatrı J.Riçard psixopatik davranışın mahiyyətini – "*əxlaqi dəlilik - əxlaqi hisslərin pozulması, aqressivlik, günahkarlığın olmaması, cəmiyyət tərəfindən bəyənilməyən davranışlara meyl*" kimi müəyyənləşdirirdi (26, s. 27).

B.Morel psixopatik şəxslərin irsi psixoza malik olduqlarını, müəyyən bir ideyaya ifratcasına bağlandıqlarını, öz impulsivlikləri ilə seçildiklərini bildirirdi (24, s. 93).

Rinat Qontarın qeyd etdiyi kimi "*psixopat - ruhi xəstələr kateqoriyasına aid deyil. O, daha çox qeyri-kamil, ümumi qəbul edilmiş normalara zidd olan davranış tərzi nümayiş etdirən, sapma davranışları olan şəxsiyyətdir. Psixopatlar yüksək intellektli, cazibədar insanlar ola bilər, lakin bütün bunlar yalnız xarici təzahürlərdir. Ruhən hissizdirlər, onlar digər insanların ehtiyac və istəklərinə biganədirlər, yalnız öz maraqlarına diqqət yetirirlər, son dərəcə eqoistdirlər. Psixopat başqasına şəfqət və ya ona qarşı istilik hiss edə bilməz. Onun daxili prinsipləri tamamilə yoxdur, davranışı tamamilə məsuliyyətsiz ola bilər. Psixopatlar sosial norma və qanunları pozmağa meyllidirlər - ilk baxışdan adi həyat sürsələr də, əslində onlar daim həyəcan axtarışındadırlar. Onlar cəsarətli hərəkətlərə qadir olan güclü insanlar təəssüratını yarada bilər, lakin bu, daha çox başqalarına qarşı dərin laqeydlikdən irəli gəlir*" (22).

Rinat Qontarın analizi onu deməyə əsas verir ki, psixopatik xüsusiyyətlərə malik olan erməni terrorçuları 26 fevral 1992-ci il Xocalı faciəsində bütövlükdə bəşəriyyətə və bütün bəşəri dəyərlərə olan laqeydliklərini nümayiş etdrməklə özlərini "qəhrəmanlar" kimi hiss etməyə və erməni cəmiyyətinə qəbul etdirməyə çalışmışdırlar.

**Nəticə**

Ermənilərin XXI əsrdə xalqımıza qarşı törətdikləri terror aktları da "psixopat" xüsusiyyətli erməni cəmiyyətinin ideologiyasının təsirilə həyata keçirilir. XXI əsrin ilk onilliklərində erməni terrorçularının şizofrenik mahiyyətli və genetik kod xüsusiyyəti qazanmış "Böyük Ermənistan" xülyalarının reallaşdırılması cəhdi və bu yöndə müəyyən nailiyyət əldə etmək məqsədilə həyata keçirdikləri fəaliyyətləri psixopatik təxəyyülün bəhrəsidir. Belə ki, ermənilər bu arzularına çatmaq üçün məntiqi-rasional ağla gələ biləcək və qeyri-mümkün olan ağlasığmaz vasitələrdən yararlanmağa çalışırlar. Bir tərəfdən özlərini yazıq, himayəyə ehtiyacı olan kimi göstərməyə çalışır, digər tərəfdən isə davamlı olaraq Azərbaycan sərhədlərini pozur, azərbaycanlı əsgərlərin məhv edilməsinə yönələn terror aktları törədirlər və bu zaman öz əsgərlərinin ölümünə biganə qalmış olurlar. Bu da əslində "təxəyyülün ikiləşməsi" prosesi kimi qiymətləndirilə bilər. Bu anlayışı ilk dəfə Erik Vernquist 2014-cü ildə "Səyyahlar" ("Wanderers") adlı əsərində istifadə etmişdir. "Təxəyyülün ikiləşməsi" prosesini kosmosda qeyri-mümkün səhnələrin işıq effekti ilə canlandırılması kimi izah edirdi. Erik Vernquistin fikirlərini belə ümumiləşdirmək olar, sanki insan yuxusunu gözüaçıq görür, psevdo-reallıqla bağlı olur. Bu mənada ermənilərin "təxəyyülün ikiləşməsi"

sindromları da psevdo-reallığa ifrat inam hissindən doğur. Ümumiyyətlə, psixologiya ifrat mahiyyətli hər hansı bir fəaliyyəti, prosesi qeyri-normal, həqiqətdən uzaq olan kimi qəbul edir. Ermənilərdə təxəyyül ikiləşməsi də eyni mahiyyətlidir, onlar əsrlərdir ki, qeyri-real olanı reallaşdımağa nail olmaq üçün devinat və delikvent fəaliyyətdən çəkinmirlər, terror aktları törədirlər.

**Ədəbiyyat siyahısı**

1. Abishov V. Genocide against the Azerbaijani people in Guba district. Baku, 2014, p. 170.
2. Adilqızı G. Xocalıda kəsilən başlar. Bakı: Nərgiz, 2015, 332 s.
3. Bayramov Ə. Etnik psixologiya. Dərslik. Bakı: Renessans, 2001, 374 s.
4. Cabbarov E. Erməni terroru və onun bəzi etno-siyasi aspektləri. Bakı: Nurlar, 2019, 72 s.
5. Erməni əsirliyində: işgəncə və qətl antologiyası. Bakı: Təhsil, 2017, 368 s.
6. Əlili İ. Xocalı: şahidlər danışır. Qısa ensiklopedik məlumat kitabı. Bakı: Ləman, 2018, 215 s.
7. Həsənov Ə. Ermənilərin Azərbaycanlılara qarşı etnik təmizləmə və soyqırımı siyasəti. Olaylar qəzeti, 31 mart 2013, 9-11 s.
8. Xocalı faciəsi. https://azerbaijan.az/related-information/7, 26 iyul 2024.
9. Xocalı soyqırımı - 1992. (2014). Bakı: Heydər Əliyev İrsini Araşdırma Mərkəzi, 282.
10. Xocalı sakini: “Ermənilər məni döyüb yerə yıxdılar, kəlbətinlə dırnaqlarımı çıxarıb dişlərimi qırdılar”. https://report.az/hadise/xocali-sakini-ermeniler-meni-doyub-yere-yixdilar-kelbetinle-dirnaqlarimi-cixarib-dislerimi-qirdilar/, 24 fevral 2023.
11. İsmayıl E. Ermənilərin azərbaycanlılara qarşı törətdikləri soyqırımları tarixi faktlar əsasında. Xalq qəzeti, 31 mart 2013, s. 2.
12. Müharibə cinayətinin Xocalı şahidi: Ermənistan müttəhim kürsüsündə. “İthaca Press” nəşriyyatı. London, 2014, 248 s.
13. Дерягин Г. Криминальная сексология. Курс лекций для юридических факультетов. М.: МосУ МВД России, Щит-М, 2008, с. 136-143.
14. Karabakh in Western Media–1992. https://karabakh.org/resources/press/karabakh-in-western-media-1992/
15. Крафт-Эбинг Р. Половая психопатия. М.: Книжный Клуб Книговек, 2013, 624 с.
16. Криминальная психология. Хрестоматия [Электронный ресурс]: пособие / сост.: И.А.Фурманов, И.Е.Метлицкий. Минск: БГУ, 2018, 270 с.
17. Стоименов Й.А., Стоименова М.Й., Коева П.Й. и др. Психиатрический энциклопедический словарь. К.: «МАУП», 2003, 1200 с.
18. Таранов С. Война в Нагорном Карабахе вышла из-под контроля президентов Армении и Азербайджана. Известия: газета, № 56, 6 марта 1992, с. 1.
19. Трифонова, С. Этнопсихология и конфликтология: учебное пособие Ярославль: ЯрГУ, 2013, 116 s.
20. Фромм Э. Анатомия человеческой деструктивности. М.: АСТ, 2004, 635 с.
21. Фроом Э. Иметь или быт? М.: Прогреесс, 1986, 320 с.
22. Шрайман Ш. Психопаты, манъяки, серийные убийцы. https://proza.ru/2007/04/02-27, 2007.
23. Lemkin R. Axis Rule in Occupied Europe: Laws of Occupation - Analysis of Government - Proposals for Redress, (Washington, D.C.: Carnegie Endowment for International Peace), 674 p.
24. Morel B. Treatise on the Physical, Intellectual and Moral Degenerations of the Human Species and on the Causes that Produce These Pathological Variants, 1857, 496 p.
25. Koch J. The Psychopathic Inferiorities, 1891, 124 p.
26. Prichard J. *A Treatise on Insanity and Other Disorders Affecting the Mind.* London: Sherwood, Gilbert and Piper, 1835, 479 p.

## Summary

**Sudaba Huseynova**

**Sadistic and necrophilic behavior observed during the genocide: a psychological analysis**

The same treatment and form of behavior repeated in several generations, that is, cruelty and brutality, besides being an ethnic characteristic, has a special mechanism. That mechanism is related to necrophilia. Necrophiles are eager to destroy living organisms and structures. The main goal of a necrophilic villain, in general, is not to kill someone, but to dismember the dead, to possess the corpse. This aspect is clearly shown in the actions of Armenian terrorists.

It is not difficult to see that the tendency to necrophilia (killing by torture, force, dismemberment) has become an ethnic characteristic of Armenians. Ethnic conflicts and criminal cases committed by Armenians clearly show that necrophilia as an ethnic characteristic of Armenians has moved into the blood memory. So, necrophilia is the psychological mechanism of Armenian cruelty.

***Keywords:*** *Armenian terrorists, Armenian sadism, deviant behavior, necrophilia, massacre*


## Резюме

**Судаба Гусейнова**

**Садистское и некрофильское поведение, наблюдаемое во время геноцида: психологический анализ**

Одинаковая модель поведения и отношения, повторяющаяся на протяжении нескольких поколений, т. е. жестокость и варварство, является не только этнической характеристикой, но и имеет определенный механизм. Этот механизм связан с некрофилией. Некрофилы стремятся уничтожить живые организмы и строения. Основная цель некрофила – не убить кого-то, а расчленить труп и завладеть им. Эта проблема отчетливо прослеживается в действиях армянских террористов.

Нетрудно заметить, что склонность к некрофилии (пыткам, насильственному убийству, расчленению) стала этнической чертой армян. Этнические конфликты и преступные деяния, совершенные армянами, ясно показывают, что некрофилия, являющаяся этнической чертой армян, стала частью их кровной памяти. Другими словами, некрофилия – это психологический механизм армянской жестокости.

***Ключевые слова:*** *армянские террористы, армянский садизм, девиантное поведение, некрофилия, геноцид*

UOT 37
https://doi.org/10.59849/2710-0820.2025.2.235

**Aysel Məmmədova**
*Azərbaycan Dillər Universitetinin Pedaqogika kafedrasının müəllimi*
*mammadovaaaysel@mail.ru*

# MƏKTƏBƏQDƏR TƏHSİLDƏ OYUN METODUNUN ROLU

***Açar sözlər:*** *məktəbəqədər təhsil, oyun metodu, uşaqların inkişafı, təlim, pedaqoji metodlar*

Məktəbəqədər yaş dövrü uşağın zehni, emosional və sosial baxımdan formalaşmasının əsas mərhələlərindən biridir. Bu mərhələdə uşaqlar ətraf aləmi dərk etməyə, yeni bilik və bacarıqları mənimsəməyə, eləcə də sosial mühitə uyğunlaşmağa daha meyilli olurlar. Aparılan araşdırmalar göstərir ki, bu yaşda uşaqlar üçün öyrənmənin ən təsirli yolu oyun fəaliyyətidir. Məhz bu səbəbdən oyun metodu məktəbəqədər təhsildə əsas pedaqoji yanaşmalardan biri kimi xüsusi əhəmiyyət daşıyır. Bu yaş mərhələsində uşağın əsas fəaliyyəti oyun olduğundan, onun öyrənmə prosesi də təbii və maraqlı bir mühitdə yəni oyun şəraitində həyata keçirilməlidir. Ənənəvi dərs modelləri məktəbəqədər yaşlı uşaqlar üçün həm fiziki, həm də psixoloji baxımdan ağır və maraqsız ola bilər. Bu səbəbdən müasir pedaqoji yanaşmalar, xüsusilə də erkən uşaqlıq dövrünə aid olanlar, təlimin oyun üzərindən təşkili prinsipini əsas götürür və bu metodun effektivliyini vurğulayır. Oyun əsaslı təlim yanaşması uşaqların inkişaf səviyyəsini, fərdi xüsusiyyətlərini və maraq dairələrini nəzərə alaraq onların öyrənmə ehtiyaclarını daha məqsədyönlü şəkildə qarşılamağa imkan yaradır. Bu cür tədris uşağın təbii öyrənmə tempini qorumaqla yanaşı, onun qavrama və yaradıcı düşünmə bacarıqlarını da dəstəkləyir.

Oyun metodu məktəbəqədər yaşlı uşaqların öyrənmə prosesinə fəallıq gətirən, onların daxili motivasiyasını gücləndirən və yaradıcı düşüncə bacarıqlarını inkişaf etdirən mühüm pedaqoji yanaşmadır. Bu metod uşaqların həm emosional, həm də intellektual (koqnitiv) inkişafına əlverişli şərait yaradır və onların şəxsiyyət kimi formalaşmasına dəstək verir. Məşhur psixoloqlar J. Piaje və L. S. Vıqotski tərəfindən irəli sürülən nəzəri fikirlərə əsasən, oyun uşaqların dünyanı dərk etməsi və məlumatları şüurlu şəkildə mənimsəməsi üçün əsas vasitədir [2]. Həmçinin oyun vasitəsilə uşaqlar müxtəlif sosial rolları təcrübədən keçirir, cəmiyyətin qaydaları ilə tanış olur və qarşılıqlı münasibətlər qurma bacarıqlarını inkişaf etdirirlər. Bu proses onların sosiallaşma və davranış normalarını öyrənməsi baxımından xüsusi əhəmiyyət daşıyır. Nəticə etibarilə, məktəbəqədər təhsildə oyun metodu yalnız tədrisin effektini artırmaqla kifayətlənmir, həm də uşaqların çoxşaxəli inkişafına xidmət edir. Bu yanaşma uşağın emosional sabitliyini, sosial davranışını və yaradıcılıq potensialını gücləndirərək onu gələcək təhsil pillələrinə daha sağlam şəkildə hazırlayır. Bu baxımdan, oyun əsaslı tədris mühitinin yaradılması və müəllimlərin bu istiqamətdə peşəkar hazırlığı müasir məktəbəqədər təhsil sistemində prioritet istiqamət kimi qəbul edilməlidir.

Qeyd etmək lazımdır ki, oyunlar yalnız əyləncə xarakteri daşımır, eyni zamanda tədris funksiyasını da yerinə yetirir. Didaktik oyunlar vasitəsilə uşaqlara dil bacarıqları, riyazi anlayışlar və ətraf mühitlə bağlı əsas biliklər mənimsədilir. Beləliklə, oyun metodunun tətbiqi təlimin məzmununun uşaqlar üçün həm maraqlı, həm də məqsədyönlü şəkildə təqdim olunmasına imkan verir [5]. Məktəbəqədər təhsil müəssisələrində oyun metodundan istifadə edərkən müxtəlif oyun növlərinə üstünlük verilir ki, bu da uşaqların hərtərəfli inkişafını dəstəkləyir. Rollu oyunlar uşaqlara sosial rolları canlandırmaq imkanı verir. Bu kimi oyunlar vasitəsilə onlar real həyatda rast gəlinən situasiyaları modelləşdirir, qarşılıqlı münasibətləri və sosial davranışları təcrübədən keçirirlər. Konstruktor və quruculuq oyunları uşaqlarda məkan təfəkkürünün və incə motor bacarıqlarının formalaşmasına kömək edir. Bloklar, fiqurlar və digər konstruktiv vasitələr ilə işləmək onların yaradıcılıq qabiliyyətini də inkişaf etdirir. Yaradıcı

oyunlar rəsm çəkmək, musiqi ifa etmək, səhnəcik qurmaq və digər bədii fəaliyyət növləri uşağın özünü ifadə etməsinə, daxili emosiyalarını təqdim etməsinə imkan yaradır. Didaktik oyunlar isə pedaqoji məqsədlərlə qurulan fəaliyyətlərdir. Bu oyunlar uşaqlarda məntiqi təfəkkür, riyazi bacarıqlar və təhlil etmə vərdişlərinin inkişafına şərait yaradır.

Oyun əsaslı təlim yanaşması məktəbəqədər təhsildə bir sıra mühüm üstünlükləri ilə seçilir. İlk növbədə, bu metod uşaqlarda öyrənməyə maraq və daxili motivasiya yaradır. Uşaqlar təlim prosesində aktiv iştirak edir və öyrənməni məcburi fəaliyyət deyil, əyləncəli bir proses kimi qəbul edirlər. Bundan əlavə, oyunlar yaradıcı və tənqidi düşüncənin formalaşmasına şərait yaradır. Müxtəlif situasiyalarda qərar qəbul etmək, problemin həllini tapmaq və yeni ideyalar irəli sürmək bacarığı inkişaf edir. Eyni zamanda, oyun fəaliyyəti sosial bacarıqların əməkdaşlıq, qarşılıqlı anlaşma və ünsiyyət vərdişlərinin möhkəmlənməsinə imkan verir. Uşaqlar bu prosesdə öz fikirlərini ifadə etməyi və müstəqil qərarlar verməyi öyrənirlər ki, bu da onların gələcək şəxsiyyət inkişafı üçün mühüm zəmin yaradır. Bununla yanaşı, oyun metodunun tətbiqində müəyyən çətinliklər də müşahidə oluna bilər. Əgər oyun əvvəlcədən məqsədyönlü şəkildə planlaşdırılmayıbsa, bu, təlimin əsas məqsədindən yayınmalara səbəb ola bilər. Digər bir çətinlik müəllimin oyun prosesinə hazırlıqsız olması ilə bağlıdır. Metodun səmərəli həyata keçirilməsi üçün müəllim həm oyunların məzmununu dərindən bilməli, həm də onları düzgün istiqamətləndirmək bacarığına malik olmalıdır. Bəzi hallarda valideynlər oyun metoduna yalnız əyləncə vasitəsi kimi yanaşır və onun təlim-tərbiyə prosesindəki əhəmiyyətini yetərincə dəyərləndirmirlər. Bu isə pedaqoji yanaşmanın dəstəklənməsində problemlər yarada bilər. Eyni zamanda, qrupdakı uşaqlar arasında fərdi inkişaf səviyyələri və maraqların müxtəlifliyi oyunun dinamikasına təsir göstərə bilər və müəllimdən fərqli yanaşma tələb edə bilər [6].

Məktəbəqədər təhsildə oyun uşaqların inkişafına təsir edən vacib üsullardan biridir. Quruculuq oyunları uşaqlarda məkan təsəvvürünü və əl bacarıqlarını gücləndirir. Oyun fəaliyyəti uşağın həyatında instinktiv bir ehtiyac olmaqla yanaşı, onun şəxsiyyətinin formalaşmasında əvəzsiz rol oynayır. Məktəbəqədər dövrdə oyun yalnız əyləncə deyil, öyrənmənin əsas mexanizmlərindən biri hesab olunur. Bu dövrdə uşaqlar bilikləri birbaşa öyrənməkdənsə, oyun mühitində təcrübə yolu ilə mənimsəməyə daha meyillidirlər. Oyun metodu uşağın idrak qabiliyyətlərini, təfəkkürünü və diqqətini aktiv şəkildə işə salır. Oyunların təlimə inteqrasiyası uşaqlarda motivasiya və marağın qorunmasına kömək edir.

Oyun zamanı öyrənmə prosesi təbii şəkildə baş verir və uşaqlar bunu dərs kimi deyil, maraqlı fəaliyyət kimi qəbul edirlər. Fəal iştirak uşaqlarda məsuliyyət hissini, qərarvermə bacarığını və özünüqiymətləndirmə vərdişini inkişaf etdirir. Məktəbəqədər yaş dövrü uşağın inkişafında fundamental mərhələ hesab olunur və bu mərhələdə tətbiq edilən pedaqoji metodlar onun gələcək nailiyyətlərini formalaşdırmaqda mühüm rol oynayır. Oyun metodu bu yaş dövründə uşağın təhsil və tərbiyəsində əsas vasitələrdən biri kimi ön plana çıxır. Oyun fəaliyyəti vasitəsilə uşaqlar həm əylənir, həm də təlim məqsədlərinə çatırlar. Bu metod uşağın daxili potensialını üzə çıxarmağa, yaradıcı bacarıqlarını inkişaf etdirməyə şərait yaradır. Oyun zamanı uşaqlar gündəlik həyat hadisələrini simulyasiya edərək fərqli rolları təcrübədən keçirirlər ki, bu da onların sosiallaşma prosesinə töhfə verir. Uşaqlar oyunlar vasitəsilə həmrəylik, əməkdaşlıq və paylaşma kimi sosial davranışları mənimsəyirlər.

Oyun metodu uşaqların məntiqi düşüncə tərzini formalaşdırmaq baxımından da effektivdir. Xüsusilə didaktik oyunlar onların idrak funksiyalarını stimullaşdırır. Məktəbəqədər təhsil müəssisələrində oyunların planlı şəkildə təşkili uşağın tədris materialını mənimsəməsini asanlaşdırır. Uşaqlar oyun zamanı müstəqil qərar vermə bacarığı qazanır, bu da onların özgüvəninin artmasına şərait yaradır. Hər bir oyun bir növ öyrədici və tərbiyəvi vasitə kimi çıxış edir. Bu metodun üstünlüyü ondadır ki, o, uşağın maraqlarına və fərdi inkişaf səviyyəsinə uyğun şəkildə tətbiq oluna bilər. Oyun əsnasında uşağın diqqət, yaddaş və müşahidə qabiliyyətləri də inkişaf edir. Bu da gələcəkdə oxuma və yazma bacarıqlarının təməlini qoyur. Oyun mühiti uşağın özünü sərbəst ifadə etməsinə imkan verir. Oyunlar zamanı yaranan interaktiv ünsiy-

yət şəraiti uşağın dil bacarıqlarının inkişafına səbəb olur. Həmçinin, uşaqlar oyun vasitəsilə qrup daxilində məsuliyyət daşımağı və qaydalara riayət etməyi öyrənirlər. Bu bacarıqlar onların sonrakı təhsil mərhələlərinə hazırlıqlı daxil olmasına kömək edir [7].

Oyun fəaliyyəti zamanı müşahidə edilən davranışlar uşağın maraq və meylləri haqqında müəllimə əhəmiyyətli məlumat verir. Müəllim bu məlumatlar əsasında fərdi yanaşma strategiyası formalaşdıra bilər. Oyunların planlaşdırılmasında məqsədəuyğunluq əsas meyar kimi nəzərə alınmalıdır. Müəllim oyunun məqsədini və gözlənilən nəticələri əvvəlcədən müəyyən etməlidir. Belə olduqda oyun həm əyləncəli, həm də məhsuldar tədris vasitəsinə çevrilir. Oyun fəaliyyəti zamanı uşaqlar arasında yaranan təbii rəqabət onların təşəbbüskarlığını artırır. Bu da öyrənmə prosesinə əlavə dinamizm qatır. Quruculuq və konstruktiv oyunlar uşaqların motor bacarıqlarının təkmilləşməsində mühüm rol oynayır. Rəsm çəkmək, plastilinlə işləmək və digər yaradıcı fəaliyyətlər uşağın estetik zövqünü formalaşdırır. Belə fəaliyyətlər həm də emosional sabitliyi və özünü ifadə etmə bacarığını dəstəkləyir. Musiqi və ritm oyunları isə uşağın ritm hissini və eşitmə diqqətini inkişaf etdirir.

Oyun mühitində uşaq təzyiq hiss etmədən yeni biliklər qazanır. Bu isə öyrənmə prosesini daha təbii və səmərəli edir. Oyun metodu yalnız uşağın indiki inkişafını deyil, eyni zamanda gələcək təlimə münasibətini də müəyyən edir. Bu metod uşağın tədrisə maraqla yanaşmasına zəmin yaradır. Tədqiqatlar göstərir ki, oyun əsaslı yanaşmalar uşaqlarda motivasiyanı və öyrənməyə marağı artırır. Bu səbəbdən oyun metodu müasir pedaqoji yanaşmalarda geniş yer tutur. Müəllimlər bu metodun tətbiqində peşəkar hazırlığa malik olmalı və oyunları dərs prosesinə məqsədli şəkildə inteqrasiya etməlidirlər. Eyni zamanda valideynlərin maarifləndirilməsi də vacibdir ki, onlar da bu metodun pedaqoji dəyərini anlayaraq dəstək göstərsinlər. Məktəbəqədər təhsil mərhələsi uşaqların şəxsiyyət kimi formalaşmasında və ilkin sosial bacarıqların aşılanmasında əhəmiyyətli bir dövrdür. Bu dövrdə istifadə olunan pedaqoji üsullar və yanaşmalar uşaqların intellektual, emosional və fiziki inkişafını birbaşa təsirləndirir. Məhz bu səbəbdən, oyun metodu təlim prosesində təkcə əyləncə məqsədli deyil, həm də maarifləndirici və inkişafetdirici vasitə kimi mühüm rol oynayır. Oyun, uşaqlar üçün təbii öyrənmə mühiti yaradır və onların daxili potensiallarının üzə çıxmasına şərait yaradır. Uşaq oyun zamanı ətraf aləmi kəşf edir, yeni anlayışlarla tanış olur və fərdi bacarıqlarını inkişaf etdirir.

Pedoqoji praktikada oyun metodunun məqsədyönlü şəkildə tətbiqi uşaqların həm bilik, həm də davranış səviyyəsində irəliləyiş əldə etmələrinə yardımçı olur. Oyunlar vasitəsilə uşaqlar tədris prosesinə maraqla qoşulur, aktiv iştirak edirlər və öyrəndiklərini praktikada tətbiq etməyi öyrənirlər. Bu baxımdan, oyun təlimin ayrılmaz bir hissəsi kimi yanaşılmalı, onun planlaşdırılması və həyata keçirilməsi isə müəllimin peşəkar baxışı və təcrübəsi ilə sıx bağlı olmalıdır. Effektiv oyun metodu yalnız təsadüfi seçimlərə əsaslanmamalı, konkret təlim məqsədləri ilə uzlaşdırılmalı və planlı şəkildə təşkil edilməlidir. Müəllimin rolu burada olduqca vacibdir. O, hər bir oyunun uşaq üçün hansı bacarıqları inkişaf etdirəcəyini nəzərə almalı, təlimin məzmununa uyğun oyun nümunələri seçməli və bu fəaliyyətləri elə idarə etməlidir ki, uşaqlar həm əylənsin, həm də öyrənsinlər. Belə yanaşma həm uşaqda öyrənməyə qarşı müsbət münasibət formalaşdırır, həm də onların yaradıcı düşüncə, məntiqi təhlil, sosial qarşılıqlı münasibət və dil bacarıqlarının inkişafını stimullaşdırır.

Araşdırmalar və beynəlxalq təcrübə göstərir ki, oyun əsaslı təlim yanaşmaları uşaqların hazırkı inkişaf səviyyəsini dəstəkləməklə yanaşı, onların gələcək təhsil pillələrinə daha hazırlıqlı şəkildə keçmələrinə zəmin yaradır. Oyunlar uşaqların diqqətini cəmləməyə, nitqini inkişaf etdirməyə və analitik düşünmə qabiliyyətini gücləndirməyə kömək edir. Eyni zamanda, oyun vasitəsilə uşaqlar komanda işini, əməkdaşlıq etməyi, paylaşmağı və qaydalara əməl etməyi öyrənirlər. Bu bacarıqlar isə onların sosial adaptasiyasına, ətraf mühitə inteqrasiyasına və uğurlu məktəb həyatına mühüm töhfə verir. Əlavə olaraq, oyunlar vasitəsilə uşaqlarda məsuliyyət hissi, müstəqil qərarvermə qabiliyyəti və özünəinam kimi keyfiyyətlər də formalaşır. Onlar öz fikirlərini sərbəst ifadə etməyi öyrənir, ideyalarını paylaşır və başqalarının fikirlərinə hörmət etməyi bacarırlar. Bu prosesdə müəlli-

min müşahidəçi və yönəldici rolu əsas əhəmiyyət daşıyır. Müəllim uşaqların fərdi xüsusiyyətlərini nəzərə alaraq onların oyun fəaliyyətinə yön verir, lazım olduqda müdaxilə edir və müsbət davranış nümunələrinin formalaşmasına şərait yaradır. Oyun metodunun sistemli şəkildə təlim prosesinə inteqrasiyası məktəbəqədər təhsilin əsas hədəflərindən biri olmalıdır. Oyunlar sadəcə bir fəaliyyət növü deyil, eyni zamanda öyrətmənin strateji vasitəsinə çevrilməlidir. Bu metodun uğurla tətbiq olunması üçün müəllimlərin pedoqoji biliklərinin və bacarıqlarının daim yenilənməsi və təkmilləşdirilməsi zəruridir. Müasir pedaqoji yanaşmalarla tanış olan müəllim oyun vasitəsilə uşağın inkişaf səviyyəsini daha dəqiq müəyyən edə bilər və bu məlumatlara əsaslanaraq tədris prosesini daha fərdiləşdirilmiş formada təşkil edə bilər. Eyni zamanda, oyun metodunun tətbiqi zamanı müxtəlif oyun növlərinə üstünlük verilməli və onlar arasında balans qorunmalıdır. Tərbiyəvi, didaktik, yaradıcı və hərəkətli oyunlar bir-birini tamamlayaraq uşağın hərtərəfli inkişafına xidmət etməlidir. Bu oyunlar uşaqların maraq dairəsini genişləndirir, onların fantaziyasını, yaddaşını və qavrama sürətini artırır. Didaktik oyunlar, xüsusilə, uşaqlara riyazi təsəvvürlər, məntiqi ardıcıllıqlar və dil bacarıqları kimi mühüm anlayışları öyrətməkdə effektiv alət rolunu oynayır [8].

Erkən yaş dövründə formalaşan vərdişlərin uzunmüddətli təsiri olduğunu nəzərə alsaq, oyun metoduna kifayət qədər diqqət yetirilməsinin nə qədər əhəmiyyətli olduğu bir daha aydın olur. Bu yanaşma uşaqda təlimə qarşı sevgi və maraq oyadır, onun məktəbə hazırlıq səviyyəsini yüksəldir və gələcək təhsil prosesində özünü daha rahat ifadə etməsinə imkan yaradır. Nəticə etibarilə, oyun metodu məktəbəqədər təhsildə mühüm pedaqoji vasitə olmaqla yanaşı, uşağın şəxsiyyətinin kompleks inkişafına yönəlmiş çoxşaxəli və inteqrativ bir yanaşmadır. Bu metod təkcə öyrənməni əyləncəli və maraqlı etmək funksiyasını yerinə yetirmir, eyni zamanda uşağın intellektual, emosional, sosial və fiziki bacarıqlarının formalaşmasında və inkişaf etdirilməsində mühüm rol oynayır.

Oyun zamanı uşaqlar müşahidə, təxəyyül, məntiqi təfəkkür, qərarvermə, əməkdaşlıq və məsuliyyət kimi həyati əhəmiyyətə malik olan bacarıqları təcrübədən keçirirlər. Bu isə onların gələcək təhsil pillələrinə və cəmiyyətə uğurla inteqrasiya olunmalarına zəmin yaradır. Oyun metodunun effektivliyi birbaşa şəkildə müəllimin bu metodu necə tətbiq etməsindən asılıdır. Müəllim oyun fəaliyyətlərini məqsədyönlü, planlı və sistemli şəkildə tədris prosesinə daxil etməli, hər bir oyunun təlim məqsədləri ilə uyğunluğunu təmin etməlidir. Bu kontekstdə müəllimin pedaqoji ustalığı, metodik hazırlığı və yaradıcılıq bacarığı əsas faktor kimi çıxış edir.

Oyun metodu yalnız əyləncə vasitəsi kimi deyil, uşağın şəxsiyyətini formalaşdıran, onun maraqlarını stimullaşdıran və tədris prosesini şagird yönümlü edən əsas təlim strategiyası kimi qəbul edilməlidir. Bu yanaşma həmçinin fərdi yanaşmanı təşviq edir, uşağın potensialını üzə çıxarmağa və onun şəxsiyyət kimi inkişafına töhfə verir. Bundan əlavə, müəllimin peşəkar inkişafı, müasir pedaqoji yanaşmalarla tanışlığı və oyun texnologiyalarından səmərəli istifadə bacarığı oyun metodunun səmərəliliyini daha da artırır. Təlim prosesində müasir informasiya-kommunikasiya texnologiyalarından istifadə, inklüziv yanaşma və oyun fəaliyyətlərinin fərdi inkişaf səviyyələrinə uyğunlaşdırılması da bu metodun uğurla tətbiqinə şərait yaradır.

Beləliklə, oyun metodu təkcə təlimin keyfiyyətini yüksəltmir, eyni zamanda uşağın dünyagörüşünü genişləndirir, özünəinam hissini formalaşdırır və onu sosial mühitə hazırlayır. Bu baxımdan oyun metodunun pedaqoji təcrübədə daha geniş və effektiv şəkildə tətbiqi, məktəbəqədər təhsilin keyfiyyətinin yüksəldilməsinə əhəmiyyətli dərəcədə töhfə verəcəkdir. Bununla yanaşı, bu yanaşma uşaqların gələcək təhsil mərhələlərində daha hazırlıqlı və motivasiyalı olmalarına, sosial mühitdə uğur qazanmalarına və şəxsiyyət kimi cəmiyyətdə layiqli yer tutmalarına da müsbət təsir göstərəcəkdir. Nəticə olaraq, oyun metodu müasir məktəbəqədər təhsilin tələblərinə cavab verən, təlimin insan yönümlü və inkişafyönlü mahiyyətini əks etdirən əsas pedaqoji vasitələrdən biri kimi ön plana çıxır.

**Ədəbiyyat siyahısı**

1. Bodrova, E., Leong, D. J. Tools of the Mind: The Vygotskian Approach to Early Childhood Education // New Jersey: Pearson Education, – 2007, – p. 284.

2. Broadhead, P. Early Years Play and Learning: Developing Social Skills and Cooperation // London: RoutledgeFalmer, – 2004, – p. 176.

3. Caven, M. The Importance of Play-Based Learning in Early Education // Washington: Institute of Education Sciences (IES), – 2022, – p. 78.

4. Cheruiyot, B. Effectiveness of Play Based Learning Method in Promotion of Early Literacy Skills Among Early Childhood Development Education Children // Nairobi: Early Learning Publications, – 2024, – p. 231.

5. Fisher, K. R., Hirsh-Pasek, K., Golinkoff, R. M. The Role of Play in the Development of Young Children's Spatial and Mathematical Thinking // Psychology of Aesthetics, Creativity, and the Arts, – 2013, – Vol. 7(2), – pp. 114–121.

6. Parker, R., Nguyen, T., Gilliard, J., Hasan, A. Learning through Play at School – a Framework for Policy and Practice // Frontiers in Education, – 2022, – p. 7.

7. Smilansky, S. Sociodramatic Play: Its Relevance to Behavior and Learning // New York: Academic Press, – 1990, – p. 154.

8. Whitebread, D. The Importance of Play: A Report on the Value of Children's Play with a Series of Policy Recommendations // Brussels: Toy Industries of Europe, – 2012, – p. 52.

9. Wood, E. Free Choice and Free Play in Early Childhood Education: Troubling the Discourse // International Journal of Early Years Education, – 2014, – Vol. 22, № 1, – pp. 4–18.

## Summary

**Aysel Mammadova**

### The Role Of The Play Method In Preschool Education

This rticle explores the critical role of the play method in preschool education, emphasizing its function not only as a form of entertainment but also as an essential pedagogical tool. Play is widely recognized by educators and child development specialists as a natural and effective means through which young children explore the world around them, acquire foundational knowledge, and develop essential life skills. Rather than being separate from learning, play is deeply integrated into a child's cognitive, emotional, and social growth. Research has shown that educational play supports brain development, enhances problem-solving abilities, and promotes emotional regulation. Through structured and unstructured play activities, children learn to express themselves, interact with peers, and engage in collaborative problem-solving. These experiences contribute to the development of communication, empathy, and self-confidence, all of which are fundamental to school readiness and future academic success. The article reviews various types of educational games used in preschool settings, including role play, construction games, sensory play, and story-based activities. Each type offers unique developmental benefits and aligns with age-appropriate learning objectives. In conclusion, the play method is not merely an optional activity in preschool education but a powerful approach that nurtures the whole child. By embeddingplay into early learning environments, educators can create joyful, engaging, and developmentally appropriate experiences that lay the groundwork for lifelong learning.

***Keywords:*** *preschool education, play method, child development, teaching, pedagogical strategies*

## Резюме

**Айсель Мамедова**

### Роль игрового метода в дошкольном образовании

В данной статье рассматривается важность использования игрового метода в системе дошкольного образования как одного из наиболее эффективных педагогических подходов. Игра признаётся не просто средством досуга, а фундаментальным элементом образовательного процесса, способствующим всестороннему развитию ребёнка. Через игровую деятельность дети познают окружающий мир, учатся выражать свои эмоции, устанавливать социальные связи и решать возникающие перед ними задачи. Игровой метод способствует активизации познавательной деятельности дошкольников, развитию воображения, логического мышления и речевых навыков. В процессе игры дети учатся работать в команде, делиться, соблюдать правила и выражать свои мысли. Всё это формирует у них основы для успешного обучения в будущем. Педагог, выступая в роли организатора и наблюдателя, направляет детскую активность в нужное русло, делая процесс обучения ненавязчивым, но эффективным. В статье анализируются различные видыигр, применяемых в дошкольной практике: сюжетно-ролевые, дидактические, подвижные и творческие игры. Каждая из этих форм имеет свою ценность и способствует определённым аспектам развития ребёнка. В заключение подчёркивается, что игра в дошкольном возрасте это неотъемлемая часть обучения, обеспечивающая эмоционально комфортную, увлекательную и развивающую среду. Грамотное применение игрового метода позволяет формировать у детей базовые навыки, необходимые для дальнейшего образования и жизни в социуме.

***Ключевые слова:*** *дошкольное образование, игровой метод, развитие ребёнка, обучение, педагогические методы*

# AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASININ "SOSİAL ELMLƏR JURNALI"NA TƏQDİM OLUNAN MƏQALƏLƏR ÜÇÜN TƏLƏBLƏR

1. "Sosial Elmlər Jurnalı" orijinal elmi tədqiqatların nəticələrini və elmi yenilikləri təqdim edən, elmi və praktiki əhəmiyyət kəsb edən məqalələri dərc edir.
2. Məqalələr, rəylər və digər materiallar Azərbaycan, rus və ya ingilis dillərində elektron poçt vasitəsilə socialsciences.anas@gmail.com ünvanına təqdim edilə bilər.
3. Məqalə yalnız müvafiq elmi və ya ali təhsil müəssisəsinin şöbəsində (kafedrada) aparılan müzakirələr nəticəsində müsbət qiymətləndirildikdən sonra dərc üçün tövsiyə edilə bilər. Müəllif redaksiyaya Elmi Şuranın iclas protokolundan çıxarış təqdim etməlidir.
4. Redaksiyaya təqdim olunan hər bir məqalə müəllifin ixtisas sahəsi üzrə iki anonim ekspertə rəy üçün göndərilir. Qiymətləndirmə prosesində iki müsbət rəy alan məqalələr dərc üçün qəbul edilir.
5. Məqalənin həcmi 8-12 səhifə olmalıdır (şəkillər, cədvəllər, qrafiklər, əlavələr, ədəbiyyat siyahısı və xülasələr daxil olmaqla). Mətn Times New Roman, 12 punkt, tək sətir aralığı ilə yazılmalıdır.
6. Hər bir məqalədə UOT indeksi və açar sözlər göstərilməlidir. Açar sözlər məqalənin dilində və iki əlavə dildə (xülasələrdə) təqdim edilməli və ən azı beş termindən ibarət olmalıdır.
7. Məqalədə istifadə olunan bütün mənbələr və ədəbiyyat əsas mətndən sonra ayrıca bölmədə "Ədəbiyyat" başlığı altında göstərilməlidir. Mənbələrə istinadlar və biblioqrafik təsvirlər APA (American Psychological Association) beynəlxalq standartına uyğun hazırlanmalıdır. Mənbələrdə müəllifin soyadı, nəşr ili, əsərin adı, nəşriyyat məlumatları və digər zəruri biblioqrafik məlumatlar göstərilməlidir. Elektron resurslara istinad edərkən URL və giriş tarixi göstərilməlidir.
8. Ədəbiyyat siyahısından sonra məqalənin xülasəsi yerləşdirilməlidir. Azərbaycan dilində yazılmış məqalələr üçün xülasələr əvvəlcə ingilis, sonra rus dilində verilməlidir; rus dilində yazılmış məqalələr üçün xülasələr əvvəlcə azərbaycan, sonra ingilis dilində təqdim olunmalıdır. Hər xülasənin əvvəlində məqalənin adı, müəllifin adı və soyadı, müəllifin işlədiyi müəssisə və ölkə göstərilməlidir. Fərqli dillərdəki xülasələr bir-birinə uyğun olmalı və məqalənin məzmununu dəqiq əks etdirməlidir. Xülasədə müəllifin əldə etdiyi elmi nəticələr, işin yeniliyi və praktiki əhəmiyyəti qısa şəkildə göstərilməlidir. Xülasənin həcmi 150-250 söz olmalıdır.

**Məqalənin strukturu:**

- UOT indeksi
- Müəllifin adı və soyadı
- Müəllifin işlədiyi müəssisə, vəzifəsi, elmi dərəcəsi və elmi adı, ölkə, e-mail ünvanı
- Məqalənin başlığı
- Məqalənin dilində açar sözlər
- Məqalənin əsas mətni
- Ədəbiyyat siyahısı
- Orijinal dildən əlavə iki dildə xülasələr və açar sözlər

**Qeydlər:**

- Tələblərə uyğun olmayan və ya ciddi elmi və ya qrammatik səhvlər ehtiva edən məqalələr dərc olunmayacaq.
- Redaksiyaya təqdim olunan əlyazmalar müəlliflərə geri qaytarılmır.
- Redaksiya mətnə redaktə dəyişiklikləri və ixtisarlar etmə hüququnu özündə saxlayır.
- Redaksiya heyəti məqalənin elmi məzmununa, faktların düzgünlüyünə, irəli sürülən arqumentlərə və müəllifin nəticə və şərhlərinə görə məsuliyyət daşımır. Məqalədə ifadə olunan baxışlar və fikirlər yalnız müəllifə məxsusdur və redaksiya heyətinin rəsmi mövqeyini əks etdirmir.

## ТРЕБОВАНИЯ К СТАТЬЯМ, ПРЕДСТАВЛЯЕМЫМ В ЖУРНАЛ «ОБЩЕСТВЕННЫЕ НАУКИ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА»

1. В журнале публикуются статьи, содержащие результаты оригинальных научных исследований, обладающие научной новизной, а также важным научным и практическим значением.
2. Материалы (статьи, рецензии и др.) могут быть представлены на азербайджанском, русском или английском языках посредством электронной почты: socialsciences.anas@gmail.com
3. Статья должна быть рекомендована к печати научным советом научного или высшего учебного учреждения, с положительным отзывом после обсуждения в соответствующем отделе (кафедре). Автор предоставляет редакции выписку из протокола заседания научного совета.
4. Представленная редакции статья направляется двум анонимным экспертам для рецензирования по специальности. При получении двух положительных отзывов статья публикуется.
5. Объем статьи должен составлять 8-12 страниц, включая изображения, таблицы, графики, приложения и список литературы. Текст оформляется шрифтом Times New Roman, размер 12, межстрочный интервал 1.
6. В каждой статье обязательно указываются индекс УДК и ключевые слова. Ключевые слова должны быть на трёх языках (язык статьи и два других языка резюме) и включать не менее пяти слов.
7. Все использованные источники и литература указываются в конце статьи в отдельном разделе «Литература». Внутритекстовые ссылки и библиографические описания оформляются по стандарту APA (American Psychological Association). При оформлении списка литературы указываются: фамилия автора, год издания, название работы, издательские данные и другие необходимые сведения. Для электронных ресурсов указываются URL и дата обращения.
8. После списка литературы размещаются резюме и ключевые слова на двух других языках. Для статей на азербайджанском языке резюме сначала на английском, затем на русском; для статей на русском языке – сначала на азербайджанском, затем на английском. Над каждым резюме указываются: название статьи, имя и фамилия автора, место работы и страна. Резюме должны быть идентичными содержанию статьи и кратко отражать: научные выводы, новизну работы, практическую значимость. Объем резюме – 150-250 слов.

**Структура статьи:**

- УДК индекс статьи
- Имя и фамилия автора
- Место работы, должность, научная степень и звание, страна, e-mail автора
- Название статьи
- Ключевые слова на языке статьи
- Основной текст статьи
- Список литературы
- Два резюме и ключевые слова на двух других языках

**Примечания:**

- Статьи, не соответствующие требованиям или содержащие серьезные научные или грамматические ошибки, не публикуются.
- Рукописи, представленные в редакцию, не возвращаются авторам.
- Редакция оставляет за собой право редакторских изменений и сокращений текста.
- Редакция не несёт ответственности за научное содержание статьи, приведённые факты, выдвигаемые положения, выводы и интерпретации автора. Мнения и позиции, отражённые в статье, принадлежат исключительно автору и не отражают официальную позицию редакции.

## REQUIREMENTS FOR ARTICLES SUBMITTED TO "THE JOURNAL OF SOCIAL SCIENCES OF THE AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES"

1. The Journal of Social Sciences of the Azerbaijan National Academy of Sciences publishes articles of scientific and practical significance that present the results of original research and scientific innovations.
2. Documents (articles, reviews, etc.) may be submitted in Azerbaijani, Russian, or English via e-mail to socialsciences.anas@gmail.com
3. An article may be recommended for publication only after receiving a positive evaluation during discussions at the relevant department (chair) of the scientific or higher education institution. The author must submit to the editorial office an extract from the minutes of the meeting of the Scientific Council.
4. Each article submitted to the editorial office is sent to two anonymous reviewers specializing in the author's research area. Articles that receive two positive reviews during the evaluation process will be accepted for publication.
5. The article must be 8-12 pages in length, including pictures, tables, charts, appendices, references, and summaries. The text must be typed in 12-point Times New Roman font with single line spacing.
6. Each article must include UDC indexes and keywords. Keywords should be provided in the same three languages as the article and its summaries, and must consist of at least five terms.
7. All sources and literature used in the article must be listed at the end of the main text under a separate section titled "References." In-text citations and the bibliographic description of all sources must be formatted in accordance with the requirements of the international APA (American Psychological Association) style. The presentation of sources must include the author's surname, year of publication, title of the work, publishing information, and any other essential bibliographic details. When citing electronic resources, the URL address and the date of access must be provided.
8. The reference list must be followed by the article summary. For articles written in Azerbaijani, the summaries must be provided first in English and then in Russian; for articles written in Russian, the summaries must be presented first in Azerbaijani and then in English. Each summary must begin with the title of the article, the author's name and surname, and the name of the institution and country represented by the author. Summaries in different languages must be identical and accurately reflect the content of the article. The summary should briefly present the scientific conclusions reached by the author(s), as well as the novelty and practical significance of the research. Each summary must contain 150-250 words.

**The article must be structured in the following order:**

- UDC index
- Author's name and surname
- Author's institution, position, academic degree and title, country, and e-mail address
- Article title
- Keywords in the original language of the article
- Main text
- Reference list
- Summaries and keywords in the two additional languages, in addition to the original language of the article

**Notes:**

- Articles that do not meet the requirements or contain significant scientific or grammatical errors will not be published.
- Manuscripts submitted to the editorial office will not be returned to the authors.
- The editorial office reserves the right to make editorial changes and text reductions.
- The editorial board assumes no responsibility for the scientific content of the article, the accuracy of the facts presented, the arguments put forward, or the author's conclusions and interpretations. The views and opinions expressed in the article are solely those of the author and do not represent the official position of the editorial board.

Nəşriyyatın direktoru: *Səbuhi Qəhrəmanov*
Kompüter tərtibçisi: *Rəvanə İlmanqızı*
Bədii tərtibat: *Şəlalə Məmməd*

Formatı 60x84 $^1/_8$
Həcmi 15,25 ç.v.
Tirajı 300

Ünvan: Bakı şəh., İstiqlaliyyət küç. 28